# HEYDƏR ƏLİYEV

## MÜSTƏQİLLİYİMİZ ƏBƏDİDİR

*o n d o q q u z u n c u   k i t a b*

*yanvar, 1999 - aprel, 1999*

**AZƏRNƏŞR**

**BAKI-2006**

**BBK** 66.3(5Aze)8
Ə 65

Buraxılışına məsul

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV HEYDƏR**
**Ə 65 Müstəqilliyimiz əbədidir**. B., Azərnəşr, 2006, 528 səh.

Xalqımızın ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin oxuculara təqdim olunan növbəti bu cildində apardığı danışıqlar, keçirdiyi görüşlər, etdiyi nitq və çıxışlarında müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilib inkişaf etdirilməsinə, respublikamızın sürətli iqtisadi tərəqqisi və yüksəlişi, xalqımızın rifahı naminə dövlət idarəetmə sistemində dövlət nəzarətinin qaydaya salınması və sahibkarlığın inkişafı, istehsal, xidmət, maliyyə, kredit, səhiyyə, təhsil sahəsində aparılan islahatlara həsr olunmuş materiallar toplanmışdır.

Kitabda ulu öndərin Türkiyədə Gülhanə Hərbi Tibb Akademiyasında müayinə və müalicə olunduğu zaman ziyarətinə Türkiyənin dövlət və hökumət rəhbərləri, Böyük Millət Məclisinin elçiləri, Azərbaycandan gələn nümayəndə heyəti və başqaları ilə yüksək səviyyəli görüşləri, söhbətləri, dünyanın nüfuzlu mətbuat orqanlarına bəyanat və müsahibələri də verilmişdir.

Kitabda həmçinin respublikamızın bir qrup elm, mədəniyyət, incəsənət xadimlərinə, ictimai xadimlərə, eyni zamanda, qaçqın və məcburi köçkünlərə, şəhid olmuş qəhrəmanların, döyüşçülərin valideynlərinə, ailə üzvlərinə yüksək dövlət mükafatlarının təqdim edilməsi mərasimlərində çıxışları da öz əksini tapmışdır.

**BBK 66.3(5Aze)8**

$Ə\frac{0801000000}{M-651(07)-2006}$

© **Azərnəşr**, 2006

# KİTABIN İÇİNDƏKİLƏR

**AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİNİN KÜBRA FƏRƏCOVA ADINA ELMİ TƏDQİQAT PEDİATRİYA İNSTİTUTUNUN ƏMƏKDAŞLARINA**
*3 yanvar 1999-cu il*.......... 11

**XALQ ARTİSTİ LEYLA BƏDİRBƏYLİYƏ**
*7 yanvar 1999-cu il*.......... 12

**DÖVLƏT NƏZARƏTİ SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ VƏ SAHİBKARLIĞIN İNKİŞAFI SAHƏSİNDƏ SÜNİ MANEƏLƏRİN ARADAN QALDIRILMASI HAQQINDA**
*7 yanvar 1999-cu il*.......... 13

**BAKIDA QONAQ OLAN TANINMIŞ SİYASƏTÇİ, ABŞ-ın KEÇMİŞ DÖVLƏT KATİBİ HENRİ KİSSİNCER İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*8 yanvar 1999-cu il*.......... 15

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏ ABŞ-ın KEÇMİŞ DÖVLƏT KATİBİ HENRİ KİSSİNCERİN JURNALİSTLƏR ÜÇÜN KEÇİRDİKLƏRİ BİRGƏ BRİFİNQDƏ BƏYANATLARI**
***Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bəyanatı***
***ABŞ-ın görkəmli siyasi xadimiHenri Kissincerin bəyanatı***
*8 yanvar 1999-cu il*.......... 17

**ŞİMALİ OSETİYA-ALANİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALEKSANDR DZASOXOVA**
*9 yanvar 1999-cu il*.......... 19

**MƏHƏRRƏM HƏSƏNOVUN AİLƏSİNƏ**
*13 yanvar 1999-cu il*.......... 20

**GÖRKƏMLİ ALİM VƏ İCTİMAİ XADİM İHSAN DOĞRAMACIYA**
*14 yanvar 1999-cu il*.......... 21

**BMT-nin ÜMUMDÜNYA ƏRZAQ PROQRAMININ ŞƏRQİ AVROPA VƏ MDB ÖLKƏLƏRİ ÜZRƏ ŞÖBƏSİNİN MÜDİRİ CƏNAB ROBERT HAUZERİN RƏHBƏRLİYİLƏ ÖLKƏMİZƏ GƏLMİŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*14 yanvar 1999-cu il*.......... 22

**RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK**
*17 yanvar 1999-cu il* .......... 24

**TÜRKİYƏ RESPUBLİKASI PREZİDENTİNİN DƏVƏTİ İLƏ QISA-MÜDDƏTLİ MÜALİCƏ ÜÇÜN GÜLHANƏ HƏRBİ TİBB AKADEMİYA-SINDA DÖVLƏT BAŞÇILARI SÜLEYMAN DƏMİRƏLİN VƏ HEYDƏR ƏLİYEVİN JURNALİSTLƏR ÜÇÜN KEÇİRİLƏN BİRGƏ BRİFİNQDƏ BƏYANATLARI**
***Türkiyə Respublikasının Prezidenti Süleyman Dəmirəlin bəyanatı***
***Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bəyanatı***
*17 yanvar 1999-cu il*.......... 25

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*18 yanvar 1999-cu il*.......... 26

**TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ HİKMƏT ÇƏTİN İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*18 yanvar 1999-cu il*........................................................................................ 27

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ BÜLƏND ECEVİT İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*18 yanvar 1999-cu il*........................................................................................ 28

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL VƏ XANIMI NƏZMİYYƏ DƏMİRƏL İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*19 yanvar 1999-cu il*........................................................................................ 29

**TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ İSMAYIL CƏM İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*19 yanvar 1999-cu il*........................................................................................ 30

**AzərTAC-ın VƏ AZƏRBAYCAN TELEVİZİYASININ MÜXBİRİNƏ MÜSAHİBƏ**
*19 yanvar 1999-cu il*........................................................................................ 31

**AZƏRBAYCANIN ANS TELEŞİRKƏTİNİN XÜSUSİ MÜXBİRİNƏ MÜSAHİBƏ**
*19 yanvar 1999-cu il*........................................................................................ 33

**TÜRKİYƏNİN «NƏRGİZ-TV» TELEVİZİYASINA MÜSAHİBƏ**
*20 yanvar 1999-cu il*........................................................................................ 36

**RUSİYANIN NTV TELEKANALININ MÜXBİRİNƏ AZƏRBAYCANDA 9-cu İLDÖNÜMÜ QEYD OLUNAN FACİƏ BARƏDƏ MÜSAHİBƏ**
*20 yanvar 1999-cu il*........................................................................................ 38

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL VƏ TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ HİKMƏT ÇƏTİN İLƏ NÖVBƏTİ DƏFƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*21 yanvar 1999-cu il*........................................................................................ 40

**QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN SƏDRİ ŞEYXÜLİSLAM HACI ALLAHŞÜKÜR PAŞAZADƏ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*23 yanvar 1999-cu il*........................................................................................ 41

**TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAHININ SABİQ RƏİSİ, ORDU GENERALI İSMAYIL HAQQI QARADAYI İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*23 yanvar 1999-cu il*........................................................................................ 43

**AZƏRBAYCANIN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*25 yanvar 1999-cu il*........................................................................................ 44

**«MOSKOVSKİ KOMSOMOLETS» QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ**
*28 yanvar 1999-cu il*........................................................................................ 47

**TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ, TÜRKİYƏNİN AZƏRBAYCANDAKI KEÇMİŞ SƏFİRİ OSMAN FARUQ LOĞOĞLU İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*28 yanvar 1999-cu il*........................................................................................ 49

**TÜRKİYƏNİN KEÇMİŞ BAŞ NAZİRİ, MİLLƏT VƏKİLİ MƏSUD YILMAZLA GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*29 yanvar 1999-cu il*........................................................................................ 50

GÜLHANƏ TİBB AKADEMİYASINDA MÜALİCƏ BAŞA ÇATDIQDAN SONRA AKADEMİYANIN KOMANDANI, TİBB XİDMƏTİ GENERAL-LEYTENANTI, PROFESSOR ÇƏTİN HARMANKAYA İLƏ GÖRÜŞDƏKİ SÖHBƏT
*29 yanvar 1999-cu il*.......... 51

GÜLHANƏ TİBB AKADEMİYASINI TƏRK ETDİKDƏN SONRA TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ GÖRÜŞDƏKİ SÖHBƏT
*29 yanvar 1999-cu il*.......... 53

RESPUBLİKA İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ
*30 yanvar 1999-cu il*.......... 55

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SÜLEYMAN DƏMİRƏLƏ
*1 fevral 1999-cu il*.......... 60

AZƏRBAYCAN RESPUBLİKASI TƏHLÜKƏSİZLİK ŞURASININ İCLASINDA ÇIXIŞ
*1 fevral 1999-cu il*.......... 61

GÜRCÜSTAN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB EDUARD ŞEVARDNADZEYƏ
*3 fevral 1999-cu il*.......... 62

XALQ YAZIÇISI RÜSTƏM İBRAHİMBƏYOVA
*4 fevral 1999-cu il*.......... 63

XALQ YAZIÇISI, MƏŞHUR KİNO XADİMİ RÜSTƏM İBRAHİMBƏYOVUN 60 İLLİYİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ ÇIXIŞ
*5 fevral 1999-cu il*.......... 64

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YİLYAM C.KLİNTONA
*8 fevral 1999-cu il*.......... 67

İRANIN MİLLİ BAYRAMI – İRAN İSLAM RESPUBLİKASININ 20-ci İLDÖ-NÜMÜ MÜNASİBƏTİLƏ İRAN İSLAM RESPUBLİKASININ BAKI-DAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ
*9 fevral 1999-cu il*.......... 69

NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 75 İLLİK YUBİLEYİ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ İCLASINDA GİRİŞ SÖZÜ
*9 fevral 1999-cu il*.......... 71
YEKUN NİTQİ
*9 fevral 1999-cu il*.......... 72

ÖZBƏKİSTANIN AZƏRBAYCANDAKI SƏFİRİ ƏBDÜQAFUR ƏBDÜRƏHMANOVLA GÖRÜŞDƏ SÖHBƏT
*13 fevral 1999-cu il*.......... 75

RUS PRAVOSLAV KİLSƏSİ BAKI-XƏZƏRYANI YEPARXİYASININ BAŞÇISI YEPİSKOP ALEKSANDR İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*15 fevral 1999-cu il*.......... 77

«KİTABİ-DƏDƏ QORQUD» DASTANININ 1300 İLLİK YUBİLEYİ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ İCLASINDA GİRİŞ SÖZÜ

*16 fevral 1999-cu il*................................................................................................ **80**
**YEKUN NİTQİ**
*16 fevral 1999-cu il*................................................................................................ **80**

**BÖYÜK BRİTANİYANIN «REMKO» ŞİRKƏTİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*16 fevral 1999-cu il*................................................................................................ **84**

**ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İSLAM KƏRİMOVA**
*17 fevral 1999-cu il*................................................................................................ **86**

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB BORİS YELTSİNƏ**
*17 fevral 1999-cu il*................................................................................................ **87**

**TÜRKİYƏNİN «MƏRMƏRƏ QRUPU» STRATEJİ VƏ SOSİAL ARAŞDIR-MALAR VAKFININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*17 fevral 1999-cu il*................................................................................................ **88**

**XALQ ARTİSTİ SÜLEYMAN ƏLƏSGƏROVA**
*21 fevral 1999-cu il*................................................................................................ **92**

**ABŞ PREZİDENTİ BİLL KLİNTONUN XƏZƏRYANI BÖLGƏ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ SƏFİR RİÇARD MORNİNQSTARLA GÖRÜŞDƏ SÖHBƏT**
*22 fevral 1999-cu il*................................................................................................ **93**

**«ŞEVRON OVERSİZ PETROLEUM İNK» ŞİRKƏTİNİN PREZİDENTİ RİÇARD MATSKE İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*22 fevral 1999-cu il*................................................................................................ **95**

**XOCALININ ERMƏNİ İŞĞALÇILARINDAN MÜDAFİƏSİNDƏ İŞTİRAK ETMİŞ, ŞƏHİD OLMUŞ MİLLİ QƏHRƏMANLARIN, DÖYÜŞÇÜLƏRİN VALİDEYNLƏRİNƏ, AİLƏ ÜZVLƏRİNƏ VƏ FƏRQLƏNƏNLƏRƏ «QIZIL ULDUZ» MEDALLARI, «AZƏRBAYCAN BAYRAĞI» ORDENLƏRİ TƏQDİMETMƏ MƏRASİMİNDƏ GİRİŞ SÖZÜ**
*26 fevral 1999-cu il*................................................................................................ **96**
**YEKUN NİTQİ**
*26 fevral 1999-cu il*................................................................................................ **96**

**İSVEÇRƏ KONFEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ XANIM RUF DREYFUSA**
*26 fevral 1999-cu il*................................................................................................ **98**

**AVSTRİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB TOMAS KLESTİLƏ**
*26 fevral 1999-cu il*................................................................................................ **99**

**XALQ RƏSSAMI OQTAY SADIQZADƏYƏ**
*27 fevral 1999-cu il*................................................................................................ **100**

**AZƏRBAYCAN DÖVLƏT NEFT SƏNAYESİ ELMİ TƏDQİQAT VƏ LAYİHƏ İNSTİTUTUNUN ƏMƏKDAŞLARINA**
*2 mart 1999-cu il*................................................................................................ **101**

**AZƏRBAYCAN GƏNCLƏRİNİN II FORUMUNDA FASİLƏ ZAMANI JURNALİSTLƏRİN SUALLARINA CAVAB**
*2 mart 1999-cu il*................................................................................................ **102**

AZƏRBAYCAN GƏNCLƏRİNİN II FORUMUNDA NİTQ
*3 mart 1999-cu il*........................................................................................................ 103

GÖRKƏMLİ QAZAX YAZIÇISI, QAZAXISTANIN İTALİYA VƏ YUNANISTANDAKI SƏFİRİ OLJAS SÜLEYMENOVLA GÖRÜŞDƏKİ SÖHBƏT
*4 mart 1999-cu il*........................................................................................................ 108

MDB-nin İCRAÇI KATİBİ BORİS BEREZOVSKİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏT
*5 mart 1999-cu il*........................................................................................................ 111

BAKI BEYNƏLXALQ HAVA LİMANININ AEROVAĞZAL KOMPLEKSİNDƏ TİKİNTİNİN GEDİŞİ İLƏ TANIŞ OLDUQDAN SONRA TOPLAŞANLAR QARŞISINDA ÇIXIŞ
*6 mart 1999-cu il*........................................................................................................ 114

BEYNƏLXALQ QADINLAR GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ GECƏDƏ NİTQ
*6 mart 1999-cu il*........................................................................................................ 116

AZƏRBAYCAN RESPUBLİKASININ ELM, MƏDƏNİYYƏT, İNCƏSƏNƏT XADİMLƏRİNƏ, İCTİMAİ XADİMLƏRƏ AZƏRBAYCAN DÖVLƏTİNİN YÜKSƏK MÜKAFATLARININ – ORDENLƏRİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ
*7 mart 1999-cu il*........................................................................................................ 118

AZƏRBAYCANDA KEÇİRİLƏN DAĞISTAN MƏDƏNİYYƏT GÜNLƏRİNDƏ DAĞISTAN İNCƏSƏNƏT USTALARININ KONSERTİNƏ BAXDIQDAN SONRA YARADICI KOLLEKTİVLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*12 mart 1999-cu il*...................................................................................................... 124

XALQ RƏSSAMI OQTAY SADIQZADƏ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*13 mart 1999-cu il*...................................................................................................... 126

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB SÜLEYMAN DƏMİRƏLƏ
*14 mart 1999-cu il*...................................................................................................... 127

AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT İDARƏETMƏ SİSTEMİNDƏ İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ ÜZRƏ BEYNƏLXALQ KONFRANSDA NİTQ
*16 mart 1999-cu il*...................................................................................................... 128

AZƏRBAYCAN RESPUBLİKASINDA TƏHSİL SAHƏSİNDƏ İSLAHATLAR ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ İCLASINDA GİRİŞ SÖZÜ
*17 mart 1999-cu il*...................................................................................................... 131
YEKUN NİTQİ
*17 mart 1999-cu il*...................................................................................................... 131

BİR QRUP HƏRBİ QULLUQÇUYA VƏ ONLARIN AİLƏ ÜZVLƏRİNƏ YÜKSƏK DÖVLƏT MÜKAFATLARININ TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ
*17 mart 1999-cu il*...................................................................................................... 135

BİLƏSUVAR RAYONUNDA MƏSKUNLAŞMIŞ QAÇQINLAR VƏ MƏCBURİ KÖÇKÜNLƏRLƏ GÖRÜŞDƏ ÇIXIŞ
*19 mart 1999-cu il*...................................................................................................... 139
MƏRASİM İŞTİRAKÇILARI QARŞISINDA ÇIXIŞ

*19 mart 1999-cu il*........................................................................................................ **141**

**HƏCC ZİYARƏTİNƏ GEDƏN BİR QRUP ZƏVVARLARLA GÖRÜŞDƏKİ SÖHBƏTDƏN**
*20 mart 1999-cu il*........................................................................................................ **143**

**NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK**
*20 mart 1999-cu il*........................................................................................................ **146**

**BAKI ƏYLƏNCƏ MƏRKƏZİNDƏ KİMSƏSİZ VƏ ŞƏHİD AİLƏLƏRİNDƏN OLAN UŞAQLAR ÜÇÜN KEÇİRİLMİŞ NOVRUZ BAYRAMINDA NİTQ**
*20 mart 1999-cu il*........................................................................................................ **147**

**BAKININ GƏNCLƏR MEYDANINDA, QOŞA QALA QAPISI ÖNÜNDƏ NOVRUZ BAYRAMI ŞƏNLİYİNDƏ ÇIXIŞ**
*21 mart 1999-cu il*........................................................................................................ **148**

**SUMQAYITDA EP-300 İSTEHSALATINDA BUXAR-GENERATOR QURĞUSUNUN ÖZÜLÜNÜN QOYULMASI MƏRASİMİNDƏ**
*24 mart 1999-cu il*........................................................................................................ **149**

**TÜRKDİLLİ DÖVLƏTLƏRİN TƏHLÜKƏSİZLİK XİDMƏTLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*26 mart 1999-cu il*........................................................................................................ **151**

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ SENATORU ZATİ-ALİLƏRİ CƏNAB SEM VRAUNBEKƏ**
*27 mart 1999-cu il*........................................................................................................ **154**

**AZƏRBAYCAN MİLLİ TƏHLÜKƏSİZLİK ORQANLARI YARADILMASININ 80 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY MƏRASİMİNDƏ NİTQ**
*27 mart 1999-cu il*........................................................................................................ **155**

**BAKININ BİBİHEYBƏT ZİYARƏTGAHINDA QURBAN BAYRAMI MƏRASİMİNDƏ ÇIXIŞ**
*28 mart 1999-cu il*........................................................................................................ **159**

**RUSİYA PAYTAXTI MOSKVA ŞƏHƏRİNİN MERİ YURİ LUJKOV BAŞDA OLMAQLA MOSKVA HÖKUMƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT**
*29 mart 1999-cu il*........................................................................................................ **162**

**31 MART – AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT**
*30 mart 1999-cu il*........................................................................................................ **167**

**AZƏRBAYCAN BEYNƏLXALQ ƏMƏLİYYAT ŞİRKƏTİNİN SABİQ PREZİDENTİ TERRİ ADAMSA «ŞÖHRƏT» ORDENİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ**
*31 mart 1999-cu il*........................................................................................................ **168**

**MDB ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN MOSKVAYA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA CAVAB**
*1 aprel 1999-cu il*........................................................................................................ **170**

GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZE İLƏ TƏKBƏTƏK GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*2 aprel 1999-cu il*........................................................................................ 171

RUSİYA FEDERASİYASININ BAŞ NAZİRİ YEVGENİ PRİMAKOVLA TƏKBƏTƏK GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*3 aprel 1999-cu il*........................................................................................ 173

MOSKVADA MDB ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏN BAKIYA QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA CAVAB
*3 aprel 1999-cu il*........................................................................................ 174

TÜRKİYƏNİN TRT-1 TELEVİZİYA KANALININ «DÜNYA DÜŞÜNCƏLƏRİ ATATÜRKÜN GÖZÜ İLƏ» VERİLİŞİNDƏ MÜSAHİBƏ
*6 aprel 1999-cu il*........................................................................................ 175

GÜRCÜSTANIN AZƏRBAYCAN RESPUBLİKASINDAKI SƏFİRİ ZURAB QUMBARİDZE İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*7 aprel 1999-cu il*........................................................................................ 180

GÜRCÜSTAN JURNALİSTLƏRİ – GÜRCÜSTAN TELEVİZİYASININ BİRİNCİ KANALINDAN GEORGİ KVİTAŞVİLİNİN, «SAKARTVELOS RESPUBLİKA» QƏZETİNDƏN ALEKO ASLANİŞVİLİNİN VƏ «GÜRCÜSTAN» (AZƏRBAYCAN DİLİNDƏ) QƏZETİNDƏN İSLAM ƏLİYEVİN SUALLARINA CAVAB
*7 aprel 1999-cu il*........................................................................................ 182

«KİTABİ-DƏDƏ QORQUD» DASTANININ 1300 İLLİK YUBİLEYİ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ NÖVBƏTİ İCLASINDA GİRİŞ SÖZÜ
*8 aprel 1999-cu il*........................................................................................ 184
YEKUN NİTQİ
*8 aprel 1999-cu il*........................................................................................ 184

İTALİYA RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ NİTQ
*9 aprel 1999-cu il*........................................................................................ 188

İTALİYA RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ, SENATOR VALENTİNO MARTELLİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*9 aprel 1999-cu il*........................................................................................ 190

AZƏRBAYCAN BEYNƏLXALQ ƏMƏLİYYAT ŞİRKƏTİNİN (ABƏŞ-in) PREZİDENTİ DEVİD VUDVORD VƏ ŞİRKƏTİN DİGƏR RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN
*9 aprel 1999-cu il*........................................................................................ 191

AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI İLƏ AZƏRBAYCAN ARASINDA TƏHLÜKƏSİZLİYƏ DAİR DİALOQUN NÖVBƏTİ MƏRHƏLƏSİNDƏ İŞTİRAK EDƏN ABŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT
*10 aprel 1999-cu il*...................................................................................... 192

PASXA BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİANLARINA TƏBRİK
*10 aprel 1999-cu il*...................................................................................... 194

YƏHUDİ XALQININ MÜSİBƏTİ GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCANIN YƏHUDİ İCMASINA MÜRACİƏT

*12 aprel 1999-cu il*............................................................................................................ 195

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ SENATORU ZATİ-ALİLƏRİ CƏNAB SEM BRAUNBƏKƏ**
*13 aprel 1999-cu il*............................................................................................................ 196

**QEYDLƏR**............................................................................................................ 197

**ŞƏXSİ ADLAR GÖSTƏRİCİSİ**.................................................................................. 221

**COĞRAFİ ADLAR GÖSTƏRİCİSİ**............................................................................ 225

**AZƏRBAYCAN RESPUBLİKASI
SƏHİYYƏ NAZİRLİYİNİN
KÜBRA FƏRƏCOVA ADINA
ELMİ TƏDQİQAT PEDİATRİYA
İNSTİTUTUNUN ƏMƏKDAŞLARINA**

Sizi – Kübra Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutunun əməkdaşlarını institutunuzun yaradılmasının 70 illiyi münasibətilə səmim-qəlbdən təbrik edirəm.

Respublikanın tanınmış elm və müalicə mərkəzlərindən hesab olunan Pediatriya İnstitutunun bütün fəaliyyəti ən nəcib bir işə – xalqın ümidi və gələcəyi olan uşaqların sağlamlığının qorunmasına həsr olunmuşdur. İnstitut uşaqların sağlamlığı ilə bağlı dərin elmi araşdırmalar aparmaqla yanaşı, analıq və körpəliyin mühafizəsi müəssisələrinin təşkilində və bu müəssisələr üçün kadrların hazırlanmasında respublikanın səhiyyə orqanlarına yaxından əməli kömək göstərmişdir.

Azərbaycanda bir çox ağır uşaq xəstəliklərinin kökünün kəsilməsi, qarşısının alınması və xəstəlik baş verən kimi ona qarşı vaxtında qəti tədbirlərin görülməsində institutunuzun xidmətləri çox böyükdür. Məhz bu tədbirlərin, o cümlədən hamılıqla immunizasiya işinin ardıcıl həyata keçirilməsi sayəsində son illərdə respublikada təhlükəli həddə çatmış difteriya və malyariya xəstəliklərinin yayılması dayandırılmışdır. Azərbaycan səhiyyə tarixində ilk dəfə olaraq 1996-cı ildə uşaqlarda ağır ifliclər və ölümlə nəticələnən polismielit xəstəliyinin kökü kəsilmişdir.

Müstəqil demokratik, hüquqi dövlət quruculuğu yolu ilə inamla irəliləyən Azərbaycan keçid dövrünün xüsusiyyətlərindən doğan bəzi sosial-iqtisadi problemlərlə yanaşı, Ermə[5-6]nistanın ölkəmizə qarşı hərbi təcavüzü nəticəsində meydana çıxmış bir çox çətinliklərlə üzləşmişdir. Müharibə nəticəsində qaçqın və məcburi köçkün vəziyyətinə düşərək çadırlarda ağır şəraitdə yaşamağa məcbur olmuş bir milyondan çox Azərbaycan vətəndaşının, o cümlədən dörd yüz min uşağın qismətinə düşmüş tale bu günümüzün gerçəkliyidir. Onların digər problemləri ilə yanaşı, sağlamlıq məsələlərinin həlli də qarşımızda duran aktual vəzifələrdəndir. Bu mühüm vəzifənin həyata keçirilməsinin əsas ağırlığı isə səhiyyə işçilərinin, o cümlədən pediatrların üzərinə düşür. İnanıram ki, keçid dövrünün bütün çətinliklərinə baxmayaraq, fədakar əməyiniz sayəsində olduqca vacib olan bu işin öhdəsindən ləyaqətlə gələcəksiniz.

Əmin olduğumu bildirirəm ki, zəngin ənənələri olan Pediatriya İnstitutu müstəqil Azərbaycan dövlətinin qarşısında duran böyük vəzifələrin yerinə yetirilməsinə qadir olan, sağlam gənc nəslin yetişdirilməsi yolunda əlindən gələni bundan sonra da əsirgəməyəcəkdir.

Uşaq sağlamlığının qorunması kimi məsuliyyətli və nəcib bir işə yönəldilmiş fəaliyyətinizdə sizə yeni böyük uğurlar, hamınıza cansağlığı və xoşbəxtlik arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *3 yanvar 1999-cu il*
[6]

## XALQ ARTİSTİ LEYLA BƏDİRBƏYLİYƏ

Hörmətli Leyla Bədirbəyli!

Sizi – Azərbaycan teatrının və kinosunun görkəmli nümayəndəsini anadan olma gününüz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Siz Azərbaycan mədəniyyətində özünəməxsus yer tutan təkrarolunmaz sənətkarlardansınız. Hələ gənc yaşlarınızda yaratdığınız rəngarəng, maraqlı və yaddaqalan obrazlar sizə ölkəmizdə böyük şöhrət gətirmişdir. Təbiətin bəxş etdiyi yüksək insani keyfiyyətlər, fitri istedad, gözəl nitq mədəniyyəti ilə yanaşı, aktyor sənətinin incəliklərinə bələd olmağınız sayəsində siz öz gözəlliyi, mərdliyi, sədaqəti və əməksevərliyi ilə səciyyələnən Azərbaycan qadınının canlı təcəssümü kimi teatr tariximizdə silinməz iz qoymusunuz. Azərbaycan dramaturgiyasının və dünya klassiklərinin şah əsərlərinin qəhrəmanlarına səhnə həyatı verməklə öz adınızı mədəniyyət tariximizə qızıl hərflərlə yazmısınız.

Azərbaycan kino sənətinin inkişafındakı xidmətləriniz də böyükdür. 1942-ci ildən bəri kino ekranlarında canlandırdığınız aparıcı qadın obrazları öz dolğunluğu, fikir dərinliyi və böyük tərbiyəvi əhəmiyyəti baxımından xalqımızın bütöv bir nəslinin yüksək milli-mənəvi dəyərlər ruhunda yetişməsində mühüm rol oynamışdır. Baş rollarda çəkildiyiniz filmlər Azərbaycan kinematoqrafiyasını daha da zənginləşdirmiş və onun şöhrətini ölkəmizin hüdudlarından kənara da yaymışdır.

Azərbaycanın teatr və kino sənəti qarşısındakı xidmətləriniz həmişə yüksək qiymətləndirilmişdir. Siz Dövlət mükafatlarına layiq görülmüş, müxtəlif orden və medallarla təltif [6-7] olunmusunuz. Ən böyük mükafatınız isə teatr həvəskarlarının, bütün xalqımızın sizə bəslədiyi dərin hörmət və məhəbbət duyğularıdır. Xalqına və Vətəninə sonsuz sədaqətlə xidmət göstərən bir sənətkar kimi sizin bununla fəxr etməyə tam haqqınız vardır. İnanıram ki, teatra vurğunluq və böyük zəhmətsevərliklə keçən zəngin və mənalı yaradıcılıq yolunuz bundan sonra da neçə-neçə yeni aktyorlar nəsli üçün əsl örnək olacaqdır.

Sizə cansağlığı, xoşbəxtlik və uğurlar arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *7 yanvar 1999-cu il*

[8]

## DÖVLƏT NƏZARƏTİ SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ VƏ SAHİBKARLIĞIN İNKİŞAFI SAHƏSİNDƏ SÜNİ MANEƏLƏRİN ARADAN QALDIRILMASI HAQQINDA

Yoxlama və nəzarət funksiyalarını həyata keçirən dövlət orqanlarının fəaliyyəti ilə əlaqədar daxil olan çoxsaylı şikayət və müraciətlər nəzərə alınaraq «İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 17 iyun tarixli 463 nömrəli Fərmanında bu orqanlar tərəfindən yol verilən sui-istifadə hallarının qarşısının alınması, vətəndaşların və hüquqi şəxslərin qanuni hüquq və mənafelərinin təmin olunması üçün bir sıra tədbirlər nəzərdə tutulmuşdur. Bu Fərmanın icrası nəticəsində iqtisadi sahədə bir-birini təkrarlayan, paralel və lüzumsuz yoxlamaların sayı azalmış, bazar iqtisadiyyatının inkişafına mənfi təsir göstərən bir sıra halların qarşısı alınmış, vətəndaşların və hüquqi şəxslərin qanuni mənafelərinin qorunması məqsədi ilə müəyyən tədbirlər həyata keçirilmişdir.

Lakin ölkənin iqtisadiyyatı keçid dövründə olduğu bir zamanda dövlət orqanları tərəfindən yoxlama və nəzarət funksiyalarının həyata keçirilmə mexanizminin müasir tələblərə uyğun təkmilləşdirilməsi prosesi başa çatmadığına görə yuxarıda qeyd olunan Fərmanın icrası hələ də tam təmin olunmamışdır. Bu da onu göstərir ki, istehsal, xidmət, maliyyə-kredit sahəsində əsassız yoxlamaların qadağan edilməsinə baxmayaraq, ölkədə sahibkarlığın inkişafı üçün hüquqi bazanın yaradılması və müvafiq bazar infrastrukturlarının təşəkkül tapması ilə yanaşı, yerli və xarici iş adamlarının fəa[9-10]liyyətinə bəzi dövlət orqanları tərəfindən əsassız müdaxilə hallarına son qoyulmamışdır.

Ayrı-ayrı dövlət orqanları tərəfindən iqtisadi sahəyə əsassız müdaxilələr narahatçılıq doğurur. Həmin dövlət orqanlarının bəzi işçiləri öz qanunsuz hərəkətləri ilə dövlətin nüfuzuna xələl gətirir və bir çox hallarda öz hüquqlarından şəxsi mənafeləri üçün istifadə edirlər.

Hüquq-mühafizə orqanları yerli və xarici iş adamlarının istehsal, xidmət və maliyyə-kredit fəaliyyətində apardıqları yoxlamaları bəzi hallarda uzun-uzadı təhqiqat və istintaq hərəkətləri pərdəsi altında həyata keçirirlər və sahibkarlığın müxtəlif sahələrinə lüzumsuz müdaxilə edirlər. Yoxlama və təftiş funksiyalarını həyata keçirən müvafiq mərkəzi icra hakimiyyəti orqanları əsassız yoxlamalar aparmaqda davam edir, sahibkarların fəaliyyətinə zərurət olmadan müdaxilə edərək onlar üçün müxtəlif süni maneələr törədir, eyni zamanda qanun pozuntuları faktlarının hamısını və tam aşkar etmirlər. Daxil olan məlumatlara əsasən yoxlamalar zamanı həmin orqanların işçiləri ayrı-ayrı hallarda vəzifədən sui-istifadə etmə və rüşvətxorluq hallarına yol verirlər.

Hüquqi şəxslərin qeydiyyatı və lisenziyalaşdırma sahəsində də süni maneələr mövcuddur. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin qeydiyyatı və lisenziyalaşdırma sahəsində süründürməçilik, qanunsuz imtinalara və sui-istifadəyə yol verilir.

Qeyd olunanları nəzərə alaraq və dövlət nəzarəti sisteminin təkmilləşdirilməsi, sahibkarlığın inkişafı, yerli və xarici iş adamlarının fəaliyyətinə əsassız müdaxilələrin qarşısının alınması, korrupsiya, rüşvətxorluq və digər vəzifədən sui-istifadə halları ilə mübarizənin gücləndirilməsi məqsədi ilə qərara alıram:

1. Azərbaycan Respublikasında bazar iqtisadiyyatı prinsiplərinin təşəkkülü və sahibkarlığın inkişaf etdirilməsi dövlətin iqtisadi siyasətinin əsas istiqaməti olduğunu nəzərə alaraq [10-11] və «istehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 17 iyun tarixli 463 nömrəli fərmanının tam yerinə yetirilməsini təmin etmək məqsədi ilə bütün mərkəzi və yerli icra hakimiyyəti, o cümlədən hüquq mühafizə orqanlarına tapşırılsın ki, iş adamlarının iqtisadi fəaliyyətinə əsassız müdaxilə hallarına son qoyulmasını və sahibkarlıq fəaliyyətinin genişləndirilməsi üçün əlverişli mühit yaradılmasını təmin etsinlər.

2. Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, dövlət nəzarəti sisteminin bazar iqtisadiyyatının tələblərinə uyğun təşkili haqqında iki ay ərzində Azərbaycan Respublikasının Prezidentinə müvafiq təklifləri təqdim etsinlər.

3. Azərbaycan Respublikasının Baş prokurorundan, Azərbaycan Respublikasının daxili işlər nazirindən, Azərbaycan Respublikasının milli təhlükəsizlik nazirindən tələb edilsin ki, onların başçılıq etdiyi orqanlar tərəfindən sahibkarlıq sahəsində iş adamları üçün süni maneələrin yaradılmasına son qoyulsun, yerli və xarici iş adamlarının iqtisadi fəaliyyəti ilə bağlı əsassız cinayət işlərinin başlanması hallarına yol verilməsin.

4. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin qeydiyyatını aparan və lisenziyalaşdırma ilə məşğul olan müvafiq icra hakimiyyəti orqanlarından tələb edilsin ki, bu orqanların bəzi vəzifəli şəxsləri tərəfindən vəzifədən sui-istifadə hallarına son qoyulsun.

5. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, sahibkarlıq fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin qeydiyyatı zamanı süründürməçiliyin aradan qaldırılması, sahibkarlar qarşısında qanuna

zidd tələblərin irəli sürülməsi və qeydiyyatdan qanunsuz imtina hallarının aradan götürülməsini təmin etsin və bir ay ərzində Azərbaycan Respublikasının Prezidentinə müvafiq məlumat təqdim etsin. [11-12]

6. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, lisenziyalaşdırma ilə məşğul olan mərkəzi icra hakimiyyəti orqanlarının bu sahədəki fəaliyyətlərini iki ay ərzində təhlil etsin, nöqsanların aradan qaldırılmasını təmin etsin və Azərbaycan Respublikasının Prezidentinə müvafiq məlumat təqdim etsin.

7. «İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə» Azərbaycan Respublikası Prezidentinin 1996-cı il 17 iyun tarixli 463 nömrəli fərmanına müvafiq olaraq, müəssisə, idarə və təşkilatların maliyyə-təsərrüfat fəaliyyətinin təftiş edilməsi barədə hüquq mühafizə orqanlarından icra olunmaq üçün Azərbaycan Respublikasının Milli Bankına, Maliyyə Nazirliyinə, Baş Dövlət Vergi Müfəttişliyinə göndərilən qərarlarda təftiş aparılması konkret faktlarla əsaslandırılsın.

8. Azərbaycan Respublikasının nazirlik, komitə və başqa mərkəzi icra hakimiyyəti orqanlarında mövcud olan nəzarət-təftiş qurumları ləğv olunsun. Azərbaycan Respublikasının Nazirlər Kabineti həmin orqanlarda göstərilən sahə ilə əlaqəli olan digər qurumların ləğv edilməsini bir ay müddətində təmin etsin və Azərbaycan Respublikasının Prezidentinə bu haqda müvafiq məlumat təqdim etsin.

9. İqtisadi sahədə hüquq mühafizə orqanlarının fəaliyyəti yalnız cinayət işlərinin istintaqı ilə məhdudlaşsın və yoxlamalarla məşğul olan müvafiq qurumlar ləğv edilsin.

10. Dövlət büdcəsindən maliyyələşdirilən nazirlik, idarə və təşkilatların maliyyə-təsərrüfat fəaliyyətinin yoxlanmasına, habelə büdcə vəsaitlərinin təyinatı üzrə istifadə olunmasına nəzarət qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən həyata keçirilsin.

11. Azərbaycan Respublikasının Baş Dövlət Vergi Müfəttişliyinə tapşırılsın ki, qanunvericiliklə onun səlahiyyətlərinə aid edilməyən yoxlamaların aparılmasına yol verməsin.

12. Azərbaycan Respublikasının Milli Bankı bank sektorunda aparılan yoxlamaların və təftişlərin «Azərbaycan Respublikasının banklar və bank fəaliyyəti haqqında» Azərbaycan Respublikası Qanununa uyğunluğunu təhlil etsin və bir ay ərzində Azərbaycan Respublikasının Prezidentinə müvafiq məlumat təqdim etsin. [12-13]

13. Mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə və təşkilatlarda keçirilən yoxlamaların və təftişlərin uçotunun aparılması məqsədi ilə «Nəzarət kitabçası» tətbiq edilsin. Azərbaycan Respublikasının Nazirlər Kabineti «Nəzarət kitabçası» haqqında əsasnaməni bir ay ərzində təsdiq etsin.

14. Bu Fərmanda adları çəkilən dövlət orqanlarının rəhbərləri sahibkarlıq sahəsində vəzifədən sui-istifadə hallarına və digər qanun pozuntularına yol verən həmin orqanların əməkdaşlarının Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyətə cəlb olunmalarına dair tədbirlər görsünlər.

15. Azərbaycan Respublikası Prezidentinin yanında hüquq islahat komissiyasının işçi qrupuna tapşırılsın ki, iki ay müddətində bu Fərmandan irəli gələn tədbirlərin həyata keçirilməsi üçün mövcud qanunvericiliyə dəyişikliklərin edilməsi barədə qanun layihələrini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

16. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *7 yanvar 1999-cu il*
[13]

## BAKIDA QONAQ OLAN TANINMIŞ SİYASƏTÇİ, ABŞ-ın KEÇMİŞ DÖVLƏT KATİBİ HENRİ KİSSİNCER İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*8 yanvar 1999-cu il*

**H e y d ə r Ə l i y e v**: Hörmətli cənab Kissincer, hörmətli qonaqlar. Mən sizi səmimi qəlbdən salamlayıram. Cənab Kissincer, mənim dəvətimi qəbul edib Azərbaycana səfər etdiyinizə görə sizə təşəkkür edirəm. Amerika Birləşmiş Ştatlarında mənim sizinlə görüşlərim olmuşdur. İlk dəfə 1995-ci ildə Nyu-Yorkda, İkinci dünya müharibəsində qələbə ilə əlaqədar və Birləşmiş Millətlər Təşkilatının 50 illiyi ilə əlaqədar sizinlə görüşdük. 1997-ci ilin iyul ayında mən sizin ölkədə rəsmi səfərdə olduğum zaman Nyu-Yorkda sizinlə görüşüb çox ətraflı söhbət etdik. Bu görüşlər zamanı mən sizi Azərbaycana dəvət etdim. Məmnunam ki, mənim bu dəvətim, nəhayət, həyata keçirilir. Güman edirəm ki, qısa bir zamanda siz Azərbaycanla tanış ola bildiniz. Əlbəttə, biz arzu edərdik ki, siz Azərbaycanda daha da çox olasınız. Ancaq bilirəm ki, sizin cədvəliniz nə qədər gərgindir. Ona görə, ilk səfər olduğu üçün mən buna da razıyam.

Sizi Azərbaycanda yaxşı tanıyırlar. Güman edirəm ki, bugünkü görüşləriniz zamanı bunu hiss etmisiniz. Amma sizi təkcə Azərbaycanda yox, bütün dünyada, hər yerdə yaxşı tanıyırlar. Çünki siz 70-ci illərin əvvəllərindən Amerika Birləşmiş Ştatlarının dövlətində böyük vəzifə tutaraq, eyni zamanda dünya siyasətində çox görkəmli yer tutmusunuz. Sevindi[14-15]rici haldır ki, o vaxtdan indiyə qədər siyasət səhnəsindən düşməmisiniz. O illər mənim xatirimdədir. Xüsusən Sovet İttifaqı ilə Amerika Birləşmiş Ştatları arasında tərksilahla əlaqədar danışıqlar gedən zaman Kissincerin adı, demək olar ki, hər gün Sovetlər İttifaqının televiziyasında, radiosunda, qəzetlərində çəkilirdi. Amma təkcə ona görə tanınmırdınız ki, sizin adınız hər gün qəzetlərdə, yaxud radioda, televiziyada çəkilirdi. Ona görə ki, siz çox böyük siyasi proseslərin iştirakçısı və bəzi işlərin də təşəbbüskarı idiniz. Siz həm siyasətdə çox işlər görmüsünüz, həm də çox böyük əsərlər yazmısınız. Yazdığınız əsərlər, xüsusən siyasətə aid əsərlər sizin fəaliyyətinizi dünyada daha da çox tanıdıb və təbliğ edibdir.

Bilirsiniz ki, Azərbaycan Amerika Birləşmiş Ştatları ilə dostluq, əməkdaşlıq, tərəfdaşlıq əlaqələri qurur və biz bu istiqamətdə öz işimizi davam etdiririk. Bu baxımdan şübhəsiz ki, sizinlə bizim görüşlərimiz, danışıqlarımız, məsələləri müzakirə etməyimiz və sizinlə şəxsi əlaqələrimiz, hesab edirəm ki, ümumi işimizə çox kömək etməlidir. Mən sizi bir də salamlayıram.

**H e n r i K i s s i n c e r**: Cənab prezident, bugünkü görüş üçün çox sağ olun. Belə səmimi görüş üçün həmkarlarım adından və şəxsən öz adımdan Sizə minnətdarlığımı bildirmək istəyirəm. Ümumiyyətlə, mənim buraya gəlişim çox gözəl təşkil olunubdur. Siz mənim gəlişimin asan, yaddaqalan olması və rahat keçməsi üçün çox işlər görmüsünüz. Mən bunu daim yadda saxlayacağam.

Mən də Sizinlə olan əvvəlki görüşlərimi məmnuniyyətlə xatırlayıram. Xüsusilə 1997-ci ildə Amerika Birləşmiş Ştatlarına Sizin rəsmi səfərinizi çox gözəl xatırlayıram. O zaman Nyu-Yorkda Sizinlə görüşərək geniş fikir mübadiləsi aparmaq imkanı əldə etdik. Mənim üçün xüsusilə böyük məmnunluqdur ki, bizim strateji, siyasi əhəmiyyət verdiyimiz bir ölkə Sizin kimi dünya şöhrətli şəxsiyyət tərəfindən idarə olunur. [15-16]

Mən Azərbaycanla maraqlanmağa başlayanda bu ölkə barəsində faktiki olaraq çox şeyi bilmirdim. Sadəcə, mənə Azərbaycanın xəritədəki yeri, təbii ehtiyatları və əhəmiyyəti məlum idi. Azərbaycana marağım xüsusilə o zaman artmağa başladı ki, Azərbaycan keçmiş sovet respublikaları arasında müstəqil yolla inkişaf edən ölkələrdən biri oldu. Ona görə də mən inanıram ki, Amerika Birləşmiş Ştatları Azərbaycanın müstəqilliyində və sülh şəraitində inkişafında çox maraqlıdır. Baxmayaraq ki, mən hazırkı Amerika hökumətinin rəhbərliyi ilə eyni partiyanın üzvü deyiləm, başqa partiyaya mənsubam, amma çox şadam ki, Azərbaycanın gələcək inkişafı bizim partiya üzvlüyümüzdən asılı olmayaraq, bütün Amerika Birləşmiş Ştatları üçün vacibdir. Bu ruhda onu demək istəyirəm ki, mən də burada olmağımdan çox məmnunam. Mən bizim qarşıdakı söhbətimizi səbirsizliklə gözləyirəm.

Cənab prezident, burada səfərdə olduğum müddətdə özüm üçün belə bir qənaətə gəlmişəm və onu demək istəyirəm. Çox zaman Azərbaycan haqqında deyirlər ki, o, az inkişaf etmiş, yaxud inkişaf etməkdə olan ölkədir. Əlbəttə, iqtisadi baxımdan bu, düzgün fikirdir. Lakin qonaqpərvərlik baxımından demək istəyirəm ki, Siz çox qabaqcıl ölkəsiniz. Çox sağ olun.

**H e y d ə r Ə l i y e v**: Hörmətli cənab Kissincer, şübhəsiz ki, biz sizinlə ətraflı söhbət edəcəyik. Ancaq mən bir-iki mövzuya toxunmaq istəyirəm. Siz Azərbaycanın dövlət müstəqilliyinin qorunması və saxlanması ilə əlaqədar müsbət fikrinizi bildirdiniz. Həqiqətən də belədir. Biz XX əsrin sonunda öz dövlət müstəqilliyimizi əldə etməyimizi tarixi hadisə hesab edirik. Artıq yeddi ildir ki, Azərbaycan öz dövlət müstəqilliyini qoruyub saxlaya bilibdir. Doğrudur, bu yeddi il Azərbaycan üçün çox ağır, çətin bir dövrdür. Azərbaycanın dövlət müstəqilliyinə həm xaricdən, həm də daxildən təcavüz, təzyiq edən qüvvələr

çox olub və bu gün də var. Ancaq bunlara [16-17] baxmayaraq, biz müstəqil dövlət kimi yaşayırıq və bundan sonra da yaşayacağıq.

Keçmişdə Sovetlər İttifaqına daxil olmuş respublikalar içərisində müstəqil dövlət kimi yaşayan Azərbaycan bir çox başqa ölkələrdən fərqlidir. Mən iftixar hissi ilə deyə bilərəm ki, biz tam müstəqilik. Yəni bizim ərazimizdə xarici ölkələrin ordusu, hərbi bazası yoxdur və müstəqilliyi təmin etmək üçün biz bütün tədbirləri görmüşük. Nə qədər çətin olsa da, beynəlxalq təşkilatlarda, dünya miqyasında, o cümlədən mənsub olduğumuz Müstəqil Dövlətlər Birliyində biz öz müstəqil siyasətimizi ardıcıl olaraq aparırıq.

Amma sizə məlumdur ki, Azərbaycanın ərazi bütövlüyünə, müstəqilliyinə mane olan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Bunun nəticəsində Azərbaycan torpaqlarının 20 faizi işğal olunub, bir milyondan artıq azərbaycanlı yerindən-yurdundan zorla çıxarılıb və ağır vəziyyətdə yaşayır.

Siz bilirsiniz ki, biz məsələni sülh yolu ilə həll etmək istəyirik. Bununla Minsk qrupu məşğuldur. 1997-ci ildən Minsk qrupunun həmsədrlərindən biri, -Rusiya və Fransa ilə bərabər, – Amerika Birləşmiş Ştatlarıdır. Təəssüflər olsun ki, Minsk qrupunun həmsədrləri bu barədə hələ ki, təsirli bir nəticə əldə edə bilməyiblər.

Amerika Birləşmiş Ştatları ilə bizim iqtisadi əlaqələrimiz çox sürətlə inkişaf edir. Güman edirəm, siz bu gün bir az tanış ola bildiniz ki, Amerika Birləşmiş Ştatlarının çox şirkətləri artıq bir neçə ildir ki, Azərbaycanda fəaliyyət göstərirlər. Xəzər hövzəsinin enerji ehtiyatlarından istifadə olunmasında biz Amerika Birləşmiş Ştatları ilə, Avropa ölkələri, dünyanın bir çox başqa ölkələri ilə sıx əməkdaşlıq edirik.

Ancaq bizim bu əməkdaşlığımıza mane olan başqa bir amil də var. O da 1992-ci ildə Amerika Konqresi tərəfindən Azərbaycana qarşı ədalətsiz olaraq tətbiq edilmiş 907-ci maddədir. [71-18] Bu qərar Amerika Birləşmiş Ştatları hökumətinin Azərbaycana daha geniş yardımına qadağan qoyubdur. Təəssüflər olsun ki, bütün cəhdlərimizə baxmayaraq, biz bu qərarı ləğv edə bilməmişik.

Amma buna baxmayaraq, biz Amerika Birləşmiş Ştatları ilə əlaqələrimizi inkişaf etdiririk. Əgər 907-ci maddə aradan götürülsəydi, bu əlaqələr daha da sürətlə inkişaf edərdi. Güman edirəm ki, bu və bir neçə başqa məsələləri sizinlə müzakirə edərik.

**Henri Kissincer**: Cənab prezident, xarici siyasət üzrə müşavirinizin, eləcə də xarici işlər nazirinizin mənə verdikləri məlumatlar əsasında Sizin problemlərinizdən xəbərdaram. Eyni zamanda bizim hökumətin, prezident Klintonun 907-ci maddəyə münasibəti də mənə məlumdur. Mən də Konqresin bu cür qərarlarına həmişə əks çıxmışam. Ümid edirəm ki, üzümüzə gələn aylar ərzində bu məsələ öz həllini tapacaqdır. [18]

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ HEYDƏR ƏLİYEVİN VƏ ABŞ-ın KEÇMİŞ DÖVLƏT KATİBİ HENRİ KİSSİNCERİN JURNALİSTLƏR ÜÇÜN KEÇİRDİKLƏRİ BİRGƏ BRİFİNQDƏ BƏYANATLARI

*Prezident sarayı*

*8 yanvar 1999-cu il*

***Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin bəyanatı***

Hörmətli xanımlar və cənablar!
Mətbuat nümayəndələri!

Siz artıq bilirsiniz ki, Amerika Birləşmiş Ştatlarının və dünyanın məşhur siyasətçisi hörmətli cənab Henri Kissincer dünəndən Azərbaycana gəlibdir. Cənab Kissincer mənim dəvətimlə gəlibdir, Azərbaycan prezidentinin şəxsi qonağıdır. Onun bu səfəri ölkəmizə ilk səfərdir və Azərbaycanla tanışlıq xarakteri daşıyır.

Hörmətli cənab Kissincer dünən və bu gün bir çox görüşlər keçiribdir. Nəhayət, axşam saat 6-dan bizimlə bir yerdədir. Biz görüşlər, danışıqlar aparırıq. Bizim danışığımızın bir hissəsində siz iştirak etmisiniz. Danışığımızın əsas məzmunu və məqsədi Amerika Birləşmiş Ştatları ilə Azərbaycanın əlaqələri və bu əlaqələrin bundan sonra inkişaf etdirilməsidir. Bu danışıqlar zamanı bizim fikirlərimiz eyni olubdur. Biz Ame[19-20]rika–Azərbaycan əlaqələrinin inkişaf etdirilməsi barəsində eyni fikirdə olduğumuzu özümüz üçün bir daha yəqin etmişik.

Təbiidir ki, danışıqlar zamanı bütün əsas problemlər müzakirə olunubdur. Birinci növbədə, Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasındakı siyasi, iqtisadi əlaqələr, ölkəmiz üçün ağır problem olan Ermənistan–Azərbaycan münaqişəsinin, Dağlıq Qarabağ probleminin sülh yolu ilə həll edilməsi, 1992-ci ildə Amerika Konqresində Azərbaycana qarşı qəbul olunmuş 907-ci düzəliş, onun aradan götürülməsi yolları, Qafqaz bölgəsində vəziyyət və bir çox başqa məsələlər müzakirə edilibdir.

Mən bizim danışıqlarımızdan çox məmnunam. Hesab edirəm ki, bu danışıqlar, görüşlər Azərbaycan üçün çox faydalı olubdur. Hesab edirəm ki, dünyada tanınmış çox böyük dövlət xadimi və siyasətçi cənab Henri Kissincerin Azərbaycana gəlişi və bizim görüşlərimiz, danışıqlarımız Amerika-Azərbaycan əlaqələrinin inkişaf etməsinə kömək edəcəkdir.

***ABŞ-ın görkəmli siyasi xadimi Henri Kissincerin bəyanatı***

Cənab prezident, hər şeydən əvvəl, bu dəvətə görə Sizə öz minnətdarlığımı bildirmək istəyirəm. Azərbaycan hökumətinin nümayəndələri tərəfindən mənə göstərilən qonaqpərvərliyə görə minnətdaram.

Mən burada çox qısa bir müddətdə, cəmi bircə gün olmuşam. Lakin Azərbaycan Respublikasının həyatının müxtəlif cəhətləri ilə tanış olmaq imkanı əldə etmişəm, Azərbaycanın qarşısında duran məsələlərlə tanış olmuşam. İndi məndə Azərbaycan haqqında daha dolğun, aydın fikir vardır. Əlbəttə, mənim buraya səfərimin zirvəsi prezidentlə uzun sürən söhbət oldu. [20-21]

Mən buraya xoş məramlı bir adam kimi gəlmişəm. Çünki bu bölgənin əhəmiyyətinə, tarixinə inanıram. Mən bu regionun strateji əhəmiyyətini dərk edirəm. Mən bu xalqın istedadına inanaraq buraya gəlmişəm.

Hesab edirəm ki, Azərbaycandakı inkişaf ümumiyyətlə, bütün regiondakı inkişafa xeyir verəcəkdir. Bugünkü görüşlərim zamanı məndə indiyə qədər olan fikir daha da möhkəmləndi. Prezident Heydər Əliyevlə görüşdən sonra bu fikir məndə xüsusən bir daha möhkəmləndi. Elə bilirəm ki, gələcəkdə əlaqələrimizin inkişafına mane olan bütün problemlərin aradan qaldırılması üçün əlimdən gələni edəcəyəm və Sizə yardım göstərmək iqtidarında olacağam.

Əlbəttə, bizim hökumətimizin Azərbaycandakı rəsmi nümayəndəsi ABŞ-ın səfiridir. Mənim ona böyük hörmətim vardır. Mən Amerika Birləşmiş Ştatlarında hakimiyyətdə olan hökumətlə eyni partiyanın üzvü deyiləm. Mən digər partiyanın üzvüyəm. Lakin bu, partiya mənsubiyyətindən irəli gələn məsələ deyildir. Hansı partiyaya mənsubluğumdan asılı olmayaraq mən ABŞ-ın hazırkı iqtidarının Azərbaycana dair siyasətindən razıyam.

Burada olduğum müddətdə çoxları mənə deyirdilər ki, Azərbaycan inkişafda olan ölkədir. Lakin mən qonaqpərvərlik baxımından demək istəyirəm ki, Azərbaycan çox irəlidə olan bir ölkədir. Mən Sizin

respublikadan eyni ilə bu fikirlə ayrılıram ki, Azərbaycan çox vacib, əhəmiyyətli bir ölkədir. Bizim bir-birimizi yaxından tanımağımız da əlaqələrimizə yardım edəcəkdir. Çox sağ olun.

* * *

**S u a l: Cənab Kissincer, impeçment məsələsi ilə bağlı ABŞ prezidenti Bill Klintona qarşı başlanmış kampaniyaya sizin münasibətiniz necədir?** [21-22]

**H e n r i K i s s i n c e r:** Bu proses Birləşmiş Ştatlarda bir ildir ki, davam edir. Razılıq duyuram ki, bu prosesə münasibətimi indiyədək jurnalistlərin yanında bildirməmişəm. Ona görə də istəməzdim ki, bu prosesə münasibətimi Azərbaycanda bildirməyə başlayım.

**S u a l: Siz tanınmış siyasətçi kimi deyə bilərsinizmi ki, Amerika Rusiyanın NATO-ya qarşı sipərə çevirdiyi Ermənistana Azərbaycanla müqayisədə niyə beş-altı dəfə çox yardım edir? Bundan əlavə, siz Rusiyanın Ermənistana bu qədər hərbi yardım göstərməsinə, onun Ermənistanda hərbi bazasının olmasına necə baxırsınız?**

**H e n r i K i s s i n c e r:** Bu, çox yaxşı sualdır və cavabı da sadədir. Cavab da ondan ibarətdir ki, Birləşmiş Ştatlardakı ermənilərin sayı azərbaycanlıların sayından daha artıqdır və onların konqresə təsir göstərmək gücü daha çoxdur.

**H e y d ə r Ə l i y e v** (*tərcüməçiyə*): Bəlkə sən bu sualı düzgün tərcümə eləməmisən?

**H e n r i K i s s i n c e r:** Mən Rusiyanın regionda sabitliyi pozmaq siyasəti aparmasının əleyhinəyəm və bu siyasəti düzgün hesab etmirəm.

**S u a l: Cənab Kissincer, bu gün siz Bakıda təmsil olunan neft şirkətlərinin nümayəndələri ilə görüşmüsünüz. Həmin şirkətlərin yaxın vaxtlarda Bakı-Ceyhan boru kəməri layihəsinə investisiya qoymaq ehtimalı necədir?**

**H e n r i K i s s i n c e r:** Hər şeydən əvvəl, bu görüş çox yaxşı təəssürat yaratdı. Neft şirkətləri çox ətraflı məlumat verdilər. Lakin onu da başa düşməlisiniz ki, neft şirkətləri hər şeydən əvvəl iqtisadi problemə fikir verirlər. Mən isə siyasi tərəfi düşünürəm və bu baxımdan, əlbəttə ki, Türkiyəyə çəkiləcək kəməri daha çox dəstəkləyirəm. Elə fikirləşirəm ki, neft şirkətləri yalnız qiyməti düşünürlər. Lakin hesab edirəm ki, bu fərq tezliklə aradan götürüləcək və mənim fikrim həyata [22-23] keçəcəkdir. Yeri gəlmişkən, mənim fikrim eyni ilə Amerika Birləşmiş Ştatları hökumətinin fikridir.

**S u a l: Cənab prezident, mən üzr istəyirəm ki, sualım bugünkü mövzuya yox, Qobustan həbsxanasındakı hadisəyə aid olacaqdır. Cənab prezident, 1996-cı ilin yayında Sizə qarşı terror aktı cəhdində ittiham olunmuş adamlar tərəfindən rəhbərlik edilən bu hadisənin müəyyən xarici dairələrin əli ilə törədildiyini ehtimal etmək olarmı? Sağ olun.**

**H e y d ə r Ə l i y e v:** Bir halda ki, sualı rus dilində vermisiniz, mən də bu dildə cavab verəcəyəm. Bilirsiniz, bunun hansı qüvvələr tərəfindən törədildiyini indi birmənalı şəkildə demək çətindir. Əgər bu terror aktının bilavasitə təşkilatçılarının vaxtilə Azərbaycanda dövlət çevrilişi etməyə, Azərbaycan prezidentinin təyyarəsini raketlə vurmağa cəhd göstərmiş adamlar olduğunu nəzərə alsaq, hansısa ehtimallar söyləmək mümkündür. Ancaq mən hesab edirəm ki, bizim istintaq orqanları bunu araşdıracaq və sonra daha düzgün və obyektiv informasiya verəcəklər.

Sağ olun. [23]

**ŞİMALİ OSETİYA-ALANİYA**
**RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ CƏNAB**
**ALEKSANDR DZASOXOVA**

Hörmətli Aleksandr Sergeyeviç!

Hərbi Gürcüstan yolunda baş vermiş nəqliyyat qəzası nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni çox kədərləndirdi.

Sizə, həlak olanların bütün qohumlarına və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *9 yanvar 1999-cu il*
[24]

## MƏHƏRRƏM HƏSƏNOVUN AİLƏSİNƏ

Gözəl insan, tanınmış el ağsaqqalı, gürcü və Azərbaycan xalqlarının ənənəvi dostluq və qardaşlıq əlaqələrinin möhkəmləndirilməsində əvəzsiz xidmətlər göstərmiş Məhərrəm Həsənovun vəfatı xəbəri məni çox kədərləndirdi.

Məhərrəm Həsənovun xatirəsini yad edir və dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *13 yanvar 1999-cu il*
[25]

## GÖRKƏMLİ ALİM VƏ İCTİMAİ XADİM
## İHSAN DOĞRAMACIYA

Əziz dostum və qardaşım!

Sizi Avropa Birliyi və Avropa Şurasının müştərək təsis etdikləri «Xeyirxahlıq» mükafatı ilə təltif olunmağınız münasibətilə ürəkdən təbrik edirəm.

Bu mükafat sizin humanizm idealları naminə çoxşaxəli fəaliyyətinizə verilmiş yüksək və layiqli qiymətdir.

Sizə möhkəm cansağlığı və fədakar işinizdə yeni-yeni uğurlar arzulayıram!

Hörmətlə

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *14 yanvar 1999-cu il*

[26]

## BMT-nin ÜMUMDÜNYA ƏRZAQ PROQRAMININ ŞƏRQİ AVROPA VƏ MDB ÖLKƏLƏRİ ÜZRƏ ŞÖBƏSİNİN MÜDİRİ CƏNAB ROBERT HAUZERİN RƏHBƏRLİYİLƏ ÖLKƏMİZƏ GƏLMİŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*14 yanvar 1999-cu il*

**H e y d ə r  Ə l i y e v**: Azərbaycana xoş gəlmisiniz. Mən sizi səmimi qəlbdən salamlayıram. Sizin bu səfərinizi qiymətləndirirəm və güman edirəm ki, bu səfərinizin nəticəsində Azərbaycana Birləşmiş Millətlər Təşkilatının humanitar yardımları artacaqdır.

Güman edirəm ki, siz burada olduğunuz günlərdə Azərbaycanın bugünkü vəziyyəti ilə tanış ola bilmisiniz. Baş nazir Artur Rasizadə mənə söylədi ki, bu barədə sizinlə çox ətraflı danışıqlar aparılıbdır. Bizim Azərbaycanın bugünkü gerçəkliyi çox ziddiyyətlidir. Biz bir tərəfdən, dörd ildən çoxdur ki, Ermənistan-Azərbaycan münaqişəsində atəşi dayandırmışıq və Azərbaycanın daxilində keçmişdə olan cürbəcür neqativ halları aradan qaldırmışıq. İctimai-siyasi sabitliyi təmin etmişik və Azərbaycanda ardıcıl olaraq iqtisadi, siyasi, sosial islahatlar həyata keçiririk. Bunlarla yanaşı, ikinci tərəfdən, Azərbaycanın həyatını çox çətinləşdirən, ağırlaşdıran odur ki, Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. İşğal olunmuş bu torpaqlardan zorla çıxarılmış və vaxtilə Ermənistanın ərazisindən zorla çıxarılmış bir [27-28] milyondan artıq qaçqın, köçkün Azərbaycanda ağır şəraitdə, əksəriyyəti çadırlarda çox ağır vəziyyətdə yaşayır. Onlar hamısı öz torpaqlarına qayıtmaq arzusu ilə yaşayırlar, ona görə də bütün əzab-əziyyətlərə dözürlər. Ancaq məsələnin həll olunması gecikir və iqtisadi vəziyyət də günü-gündən xarablaşır.

Güman edirəm, siz artıq bunların hamısını görmüsünüz və sizə ətraflı danışıblar. Mən sadəcə, onları sizə bir daha xatırlatmaq istədim. Ümid edirəm ki, siz Azərbaycanın bugünkü reallığını nəzərə alaraq gələcəkdə Azərbaycan ilə Birləşmiş Millətlər Təşkilatı arasındakı əməkdaşlığın da planlarını quracaqsınız. Buyurun.

**R o b e r t  H a u z e r**: Cənab prezident, çox sağ olun. Əvvələn, bugünkü qəbula görə sizə dərin minnətdarlığımı bildirmək istəyirəm. İkinci növbədə, sizin hökumətin bizə bütün səviyyələrdə göstərdiyi dəstəyə, yardıma və əməkdaşlığa görə hökumət nümayəndələrinizə minnətdarlığımı bildirmək istəyirəm. Demək istəyirəm ki, həm regionlarda, həm də Bakıda bizə hər cür dəstək verilmişdir, bizimlə hər cür əməkdaşlıq aparılmışdır. Baxmayaraq ki, bizim Azərbaycana bu səfərimiz qısamüddətlidir, bu səfər öz məhsuldarlığı ilə fərqlənir və ümumi götürsək, əməkdaşlıq ruhunda keçmişdir.

Qeyd etdiyim kimi, bizim səfərimiz qısa bir səfərdir. Lakin bu səfərin qısalığına baxmayaraq biz bəzi regionlarda olmuşuq və ölkə daxilində qaçqınlarla görüşmüşük, onlardan kifayət qədər məlumat almışıq. Bu səfərimiz zamanı humanitar məsələlərlə məşğul olan cənab Əli Həsənovla görüşmüşük və sizin qeyd etdiyiniz kimi, Baş nazir cənab Artur Rasizadə ilə də ətraflı görüşümüz olmuşdur. Biz Baş nazirlə görüşərkən bunu müzakirə etmişik, bunu təkrarən sizə bildirmək istəyirik.

Əlbəttə, yüz dəfə eşitməkdənsə, bir dəfə görmək lazımdır və elə bilirəm ki, bu missiya, yəni mən və həmkarlarım hər şeyi kifayət qədər görə bildik, məsələ ilə kifayət qədər tanış [28-29] olduq. Artıq bəzi nəticələri çıxarmışıq və gələcəkdə necə əməkdaşlıq etməyi özümüz üçün planlaşdırmışıq.

Mən bir şeyi qəti əminliklə deyə bilərəm ki, biz bugünkü günə qədər qurbanlar olmuşuq. Yəni biz Xəzər regionu ətrafında və neft ətrafında gedən söhbətlərin qurbanı olmuşuq. Bizdə belə bir təsəvvür var idi ki, Azərbaycan artıq çox zəngin, varlı bir ölkədir. Amma onu demək istəyirəm ki, bu hələ belə deyildir. Lakin biz gələcəyə böyük ümidlə baxırıq. Belə hesab edirik ki, çox tezliklə ölkənizin bu təbii zənginliyi həyata keçiriləcək və o, həqiqətən varlı bir ölkə olacaqdır. Hələlik isə elə bilirəm ki, ölkənizin yardıma ehtiyacı vardır. Xüsusilə də bunlar ölkənin o təbəqəsidir ki, biz onları daxili qaçqınlar adlandırırıq.

Bu missiyanın əsas fikri ondan ibarətdir ki, biz həm rəhbərlərimizə, həm də donor ölkələrə və təşkilatlara belə məlumat çatdıracağıq ki, Azərbaycana yardım davam etdirilməlidir. Lakin bu yardımın əsas istiqaməti bir qədər dəyişilməlidir. İndi əsas istiqamət daha çox reabilitasiyaya və qaçqınların məşğuliyyətinə yönəlməlidir. Biz Baş nazirlə bu məsələlərin hamısını ətraflı müzakirə etmişik. Ona görə də bütün bu məsələləri sizinlə müzakirə etmək fikrində deyilik. Lakin bizim fikrimiz ondan ibarətdir ki, ölkədaxili qaçqınlara yardım davam etdirilməlidir. Xüsusilə də psixoloji yardımı davam etdirməliyik ki, onları psixoloji vəziyyətdən çıxara bilək.

Köhnə atalar misalında deyildiyi kimi, balıqçıya balıq verməkdənsə, qarmaq verməliyik ki, həmin balıqçı balığı tuta bilsin. Bu baxımdan, sözümün davamı kimi, demək istəyirəm, eyni zamanda həmin balıqçı

balığı o qədər ovlamalıdır ki, bu yalnız onun ailəsi üçün yox, bütün ölkə üçün kifayət etsin. Biz elə bu ruhda da işimizi davam etdirmək fikrindəyik.

**H e y d ə r Ə l i y e v**: Mən sizə təşəkkür edirəm. Əvvəla, çox məmnunam ki, siz yerlərdə olmusunuz və xüsusən, yerin[29-30]dən-yurdundan didərgin düşmüş insanlarla görüşmüsünüz, onların vəziyyətini özünüz müşahidə etmisiniz.

Azərbaycan zəngin ölkə olmaq istəyir və bunun üçün əsas da vardır. Ancaq hələ zəngin deyilik və bunun üçün çox vaxt lazımdır. Biz məğrur millətik. Əgər biz zəngin olsaydıq, heç vaxt heç kəsdən yardım istəməzdik. Əksinə, başqalarına yardım edərdik. Əgər biz zəngin ölkələrdən və Birləşmiş Millətlər Təşkilatından, onun humanitar yardım idarələrindən Azərbaycanda ağır vəziyyətdə yaşayan qaçqınlara, köçkünlərə yardım istəyiriksə, demək, biz məcburiyyət qarşısındayıq. Ona görə də mən istərdim ki, buradakı təəssüratlarınız, gördükləriniz sizin Azərbaycanla əməkdaşlığınızın gələcəkdə əsasını təşkil etsin.

Biz çox çalışırıq ki, işğal olunmuş torpaqlar azad edilsin və yerindən-yurdundan didərgin düşmüş azərbaycanlılar öz yerlərinə qayıtsınlar. Əgər buna nail ola bilsək, biz bu yardımdan imtina edəcəyik, yaxud da bu yardımın forması dəyişiləcəkdir. Təəssüf ki, biz hələ indiyə qədər buna nail ola bilməmişik. Bizim böyük nailiyyətimiz odur ki, müharibəni dayandırmışıq, qan tökülməsinin qarşısını almışıq, atəşkəs rejimi yaratmışıq və dörd il yarımdır ki, bu atəşkəs rejimini saxlayırıq. Amma insanları düşdüyü ağır vəziyyətdə də yaşatmaq lazımdır. Buna da bizim özümüzün gücümüz çatmır. Bu həm Azərbaycanın iqtisadiyyatında gedən proseslərlə əlaqədardır, həm də yerindən-yurdundan didərgin düşmüş insanların əksəriyyətinin işsiz olması ilə əlaqədardır.

Ona görə də, güman edirəm ki, sizin bu missiyanız gələcəkdə bizim əməkdaşlığımızın əsasını təşkil etmək üçün çox əhəmiyyətlidir. Mən sizə təşəkkür edirəm. Çox məmnunam ki, siz belə böyük tərkibdə gəlib Azərbaycanı ziyarət etmisiniz. Ümidvaram ki, sizin bu missiyanızın müsbət nəticələrini biz görəcəyik. [30]

## RAMAZAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Mərhəmətli, rəhmli Allahın adı ilə!
Əziz bacı və qardaşlar!

Sizi dünya müsəlmanlarının əziz bayramı – Ramazan bayramı münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Ramazan ayı müqəddəs kitabımız Qurani-Kərimin insanlar üçün nazil edildiyi mübarək aydır. Allah-təalanın insanlara bəxş etdiyi bu misilsiz sərvətin hikmətlərindən daha da faydalanmaq üçün Ramazan ayının böyük əhəmiyyəti vardır. Bu ay eyni zamanda hər bir müsəlmana öz iradəsini sınamaq, dözüm və əzmkarlığını nümayiş etdirmək üçün gözəl fürsətdir.

Ramazan ayının sınaq günlərində öz borcunu ləyaqətlə yerinə yetirən müsəlmanlarımız bu gün böyük sevinc və qürur hissi ilə bayram edir, bir-birlərinə ehtiram və məhəbbət bildirərək sıx həmrəylik nümayiş etdirir, həyatdan getmiş yaxınlarını yad edirlər.

Builki Ramazan bayramı 1990-cı ilin qanlı yanvarında Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda öz canlarından keçərək şəhidlik zirvəsinə ucalmış vətən övladlarının xatirə gününə təsadüf edir. Onlar vətənə sədaqəti özlərinin fədakarlığı, şəhidliyi ilə göstərərək xalqımızın qəhrəmanlıq salnaməsinə parlaq səhifə yazmışlar. Biz fəxr edirik ki, Azərbaycan xalqının milli mənliyini qorumaq üçün öz canından keçməyə hazır olan övladları vardır. Bu bayram günündə Azərbaycanın azadlığı, müstəqilliyi uğrunda şəhid olanların hamısına rəhmət, onların yaxınlarına, bütün xalqımıza səbr diləyirəm.

Respublikamızın müstəqilliyinin möhkəmləndirilməsi, ərazi bütövlüyünün təmin olunması, demokratik cəmiyyət qu[31-32]ruculuğu, öz torpaqlarından didərgin düşmüş bacı-qardaşlarımızın ev-eşiklərinə qaytarılması hər birimizdən daha böyük qətiyyət və əzmkarlıq tələb edir. Bu amalların gerçəkləşməsi naminə əziz bayram günündə hamınızı daha sıx əməkdaşlığa və həmrəyliyə çağırıram.

Mübarək Ramazan bayramında ulu tanrıdan sizə cansağlığı, xoş əhval-ruhiyyə, doğma Azərbaycanımızın tərəqqisi yolundakı fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

Bayramınız mübarək olsun!

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *17 yanvar 1999-cu il*
[32]

# TÜRKİYƏ RESPUBLİKASI PREZİDENTİNİN DƏVƏTİ İLƏ QISAMÜDDƏTLİ MÜALİCƏ ÜÇÜN GÜLHANƏ HƏRBİ TİBB AKADEMİYASINDA DÖVLƏT BAŞÇILARI SÜLEYMAN DƏMİRƏLİN VƏ HEYDƏR ƏLİYEVİN JURNALİSTLƏR ÜÇÜN KEÇİRİLƏN BİRGƏ BRİFİNQDƏ BƏYANATLARI

*Ankara*

*17 yanvar 1999-cu il*

***Türkiyə Respublikasının Prezidenti***
***Süleyman Dəmirəlin bəyanatı***

Hörmətli cənab Heydər Əliyevin xəstələnməsi barədə yanvarın 16-da bizə xəbər çatdı*. Biz buradan Bakıya həkimlər göndərdik. Onlar yanvarın 16-da axşam Bakıda oldular və hörmətli Heydər Əliyev bu gün Ankaraya gəldi.

Bəzi mətbuat orqanlarının verdikləri xəbərlərin əksinə olaraq, hamınızın gördüyü kimi, Heydər Əliyevin səhhəti ilə bağlı ciddi bir narahatlıq yoxdur. Hörmətli cənab Heydər Əliyev Sizin qarşınızdadır.

Möhtərəm Heydər Əliyev, xəstəliyiniz keçmiş olsun. Cənab Heydər Əliyev səhhəti ilə bağlı burada həkim nəzarətindən [33-34] keçəcəkdir. Gülhanə xəstəxanası fəxr etdiyimiz bir tibb müəssisəsidir. Həkimlərimiz Azərbaycan prezidentinə hər cür xidmət göstərəcəklər. Bir həftə ərzində hər şey düzələcəkdir.

***Azərbaycan Respublikasının Prezidenti***
***Heydər Əliyevin bəyanatı***

Əziz dostum, qardaşım, cümhur başkanı Süleyman Dəmirəl!

Sizin Azərbaycana göndərdiyiniz həkimlərə söylədim, – mən doqquz ildir həkimlərsiz yaşadım. Amma tale gətirib məni yenə həkimlərə bağladı. 1990-cı ildə Moskvadan Azərbaycana qayıdandan sonra mənim həkimim olmayıbdır. Həkimə müraciət etməyə də ehtiyac duymamışam, – Allah məni saxlayıbdır. Ancaq iki-üç gün bundan əvvəl Azərbaycanda dolaşan qrip xəstəliyi məni də tutdu. Amma mən fikir vermədim, yəni işləməyə başladım. Beşinci gün çox çalışdım, altıncı gün isə rahatsız oldum. Axşam daha da rahatsız oldum. Mənim qardaşım, dostum Süleyman bəy bundan xəbər tutdu.

Bizim belə bir adətimiz vardır: Bir insan rahatsız olanda onun ailəsindən bu xəbəri ən yaxın adama deyirlər. Mənim oğlum da Süleyman bəyə telefon açdı ki, xəbər versin. Süleyman bəy də dərhal Bakıya iki təyyarə göndərdi. Həmin təyyarələrdə iki qrup – birində bu xəstəxananın, birində də digər xəstəxananın həkimləri Bakıya gəldilər. Allaha şükürlər olsun ki, onlar Bakıya gələnə qədər mənim səhhətimdə elə təhlükəli bir şey yox idi. Ancaq həkimlər dedilər ki, bir halda ki, Siz doqquz il həkimsiz yaşamısınız, indi gəlin Sizi müayinə edək, baxaq. Mən də gəldim. Amma bu, eyni zamanda, gəlib Türkiyəni, Ankaranı görmək və dostum Süleyman Dəmirəllə bir daha görüşüb söhbət etmək üçün yeni bir fürsətdir. Hava limanından buraya gələnə qədər biz bir neçə məsələni artıq [34-35] müzakirə etdik. Mən gələcəkdə də bu fürsətdən istifadə edəcəyəm.

Əziz dostum, qardaşım Süleyman Dəmirələ mənə göstərdiyi bu qardaşlıq qayğısına görə təşəkkür edirəm. Mən Türkiyəni özüm üçün ən yaxın dost ölkə hesab edirəm. Ona görə də burada olmaq mənim üçün çox önəmlidir. Təşəkkür edirəm.

* * *

**S u a l**: **Cənab Heydər Əliyev, Sizin burada müalicəniz neçə gün davam edəcəkdir**?
**C a v a b**: Yəqin məni buradan 3–4 günə buraxarlar. Mən belə hesab edirəm. [35]

* Azərbaycan prezidenti Heydər Əliyevin səhhəti barədə məlumat alan Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəl bir neçə dəfə təkidlə prezident Heydər Əliyevi müayinə və müalicə olunmaq üçün Türkiyəyə dəvət etmişdir. Yanvarın 17-də Heydər Əliyev Türkiyəyə yola düşmüşdür.

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Ankara,*
*Gülhanə Tibb Akademiyası*

*18 yanvar 1999-cu il*

**Süleyman Dəmirəl**: Dostum, qardaşım Heydər bəy! Sizi səmimi qəlbdən salamlayıram. Türkiyə ilə Azərbaycan çox yaxın dost və qardaş ölkələrdir. Ölkələrimiz arasında bütün sahələrdə əlaqələr son vaxtlar çox sürətlə inkişaf edir.

Əziz Heydər bəy! Xəstəliyiniz keçmiş olsun. Sizə ulu tanrıdan cansağlığı arzulayıram. Siz burada – bu möhtəşəm tibb ocağında müayinə və müalicəni tezliklə başa çatdırıb Azərbaycana qayıdacaqsınız.

Nəzərinizə çatdırım ki, Gülhanə Tibb Akademiyası müasir texniki avadanlığı və həkimlərinin səviyyəsi nöqteyi-nəzərindən təkcə Türkiyədə deyil, ümumiyyətlə, dünya miqyasında tanınan və mütəxəssislərin rəğbətini qazanan bir tibb ocağıdır. Burada Sizə hər cür qayğı və diqqət göstəriləcəkdir. Bir daha Sizə, Heydər bəy, cansağlığı və şəfa diləyirəm.

**Heydər Əliyev**: Əziz Süleyman bəy! Buraya gəldiyim ilk gündən yüksək qayğı və diqqət ilə əhatə olunmuşam. Buna görə Sizə, qardaş Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirələ öz dərin təşəkkürümü bildirirəm. Türkiyə xalqına öz salamımı yetirir, hörmət və ehtiramımı bildirirəm.

**Süleyman Dəmirəl**: Bir müddət bundan əvvəl mən ABŞ prezidenti Bill Klintona məktub göndərmişdim. Bildi[36-37]rirəm ki, bu görüş ərəfəsində cavab aldım və məktubda ABŞ prezidentinin Bakı–Ceyhan neft boru xətti layihəsinə tərəfdar olduğunu, bu məsələ ilə əlaqədar ABŞ-ın öz mövqeyini dəyişməyəcəyini, Bakı–Ceyhan layihəsini gələcəkdə də dəstəkləyəcəyini ifadə etmişdir. ABŞ prezidenti həmin məktubunda Azərbaycana qarşı tətbiq edilən ədalətsiz 907-ci maddənin və ümumiyyətlə, Azərbaycana iqtisadi yardımlarda hər hansı bir məhdudiyyətin əleyhinə olduğunu yazmışdır.

**Heydər Əliyev**: ABŞ prezidenti Bill Klintonun 907-ci maddənin əleyhinə olan mövqeyini bəyənirəm və Türkiyə dövləti rəhbərinin də bu məsələdə respublikamıza verdiyi daimi dəstəkdən məmnun olduğumu bildirirəm.

Ölkəmizə qarşı olan 907-ci maddənin 1992-ci ildə qəbul edildiyini vurğulayıram. Xatırladıram ki, Azərbaycanın ardıcıl surətdə apardığı fəal siyasət nəticəsində bu məsələ bir neçə ay bundan əvvəl ilk dəfə olaraq ABŞ Konqresinin müzakirəsinə çıxarılmış və bu istiqamətdə fəal iş davam etdirilmişdir.

Mən əminəm ki, Sizinlə bir daha görüşmək, bir çox məsələlər barədə fikir mübadiləsi aparmaq, məsləhətləşmək bizim üçün, xalqlarımız üçün çox faydalı olacaqdır. [37]

# TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ HİKMƏT ÇƏTİN İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Ankara,*
*Gülhanə Tibb Akademiyası*

*18 yanvar 1999-cu il*

**H i k m ə t  Ç ə t i n**: Möhtərəm cənab prezident, xoş gördük. Sizi Türkiyədə görməkdən məmnun olduğumu bildirirəm. Biz hamımız Sizin səhhətiniz ilə maraqlanırıq, Sizə cansağlığı arzulayıram. Məlumatınız olsun ki, Gülhanə Tibb Akademiyası 1898-ci ildən fəaliyyət göstərir və Türkiyənin məşhur tibb ocaqlarından biridir. Siz bu tibb ocağının hazırda ən görkəmli mütəxəssisləri tərəfindən müayinə və müalicə edilirsiniz.

**H e y d ə r  Ə l i y e v**: Mən Sizinlə, Türkiyə parlamentinin sədri ilə görüşümdən razı qaldığımı və qardaş ölkədə ona göstərilən diqqət və qayğıdan məmnun olduğumu bildirirəm.

Biz dost və qardaş Türkiyə ilə əlaqələrimizin möhkəmlənməsinə və genişlənməsinə, daha da inkişaf etməsinə xüsusi əhəmiyyət veririk.

Türkiyə Respublikasının yaranmasının 75 illik yubileyi ilə əlaqədar tədbirlərin yüksək səviyyədə keçirildiyini bildirirəm və bu tədbirlərdə iştirak etdiyimi məmnuniyyətlə xatırlayıram. Bakı – Ceyhan neft boru kəməri layihəsi haqqında Ankara bəyannaməsinin imzalanmasını həmin günlərin əzəmətli hadisəsi kimi qiymətləndirirəm. [38-39]

**H i k m ə t  Ç ə t i n**: Ankara bəyannaməsinin hazırlanması və imzalanmasının əsas təşəbbüskarı və ilhamvericisinin məhz Siz, Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev olduğunu bir daha vurğulayıram. Türk xalqı Azərbaycan dövlətinin rəhbərinə səmimi sevgi və məhəbbət duyğuları bəsləyir. Heydər Əliyevin «biz bir millət, iki dövlətik» müdrik kəlamı Türkiyədə dillər əzbəri olmuşdur.

**H e y d ə r  Ə l i y e v**: Türkiyə xalqına ən xoş və səmimi hisslər bəslədiyimi bildirirəm. İki qardaş xalqımızın dil, adət və ənənələri çox yaxındır. Azərbaycanın hökuməti, dövləti, xalqı Türkiyəni özünün dostu, doğma qardaşı hesab edir. Ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll edilməsi Azərbaycan üçün nə qədər əhəmiyyətlidirsə, Türkiyə üçün də bir o qədər əhəmiyyətli və vacibdir.

Biz Türkiyə ilə bütün sahələrdə əməkdaşlığa böyük əhəmiyyət verir və belə hesab edirik ki, bu əməkdaşlığın genişlənməsi və dərinləşməsi üçün böyük imkanlar vardır. Sizinlə olan şəxsi münasibətlərimizi yüksək qiymətləndirirəm. Mən Sizi Azərbaycana səfərə dəvət edirəm.

**H i k m ə t  Ç ə t i n**: Dəvəti məmnunluqla qəbul edirəm. [39]

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ BÜLƏND ECEVİT İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Ankara,*
*Gülhanə Tibb Akademiyası*

*18 yanvar 1999-cu il*

**B ü l ə n d   E c e v i t**: Hörmətli prezident, cənab Heydər Əliyev. Mən Sizi Türkiyə torpağında görməkdən məmnuniyyət duyduğumu bildirir, bir daha səmimi qəlbdən salamlayır, Sizə cansağlığı arzulayıram.

**H e y d ə r   Ə l i y e v**: Mənə, mənim səhhətimə göstərdiyiniz yüksək diqqət və qayğıya görə Sizə, Türkiyə hökumətinə təşəkkürümü bildirirəm. Sizi, cənab Bülənd Ecevit, Türkiyə Respublikasının Baş naziri vəzifəsinə seçilməyiniz ilə əlaqədar səmimi qəlbdən təbrik edirəm, Sizə və rəhbərlik etdiyiniz yeni hökumətə fəaliyyətinizdə müvəffəqiyyətlər diləyirəm, qardaş Türkiyə Respublikasının çiçəklənməsi naminə görüləcək işlərdə uğurlar arzulayıram.

Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq əlaqələri böyük və zəngin tarixə malikdir. Biz bunu yüksək qiymətləndiririk. Bizim keçmişimiz də, bu günümüz də dostluq, qardaşlıq əlaqələri ilə səciyyəvidir. Azərbaycan dövlət müstəqilliyini əldə edən andan indiyə qədər Türkiyə ilə bütün sahələrdə sıx əməkdaşlıq edir və bizim dostluq, qardaşlıq əlaqələrimiz günü-gündən inkişaf edir. Türkiyə bizim üçün dost, qardaş, yaxın ölkədir, Azərbaycanın dövlət müstəqilliyini ilk tanıyan ölkədir, dövlət müstəqilliyimiz yolunda Azərbaycana [40-41] daim dayaq olan, kömək edən qardaş ölkədir. Biz bunu bütün sahələrdə hiss etmişik və edirik.

Biz Türkiyəni dünyanın böyük və çox nüfuzlu dövlətlərindən biri hesab edirik. Biz Türkiyənin əldə etdiyi nailiyyətləri gənc, müstəqil Azərbaycanın dövlət quruculuğunda örnək kimi qəbul etmişik. Mən Türkiyə ilə Azərbaycan Respublikası arasında imzalanmış dostluq və əməkdaşlıq haqqında bütün sənədləri yüksək qiymətləndirirəm. Əminəm ki, bizim nailiyyətlərimiz həm Azərbaycanın, həm də bütün regionun inkişafı üçün böyük əhəmiyyət kəsb edir.

Mən Naxçıvan Muxtar Respublikasını Türkiyə ilə birləşdirən, xalq tərəfindən «Ümid körpüsü» adlanan və onun 1992-ci ildə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə rəhbərlik etdiyi zaman tikintisi sürətlə aparılaraq başa çatdırılan körpünün salınmasını tarixi hadisə kimi dəyərləndirirəm. Blokada şəraitində yaşayan Naxçıvana Türkiyə tərəfindən də elektrik enerjisi verilməsini yüksək qiymətləndirirəm. Türkiyənin bu dəstəyinin regionun iqtisadi inkişafı ilə yanaşı, həm də əhalinin məişət problemlərinin həllində böyük rol oynadığını bildirirəm.

Mən Sizi, Türkiyənin Baş naziri Bülənd Eceviti Ramazan bayramı münasibətilə təbrik edirəm, türk xalqına mənim ən xoş arzu və diləklərimi çatdırmağı xahiş edirəm.

**B ü l ə n d   E c e v i t**: Bu səmimi görüşə, xoş sözlərə görə təşəkkür edirəm. Türkiyə Respublikası dost və qardaş Azərbaycanı hər sahədə daim dəstəkləyəcəyini bildirirəm. Cənab prezident, mən də Sizi və Azərbaycan xalqını Ramazan bayramı münasibətilə ürəkdən təbrik edirəm. Sizə möhkəm cansağlığı və uğurlar arzulayıram. [41]

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL VƏ XANIMI NƏZMİYYƏ DƏMİRƏL İLƏ GÖRÜŞDƏKİ* SÖHBƏTDƏN

*Ankara,*
*Gülhanə Tibb Akademiyası*

*19 yanvar 1999-cu il*

**Süleyman Dəmirəl**: Əziz dostum, qardaşım, xoş gördük. Sizi Ramazan bayramı münasibətilə səmimi qəlbdən təbrik edirəm. Bu mübarək Ramazan bayramında ulu tanrıdan Sizə möhkəm cansağlığı arzulayır, ən xoş arzularımızı bildiririk.

Sizin müayinə və müalicəniz haqqında Gülhanə Tibb Akademiyasının rəhbərliyi mənə mütəmadi məlumat verirlər. Səhhətinizin yaxşı olduğunu, yaxın zamanda müayinə və müalicənin başa çatacağını söyləyirlər.

**Heydər Əliyev**: Azərbaycan xalqının və şəxsən mənim əziz dostum, qardaşım Süleyman Dəmirəl və Nəzmiyyə xanım Türkiyənin məşhur tibb ocağı olan Gülhanə Tibb Akademiyasındakı müayinə və müalicə dövründə yaradılan şəraitə və göstərilən hərtərəfli qayğıya görə Sizə öz təşəkkürümü bildirirəm. Gülhanə Tibb Akademiyasının həkimləri[42-43]nin dərin biliyə və yüksək professionalizmə malik olduqlarını xüsusilə qeyd etmək istəyirəm. Burada mən çox böyük diqqət və qayğı ilə əhatə olunmuşam. İndi özümü çox yaxşı hiss edirəm, səhhətim gündən-günə yaxşılaşır.

Əziz dostum, qardaşım Süleyman bəy!

Azərbaycan xalqının Sizə böyük sevgisi, xüsusi hörmət və məhəbbəti vardır. Azərbaycan xalqı Sizi türk dünyasının böyük bir oğlu kimi tanıyır. Son illər biz ən böyük dəstəyi Türkiyədən alır, Azərbaycan xalqı milli azadlıq mübarizəsinə qalxarkən Siz xalqımıza dayaq durmusunuz, kömək etmisiniz, onu dəstəkləmisiniz. Biz yaxşı bilirik ki, Azərbaycanın Dünya Birliyi tərəfindən tanınmasında, Türkiyənin Azərbaycanı müstəqil dövlət kimi tanımasında Sizin xüsusi xidmətləriniz vardır. Şübhə etmirik ki, Azərbaycan Respublikasına, xalqımıza indiyədək göstərdiyiniz diqqət və qayğı bundan sonra da davam edəcək, dövlətlərimiz arasında bütün sahələrdə olan əməkdaşlıq daha da dərinləşəcək və inkişaf edəcəkdir.

Əziz dostum, qardaşım Süleyman bəy, Sizə və Nəzmiyyə xanıma məni ziyarət etdiyinizə, göstərdiyiniz diqqətə görə təşəkkür edirəm. Sizi Ramazan bayramı münasibətilə səmimi qəlbdən təbrik edirəm və bütün türk xalqına bayram təbriklərimi və xoş arzularımı çatdırmağı xahiş edirəm. [43]

* Türkiyə Respublikasının prezidenti Süleyman Dəmirəl yanvarın 20-də, 21-də, 22-də, 24-də, 27-də, 28-də də Gülhanə Tibb Akademiyasına gəlmiş, Heydər Əliyevin səhhəti ilə maraqlanmışdır. Bu görüşlərin hər birində Azərbaycan–Türkiyə əməkdaşlığının ardıcıl surətdə inkişaf etdirilməsi, beynəlxalq vəziyyət, bir sıra regional problemlər haqqında fikir mübadiləsi aparılmışdır.

## TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİ İSMAYIL CƏM İLƏ GÖRÜŞDƏKİ* SÖHBƏTDƏN

*Ankara,*
*Gülhanə Tibb Akademiyası*

*19 yanvar 1999-cu il*

**İ s m a y ı l  C ə m**: Cənab prezident, Sizi Türkiyədə görməyimdən məmnun olduğumu bildirir, Sizi Ramazan bayramı münasibətilə təbrik edir, uzun ömür, möhkəm cansağlığı arzulayıram.

**H e y d ə r  Ə l i y e v**: Ankaraya gəldiyim ilk gündən mənə göstərdiyi yüksək qayğı və qonaqpərvərliyə görə Türkiyə Respublikasının prezidentinə və hökumətinə təşəkkürümü bildirirəm. Keçmiş SSRİ rəhbərliyində olduğum zaman mən ölkənin səhiyyə sahəsinə də rəhbərlik edirdim. Bununla əlaqədar dünya səhiyyə sahəsində olan bütün nailiyyətlərdən xəbərdar olurdum. Məhz buna görə də Gülhanə Tibb Akademiyasını müasir dünya standartlarına uyğun bir tibb ocağı kimi qiymətləndirir və burada fəaliyyət göstərən mütəxəssislərin dərin biliklərə və yüksək professionallığa malik olduqlarını bildirirəm.

Mən Sizi yenidən Türkiyə Respublikasının xarici işlər naziri vəzifəsinə təyin olunmağınız münasibətilə təbrik edirəm və [44-45] Türkiyənin yeni hökumətinə fəaliyyətinizdə uğurlar arzulayıram. Sizi Ramazan bayramı münasibətilə təbrik edirəm.

**İ s m a y ı l  C ə m**: Bu təbriklərə və xoş sözlərə görə təşəkkür edirəm. Sizə möhkəm cansağlığı arzulayır, qardaş və dost Azərbaycan xalqına səmimi salamlarımı yetirirəm. [45]

* Türkiyə Xarici İşlər Nazirliyinin idarə rəisi Candan Azər də Gülhanə Tibb Akademiyasında olmuş, Heydər Əliyevə möhkəm cansağlığı arzulamışdır.

## AzərTAC-ın VƏ AZƏRBAYCAN TELEVİZİYASININ MÜXBİRİNƏ MÜSAHİBƏ

*Ankara,*
*Gülhanə Tibb Akademiyası*

*19 yanvar 1999-cu il*

**S u a l: Möhtərəm cənab prezident, hazırda özünüzü necə hiss edirsiniz?**

**C a v a b**: Özümü yaxşı hiss edirəm. Mən buraya gələndə də özümü yaxşı hiss edirdim. Mən artıq dünəndən buradayam. Dünən, bu gün burada bir çox müayinələr keçiriblər və eyni zamanda məni müalicə ediblər. Ona görə də vəziyyətim çox yaxşıdır, normaldır. Mən artıq burada görüşlər keçirirəm, danışıqlar aparıram.

**S u a l: Cənab prezident, Gülhanə Tibb Akademiyası haqqında Sizin təəssüratınız necədir?**

**C a v a b**: Bilirsiniz, mənə bura haqqında akademiyanın rəisi də danışıbdır, eyni zamanda mənim əziz dostum, prezident Süleyman Dəmirəl də danışıbdır. Bu, çox qədim bir tibb akademiyasıdır və tibb sahəsində çox yüksək elmi və praktiki təcrübəsi olan, çoxprofilli bir tibb akademiyasıdır. Bunlar böyük işlər görürlər. Bunların demək olar ki, dünyanın bütün tibb mərkəzləri ilə əlaqələri vardır və çox yaxşı mütəxəssisləri vardır. Buna görə də çox məmnunam ki, mən – doqquz ildən artıq nə xəstəxana, nə də həkim görməyən adam ilk dəfə belə bir xəstəxanadayam. [46-47]

**S u a l: Cənab prezident, bu günlər ərzində Türkiyə rəhbərliyinin Sizə çox böyük diqqət göstərdiyinin şahidi olduq. İki dəfə prezident Süleyman Dəmirəl ilə, Böyük Millət Məclisinin sədri Hikmət Çətinlə, Baş nazir Bülənd Ecevitlə, xarici işlər naziri İsmayıl Cəm ilə görüşmüsünüz. Bu görüşləri necə qiymətləndirirsiniz?**

**C a v a b**: Mən bu görüşləri çox yüksək qiymətləndirirəm və bunu müəyyən qədər də təbii hesab edirəm. Çünki, birincisi, bu insanların hər biri mənim şəxsi dostumdur. Biz artıq bir çox ildir ki, dostluq əlaqələri saxlayırıq, - vəzifəmizdən asılı olaraq, ya asılı olmayaraq. Ona görə də mən bunu təbii hesab edirəm. Bir halda ki, məni buraya müalicəyə Süleyman Dəmirəl dəvət etdi, bir halda ki, mən buraya gəlmişəm, onların gəlib mənimlə görüşməyi təbii bir haldır. Mən bunu yüksək qiymətləndirirəm. Eyni zamanda bu, Türkiyənin dövlət, hökumət başçılarının nə qədər insani xüsusiyyətlərə malik olduğunu göstərir, nə qədər qayğıkeş olduqlarını göstərir, nə qədər səmimi və mehriban olduqlarını göstərir. Həmçinin bu, Türkiyə–Azərbaycan dostluğunun nə qədər səmimi, nə qədər qardaşlıq dostluğu olduğunu bir daha nümayiş etdirir. Mən bunlardan çox razıyam.

**S u a l: Möhtərəm cənab prezident. Bilirsiniz ki, xalqımız çox böyük həyəcan keçirir. Çünki Siz 30 ildir ki, Azərbaycanın rəhbəri kimi çalışırsınız. Bu 30 ildə birinci dəfədir ki, Sizdən müsahibəni müayinə və müalicə olunduğunuz zaman alırıq. Çoxlu teleqramlar, fakslar daxil olur, çoxsaylı telefon zəngləri gəlir. Buradan Azərbaycan xalqına nə demək istərdiniz.**

**C a v a b**: Mən bilirəm, mənə də məlumat verirlər ki, xalqımız həyəcan keçirir, narahatlıq vardır. Mənə olan bu münasibətə, mənim xəstələndiyim bu anda mənə olan bu diqqətə, qayğıya görə Azərbaycan xalqına təşəkkür edirəm. Eyni zamanda belə düşünürəm ki, bizim xalqımız mənim xəstələnməyimi heç vaxt görməmişdi. Bəli, keçmiş illərdə də, yəni 70-[47-48]ci illərdə mən Azərbaycanın başçısı işləyərkən də bunu görməmişdilər. 1993-cü ildən mütəmadi olaraq, fasiləsiz, mənim bir gün də istirahətim olmayıbdır, bir gün də olsun evdə olmamışam. Həmişə işdə olmuşam, işləmişəm. Ona görə də onlar müəyyən qədər öyrənməyiblər. Bəzən elə dövlət başçıları olur ki, onlar xəstələnirlər, xəstəxanaya gedirlər, müalicə olunurlar. Cəmiyyət buna öyrəncəli olur, ona görə də həm təəccüb etmir, həm də həyəcan keçirmir. Amma mən Azərbaycana rəhbərlik etdiyim dövrdə bizim cəmiyyətimizi, xalqımızı başqa bir şeyə öyrətmişəm ki, Heydər Əliyev nə xəstələnə bilər, nə istirahət edə bilər, nə də yorula bilər.

Hamıya məlumdur ki, mən həftənin beşinci günü saat 10-a qədər iş yerimdə olmuşam. Altıncı gün də işə getməyə hazırlaşırdım. Çünki orada saat 2-yə bir toplantı təyin olunmuşdu. Ancaq o vaxta qədər mənim temperaturum, hərarətim qalxdı, özü də çox güclü qalxdı və məndə öskürmə başladı. Mən artıq özüm belə düşündüm ki, bu vəziyyətdə işə getməyim yaxşı olmaz. Ona görə də Artur Rasizadəyə və Ramiz Mehdiyevə tapşırdım ki, o müşavirəni keçirsinlər. Özüm isə hesab edirdim ki, yəqin, axşama qədər temperatur aşağı düşər.

Mən həftənin ikinci günündən qrip xəstəliyini özümdə hiss etmişdim və demək olar ki, bir neçə gün işə temperaturum ola-ola getmişdim. Ancaq həftənin altıncı günü işin axırında bu temperatur daha da artdı. Bunlar hamısı belə bir vəziyyətə gətirdi ki, məni artıq həkimlər müalicəyə başlamalıdır. Onlar da müalicə etdilər, çox yaxşı etdilər. Mən deyə bilərəm ki, artıq Süleyman Dəmirəl Bakıya həkimlər göndərmişdi. Onlar gəlmişdilər. Amma o vaxt mənim vəziyyətim artıq normal idi və mən buraya gəlmək istəmirdim. Anc-

aq prezident Süleyman Dəmirəl mənə bir daha telefon etdi və dedi ki, mən çox xahiş edirəm gələsən, burada müayinə olunasan. Mən də bu dəvəti qəbul etdim və gəldim. [48-49]

Mən xalqımıza minnətdarlığımı bildirirəm. Bu 30 ildə müəyyən bir fasilə olubdur ki, mən Azərbaycanda olmamışam. Ancaq bütün bu illərdə, mənim Azərbaycana rəhbərlik etdiyim dövrdə həmişə Azərbaycan xalqının mənə olan böyük etimadını, böyük məhəbbətini hiss etmişəm. Yəqin ki, elə bunlar da mənə bütün bu işləri, bu ağır işləri aparmağa həmişə kömək edibdir. Əgər bu etimad, bu inam olmasaydı, 1993-cü ildə vətəndaş müharibəsinin qarşısını almaq olmazdı. Bilirsiniz ki, onun qarşısını mən xalqla birlikdə aldım. Yaxud da ki, 1994-cü ildə dövlət çevrilişinin qarşısını almağa xalq gəldi. Xalq mənim çağırışımla Prezident sarayının qarşısına gəldi və çevriliş cəhdinin qarşısını aldıq.

1995-ci ilin mart ayında yenə xalqın dəstəyi ilə bunların qarşısını aldıq.

Ona görə mən artıq bir neçə dəfə xalqla birlikdə belə imtahanlardan çıxmışam. Xalqın mənə olan məhəbbəti məlumdur. Nəhayət, keçən ilin oktyabr ayında prezident seçkilərində demokratik seçkilər nəticəsində xalq yenə də mənə etimad göstərdi. Ona görə də bu təbiidir, onlar mənə daim etimad göstəriblər, daim öz məhəbbətlərini bildiriblər. İndi isə onlar həyəcanlanırlar, - bu təbiidir.

İnsanın ailəsində bir adam xəstələnəndə, məsələn, mənim oğlum iki gün xəstə olanda mən narahat oluram, işdə olanda telefon edirəm, - nə oldu, temperaturu varmı, yoxmu və s. Amma mən xalqımızla o qədər doğmalaşmışam ki, xalqın mənə münasibəti təbiidir və mən də buna görə Azərbaycan xalqına, bütün Azərbaycan vətəndaşlarına bir daha təşəkkürümü bildirirəm.

Buraya gəlməyim məni bir şeydən məhrum etdi. Bilirsiniz ki, 20 Yanvar faciəsi bizim xalqımızın böyük faciəsidir və bunu heç vaxt unutmaq olmaz. 1990-cı ildə bu faciə baş verən kimi, mən yanvar ayının 21-də Moskvada öz etirazımı bildirdim, öz səsimi dünyaya qaldırdım və o vaxtdan da mən Azər[49-50]baycan xalqına edilmiş bu təcavüzü xalqımızın həyatında ən dəhşətli bir səhifə hesab edirəm. Bizim şəhidlərin şəhidliyi və qəhrəmanlığı həmişə mənim üçün qiymətli olubdur. Ona görə də 1990-cı ildən indiyə qədər mən bu günü - matəm gününü həmişə xalqla bir yerdə keçirmişəm.

Məsələn, mən 1990-cı ildə Naxçıvana gəldim. Biz Naxçıvanda da 1991-ci ilin 20 Yanvarını, 1992-ci ilin 20 Yanvarını, 1993-cü ilin 20 Yanvarını böyük hüznlə qeyd edirdik. Çünki bu, bizim xalqımızın faciəsidir və matəm günü elan olunubdur.

Mən Azərbaycana gələndən sonra bu sahədə bir neçə addım atdım. Təəssüflər olsun ki, Azərbaycanın parlamenti, Milli Məclisi bu hadisə ilə bağlı lazımi müzakirə aparıb ona qiymət verməmişdi. Siz bunu bilirsiniz. Mən 1993-cü ilin sonunda, 1994-cü ilin əvvəlində təşəbbüs göstərdim və Azərbaycanın Milli Məclisi yanvar hadisələrini bir ay müzakirə etdi. 1994-cü ilin yanvarında böyük bir qərar çıxardıq. Mən hesab edirəm ki, bu da xalqımın qarşısında borcum idi. Am ma təəssüflər olsun ki, mənə qədər dörd il bunu heç kəs etməmişdi və nəhayət, xalqımıza qarşı edilmiş bu təcavüzə qiymət verildi. Çox dolğun, düzgün, obyektiv qiymət verildi, günahkarlar göstərildi.

Ancaq bu faciə elədir ki, biz bunu heç vaxt unuda bilmərik. Çünki biz həmişə xalqımızın gələcəyi haqqında düşünməliyik. Bu şəhidlərin şəhidliyi, Şəhidlər xiyabanı xalqımızın gələcək nəslinin, bugünkü gənclərin ziyarətgah yeridir və o şəhidlərin də şəhidliyi bizim hər bir vətəndaşımız üçün, gənclər üçün örnəkdir. Ona görə də mən son illər Şəhidlər xiyabanının abadlaşması üçün də çox tədbirlər gördüm. Nəhayət, keçən il mən orada əbədi məşəl abidəsi yaratdım. Bu, şəhidlərin xatirəsinə bugünkü hakimiyyət, dövlət tərəfindən verilən qiymətdir.

Təbii ki, mən bu il də 20 Yanvar faciəsi ilə əlaqədar lazım olan tədbirlər haqqında sərəncam vermişdim, komissiya ya[50-51]ratmışdım. Onlar çox işlər görüblər. Mən sabah - yanvarın 20-də Bakıda olmalı idim və Şəhidlər xiyabanını bir daha ziyarət etməli idim. Ancaq bu xəstəlik məni bundan məhrum etdi. Ona görə də mən xalqımızın bu faciəsini bir daha xatırlayıram, şəhidlərin şəhidliyini bir daha yüksək qiymətləndirirəm və o yanvar gecəsi xəsarət almış insanlara cansağlığı arzu edirəm. Şəhidlərin ailələrinə cansağlığı və firavan həyat arzu edirəm. Xalqımıza isə bu gün daha da bir olmaq, daha da yekdil olmağı, milli mənafe naminə birləşməyi və gələcəkdə Azərbaycanın suverenliyinə, müstəqilliyinə qarşı ola biləcək hər bir hadisənin qarşısını almağa qadir olmağı arzulayıram. Sağ olun. [51]

## AZƏRBAYCANIN ANS TELEŞİRKƏTİNİN XÜSUSİ MÜXBİRİNƏ MÜSAHİBƏ

*Ankara,*
*Gülhanə Tibb Akademiyası*

*19 yanvar 1999-cu il*

**S u a l**: **Cənab prezident, Siz burada da işləyirsiniz. Xarici işlər nazirini qəbul eləmisiniz, Süleyman Dəmirəl burada olubdur.**

**C a v a b**: Əlbəttə, işləyirəm. Siz yəqin ki, bunları çəkdiniz. Dünən çox adamlar gəliblər. Süleyman Dəmirəl də, Bülənd Ecevit də gəldi, Hikmət Çətin də gəldi.

**S u a l**: **Özünüzü necə hiss edirsiniz**?

**C a v a b**: Normal.

**S u a l**: **Cənab prezident, rəsmi diaqnoz nə qoyublar**?

**C a v a b**: Bilirsən, rəsmi diaqnozu doktor deyə bilər. Mən belə şeylərlə heç vaxt maraqlanmıram. Hər halda bir şey məlumdur ki, mən həftənin ikinci günü səhər duranda gördüm ki, bədənimdə nəsə ağrı var. Gündüz işlədim və hiss etdim ki, temperaturum var. Bunu bəzən hiss edirəm. Amma bu, mənim üçün qeyri-adi bir şey deyildir. Bəzən ya soyuq dəyir, ya qrip oluram, amma bunları ayaqüstə keçirirəm. Düzdür, bu, az hallarda olur, amma ara-sıra olur. Ona görə də bu günlərdə - ikinci, üçüncü, dördüncü günlər mən işləyərkən bir gün rahatsız olurdum, bir gün yaxşı olurdum.

Nəhayət, beşinci gün mən çox işlədim. Saat on idi, gedəndə gördüm ki, bədənim artıq çox istidir. Gəldim, temperaturu ölçdüm, gördüm ki, yüksəkdir – 38 dərəcəyə yaxındır. Aspirin [52-53] içdim ki,temperaturu aşağı salım. Mən artığ demişəm, doqquz ildir ki, həkimsiz yaşayıram, heç bir həkimlə əlaqəm yoxdur, heç bir müalicə aparmıram. Amma gecə gördüm ki,istim daha da qalxır. Məndə bir az da öskürmə əmələ gəldi. Səhər, altıncı gün sıyahıyaalma ilə əlaqədar müşavirə təyin eləmişdim, yadınızdadır.

**M ü x b i r**: **Bəli, Sizi orada görmədik, ondan narahat olduq.**

**H e y d ə r Ə l i y e v**: Bəli, saat 12-də onu mən özüm aparmalı idim. Fikrim də var idi ki, işə gəlim. Ancaq təxminən saat 1-ə yaxın gördüm ki, temperaturum çox qalxdı. Rasizadəyə və Mehdiyevə telefon elədim və dedim ki, iclası siz aparın, mən gəlməyəcəyəm.

Ondan sonra, axşam istiliyim daha da qalxdı. Mən yenə də istəyirdim ki, istiliyimi aspirinlə aşağı salım. Ancaq axşam saat 9-da, 10-da öskürmə artdı. Onda mən həkimlərə müraciət etdim. Gəldilər, mənə iynə - antibiotiklər vurdular. Məndə yüksək temperatur, öskürmə iki-üç saat davam etdi. Şübhəsiz ki, bunlar da məni bir az zəiflətdi.

İlham mənim belə vəziyyətimi gördü və dostum prezident Süleyman Dəmirələ sadəcə telefon etdi. Şübhəsiz ki, o da narahat olduğuna görə, dərhal iki təyyarə ilə həkimlər göndərdi. Onlar gələnə qədər artıq məndə temperatur da keçmiş, normallaşmışdı, öskürmə də kəsilmişdi və mən hesab edirdim ki, bazar günü yenə işə gedə bilərəm. Ancaq bunlar gəldilər, məsləhətləşdilər. Gecə Rusiyadan da bir briqada kardioloqlar gəldi, onlar da bizim Cəmilin (professor Cəmil Əliyev – red.) dostlarıdır, öz təşəbbüsü ilə telefon edib çağırmışdı.

Onlar və bunlar, yəni Türkiyədən gələnlər, Rusiyadan gələnlər məsləhətləşdilər və hamısı bir yerdə gəlib mənə dedilər ki, heç şey yoxdur. Ancaq bir halda ki, siz doqquz ildir həkimsiz yaşayırsınız, heç bir müayinə keçməmisiniz, - hər halda həyatınızda ağır bir neçə saat olubdur, - ona görə də haraya istəyirsiniz müayinəyə gedin. [53-54]

Şübhəsiz ki, məni prezident Süleyman Dəmirəl dəvət etmişdi. Mən yenə də tərəddüd edirdim. Sonra həkimlər prezident Süleyman Dəmirələ xəbər verdilər. O, mənə telefon etdi, çox təkidlə, qardaşyana dedi ki, səni görmək istəyirəm, buraya gəl, - həm görüşək, həm də müayinə, müalicə olun. Ona görə də mən qərara aldım və gəldim buraya. Burada qeyri-adi bir şey yoxdur.

**S u a l**: **Cənab prezident, bizi narahat edən başqa şeydir. Azərbaycan televiziyasından Sizin səhhətiniz haqqında məlumatı eşidəndə, sözün düzü, çox nigaran olduq. Bu informasiyanın efirə getməsinə, ümumiyyətlə, bu şəkildə yayılmasına Siz özünüzmü icazə vermisiniz**?

**C a v a b**: Nəinki icazə vermişəm, bu mənim öz təşəbbüsüm idi. Çünki niyə? Bir halda ki, gecə Türkiyədən təyyarə ilə həkimlər gəldilər və Moskvadan həkimlər gəldilər, mən belə anladım ki, cürbəcür şayiələr yayılacaqdır. Ona görə mən özüm səhər Əli İnsanova göstəriş verdim, dedim ki, kiçik bir xəbər hazırla, ver. Çünki başqa dövlət başçıları xəstələnir, nə bilim, qrip olurlar, o dəqiqə məlumat verirlər. Mən də dedim ki, hazırla, ver. Mən bunu sadəcə, insanların cürbəcür şayiələr yaymamasına görə dedim. Bilirəm ki, bu həkimlərin gəlməyini kimsə görübdür, kimsə bilibdir. Hərə bir şayiə yayacaq ki, Türkiyədən birdən-birə həkimlərlə iki təyyarə gəldi. Ona görə də bunu mən özüm etdim.

**M ü x b i r**: **Amma orada terminoloji çətinliklər var idi.**

**H e y d ə r Ə l i y e v**: Nə idi?

**M ü x b i r: Kəskin respirator virus infeksiyası fonunda obstruktiv..., Nə bilim nə. Bəlkə də camaatı çaşdıran elə bu olub ki, xəstəliyin adı belə çətindirsə, görəsən, özü necədir?**

**C a v a b**: Yəqin ki, bizim səhiyyə naziri, gərək daha sadə dildə deyəydi.

**S u a l: Cənab prezident, bu həm də strateji seçimdir - Siz Rusiyanı yox, məhz Türkiyəni seçdiniz. Bu, böyük neftin Cey[54-55]handan keçməsi ilə bağlı Azərbaycan prezidentinin daha bir eyhamı deyilmi?**

**C a v a b**: Bilirsən, siz jurnalistlər böyük şeyləri kiçildirsiniz. Bu, Azərbaycanla Türkiyə arasında olan dostluq, qardaşlıq əlaqəsinin bir daha təzahürüdür. Mənim prezident Süleyman Dəmirəllə də çox səmimi, qardaşcasına dostluğumun təzahürüdür. İnsan xəstələnəndə, yaxud bir çətinliyə düşəndə ən yaxın adamları ilə bir yerdə olur, elədirmi? Bunlar ailə üzvləridir, dostlardır. Süleyman Dəmirəl mənim çox qədim dostumdur. Otuz ildən artıqdır biz bir-birimizi tanıyırıq və əlaqələrimiz də həmişə davam edibdir. Gecə biz İlhamla bərabər onunla iki-üç dəfə telefonla danışırıq – başa düşürsünüz, narahat olubdur, məni də dəvət eləyibdir. Belə olan halda mən hara gedə bilərdim? Bu, birincisi. İkincisi də, əgər seçim olsaydı, mənim özümə qalsaydı ki, hansı ölkəyə gedim, mən yenə də Türkiyəyə gələcəkdim. Bu, heç də Bakı - Ceyhanla əlaqədar deyildir. Bu, Azərbaycanla Türkiyənin əlaqələrinin nə qədər qardaşlıq əlaqələri olduğunu göstərir və bir də bizim münasibətlərimizin nə qədər strateji əhəmiyyət xarakteri daşıdığını göstərir.

**S u a l: Sizin Süleyman Dəmirəllə münasibətlərinizdən mənim xəbərim var. Səhv eləmirəmsə, Siz demişdiniz ki, Süleyman Dəmirəl elə adamdır ki, mənim qolumu da istəsə, ona verərəm. Öz canınızı ona etibar eləməklə bunu bir daha sübut etdiniz.**

**Amma bu sual mənim sualım deyil, müxalifət mətbuatında daha çox hallanan suallardan biridir. Yeri gəlmişkən, müxalifət mətbuatını izləyə bilirsinizmi, burada imkanınız varmı?**

**C a v a b**: Bilirsiniz, mən heç vaxt ona o qədər fikir vermirəm. Bu gün burada mənə bir az danışdılar. Əgər sən bu barədə bir məlumat vermək istəyirsənsə, buyur.

**S u a l: Sizin xəstəliyiniz müxalifət mətbuatında çox nara-hatlıqla izlənilir və bu narahatlıq çox özünəməxsusdur. Məsələn, mən bu ifadəni heç dilimə gətirmək istəmirəm, çox qəribə, [55-56] axmaq hazırlıq, tədarük ovqatı var, - nə bilim, Mürtuz Ələsgərov hələlik prezident oldu və sair. Mən belə, bu tipli söhbətlərə sizin münasibətinizi soruşmaq istəyirəm də, istəmirəm də.**

**C a v a b**: Sən narahat olma, istə. Onların arzusu gözlərində qalacaqdır. Murtuz Ələsgərov prezident olmayacaqdır, çünki mən prezidentəm. Mən sənə deyim ki, buraya gəlmək haqqında qərar qəbul edəndən sonra təhlükəsizlik şürasının üzvlərini və bir neçə başqa rəhbər vəzifəli şəxsləri iqamətgaha dəvət etdim, bu xəstəliyim haqqında özüm məlumat verdim. Onlara dedim ki, mən qərar qəbul etmişəm. Türkiyəyə gedirəm. Göstərişlərimi verdim – kim nə etməlidir, kim nə iş görməlidir və bəyan etdim ki, mənim elə bir ağır xəstəliyim yoxdur ki, səlahiyyətimi kiməsə verim.

Ona görə prezident səlahiyyətləri mənim özümdədir. Mən bu gün də, dünən də Ankaradan Azərbaycanın prezidenti səlahiyyətlərini həyata keçirirəm. Əlaqə saxlayıram, mənə məlumatlar verilir, mən göstərişlər verirəm. Ona görə də mən səlahiyyətlərimi heç kəsə verməmişəm. Nə üçün belə qəribə şeylər qururlar ki, «Murtuz Ələsgərov nə qədər prezident ola biləcəkdir?». Onlar yəqin ki, mənim vəfat etməyimi arzu edirlər.

Bilirsiniz, bu arzularla yaşayan insanlara mən insan deyə bilmərəm. İnsan bir-birinə nə qədər pis münasibət də bəsləsə, hətta düşmən də olsa, humanist olmalıdır. Amma müxalifətdə meydana gələn həmin o sən dediyin fikirlər onların nəinki humanist olmadığını, onların vəhşi olduğunu, mədəniyyətdən tamamilə uzaq olduqlarını göstərir.

Bizim xalqımızın mənəvi dəyərlərindən biri də odur ki, çətin vəziyyətdə insan həmişə başqa şeyləri unudub öz xoş münasibətini göstərməlidir. Ancaq əgər mən bir gün xəstə olmuşamsa... Başqaları, hökumət başçıları var, on gün, on beş gün xəstə olurlar. Nə oldu, indi mən bir gün, iki gün xəstə olmuşam, belə cürbəcür fərziyyələr irəli sürürlər. [56-57]

Mən sənə deyirəm və sən də bunların hamısını ver efirə: onların arzuları gözlərində qalacaqdır. Heydər Əliyev hələ bir çox illər prezidentliyini davam etdirəcəkdir və Azərbaycanın problemlərini həll edib, Azərbaycanı inkişaf etmiş bir dövlət kimi başqa əllərə verəcəkdir.

**S u a l: İnşallah, nə vaxt çıxacaqsınız?**

**C a v a b**: Bunlar deyirlər ki, hələ bir iki-üç gün də müayinə lazımdır. Mən bunlarla razıyam. Məsələn, bir şey deyim. Dünən diş həkimi gəlmişdi, deyir dişlərinizi göstərin. Baxır mənim dişlərimə, deyir ki, bunlar cümhur başkanının dişləri ola bilməz. Dedim niyə? Dişlərim sağlamdır, mən yeyirəm, özü də bu yaşımda hamısı öz dişlərimdir. Deyir ki, yox, bax, bunu müalicə etmək lazımdır, onu etmək lazımdır. Təsəvvür edin ki, həqiqətən, doqquz ildir mənim dişlərimə bir diş həkimi baxmayıbdır. Amma, məsələn, vaxtilə mən Moskvada Siyasi Büroda işləyəndə qanun idi ki, gərək ayda bir dəfə dişlər profilaktika nöqteyi-nəzərindən yoxlanılsın, nə bilim, daş varsa təmizlənsin, profilaktik dərmanlar vurulsun. O vaxt mən buna riayət edirdim, çünki orada o şəraitdə idim.

Amma mən 90-cı ildə oradan Naxçıvana gəldim, - hansı imkanım var idi bunu etməyə? Bakıya gələndən sonra mənim imkanım var idi. Ancaq bunu bilin, mən belə qərar qəbul etdim: üç il ki, o ağır blokada şəraitində həkimsiz və böyük məişət çətinlikləri içərisində yaşadım, hesab etdim ki, bundan sonra da heç bir həkimə, tibbə müraciət etməyəcəyəm, təbiət, Allah-taala məni yaşadıb, yaşadacaqdır. Enerjim var, işləyirəm, yorğunluğum-filanım yox, nə üçün müraciət edim.

Ona görə də indi bunlar deyirlər, - bir halda ki, doqquz ildir müayinə olunmamısan, bir neçə gün də qalmaq lazımdır. Düzdür, gələn günü çox şeyləri – qan analizi, başqa şeylər ediblər, cürbəcür aparatlarla baxıblar. İndi mənim burada olmağım yalnız bununla bağlıdır. [57-58]

Mən də düşündüm, - bir halda ki, «ibtidai icma şəraitində» doqquz il yaşamışam, heç olmasa indi müasir şəraitə keçim. Ona görə razılıq verdim ki, qoy nə yoxlama aparırlarsa - aparsınlar, orqanizmin bütün hüceyrələrini yoxlasınlar, bilsinlər nə var, lazım olsa müxalifətə də göstərərlər ki, arxayın olsunlar.

**S u a l: Heydər müəllim, bu, balaca da olsa, sınaqdır. Mən son sualımı verirəm, Sizi yormaq istəmirəm. Bu sınaqdan yaxın və uzaq ətrafınız necə çıxdı? Bir prezident kimi bunu necə qiymətləndirirsiniz?**

**C a v a b**: Bu sınaqdan mən özüm çıxıram, necə yəni yaxın və uzaq... Mən xəstələnən kimi oğlum yanımda, yaxınlarım, ailə üzvlərim mənim yanımdadır. Başqa bir adam yoxdur mənim yanımda. Yəni o axşam ki, məndə temperatur qalxdı, səhərə qədər heç bilmirdilər, mən telefon eləyənə qədər heç xəbərləri də yox idi ki, gecə Süleyman Dəmirəl mənə telefon edib, həkimlər göndəribdir. Heç birisinin xəbəri yox idi, hamısı yatmışdı. Amma ona görə yox ki, onlar biganə olmuşdular. Sadəcə, mən heç kəsə heç bir şey deməmişdim, çünki buna ehtiyac duymamışdım. Mən hesab edirdim ki, keçib gedəcəkdir. Ona görə də mən özüm onları dəvət etdim, sınaqdan keçməyə imkanları da yox idi. Mən onları özüm dəvət etdim, göstərişlərimi verdim. Güman edirəm, onlar mənim göstərişlərimi düzgün yerinə yetirirlər.

Amma İlham da təsadüfi gəlmişdi. Eşitdi ki, mən işə çıxmamışam, - özü işdə idi, - telefon elədi ki, niyə işə çıxmamısan? Dedim ki, belədir. Dedi, yaxşı, gələcəyəm. İndi mənə deyir ki, saat 4-də gəlmək istəyirdim, sonra işdə başım qarışdı. Axşam saat 9-da gəldi. O gələndə məndə temperatur artıq çox yüksək idi, öskürək də artmışdı. Yaxud da qardaşım Cəlal, - deyəsən gecəyarısı idi, - haradansa bilmişdi, gəlmişdi. İlham gələndən sonra bizim Cəmili dəvət etmişdi. Çünki Cəmil də bizim yaxın qohumumuzdur, həkimdir, doğma adam[58-59]dır. Mənim yanımda başqa bir adam yox idi. Sonra həkimlər gəldilər.

**S u a l: «Azərbaycan» qəzetində verilmiş rəsmi informasiyaya əsasən, konsiliumda kardioloqlar çoxdur. Yeri gəlmişkən, müxalifət mətbuatı Sizin bronxlarınız haqqında yox, nə üçünsə, ürəyiniz haqqında yazır.**

**C a v a b**: Yəqin ki, müxalifət tibdən az şey bilir. Mənim əsas bronxlarımdır. Ancaq bronxlar ürəklə çox sıx əlaqədədir. Onlar bu işləri yəqin bilmirlər. Bu da məlumdur, gizlin deyil ki, mən 1987-ci ildə Moskvada infarkt xəstəliyi keçirmişəm. Ancaq sonra mən çox enerjili yaşadığıma görə, məndə bəzən şübhə olurdu ki, bəlkə heç infarkt olmayıb. Sadəcə, o vaxtlar məni işdən uzaqlaşdırmaq istəyir, mənim başıma işlər gətirirdilər. Amma indi bunlar yoxladılar ki, həqiqətən məndə infarktın izi var. İndiyə qədər yoxlanmamışdı, indi dedilər ki, infarktın balaca bir izi var. Ona görə də təbiidir, ürəklə ağ ciyər bir-biri ilə çox bağlıdır. Əgər tibb mövzusuna keçsək, orqanizmin hər bir orqanı bir-biri ilə bağlıdır.

**M ü x b i r: Heydər müəllim, Sizi yormuram. Tez sağalın, Allah şəfa versin, Sizi Bakıda gözləyirik.**

**H e y d ə r Ə l i y e v**: Sağ ol. Mən təşəkkür edirəm ki, sən maraq göstərib buraya gəlmisən. [59]

## TÜRKİYƏNİN «NƏRGİZ-TV» TELEVİZİYASINA MÜSAHİBƏ

*Ankara,*
*Gülhanə Tibb Akademiyası*

*20 yanvar 1999-cu il*

**S u a l: Hörmətli prezident Heydər Əliyev, Türkiyəyə xoş gəlmisiniz. Ramazan bayramı münasibətilə Sizi təbrik edirəm. Siz bayramı Azərbaycandan kənarda keçirirsiniz. Bu barədə nə demək istərdiniz?**

**C a v a b:** Mən də sizin bayramınızı təbrik edirəm və «Nərgiz-TV» vasitəsilə qardaş Türkiyə Cümhuriyyətinin bütün vətəndaşlarına öz bayram salamlarımı yetirirəm. Bəli, ilk dəfədir ki, Ramazan bayramı zamanı ölkəmizdə deyiləm. Amma Türkiyə də mənim üçün doğma bir yerdir. Ona görə də bu o qədər də fərqli deyildir.

Siz onu da bilməlisiniz ki, bu gün Azərbaycanın tarixində ən faciəli günlərdən biridir. Bu gün 20 Yanvar faciəsi günüdür. 1990-cı il yanvarın 20-də sovet kommunist rejimi Azərbaycan xalqının suverenliyinə, milli azadlıq duyğularına qarşı hərbi təcavüz etmişdir. Azərbaycana, xüsusən Bakı şəhərinə bir gecənin içində çoxsaylı əsgər, ordu dəstələri yeridilmiş, tanklardan, toplardan atəş açılmış, günahsız, dinc insanlar qırılmışdır. Bir gecədə 135 nəfər həlak, şəhid oldu, 740–750 nəfərdən çox adam yaralandı, xəsarət aldı. Onlar indi də həmin yaralarla yaşayırlar.

Bu gün Azərbaycanda matəm – hüzn günüdür. Mən həmişə 20 Yanvarda matəm mərasimlərində oluram. Amma bu il [60-61] bundan məhrum oldum. Bu matəm mərasimlərinə bu il də əvvəlcədən böyük hazırlıq işləri görülübdür.

Türkiyədə özümü doğma məmləkətimdəki kimi hiss edirəm. Ona görə də burada heç bir sıxıntım yoxdur.

**M ü x b i r: Cənab prezident, Siz öz xalqınıza bu barədə demək istədiyiniz sözlərinizi «Nərgiz-TV» vasitəsilə də çatdıra bilərsiniz.**

**H e y d ə r Ə l i ye v :** Mən şəhidlər günü münasibətilə Azərbaycan xalqına bir daha iradəli olmağı arzulayıram. Azərbaycanın müstəqilliyini qorumaq üçün hər bir vətəndaş əlindən gələni etməlidir.

1990-cı il 20 Yanvar faciəsi baş verəndə Azərbaycan Sovetlər Birliyinin tərkibində idi. Ancaq 1991-ci ildə Azərbaycan öz dövlət müstəqilliyini əldə etdi. Bu da Azərbaycan xalqının tarixində çox böyük bir hadisədir.

Biz 7 ildir ki, Azərbaycanın müstəqilliyini qoruyub saxlamışıq. Əlbəttə, bu, bizim üçün o qədər də asan bir iş deyildir. Ancaq xalqımız müstəqil yaşamaq istəyir. Ötən 7 ildə bu müstəqilliyi yaşatmaq Azərbaycan prezidenti kimi mənim vəzifəm olubdur.

Bu matəm günü arzu edərdim ki, insanlarımız tökülən qanları, verilən şəhidləri heç vaxt unutmasınlar və Azərbaycanın müstəqilliyi uğrunda bundan sonra daha da sıx birləşsinlər.

**S u a l: Hörmətli prezident, Siz Süleyman Dəmirəllə görüşünüzdə dediniz ki, 9 ildir həkimlərə müraciət etmirsiniz.**

**C a v a b:** Bəli. Çünki həkimlərə ehtiyacım yox idi. Mən Moskvadan 1990-cı ildə ayrılmışam. Təbii ki, orada mənim həkimlərim var idi. Ancaq ondan sonra mənim həyatım çox çətin şəraitdə keçdi. Öz həkimim olmasına imkanım yox idi, amma heç ehtiyac da duymurdum. Hesab edirdim ki, mənim orqanizmim çox möhkəm və dözümlüdür, həkimsiz də yaşamaq olar. Mən 9 il həkimsiz yaşamaqla bunu sübut etdim və belə bir eksperiment də keçirdim. [61-62]

**S u a l: Cənab prezident, Sizi burada Türkiyənin və Azərbaycanın həkimləri birgə müayinə və müalicə edirlər. Bundan məmnunsunuzmu?**

**C a v a b:** Məmnunam. Mən bu xəstəxanadan çox məmnunam. Ən öncə, mənim əziz dostum, qardaşım, Türkiyənin cümhur başqanı Süleyman Dəmirəldən çox məmnunam ki, o mənim kiçik rahatsızlığımla maraqlandı, telefon etdi, həkimlər göndərdi və məni Türkiyəyə dəvət etdi. Buraya gəldiyim andan mən onun qayğısı altındayam. Hər gün görüşürük. Bu gün də buraya gəlmişdi, yenə də görüşüb söhbət etdik. Mən çox məmnunam. Eyni zamanda, burada mənə qayğı, diqqət göstərən insanlardan çox məmnunam. Baş nazir Bülənd Ecevit, parlament sədri Hikmət Çətin buraya gəliblər, digərləri isə telefon edirlər, teleqramlar göndərirlər.

Bu xəstəxana da çox gözəl bir xəstəxanadır. Mən çox sevinirəm ki, Türkiyə Respublikasının belə gözəl hərbi xəstəxanası və həkimləri vardır. Burada dünyanın ən müasir müayinə və müalicə üsullarından istifadə edilir, ən önəmlisi odur ki, çox təcrübəli, bilikli həkimlər fəaliyyət göstərirlər. Onlar mənə çox yaxşı xidmət göstərirlər.

**S u a l: Hörmətli prezident, Türkiyə ilə Azərbaycan arasında əlaqələr qısa müddətdə çox sürətlə inkişaf edibdir. Bunun gələcəyini necə görürsünüz?**

**C a v a b**: Gələcəyi çox yaxşı olacaqdır. Çünki bizim əlaqələrimizin bu səviyyəyə gəlib çatması asan bir iş deyildir. Bu həm Türkiyənin, həm Azərbaycanın, həm xalqlarımızın, həm də hökumətlərimizin qarşılıqlı istəyi, arzusu nəticəsində meydana gəlmişdir. Amma buna mane olmaq, onu pozmaq istəyənlər də çoxdur. Ona görə də biz çox sayıq olmalıyıq, bu dostluğumuzu qorumalıyıq, möhkəmlənməliyik.

Bizim bu dostluğumuzun çox böyük gələcəyi vardır. Onun gələcəyi bizim kökümüzdədir. Bizi tarixi kökümüz birləşdirir. Amma eyni zamanda ölkələrimiz arasında yaranmış siyasi, [62-63] iqtisadi əlaqələr Azərbaycan - Türkiyə əməkdaşlığını daha da inkişaf etdirəcəkdir.

Bilirsiniz ki, Türkiyə Cümhuriyyətinin 75-ci ildönümündə – oktyabrın 29-da biz Ankarada böyük bir bəyannamə imzaladıq. Bakı- Ceyhan boru kəməri tarixi bir hadisədir. O, XXI əsrin sonunadək yaşayacaq, Türkiyə və Azərbaycan üçün çox böyük faydalar gətirəcəkdir.

**S u a l**: **Cənab prezident**, **Siz Türkiyə - Azərbaycan dostluğunu pozmaq istəyənlərdən danışdınız**. **Bunlar kimlərdir və nə etmək istəyirlər**?

**C a v a b**: Sizdə «paxıl» sözü var? Yəni bir adamın yaxşı olmasını istəməyən. Bu hər bir yerdə vardır. Bəzən görürsən ki, iki adam dost olur, amma üçüncüsü onu pozmaq istəyir. Elədirmi?

Dövlətlərə gəldikdə, Türkiyə dünyanın ən böyük və iqtisadi cəhətdən inkişaf etmiş güclü dövlətlərindən biridir. Azərbaycan isə Qafqazda coğrafi-siyasi cəhətdən çox böyük strateji mövqe tutan bir ölkədir. Azərbaycanın çox zəngin təbii yeraltı sərvətləri vardır. Azərbaycan Xəzərdəki yataqlardan neftin, qazın dünya bazarına çıxarılmasında çox böyük işlər görübdür. Ancaq bir çox ölkələr də vardır ki, onlar da bu işdə iştirak etmək istəyirlər. Onlar istəmirlər ki, Türkiyə ilə Azərbaycan bu qədər yaxın olsunlar. Bunların səbəbləri çoxdur, qısa vaxtda onların hamısını söyləmək mümkün deyildir.

**S u a l**: **Cənab prezident**, **təşəkkür edirəm**. **Sevinirəm ki**, **səhhətiniz çox yaxşıdır**. **Sizi belə yaxşı görmək bizi çox məmnun etdi**. **«Nərgiz -TV» ilə daha nə demək istərdiniz**?

**C a v a b**: Mən «Nərgiz-TV» televiziyasına təşəkkür edirəm. «Nərgiz-TV» 1997-ci ildə məni «Dünyada ilin dövlət adamı» elan etdi. Siz məni İstanbula dəvət etdiniz, orada mənə mükafat verdiniz, çox təntənəli bir mərasim keçdi. Mən onu unutmuram, çox yüksək qiymətləndirirəm. «Nərgiz-TV»- [62-63]nin verilişləri indi Azərbaycanda da yayılır. Azərbaycanda onun bürosu fəaliyyət göstərir.

Mənim dostum Cavid Çağlar vaxtilə Bakıya gəldi, biz bu məsələləri onunla bərabər həll etdik. Mən arzu edirəm ki, «Nərgiz-TV» daha da geniş yayılsın, böyük uğurlar əldə etsin.

Mən bu imkandan istifadə edib Türkiyənin bütün vətəndaşlarını Ramazan bayramı münasibətilə bir daha təbrik edirəm, türk xalqına sülh, əmin-amanlıq və səadət arzulayıram.

**M ü x b i r**: **Hörmətli prezident**, **Sizə çox təşəkkür edirəm**. **Sizə cansağlığı və işlərinizdə uğurlar arzulayıram**.

**H e y d ə r Ə l i y e v**: Sağ olun. [64]

## RUSİYANIN NTV TELEKANALININ MÜXBİRİNƏ AZƏRBAYCANDA 9-cu İLDÖNÜMÜ QEYD OLUNAN FACİƏ BARƏDƏ MÜSAHİBƏ

*Ankara,*
*Gülhanə Tibb Akademiyası*

*20 yanvar 1999-cu il*

Bu gün yanvarın 20-dir. Bu gün Azərbaycan üçün matəm günüdür. Ona görə matəm günüdür ki, 1990-cı il yanvarın 20-də Siyasi Büronun qərarı ilə və şəxsən Mixail Qorbaçovun qərarı ilə iri qoşun kontingenti insanları əzmək üçün bir gecənin içində Azərbaycana, xüsusən Bakıya yeridildi. Bu insanlar Dağlıq Qarabağla əlaqədar Ermənistanın Azərbaycana hücumunun qarşısını almaq və mərkəzin, - mən sovet rəhbərliyini nəzərdə tuturam, - Azərbaycan barəsində fəaliyyətindəki ədalətsizliyə son qoyulması üçün o vaxtkı Azərbaycan rəhbərliyindən də, Sovetlər İttifaqının rəhbərliyindən də daha təsirli tədbirlər görülməsini tələb edirdilər. Amma rəhbərlikdə olanlar bu dinc adamlara qarşı qoşun yeritməkdən başqa ayrı heç nə tapmadılar. Özü də bilirdilər ki, onlarda silah yoxdur, heç nə yoxdur, onlar, sadəcə olaraq öz etirazını, öz fikrini bildirmək üçün meydanlara toplaşırlar. Bu xalqdır. Lakin qoşun yeridib camaatı qırdılar. Bir gecədə 135 adam həlak oldu, onların arasında uşaqlar, qadınlar, qocalar vardı, halbuki bu adamlar həmin mitinqlərdə iştirak etməmişdilər. 740, yaxud 750 adam ağır yaralandı. [65-66]

Bax, belə bir ədalətsizlik oldu. Mən Sovetlər İttifaqının tarixini - İkinci dünya müharibəsinə qədərki tarixini də, ondan sonrakı tarixini də yaxşı bilirəm. Deyərdim ki, öz dövləti tərəfindən heç bir respublikaya qarşı belə təcavüz olmamışdı. Siz bu təcavüzün miqyasını təsəvvürünüzə gətirin, müdafiə naziri marşal Yazov, daxili işlər naziri Bakatin, quru qoşunlarına komandanlıq edən ordu generalı Varennikov, DTK sədrinin birinci müavini, ordu generalı Babkov və başqaları orada oturmuşdular. Azərbaycanda, bu kiçik respublikada görəsən nə olmuşdu ki, oraya bu qədər qoşun, bu qədər yüksək rütbəli generallar cəmləşdirmək, hamını qırmaq lazım idi? Küçələrdə qan tökdülər. Yaralar hələ də sağalmayıbdır. Olduqca ağır cinayət törədilmişdir.

Həmin vaxt mən Moskvada idim. Yeri gəlmişkən, qrip keçirdikdən sonra Barvixada istirahətdə idim. Bundan xəbər tutan kimi Moskvaya gəldim. Yanvarın 21-də Moskvada yaşayan azərbaycanlılar qarşısında çıxış etdim. Onlar Azərbaycanın daimi nümayəndəliyinin binası qarşısına toplaşmışdılar. Buraya bir neçə min adam toplaşmışdı və onların hamısı bu hadisədən çox böyük ürək ağrısı keçirirdi. O vaxt mən Qorbaçov başda olmaqla, rəhbərliyin bu xalqa zidd siyasətinə qarşı etirazımı bildirdim.

Sonra məni gözümçıxdıya saldılar, təqib edirdilər, qəzetlərdə mənim barəmdə cürbəcür məqalələr dərc edirdilər və sairə. Hiss edəndə ki, görünür, tamamilə divan tutana qədər məni təqib edəcəklər, 1990-cı ilin yayında Moskvadan çıxıb getdim. Yeri gəlmişkən, mənə hətta Moskvadan çıxıb getməkdə də bir neçə dəfə əngəl törətdilər.

Bu tarixdir. Siz mənim yanıma elə bir gündə gəlmisiniz ki, mən həmin gün haqqında danışmaya bilmərəm. Mən çox həyəcan keçirirəm, çünki mən indi, bu gün Bakıda deyiləm. Belə ki, hər il bu gün biz həmin təcavüzün qurbanlarının məzarlarını ziyarət edirik. [66-67]

Məni təəccübləndirən budur ki, sonradan bütün bu işləri ört-basdır etməyə başladılar. Bunda Azərbaycan rəhbərliyinin, Azərbaycan Kommunist Partiyasının da təqsiri var idi. Lakin kommunist rejimi dövründəki həmin adamlar 1991-ci ildə Sovetlər İttifaqı dağıldıqdan sonra da rəhbərlikdə qalırdılar.

Müxtəsəri, 1993-cü ildə mən Bakıya gəldikdən sonra, 1994-cü ilin yanvarında biz bu məsələni parlamentdə müzakirə edib, ona siyasi qiymət verdik. Əlbəttə, bu faciədə cinayətkar olan sovet rəhbərliyi, xüsusən də bunu törədən Qorbaçovun şəxsən özü öz cinayətləri barədə bir söz deyə bilməzdi. Amma məni təəccübləndirən budur ki, nə üçün indi, aradan bu qədər vaxt keçdikdən sonra heç kim bu cinayətdən danışmaq istəmir. Bu fürsətdən, sizin televiziyanızdan istifadə edərək, - ümidvaram ki, siz bunu verəcəksiniz, kəsməyəcəksiniz, - demək istəyirəm, ona təəccüblənirəm ki, nə üçün demokratik Rusiya sovet totalitar rejimində olmuş bir çox şeyləri pislədiyi halda, onun bu qara səhifəsini də açmaq istəmir. Əlbəttə, biz istərdik ki, təqsirkarlar cəzalandırılsın. Amma indi bəlkə də ən çox lazım olan bu deyildir. Daha çox lazım olan peşmanlıqdır, daha çox lazım olan etirafdır, daha çox lazım olan ədalətlilikdir. Axı biz sonradan etiraf etdik ki, Sovetlər İttifaqı 1956-cı ildə Macarıstana qoşun yeritməklə səhvə yol vermişdi. Axı 1968-ci ildə Çexoslovakiyaya qoşun yeridilməsinin də səhv olduğunu etiraf etdik. Yadımdadır, Moskva mətbuatı Xruşşovun dövründə Rostov vilayətində kütləvi iğtişaşların necə yatırıldığını, Siyasi Büro üzvlərinin oraya getdiyini yazmışdı. O hadisə də pislənilir. Elə isə bəs nə üçün bu hadisə pislənilmir? Nə üçün?

Təkrar edirəm, ola bilsin, onlar bunu etməyə qadir deyildilər, çünki özləri cinayətkar idi. Amma haqq-ədalətin bərpa olunması naminə və Rusiya ilə Azərbaycan arasında, Rusiya xalqı ilə Azərbaycan xalqı arasında mehriban, dostluq münasibətlərinin inkişaf etməsi naminə demokratik Rusiya buna [67-68] qiy-

mət verməlidir. Məsələn, mən belə hesab edirəm, əgər Rusiya hökuməti, Rusiya özünü Sovetlər İttifaqının hüquqi varisi elan edibsə, onda təbii ki, Sovetlər İttifaqının beynəlxalq aləmdə istifadə etdiyi imkanların hamısından istifadə etməlidir. Bununla bərabər, sovet rəhbərliyi tərəfindən törədilmiş mənfi, rüsvayçı, cinayətkar əməllər barəsində Rusiya öz mövqeyini aydınlaşdırmalı və müəyyənləşdirməlidir. Bu iş isə heç də çoxdan deyil, 1990-cı ildə baş vermişdir.

Odur ki, bu fürsətdən istifadə edərək, Rusiya ictimaiyyəti üçün bəyan edirəm və Rusiya rəhbərliyinə üz tuturam ki, onlar 1990-cı ildə sovet rəhbərliyi tərəfindən törədilmiş cinayətə görə peşmançılıq çəkmək, belə bir cinayətə yol verildiyini etiraf etmək səviyyəsinə qalxmaq üçün nə etmək lazım olması barədə hər halda düşünsünlər. Bu, Azərbaycan xalqı ilə Rusiya xalqı arasında münasibətlərin daha da yaxşılaşmasına kömək edə bilərdi. [68]

## TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL VƏ TÜRKİYƏ BÖYÜK MİLLƏT MƏCLİSİNİN SƏDRİ HİKMƏT ÇƏTİN İLƏ NÖVBƏTİ DƏFƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Ankara,*
*Gülhanə Tibb Akademiyası*

*21 yanvar 1999-cu il*

**S ü l e y m a n  D ə m i r ə l**: Əziz dostum, qardaşım Heydər bəy, Sizi səmimi qəlbdən salamlayıram, öz adımdan, türk xalqı adından Sizə möhkəm cansağlığı arzulayıram.

**H e y d ə r  Ə l i y e v**: Səhhətim çox yaxşıdır, göstərilən yüksək diqqət və qayğıya görə, qardaş və dost Türkiyənin rəhbərlərinə dərin minnətdarlığımı və təşəkkürümü bildirirəm.

**S ü l e y m a n  D ə m i r ə l**: Səhhətinizin gündən-günə yaxşılaşdığını görməkdən çox məmnunam. Əminəm ki, müayinə və müalicəni tezliklə başa çatdıraraq Azərbaycana qayıdacaq, yorulmaz fəaliyyətinizi davam etdirəcəksiniz.

**H i k m ə t  Ç ə t i n**: Cənab prezident, mən Qazaxıstan prezidenti Nursultan Nazarbayevin Astanada keçirilən andiçmə mərasimində iştirak etdim. Məlumat verim ki, Qazaxıstan prezidenti Nursultan Nazarbayev, Özbəkistan prezidenti İslam Kərimov, Qırğızıstan prezidenti Əsgər Akayev, Rusiyanın Baş naziri Yevgeni Primakov, Tatarıstan prezidenti Mintemir Şaymiyev və mərasimin başqa iştirakçıları Sizin bu mərasimdə iştirak edə bilməməyinizdən çox təəssüfləndiklərini bildirdilər və Sizə möhkəm cansağlığı arzuladılar.

**H e y d ə r  Ə l i y e v**: Çox sağ olun. Biz bütün ölkələr arasında əməkdaşlığı möhkəmləndirmək, xalqlarımızın əmin-[69-70]amanlığını təmin etmək, onların rifahını yüksəltmək üçün daim çalışmalıyıq. Biz Türkiyə ilə bütün sahələrdə, xüsusən iqtisadi sahədə əlaqələrin daha da genişləndirilməsi, strateji əməkdaşlığın möhkəmləndirilməsinə böyük əhəmiyyət veririk.

**H i k m ə t  Ç ə t i n**: Bu əməkdaşlığın genişlənməsi və dərinləşməsi üçün çox böyük potensial imkanlar vardır. Bakı-Ceyhan boru xəttinin çəkilməsi barədə 1998-ci il oktyabrın 29-da Ankarada imzalanmış bəyannamədə qarşıya qoyulmuş vəzifələrin həyata keçirilməsinin vacibliyini vurğulamaq istəyirəm.

**H e y d ə r  Ə l i y e v**: Tamamilə düz deyirsiniz. Bu sənədlərdəki bir çox mühüm müddəalar bizə əməkdaşlığımızı, dövlətlərimiz və xalqlarımız arasında qardaşlığı və dostluğu daha da möhkəmlətməyə və inkişaf etdirməyə kömək edəcəkdir. Böyük əhəmiyyətli həmin sənədin imzalanması tarixi hadisə kimi qiymətləndirilməlidir. Mən əminəm ki, Azərbaycan müharibə vəziyyətindən çıxacaq, yaranmış atəşkəs dövründə sülh yaradılacaq, Azərbaycanın işğal edilmiş torpaqları azad olunacaq, onun ərazi bütövlüyü təmin ediləcək, bir milyondan çox qaçqın öz doğma evlərinə qayıdacaqdır.

**S ü l e y m a n  D ə m i r ə l**: Əmin ola bilərsiniz ki, bu məsələdə Türkiyə Azərbaycanı həmişə dəstəkləmiş, bundan sonra da hər cür dəstək verməyə hazırdır.

**H e y d ə r  Ə l i y e v**: Bilirsiniz ki, Azərbaycan NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuş, öz coğrafi-siyasi mövqeyi ilə bölgədə sülhün, əmin-amanlığın bərpa edilməsində böyük əhəmiyyət daşıyır. Beynəlxalq təşkilatlarda ölkələrimizin əməkdaşlığının gündən-günə möhkəmlənməsinin vacibliyini bir daha nəzərə çarpdırıram. Azərbaycan xalqı Türkiyə xalqı və digər tərəqqipərvər xalqlar kimi Balkan yarımadasındakı vəziyyətdən və Kosovo hadisələrindən olduqca narahatdır və bu, problemlərin ədalətli nizamlanmasına yönəldilmiş bütün addımları və səyləri ürəkdən dəstəkləyir. [70]

## QAFQAZ MÜSƏLMANLARI İDARƏSİNİN SƏDRİ ŞEYXÜLİSLAM HACI ALLAHŞÜKÜR PAŞAZADƏ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Ankara,*
*Gülhanə Tibb Akademiyası*

*23 yanvar 1999-cu il*

**Hacı Allahşükür Paşazadə**: Cənab prezident, Sizi səmimi-qəlbdən salamlayıram. Səhhətinizin yaxşı olmasından məmnun qaldığımı bildirir, Sizə Allah-taaladan cansağlığı arzulayıram.

**Heydər Əliyev**: Çox sağ ol, sağlamlığım yaxşıdır, burada da işləyirəm, Bakıdakı işlərə rəhbərlik edirəm. Qripdən sonra bir az ağırlaşma olmuşdu, ona görə məni ətraflı müayinə edirlər. Bu da çox lazımdır, çünki Moskvadan gələndən sonra doqquz ildir həkimsiz yaşamışam. Allaha şükürlər olsun, müayinələr də göstərir ki, hər şey yaxşıdır.

**Hacı Allahşükür Paşazadə**: Azərbaycanda milliyyətindən asılı olmayaraq bütün insanlar prezident Heydər Əliyevin tezliklə tam sağalıb Vətənə qayıtmasını arzulayırlar. Ramazan bayramı günlərində camaat Sizə dua edirdi, məscidlərdə qurbanlar kəsirdi. Hamı, o cümlədən 20 Yanvar şəhidlərinin ailə üzvləri Sizə salam-dua göndərmişlər. Allah-taala Sizi istəyir və xalqımızın, millətimizin Sizə böyük ehtiyacı var. Biz inanırıq, inşallah, sağlam olacaqsınız və ölkəmizə yenə rəhbərlik edəcəksiniz. Mingəçevirdəki Heydər məscidində çox böyük ehsan verildi, qurbanlar kəsildi. Mən həqiqəti deyirəm, xalq Sizi istəyir. Xalq istəyəni isə Allah da istəyir. [71-72]

Sizin səhhətiniz barədə həkimlərin sonuncu rəyini eşidəndə çox sevindim. Xüsusilə Türkiyə prezidenti cənab Süleyman Dəmirəlin Azərbaycan rəhbərinə münasibətindən olduqca şadıq. Qardaş dövlətlərin və onların rəhbərlərinin bir-birinə belə münasibəti xalqımıza çox xoşdur.

**Heydər Əliyev**: Türkiyə Cümhuriyyətinin prezidenti Süleyman Dəmirəl hər gün Gülhanə Tibb Akademiyasına gəlib məni yoluxur, burada bir saat söhbət edirik.

**Hacı Allahşükür Paşazadə**: Sizə məlumat verim ki, Səudiyyə Ərəbistanının kralı məmləkətin yaranmasının 100 illiyinə həsr olunmuş şənliklərdə iştirak etmək üçün mənə dəvətnamə göndərib və oraya gedəcəyəm.

Onu da bildirim ki, Moskvanın və bütün Rusiyanın Patriarxı II Aleksi dövlətimizin rəhbərinin xəstələnməsini eşidərək mənə zəng etmiş, xoş arzularını prezidentə yetirməyi rica etmişlər. Patriarx Azərbaycandakı pravoslav kilsələrinin başçısına yepiskop rütbəsi vermişdir və indən belə o, Bakı və Xəzəryanı regionun yepiskopu vəzifəsini daşıyır.

**Heydər Əliyev**: Bu xəbəri müsbət qiymətləndirirəm, habelə Azərbaycandakı müxtəlif dinlərin rəhbərlərinin Ankaraya, mənə göndərdikləri məktubu almışam və təşəkkürümü bildirirəm.

**Hacı Allahşükür Paşazadə**: Cənab prezident, Sizin xəstələnməyiniz başqa ölkələrin din xadimlərini də narahat etmişdir. Dağıstanın, Çeçenistanın və digər müsəlman respublikalarının nümayəndələri dövlətimizin başçısına salam göndərir, onun tezliklə tam sağalmasını arzu edirlər.

**Heydər Əliyev**: Narahat olmağa əsas yoxdur. Ola bilər, Ankaraya heç gəlməyəydim. Bir həftə idi ki, mən qripi ayaq üstə keçirirdim. Cümə günü saat doqquzda - onun yarısında işdən qayıdanda gördüm ki, üşüyürəm. Həftənin ikinci günü də belə olmuşdu. Amma mən bunları heç vaxt nəzərə almıram. Altıncı gün temperaturum daha çox qalxdı, ona gö[72-73]rə işə çıxmadım. Yəqin ki, mənim özümün günahıdır, - vaxtında müalicə etsəydim, dərman atsaydım, bir-iki gün evdə qalsaydım, bunlar olmazdı. Amma məndə öskürmə əmələ gəldi, bu da bir-iki saatdan sonra keçdi. Məndə gərginlik əmələ gələndə Süleyman Dəmirəl ilə əlaqə saxlamışdılar. O, telefonla zəng etdi və gecə iki təyyarə ilə həkimlər göndərdi. Mən artıq özümü yaxşı hiss edirdim, buraya gəlmək istəmirdim. Ancaq Süleyman Dəmirəl bir-iki dəfə mənə telefon etdi, dedi ki, mütləq gəl. Həm görüşək, söhbət eləyək, bəzi məsələlər var, həm də müayinə olun. Ona görə də altıncı gün bizim Təhlükəsizlik Şurasının üzvlərini yığdım, tapşırıqlarımı verdim, sonra da buraya gəldim. Ancaq bir gün ərzində xəstəliyim haqqında məlumat, sonra isə cürbəcür fikirlər, mülahizələr yayıldı.

**Hacı Allahşükür Paşazadə**: Azərbaycan prezidentinin xəstələnməsi ilə əlaqədar Küveytdə də narahat olublar.

**Heydər Əliyev**: Bəli, bütün dünya qəzetləri yazırlar, - Türkiyəyə gəlir, - səhhətim haqqında hər gün xəbər verirlər. Türkiyənin prezidenti hörmətli Süleyman Dəmirəl hər gün buraya gəlir, sonra mətbuat nümayəndələrinə məlumat verir. Fikrimcə, mənim Ankaraya gəlməyim faydalı olmuşdur.

**Hacı Allahşükür Paşazadə**: Cənab prezident, Siz həqiqətən çox işləyirsiniz. Mən də müəyyən ölkələri gəzirəm, görürəm. Dövlət rəhbərləri saat yeddidə çıxıb gedirlər. Amma mən indiyə qədər görməmişəm ki, Siz işdən tez gedəsiniz, bazar günləri də işləyirsiniz.

**H e y d ə r Ə l i y e v**: Mən 1993-cü ildə Bakıya gələndən bəri, - ondan əvvəl Naxçıvanda da, - elə vaxt olmayıb ki, bazar günü işləməyim. Həftənin bütün günlərini işləyirəm. Prezident Süleyman Dəmirəl məni hər il buraya istirahətə dəvət edir. Burada istirahət etməli çox yaxşı yerlər var. Bir çox ölkələrin, məsələn, Orta Asiya respublikalarının, Qazaxıstanın prezidentləri gəlir, on-on beş gün istirahət edirlər, eyni zamanda görüşürlər, danışırlar. Amma mən hər dəfə deyirdim ki, vaxt tapa bilmirəm. [73-74]

**H a c ı A l l a h ş ü k ü r P a ş a z a d ə**: Siz gərək özünüzə baxasınız, çünki Sizin sağlamlığınız xalqımızın sağlamlığıdır. Ona görə də Sizin sağlam olmağınız bizim üçün çox əhəmiyyətlidir.

**H e y d ə r Ə l i y e v**: Mənə xəbərlər çatır, camaat çox narahat olubdur. Amma mən burada həm Azərbaycan televiziyasına, həm ANS-ə, həm də «Nərgiz-TV»-yə, Rusiyanın NTV televiziyasına müsahibələr verdim. Bunları da gəldiyim ilk günlərdə etdim. İndi hamı görür ki, yaxşıyam. Bilirəm ki, insanlar çox həyəcanlıdır, mənə dua edirlər. Siz də deyirsiniz, mənə də hər gün məlumat verirlər, - insanlar arzulayırlar ki, tezliklə gəlim. Hesab edirəm ki, bu, mənim xalqla olan münasibətimin nəticəsi və xalqın mənə etimadı və məhəbbətidir. Mən həmişə yalnız bunun əsasında işləmişəm.

Mənə göstərilən qayğı və diqqətə görə bütün məscidlərə, kilsələrə salamımı və minnətdarlığımı çatdırın. Buraya hər gün çox adam gəlmək istəyir, ancaq həkimlər də qoymur, mənim özümün də imkanım yoxdur. Siz Azərbaycandan gələn yeganə adamsınız. Çoxları da telefon edib danışırlar. Bir azdan sonra mənim yanıma general İsmayıl Haqqı Qaradayı gələcəkdir. Beş-altı ay öncə o, Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi idi.

**H a c ı A l l a h ş ü k ü r P a ş a z a d ə**: Türkiyədə sizi istəyənlər çoxdur. Azərbaycanda isə şeyx kimi mən gəlmişəm ki, xalqımızın məhəbbətini, salam-duasını çatdırım. Səudiyyə Ərəbistanındakı yubiley şənliklərində dövlət başçıları da olacaq, mən də çıxış edəcəyəm və Sizin salamlarınızı yetirəcəyəm.

**H e y d ə r Ə l i y e v**: Səudiyyə Ərəbistanının kralına, digər dövlət rəhbərlərinə mənim salamlarımı çatdırın.

**H a c ı A l l a h ş ü k ü r P a ş a z a d ə**: Sizə bir daha uzun ömür, cansağlığı diləyirəm, tezliklə tam sağalıb vətənə qayıtmağınızı arzulayıram. [74]

# TÜRKİYƏ SİLAHLI QÜVVƏLƏRİ BAŞ QƏRARGAHININ SABİQ RƏİSİ, ORDU GENERALI İSMAYIL HAQQI QARADAYI İLƏ GÖRÜŞDƏKİ• SÖHBƏTDƏN

*Ankara,*
*Gülhanə Tibb Akademiyası*

*23 yanvar 1999-cu il*

**İsmayıl Haqqı Qaradayı**: Əziz dostum, dərin hörmət və ehtiram bəslədiyim Heydər Əliyev! Səhhətinizdən xəbər tutmaq üçün buraya gəldim. Səhhətinizin yaxşı olmasından, Sizi Türkiyədə görməyimdən məmnunluq duyduğumu vurğulayıram. Tez-tez soruşub məlumat alıram. Öyrəndim ki, vəziyyətiniz, maşallah, çox yaxşıdır, buraya gəlsəm, Sizi narahat etmiş olmaram. Ona görə də Sizi ziyarət etməyi qərara aldım. Bu gün aldığım xəbər daha yaxşı idi və Sizi görəndə qənaətim möhkəmləndi.

Sizə Türkiyə Silahlı Qüvvələrində də böyük hörmət var.

**Heydər Əliyev**: Çox sağ olun, hörmətli dostum Qaradayı. Mən sizin bu diqqət və qayğınızı çox yüksək qiymətləndirirəm. Bilirəm ki, buraya gəldiyim gündən mənim səhhə[75-76]timlə maraqlanır, mənə bir daha öz dostluq münasibətinizi göstərirsiniz. Mən sizinlə dostluğumu çox qiymətləndirir və hesab edirəm ki, Türkiyə–Azərbaycan dostluğunun inkişafında bunun da çox xidməti olmuşdur. Bura həqiqətən çox gözəl xəstəxanadır. Mən həyatımda bir dəfə xəstəxana görmüşəm. 1987-ci ildə Moskvada Siyasi Büronun üzvü və Nazirlər Soveti sədrinin birinci müavini olarkən məndə ürək sıxıntısı əmələ gəldi. Onda Sovetlər Birliyinin ən yüksək xəstəxanasında iki-üç ay oldum. Başqa heç bir xəstəxana görməmişəm. İşlədiyim zaman gedib xəstəxanalara baxırdım, amma özüm xəstəxanadan istifadə edim, bu olmamışdı. İndi müqayisə etmək imkanım var, bura həqiqətən çox gözəl xəstəxanadır. Hər şey yüksək dərəcədədir, ancaq ən önəmlisi odur ki, çox bilikli, təcrübəli həkimlər var. Buranın rəisi çox qayğıkeş bir insan, çox bilikli həkim, professordur. Bakıya gəldi və məni gecəynən buraya gətirdi. Hər gün buradadır. Mən çox məmnunam ki, Türkiyənin belə gözəl hərbi xəstəxanası, akademiyası var və burada çox gözəl işlər görülür. Ən çox da sevinirəm ki, bu xəstəxana tibb sahəsində dünyanın ən yüksək səviyyəsinə gəlib çatmışdır.

Şübhəsiz, mən işdən ayrılmağımdan narahat oldum, gəlmək istəmirdim. Dostum Süleyman Dəmirəl telefon edib dedi ki, mütləq gəlməlisən. İndi gəlməyimdən çox məmnunam. Burada çox gözəl müalicə aparırlar. Həm də ki, on ilə yaxındır mən həkimsiz yaşamışam, ona görə də müayinə lazımdır. Burada da deyirlər ki, baxdıq, hər şey yaxşıdır.

**İsmayıl Haqqı Qaradayı**: Hesab edirəm ki, tibb sahəsində əməkdaşlığın, o cümlədən Türkiyə və Azərbaycanın səhiyyə ocaqları arasında əlaqələrin genişləndirilməsinin böyük əhəmiyyəti var. Sizə bir daha möhkəm cansağlığı diləyir, tezliklə sağalmağınızı arzulayıram. [76]

• Yanvarın 24-də Türkiyə Silahlı Qüvvələri Baş qərargahının rəisi, ordu generalı Hüseyn Kıvrıqoğlu, yanvarın 26-da Türkiyə Böyük Millət Məclisinin keçmiş sədri, Demokrat Türkiyə Partiyasının sədri Hüsaməddin Cindoruq, keçmiş müdafiə naziri, Demokrat Türkiyə Partiyası sədrinin müavini İsmət Sezgin Gülhanə Tibb Akademiyasında Heydər Əliyevlə görüşmüş, onun səhhəti ilə maraqlanmış, cansağlığı arzulamışlar.

## AZƏRBAYCANIN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Ankara,*
*Gülhanə Tibb Akademiyası*

*25 yanvar 1999-cu il*

**H e y d ə r Ə l i y e v**: Sizə təşəkkür edirəm, zəhmət çəkib gəlmisiniz. Mən burada olandan bəri bir çox adamlar gəlib, gözləyiblər, amma bu xəstəxananın özünəməxsus rejimi var, ona görə də heç kəsi buraxmırlar. Siz yəqin ki, televiziya ilə görürsünüz.

Türkiyənin prezidenti, mənim əziz dostum Süleyman Dəmirəl hər gün buraya gəlir. Bu gün o, Əlcəzairə gedibdir. Dünən axşam da burada idi. Baş nazir Bülənd Ecevit, Böyük Millət Məclisinin sədri Hikmət Çətin, Türkiyə Silahlı Qüvvələri Baş Qərargahının rəisi Hüseyn Kıvrıqoğlu da məni ziyarət ediblər. Amma yenə də çoxları var. Səfir mənə deyib, - yəqin ki, sabah Türkiyənin yüksək vəzifəli adamları ilə görüşmək lazım olacaqdır. Amma mən istəmirdim ki, siz gələsiniz. Mənə deyilməmişdi, sonra səhər eşitdim ki, belə bir təşəbbüs etmisiniz. Sağ olun, bir daha təşəkkür edirəm, zəhmət çəkib gəlmisiniz. Mən Gülhanə Tibb Akademiyasında böyük diqqət və qayğı ilə əhatə olunmuşam. Burada nə lazımdırsa, hamısını edirlər.

**E l ç i n Ə f ə n d i y e v** (*Baş nazirin müavini*): Siz sağ olun, əsas odur. Məlumat verim ki, Sizin tapşırığınızla Qazaxıstana, prezident Nazarbayevin andiçmə mərasiminə getmişdim. Orada olduğum müddətdə bütün qonaqlar özləri mənə [77-78] yaxınlaşıb Sizi soruşur, salam söyləyirdilər. Sizinlə bağlı mövzu birinci idi, sonra Nazarbayevdən danışırdılar. Yanvarın 20-də səhər Hikmət Çətin gəldi, dedi ki, ayın 19-da mən Heydər bəyin yanında olmuşam. O, hamıya təfsilatı danışdı. Prezidentlərin hamısı – Kərimov, Akayev, başqaları Sizə salam göndəriblər.

**H e y d ə r Ə l i y e v**: Türkiyə Böyük Millət Məclisinin sədri Hikmət Çətin oradan qayıdan günü prezident Süleyman Dəmirəl ilə birlikdə mənim yanıma gəldi və Qazaxıstandakı mərasim, görüşlər barədə danışdı. Həmin prezidentlərin hamısı buraya teleqramlar göndərib, telefon ediblər. Başqa dövlət, hökumət başçıları da həmçinin. Teleqramlar,telefon zəngləri bu günə qədər də davam edir.

Mən burada bütün işlərlə məşğul oluram, telefonla əlaqə saxlayıram. Əsas məsələlər, hansılar ki, mənimlə razılaşdırılmalı, məndən göstəriş alınmalıdır, bunların hamısı təşkil olunur.

**A r i f R ə h i m z a d ə** (*Milli Məclis sədrinin birinci müavini*): Cənab prezident, buraya çox adam gəlmək istəyir. Biz də çalışdıq ki, gəlişimizi məxfi eləyək. Çünki bilirdik ki, bilsəniz, icazə verməyəcəksiniz. Təyyarəyə minəndən sonra dedilər ki, səfirliklə əlaqə saxlayın. Biz gəldik, amma gəlməyə də bilməzdik. Ona görə ki, çox adam gəlmək istəyir. Fikirləşdik ki, həm onlara təsəlli olsun, həm də özümüz Sizi çox görmək istəyirdik.

**E l ç i n Ə f ə n d i y e v**: Cənab prezident, ilk günlər sənət adamları Sizin xəstələnməyinizdən çox nigarançılıq keçirirdilər. Amma səhhətinizin yaxşı olduğu barədə məlumat alandan sonra hər şey qaydasına düşdü. Mən yazıçıların, incəsənət adamlarının, teatr xadimlərinin çox səmimi, ürəkdən gələn salamlarını Sizə çatdırıram. Kimi görürəmsə, Sizi soruşur, zəng edir, hamı Sizin tezliklə tam sağalıb Bakıya qayıtmağınızı arzulayır. [78-79]

**H e y d ə r Ə l i y e v**: Onlara təşəkkürümü və minnətdarlığımı bildirirəm. Azərbaycanda işlədiyim zaman heç vaxt olmayıb ki, mən xəstə olub işə çıxmayım. Ona görə də indi bu, müəyyən qədər həm təəccüb, həm də həyəcan doğurubdur. Amma hər ölkədə dövlət başçısı, hökumət başçısı xəstələnir də, xəstəxanada da yatır, yaxud müayinə olunur, başqa bir ölkədə istirahət edir. Hörmətli prezident Süleyman Dəmirəl hər il məni buraya istirahətə dəvət edir. Hər dəfə də deyir ki, başqa dövlət, hökumət başçıları gəlir, amma sən gəlmirsən. Hətta axır zamanlar gördüm ki, fikirləşir – bəlkə mən gəlmək istəmirəm. Dedim ki, yox, Türkiyəyə gəlmək mənim üçün həmişə əhəmiyyətlidir.

Məsələn, Türkiyənin elə istirahət yerləri var ki, Azərbaycandan çoxları gəliblər, amma mən heç o yerlərin üzünü də görməmişəm. Ümumiyyətlə, Türkiyədə İstanbul və Ankaradan başqa ayrı bir yeri görməmişəm. Bir də Naxçıvanda işləyəndə oradan Qarsa, Ərzuruma gəlirdim. Türkiyədə bunlardan savayı başqa bir yer görməmişəm, o istirahət yerlərini də görməmişəm. Təbii ki, gərək mən də gələydim, istirahət edəydim. Ancaq mənim təbiətim həmişə belə olubdur. Xüsusən son illər Azərbaycanda vəziyyət çətin olduğuna görə, çox problemləri həll etmək lazım gəldiyinə görə mən özümə heç vaxt istirahət verməmişəm. Bəzən mənə deyirlər ki, filankəs qriplə xəstələnib, üç gündür işə çıxmır, yaxud soyuq dəyibdir. Deyirəm, belə şey olarmı? Amma mən soyuqdəyməni, qrip xəstəliyini bir neçə dəfə ayaqüstə keçirmişəm. Yəni heç vaxt işdən qalmamışam. Axşam evə gəlmişəm, temperaturum bir az artıb, dərman atmışam.

Burada hamı təəccüblənir ki, mən doqquz ildir həkimsiz yaşayıram. Moskvada olan zaman, işlədiyim son illərdə də həkimim vardı, vaxtaşırı gəlib yoxlayırdı, lazım olanda özüm gedirdim. Amma 1990-cı ildə oradan ayrıldım, Naxçıvana gəldim. Allaha şükür ki, Naxçıvanda heç bir şey olmadı, eyni [79-80] zamanda həkimə də müraciət etmədim. Bakıya gələndə bizim ailədən mənə təklif elədilər ki, şəxsi həkim lazımdır.

Çünki bu belədir – hər bir dövlət başçısının şəxsi həkimi olur, səfərlərə gedəndə onu müşayiət edir, lazım olanda profilaktika aparır. Mən bundan da imtina elədim, istəmədim, çünki görürdüm ki, ehtiyacım yoxdur.

Bakıda olduğum axırıncı beş il yarımda bir neçə dəfə məndə qrip xəstəliyi olub, temperaturum qalxıbdır. Amma yenə deyirəm, işdən qalmamışam. Axşam gəlib aspirin atmışam, səhər yaxşı olub, yenə işə getmişəm.

Həftənin ikinci günü idi. Səhər hiss etdim ki,bədənim normal vəziyyətdə deyil. İşə gəldim, başım qarışdı. Amma görürdüm ki, üşüyürəm. Axşam İlhamgilə, nəvələrimi görməyə getdim, yenə gördüm ki, üşüyürəm. Mən, adətən, üşüyən adam deyiləm, çox da yüngül geyinirəm. Axşam temperaturum qalxdı. Üçüncü gün səhər duranda temperatur vardı, amma günün axırında normal oldu. Dördüncü gün gəlib işlədim, beşinci gün bir neçə təyinat lazım idi, çox adamlarla görüşdüm. Evə gedəndə axşam saat on idi. Altıncı günə də, bilirsiniz, ölkəmizdə siyahıyaalınmaya dair böyük bir müşavirə təyin olunmuşdu, onunla əlaqədar kağızları da götürmüşdüm, onlara baxırdım. Səhər duranda gördüm ki, vəziyyətim əvvəlkinə nisbətən yaxşı deyil, ancaq yenə də saat on ikiyə qədər hazırlaşırdım ki, işə gedim. Saat on ikidə hiss elədim ki, gedə bilməyəcəyəm, telefon etdim ki, müşavirəni mənsiz aparsınlar. Axşam temperaturum 38 dərəcədən də yuxarı qalxdı.

Dostum Süleyman Dəmirələ məlumat verildi. O, gecəynən iki təyyarə ilə hərbi qospitalın həkimlərini göndərdi, bir neçə dəfə də mənə telefon elədi ki, gəl. Səhər artıq özümü normal hiss eləyirdim, deyirdim ki, daha getməyəcəyəm, amma gecə söz vermişdim ki, gedəcəyəm. Səhər həkimlər bunu Süleyman Dəmirələ xəbər verdilər və o, bir də telefon etdi ki, bir halda belə narahatçılıqdır, sən gəl, həm bir az istirahət elə, həm də [80-81] yoxlasınlar. Mən də razı oldum, gəldim. Amma gəlməzdən qabaq təhlükəsizlik şurası üzvlərinin hamısını iqamətgaha çağırmışdım, onlarla ətraflı söhbət etdim. İş ondadır ki, o gün hava da çox pis idi, yadınızdadırmı? Ona görə də həkimlər mənə dedilər ki, hava limanında mərasim keçirməyə ehtiyac yoxdur. Mən buraya gəldim, o axşamı da qar yağdı. İndiyə qədər qar yağmamışdı və mənə deyirlər ki, bərəkət gətirmisən. Düzdür, indi qar əriyibdir, ancaq mən gələn günün axşamından səhərə qədər qar yağmağa başladı. Bu pəncərələrdən Ankara çox gözəl görünür, baxırdım ki, qar hər yeri tutubdur.

Buraya gəldiyim gündən hər gün məni televiziya ilə görürsünüz. Yəqin ki, bir-iki günə Azərbaycana dönəcəyəm. Ona görə deyirdim ki, siz gəlməyin.

**B ə x t i y a r  V a h a b z a d ə** (*Xalq şairi*): İnşallah, nə vaxt gəlirsiniz?

**H e y d ə r  Ə l i y e v**: Yəqin, hələ bir-iki gün müalicə alacağam. Buradakıların hamısı təəccüb edir ki, doqquz il məndə heç bir müayinə, yoxlama olmayıbdır.

Gülhanə Tibb Akademiyası çox gözəl xəstəxanadır. Yüz illik tarixi var və Türkiyə Silahlı Qüvvələrinin Hərbi Tibb Akademiyasıdır. Gülhanə xəstəxanası çox böyük kompleksdir, burada çox yüksək səviyyəli həkimlər var. Süleyman Dəmirəl telefonla da deyirdi ki, burada ən yüksək dünya səviyyəsində, Amerikanın, Avropanın tibb sahəsində inkişaf etmiş ölkələrinin səviyyəsində müalicə var. Mən özüm gəlib gördüm, çox gözəl həkimləri var, ümumiyyətlə, burada işin qurulması çox yüksək səviyyədədir. Bunun filialı da İstanbuldadır. Eyni zamanda burada çox gözəl nizam-intizam, qanun-qayda mövcuddur.

**B ə x t i y a r  V a h a b z a d ə**: Eyni zamanda Türkiyədə böyük dövlətçilik ənənəsi var, hərbi ənənə çox güclüdür. Yəqin ki, buradan Birinci cahan müharibəsində də istifadə ediblər. [81-82]

**E l ç i n  Ə f ə n d i y e v**: Burada paralel olaraq həm müalicə gedir, həm də tədqiqat aparılır, təhsil verilir.

**H e y d ə r  Ə l i y e v**: Bəli, bura akademiyadır, həkimlər hazırlayırlar, cürbəcür ixtisaslaşma aparırlar. Bu, çoxşaxəli bir müəssisədir. Düzü, mən buna çox sevindim. Çünki təsəvvür edə bilmirdim ki, Türkiyədə belə bir yüksək səviyyəli xəstəxana var. Təbii ki, Türkiyə qədim dövlət, hər sahədə inkişaf etmiş böyük, qüdrətli ölkədir. Amma düşünürdüm ki, tibb sahəsində necədir. Mən müqayisə edirəm, - düzdür, on il bundan qabaq gördüyümdür, - Moskvada Siyasi Büro üzvlərinin müalicə olunduqları xüsusi bir yer var idi, otaqları çox idi. O da yaxşı idi, amma bura ondan yüksəkdir. Güman edirəm, onlar da bu on il müddətində səviyyəni müəyyən qədər artırıblar. Amma yenə deyirəm, bura yüksəkdir. Çox sevindirici haldır.

Bildiyimə görə, Gülhanədə bizim 30-dək tələbəmiz və tibb bacımız var, burada təhsil alırlar. Çox gözəldir. Təhsil alıb, yaxşı da təcrübə qazana bilərlər.

**B ə x t i y a r  V a h a b z a d ə**: Bu il Osmanlı imperatorluğunun 700 illiyi qeyd olunmalıdır. İstəyirlər ki, Göytürk imperatorluğunun 1450 illiyini və Osmanlı imperatorluğunun 700 illiyini bir yerdə keçirsinlər. Ancaq, deyəsən, birincisini qəbul etməyiblər.

**E l ç i n  Ə f ə n d i y e v**: Osmanlı imperatorluğunun 700 illiyi YUNESKO-nun tədbirlərinə daxil olunubdur.

**H e y d ə r  Ə l i y e v**: Maraqlıdır, Göytürk imperatorluğunun yubileyinin keçirilməsi nə üçün qəbul olunmadı?

**B ə x t i y a r  V a h a b z a d ə**: Orta Asiyanın türkdilli respublikalarından biri buna etiraz edibdir.

**H e y d ə r  Ə l i y e v**: Bu mübahisədən xəbərim var. Yubileylərin tarixləri «50» rəqəmi ilə başa çatanda buna çox meyl göstərmirlər, çünki belə tarixlər çoxdur və ona görə də qəbul edilmək şansı az olur. [82-83]

**H e y d ə r  Ə l i y e v**: Bu, onunla əlaqədar deyildir. Bəxtiyar müəllim səbəbini bilir, mən də bilirəm.

**Əli Nağıyev** (*Əmək və əhalinin sosial müdafiəsi naziri, Yeni Azərbaycan Partiyası sədrinin müavini):* Cənab prezident, partiya üzvlərinin hamısının Sizə salamı var, səbirsizliklə yolunuzu gözləyirlər. Sizin xəstələnməyiniz camaatı həddindən artıq ağrıtdı, ancaq Süleyman Dəmirəl ilə yan-yana dayanıb bəyanat, müsahibə verməyiniz adamları tamamilə sakitləşdirdi, ürəkləri yerinə gəldi. Bir sözlə, respublikada hamı Sizi məhəbbətlə gözləyir.

**Zeynəb Xanlarova** (*Xalq artisti*): İki gün bundan qabaq biz Mir Möhsün ağanın qəbri üstündə üç qurban kəsdirdik. Yolboyu görürdük ki, insanlar qurban alıb aparır və orada kəsdirirlər. Sizi yormaq istəmirəm, amma bir epizod da deyim. Çox kasıb bir bağban var, körpə quzu alıb böyüdüb, indi yekə bir qoçdur. Deyir ki, o kişi gəlsin, mən də qoçu onun ayağının altında kəsəcəyəm. Bilirlər ki, mən Sizi çox istəyirəm, inanın, hər sahədən adamlar zəng edib Sizi soruşurlar. Çadırdakı qaçqınların da əlləri göydədir, Sizə dua edirlər. Ona görə də dedim ki, heç olmasa gedim, bu sözləri Heydər müəllimə çatdırım. Əlbəttə, gül-çiçək gətirmək istəyirdik, yolda buraxmadılar.

**Heydər Əliyev**: Çox sağ ol, düzdür, gül buraxmırlar, ancaq yaxın adamların vizit kartı ilə gül göndərirlər. Vizit kartını qəbul edirlər, amma buraya gül gətirmək olmaz. Buranın belə qanunu var. Hörmətli Məsud Yılmaz gül göndərmişdi, düzdür, onu gətirib göstərdilər və dedilər ki, bundan sonra heç göstərməyəcəyik.

**Bəxtiyar Vahabzadə**: Bizdə, Azərbaycanda da təbabət aşağı səviyyədə olmayıb, bu barədə söhbət eləmişik. İstər təbabət, istərsə də başqa elm sahələri üzrə ən gözəl professorlarımız Moskva məktəbini keçiblər və onların biliyi də aşağı olmayıbdır. Ancaq axır vaxtlar müasir avadanlıq, apa[83-84]ratlar bizdə yoxdur. Mən deyərdim ki, bizim həkimlərimizdə fəhm heç də bunlardan əskik deyildir.

**Heydər Əliyev**: Bu fikrə tamamilə şərikəm. Keçmiş zamanlarda bizim həkimlərimiz aparatsız-filansız müalicə edirdilər, buradakılar bu xüsusiyyətlərə malikdirlər. Amma həqiqətən bizim müxtəlif sahələrdə olan həkimlərimiz, alimlərimiz çox savadlı, bilikli, təcrübəlidirlər. [84]

## «MOSKOVSKİ KOMSOMOLETS» QƏZETİNİN MÜXBİRİNƏ MÜSAHİBƏ

*Ankara,*
*Gülhanə Tibb Akademiyası*

*26 yanvar 1999-cu il*

**Ötən ilin oktyabrında Azərbaycan prezidentliyinə namizəd Heydər Əliyev seçkiqabağı kampaniya zamanı keçirilmiş ən axırıncı mitinqdə kömək üçün rusdilli əhaliyə təşəkkür edərək demişdir: « Əmin ola bilərsiniz – mən nə qədər Azərbaycandayam, heç bir milli münaqişə və ya sıxıntı olmayacaqdır». Sonra Əliyev sözünə ara vermiş və əlavə edib demişdir: «Mən isə Azərbaycanda əbədi olacağam».**

Camaata məlum olan xəstəlik hər hansı siyasətçi üçün o qədər də xoşagələn deyildir. Bu, Heydər Əliyev üçün xüsusən xoşagəlməz olmuşdur, çünki bəzi şayiələrdə onun xəstəliyini dərhal «diplomatik xəstəlik» adlandırdılar. Sözgəzdirənlər inandırırlar ki, «Əliyev ümumiyyətlə heç bir xəstəliyə tutulmayıb, Ankaraya isə Türkiyə hərbi bazası barədə danışıqlar aparmağa gedib», guya Azərbaycan bu bazanı öz torpağında yerləşdirməyə hazırdır – MDB haqqında müqavilənin ziddinə olaraq. (Əliyevin xarici siyasət üzrə müşaviri bunun mümkün olduğunu bəyan etmişdir – belə hədələr isə Əliyevin özünün icazəsi olmadan səsləndirilə bilməzdi).

Digər şayiələrdə deyilirdi ki, guya Əliyevi ürəyi narahat etmişdir – Maykl Debeyki Bakıya onun yanına nahaq yerə müntəzəm olaraq gəlmir. Dərhal yada salmışlar ki, prezidentin oğlu, hazırda Milli Neft Şirkətinin birinci vitse-prezidenti [85-86] olan İlham Əliyev son həftələr nəzərəçarpacaq dərəcədə fəallaşmış, siyasi yığıncaqlarda tez-tez görünməyə başlamışdır. Varisin bu cür fəallığına ancaq onun atası icazə verə bilər. Bir şey baş verərsə «Hakimiyyət partiyası» məhz onun ətrafında cəmləşməyə hazırdır.

Əliyev hələ Türkiyə Hərbi Hospitalının Generallar Palatasında, - bu palata Siyasi Büro üzvlərinin Kremldəki keçmiş çoxotaqlı apartamentlərindən qat-qat sadədir, - olarkən səhhəti barədə «MK» müxbirinə özünün danışmasına razılıq vermişdir.

**Heydər Əliyevic, birinci sual aydındır: Türkiyədə müalicə olunmaq zərurəti nə üçün yarandı və siz özünüzü indi necə hiss edirsiniz?**

**H e y d ə r  Ə l i y e v**: Dərhal cavab verim ki, özümü çox yaxşı hiss edirəm. Mənə nə olmuşdur? Bilirsinizmi, mən 9 il əvvəl Moskvadan getdiyim vaxtdan bəri həkimin xidmətlərindən bir dəfə də olsun istifadə etməmişdim. Soyuq dəyəndə və ya qriplə xəstələnəndə özüm-özümü müalicə edirdim. Əsasən aspirin içirdim. Demək istəyirəm ki, orqanizmimdən inciməyə əsasım yoxdur. Bu doqquz ildə mən əslində gecə-gündüz işləmişəm.

Bu dəfə - iki həftə əvvəl, bazar ertəsi axşam özümü rahatsız hiss etdim. Lakin çərşənbə axşamı buna əhəmiyyət verməyib işə getdim. Axşam isə temperaturum 38 dərəcəyə qalxdı. Aspirin içdim və ertəsi gün işə getdim, ancaq özümü tam sağlam hiss etmirdim. Hətta katibi iki dəfə çağırdım – soruşdum ki, nə üçün kabinet belə soyuqdur. Cavab verdi ki, soyuq deyildir – hər şey həmişəki kimidir. Cümə gününədək belə davam etdi. Cümə günü axşam isə temperatur kəskin surətdə qalxdı və məndə öskürək əmələ gəldi, həkim çağırmaq lazım oldu. O, «sizdə qrip var, bu da bronxlara fəsad veribdir» deyib dərman verdi. Mən şənbə günü saat ikidə əhalinin siyahıyaalınmasına həsr olunmuş respublika müşavirəsi təyin etmişdim. [86-87] Amma hiss etdim ki, qüvvəm kifayət qədər deyildir. Günün sonuna yaxın güclü öskürək əmələ gəldi, temperaturum isə daha da qalxdı. Belə olduqda ağ ciyərlərimi rentgenə saldılar və şəkildə göründü ki, onlarda dəyişiklik əmələ gəlibdir. Nə isə, çox pis virus qripi ağ ciyərlərə fəsad verdi – yüksək temperatur, öskürək də bu səbəbdən yaranmışdı. Demək lazımdır ki, şənbə axşamı bütün bu illər ərzində mənim üçün ən qeyri-adi bir axşam idi. Həkimlər gecədən xeyli keçənədək yanımda oldular və dedilər ki, stasionar müalicə lazımdır.

Elə bu vaxt Türkiyə prezidenti, dostum Süleyman Dəmirəl mənim xəstəliyimdən xəbər tutdu. O, oğlumla telefonla danışdı və dedi ki, dərhal həkimlər briqadası göndərir. Həqiqətən onlar iki təyyarə ilə elə həmin axşam gəldilər. Uzun illər Moskvada işləmiş qohumum, tibb professoru Rusiyadakı dostlarına zəng vurdu və onlar səhər gəldilər. Türkiyə həkimləri də, Rusiya həkimləri də təkid edirdilər ki, stasionarda müayinədən keçmək və müalicə olunmaq lazımdır. Türklər təkid edirdilər ki, mən onlarla birlikdə gedim. Mən isə istəyirəm ki, onlar müalicəni Bakıda təşkil etsinlər. Lakin onların fikrincə, bu, mümkün deyildi. Üstəlik, onlar Dəmirələ zəng vurdular. Bundan sonra Dəmirəlin özü zəng vurdu və məni inandırmağa başladı ki, onların ən müasir səviyyəli Hərbi Tibb Akademiyasına gəlmək lazımdır. Bazar günü axşamtərəfi mən qərara gəldim ki, getmək lazımdır. Hava limanında məni Dəmirəlin özü, digər rəhbərlər qarşıladılar. Məni birbaşa buraya da onlar gətirdilər.

**Bəs nə üçün Siz müalicə olunmağa Rusiyaya getmədiniz?**

**H e y d ə r  Ə l i y e v**: Bilirsinizmi, Türkiyə tərəfindən dövlət səviyyəsində maraq göstərildi. Rusiyadan isə həkimlər qeyri-rəsmi surətdə gəlmişdilər və mənə heç bir rəsmi dəvət yox idi. Hərçənd, Rusiyanın Baş

naziri Primakovdan da, Moskvanın meri Yuri Lujkovdan da, bir çox qubernatorlardan da teleqramlar almışam. Digər tərəfdən, Türkiyədə [87-88] mənim gəlişim üçün hər şey hazır idi. Üstəlik, düşündüm ki, Rusiyada onun öz xəstələri var və nəyə görə mən həkimlərə əlavə zəhmət verməliyəm.

**Son vaxtlar mətbuatda şayiələr yayılmışdır ki, xəstəliyiniz qismən «diplomatik xarakter» daşıyır və Siz əslində Türkiyəyə Azərbaycanda Türkiyənin hərbi bazalarının yaradılması haqqında danışıqlar aparmağa gəlmisiniz.**

**H e y d ə r Ə l i y e v**: Şayiələr təkcə Rusiyada deyil, başqa yerlərdə də həmişə çox olur. Mənim xəstəliyim haqqında əslində bütün dünyada, hətta ərəb ölkələrində də yazıblar. Demək lazımdır ki, mən təəccübləndim: Bir dəfə xəstələndim və belə maraq yarandı. O ki qaldı danışıqlara, onları həmişə aparmaq olar. Axı bundan ötrü xəstəliklə bağlı bütün dünyada hay-küy qaldırmağın heç bir mənası yoxdur. Xüsusən də Türkiyə ilə danışıqlar barədə. Türkiyə ilə bizim çox yaxşı münasibətlərimiz var və oraya hər hansı məsələlər çıxdıqda bizim rəhbərliyimiz oraya gedir, onların rəhbərliyi bizə gəlir.

**Buna baxmayaraq, Azərbaycan ərazisində Türkiyənin və ya NATO-nun hərbi bazalarının yerləşdirilməsi mümkündürmü?**

**H e y d ə r Ə l i y e v**: Azərbaycanda xarici bazalar yoxdur. Ancaq onların olmasının mümkünlüyündən danışarkən bir sıra məsələlər kompleksini xatırlamaq lazımdır. Bəzi MDB ölkələrində, o cümlədən Ermənistanda Rusiyanın hərbi bazaları var. Mən tamamilə səmimi olaraq hesab edirəm ki, bilavasitə Rusiya üçün buna zəruriyyət yoxdur. Demək lazımdır ki, «MDB-nin xarici sərhədləri»nin birgə mühafizəsi barədə bizə də təkliflər edilmişdi. Mən bu təklifləri orada öz hərbi qüvvələrinin olmasını təmin etmək üçün bəhanə hesab edirəm.

Rusiyanın Müdafiə Nazirliyi tərəfindən Ermənistana gizli surətdə silahlar göndərilməsi faktları 1997-ci ilin martında aşkara çıxarıldı. Son yarım ildə isə bu silahlar tamamilə açıq-aşkar və leqal surətdə göndərilir. Rusiya ilə hətta ümumi sərhədi olmayan Ermənistanın ərazisində birinci dərəcəli «MİQ-[88-89]29» təyyarələri, «S-300» zenit-raket kompleksləri yerləşdirilir. Mətbuatda xəbərlər yayılıb ki, guya Rusiyanın və Ermənistanın hava hücumundan müdafiə vasitələri birləşdirilməlidir.

Məni sakitləşdirməyə çalışırlar: Bütün bunlar Sizə qarşı yönəldilməyibdir. Onda bəs, kimə qarşı yönəldilibdir? İrana qarşımı? Axı Rusiyanın İranla gözəl münasibətləri var. Türkiyəyə qarşımı? Lakin belə hesab etmək sadəcə ağılsızlıq olardı ki, Türkiyə nə vaxtsa Rusiyaya hücum edəcəkdir. Mənə deyirlər: NATO-ya qarşı. Mən cavab verirəm: Axı sizin NATO ilə Avropada çox böyük sərhədiniz var. Burada, ucqar bir yerdə niyə bazalar yaradırsınız?

Bu cür siyasət MDB-ni qətiyyən möhkəmlətmir. Mən razıyam ki, MDB-ni möhkəmlətmək lazımdır və Rusiya, şübhəsiz, MDB-nin özəyidir. Lakin ittifaqı necə möhkəmlətmək olar, - bir halda ki, ona daxil olan bir ölkə digər ölkə ilə müharibə edir və həm də həmin ittifaqın üçüncü bir ölkəsi tərəfindən silahlandırılır? Mən buna bənzər bir şey bilmirəm. Ona görə də Rusiya rəhbərliyinin indiki siyasətini düzgün si- yasət hesab etmirəm, üstəlik, o qədər də uzaqgörən siyasət hesab etmirəm.

**Amma hər halda cavab verin, Azərbaycanda Türkiyənin hərbi bazaları yerləşdiriləcəkmi?**

**H e y d ə r Ə l i y e v**: Gəlin qabağa qaçmayaq. İndi belə məsələ qarşıda durmur.

**Heydər Əliyeviç, Siz xəstəliyiniz müddətində prezidentin bəzi vəzifələrinin icrasını kiməsə tapşırıbsınızmı?**

Xeyr. Mən buna ehtiyac görmürəm. Mən tamamilə normal vəziyyətdəyəm. Bakı ilə daim əlaqə saxlayıram. Mənə zəng edir, məsləhətləşir, bütün mühüm məsələlər barəsində fikrimi soruşurlar. Mən deyərdim ki, Azərbaycan dövləti və hökuməti normal işləyirlər.

**Xəstəlik Sizi varis hazırlamağın zəruriliyi barədə düşünməyə vadar etdimi?** [89-90]

**H e y d ə r Ə l i y e v**: Yaxın beş il üçün mən heç kimi hazırlamıram və hazırlamaq fikrində də deyiləm. Mən hələlik öz vəzifələrimi yerinə yetirməyə qadirəm. Zəruriyyət hesab etdikdə isə, bunu hökmən edəcəyəm.

*Müsahibəni qəzetin müxbiri*
*Aleksandr Budberq aparmışdır.*
*(«Moskovski Komsomolets» qəzeti)*

*28 yanvar 1999-cu il*
[90]

## TÜRKİYƏNİN XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ, TÜRKİYƏNİN AZƏRBAYCANDAKI KEÇMİŞ SƏFİRİ OSMAN FARUQ LOĞOĞLU İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Ankara,*
*Gülhanə Tibb Akademiyası*

*28 yanvar 1999-cu il*

**O s m a n F a r u q L o ğ o ğ l u**: Cənab prezident, Sizi səmimi qəlbdən salamlayıram. Bu şəfa ocağında müayinə və müalicə olmağınız, burada keçirdiyiniz görüşlər barədə xəbərləri Türkiyə mətbuatından diqqətlə izləyirəm. Səhhətinizin çox yaxşı olduğunu gördüyümə görə qəlbən sevindiyimi bildirirəm. Siz həm Azərbaycanın, ümumiyyətlə türk dünyasının görkəmli dövlət xadimisiniz.

**H e y d ə r Ə l i y e v**: Mənimlə görüşmək üçün Gülhanə Tibb Akademiyasına gəldiyinizə görə, cənab Loğoğlu, Sizə təşəkkür edirəm. Türkiyə prezidenti Süleyman Dəmirəlin böyük diqqət və qayğısından məmnun qaldığımı nəzərə çarpdırıram. Bu məşhur tibb müəssisəsindəki müayinə və müalicəni yüksək qiymətləndirirəm.

**O s m a n F a r u q L o ğ o ğ l u**: Sizinlə görüşdən şərəf duyduğumu bildirirəm. Cənab prezident, ölkəmizin rəhbəri Süleyman Dəmirəlin Sizə göstərliyi diqqət və qayğı bütün Türkiyə xalqının müdrik dövlət xadimi Heydər Əliyev şəxsiyyətinə sonsuz məhəbbətinin ifadəsidir. [91-92]

**H e y d ə r Ə l i y e v**: Səmimi və xoş sözlərə görə təşəkkürümü bildirirəm. Türkiyə ilə Azərbaycan bir-birinə çox yaxın, dost ölkələrdir. Türkiyə ilə Azərbaycan arasında dostluq və qardaşlıq əlaqələrinin inkişaf etdiyi indiki şəraitdə bizim vaxtaşırı görüşməyə, danışıqlar, məsləhətləşmələr aparmağa ehtiyacımız vardır. Ona görə də burada da əziz dostum, qardaşım Süleyman Dəmirəl ilə keçirdiyim hər görüşdə ölkələrimizi maraqlandıran bir sıra vacib məsələlər, xüsusilə ölkələrimizin bütün sahələrdə qarşılıqlı surətdə faydalı əməkdaşlığının daha da inkişaf etdirilməsi barədə, beynəlxalq və bir sıra regional məsələlər haqqında fikir mübadiləsi apardıq. [92]

## TÜRKİYƏNİN KEÇMİŞ BAŞ NAZİRİ, MİLLƏT VƏKİLİ MƏSUD YILMAZLA GÖRÜŞDƏKİ* SÖHBƏTDƏN

*Ankara,*
*Gülhanə Tibb Akademiyası*

*29 yanvar 1999-cu il*

**M ə s u d   Y ı l m a z**: Çox hörmətli cümhur başqanı, mən Sizi ürəkdən salamlayır, böyük hörmət və ehtiramımı bildirirəm. Səhhətinizin tam yaxşı olduğunu görməkdən çox məmnun qaldım. Burada Türkiyənin cümhur başqanı, Sizin əziz dostunuz, qardaşınız Süleyman Dəmirələ və başqaları ilə hər bir görüşünüz Türkiyə ilə Azərbaycan arasındakı dostluq və qardaşlıq əlaqələrinin günü-gündən inkişaf etməsinə yönəlmişdir. Mən Sizi tam sağalmağınız münasibətilə bir daha təbrik edirəm. Arzu edirəm ki, canınız həmişə sağlam olsun.

Cənab prezident, bu görüşümüzdən xatirə olaraq Sizə bir hədiyyə təqdim etmək istərdim.

**H e y d ə r   Ə l i y e v**: Xoş və səmimi sözlərə görə Sizə, cənab Məsud Yılmaza öz minnətdarlığımı bildirirəm. Dünya səviyyəsində olan bu gözəl tibb ocağında müayinə və müalicə olunmağımdan çox məmnunam. Mənə göstərilən yüksək diqqət və qayğınıza görə, Türkiyə prezidentinin hər gün Gülhanə Tibb Akademiyasına gəlib məni ziyarət etdiyinə görə təşəkkürümü bildirirəm. Əziz dostum, qardaşım Süleyman [93-94] Dəmirəl ilə biz ölkələrimizi maraqlandıran məsələlər, beynəlxalq və regional problemlər haqqında ətraflı fikir mübadiləsi aparmışıq.

Diqqət və qayğıya görə Türkiyə prezidenti Süleyman Dəmirələ, Gülhanə Tibb Akademiyasının rəhbərlərinə, həkimlərinə və Türkiyə xalqına bir daha təşəkkür edirəm.

**M ə s u d   Y ı l m a z**: Cənab prezident, Siz həm Azərbaycanın, həm də bütün türk dünyasının ən görkəmli dövlət xadimisiniz. Ona görə də bütün türk xalqı Sizi qəlbən sevir və Sizə sonsuz rəğbət bəsləyir. [94]

* Görüşdə Türkiyənin keçmiş enerji və təbii qaynaqlar naziri, millət vəkili Cümhur Ərsumər də iştirak etmişdir.

## GÜLHANƏ TİBB AKADEMİYASINDA MÜALİCƏ BAŞA ÇATDIQDAN SONRA AKADEMİYANIN KOMANDANI, TİBB XİDMƏTİ GENERAL-LEYTENANTI, PROFESSOR ÇƏTİN HARMANKAYA İLƏ GÖRÜŞDƏKİ SÖHBƏT

*Ankara*

*29 yanvar 1999-cu il*

**Çətin Harmankaya**: Hörmətli prezident Heydər Əliyev, Siz burada müayinə və müalicə olunmaqla bizə böyük şərəf gətirdiniz və Gülhanə Tibb Akademiyasını bütün dünyada məşhur etdiniz. Şəfa ocağınızın bütün üzvləri adından Sizə cansağlığı arzulayıram.*

**Heydər Əliyev**: Hörmətli cənab Kamutan!

Hörmətli generallar, dostlar, qardaşlar!

Bu ilin ocaq ayının – yanvar ayının 17-dən mən Azərbaycandan buraya, Sizin xəstəxanaya gəldim. Bu gün, yanvar ayının – ocaq ayının 29-da mən Sizdən ayrılıram.

Son 10 il içərisində ilk dəfədir xəstəxanaya düşürəm. An-caq çox məmnunam ki, xəstələndiyimlə əlaqədar olaraq, Türkiyə Cümhuriyyətinin prezidenti, əziz dostum, qardaşım Süleyman Dəmirəl məni buraya dəvət etdi və müalicə olunmağımı məhz sizin xəstəxananıza etibar etdi. Mən bu dəvətə görə təşəkkür edirəm. [95-96]

Əziz dostum, qardaşım hörmətli Süleyman Dəmirələ qəlbimin ən dərin guşələrindən gələn hədsiz təşəkkürü və məhəbbəti bildirirəm. Eyni zamanda mən burada 12 gün ərzində hər gün sizinlə bərabər oldum və siz mənə çox böyük qayğı, diqqət göstərdiniz. Sizin məni müayinə etməyiniz, müalicə etməyiniz çox yüksək səviyyədə oldu, çox gözəl oldu və mən artıq tam sağlamam. İndi xəstəxanadan çıxıram və sabah Azərbaycana dönürəm.

Bütün bu xidmətlərinizə görə, mənə göstərdiyiniz qayğıya görə, mənə göstərdiyiniz qardaşlıq, mehribanlıq münasibətlərinə görə sizə təşəkkür edirəm.

Həkimlər həmişə deyirlər ki, xəstəni təkcə müalicə sağaltmır. Onu mühit sağaldır və bir də ki, qayğı, diqqət, mehriban münasibət sağaldır. Mən bunların hamısını burada gördüm.

Sizin xəstəxana – Gülhanə xəstəxanası Türkiyə Cümhuriyyətinin tarixi sərvətlərindən biridir. Yüz ili tamam olmuş bir xəstəxana və yüz il müddətində belə yüksək, dünya miqyaslı səviyyəyə gəlmiş xəstəxana türk xalqının, Türkiyə Cümhuriyyətinin iftixarıdır və Azərbaycan xalqının, Azərbaycan Respublikasının da iftixarıdır. Mən çox qürur duyuram ki, mənim qardaş, dost ölkəmdə – Türkiyə Cümhuriyyətində dünya miqyasında ən yüksək zirvələrdə olan belə bir xəstəxana vardır, Tibb Akademiyası vardır. Mən burada olduğum müddətdə sizin işlərlə də az-çox tanış oldum və gördüm ki, burada çox gözəl iş qurmusunuz. Gözəl intizam var, gözəl qanun-qayda vardır və hamısından önəmli – çox bilgili həkimlər vardır. Sizin çox gözəl, ən müasir alətləriniz, cihazlarınız vardır.

Bunlar məni sevindirir. Bir ona görə yox ki, siz mənə bu günlər çox böyük qayğı göstərdiniz və mənim sağlamlığımın tam olması üçün əlinizdən gələn hər şeyi etdiniz. Yenə də deyirəm, ona görə ki, demək, bizim xalqımız, bizim millətimiz dünya xalqları içərisində belə yüksək biliklərə, yüksək təcrübəyə malik bir xalqdır. Bunlar hamısı məni çox sevindirdi. [96-97]

Şübhəsiz ki, mən on ildir heç bir xəstəxana görməmişdim və görmək də istəmirdim. Ancaq hər şey insanın özündən asılı deyildir. Tale məni buraya gətirdi. Bundan da məmnunam ki, gətirdi. Çünki burada bir çox şeyləri gördüm və ən əsas odur ki, on il həkimsiz yaşayan insanın, yəqin, bir zaman müayinəyə ehtiyacı var idi. Bunların hamısını siz etdiniz. Çox sağ olun. Mən sizə təşəkkür edirəm.

Cənab Kamutan, şəxsən sizə çox təşəkkür edirəm. Çünki siz böyük bir xəstəxananın, böyük bir akademiyanın kamutanısınız. Amma hər saat, hər dəqiqə mənə qayğı və diqqət göstərdiniz.

Ertən Paşaya çox təşəkkür edirəm. Çünki o, sizin və cümhur başqanı Süleyman Dəmirəlin əmri ilə Bakıya gəldi və məni buraya gətirdi. Buraya gələndən də mənim müalicəmlə məşğul olur. Çox gözəl bir doktorunuzdur, gözəl bir insandır. Mən çox təşəkkür edirəm.

Bütün həkimlərə təşəkkür edirəm. Mən kiminlə burada görüşdümsə, hamısında yüksək bir səviyyə gördüm. Mənim müqayisə etməyə imkanım var. Çünki bilirsiniz, on il məsafə keçibdir. On ildə dünya inkişaf edibdir. Amma mən Moskvada çalışanda orada Baş nazirin birinci müavini kimi, Sovetlər Birliyinin bütün sağlamlıq bakanlarına rəhbərlik edirdim. Yəni sağlamlıq bakanı mənə bağlı idi. Orada bir sağlamlıq bakanlığı var idi, bir də tibb sənayesi bakanlığı var idi. Tibb Akademiyası, çox böyük universitetlər – ha-

---

* Çətin Harmankaya respublikamızın rəhbərinə xatirə olaraq «Gülhanə Tibb Akademiyası – 100 il» plaketi bağışladı.

mısı mənə bağlı idi. Yəni mən orada bu işlərə baxırdım və bu xəstəxanalara xəstə kimi yox, sadəcə, öz vəzifəmi yerinə yetirmək üçün gedirdim. Çox şeylər görmüşəm. Ancaq burada gördüklərim, yenə də deyirəm, məni heyran etdi: həm burada işinizin qurulması, həm də sizin həkimlərin, bütün tibb işçilərinin öz işinə münasibəti və çox bilikli, təcrübəli olması.

Sizin hamınıza təşəkkür edirəm və xahiş edirəm, mənim təşəkkürümü və minnətdarlığımı mənimlə təmasda olanların və olmayanların hamısına çatdırasınız. [97-98]

Şübhəsiz ki, mən sizə bir ərməğan verməliyəm və çox arzu edirəm, bunu qəbul edəsiniz. Ola bilər, gələcəkdə daha da önəmlisini edəm. Amma indi mən sizə, akademiyada qalması üçün hədiyyə edirəm ki, məni unutmayasınız. Bu da mənim həyatımın bir hissəsi haqqında kitabdır. Burada bəzi rəsmlər vardır. Bu da sizin müzeyinizdə qalsın. Sizin xəstəxanada olmuş bir insandır. Hamınıza təşəkkür edirəm. [98]

## GÜLHANƏ TİBB AKADEMİYASINI TƏRK ETDİKDƏN SONRA TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ SÜLEYMAN DƏMİRƏL İLƏ GÖRÜŞDƏKİ SÖHBƏT

*Ankara, Çankaya köşkü*

*29 yanvar 1999-cu il*

**Süleyman Dəmirəl**: Çox hörmətli cümhur başqanı Heydər Əliyevin tam sağalmasından mən çox böyük məmnunluq duyuram. Bu gün əziz dostum, qardaşım xəstəxanadan çıxdı.

İndi biz Türkiyə ilə Azərbaycan arasındakı dostluq, qardaşlıq, iş birliyi məsələlərini bir daha müzakirə edəcəyik. İki qardaş və dost ölkə arasındakı münasibətlər örnək münasibətləridir və dostluğumuz əbədidir. Sizə «Keçmiş olsun!» deyirəm. Azərbaycan xalqına, Azərbaycana bir ömür verdiyi hizmətlərlə öz ölkəsini idarə etmək imkanına yenidən qovuşmusunuz. Başarılar, uğurlar diləyirəm.

**Heydər Əliyev**: Əziz dostum, qardaşım, Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli Süleyman Dəmirəl! Məni Türkiyəyə müalicəyə dəvət etdiyinizə görə, mən bir az rahatsız olduğum zaman dərhal mənə qayğı, diqqət göstərdiyinizə görə və çox təlaş etdiyinizə görə və nəhayət, dəvət edib mənim Türkiyəyə gəlməyimə şərait yaratdığınıza görə sizə təşəkkür edirəm.

Bizim dostluğumuz, qardaşlığımız bizim xalqlarımızın, ölkələrimizin dostluğu, qardaşlığıdır. Ancaq bu, hamıya mə[99-100]lumdur ki, sizinlə mənim aramda otuz ildən artıq bir şəxsi dostluq da vardır və bu dostluq son illərdə, Azərbaycan öz müstəqilliyini, istiqlaliyyətini əldə edəndən sonra bizim ölkələrimizin bir-birinə daha da yaxınlaşması, iş birliyi qurması dostluq, qardaşlıq əlaqələrinin inkişaf etdirilməsi üçün çox əhəmiyyətli olmuşdur.

Hörmətli prezident, hörmətli dostum, siz çox qayğıkeş insansınız. Mən bunu həmişə görmüşəm və dünya da görür. Siz çox böyük qəlbli insansınız, siz çox böyük zəkalı insansınız. Ona görə sizin kimi bir şəxslə dostluq etmək mənim üçün böyük şərəfdir və mən bundan çox məmnunam, bunu həyatımın ən gözəl bir səhifəsi hesab edirəm.

Siz məni buraya dəvət etdiniz. Mən gəldim, 12 gün Gülhanə xəstəxanasında, Tibb Akademiyasında qaldım. Məni orada çox gözəl müalicə etdilər, müayinə etdilər. Mən Türkiyənin Gülhanə xəstəxanası, Tibb Akademiyası kimi bir tibb mərkəzinin olmasından da çox böyük iftixar hissi keçirirəm. Çünki Türkiyə Cümhuriyyətinin hər bir tərəfi bizim üçün əhəmiyyətlidir və bizim üçün örnəkdir. Biz həmişə bununla fəxr edirik. Türkiyənin dövləti ilə də fəxr edirik, ordusu ilə də fəxr edirik, tarixi ilə də fəxr edirik. Türkiyənin dünyada tutduğu bugünkü önəmli yerlə, hörmətli, inkişaf etmiş bir dövlət, dünyada böyük bir yer tutmuş dövlət olduğuna görə də fəxr edirik.

Ancaq bu qədər yüksək dərəcəli bir tibb mərkəzinin, 100 illik tarixi olan tibb mərkəzinin olmasını görməyim mənim üçün çox önəmli, əhəmiyyətli oldu. Oradakı həkimlər, bütün tibb işçiləri mənə çox böyük qayğı, diqqət göstərdilər.

Mən on il idi ki, həkim görməmişdim. Bəlkə də bu, taleyin işiymiş, məni məcbur etdi ki, həkimlər məni görsünlər, müayinə etsinlər. Bunlar hamısı mənim üçün çox əhəmiyyətlidir.

Ancaq bəzən; ola bilər, təəccüb doğursun. Çünki mən xəstəxanada olduğum zaman hər gün siz oraya gəldiniz. Əlcəzairdə olduğunuz zaman iki gün görüşmədik, amma o vaxt ora[100-101]dan da telefon etdiniz. Bu, qeyri-adi bir haldır. Bu, bir tərəfdən sizin nə qədər böyük insan olduğunuzu göstərir, nə qədər qayğıkeş insan olduğunuzu göstərir, eyni zamanda sizinlə mənim aramda olan dostluğun nə qədər sarsılmaz olduğunu göstərir, həm də Türkiyə–Azərbaycan qardaşlığının, dostluğunun nə qədər yüksək zirvədə olduğunu göstərir. Sizin bu qayğınız, sizin bu diqqətiniz və hər gün mənimlə görüşməyiniz mənim üçün böyük bir şərəfdir. Hətta bəzən mən sıxılırdım. Mən deyirdim, tez buradan çıxım, çünki Türkiyə kimi böyük dövlətin cümhur başqanını işindən ayırıram. Gəlir bura, bir saat söhbət edirik. Ancaq söhbətlərimiz də faydalı olurdu. Çünki siz dediyiniz kimi, bir çox məsələlər barədə söhbət edirdik.

Bəli, bu gün Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı çox yüksək səviyyədədir, həm siyasi, həm iqtisadi, həm insani, humanitar əlaqələr. Biz bir-birimizə çox qovuşmuşuq və qovuşmalıyıq, bundan sonra da qovuşacağıq. Hesab edirəm ki, bu dostluq dünyada dost, qardaş axtaran ölkələr üçün bir nümunədir. Azərbaycan həmişə Türkiyə xalqına, türk torpağına sadiq olubdur.

Biz keçən il oktyabr ayının 29-da Türkiyə Cümhuriyyətinin 75-ci ildönümünü bayram etdik. Biz də bu bayramda iştirak etdik və böyük öndər Mustafa Kamal Atatürkün qurduğu bu cümhuriyyətin nə qədər böyük nailiyyətlər əldə etdiyinin şahidi olduq. O günlər biz burada türk xalqının öz cümhuriyyətinə nə qədər sədaqətli olduğunu, Türkiyə Silahlı Qüvvələrinin nə qədər güclü olduğunu və Türkiyə dövlətinin nə qədər güclü, qüdrətli olduğunu hiss etdik və bir daha gördük. Bu, mənim üçün və bütün Azərbaycan xalqı üçün qürur hissi doğurur. Çünki biz, siz birik. Sizdə nə varsa, o bizim üçün də iftixar hissi doğurur.

Mən sizə bir daha təşəkkür edirəm. Mən sizə ömürlük borclu oldum. Sizin bu qayğınıza, diqqətinizə görə ömürlük [101-102] borclu oldum. Arzu edirəm ki, sizin canınız həmişə sağlam olsun. Allaha şükürlər olsun ki, çox da sağlamdır. Həmişə sağlam olsun və heç vaxt bir xəstəlik görməyəsiniz, xəstəxanaya düşməyəsiniz. Mən də bundan sonra çalışacağam ki, xəstəxanaya düşməyim və bizim görüşlərimiz xəstəxanada olmasın. Mən sizə çox təşəkkür edirəm. [102]

## RESPUBLİKA İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*Prezident sarayı*

*30 yanvar 1999-cu il*

Hörmətli xanımlar və cənablar!

Mən sizi səmimi-qəlbdən salamlayıram və bu görüşümüzü özüm üçün çox qiymətli hesab edirəm. Xəstəliyimlə əlaqədar Türkiyədə müalicədə olduğum zaman sizin tərəfinizdən və bütün Azərbaycan xalqı tərəfindən mənə hədsiz qayğı, diqqət göstərilmiş, milli həmrəylik nümayiş etdirilmişdir. Bu qayğıya, diqqətə görə, mənə göstərilən bu hörmətə görə mən sizə, bütün Azərbaycan xalqına, vətəndaşlarına təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Mənim xəstələnməyim və müəyyən bir zaman müayinə, müalicə keçməyim respublikada və ölkəmizin hüdudlarından kənarda çox narahatlıq hissi doğurmuş və böyük maraq, diqqət cəlb etmişdir. Bu barədə – xəstələnməyimin səbəbləri haqqında mən Türkiyədə olarkən bir neçə məlumat vermişəm. Mənim bu barədə dediyim sözlər bizim televiziyada verilmiş və mətbuatda dərc olunmuş, ictimaiyyətə çatdırılmışdır.

Ancaq sizinlə bu gün görüşərkən bir daha qeyd etmək istəyirəm ki, mənim xəstələnməyim yanvarın 12-də, həftənin ikinci günü müşahidə olundu. Günün axırında işdə ikən məndə bədən hərarətinin qalxması hiss edildi. Amma keçmiş zamanlarda bəzi belə hallarda olduğu kimi, bu dəfə də mən buna fikir vermədim. Evə döndüm, aspirin qəbul etdim. Hesab [103-104] etdim ki, bununla da keçib gedər. Ancaq görünür bu, çox ciddi bir virusdan meydana gəlmiş qrip idi. Bu, sonra məlum oldu, mən bunu bilmirdim. Ona görə də sonrakı günlər məndə narahatlıq, nasazlıq, hərarətin qalxması müşahidə edilirdi. Amma dediyim kimi, keçən zamanlarda da bəzi hallarda belə olubdur, mən bunlara heç vaxt fikir verməmişəm, müalicə etməmişəm və işimi davam etdirmişəm.

Beləliklə, mən həftənin axırına qədər bu vəziyyətdə işlədim. Həftənin beşinci gününün axırında bu barədə özümü çox narahat hiss etdim. Axşam saat 10-da işi bitirib evə qayıtdım. Gördüm ki, çox narahatam. Ona görə də hərarətimi ölçdüm, gördüm ki, hərarətim çox yüksəkdir. Mən belə hallarda, adətən, aspirin qəbul edirəm. Hesab etdim ki, yenə də aspirinlə hərarətimi aşağı salmaq olar. Yəni mən bunlara fikir verməmişəm, bu dəfə də fikir vermədim. Ancaq həftənin altıncı günü gördüm ki, vəziyyətim ağırlaşır. Ona görə də sizə məlum olan müşavirəyə – ölkəmizdə əhalinin siyahıyaalınması ilə əlaqədar həftənin altıncı günü saat 2-yə təyin etdiyim müşavirəyə gələ bilmədim. Yenə də hesab etdim ki, bir gün evdə qalaram, bu keçib gedər. Ancaq təəssüflər olsun ki, bu, belə olmadı. Hərarətim çox qalxdı və bu, şiddətli öskürəklə müşayiət olunurdu. Həftənin altıncı günü, yanvarın 16-da axşam bu – həm yüksək hərarət, həm də davamlı öskürək məni çox gərgin bir vəziyyətə gətirdi.

Beşinci günün axırında, axşam mən həkimə müraciət etdim. Belə müəyyən edildi ki, aspirinlə keçinmək olar. Ancaq mən həmin gecəni çox ağır öskürəklə keçirdiyimə görə altıncı gün səhər həkimə müraciət etdim. Mənə antibiotik iynəsi vurdular. Amma görünür, biz vaxtı itirmişdik. Hararətim qalxdı və günün axırında çox gərgin bir vəziyyət əmələ gəldi.

Beləliklə, həftənin altıncı günündən yeddinci gününə, yanvarın 16-dan 17-nə keçən gecə çox gərgin bir vəziyyət oldu. Bu vəziyyətdən xəbər bilən Türkiyə Cümhuriyyətinin prezi[104-105]denti, hörmətli cənab Süleyman Dəmirəl dərhal iki təyyarə ilə iki həkim qrupu göndərdi. Onlar səhərə yaxın gəldilər, baxdılar. Ancaq o vaxt mənim vəziyyətim normallaşmışdı. Onlar təklif etdilər ki, belə bir hadisədən sonra mütləq müayinə və müəyyən müalicə olmalıdır. Mən isə həmişə olduğu kimi, hesab etdim ki, buna ehtiyac yoxdur, artıq müəyyən qədər normal vəziyyətdəyəm. Onlar təklif etdilər ki, mən Türkiyəyə gedim. Mən buna razı olmadım və bundan xəbər tutan prezident Süleyman Dəmirəl mənə telefon etdi, çox təkidlə məni Türkiyəyə dəvət etdi. Mən bu dəvəti qəbul etdim. Yanvarın 17-də iqamətgahda Təhlükəsizlik Şurasının iclasını keçirdim, lazımi tapşırıqları verdim və günün axırına yaxın Ankaraya uçdum.

Sizə məlumdur ki, orada məni qarşıladılar və Tibb Akademiyasının Gülhanə xəstəxanasında yerləşdirdilər. Həmin axşamdan mənim həm müayinəm, həm də müalicəm başlandı və bu, yanvarın 29-da bitdi. Yəni mən yanvarın 29-da xəstəxanadan çıxdım. Prezident, hörmətli Süleyman Dəmirəl təklif etdi ki, bir gün onun qonağı olum, ondan sonra Bakıya qayıdım.

Beləliklə, mən iqamətgaha getdim, biz axşam orada görüşdük, prezident Süleyman Dəmirəllə çox ətraflı söhbətlər etdik. Yanvarın 30-da səhər mən vətənə, Bakıya gəldim. Mənim xəstəliyimin əsas məzmunu budur.

Türkiyədə məni ən çox müalicə yox, müayinə edirdilər. Çox təəccübləndilər, - onlara dedim ki, son 9 ildə mən heç bir həkim nəzarəti altında olmamışam, mənim şəxsi həkimim olmayıbdır, heç bir tibbi müayinədən keçməmişəm. Baxmayaraq ki, yəqin buna ehtiyac olubdur.

Belə bir şəraitdə yaşayan adam – mən elə hesab etmişəm ki, bədənim çox sağlamdır, enerjim çoxdur. Allaha şükür olsun ki, siz bunları görürdünüz. Ona görə də əgər həkimə ehtiyacım yoxdursa, nəyə lazımdır

ki, mənim daimi həkimim olsun. Baxmayaraq ki, Moskvada yaşayıb işləyərkən, - həm [105-106] vəzifədə olarkən, həm də vəzifədən getdiyim dövrdə – mənim səhhətimi müşahidə edən xüsusi həkimim var idi. Ancaq birincisi, 1990-cı ildə mən Azərbaycana dönəndən, Naxçıvana gedəndən sonra bu, praktiki olaraq mümkün deyildi. İkincisi, normal yaşadığıma, çox gərgin bir şəraitdə işlədiyimə və heç bir xəstəliklə rastlaşmadığıma görə belə hesab etmişdim ki, bundan sonra həkimə müraciət etmək, yaxud müayinədən keçmək mənim üçün lazım deyildir.

Buna görə də Türkiyədə həm həkimlər, həm də əziz dostum, qardaşım prezident Süleyman Dəmirəl məni çox qınadılar. Hətta təəccüb etdilər ki, necə ola bilər, 9 ildə heç bir müayinədən keçməyəsən, həkim nəzarətində olmayasan.

Mən anladım ki, səhv buraxmışam. Ancaq olan-olub, keçən-keçibdir. Türkiyədəki Gülhanə xəstəxanasında məni qısa müddətdə yaxşı müalicə etdilər. Mənim üçün ən əsas odur ki, tam müayinədən keçirdilər. Müayinənin o tərəfi mənim üçün vacibdir ki, indi səhhətimin hansı vəziyyətdə olduğunu bilirəm. Digər tərəfdən, mən 10 il bundan əvvəl Moskvada müayinədən keçmişdim, onu keçdim. İndi tibb cihazları, alətləri də, bəzi tibb qanunları da, insan orqanizminə baxış da çox dəyişilibdir. Bunlar hamısı Türkiyədəki yüksək səviyyəli Gülhanə Tibb Akademiyasında müəyyən olundu. Bu, mənim üçün çox əhəmiyyətlidir.

Bunların nəticəsi ondan ibarətdir ki, indi mənim səhhətim çox yaxşıdır. Həkimlərin dediyinə görə, orqanizmim çox möhkəmdir. Ona görə də belə bir ağır şərtlər içərisində bu illərdə yaşayıb və dözübdür, mənim bundan sonra da fəaliyyətim, yaşayışım üçün daha gözəl şərait yaradır.

Siz yəqin televiziya vasitəsilə bunların hamısını hər gün görürdünüz ki, Türkiyə Cümhuriyyətində mənə böyük qayğı və diqqət göstərilirdi. Bu qayğı, diqqət və dostluq münasibətini birinci növbədə Türkiyənin prezidenti, Azərbaycan xalqının dostu, şəxsən mənim əziz dostum, qardaşım Süleyman [106-107] Dəmirəl göstərirdi. Eyni zamanda, Türkiyənin dövlət və hökumət orqanlarının, Böyük Millət Məclisinin rəhbərləri mənə çox böyük diqqət, qayğı göstərirdilər. Təkcə onlar yox, ümumiyyətlə, Türkiyə xalqı, vətəndaşları da mənə çox diqqət və qayğı göstərirdilər.

Şübhəsiz, bu diqqət, qayğı həm şəxsən mənə olan münasibətdən irəli gəlir, həm də ki, Türkiyə–Azərbaycan dostluğunun və qardaşlığının əsasında yaranan bir qayğı, münasibətdir.

Azərbaycan-Türkiyə dostluğu, qardaşlığı bu günlər bir daha sınaqdan keçdi. Ölkəmizə, Türkiyə Cümhuriyyətinə, bütün dünyaya bir daha nümayiş etdirdi ki, Türkiyə–Azərbaycan dostluğu, qardaşlığı çox yüksək səviyyədədir, dəfələrlə dediyim kimi, bu dəfə də həmin sözləri işlədirəm ki, əbədidir, sarsılmazdır.

Mən bu qardaşlıq qayğısına, diqqətə, müstəqil Azərbaycana göstərilən bu qayğıya, münasibətə və mənim səhhətimin yoxlanması, müalicə edilməsi üçün həyata keçirilən bütün tədbirlərə görə Türkiyə Cümhuriyyətinin prezidenti hörmətli cənab Süleyman Dəmirələ, Türkiyə hökumətinə, Böyük Millət Məclisinə, Türkiyə xalqına, vətəndaşlarına hədsiz minnətdarlığımı və təşəkkürümü bildirirəm.

Bu hadisə ilə əlaqədar məni çox sevindirən hal bir də ondan ibarətdir ki, mən Türkiyədə tibbin, səhiyyənin çox yüksək səviyyədə olduğunu gördüm. Tibb Akademiyasının Gülhanə xəstəxanasında çox zəkalı, böyük təcrübəyə malik olan həkimlər, alimlər, səhiyyə işçiləri çalışırlar. Bu xəstəxananın 100 illik tarixi vardır. Ötən 100 il ərzində bu xəstəxana böyük inkişaf dövrü keçirmiş, indi demək olar ki, dünya tibbinin ən yüksək zirvələrində durur. Bu, birinci növbədə həmin Tibb Akademiyasında, xəstəxanada toplaşmış alimlərin, həkimlərin yüksək zəkasından irəli gəlir. Eyni zamanda, bu, xəstəxa[107-108]nanın müasir tələblərə uyğun tibb cihazları, alətləri ilə təchiz edilməsi ilə bağlıdır.

Xəstəxanada Tibb Akademiyasının komutanından tutmuş, lap adi işçilərə qədər hamısı mənə hədsiz qayğı, diqqət, çox mehribanlıq, dostluq münasibətləri göstərmişlər. Mən bu sözləri xəstəxanadan çıxarkən orada da dedim. Amma bu diqqətə, qayğıya, gözəl tibbi müayinəyə və mənə göstərilən müalicə tədbirlərinə görə Türkiyə Cümhuriyyətinin Tibb Akademiyasına, Gülhanə xəstəxanasına, akademiyanın rəhbərliyinə, bütün yüksək səviyyəli həkimlər kollektivinə, xəstəxananın bütün kollektivinə bu gün Azərbaycanda, Bakıda bir daha təşəkkürümü və minnətdarlığımı bildirirəm, bu xəstəxanaya, Tibb Akademiyasına gələcəkdə böyük uğurlar arzulayıram.

Prezident cənab Süleyman Dəmirəl və Tibb Akademiyasının həkimləri, alimləri, professorları bu son 10 il içərisində həkimsiz, həkim müayinəsiz yaşadığıma görə məni qınayaraq və buna çox təəccüblənərək, eyni zamanda çox ciddi təklif irəli sürdülər ki, bundan sonra belə şəraitdə yaşamaq, işləmək olmaz. Bildirdilər ki, hər ölkənin prezidenti, dövlət başçısı birinci növbədə tibbi, həkim nəzarəti altında olmalıdır. Ona görə yox ki, o xəstədir, yaxud xəstə deyildir. Ona görə ki, - onların sözləri ilə desək, - ölkənin ən birinci adamıdır və ona daha da çox diqqət, qayğı göstərilməlidir. Mən elə bilirəm ki, bunlar düz fikirlərdir. Çalışacağam ki, bu tənqiddən və çox dəyərli fikirlərdən özüm üçün nəticə çıxarım. Yəqin ki, lazımi tədbirlər görmək də vacibdir.

Mən Türkiyədə olduğum zaman Azərbaycan vətəndaşlarından və dünyanın bir çox ölkələrinin dövlət və hökumət başçılarından, ictimai, siyasi xadimlərdən, ayrı-ayrı şəxslərdən çoxsaylı məktublar, teleqramlar almışam. Onlar bilavasitə Ankaraya gəlibdir. Çoxsaylı telefon zəngləri də gəlibdir. Onlar bilavasitə Ankaraya, eyni zamanda Bakıya, Prezident sarayına gəlibdir. [108-109]

Türkiyədəki həmin xəstəxanada məni ziyarət etmək tam qadağan edilmişdi. Ancaq prezident Süleyman Dəmirələ, hökumət, dövlət başçılarına buna icazə verilmişdi. Amma məni ziyarət etmək istəyənlər çox idi. Ziyarət edənlər üçün isə orada sadəcə belə bir adət var: onların gətirdiyi güllər, arzuları, məktubları oradakı müəyyən bir yerdə qəbul olunur. Mənə hər gün çatdırırdılar ki, məni ziyarət edən çoxsaylı adamlar gətirib buraya gül-çiçək dəstələri vermişlər, öz arzularını, istəklərini bildirmişlər. Bütün bunlar barədə məlumatı mənə hər gün çatdırırdılar, bildirirdilər. Amma mənimlə görüş tam məhdudlaşdırılmışdı. Onların dediyinə görə bu, xəstəxananın xüsusi rejimidir və şübhəsiz ki, bu rejimə tabe olmaq lazımdır.

Azərbaycandan çoxları oraya gəlmək istədilər. Bir neçə adam gəlib orada bir neçə gün mənimlə görüşmək əzmində oldular. Ancaq həkimlər buna icazə vermədilər. Ona görə də oraya gəlib mənimlə görüşmək istəyən adamlardan üzr istəyirəm. Bu, tamamilə üzrlü səbəbdən olmuşdur.

Eyni zamanda, Azərbaycan vətəndaşlarından Türkiyənin prezidenti, hörmətli cənab Süleyman Dəmirələ və Türkiyənin Tibb Akademiyasının Gülhanə xəstəxanasına çoxsaylı minnətdarlıq teleqramları, məktubları göndərilmişdir. Mənə qayğı, diqqət göstərənlərin hamısına – həm xarici ölkələrin dövlət və hökumət başçılarına, ictimai-siyasi xadimlərinə, ayrı-ayrı vətəndaşlarına, həm də Azərbaycanın vətəndaşlarına, dövlət orqanlarına, ictimai orqanların hamısına bu qayğıya, diqqətə görə dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm.

Prezident Süleyman Dəmirəl və Tibb Akademiyasının rəhbərliyi onlara gələn məktublardan, teleqramlardan çox məmnundurlar. Bunların hamısı bir daha onu göstərdi ki, bizim xalqımız Türkiyə Cümhuriyyətinə, xalqına nə qədər dərin hisslərlə bağlıdır. Bizim ölkəmizə, xalqımıza, Azərbaycana [109-110] göstərilən qayğıya görə də insanlar öz qəlblərindən gələn hissiyyatları dərhal bildirirlər.

Yanvarın 30-da Azərbaycana dönərkən məni minlərlə, on minlərlə, yüz minlərlə adam Bakıda, hava limanında, sonra da iqamətgaha gələnə qədər salamlayırdılar, alqışlayırdılar və öz münasibətlərini göstərirdilər. Bu, çox həyəcanlı gün idi. Belə başa düşürəm ki, bu, təkcə mənim üçün yox, eyni zamanda bütün Azərbaycan vətəndaşları üçün belə idi. Mən sonra televiziya ilə də gördüm ki, təkcə Bakıda yox, Azərbaycanın bütün şəhərlərində, rayonlarında, yaşayış məntəqələrində buna çox həyəcanlı, mehriban, istiqanlı münasibət göstərilmişdir. Bunlara görə mən bütün Azərbaycan vətəndaşlarına və məni qarşılayanların hamısına səmimi-qəlbdən təşəkkür edirəm.

Eyni zamanda, yəqin onu da qeyd etmək lazımdır ki, mənim xəstələnməyim ölkəmizdə, ölkəmizin hüdudlarından kənarda da böyük narahatlıq hissi doğurmuşdur. Bu münasibətlə gələn məktublar, teleqramlar, edilən telefon zəngləri bunu aşkar göstərir.

Mən orada düşünürdüm, - ölkələr var ki, dövlət, hökumət başçısı xəstələnir də, istirahətə də gedir, müalicə də olunur. Bunlar hamısı təbii haldır. Ancaq mənim bu müddətdə – mən 1993-cü ildən burada işləyirəm – cəmisi bir dəfə xəstələnməyim, nədənsə, dərhal böyük narahatlıq, həyəcan doğurmuşdur. Mən gördüm ki, insanlar doğrudan da çox böyük həyəcan hissi ilə yaşayırlar. Düşündüm ki, nə üçün? Ola bilər, ona görə ki, mən heç vaxt xəstələnməmişəm, işdən ayrılmamışam. İnsanlar hesab edirlər ki, Heydər Əliyev belə işləməlidir və o heç vaxt xəstələnməməlidir. Təbiidir, mənim obrazımın bu cür təsvir edilməsindən məmnunam. Ancaq o da təbiidir ki, insan xəstələnə də bilər, insan istirahət də etməlidir. Yenə də deyirəm, yəqin bu da mənim günahımdır, - mən cəmiyyəti buna öyrətmişəm ki, Heydər Əliyev daim işləyir, heç vaxt xəstələnmir. [110-111]

Bu həqiqətdir ki, mən son illər – həm Naxçıvanda, həm də Bakıda olarkən daim fasiləsiz işləmişəm, bir gün də istirahət etməmişəm. Bir bazar günü tapmaq mümkün deyildir ki, mən işdə olmayım. İl ərzində işlə məşğul olan hər bir adam istirahət etməlidir. Mən özümü bu istirahət hüququndan tam məhrum etmişəm. Görünür, bu da mənim səhvimdir. Təkcə özümə görə yox, mən istirahətsiz və fasiləsiz işlədiyimə görə mənim ətrafımda rəhbər vəzifədə işləyən şəxslərdə də – onların əksəriyyəti burada, bu salondadır – istirahət götürməyiblər, istirahətsiz, fasiləsiz işləyiblər. Beləliklə, mən nəinki özümə qəsd etmişəm, hətta ətrafımda yüksək vəzifədə işləyən insanların da, sizin səhhətinizə qəsd etmişəm. Mən indi artıq bunu anlayıram, dərk edirəm və sizə söz verirəm ki, həm özümün iş, istirahət rejimimi qaydaya salacağam, istirahət hüquqlarından istifadə etməyə çalışacağam və beləliklə, sizin üçün də belə şəraitlər yaranacaqdır.

Görürsünüz, hər bir mənfi hadisənin müsbət tərəfləri də vardır. Bu da ondan ibarətdir ki, biz özümüz üçün – həm mənim, həm də sizin üçün iş rejimini gələcəkdə daha düzgün müəyyən edə biləcəyik.

Mən Azərbaycan vətəndaşlarının xəstələnməyimlə əlaqədar narahatlığını və həyəcanını anlayıram, yüksək qiymətləndirirəm və bunu mənə olan münasibət, hörmət, məhəbbət kimi izah edirəm. Bununla yanaşı, mənim xəstələndiyim zamandan müalicəni qurtarıb gələnə qədər olan dövr cəmiyyətimiz üçün bir neçə şeyləri bir daha nümayiş etdirdi. Birinci ondan ibarətdir ki, bu zaman, bu günlər Azərbaycan xalqının, vətəndaşlarının əksəriyyətinin Azərbaycan dövlətçiliyini, prezidentini dəstəklədiyini göstərdi. Azərbaycan dövlətinin xarici və daxili siyasətinin dəstəklənməsini yenidən nümayiş etdirdi. Azərbaycan dövlətinin, hökumətinin həyata keçirdiyi tədbirlərin dəstəklənməsini nümayiş etdirdi. Eyni zamanda, xalq ilə, Azərbaycan vətəndaşları ilə Azərbaycan dövlətinin, [111-112] prezidentinin sıx həmrəyliyini, birliyini bariz şəkildə nümayiş etdirdi.

Şübhəsiz ki, belə hallarda sevinənlər, yaxud da belə bir hadisədən öz şəxsi məqsədlərinə nail olmaq üçün istifadə etmək cəhdləri göstərənlər də olur. Bu təbiidir, bundan narahat olmaq lazım deyildir. Mət-

buatdan və gələn başqa məlumatlardan belə hallar mənə məlumdur. Ancaq bizim xoşbəxtliyimiz ondan ibarətdir ki, belə hallar sırf azlıq təşkil edir. Azərbaycan cəmiyyətinin, Azərbaycan xalqının, vətəndaşlarının tam əksəriyyəti Azərbaycan prezidentinin, Azərbaycan dövlətinin ətrafında bu günlər daha da sıx birləşmişdir. Bu birliyə, həmrəyliyə görə bir daha, bir daha təşəkkür edirəm. O dövrdə yaranmış vəziyyətdən öz şəxsi məqsədlərinə, siyasi ambisiyalarına görə istifadə etməyə cəhd göstərən adamlara isə bu birlik və həmrəylik yaxşı dərsdir.

Qeyd etdiyim kimi, mən ayın 17-də Bakıdan gedərkən Təhlükəsizlik Şurasının iclasını topladım, bir neçə məsələləri müzakirə etdik, lazımi tədbirlərin görülməsi qərara alındı, lazımi göstərişlər verildi. Bu gün məmnuniyyət hissi ilə deyə bilərəm ki, mənim Azərbaycanda olmadığım dövrdə bütün hakimiyyət orqanları – dövlət, hökumət, Milli Məclis – hamısı çox ahəngdar, normal işləyibdir. Azərbaycan dövlətinin, hökumətinin, hakimiyyətinin qarşısında duran bütün vəzifələr vaxtlı-vaxtında yerinə yetirilibdir.

Qeyd etdim ki, mən xəstəxanada olarkən daim Bakı ilə əlaqədə idim. Lazım olan məsələlər mənə məruzə edilirdi, birlikdə müzakirə olunurdu və lazımi tədbirlər görülürdü, mənim tərəfimdən lazımi göstərişlər verilirdi. Ona görə, mən cismən ölkəmizdən kənarda olsam da, daim iş başında olmuşam, işlə məşğul olmuşam. Məlumdur ki, mənim burada olmamağım müəyyən çətinliklər yarada bilərdi. Amma sevindirici hal odur ki, hakimiyyət orqanlarının hamısı çox normal, öz rit[112-113]mində işləmişdir və bu müddətdə respublikada hər şey normal vəziyyətdə olmuşdur.

Ən əsası odur ki, son illər Azərbaycanda bizim yaratdığımız ictimai-siyasi sabitlik qorunub saxlanmışdır və bu günlər o sabitliyi poza biləcək heç bir hadisə baş verməmişdir. Deməli, bizim bir neçə il bundan öncə nail olduğumuz ən əsas şərt – Azərbaycanda müstəqilliyi, dövlətçiliyi qoruyub saxlamaq üçün, Azərbaycanda iqtisadi islahatları, sosial, siyasi islahatları həyata keçirmək üçün yaratdığımız ictimai-siyasi sabitlik dönməz olubdur və o günlərdə bu, bir daha nümayiş etdirildi.

İqtisadiyyat normal inkişaf edibdir. Dünən biz Təhlükəsizlik Şurasında yanvar ayının ilkin yekunlarını dinlədik və bir neçə məsələləri müzakirə etdik. Mən çox böyük iftixar hissi ilə qeyd edirəm ki, son aylarda dünyanın bir çox ölkələrində, xüsusən bizim yaxın qonşularımızda – Rusiyada və Müstəqil Dövlətlər Birliyinə daxil olan digər ölkələrdə baş vermiş maliyyə böhranının qarşısını biz Azərbaycanda ala bilmişik. Bu, şübhəsiz, asan iş deyildir.

Nəyə görə bizim ətrafımızda hər yerdə böhrandır, amma burada böhran yoxdur? Bu, avtomatik əldə olunan nailiyyət deyildir, son illərdə bizim iqtisadiyyat sahəsində, maliyyə-kredit sahəsində ardıcıl surətdə həyata keçirdiyimiz tədbirlərin nəticəsidir. Eyni zamanda bu böhranlar baş verərkən, xüsusən Rusiyada böhran baş verərkən onun Azərbaycanda qarşısının alınması üçün bilavasitə həyata keçirdiyimiz tədbirlərin nəticəsidir. Buna görə də Azərbaycanda iqtisadiyyat yanvar ayında da dinamik inkişaf edibdir. Bütün qonşu ölkələrdən fərqli olaraq, inflyasiyaya yol verilməyib, Azərbaycanın milli valyutasının – manatın dəyəri sabitdir. Ətraf ölkələrdəki maliyyə böhranına görə mümkün ola biləcək inflyasiyanın qarşısı gördüyümüz tədbirlər nəticəsində alınıbdır. [113-114]

Bu, çox böyük və yüksək nailiyyətdir. Düzdür, bədxahlar, Azərbaycanın iqtisadiyyatını pis vəziyyətdə görmək istəyənlər, yaxud da Azərbaycanı o dərin böhrana qatmaq istəyənlər mətbuatda, başqa yerlərdə «Azərbaycanın iqtisadiyyatı bərbad vəziyyətdədir», nə bilim, «xalq səfalət içindədir» kimi yalan, yanlış, böhtançı, qərəzli fikirlər deyirlər. Bizim indiki mətbuat azadlığı bunların müxtəlif qəzetlərdə dərc olunmasına imkan veribdir. Ancaq onlar yəqin dərk edirlər ki, dedikləri boş danışıqdır. Amma son illərdə Azərbaycanın iqtisadiyyatının inkişaf etməsi – ümumi daxili məhsulun ilbəil artması, sənaye istehsalının, kənd təsərrüfatı istehsalının artması və bunların əsasında əhalinin orta gəlirinin artması, - bunlar hamısı bizim apardığımız tədbirlərin, həyata keçirdiyimiz islahatların nəticəsidir, iqtisadiyyatda liberallaşdırmanın, özəlləşdirmənin, torpaq islahatının həyata keçirilməsinin nəticəsidir. Biz bunu gərgin bir dövrdə, bütün ətrafımızda böhran baş verdiyi halda həm ölkəmizin vətəndaşlarına, həm də bütün dünyaya bir daha nümayiş etdirdik.

Bilirsiniz ki, dünya bazarında neftin qiymətinin düşməsi ilə əlaqədar iqtisadiyyatı belə səviyyədə saxlamaq daha da çətindir. Neftin qiymətinin düşməsi ilə biz on milyonlarla dollar gəlir itirmişik. Amma buna baxmayaraq, biz başqa ehtiyatlarımızdan səmərəli istifadə etmişik. Bunu qiymətləndirən beynəlxalq maliyyə təşkilatları – Beynəlxalq Valyuta Fondu, Dünya Bankı və başqa beynəlxalq təşkilatlar bizim işimizə çox yüksək qiymət verirlər.

Beynəlxalq Valyuta Fondunun son iclasında ilin əvvəlində Azərbaycana 90 milyon dollara qədər çox güzəştli kredit verilməsi haqqında qərar qəbul olunubdur. Bu barədə mətbuatda məlumat verilibdir. Bu günlərdə Dünya Bankının Azərbaycana təxminən 45 milyon dollar həcmində kredit vermək haqqında qərar qəbul edəcəyi gözlənilir. Ən sevindiricisi odur ki, Beynəlxalq Valyuta Fondunda keçirilən iclasda dünyada [114-115] gedən böhranla, neftin qiymətinin düşməsi ilə bir vaxtda Azərbaycanda iqtisadiyyatın normal səviyyədə saxlanılması yüksək qiymətləndirilibdir.

Dünən biz Baş nazir Artur Rasizadənin məlumatını dinlədik. Dediyim kimi, məlumatdan görünür ki, yanvar ayında iqtisadiyyatımız inkişaf yolu ilə gedib, dinamik inkişaf davam edir. Verilən məlumatlara görə, bu ilin birinci rübündə büdcədə nəzərdə tutulmuş vergilərin hamısı təmin olunacaq və büdcənin icrası, xüsusən mədaxil hissəsi mütləq təmin ediləcəkdir. Biz dünən bu məlumatı nəzərə almışıq və onun həyata

keçirilməsi üçün fevral-mart aylarında ciddi iş görülməlidir. Yanvar ayında iqtisadiyyatın bir çox sahələrində də müsbət nəticələr müşahidə olunmuşdur.

1999-cu ildə qarşımızda çox böyük vəzifələr var. Onlar, birincisi, dövlət büdcəsində əks olunubdur, dövlət büdcəsinin icrası ilə əlaqədar prezidentin fərmanında, sonra isə Azərbaycanda sahibkarlığın inkişafını təmin etmək üçün və əsassız yoxlamaları tam məhdudlaşdırmaq üçün Azərbaycan prezidenti tərəfindən verilmiş çox ciddi fərmanda əks olunubdur. Bunlar həyata keçirilməlidir. Dünən verilən məlumatdan belə göründü ki, bunlar ardıcıl surətdə həyata keçirilir.

Bu günlərdə biz bir neçə fərmanlar da qəbul edəcəyik, o fərmanlar iqtisadiyyatı daha da inkişaf etdirmək üçün şərait yaradacaqdır. Beləliklə, 1999-cu ilin gərgin vəzifələrini biz gərək ardıcıllıqla yerinə yetirək. Bunun üçün imkanlar var və biz onlardan səmərəli istifadə etməliyik.

Bir neçə ictimai-siyasi tədbirlər həyata keçirmək nəzərdə tutulubdur, başqa tədbirlər də nəzərdə tutulubdur. Bütün bunları qeyd edərək, ölkədə olmadığım zaman dövlət, hökumət orqanlarının normal işləməsinə görə bu sahədə çalışan sizlərə və başqalarının hamısına təşəkkür edirəm.

Beləliklə, mənim sizə deyəcəyim sözlər bu qədərdir. Mən indi çox böyük enerji ilə işə girişmişəm. İndiyə qədər bu sözlə[114-115]ri bəzi hallarda mən özüm deyirdim, amma indi isə həkimlərin sözü ilə, onların verdiyi məlumatlara əsasən deyə bilərəm ki, mən hələ çox-çox illər üzərimə düşən prezidentlik vəzifəsini müvəffəqiyyətlə həyata keçirəcəyəm. Azərbaycan xalqının və vətəndaşlarının iradəsi ilə, bizim əməli fəaliyyətimizlə, sizinlə birlikdə Azərbaycanın dövlət müstəqilliyini daha da yüksəklərə qaldıracaq, qoruyacaq, saxlayacağıq və Azərbaycanın daim inkişafını birlikdə təmin edəcəyik. Sağ olun, sağ olun, sağ olun! [116]

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB SÜLEYMAN DƏMİRƏLƏ**

Əziz dostum və qardaşım!

Ankarada olarkən mənə göstərdiyiniz çox böyük qayğı və diqqətə görə sizə səmimi-qəlbdən təşəkkürümü bildirirəm.

Mən səhhətimlə bağlı narahatlıq keçirdiyim ilk anlardan əsl dost və qardaş kimi sizin nigarançılığınızı və fədakarcasına qayğıkeş münasibətinizi hiss etdim. Müayinə olunmağım üçün Bakıya iki təyyarə ilə həkimlər göndərməyinizi, məni təkidlə Türkiyəyə dəvət etməyinizi, Ankaraya qədəm qoyduğum andan sizin mənə göstərdiyiniz əvəzsiz qayğınızı, hər gün mənə baş çəkməyinizi, sizinlə maraqlı və dərin məzmunlu söhbətlərimizi böyük məmnuniyyət hissi ilə xatırlayır, çox yüksək qiymətləndirir və sizin mənəvi dəstəyinizi sağlamlığımın tam bərpa olunmasının mübaliğəsiz surətdə əsas şərti hesab edirəm.

Mən qardaş, dost ölkəmdə müayinəmi etibar etdiyiniz Gülhanə Tibb Akademiyası kimi dünya miqyaslı müasir tibb ocağının olmasından da böyük iftixar hissi keçirirəm. Ən yeni texnika ilə təchiz olunmuş bu tibb müəssisəsində çalışan yüksək bilik və təcrübəyə malik tibb heyətinin nəcib insani keyfiyyətləri, böyük qayğıkeşliyi və nəvazişi mənim üçün çox dəyərli və unudulmazdır.

Bütün bunlar, şübhəsiz ki, xalqlarımız və ölkələrimiz arasında qədim tarixi kökləri olan əbədi dostluq və qardaşlıq münasibətlərinin bariz nümunəsi, Türkiyə-Azərbaycan əlaqələrinin sarsılmazlığının və dönməzliyinin parlaq sübutudur. [117-118]

Mən bunu həm də ilk növbədə sizinlə, əziz dostum və qardaşım, qırılmaz şəxsi münasibətlərimizin, qarşılıqlı ehtiram və məhəbbətimizin, səmimi dostluq duyğularımızın saflıq mücəssəməsi kimi dəyərləndirirəm.

Əziz dostum!

Mənə göstərdiyiniz yüksək diqqət, qayğı və qonaqpərvərliyə görə bir daha Sizə və ailənizə, Türkiyənin dövlət xadimlərinə, bütün qardaş türk xalqına ürəkdən təşəkkür edir və ən xoş arzularımı bildirirəm.

Dərin ehtiramla,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *1 fevral 1999-cu il*
[118]

## AZƏRBAYCAN RESPUBLİKASI TƏHLÜKƏSİZLİK ŞURASININ İCLASINDA ÇIXIŞ

*Prezident sarayı*

*1 fevral 1999-cu il*

Mən yanvar ayının 17-dən 29-na qədər ölkədə olmadım. Xəstəliyim haqqında sizin məlumatınız vardır. Yaxşı müalicə olundum. Yanvarın 30-da vətənə qayıtdım və bu gün də işdəyəm.

Mən Ankarada xəstəxanada olduğum zaman daim sizinlə əlaqə saxlayırdım. Respublikada aparılan işlər haqqında məlumat alırdım və prinsipial məsələlər də müzakirə edilib mənimlə razılaşdırılırdı.

Deyə bilərəm ki, mənim Azərbaycanda prezident vəzifəsini daşıdığım dövrdə ilk dəfədir mən belə müddətdə, yəni 12-13 gün burada olmamışam, ölkədən kənarda olmuşam. Düzdür, xarici səfərlərin bəzilərinin zamanı belə olubdur. Məsələn, Amerika səfəri müəyyən qədər uzun bir səfər idi. Ancaq bu, səfər idi.

Lakin mən ilk dəfə olaraq xəstəxanaya düşməli oldum. Mən bilirəm ki, bu da Azərbaycanda çox böyük həyəcan doğurmuşdu, narahatçılıq doğurmuşdu və siz bilirsiniz, mən də bilirəm ki, xarici ölkələrdən və Azərbaycan vətəndaşlarından mənim ünvanıma, Ankaraya, Türkiyə Cümhuriyyətinin prezidenti Süleyman Dəmirəlin ünvanına çoxsaylı məktublar, teleqramlar göndərilirdi. Buraya da çoxsaylı müraciətlər olmuşdur. Mənə məlumat veriblər. Bunlar hamısı xalqın Azər[119-120]baycan dövlətçiliyinə, Azərbaycan prezidentinə olan münasibətini əks etdirir. Bunların əsası ondan ibarətdir ki, bu müddətdə Azərbaycanda hakimiyyət orqanlarının hamısı normal işləyibdir. Dövlət, hökumət normal işləyibdir. Ölkəmizdə ictimai-siyasi sabitlik olduğu səviyyədə saxlanılıbdır. Sosial-iqtisadi vəziyyətdə də heç bir mənfi dəyişiklik olmamışdır. Əksinə, bizim dövlət büdcəsi ilə, ümumiyyətlə, qəbul etdiyimiz qərarlarla, fərmanlarla nəzərdə tutulmuş tədbirlər yanvar ayında həyata keçirilib və ilkin məlumatlara görə, bəzi müsbət nəticələr də vardır.

Bu müddətdə Azərbaycanda əhalinin, vətəndaşların ölkədə sabitliyin qorunub saxlanılması naminə həmrəy olduğu bir daha nümayiş etdirildi. Mən bundan çox məmnunam və güman edirəm ki, bunlar hamısı bizim indiyə qədər gördüyümüz işlərin nəticəsidir və bunlar hamısı onu göstərir ki, Azərbaycanda müstəqillik dərin köklər salıbdır, Azərbaycanda yaranmış ictimai-siyasi sabitlik artıq dönməz olubdur və sosial-iqtisadi inkişaf davam edir. Bunlar çox sevindirici hallardır.

Mən bu gün bir neçə məsələləri müzakirə etmək və məsləhətləşmək məqsədi ilə sizi Təhlükəsizlik Şurasının iclasına toplamışam. Ancaq mən öncə sizin hamınıza, bütün Azərbaycan vətəndaşlarına ölkədən kənarda olduğum zaman respublikanın işinin normal aparılması təmin olunduğuna görə və mənim xəstəliyim zamanı mənə göstərilən diqqət və qayğıya, dostluq və həmrəylik hisslərinə görə təşəkkür edirəm. [120]

**GÜRCÜSTAN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB EDUARD ŞEVARDNADZEYƏ**

Hörmətli Eduard Amvrosiyeviç!

Gürcüstanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması münasibətilə sizi ürəkdən təbrik edirəm.

Mötəbər beynəlxalq təşkilatın bu qərarını qardaş Gürcüstanın öz dövlət müstəqilliyinin möhkəmləndirilməsində, demokratik, hüquqi dövlət quruculuğunda sizin məqsədyönlü və müdrik rəhbərliyinizlə qazandığı böyük uğurların etirafı kimi qiymətləndirirəm.

Əminəm ki, azad demokratik ölkələrin beynəlxalq birliyinə ölkələrimizin müvəffəqiyyətlə inteqrasiyası regionumuzda sülhün, sabitliyin və tərəqqinin təmin olunmasının başlıca amillərindən biridir.

Sizə, bütün qardaş Gürcüstan xalqına bu yolda yeni-yeni uğurlar, firavanlıq və çiçəklənmə arzulayıram.

Hörmətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *3 fevral 1999-cu il*
[121]

## XALQ YAZIÇISI
## RÜSTƏM İBRAHİMBƏYOVA

Hörmətli Rüstəm İbrahimbəyov!

Sizi – Azərbaycanın tanınmış yazıçısı və kino xadimini 60 illik yubileyiniz münasibətilə səmimqəlbdən təbrik edirəm.

Siz 60-cı illərdə ədəbiyyata qədəm qoyan, öz dünyagörüşü və bədii ifadə tərzi ilə ədəbi mühitimizi canlandıran nəslə mənsub sənətkarlardansınız. Başlıca mövzuları insan və zaman, xeyir və şər, ənənəvilik və müasirlik olan əsərləriniz qısa bir müddət ərzində sizə böyük şöhrət qazandırmışdır. Milli-mənəvi dəyərlərimizlə ümumbəşəri ideallarын üzvi vəhdətini əks etdirən səhnə əsərləriniz dünyanın bir çox ölkələrində uğurla tamaşaya qoyularaq Azərbaycan ədəbiyyatının beynəlxalq miqyasda tanınmasında mühüm rol oynamışdır.

Yazdığınız əsərlərin ekran həyatı da uğurlu olmuşdur. Ssenarist və rejissor kimi çəkdiyiniz filmlər Azərbaycan kino tarixində mühüm mərhələ təşkil etmiş və kino sənətimizin qızıl fonduna həmişəlik daxil olmuşdur. Öz bədii dəyərinə və toxunulmuş məsələlərin aktuallığına görə geniş tamaşaçı kütləsi tərəfindən böyük maraqla qarşılanmış əsərləriniz içərisində «İstintaq» və «Ad günü» filmləri xüsusi yer tutur.

Sizin bir ictimai xadim kimi fəaliyyətiniz Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri vəzifəsi ilə məhdudlaşmamış, vətənimizin taleyüklü anlarında informasiya blokadasının yarılmasına, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına da xidmət etmişdir. [122-123]

İnanıram ki, siz müstəqil Azərbaycanda ədəbiyyatın və kinematoqrafiyanın inkişafı yolunda bundan sonra da var qüvvənizi sərf edəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *4 fevral 1999-cu il*
[123]

## XALQ YAZIÇISI, MƏŞHUR KİNO XADİMİ RÜSTƏM İBRAHİMBƏYOVUN 60 İLLİYİNƏ HƏSR OLUNMUŞ MƏRASİMDƏ ÇIXIŞ

*«Gülüstan» sarayı*

*5 fevral 1999-cu il*

Əziz Rüstəm, 60 illik yubileyinlə əlaqədar, bu münasibətlə mən sənə təbrik məktubu göndərmişəm və məktub bu gün mətbuatda dərc olunubdur. Ancaq bu mərasimdə mən məktubda yazdığım sözlərə əlavə olaraq bir neçə kəlmə də demək istəyirəm.

Rüstəm İbrahimbəyov Azərbaycan ədəbiyyatına, mədəniyyətinə 60-cı illərin əvvəllərində gəlmiş böyük yaradıcılar dəstəsinin parlaq nümayəndəsidir. Rüstəm İbrahimbəyov o zamandan indiyə qədər öz yaradıcılığı ilə - nəsr əsərləri, kino əsərləri, səhnə əsərləri ilə Azərbaycan mədəniyyətini zənginləşdirmiş, dünya mədəniyyətinə layiqli töhfələr vermişdir. Rüstəm İbrahimbəyov çox məhsuldar yazıçıdır, dramaturqdur, kinossenaristdir, rejissordur. Onun yaradıcılığının çoxşaxəli, çoxistiqamətli olması da fitri istedadından irəli gəlir. Rüstəm İbrahimbəyovun yaratdığı əsərlər Azərbaycan oxucularını, keçmiş Sovet İttifaqının oxucularını və dünyanın bir çox ölkələrinin oxucularını sevindirmiş, onlara Azərbaycan həqiqətləri haqqında və ümumiyyətlə, müasir həyatımızın həqiqətləri haqqında çox gözəl məlumatlar vermişdir.

Rüstəm İbrahimbəyovun yaradıcılığı haqqında şübhəsiz ki, bizim alimlər, jurnalistlər, teatr, kino sənətinin tədqiqçiləri çox yazıblar və bundan sonra da çox yazacaqlar. Çünki [124-125] Rüstəm İbrahimbəyov indiyə qədər daim yazdığı-yaratdığı kimi, bu gün də yazır - yaradır və bu enerji ilə, bu istedadla hələ çox illər, on illər yazacaq, yaradacaqdır, Azərbaycan mədəniyyətini daha da yüksəklərə qaldıracaqdır.

Rüstəm İbrahimbəyovun ilk addımları çox uğurlu olmuşdur. Şübhəsiz ki, mən Rüstəm İbrahimbəyovun əsərlərindən özümə çox əziz olan əsərləri xüsusi qeyd edirəm.

Məsələn, 1968-ci ildə çəkilmiş və təqdim olunmuş «Bir cənub şəhərində» filmi o vaxt Azərbaycan mədəniyyəti üçün, Azərbaycan kino sənəti üçün böyük bir hadisə oldu. Əgər nəzərə alsaq ki, bu, Rüstəm İbrahimbəyovun birinci kino əsəri idi, yəni ssenarisini Rüstəm yazmışdı və Eldar Quliyevlə birlikdə bu filmi çəkib yaratmışdılar, təsəvvür etmək olar ki, ilk addımında Rüstəm İbrahimbəyov cəmiyyətə özünü çox gözəl təqdim etmişdir. Ancaq bəzən yaradıcılarda belə olur ki, onlar parlayırlar, sonra müəyyən qədər solurlar. Yaxud da ki, bir də qalxırlar, bir də düşürlər. Ancaq Rüstəm o vaxtdan indiyə qədər demək olar ki, yüksəlib irəli gedibdir.

Rüstəm İbrahimbəyovun bütün əsərlərində əsas məzmunu, mənanı təşkil edən budur ki, o, həmişə həyatın reallığını təsvir edibdir. Amma o dövrdə, sovet ideologiyası çərçivəsində bu o qədər də asan deyildi. Çünki bəzən bu istiqamətdə yazanlar bir az da kənara çıxanda dissident olurdular. Ancaq Rüstəm İbrahimbəyovun həyatı olduğu kimi təsvir etməsi və həyatın hər tərəfini - həm müsbət tərəfini, həm mənfi tərəfini olduğu kimi göstərməsi onun yaradıcılığının ən gözəl cəhətidir və əsərlərinə böyük şöhrət gətirən amildir.

Mən qeyd etdim ki, bu o dövrdə bir o qədər də qəbul olunmurdu. Elə «Bir cənub şəhərində» filmi də ilk dəfə qəbul edilməmişdi. Onun ekrana buraxılması qadağan olunmuşdu. Ancaq məlumdur ki, o vaxt mən bu işə qarışandan sonra, - o vaxt mən hələ Azərbaycanın rəhbəri deyildim, Təhlükəsizlik Nazirliyinin başçısı idim, - mən bu işə qarışandan sonra o [125-126] filmin yolu açıldı və film həm Azərbaycanda, həm də keçmiş Sovetlər İttifaqının hər yerində böyük rəğbətlə, böyük maraqla qarşılandı. Rüstəm bu yolu o vaxtdan indiyə qədər davam etdiribdir.

Məsələn, bəlkə də «Ad günü» filmi zahirən adi bir mövzuya aid olan bir əsərdir, - nə siyasi xarakter daşıyır, necə deyərlər, nə də bir böyük mövzu iddiasındadır. Amma mənəviyyatımızı, müasir həyatımızı, həyatımızın qüsurlarını nə qədər gözəl əks etdiribdir.

Xatirimdədir, mən bu filmə təsadüfən baxarkən heç bilmirdim ki, bu film nədir və kimindir. Ancaq mənə o qədər böyük təsir bağışladı ki, mən sonra bu filmin təbliğatçısına çevrildim. O vaxtkı dövrdə bu məsələni bilən adamlar xatırlamalıdırlar ki, mən bir neçə dəfə rəsmi müşavirələrdəki çıxışlarımda bu filmi təbliğ etdim. Hətta onu başqa ölkələrin bir neçəsinə göndərdim.

Yaxud, «İstintaq» filmi. Bunun da taleyi əvvəlcə o qədər uğurlu olmamışdır: film çəkilmişdi, ancaq onun ekrana buraxılmasının qarşısı alınmışdı.

Xatirimdədir, mən bunu biləndən sonra gördüm ki, bizim Azərbaycanın rəhbərliyində bu barədə çox ciddi fikir ayrılığı var. Mən büro üzvlərini dəvət etdim, - o vaxt Azərbaycanın rəhbərliyi Kommunist Partiyası Mərkəzi Komitəsinin bürosundan ibarət idi, - birlikdə bu filmə baxdıq. Rüstəm, sənin xatirindədir, Nizami adına kinoteatrın binasında o vaxt Kinematoqrafiya İdarəsi yerləşirdi.

**Rüstəm İbrahimbəyov**: Bəli, yaxşı xatirimdədir, indi də orada yerləşir.

**Heydər Əliyev**: Orada kino zalı var idi, filmə orada baxdıq. Filmə baxıb qurtarandan sonra gördüm ki, mənim həmkarlarım çox narahatlıq keçirirlər. Birindən soruşdum, başını buladı. O birisi dedi

ki, yox, bu filmə baxmaq lazımdır. Hamısını dinlədim. Ancaq axırda bu filmin tək Azərbaycan [126-127] üçün yox, bizim o vaxtkı ölkəmiz üçün çox dəyərli olduğunu bildirdim və bu film çox böyük uğurla o vaxt Sovetlər İttifaqının bütün respublikalarında göstərildi, nəhayət, Sovet İttifaqının dövlət mükafatına layiq görüldü.

Bu filmlərdə, - tək bu filmlərdə yox, başqa səhnə əsərlərində də, başqa nəsr əsərlərində də, - dediyim kimi, Rüstəm İbrahimbəyov daim həqiqəti, reallığı əks etdiribdir. Ancaq o dövrdə bu təşəbbüsdə bulunmaq, bu yolla getmək və beləliklə, əsərləri yaymaq, yaxud da əsərlərə uğur qazandırmaq asan deyildi. Buna baxmayaraq, Rüstəm İbrahimbəyov nə qədər çətinlikləri də olsa, nə qədər əziyyət də çəksə, heç vaxt öz iradəsindən dönməmişdir, bu yolla getmişdir. Amma hər dəfə qalib gəlmişdir. Nəhayət, bu əsərlər bəzən rəsmi dairələr tərəfindən qəbul olunmadığı halda ictimaiyyət tərəfindən, tamaşaçılar tərəfindən, oxucular tərəfindən çox böyük hörmətlə, ehtiramla, məmnuniyyətlə qəbul edilmişdir.

Beləliklə, Rüstəm İbrahimbəyov həm nəsr əsərlərində, həm səhnə əsərlərində, həm kino əsərlərində özünəməxsus bir yolla getmiş və bu gün də bu yol ilə gedir. Bu, bütün başqa cəhətlərlə bərabər, Rüstəm İbrahimbəyovun ən böyük nailiyyətlərindən biridir.

Xatirimdədir, o vaxtlar Azərbaycanda bəzi yazıçılar, şairlər, bəzi tənqidçilər çalışırdılar ki, Rüstəm İbrahimbəyovu və Maqsud İbrahimbəyovu sovet ideologiyasının əleyhinə çıxan adamlar kimi ifşa etsinlər və belə cəhdlər də göstərilmişdi. Ancaq həqiqət bundan ibarətdir ki, mən o vaxtlar bunların qarşısını həmişə almışdım. Məni düzgün başa düşün, mənim dəstəyim, köməyim olmasaydı, necə ki, o vaxt bəzi belə gözəl yazıçıları, yaradıcıları sıxışdırırdılar, məhv edirdilər, onda bunlara da bəlkə belə bir ziyan dəyə bilərdi.

Bir dəfə – 1989-cu ildə Moskvada bir jurnalist məndən müsahibə götürərkən Azərbaycanın keçmiş dövrü haqqında, yəni 70-ci illərdə mənim Azərbaycana rəhbərlik etdiyim za[127-128]mandan danışırdıq. Mənə sual verdi ki, sizdə, Azərbaycanda o vaxt dissident var idi, yoxsa yox idi? Dedim ki, yox idi. Dedi, nə üçün? Dedim ki, biz dissidentləri axtarmırdıq. Təbiidir, əgər axtarsaydıq, çox dissident çıxarmaq olardı. Amma biz axtarmırdıq. Bu nə deməkdir? Bu o deməkdir ki, həmin dissident sayılanların əsərlərini biz qəlbən qəbul edirdik və onların özünə yol tapması üçün imkanlar yaradırdıq. Beləliklə, həmin müəlliflərə öz həmrəyliyimizi bildirirdik. Ancaq geniş təbliğ etmirdik ki, biz bununla həmrəyik.

Məsələn, əgər o illər – 60–70-ci illərdə Azərbaycanda dissident axtarsaydıq, onlar çox idi. Ən böyük dissident Bəxtiyar Bahabzadə idi. Hətta mənim xatirimdədir, mən Təhlükəsizlik Nazirliyində işləyən zaman onun həbs olunması məsələsi qoyulmuşdu. Yaxud da ki, Xəlil Rza ən böyük dissidentlərdən biri idi. Çünki onun əsərləri, o cümlədən Bəxtiyar Vahabzadənin əsərləri həqiqəti deyirdi. Amma bu həqiqət o vaxtkı kommunist ideologiyasına zidd idi və buna görə də onlar dissident idilər. Ancaq biz Xəlil Rzanı da qoruduq, saxladıq.

Maqsud İbrahimbəyov, Rüstəm İbrahimbəyov əsl dissident idilər. Ancaq biz qoymadıq ki, onlar dissident olsunlar. Bəlkə də onlar indi heyfsilənirlər ki, o vaxt Əliyev qoysaydı və biz dissident olsaydıq, indi bəlkə hörmətimiz daha da artıq olardı.

Yaxud, götürək Anarı. O da dissident idi. Məsələn, «Qobustan» jurnalının yaranması və o jurnalın səhifələrində yayılan əsərlər şübhəsiz ki, dissident xarakteri daşıyırdı.

Mənim xatirimdədir, 1970-ci ildə Leninin 100 illiyi qeyd olunurdu. Azərbaycanda da biz Nəriman Nərimanovun 100 illiyini hazırlayırdıq. Çünki onlar eyni ildə - Lenin də, Nərimanov da 1870-ci ildə anadan olublar. O vaxt Moskvadan gəlirdilər və mənə deyirdilər ki, bəs burada millətçilik var, burada antisovet var, burada filan var. Hər dəfə baxırdım və onlara izah edirdim. [128-129]

Bir dəfə Moskvadan numayəndə gəldi ki, belə şey olarmı, - «Qobustan» jurnalında yazılıbdır ki, Nərimanov Lenindən də böyük adamdır. Dedim, a kişi, belə şey olmaz, yəqin sizə səhv deyiblər. Gətirin baxım. Gətirdilər baxdım. «Qobustan» jurnalında yazıçı İsa Hüseynovun Nəriman Nərimanov haqqında bir yazısı getmişdi. Orada yazmışdı ki, bəli, Nəriman Nərimanov Lenin deyil, Lenindən də üstün bir adamdır. Mən dedim, bilirsiniz nə var, indi bu yazıçıdır, yazıbdır, sərbəst adamdır. Bu o demək deyil ki, bizim də fikrimiz belədir. Bizim fikrimiz belə deyil. Mən birtəhər bu məsələni sovuşdurdum. Amma sonra bunlara dedim ki, yaxşı, daha ağını çıxarmayın.

Yəni təkcə o deyil. Hələ mən bir faktı xatırlayıram. Amma həmin jurnalda belə yazılar çox gedirdi. Mən həmin jurnalı o vaxtlar daim oxuyurdum, izləyirdim. Görürdüm ki, yaxşı yazılardır. Bu yazılar nə idi? Bizim milli mədəniyyətimizi, milli keçmişimizi, milli ruhumuzu o vaxtlar təbliğ edirdi. Bizim rəsmi jurnallardan fərqli olaraq, bu jurnal bunları təbliğ edirdi və insanlarda milli ruhu oyadırdı, öz tarixinə, öz keçmişinə, öz mədəniyyətinə hörmət və ehtiramı yaradırdı. Çünki o dövr belə idi - hesab edilirdi ki, oktyabr inqilabına qədər heç bir şey olmayıbdır, hamısı oktyabr inqilabından sonra olubdur. Bax, o illər bu cür oyanış bizim yazıçılarımızın çox əsərlərində olmuşdur. O cümlədən «Qobustan» jurnalında. Beləliklə, Azərbaycanda bu gənc insanlar həqiqəti deyirdi, düzü deyirdi və insanları həqiqətə çağırırdı. Bu sahədə Rüstəm İbrahimbəyovun xidmətləri çoxdur.

Rüstəm İbrahimbəyov, Maqsud İbrahimbəyov – bu iki qardaş Azərbaycanda ədəbiyyatın, mədəniyyətin inkişafında böyük xidmətlər göstərmiş, eyni zamanda yeni bir hadisə meydana çıxarmışlar. Azərbaycanda bir ənənə yaranıbdır: atası şair, yazıçı, oğlu da şair, yazıçı. Əgər keçmiş Sovetlər İt[129-130]tifaqına nəzər salsaq, başqa respublikalarda mən buna rast gəlməmişəm.

Məsələn, Səməd Vurğun – oğulları Yusif, Vaqif yazıçılar, şairlərdir. Rəsul Rza, Nigar Rəfibəyli – oğlu Anar. İlyas Əfəndiyev – oğlu Elçin. Bu barədə daha da çox faktlar gətirmək olar. Yaxud da ki, Bülbül – oğlu Polad Bülbüloğlu. Bunlar ata-oğuldurlar. Amma iki qardaşın ikisinin də ədəbiyyat, mədəniyyət, kino sənətində eyni səviyyədə böyük fəaliyyət göstərməsi – bunlar Azərbaycan üçün yenidir. Bəlkə heç kəs buna fikir verməyibdir, amma mən bir az keçmişimizə baxanda bunu xüsusi qeyd edirəm. Maqsud, Rüstəm – paralel olaraq ikisi də bizim ədəbiyyatımıza, kinoya, teatra, mədəniyyətimizə gəlib və ikisi də çox uğurlu yol keçib. Bu gün də yazırlar və gələcəkdə də yazacaqlar.

Rüstəm İbrahimbəyovun yaradıcılığının əsas xüsusiyyətlərindən biri də odur ki, o öz yaradıcılığı ilə milli çərçivədə qalmayıbdır, keçmiş Sovetlər İttifaqında çox məşhurlaşıbdır və dünyada məşhurlaşıbdır. Bu, hər bir xalq üçün çox böyük əhəmiyyət kəsb edir. Şübhəsiz ki, biz öz mədəniyyətimizi, öz ədəbiyyatımızı, incəsənətimizi, kino sənətimizi yüksək qiymətləndiririk və özümüz içərimizdə bununla fəxr edirik. Ancaq bizim mədəniyyətimizin nümunələri, Azərbaycan yaradıcılarının yaratdığı əsərlər Azərbaycanın hüdudlarından kənara çıxanda bu, Azərbaycan mədəniyyətini dünyaya da yayır. Bizim yazıçılarımızın, şairlərimizin, alimlərimizin əsərlərinin çoxu başqa dillərə çevrilib və yayılıbdır. Ancaq Rüstəm İbrahimbəyov öz əsərlərini həm Azərbaycan dilində, həm də rus dilində yazaraq, əsərlərinin çoxunu keçmiş Sovetlər İttifaqının oxucularına, tamaşaçılarına orijinalda təqdim edibdir, tərcümədə yox. Bu, birinci cəhət. İkinci cəhət də ondan ibarətdir ki, ümumiyyətlə, Azərbaycan həqiqətlərini daha da geniş yayıbdır. Bu da Rüstəm İbrahimbəyovun Azərbaycan xalqı qarşısında böyük xidmətləridir. [130-131]

Rüstəm İbrahimbəyovun kino sahəsində fəaliyyəti həm də son illər Müstəqil Dövlətlər Birliyi və Baltik ölkələrinin Kino İttifaqları Konfederasiyasının yaradılmasıdır və onun həmin konfederasiyaya başçılıq etməsidir. Biz bununla fəxr edirik və təbii ki, Azərbaycan yazıçısının, Azərbaycan kino sənətinin bu konfederasiyanın başında durması bizim üçün böyük iftixar hissi doğurur.

Ümumiyyətlə, Azərbaycanın görkəmli mədəniyyət xadimlərinin Azərbaycandan kənarda fəaliyyət göstərməsi bizim üçün çox əhəmiyyətlidir. Bu baxımdan Maqsud və Rüstəm İbrahimbəyovların fəaliyyətini qeyd etmək olar, Tahir Salahovun fəaliyyətini qeyd etmək olar, Müslüm Maqomayevin fəaliyyətini qeyd etmək olar, Polad Bülbüloğlunun fəaliyyətini qeyd etmək olar və bir çox başqalarının fəaliyyətini qeyd etmək olar ki, onlar Azərbaycanda olduğu kimi, keçmiş Sovetlər İttifaqında da bilavasitə öz əsərləri ilə və öz yaradıcılıqları ilə məşhurlaşmışlar.

Bunlar hamısı Rüstəm İbrahimbəyovun yaradıcılığının nə qədər zəngin, nə qədər çoxşaxəli olduğunu göstərir. Təbii, biz fəxr edirik ki, Rüstəm İbrahimbəyovun əsəri «Oskar» mükafatını alıbdır. Fəxr edirik ki, keçmiş Sovetlər İttifaqının dövlət mükafatını alıbdır. Ancaq mənim üçün ən əzizi odur ki, Rüstəm İbrahimbəyovun əsəri Azərbaycanın dövlət mükafatına layiq görülübdür.

Burada bəzi filmlərin, əsərlərin adları çəkildi. Hamısı dəyərlidir. Ancaq mənim üçün ən dəyərlisi «Bir cənub şəhərində», «Ad günü» və «İstintaq» əsərləridir. Çünki bunlar bilavasitə Azərbaycanın həyatı ilə bağlıdır.

Beləliklə, Rüstəm, bu günlər biz sənin 60 illik yubileyini böyük sevinclə qeyd edirik. Mən məmnunam ki, bizim bu gözəl «Gülüstan» sarayının salonu sənin dəvətinlə Azərbaycanın ziyalıları ilə, mədəniyyət xadimləri ilə dolubdur. Bu da sevindirici haldır. Burada Anar Məmmədxanov dedi ki, indi yubi[131-132]leylər keçirmək mümkün olubdur, cürbəcür mədəniyyət, kino əsərlərinin baxışını keçirmək mümkün olubdur. Bəli, bu, müstəqil Azərbaycanın bugünkü reallığıdır. Əgər bu gün möhtəşəm «Gülüstan» sarayında Azərbaycan ziyalılarının böyük bir dəstəsi, demək olar ki, bütün sahələrdən olan ziyalıların nümayəndələri bir yerə toplaşıblarsa, dostluq, mehribanlıq şəraitində bizim dəyərli dostumuz Rüstəm İbrahimbəyovun 60 illik yubileyini qeyd edirlərsə, bu, çox əlamətdar bir hadisədir. Azərbaycanın prezidenti kimi və həyatını Azərbaycan xalqının həyatının inkişafına sərf etmiş bir adam kimi, bu məni çox sevindirir.

Azərbaycanın çox problemləri var. Ermənistan – Azərbaycan münaqişəsi nəticəsində Azərbaycan torpaqlarının bir qismi işğal olunubdur. İşğal edilmiş torpaqlarımızdan bir milyondan artıq azərbaycanlı yerindən-yurdundan didərgin düşübdür, ağır vəziyyətdə çadırlarda yaşayırlar. Biz Ermənistanla gedən müharibədə çox şəhidlər, itkilər vermişik. Bunlar Azərbaycan reallığıdır və Azərbaycanın bu gününün bir hissəsidir.

Digər hissəsi isə ondan ibarətdir ki, Azərbaycan müstəqil dövlət kimi yaşayır, inkişaf edir, Azərbaycanın mədəniyyəti inkişaf edir, Azərbaycanın iqtisadiyyatı inkişaf edir və Azərbaycan müstəqil dövlət kimi artıq Dünya Birliyində özünə layiq yer tutubdur. Bu da Azərbaycanın reallığıdır. Əgər bu illər Azərbaycanın ziyalıları, mədəniyyət xadimləri, alimləri artıq bir yerə toplaşa bilirlərsə, bir-biri ilə görüşürlərsə, fikir mübadiləsi aparırlarsa, bir-birilə yubileylərini təbrik edirlərsə, şad günlərini bir yerdə qeyd edirlərsə, bu, Azərbaycanın həm reallığıdır, həm də Azərbaycanın inkişaf mərhələsində olmasını göstərir. Bax, bu hissiyyatlarla, bu duyğularla mən bu gün, Rüstəm, sənin 60 illik yubileyinə gəlmişəm.

Doğrudur, mən Ankarada xəstəxanada olduğum zaman xatırladım ki, fevralın 5-də Rüstəmin 60 yaşı tamam olacaq[132-133]dır. Ancaq heç şübhə etmirdim ki, mən o vaxta qədər qayıdıb gələcəyəm və bu yubileydə Bakıda olacağam.

Rüstəm, mən səni bir daha təbrik edirəm. Sənə cansağlığı arzu edirəm. Sənin ailənə, həyat yoldaşına, uşaqlarına, Maqsuda – sənin qardaşına, onun ailəsinə cansağlığı, xoşbəxtlik arzu edirəm. Sənə gələcək yaradıcılığında yeni-yeni uğurlar arzulayıram. Sağ olun. [133]

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB YİLYAM C.KLİNTONA**

Hörmətli cənab prezident!

Mən Ermənistan–Azərbaycan münaqişəsinin aradan qaldırılmasında irəliləyiş olmaması ilə əlaqədar keçirdiyim dərin narahatlığı sizə bildirmək istərdim. Azərbaycanın ərazi bütövlüyü əvvəlki kimi pozulmuş olaraq qalır, Azərbaycan torpaqlarının 20 faizi hələ də Ermənistan silahlı qüvvələrinin işğalı altındadır, doğma yerlərindən zor gücünə qovulmuş bir milyon azərbaycanlı qaçqın beş ildir ki, böyük məhrumiyyətlər içərisindədir. Ermənistan silahlı qüvvələrinin işğal edilmiş ərazilərdən qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT-nin Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 nömrəli qətnamələri yerinə yetirilmir.

Məlum olduğu kimi, münaqişənin sülh yolu ilə aradan qaldırılması məqsədi ilə 1992-ci ilin mayında ATƏT-in Minsk qrupu yaradılmış və gələcək sülh konfransının mandatı müəyyən edilmişdir. Konfransda Ermənistan və Azərbaycan münaqişədə iştirak edən tərəflər kimi, Dağlıq Qarabağın azərbaycanlı və erməni icmaları isə maraqlı tərəflər kimi tanınmışlar. Buna baxmayaraq Ermənistan Respublikasının Azərbaycana qarşı 1988-ci ildə başlanmış təcavüzü davam etdirilmiş və Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayəti ilə yanaşı, daha iki rayonu işğal edilmişdir.

Ötən yeddi il ərzində Minsk qrupu çərçivəsində effektli danışıqlar prosesi yaradılması üçün çox səylər göstərilmişdir. Amma Ermənistan Respublikasının pozucu mövqeyi ilə əlaqə[134-135]dar olaraq danışıqlar daim düyünə düşmüş və heç bir müsbət nəticə verməmişdir.

Münaqişənin sülh yolu ilə aradan qaldırılması üçün bizim göstərdiyimiz səylər və bu səylərin Minsk qrupu tərəfindən dəstəklənməsi nəticəsində 1994-cü ilin may ayında atəşkəs əldə edilmişdir və indiyədək davam edir. Sülh sazişi imzalandıqdan sonra regiona daxil olub silahlı münaqişənin nəticələrinin aradan qaldırılmasını təmin etməli olan çoxmillətli beynəlxalq qüvvələrin yaradılması haqqında 1994-cü ilin dekabrında ATƏT-in Budapeşt sammitində çıxarılmış qərar, habelə 1996-cı ilin dekabrında ATƏT-in Lissabon sammitinin münaqişənin aradan qaldırılmasının beynəlxalq hüquqi bazasını müəyyən etmiş qərarları Ermənistan-Azərbaycan münaqişəsini ədalətlə aradan qaldırmaq üçün son dərəcə vacib olan böyük siyasi nailiyyət sayıla bilər. Lakin Ermənistan Respublikası tərəfindən davam etdirilən obstruksiya və ATƏT-in onu yola gətirməyə qadir olmaması nəticəsində həmin sammitlərin qərarları yerinə yetirilməmişdir.

Məlum olduğu kimi, 1997-ci il iyunun 1-də Rusiyanın, ABŞ-ın və Fransanın timsalında ATƏT-in Minsk qrupunun həmsədrləri münaqişənin aradan qaldırılmasının Lissabon prinsiplərinə əsaslanaraq iki hissədən – silahlı münaqişənin dayandırılması və Dağlıq Qarabağın statusunun müəyyənləşdirilməsi ilə əlaqədar hissələrdən ibarət hərtərəfli sazişin layihəsini təqdim etmişdilər. Azərbaycan tərəfi həmsədrlərin bu təkliflərini qəbul etdiyi halda, Ermənistan həmin təkliflərlərlə qətiyyən razılaşmadığını bildirmişdir. Azərbaycan Respublikasının ərazi bütövlüyünü tanımaq istəmədiyinə görə, habelə Minsk konfransı çağırılmamış ilkin mərhələdə Dağlıq Qarabağın statusunu müəyyənləşdirməyin yolverilməzliyini bəhanə gətirərək Ermənistan həmsədrlərin təkliflərini rədd etmişdir. Yeri gəlmişkən qeyd etmək lazımdır ki, 1997-ci il iyunun 20-də ABŞ-da məşhur Denver görüşü zamanı Rusiyanın, [135-136] ABŞ-ın və Fransanın prezidentləri xüsusi bəyanatda həmin təklifləri dəstəklədiklərini bildirmişlər.

1997-ci il sentyabrın 19-da Minsk qrupunun həmsədrləri münaqişənin mərhələlərlə aradan qaldırılmasını nəzərdə tutan yeni təklif, Lissabon sammitindən sonra ikinci təklif irəli sürmüşlər. Həmin təklifə üyğun olaraq birinci mərhələdə, Laçın rayonu istisna olmaqla, Azərbaycanın keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati hüdudlarından kənarda yerləşən altı işğal olunmuş rayonunun azad edilməsi, ATƏT-in sülhü qorumağa yönəlmiş əməliyyatının həyata keçirilməsi, qaçqınların azad edilmiş ərazilərə qaytarılması, habelə müharibə nəticəsində dağılan, Ermənistanın və onun tərəfindən işğal olunmuş Dağlıq Qarabağın həyat fəaliyyəti üçün zəruri olan kommunikasiyaların bərpa edilməsi nəzərdə tutulurdu. Bundan sonra ikinci mərhələdə tərəflər silahlı münaqişənin nəticələrinin aradan qaldırılmasının ardınca Azərbaycan Respublikasının ayrılmaz hissəsi kimi Dağlıq Qarabağın statusunu müəyyənləşdirməklə və onun təhlükəsizliyi üçün tədbirlər görməklə məşğul olmalı idilər.

1997-ci il oktyabrın 10-da Strasburqda Azərbaycan və Ermənistan iki ölkənin prezidentləri səviyyəsində 1997-ci ilin 19 sentyabr tarixli təklifləri əsasında danışıqlar prosesini davam etdirməyə razılıq vermişdilər ki, bu da münaqişənin ədalətlə aradan qaldırılmasına nail olmaq üçün danışıqlar prosesinin müvəffəqiyyətinə ümid etməyə imkan verirdi. Amma sonradan Ermənistanın prezidenti Levon Ter-Petrosyanın istefa verməsi və Ermənistanın yeni rəhbərliyinin öz mövqeyini sərtləşdirməsi bu ədalətli təməl üzərində danışıqların davam etdirilməsi imkanını puça çıxardı.

Minsk qrupu həmsədrlərinin təmsilçiləri uzun sürən fasilədən sonra, görünür, danışıqlar prosesini yenidən canlandırmaq istəyi ilə 1997-ci il noyabrın 9-da Azərbaycan tərəfini çox məyus edən və danışıqların davam etdirilməsinə imkan [136-137] yaratmayan sayca üçüncü təklifi irəli sürmüşlər. Bu təklif dünya praktikasında mövcud olmayan «ümumi dövlət» ideyasına əsaslanırdı və ATƏT-in iki sammitinin təsdiq

etdiyi qərarlardan və prinsiplərdən irəli gələn əvvəlki mövqedən geri çəkilməkdən başqa bir şey deyildi. Bu təkliflər əslində Dağlıq Qarabağı respublika formasında dövlət ərazi qurumu kimi ayırır və ona uydurma «ümumi dövlət» çərçivəsində Azərbaycan ilə bərabər status verirdi. Həm də bu «ümumi dövlət»in Azərbaycanın beynəlxalq aləmdə tanınmış sərhədləri çərçivəsində yaradılmalı olduğuna istinad edilməsi Azərbaycanın suverenliyi və ərazi bütövlüyü üçün təminat yaratmır, əslində bunları pozur.

Mən belə hesab edirəm ki, vasitəçilərin düşünülməmiş hərəkətləri, şübhəsiz, nizamasalma prosesinə ciddi ziyan vurmuş və onu dala salmışdır. Bu da bizdə dərin təşviş və narahatlıq doğurur, xüsusən ona görə ki, bizim dəfələrlə bəyan etdiyimiz kimi, Rusiya Federasiyası Ermənistan Respublikasını cidd-cəhdlə silahlandırmaqda davam edir. Ermənistana qanunsuz yollarla 1 milyard ABŞ dolları dəyərində Rusiya silahları verilməsinin ardınca ona MİQ-29 təyyarələri və S-300 raketləri göndərilməsi buna aydın sübutdur.

Mənim əqidəmcə, həmsədrlər qətiyyət göstərməsələr, ABŞ, Rusiya və Fransa rəhbərliyi tərəfindən fəal tədbirlər görülməsə, Ermənistan-Azərbaycan münaqişəsinin ədalətlə aradan qaldırılmasına nail olmaq mümkün deyildir. Lissabon sammitinin dünyanın 53 dövləti tərəfindən lehinə səs verilmiş üç prinsipinə sədaqət göstərilməsi xüsusi əhəmiyyət kəsb edir.

Bünları nəzərə alaraq, hörmətli cənab prezident, mən sizə həm də ATƏT-in Minsk qrupunun həmsədri olduğunuza görə müraciət edirəm və təkidlə xahiş edirəm ki, getdikcə uzanan, Avropada sülh və sabitlik üçün ciddi təhlükə mənbəyi olan bu münaqişənin Lissabon sammitinin prinsiplərini həya[137-138]ta keçirərək tezliklə aradan qaldırılması üçün, şəxsi fəaliyyətinizi, habelə ölkənizin xarici siyasət idarəsinin işini gücləndirəsiniz.

Səmimiyyətlə,

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *8 fevral 1999-cu il*
[138]

# İRANIN MİLLİ BAYRAMI – İRAN İSLAM RESPUBLİKASININ 20-ci İLDÖNÜMÜ MÜNASİBƏTİLƏ İRAN İSLAM RESPUBLİKASININ BAKIDAKI SƏFİRLİYİNİN TƏŞKİL ETDİYİ RƏSMİ QƏBULDA NİTQ

*«Gülüstan» sarayı*

*9 fevral 1999-cu il*

Hörmətli cənab səfir!

Hörmətli xanımlar və cənablar!

İran İslam İnqilabının iyirminci ildönümü münasibətilə sizi ürəkdən təbrik edir, qardaş İran xalqına sülh, əmin-amanlıq və yeni-yeni uğurlar arzulayıram.

İran İslam İnqilabı İranın qədim tarixində çox mühüm bir mərhələ olmuşdur. İnqilabdan sonrakı iyirmi il ərzində İran İslam Cümhuriyyəti böyük və şərəfli yol keçmiş, İran hökumətinin rəhbərliyi altında mühüm nailiyyətlər əldə etmişdir. Bizim qonşu, dost İran bu illərdə böyük çətinliklərlə rastlaşmış, müharibələrə cəlb olunmuş və bir çox təzyiqlərə məruz qalmışdır. Ancaq İran xalqının birliyi və həmrəyliyi, xalqın hökumətlə, öz rəhbərləri ilə sıx birliyi bunların hamısına layiqli cavab vermişdir. İyirmi il müddətində İran İslam Cümhuriyyəti möhkəmlənmiş, inkişaf etmiş və indi İran Dünya Birliyində özünə layiq yer tutur.

Biz İranla qədim dostluq əlaqələri ilə bağlıyıq. Tarixi keçmişimiz, dərin köklərə malik olan dostluq, qardaşlıq əlaqələrimiz, adət və ənənələrimizin eyniliyi, yaxud bir-birinə bən[139-140]zərliyi, bir dinə mənsub olmağımız və nəhayət, qonşuluq şəraitində yaşamağımız bizi həmişə yaxınlaşdırıb və birləşdiribdir.

Azərbaycan İran ilə həmişə əlaqədar olubdur. Ancaq Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra bir müstəqil dövlət kimi onunla əlaqələri daim inkişaf edib, genişlənibdir. Biz çox məmnunuq ki, müstəqil Azərbaycan ilə İran İslam Cümhuriyyəti arasında çox işgüzar, səmimi əlaqələr yaranıbdır.

Müstəqillik illərində bizim İranla iqtisadi əlaqələrimiz daim inkişaf edib və hər iki tərəf bunun faydasını görür. İnsani əlaqələr çox genişlənibdir. İran və Azərbaycan vətəndaşları bir-biri ilə çox böyük qohumluq əlaqələrinə malikdirlər. Keçmiş dövrlərdə həm İranın, həm də Azərbaycanın vətəndaşları bu qohumluq əlaqələrini saxlamaqdan məhrum olmuşdular. Çünki biz Sovetlər Birliyinin tərkibində olduğumuz zaman bunlara böyük qadağan qoyulmuşdu. Ancaq Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra sərhədlər açılmış, insanlar öz qohumları, əqrəbaları ilə qovuşa bilmişlər. İndi bu əlaqələr çox geniş vüsət almışdır.

Biz həmişə İran İslam Cümhuriyyətinin inkişafını arzu etmişik. Çünki bizim qonşumuz olan dost ölkədə əgər xalqın yaşayışı yaxşılaşsa, ölkənin iqtisadiyyatı inkişaf etsə, şübhəsiz ki, bu, Azərbaycan üçün də çox faydalıdır. Ona görə də həm dost və qonşumuza olan xeyirxah münasibətimiz əsasında, həm də İran - Azərbaycan əlaqələrindən hər iki tərəfin səmərəli faydalanmasına görə biz həmişə İranın inkişafını arzu etmişik və bu gün məmnuniyyətlə demək olar ki, İran həqiqətən böyük inkişaf dövrünü yaşayır.

Biz dünyada hər bir dövlətin ərazi bütövlüyünü, suverenliyini, yəni beynəlxalq hüquq normalarını müdafiə etmişik və müdafiə edirik. Azərbaycanın ərazi bütövlüyü Ermənistanın təcavüzü nəticəsində pozulubdur. Biz ölkəmizin ərazi bütövlüyünü bərpa etmək və beynəlxalq təşkilatlar tərəfindən tanın[140-141]mış sərhədlərimizi müdafiə etmək üçün mübarizə aparırıq. Eyni zamanda biz qonşu ölkələrin ərazi bütövlüyünün, suverenliyinin təmin olunmasını həmişə arzu etmişik və bu gün də arzu edirik. O cümlədən, İran İslam Cümhuriyyətinin ərazi bütövlüyünün və suverenliyinin, İranın bölünməzliyinin həmişə tərəfdarı olmuşuq və bundan sonra da tərəfdarı olacağıq.

İran İslam Cümhuriyyəti Ermənistanın Azərbaycana qarşı təcavüzü başlayandan indiyə qədər çox düzgün və prinsipial mövqe tutmuşdur. Biz həmişə məmnuniyyətlə qeyd edirik ki, İran Ermənistanın Azərbaycana qarşı təcavüzünü daim pisləmiş və mövqeyini heç vaxt dəyişməmişdir. 1997-ci ilin dekabr ayında Tehranda İslam Konfransı Təşkilatının növbəti zirvə görüşü olmuşdur. Zirvə görüşündə mən də iştirak edirdim. Bu gün böyük məmnuniyyətlə qeyd edirəm ki, İslam Konfransı Təşkilatının zirvə görüşündə Azərbaycana aid bir neçə çox dəyərli sənəd qəbul olunmuşdur. O cümlədən, İslam Konfransı Təşkilatı Tehranda qəbul etdiyi bəyanatda Azərbaycanın ərazi bütövlüyünü yenidən müdafiə etmiş, dəstəkləmiş və Ermənistanın Azərbaycana qarşı təcavüzünü pisləmiş, Azərbaycanın işğal edilmiş torpaqlarının tezliklə azad olunmasını tələb etmişdir. Biz bunları yüksək qiymətləndiririk.

Ölkələrimiz arasında əlaqələr eyni zamanda siyasi xadimlərin, dövlət başçılarının əlaqələri ilə möhkəmlənir və inkişaf edir. Məmnuniyyətlə qeyd edirəm ki, 1997-ci ilin dekabr ayında Tehranda olarkən mənim çoxsaylı görüşlərim, o cümlədən İranın ali rəhbəri həzrəti Ayətullah Xamnei ilə görüşüm və çox əhəmiyyət-

li danışıqlarım olmuşdur. İranın prezidenti cənab Xatəmi ilə görüşlər və danışıqlar olmuş, İranın bir neçə siyasi və dövlət xadimləri ilə bizim danışıqlarımız və görüşlərimiz olmuşdur. Bu yaxınlarda Azərbaycan Milli Məclisi nümayəndə heyətinin İranda olması, nümayəndə heyətinin başçısı Murtuz Ələsgərovun İran parlamentinin sədri Ağayi Natiq Nuru ilə görüşləri, danışıqları da Azərbaycan–[141-142]İran əlaqələrini inkişaf etdirmək məqsədi daşımışdır. Biz bunların hamısından çox məmnunuq.

Biz İran xalqına həmişə uğurlar, sülh arzulayırıq, birincisi, ona görə ki, İran bizim dost, qonşu ölkədir, İran xalqı dost, qardaş xalqdır. İkincisi də ona görə ki, İranda milyonlarla azərbaycanlı yaşayır. Biz İranın vətəndaşları olan azərbaycanlıların da həmişə yaxşı yaşamasını, sülh və əmin-amanlıq şəraitində olmasını, öz arzu və istəklərini yerinə yetirməsini həmişə dəstəkləmişik və arzu etmişik. Məmnuniyyətlə deyə bilərəm ki, İran İslam Cümhuriyyətinin hökuməti bu sahədə də xeyli işlər görür.

Bu gün qeyd etmək olar ki, bizim əlaqələrimiz yüksək səviyyədədir və biz bu əlaqələri bundan sonra da inkişaf etdirəcəyik.

İran İslam Cümhuriyyəti ötən iyirmi ildə İslam İnqilabının İran xalqı üçün nə qədər zəruri olduğunu, onun gələcəyi üçün böyük üfüqlər açdığını tam sübut etmişdir.

Mən bu gün, bu bayram günü İran xalqına, İran İslam Cümhuriyyətinin vətəndaşlarına öz hörmət və ehtiramımı, məhəbbətimi bildirirəm. Ümidvaram ki, ölkələrimiz və xalqlarımız arasında olan dostluq, qardaşlıq əlaqələri daha da inkişaf edəcəkdir. Mən sizi, bütün İran xalqını bu bayram münasibətilə bir daha təbrik edir, hamınıza cansağlığı, yeni-yeni uğurlar arzulayıram. [142]

## NAXÇIVAN MUXTAR RESPUBLİKASININ 75 İLLİK YUBİLEYİ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ İCLASINDA* GİRİŞ SÖZÜ

*Prezident sarayı*

*9 fevral 1999-cu il*

Hörmətli xanımlar və cənablar!

Naxçıvan Muxtar Respublikasının yaranmasının 75-ci ildönümü münasibətilə mən fərman imzalamışam. Bu fərmanla da muxtar respublikanın 75-ci ildönümü yubileyini hazırlamaq və keçirmək üçün dövlət komissiyası yaranıbdır. Biz bu gün dövlət komissiyasının birinci iclasına toplaşmışıq.

Naxçıvan Azərbaycanın qədim diyarıdır, ayrılmaz bir hissəsidir. Ancaq bu əsrin 20-ci illərinin əvvəlində Azərbaycanın və Azərbaycanla qonşu olan ölkələrin sərhədləri müəyyən edilərkən Azərbaycana qarşı bir çox ədalətsizliklər olubdur. Bu qədim Azərbaycan torpaqlarının bir qismi Azərbaycanın tə-[143-144]yin edilmiş, müəyyən olunmuş sərhədlərindən kənarda qalıbdır və xüsusən qonşu Ermənistana verilibdir.

Biz hələ 1918–1919-cu illərdə Xalq Cümhuriyyətinin Baş naziri Fətəli Xan Xoyskinin məktubu ilə İrəvan xanlığının, İrəvanın Ermənistana verilməsini görürük. Sovet hakimiyyəti qurulduqdan sonra bu proses davam edibdir. Bunun nəticəsində, o cümlədən Zəngəzur mahalı Ermənistana verilibdir. Baxmayaraq ki, bu, qədim Azərbaycan torpağıdır. Bu da Azərbaycanın əsas ərazisi ilə Naxçıvanın ərazisini bir-birindən ərazicə ayırıbdır.

Ancaq eyni zamanda, o dövrdə Azərbaycanın mənafeyini qoruyanlar çox olublar, onlar çox mübarizə aparıblar. Bunların nəticəsində beynəlxalq müqavilələr – Moskva və Qars müqavilələri ilə Naxçıvan Azərbaycanın tərkibində, Azərbaycanın ayrılmaz bir hissəsi kimi təsdiq edilibdir. Ona görə də 1924-cü ildə Naxçıvan Muxtar Respublikası yaranıbdır.

75 il ərzində Naxçıvana, Azərbaycanın başqa torpaqlarına yenə də qəsdlər olubdur. Ancaq bunların hamısına baxmayaraq, Naxçıvan ərazicə Azərbaycanın əsas hissəsindən indi Ermənistana məxsus olan ərazi ilə ayrı düşsə də, Naxçıvan yaşayıb, inkişaf edibdir. Nəhayət, indi müstəqil Azərbaycanın ayrılmaz tərkib hissəsidir.

Naxçıvan Muxtar Respublikasının o tarixi şəraitdə yaranması, şübhəsiz ki, Azərbaycan üçün, xalqımız üçün tarixi bir hadisədir. Biz bunu qiymətləndirməliyik. Çünki Azərbaycanın torpaqlarına, xüsusən Ermənistan tərəfindən iddia həmin bu 75 il içərisində azalmayıbdır. O cümlədən Naxçıvan da Ermənistanın həmin bu iddiası içində olubdur. Ancaq Naxçıvan Muxtar Respublikasının yaranması və Azərbaycanın öz ərazisini qorumaq sahəsində qətiyyətli mövqe tutması bütün bu iddiaları – şübhəsiz ki, əsassız iddiaları rədd edibdir. Naxçıvan Muxtar Respublikası artıq 75 ildir ki, yaşayır və mən inanıram ki, bundan sonra da yaşayacaqdır. [144-145]

Bütün bunlara görə Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyinin keçirilməsi böyük siyasi, beynəlxalq xarakter daşıyır. Bunlara görə də mən Naxçıvan Muxtar Respublikasının 75-ci ildönümünün qeyd olunması ilə əlaqədar geniş bir fərman imzalamışam. Fərman mətbuatda dərc olunubdur, siz onun məzmunu ilə tanışsınız. Siz görürsünüz ki, Naxçıvanın tarixi sxematik olaraq bu fərmanda öz əksini tapıbdır. Ancaq güman edirəm ki, biz Naxçıvanın 75 illik yubileyi münasibətilə geniş tədbirlər həyata keçirməliyik. Bu tədbirlərin həyata keçirilməsi zamanı Naxçıvanın qədim və son əsrlərdəki tarixi daha da geniş təhlil olunmalıdır, yazılmalıdır. Azərbaycana torpaq iddiası ilə yaşayanlara qətiyyətli cavab verilməlidir. Bunun əhəmiyyəti bir də ondan ibarətdir ki, biz Naxçıvan Muxtar Respublikasının 75 illiyini artıq Azərbaycanın müstəqilliyi dövründə keçiririk.

Naxçıvan Muxtar Respublikasının yaranmasının yubileyləri olubdur. Xatirimdədir ki, onun 25 illik, sonra 40, 50 illik yubileylərinin çoxunda vaxtilə iştirak etmişəm. Ancaq indi müstəqil Azərbaycanın Naxçıvan Muxtar Respublikasının yubileyini keçirməsi heç də bir təntənə, şənlik məqsədi daşımır. Bu, böyük bir siyasi məqsəd daşıyır. Bir də ona görə ki, biz artıq müstəqil dövlət olaraq tariximizi düzgün, doğru, kə-

* Dövlət komissiyasının iclasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov, Azərbaycan Respublikasının təhsil naziri Misir Mərdanov, mədəniyyət naziri Polad Bülbüloğlu, Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutu direktorunun müavini, filologiya elmləri doktoru, professor Gövhər Baxşəliyeva, Azərbaycan Tarixi Muzeyinin direktoru, tarix elmləri doktoru, professor Nailə Vəlixanlı, Bakı Dövlət Universitetinin dosenti Anar İsgəndərov, EA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru, professor Məşədixanım Nemətova, həmin institutun şöbə müdiri, Azərbaycan Dövlət Pedaqoji Universitetinin kafedra müdiri, tarix elmləri doktoru, professor Vəli Əliyev, EA-nın Tarix İnstitutu direktorunun müavini, akademiyanın müxbir üzvü Mahmud İsmayılov çıxış etdilər.

nar təzyiqlərdən azad şəkildə özümüz müəyyən edirik və bu halda da müəyyən edirik, edəcəyik. Həm bu gün üçün, həm də gələcək nəsillər üçün Azərbaycanın tarixinin bir hissəsini bu müddətdə yaradıb həm öz ictimaiyyətimizə, həm dünya ictimaiyyətinə nümayiş etdirəcəyik, yenə deyirəm, həm də ki, gələcək nəsillər üçün bir əsas yaradacağıq. Bu yubileyin keçirilməsinin əsas məqsədi bundan ibarətdir.

Komissiyanın bugünkü iclasına yubiley tədbirlərinin həyata keçməsi ilə əlaqədar plan layihəsi təqdim edilibdir. Həmin layihə bu gün komissiyanın üzvlərinə verilibdir, yəqin siz onunla tanış olmusunuz. Ona görə də bu planın müzakirəsi, [145-146] ümumiyyətlə, bu hadisə ilə əlaqədar imzalanmış fərmanın müddəalarının müzakirəsi ilə biz bundan sonra işimizin daha da düzgün qurulmasını təmin edə bilərik.

## YEKUN NİTQİ

Müzakirə bir daha onu göstərdi ki, Naxçıvan Muxtar Respublikasının 75-ci ildönümünün qeyd olunması ilə əlaqədar qəbul etdiyimiz fərman çox əsaslıdır və tədbirlərin keçirilməsi də çox zəruridir. Onu da demək istəyirəm ki, burada məqsəd hansısa təntənəli mərasim keçirib onu qeyd etməkdən ibarət deyildir.

Naxçıvanın yaranmasının keçmişdə, o vaxtkı sovet hakimiyyəti dövründə 25, 40, 50, 60 illiyini qeyd edərkən əsas bu yubiley şənlikləri nəzərdə tutulur, Naxçıvanın muxtariyyət yaranandan sonrakı dövrü təhlil olunurdu. Amma indi qaldırılan bu məsələlər o zaman heç vaxt təhlil olunmamışdı və bu məsələlərə demək olar ki, çox səthi yanaşılmışdı. Bunun da səbəbləri vardı. Çünki o zamanlar adətən yubileylər sovet hakimiyyəti qurulandan sonrakı dövrü əhatə edirdi. Amma qədim dövr, yaxud da XVIII, XIX əsrlər səthi olaraq göstərilirdi. Ona görə də mən komissiyanın bugünkü iclasının əvvəlində dedim ki, bu yubileyin keçirilməsi keçmişlərdən tam fərqlidir.

Bir daha qeyd edirəm ki, məqsəd sadəcə bir mərasim keçirməkdən ibarət deyil, məqsəd Azərbaycanın tərkib hissəsi, ayrılmaz hissəsi olan Naxçıvanın tarixini təhlil etmək və bunu geniş kütləyə, o cümlədən beynəlxalq aləmə təqdim etməkdən ibarətdir. Bunun da zərurəti ondan irəli gəlir ki, Azərbaycanın başqa torpaqlarına iddialarla yanaşı, Naxçıvana qarşı iddia daha da kəskindir. Naxçıvanın Ermənistan ərazisi ilə Azərbaycanın əsas hissəsindən ayrı düşməsi də buna müəyyən qədər əsas yaradır. [146-147]

Güman edirəm ki, bugünkü müzakirə bizim gələcək işlərimiz üçün yeni təkliflər meydana çıxardı. Ona görə də bu təkliflərin hamısına baxılmalıdır, iş planına əlavə olunmalıdır və bütün bu işlər bu ilin içərisində görülməlidir. Biz gərək bunun üçün Naxçıvanın 75 illik yubileyini nə vaxt keçirəcəyimizi müəyyən edək. Çünki biz burada vaxt məsafəsini müəyyən etdik. Düşünürəm ki, əgər bunu sentyabr ayında etsək və sentyabr ayına qədər olan dövrdən səmərəli istifadə etsək, çox iş görə bilərik.

Ancaq eyni zamanda, mənim fikrim belədir ki, indi bizim işimizin əsası, planı yaradılmalıdır. Bu işlər təkcə 9 ay müddətində görülən işlər olmamalıdır. Burada bir neçə il üçün uzunmüddətli bir proqram müəyyən edilməlidir. Bizim komissiya üzvləri qəbul etsələr, o işləri ki, sentyabr ayına qədər görəcəyik – bu da çox intensiv görülməlidir – onlar bir bölmədə olmalıdır. Ancaq yenə də deyirəm, biz ümumiyyətlə, bu işin təməlini qoyuruq və gələcək bir çox illər üçün proqram düzəltməliyik, yaratmalıyıq. Naxçıvanın tarixi bu proqram əsasında öyrənilməli və yazılmalıdır. Bu barədə əsərlər yaradılmalıdır, başqa işlər görülməlidir. Mən belə düşünürəm.

Təəssüf ki, biz Naxçıvana aid iki mənfi meyllə rastlaşırıq. Birincisi, Ermənistanın Azərbaycana qarşı torpaq iddiası və xüsusən Naxçıvana qarşı son vaxtlar güclənmiş torpaq iddiası. Bu məlumdur. Bizim alimlərimiz də burada dedilər ki, bir çox erməni alimləri, - indi təkcə alimləri deyil, adi insanlar da, siyasətçilər də, - Azərbaycan torpaqlarının çoxunun guya Ermənistana məxsus olduğunu sübut etməyə çalışırlar. Bu baxımdan onlar 1988-ci ildən başlayaraq Dağlıq Qarabağın Ermənistan torpağı olması məsələsini kəskin qoydular və müharibə, münaqişə başlandı, biz böyük faciələrlə rastlaşdıq. İndi isə, görünür ki, onlar yeni bir hücuma, Naxçıvana qarşı hücuma başlayırlar. [147-148]

Biz bunların hamısına lazımi cavab verməliyik, bütün bu iddiaların əsassız, uydurma olduğunu beynəlxalq aləmdə sübut etməliyik. Bunun üçün də əsaslı sənədlər, fundamental elmi, populyar əsərlər yaranmalıdır. Biz Azərbaycanın ərazi bütövlüyünü nəinki yaşadığımız indiki illərdə, gələcək nəsillər üçün də qoruyub saxlamaq üçün çox güclü bir konsepsiya, əsas yaratmalıyıq. Elə bir əsas yaratmalıyıq ki, heç bir qüvvə heç bir zaman bundan sonra Azərbaycan torpaqlarının hansısa bir hissəsini ələ keçirə bilməsin.

Mahmud İsmayılov burada çox geniş çıxış etdi ki, indi Ermənistan yerləşən ərazi də Azərbaycan torpağıdır. Bəli, mənim imzaladığım fərmanda bu göstərilibdir. İrəvan xanlığının tarixi məlumdur. Siz o rəqəmləri düzgün dediniz. Ancaq mən eyni zamanda, sizin çıxışınıza bir əlavə də etmək istəyirəm ki, Zaqafqaziya statistikasının məlumatına görə, 1918–1919-cu illərdə həmin İrəvan şəhərində azərbaycanlılar 50 faizdən çox olmuşdur. Mənim dediyim bu rəqəm 1918-1919-cu illərə aiddir.

**Mahmud İsmayılov**: Cənab prezident, XIX əsrin sonunda bundan da çox olubdur.

**Heydər Əliyev**: Sən XIX əsrin sonunu deyirsən, mən isə 1919-cu ili deyirəm. Statistika var.

**Mahmud İsmayılov**: Cənab prezident, Siz düz deyirsiniz, 1919-cu ildə belə olubdur.

**Heydər Əliyev**: Yaxşı, gəlin bu rəqəmlər barədə mübahisə etməyək. Hər halda hamımız eyni fikirdəyik. Bu da həqiqətdir. Siz tarixçilər bunları ardıcıl surətdə sübut etməlisiniz. Bundan sonra da elə

əsərlər yaranmalıdır ki, o əsərlər indi Ermənistan yerləşən həmin torpaqların Azərbaycana məxsus olmasını daim ardıcıl surətdə sübut etsin. Biz bunu etməliyik. Biz gələcək nəsillər üçün bir yol açmalıyıq.

Biz bununla heç vaxt razılaşa bilmərik. Tarix böyükdür. Bir əsrdə olan hadisələr də sonrakı əsrdə dəyişilə bilir. Biz sa[148-149]dəcə, bu həqiqətləri əsərlərdə əks etdirməliyik. Ancaq nə vaxt, nə mümkün olacaq, - bunu tarix göstərəcəkdir. Bizim indi ilkin vəzifəmiz Azərbaycan dövlət müstəqilliyi əldə etdiyi zaman beynəlxalq təşkilatların qəbul etdiyi sərhədlər içərisində Azərbaycan torpaqlarını qoruyub saxlamaqdan ibarətdir. Biz məhz bu tarixi torpaqlarımızın bizə mənsub olmasını daim sübut etməliyik. Bu, bizim geniş miqyasda işimizdir.

Ancaq bununla yanaşı, əsas vəzifəmiz müstəqil Azərbaycanın sərhədləri içərisində olan torpaqlarımızı, ərazimizi qoruyub saxlamaqdır. Bax, bu da Naxçıvan Muxtar Respublikası ilə əlaqədar bizim fikirlərimizin bir tərkib hissəsidir.

Vasif Talıbov burada qeyd etdi, - təəssüflər olsun ki, bizim daxilimizdə də müxalifətə mənsub olan, «Naxçıvana muxtariyyət verilməməlidir», «muxtariyyət ləğv olunmalıdır» fikirləri söyləyən bəzi şəxslər, yaxud Naxçıvanın konstitusiyasının qəbul olunmasına mənfi münasibət göstərənlər istər-istəməz, Azərbaycana düşmən mövqeyində duran ermənilərin həmin iddialarına kömək edirlər. Mən təəssüf edirəm.

Mən ilk dəfə bununla 1992-ci ildə Naxçıvanda işləyərkən rastlaşdım. O vaxta qədər mən təsəvvür edə bilməzdim ki, hansısa bir azərbaycanlı Naxçıvanın muxtariyyətinə müxalif çıxsın. Mən bunu təsəvvür edə bilməzdim. Siz bilirsiniz ki, mən 1969-cu ildən Azərbaycana rəhbərlik etmişəm. Ondan əvvəl də 25–26 il dövlət təhlükəsizliyi idarəsində işləyərək Azərbaycanın tarixi, həyatı, keçmişi, varlığı ilə həmişə məşğul olmuşam. Mən belə bir insana rast gəlməmişəm desin ki, «Naxçıvan Muxtar Respublikasının muxtariyyəti Azərbaycana lazım deyildir». Bu, əcaib bir haldır. Ancaq nə edək, yerindən yenicə qalxmış, - Azərbaycanda deyirlər ki, hələ ağzının südü qurumamış, - həyatda heç bir iş görməmiş, universitetdən, yaxud hansısa bir təhsil müəssisəsindən diplom alıb-almayıb yenicə çıxmış bir gənc durub Azərbaycanın taleyi ilə oynayır. [149-150]

Mən bunu 1992-ci ildə gördüm. O vaxt Xalq Cəbhəsinin həmin nümayəndələri Bakıdan gəlmişdilər, özü də Naxçıvanda doğulmuş adamlar idilər. Onlar Naxçıvan Muxtar Respublikasının Ali Məclisində çıxış etdilər ki, «Naxçıvanın muxtariyyəti ləğv olunmalıdır». Əlbəttə ki, onda mən də təəccüb etdim, Ali Məclisin deputatları da çox təəccüb etdilər və onlara cavab verdilər. Ancaq indi isə, görürsünüz, nələr edirlər? Onlar nə məqsəd daşıyırlar? Bununla nəyə nail olurlar? Azərbaycan dövlətinin unitar xarakteri olduğunu guya saxlamaq istəyirlər. Bunun üçün Naxçıvanın muxtariyyətini ləğv etmək lazım deyildir, Naxçıvanın ərazisinin hamısını qoruyub saxlamaq lazımdır.

Naxçıvana muxtariyyət vermək, Moskva, Qars müqavilələrində Naxçıvanın müqəddəratını o illərdə həll etmək asan məsələ deyildi. Amma o vaxt Azərbaycanın milli mənafeyini qoruyan adamlar bunu etdilər. Mən bunu tarixi nailiyyət hesab edirəm.

Doğrudur, o vaxt Rusiyanın - həm sovet hakimiyyətinin, həm də sovet ittifaqı tərkibində olan ermənilərin Azərbaycana qarşı təzyiqi çox böyük idi. İndi bu gün danışmaq olar ki, o qərar nə üçün belə qəbul olundu, elə qəbul edilməməli idi. Əlbəttə ki, həmin vaxtdan 70 il keçəndən sonra, heç bir işlə məşğul olmayan adamlar çayxanada oturub, ya da küçədə, meydanda, yaxud da elmi idarədə mülahizə söyləyə bilərlər. Amma bunlar hamısı reallıqdan, həqiqətdən uzaqdır. Reallıq ondan ibarətdir ki, bəli, 1918–1919-cu illərdə, 1920-ci ilin əvvəllərində Azərbaycanın bir ölkə kimi saxlanması uğrunda kəskin mübarizə gedirdi. Ermənilər Azərbaycanın torpaqlarına iddia edirdilər. Həm Zaqafqaziya təşkilatında, həm də Sovetlər İttifaqının kommunist rəhbərliyində erməniləri dəstəkləyirdilər. Çünki orada da, burada da ermənilər otururdu. İndi görünür ki, çoxları erməni olmasalar da, nə qədər ermənipərəstdirlər. Hər halda, onlar ermənilərə daha çox meyl gös[150-151]tərirlər, nəinki azərbaycanlılara. Bunun da səbəbi, kökü, əsası vardır.

Məsələn, «Böyük Sovet Ensiklopediyası»nda Ermənistanla əlaqədar olan məlumatı, yazını bu günlər bir daha gördüm. Həmin yazıdan görünür ki, XIX əsrin əvvəllərində Rusiya - İran və Rusiya–Türkiyə müharibələrindən sonra, Azərbaycanın böyük bir hissəsi, o cümlədən Qərbi Azərbaycan, Gürcüstan, bütün Cənubi Qafqaz Rusiya imperiyasının tərkibinə daxil olandan sonra indiki Ermənistanın bir hissəsində Ermənistan vilayəti yaradılıbdır. Bütün bunlar 1970-ci ildə buraxılan «Böyük Sovet ensiklopediyası»nda yazılmışdır. Orada yazılır ki, rus çarı Ermənistan vilayətinin yaranması qərarını ona görə veribdir ki, Rusiya həm İranla, həm də Türkiyə ilə müharibə apararkən ermənilər daim ruslara kömək etmişlər. Onların bu köməyinə görə Rusiya imperatoru həmin o torpaqlarda Ermənistan vilayətinin yaranması qərarını çıxarmışdır. Bu, «Böyük Sovet Ensiklopediyası»nda yazılmışdır.

Yəni onu demək istəyirəm ki, həm çar Rusiyasının, həm sovet hakimiyyətinin ermənilərə daha da kömək etməsinin dərin kökləri vardır. Xristian mənsubiyyəti ilə əlaqədar bu da böyük rol oynayır. Bunu nəzərə alaraq, təsəvvür edin - həmin o illər, xüsusən sovet hakimiyyəti qurulandan sonra Cənubi Qafqazda sərhədləri müəyyən etməyə başladılar, - o vaxt Azərbaycanın milli mənafeyini qoruyanlar nə qədər gərgin iş görmüşlər!

Məsələn, Dağlıq Qarabağa vilayət statusu verilməsi gərgin bir şəraitdə keçibdir. Ermənilər 1988-ci ildə Dağlıq Qarabağa iddia etməyə başlayanda Stalini, Orconikidzeni və başqalarını günahlandırırdılar ki, guya azərbaycanlıların təsiri nəticəsində onlar Dağlıq Qarabağı Azərbaycanın tərkibində saxladılar. Biz

isə hesab edirik ki, Dağlıq Qarabağa muxtariyyət verilməsi Azərbaycanın əleyhinə olan bir qərar idi. Ancaq belə bir qərar meydana çıxdı. İndi Azərbaycanın o vaxtkı rəh[151-152]bərlərindən kimisə günahlandırsaq, biz ədalətsiz olarıq. Tarixi bilənlər, tarixlə sənədlər əsasında tanış olanlar yaxşı bilirlər ki, Nərimanov və başqaları o vaxt nə qədər kəskin mübarizə aparmışlar. Ancaq sadəcə, ona nail ola bilmişlər ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində qalsın. Hətta məlumdur, tarixçilər yaxşı bilirlər ki, Moskvada, Tbilisidə, Zaqafqaziya Federasiyasında Dağlıq Qarabağın Ermənistana verilməsi barədə məsələ qoyulanda Nəriman Nərimanov ciddi bir bəyanat vermişdi və kəskin demişdi ki, onda biz Rusiyaya neft verilməsini dayandıracağıq. Belə bir qərar qəbul olunmuşdu. Məhz bu kəskin mübarizənin nəticəsində nəhayət, belə bir qərar qəbul olunmuşdu.

Bu fikri davam etdirərək, Naxçıvan haqqında deyirəm. Bəli, o vaxt ermənilər Naxçıvana iddia edirdilər, Naxçıvanı öz torpaqları kimi hesab edirdilər və Naxçıvanı Ermənistanın tərkibinə daxil etmək istəyirdilər. Burada da müəyyən tarixi nöqtələrdən istifadə edirdilər. Çünki çar Rusiyası Cənubi Qafqazı ələ keçirəndən sonra, Azərbaycana məxsus olan Naxçıvan xanlığı və İrəvan xanlığı 1848–1849-cu illərdə ləğv edilmişdi, İrəvan quberniyası yaranmışdı. Naxçıvan qəzası da quberniyanın içində idi. Bu, XIX əsrdə olan işdir. Onlar bundan istifadə edərək Naxçıvanı Ermənistana qatmaq cəhdləri göstərirdilər. O vaxt kəskin bir mübarizə gedirdi. Bu mübarizənin nəticəsində Azərbaycanın o vaxtkı hökuməti çox ciddi mövqe göstərərək həmin Qars müqaviləsində Naxçıvanın statusunu müəyyən etmiş və Naxçıvana muxtariyyət verilməsi haqqında qərar qəbul edilmişdir.

Bəli, o vaxt o insanlar çox milli qürurlu insanlar olublar. İndi bəziləri onların hamısının kommunist, bolşevik kimi, necə deyərlər, üzərindən qara xətt çəkirlər. Bu ədalətsizlikdir. Mən buna həmişə etiraz etmişəm, bu gün də etiraz edirəm. Hansı partiyaya, hansı siyasi qüvvəyə mənsubluğundan asılı olmayaraq kim Azərbaycanın milli mənafelərinin keşiyində [152-153] durubsa, ona xidmət göstəribsə, o insanlar bizim tariximizdə həmişə hörmətlə yada salınmalıdırlar və tariximizə daxil olmalıdırlar. O vaxt Naxçıvanın muxtariyyəti belə bir gərgin şəraitdə əldə edilibdir. Qars müqaviləsinin altında Azərbaycanın xarici işlər naziri Behbud Şahtaxtinskinin imzası vardır.

İndi görürsünüz, tarixi nöqteyi-nəzərdən çox ağır, çətin, gərgin bir dövrdə Azərbaycan torpaqlarını qoruyub saxlamaq, Zəngəzur Ermənistana veriləndən sonra Naxçıvanı Azərbaycanın ayrılmaz bir hissəsi kimi saxlamaq üçün böyük nailiyyət əldə edilmiş, Naxçıvana muxtariyyət verilmişdir. Amma bu gün xalq, millət, dövlət qarşısında heç bir xidməti, heç bir səriştəsi olmayan cılız insanlar durub Naxçıvanın muxtariyyətinin əleyhinə çıxırlar. Hansı mənəvi haqla? Hansı hüquqla?

Onlar Azərbaycan xalqına düşmənçilik edirlər və bilsinlər, - belə insanlar heç vaxt Azərbaycanın bütövlüyünü təmin edə bilməyəcəklər. Ancaq onlar Azərbaycanda hakim olmaq iddiasındadırlar. Əgər onlar bu əhval-ruhiyyə ilə, bu fikirlərlə Azərbaycanda hakimiyyət uğrunda mübarizə aparırlarsa, xalqımızı bədbəxt edib bu insanların ixtiyarına heç vaxt vermək olmaz.

Beləliklə, bir daha deyirəm, Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi qeyd edilərkən, 1924-cu ildə əldə edilmiş o nailiyyəti daha da möhkəmləndirmək, əbədi etmək üçün bu, sənədlərlə, sübutlarla, elmi əsərlər, kitablar yazılması ilə gələcək üçün də təmin olunmalıdır.

Burada verilən təkliflərə aparatda baxacaqlar və bunlar iş planına əlavə ediləcəkdir. Ancaq mən bir fikrə öz münasibətimi bildirmək istəyirəm. Bu tarixə aid kitabların yazılması üçün biz dövlətdən müəyyən qrant ayıra bilərik. Elə qrant olsun ki, bizim həm o tarixçilərə, əsərləri yazanlara stimul yaratsın, həm də bu əsərlərin hazırlanması, nəşr olunması üçün şərait yaratsın. Biz bunların hamısını edə bilərik. Bu, çox la[153-154]zımdır. Bunlar barədə fikirləşərsiniz, kimlər hansı əsərləri yaza bilər, onlar hamısı bizim bu iş planına daxil olsun.

Vəli Əliyev buradakı çıxışında Naxçıvanın 3500 illiyi haqqında təklif qaldırdı. Mənim xatirimdədir, vaxtilə belə bir təklif olmuşdu. Hesab edirəm ki, bu təklifə də baxmaq və onu bizim iş planına daxil etmək lazımdır. Həqiqətən, çox qədim şəhərlər var, onların tarixi qeyd edilibdir. Alimlərimiz bu barədə yetərli qədər sübutlar, tarixi sənədlər təqdim edərlərsə, gələcəkdə bunu etmək olar. Ancaq bunun üzərində indidən işləmək lazımdır. Mən bu təklifi də qəbul edirəm.

İndi son olaraq, bu yubiley mərasimlərinin sentyabr ayında keçirilməsinə etiraz yoxdur ki?

**Yerdən səslər**: Yoxdur.

**Heydər Əliyev**: Onda biz bunu öz iş planımıza artıq yaza bilərik.

Mən hesab edirəm ki, biz bu gün çox səmərəli iş gördük. Bu, müstəqil Azərbaycanın tarixinin bir səhifəsidir. Biz bu işlərimizlə gələcəkdə Azərbaycanın tarixini yenidən yazıb bu gün üçün və gələcək üçün təqdim edə bilərik. Sağ olun. [154]

## ÖZBƏKİSTANIN AZƏRBAYCANDAKI SƏFİRİ ƏBDÜQAFUR ƏBDÜRƏHMANOVLA GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*13 fevral 1999-cu il*

**H e y d ə r Ə l i y e v**: Mən çox şadam ki, Sizinlə görüşürəm. Azərbaycan ilə Özbəkistan arasında çox yaxşı əlaqələr yaranır və bunun daha da genişlənməsinə ümid bəsləyirik. Azərbaycanda, onun paytaxtı Bakıda necə yaşayıb işləyirsiniz?

**Ə b d ü q a f u r Ə b d ü r ə h m a n o v**: Sözün düzü, biz tam fəaliyyətə iyunda, səfirliyimiz üçün bina aldıqdan, onu texniki cəhətdən bütünlüklə təchiz etdikdən sonra başlamışıq. Hazırda biz öz evimizdə olduğu kimi, var qüvvə ilə işləyirik. Heç bir problem hiss etmirik. Başlıcası budur ki, biz qardaş olduğumuzu hər yerdə hiss edirik. Heç yerdə heç kim bizə «yox» demir. Heç bir problemimiz yoxdur. Çox sağ olun.

**H e y d ə r Ə l i y e v**: Çox yaxşı. İndi artıq sizin fəaliyyətiniz sayəsində, - mən Özbəkistanın Azərbaycandakı səfirliyini və Azərbaycanın Özbəkistandakı səfirliyini nəzərdə tuturam, - əməkdaşlığımız daha uğurla inkişaf etməlidir. Axı Mərkəzi Asiyada ancaq Özbəkistanda səfirliyimiz var, digər ölkələrdə səfirlikləri hələlik aça bilməmişik. Bu isə sübut edir ki, biz Özbəkistanla əməkdaşlığımıza necə böyük əhəmiyyət veririk.

Biz prezident İslam Kərimovla görüşlərimiz zamanı dəfələrlə, o cümlədən ötən ilin sentyabrında Bakıda böyük tarixi İpək yolunun bərpasına dair beynəlxalq konfrans keçirərkən bu barədə danışmışıq. Hesab edirəm ki, o vaxtdan bəri [155-156] əməkdaşlığımız uğurla irəliləyir. Bir daha demək istəyirəm ki, biz buna böyük əhəmiyyət veririk. Özbəkistanın Transqafqaz magistralı prosesinə, İpək yolunun bərpası proqramının həyata keçirilməsinə, TRASEKA proqramına fəal qoşulması, Mərkəzi Asiyanın digər ölkələrinə nisbətən Transqafqaz nəqliyyat magistralından daha fəal istifadə etməsi geniş əməkdaşlığımıza şərait yaradır. Mən buna şadam.

**Ə b d ü q a f u r Ə b d ü r ə h m a n o v**: Həqiqətən, Transqafqaz dəhlizi Özbəkistan üçün həyati əhəmiyyətə malikdir, çünki bizim dənizə çıxışımız yoxdur. Buna görə prezidentimiz və bütün xalqımız tarixi qədim İpək yolunun bərpasına dair konfrans keçirmək barədə Sizin təşəbbüsünüzü çox yüksək qiymətləndirmişlər. İndi mənim üçün çox xoşdur və mənə böyük məmnunluq bəxş edir ki, Özbəkistan bu dəhlizin ən fəal istifadəçisidir. Rəqəmlərə müraciət etsək, görərik ki, ötən il Özbəkistan özünün ixrac-idxal yüklərinin 700 min tondan çoxunu bu yol ilə daşımışdır. Biz cari ildə bu yüklərin həcmini artırmaq niyyətindəyik, çünki bu, həqiqətən ən kəsə, ən sərfəli, ən yaxşı yoldur. Yəqin əcdadlarımız bu yoldan heç də əbəs yerə istifadə etmirdilər. Mədəniyyətin tərəqqisi bu dəhlizdən məhz ən fəal istifadə olunduğu həmin dövrə təsadüf etmişdir. Bir vaxtlar Avropaya şüşəni, barıtı, digər bir çox şeyləri məhz bu yol bəxş etmişdir.

Biz buna çox ciddi yanaşırıq. Hazırda Gürcüstanın Poti limanında bizim birgə müəssisəmiz var. Biz orada anbarlar tikmişik, oraya texnika gətirmişik və bunların hamısından çox səmərəli istifadə edirik. Perspektiv planlarımızda Azərbaycanla da bu cür birgə müəssisə – Bakıda nəqliyyat-ekspeditor şirkəti yaratmaq nəzərdə tutulmuşdur. Çünki mənə elə gəlir ki, Bakı bu nəqliyyat dəzlizinin özəyidir və bütün infrastrukturlar burada cəmləşmişdir – mən avtomobil, dəmir yollarını, dəniz və hava daşımalarını nəzərdə tuturam. Buna görə də həmin konfrans zamanı prezidentimiz İslam Kərimov [156-157] TRASEKA proqramı katibliyinin qərargahını burada, Bakıda yaratmağı təklif etmişdi.

**H e y d ə r Ə l i y e v**: Bəli, artıq belə bir qərar qəbul edilmişdir və apreldə katiblik yəqin ki, fəaliyyətə başlayacaqdır. Biz onun üçün müvafiq bina ayırmışıq. Bu olacaqdır. Həqiqətən doğru deyirsiniz ki, Bakı öz infrastrukturu, liman qurğuları, kommunikasiyaları və digər cəhətləri ilə bu İpək yolunda, bu magistralda xüsusi yer, xüsusi mövqe tutur və Bakının imkanlarından istifadə etmək sizə, əlbəttə, gərəkdir.

**Ə b d ü q a f u r Ə b d ü r ə h m a n o v**: Siz yəqin belə bir məlumata maliksiniz ki, Özbəkistan və Qırğızıstanı Çinlə birləşdirən avtomobil magistralının fevralın 28-də təntənəli açılış mərasimi olacaqdır. Magistralın inşasına Çin ilə Özbəkistan, Qırğızıstan arasında imzalanmış sazişə uyğun olaraq başlanmışdır və onun çəkilişi fevralda başa çatdırılacaqdır. Bu, böyük İpək yolunun davamıdır və Sakit okean regionuna ən qısa yolla çıxmaq istəyən daha çox ölkələrin diqqətini cəlb etməlidir.

**H e y d ə r Ə l i y e v**: Doğrudur, bu, İpək yolunun məhz bir hissəsidir və çox yaxşıdır.

**Ə b d ü q a f u r Ə b d ü r ə h m a n o v**: Bu sazişə qoşulmaq haqqında Sizin qəbul etdiyiniz qərar bizim üçün çox xoş oldu. İndi sırf prosedur məsələləri üzrə razılaşdırma aparılır. Prezidentimizə bunu bildirmək mənə çox xoş olacaqdır ki, sazişə Azərbaycan da qoşulmaq istəyir.

**H e y d ə r Ə l i y e v**: Çox yaxşı, son vaxtlar biz Özbəkistanla Azərbaycan arasında əməkdaşlığın inkişafı üçün yaxşı start götürmüşük və bütün bunları çox fəal davam etdirəcəyik.

**Ə b d ü q a f u r Ə b d ü r ə h m a n o v**: Fikrimcə iqtisadi əməkdaşlığı intensivləşdirmək sahəsində işimizi fəallaşdırmalıyıq. Bununla əlaqədar indi ikitərəfli iqtisadi komissiyanın may ayında keçiriləcək növ-

bəti iclasına çox fəal hazırlıq görülür. Biz gündəliyə heç də təkcə iqtisadi məsələləri daxil [157-158] etmək istəmirik. Yaxşı olar ki, mədəni, elmi-texniki əməkdaşlığa idman sahəsində əməkdaşlığa aid məsələlər də daxil edilsin. Gündəliyin çox dolğun və məzmunlu olması üçün hazırda biz Azərbaycanın konkret nazirlikləri və baş idarələri ilə işləyirik. Zənnimcə, bunun özü də həmin sahələrdə münasibətlərimizin inkişafına çox yaxşı təkan verəcəkdir. [158]

## RUS PRAVOSLAV KİLSƏSİ BAKI-XƏZƏRYANI YEPARXİYASININ BAŞÇISI YEPİSKOP ALEKSANDR İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*15 fevral 1999-cu il*

**Yepiskop Aleksandr**: Zati-aliləri, çox hörmətli cənab prezident! İcazə verin, özümü yeni vəzifədə – rus Pravoslav kilsəsinin müstəqil Bakı - Xəzəryanı Yeparxiyasının başçısı, yepiskopu vəzifəsində təqdim edim.

**Heydər Əliyev**: Mən sizi, görkəmli din xadimini bu yüksək təyinat münasibətilə təbrik edirəm. Sizə bu mühüm vəzifədəki fəaliyyətinizdə uğurlar arzulayıram. Ümidvaram ki, sizin bu vəzifəyə təyin edilməyiniz və burada müstəqil yeparxiyanın təşkil olunması rus və Azərbaycan xalqları arasında münasibətlərin daha da inkişaf tapmasına xidmət edəcəkdir.

Mən Bakı və Xəzəryanı xüsusi yeparxiyasının təşkili haqqında müqəddəs ikinci Aleksinin qəbul etdiyi qərarı alqışlayıram. Bu, çox düzgün qərardır və hazırda bölgəmizdə yaranmış vəziyyətdən irəli gəlir. Belə düşünürəm ki, bu qərar pravoslavlarla müsəlmanlar arasında, xalqlarımız arasında əlaqələrin möhkəmlənməsi sahəsində bütün işimizə kömək edəcəkdir. Bu, həmçinin o deməkdir ki, Rusiya pravoslav kilsəsi tərəfindən bölgəmizə lazımi əhəmiyyət verilir. Bir sözlə, biz bunu alqışlayırıq. Öz tərəfimizdən isə biz hər şey edəcəyik ki, hörmətli yepiskop Aleksandr, bu vəzifədə fəaliyyətiniz [159-160] müasir mərhələdə bizim hamımızın qarşımızda duran vəzifələrin həyata keçirilməsi naminə uğurlu olsun. Şadam ki, siz Azərbaycanda işləyərək rus pravoslav kilsəsi tərəfindən belə böyük etimada layiq görülmüsünüz. Sizə böyük uğurlar arzulayıram.

**Yepiskop Aleksandr**: Zati-aliləri çox hörmətli cənab prezident, səmimi arzularınıza görə, xoş sözlərinizə görə Sizə təşəkkür edirəm.

Həqiqətən, öz çoxmillətli ümmətinə qayğı göstərən rus pravoslav kilsəsi İsanın mövludunun iki minilliyi ərəfəsində köhnə Bakı – Xəzəryanı yeparxiyanı dirçəltməyi qərara almışdır. Bu yeparxiya burada 1934-cü ilə qədər mövcud olmuşdur. Onun dirçəldilməsi bu regionda Pravoslav xristianların mənəvi dirçəlişinə də kömək edəcəkdir. Bu, həm də Azərbaycan hökumətinin xristian dinindən olan öz vətəndaşlarına qayğısına da sübutdur.

Heydər Əliyeviç, Siz Azərbaycanın müdrik və xeyirxah lideri kimi Qafqazın bütün rus əhalisi arasında böyük şöhrət qazanmısınız. Təlatümlü hadisələr Azərbaycanı sarsıdan vaxtlarda nəinki yerli millətdən, həm də rus millətindən olan bütün adamların, bütün Azərbaycan vətəndaşlarının arzusu, əlbəttə, belə olmuşdur ki, bu çətin dövrdə dövlətə, dövlət hakimiyyətinə məhz Siz başçılıq edəsiniz. İndi görürük ki, ümidlər doğrulmuşdur. Dövlətin çox mürəkkəb xarici və daxili vəziyyətdə olmasına baxmayaraq, Azərbaycan torpağına əmin-amanlıq və sülh Sizin rəhbərliyinizlə qayıtmışdır. İqtisadi həyatda, siyasi həyatda sabitlik – bunların hamısı Azərbaycana qayıtmışdır. Bakının küçələrində dinc həyatın hökm sürdüyünü yəqin etmək üçün şəhərimizi gəzib-dolaşmaq kifayətdir.

Mən bunu Rusiyada da, Şimali Qafqazda da dəfələrlə demişəm. Məndən bizim burada, Azərbaycanda necə yaşadığımızı, burada nə baş verdiyini soruşduqda həmişə demişəm ki, [160-161] Azərbaycana əmin-amanlıq qayıtmışdır, Azərbaycan öz praktiki həyatının sürətini yenidən artırmağa başlayır.

Bakı - Xəzəryanı yeparxiyasının tərkibinə Azərbaycan ərazisindəki pravoslav kilsələri ilə yanaşı, Dağıstan Respublikasının və Çeçenistan Respublikasının ərazilərindəki pravoslav kilsələrinin də daxil edilməsi onu göstərir ki, Azərbaycanda nələr əldə olunmuşdursa, onlar bizi əhatə edən bir çox ölkələr üçün örnəyə çevrilmişdir. Görünür, Dağıstanda da, Çeçenistanda da çalışırlar ki, Azərbaycandakı kimi, onlarda da sülh və sabitlik olsun. Əlbəttə, Sizin Qafqazda yüksək nüfuzunuz var, - bütün Qafqaz respublikaları, Qafqaz dövlətləri başçılarının iştirak etdikləri 75 illik yubileyiniz də buna sübutdur. Azərbaycan Respublikasının yenidən prezidenti seçilməyiniz, andiçmə mərasimində bir çox görkəmli siyasi xadimlərin iştirak etməsi göstərdi ki, bu regionda Sizin nüfuzunuz və Sizin nümunəniz çox yüksəkdir. Biz ümid edirik ki, Sizin köməyinizlə Şimali Qafqazda da xristianlarla müsəlmanlar arasında qarşılıqlı anlaşma və həmrəyliyə nail ola biləcəyik.

Belə düşünürəm ki, pravoslav xristianlarla müsəlmanların arasında bölüşdürülməli bir şey yoxdur. Çünki min illər ərzində şərqdə isamla xristianlıq həmişə qonşu olublar, öz aralarında bütün münasibətləri aydınlaşdırmağa müvəffəq olublar və həm müsəlman xalqların, həm də xristian xalqların xeyrinə dinc həyata, dinc yanaşı yaşamağa gəlib çıxmışlar. Azərbaycan da məhz buna misaldır ki, dünya dinlərinin - islamın, xristianlığın və yəhudiliyin nümayəndələri arasında münasibətlər mehriban qonşuluq münasibətləri, habelə işgüzar münasibətlər ola bilər. Şübhəsiz ki, bu baxımdan Azərbaycan istər MDB-nin, istərsə də dünyanın bir çox ölkələrinə nümunə göstərir. Biz bilirik ki, hətta bir çox inkişaf etmiş dövlətlərdə, təəssü-

flər olsun, dini əsasda münaqişələr var. Bizdə isə Allah-təalanın mərhəməti ilə heç bir münaqişə yoxdur və ola da bilməz. [161-162]

Mən hətta belə düşünürəm ki, müstəqil Bakı–Xəzəryanı yeparxiyasının təsis edilməsi Azərbaycan dövlətinin suverenliyinin tanınmasına daha bir sübutdur. Belə ki, suveren dövlətdə onun bütün daha çox yayılmış konfessiyaları üçün müstəqil dini idarə də olmalıdır. Buna görə də Bakı–Xəzəryanı yeparxiyasının təsis olunması təsdiq edir ki, Azərbaycan suveren dövlətdir.

Mən artıq qeyd etdim ki, bizdə üç dünya dininin – islamın, xristianlığın və yəhudi dininin nümayəndələri arasında həqiqətən xoş münasibətlər yaranmışdır. Bu, əsasən həm Azərbaycan dövlətinin başçısı kimi, Sizin müdrik siyasətiniz sayəsində, həm də Azərbaycanda konfessiyalara başçılıq edən liderlərin – şeyxülislam hacı Allahşükür Paşazadənin də, Azərbaycandakı dağ yəhudiləri icmasının başçısı Semyon Borisoviç İxiilovun sayəsində mümkün olmuşdur. Həqiqətən, bir çox problemləri biz birlikdə həll etməyə, Azərbaycanda keçirilən bir çox dövlət tədbirlərində iştirak etməyə çalışırıq və şübhəsiz ki, Azərbaycandakı bu üç dünya dininin nümayəndələri arasında qarşılıqlı anlaşma olması üçün hər şey etməyə səy göstəririk.

Buna görə də ümid edirəm ki, gələcəkdə burada, Azərbaycanda fəaliyyətimiz Sizin yüksək himayədarlığınızla uğurlu olacaqdır. Zənnimcə, burada, Azərbaycanda əldə etdiyimiz nailiyyətləri yurisdiksiyamıza daxil olan ərazilərdə - Dağıstan və Çeçenistanın ərazilərində də yaya biləcəyik ki, bizim gözəl nümunəmiz onlara xidmət etsin, orada sülh və firavanlıq zəfər çalsın.

Çox hörmətli Heydər Əliyeviç, müqəddəs patriarx Aleksi məni buraya, Azərbaycana xidmətə, yeni vəzifəyə yola salarkən öz məktubunu Sizə verməyi xahiş etdi.

Mən Azərbaycan xristianlarına qayğıkeş münasibətinizə görə də Sizə təşəkkür etmək istəyirəm. Çünki Siz hər il Pasxa bayramında da, İsanın mövludu bayramında da Azərbayca[162-163]nın pravoslav xristianlarına çox səmimi, çox müdrik, çox faydalı təbriklərlə müraciət edirsiniz və bu, Azərbaycanda yaşayan pravoslav xristianların qəlbində hərarətli əks-səda doğurur. Bu, qarşılıqlı anlaşmanın və Sizin siyasətinizə rəğbətin Azərbaycan xristianlarının qəlbində özünə yer tapmasına da çox kömək edir.

**H e y d ə r  Ə l i y e v**: Sizə, ən əvvəl ölkəmizin ünvanına, Azərbaycanda son illərdə yaranmış şərait barəsində söylədiyiniz xoş sözlərə görə təşəkkür edirəm. Həqiqətən, biz sizinlə bundan tamamilə məmnun qala bilərik ki, biz Azərbaycanda əmin-amanlıq yaratmağa, ölkəmizin hərbi münaqişədə olduğu Ermənistanla atəşkəs əldə etməyə müvəffəq olmuşuq. Biz ictimai-siyasi vəziyyəti sabitləşdirməyə, sosial-iqtisadi sahədəki çox ağır vəziyyəti aradan qaldırmağa müvəffəq olmuşuq – son üç ildə Azərbaycan iqtisadiyyatı inkişaf mərhələsindədir. Biz bir sıra iqtisadi islahatlar aparmağa müvəffəq olmuşuq. Bu islahatlar iqtisadiyyatın daha da inkişaf etməsi üçün və təbii olaraq, Azərbaycan vətəndaşlarının rifahının yüksəlməsi üçün daha əlverişli şərait yaradır.

Sizli-bizli hamımızın çox mühüm nailiyyətidir ki, Azərbaycanda bütün dini konfessiyalar - müsəlman dini də, Pravoslav-xristian dini də, yəhudi dini də, əvvəla, öz vəzifələrini sərbəst surətdə həyata keçirir, ikincisi, sizin doğru dediyiniz kimi, bir-biri ilə xoş münasibətdədir, qarşılıqlı fəaliyyət göstərir və bununla bütün Azərbaycan vətəndaşlarının həmrəyliyinin möhkəmlənməsinə kömək edirlər.

Bildiyiniz kimi, mən bütün çıxışlarımda deyirəm ki, milli və dini mənsubiyyətindən asılı olmayaraq, bütün Azərbaycan vətəndaşları Azərbaycanın tam hüquqlu vətəndaşlarıdır. Siz bilirsiniz ki, bu, sadəcə olaraq sözlər, sadəcə olaraq bəyannamə deyildir, bugünkü Azərbaycanın reallığıdır. Biz bu vəziyyəti, bu reallığı qoruyub saxlayacaq, möhkəmlədəcək və inkişaf etdirəcəyik. Bu baxımdan dini konfessiyaların səyləri [163-164] çox böyük əhəmiyyətə malikdir və bizim üçün, dövlət üçün böyük köməkdir.

Siz bilirsiniz ki, Azərbaycan xalqı tarixən digər dinlərə həmişə dözümlü olmuş və onlara hörmətlə yanaşmışdır. Bu, Azərbaycan xalqının milli xüsusiyyətidir. Bununla yanaşı, bu, bəzən müxtəlif ictimai-siyasi və digər şəraitdə korroziyaya, dəyişikliklərə məruz qalır. Bilirsiniz ki, 80-ci illərin axırlarında – 90-cı illərin əvvəllərində Azərbaycanda çox mürəkkəb ictimai-siyasi hadisələr baş vermiş və bunlar millətlərarası münasibətlərə müəyyən dərəcədə mənfi təsir göstərmişdi. Amma, Allaha şükür, biz bunu ləğv etdik, aradan qaldırdıq.

Yəni Azərbaycan xalqına xas olmayan bir dövr olmuşdur. Bununla yanaşı, başlıcası budur ki, biz bu halları aradan qaldıra bildik, elə bir vəziyyət yarada bildik ki, milli və dini mənsubiyyətindən asılı olmayaraq, bütün Azərbaycan vətəndaşları tam hüquqlara malikdirlər, sakit, normal şəraitdə yaşayırlar, bir-biri ilə qarşılıqlı əlaqə saxlayırlar.

Məsələn, siz bilirsiniz ki, gah bir, gah da digər ölkədə rusdilli əhalinin maraqlarını qorumağın zəruriliyi barədə Moskvada, Rusiya Federasiyasının rəhbərliyində tez-tez səslər eşidilir. Azərbaycanda belə problem yoxdur və heç kim Azərbaycanda rusdilli əhalinin müdafiəsi uğrunda çıxış etmək üçün narahat olmur. Çünki biz rusdilli əhalinin mənafeyini qoruyuruq, müdafiə edirik. Bu gün də bəyan edirəm ki, Azərbaycandakı rüsdilli əhalinin milli mənafeyi sarıdan Rusiyada kiminsə narahat olması üçün bu gün də heç bir ehtiyac yoxdur, gələcəkdə də olmayacaqdır. Bu mənafe bizim öz mənafeyimizdir və heç vaxt yol verməri ki, digər millətdən, digər dini etiqaddan olan adamlar – islam dinindən və Azərbaycan millətindən olmayan adamlar hər hansı sıxışdırmaya məruz qalsınlar.

Azərbaycanın hər bir vətəndaşına öz imkanlarını daha dolğun həyata keçirmək üçün getdikcə daha böyük şərait ya[164-165]radılacaqdır. Mən buna inanıram, çünki gördüyümüz işlər, xüsusən apardığımız və yaxın illərdə aparacağımız islahatlar Azərbaycanda bütün vətəndaşlar üçün daha yaxşı həyat şəraiti yaradacaqdır. İqtisadiyyat dirçələcək, həyat şəraiti yüksələcəkdir, insanlar firavan yaşayacaqlar və buna görə də hər hansı millətdən olan hər bir vətəndaş öz imkanlarını həyata keçirə biləcəkdir. Yeri gəlmişkən, bu da bəzi digər ölkələrlə müqayisədə Azərbaycanın fərqləndirici xüsusiyyətidir. Biz bunu Azərbaycan üçün səciyyəvi hesab edirik, xüsusən ona görə ki, bu fəaliyyətimizi, - mən dövlət tərəfindən fəaliyyəti nəzərdə tuturam, - çox mühüm hesab edirik, ona böyük əhəmiyyət veririk.

Siz doğru qeyd etdiniz, mən bununla razıyam ki, Azərbaycanda müstəqil Yeparxiya – Xəzəryanı ölkələri, o cümlədən Dağıstanı və Çeçenistanı əhatə edən Yeparxiyanın yaradılması həm də bunun göstəricisidir ki, Azərbaycanın suverenliyi bütün istiqamətlərdə, o cümlədən rus Pravoslav kilsəsi tərəfindən tanınır və təsdiq edilir. Biz bunu qiymətləndiririk və bir daha demək istəyirəm ki, bu qərardan məmnunam. Bir də ki, 1934-cü ilədək belə olmuşdur. Yəni biz tarixi ədalətin bərpa edildiyinin şahidiyik. Biz də kömək edəcəyik ki, müstəqil yepiskopluğun fəaliyyəti uğurlu olsun. Özümüzdən asılı olan hər şeyi edəcəyik ki, yeparxiyaya daxil olan Xəzəryanı ölkələrdə də sizin fəaliyyətiniz uğurlu olsun.

Əlbəttə, biz istəyirik ki, bütün regionumuzda, xüsusən Şimali Qafqazda sülh və sakitlik olsun. Çünki Azərbaycan Şimali Qafqazla çox bağlıdır - mən Rusiya Federasiyasının bu hissəsini nəzərdə tutaram. Biz bütün Şimali Qafqazda əmin-amanlığın bərqərar olmasına kömək etmək üçün öz tərəfimizdən səy göstəririk. Ümidvaram ki, əmin-amanlıq olacaqdır. Hesab edirəm ki, bu baxımdan sizin fəaliyyətinizin də böyük əhəmiyyəti olacaqdır. [165-166]

Sizi bir daha təbrik edirəm. Mən müqəddəs II Aleksinin məktubunu diqqətlə oxuyacağam və şübhəsiz ki, ona cavab verəcəyəm. Bilirsiniz ki, biz II Aleksinin özü üçün münasib vaxtda Azərbaycana gəlməsini gözləyirik. Biz onu hər zaman qəbul etməyə şad olacağıq. Ümidvaram ki, siz bu fikri ona çatdıracaqsınız.

**Y e p i s k o p A l e k s a n d r**: Heydər Əliyeviç, səmimi sözlərə, diqqət və dəstəyə görə, müqəddəs patriarx Aleksini dəvət etməyinizə görə Sizə təşəkkür edirəm. Həqiqətən də müqəddəs patriarxın səfər problemi müzakirə olunur, onun uğurlu keçməsi üçün hazırlıq görülür. Həm də ki, onun dini yurisdiksiyası Azərbaycan ərazisinə də yayılır. Bu səbəbdən müqəddəs patriarx həm Bakıya, həm də Azərbaycana səfər edib bizim dini həyatımızla yaxından tanış olmaq arzusunda olduğunu bildirmişdir. Bir də ki, fevralın 18-də müqəddəs patriarxın 70 illiyi qeyd ediləcəkdir. Görünür, bu, böyük kilsə təntənəsi olacaq, Moskvada olduqca ciddi hazırlıq işi aparılır. Mənim bildiyimə görə, Azərbaycandan, şeyx başda olmaqla, bütöv bir nümayəndə heyəti gedəcəkdir. Mən özüm bu tədbirə hazırlaşmaq üçün sabah Moskvaya yola düşürəm. Fevralın 19-da Böyük Teatrda bu əlamətdar yubileylə bağlı təntənəli tədbir keçiriləcəkdir. Mən Sizin dəvətinizi müqəddəs partriarxa hökmən çatdıracaq və Sizin səmimi qəbulunuzdan, Azərbaycan ərazisindəki rus Pravoslav kilsəsinin fəaliyyəti barədə dediyiniz hərarətli sözlərinizdən danışacağam.

**H e y d ə r Ə l i y e v**: Mən bütün Rusiyanın patriarxı II Aleksini ad günü münasibətilə təbrik edirəm, ona xüsusi təbrik göndərəcəyəm. Xahiş edirəm mənim səmimi təbrikimi və ən yaxşı arzularımı ona sözlə də çatdırasınız. [166]

## «KİTABİ-DƏDƏ QORQUD» DASTANININ 1300 İLLİK YUBİLEYİ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ İCLASINDA* GİRİŞ SÖZÜ

*Prezident sarayı*

*16 fevral 1999-cu il*

Hörmətli xanımlar və cənablar!

Ölkəmiz dövlət müstəqilliyini əldə edəndən sonra biz azərbaycanlılar öz tariximizi, tarixi keçmişimizi və tariximizdə mövcud olan mühüm hadisələri, mərhələləri yenidən təhlil edirik, tədqiq edirik və onları müstəqillik mövqeyindən daha da obyektiv, doğru-düzgün yazmağa və həm ölkəmizin ictimaiyyətinə, həm də dünyaya çatdırmağa çalışırıq.

Bu baxımdan «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyinin keçirilməsi xüsusi əhəmiyyətə malikdir. «Kitabi-[167-168]Dədə Qorqud» dastanının 1300 illik yubileyinin keçirilməsi haqqında verilmiş fərmandan ötən dövrdə xeyli iş görülmüşdür. Ancaq hələ görüləsi işlər də çoxdur. Ona görə də biz bu gün yubiley komissiyasının iclasına toplaşmışıq. Məqsəd də görülən işlərə nəzər salmaqdan və onların əsasında bundan sonra görüləcək işlər haqqında müəyyən addımlar atmaqdan ibarətdir.

Görüləcək işlər haqqında iş planının layihəsi sizə təqdim olunub. Güman edirəm, onunla tanış ola bilmisiniz. Arzu edərdim ki, müzakirə zamanı öz fikirlərinizlə bərabər, eyni zamanda iş planına münasibət də bildirəsiniz – nəyi qəbul etmək olar, nəyi olmaz, iş planımıza əlavə nəyi salmalıyıq.

Hər halda, bu il biz yubiley tədbirlərini sona çatdırmalıyıq. Ona görə də qarşıda həm böyük, həm də çox gərgin iş durur. Bəllidir ki, tariximizin ən parlaq səhifələrindən biri olan «Kitabi-Dədə Qorqud» dastanının yubileyini indi, müstəqil Azərbaycanın müasir şəraitində çox yüksək səviyyədə keçirməliyik. Ona görə də mən bugünkü müzakirədən çox şey gözləyirəm.

### YEKUN NİTQİ

Mənə elə gəlir ki, biz tədbirlər planını yetərli müzakirə etdik. İndi biz gərək müəyyən edək. Şübhəsiz ki, bundan sonra görüləsi işlər tədbirlər planında öz əksini tapıbdır və bu əlavələr də olacaqdır. Ancaq bu yubileyin zirvə görüşü, tədbiri bu il olmalıdır. Şübhəsiz ki, onun vaxtını uzatmaq məqsədəuyğun olmaz.

Mənə deyirlər,YUNESKO belə bir fikir irəli sürübdür ki, əgər biz bu tədbiri iyun ayında Azərbaycanda keçirsək, YUNESKO-nun rəhbərliyi həmin tədbirdə iştirak edəcəkdir.

Gərək indi biz bu tədbirin vaxtını müəyyən edək. İyul ayı bir az isti olur. Bilirsiniz, yubiley tədbirini sentyabr ayında [168-169] keçirmək daha yaxşı olar. Ancaq həmin vaxt bir sıra digər yubileylərlə üst-üstə düşə bilər. Çünki Osmanlı imperatorluğunun 700 illiyi qeyd ediləcəkdir. Deyəsən, onlar bunu noyabr ayında keçirmək istəyirlər.

Türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşü hər il bu dövlətlərdən birində olur. Bu zirvə görüşü keçən il Qazaxıstanın paytaxtı Astanada oldu. Orada qərar qəbul edildi ki, növbəti zirvə görüşü 1999-cu ildə Azərbaycanda keçirilsin.

Ona görə mən belə nəzərdə tuturam ki, «Kitabi-Dədə Qorqud» dastanının yubileyini həmin zirvə görüşü ilə bir vaxtda keçirək. Bir gün «Kitabi-Dədə Qorqud» dastanının yubileyi, o birisi gün zirvə görüşü keçirilsin. Yaxud da əvvəl zirvə görüşü, sonra isə «Kitabi-Dədə Qorqud» dastanının yubileyi olsun ki, türkdilli ölkələrin dövlət başçıları da bu tədbirlərdə iştirak edə bilsinlər. Artıq belə bir ənənə yaranıbdır. Məsələn, «Manas»ın min illiyi yubileyində türkdilli ölkələrin dövlət başçılarının Qırğızıstanda zirvə görüşü oldu. Yaxud da Daşkənddə Əmir Teymurun 660 illik yubileyi idi, eyni zamanda türkdilli ölkələrin dövlət başçılarının zirvə görüşü keçirildi.

Mən həmin ölkələrin dövlət başçıları ilə danışmışam. Onlar da razıdırlar ki, bu iki tədbir eyni vaxtda keçirilsin. Bu yubileyin vaxtını təyin etmək lazımdır. Ona görə ki, gərək, birincisi, YUNESKO-nun rəh-

---

* Dövlət komissiyası sədrinin müavini, Yazıçılar Birliyinin sədri Anar, Azərbaycan EA-nın ədəbiyyat, dil və incəsənət bölməsinin akademik-katibi Bəkir Nəbiyev, təhsil naziri Misir Mərdanov Dövlət komissiyası sədrinin müavini, EA-nın prezidenti Fərəməz Maqsudov, EA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru Ağamusa Axundov M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin kafedra müdiri Kamil Vəliyev, Azərbaycan mədəniyyət fondunun sədri Kamal Abdullayev, EA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun baş elmi işçisi Şamil Cəmşidov, xalq şairi Nəbi Xəzri, Y.Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin rektoru İsa Həbibbəyli, BDU-nun kafedra müdiri Tofiq Hacıyev, EA-nın Tarix İnstitutunun şöbə müdiri Oqtay Əfəndiyev, Rəssamlar İttifaqının sədri Fərhad Xəlilov, BDU-nun professoru Samət Əlizadə, Xarici İşlər Nazirliyində xüsusi tapşırıqlar üzrə səfir, YUNESKO üzrə Azərbaycan Respublikasının milli komissiyasının məsul katibi Ramiz Abutalıbov iclasda çıxış etdilər.

bərliyi ilə bu barədə danışaq, ikincisi, türkdilli ölkələrin dövlət başçıları ilə bu vaxtı bir də müəyyənləşdirək. Çünki həmin dövlət başçılarının hərəsinin öz proqramı, işi vardır. Gərək vaxtı onlarla da razılaşdıraq. Biz bu yubiley tədbirini iyun ayında keçirməyi nəzərdə tutsaq, onda gərək mən türkdilli ölkələrin dövlət başçıları ilə indidən danışıb onların razılığını alım.

Ola bilər, bu tədbirin vaxtı ya iyun, ya da sentyabr ayı olsun. Sentyabrdan sonraya saxlamaq bir az çətindir. Sentyabrda keçirsək, onda biz YUNESKO-nun yüksək səviyyəli heyətindən məhrum olacağıq. Biz bu tədbiri hansı ay keçirsək, [169-170] həmin tarixi razılaşdırsaq, türkdilli ölkələrin başçıları orada iştirak edəcəklər.

Əlbəttə, bu tədbiri iyul və avqust aylarında keçirmək bir qədər çətindir. Biz onu gərək ya iyunda, ya da sentyabrda keçirək.

Gəlin belə edək, - mən bu məsələni türkdilli ölkələrin dövlət başçıları ilə müzakirə edim, görüm onlar üçün hansı vaxt əlverişlidir, yararlıdır. Əgər onlar üçün iyun ayı əlverişli olsa, onda bu yubileyi iyunun sonunda, yaxud sentyabr ayını qəbul etsələr, bu tədbiri sentyabrın birinci yarısında keçirmək olar ki, başqa ölkələrdəki tədbirlərlə üst-üstə düşməsin.Gəlin belə danışaq ki, mən bir həftə, on gün ərzində bu məsələni müəyyənləşdirib elan edərəm. Beləliklə, düşünürəm ki, müzakirəni qurtara bilərik.

Çox ətraflı fikir mübadiləsi aparıldı, əhəmiyyətli çıxışlar, yaxşı təkliflər oldu. Hesab edirəm ki, bunların əsasında iş planı daha da genişlənər, konkretləşər, həm «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubiley tədbirlərinin keçirilməsi, həm də bu sahədə gələcək illərdə lazımi işlər görülməsi üçün yaxşı imkanlar yaranar.

Fərman imzalanandan sonra indiyə qədər görülən işlər və bugünkü müzakirə onu göstərir ki, biz böyük bir iş başlamışıq. Bu gün bütün çıxışlarda bir daha qeyd olundu ki, «Kitabi-Dədə Qorqud» dastanı Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, ədəbiyyatının ən görkəmli, ən parlaq abidəsidir.

«Kitabi-Dədə Qorqud» dastanının fövqəladə əhəmiyyəti ondan ibarətdir ki, o bizim tariximizin 1300 illik dövrünü həm əks etdirir, həm də bir daha təsdiq edir. O, tarixi köklərimizi dünyaya göstərir, oğuz, türk mənşəyimizi və zəngin tariximizi sübut edir. Bunlar bizim hamımız üçün, xalqımızın bu günü, gələcəyi üçün əhəmiyyətlidir.

Məlumdur ki, XX əsrdə Azərbaycan xalqı bir çox tarixi hadisələri yubileylərlə, yaxud başqa tədbirlərlə qeyd edibdir. [170-171] Ancaq bu gün təəssüflə deyə bilərik ki, «Kitabi-Dədə Qorqud» dastanı Azərbaycanın həyatında özünəməxsus yeri indiyə qədər tutmayıbdır. Bunun da səbəbləri məlumdur. Çıxışlarda bu barədə deyildi. Biz ötən dövrdə tariximizi özümüz istədiyimiz kimi yaza bilməmişik. Tariximizin, o cümlədən ədəbiyyat, mədəniyyət tariximizin həmişə ideologiya təsiri altında qalması, bu barədə bizim sərbəst olmamağımız vaxtilə belə böyük itkilərə gətirib çıxarmışdı.Buna təəssüf etmək olar.

Bununla yanaşı, bu gün məmnuniyyətlə qeyd etmək lazımdır ki, Azərbaycanın vətənpərvər alimləri, tədqiqatçıları, yazıçıları, şairləri «Kitabi-Dədə Qorqud» dastanı haqqında öz imkanları dairəsində əsərlər yaratmışlar və «Kitabi-Dədə Qorqud»un tədqiqatı aparılmışdır. Ancaq buna dövlət himayəsi istənilən səviyyədə olmamışdır. Məsələn, 1970-ci illərdə, 1980-ci illərin əvvəlində mən Azərbaycana rəhbərlik etdiyim zaman biz respublikamızın tarixi, keçmişi, ədəbiyyatı, mədəniyyəti haqqında çoxlu tədbirlər həyata keçirdik. Amma mən bu gün açıq deməliyəm ki, «Kitabi-Dədə Qorqud» haqqında heç bir təşəbbüs irəli sürülməmişdir. Mən bu gün bunu qətiyyətlə deyirəm. Əgər belə bir təşəbbüs irəli sürülsəydi, biz bunu müəyyən çərçivədə həyata keçirə bilərdik. Mənim işlədiyim həmin illərdə milli mədəniyyətimizə, tariximizə aid olan bir çox tədbirlərin keçirilməsinə Moskvanın müqavimətini, hətta qadağanını hiss etmişdik. Lakin bununla yanaşı, bizim cəhdlərimiz, təkidlərimiz nəticəsində biz o vaxt bir çox tədbirlərin keçirilməsinə nail olmuşduq.

Mən bu gün, bu müzakirə zamanı düşünürəm, - bəs nə üçün «Kitabi-Dədə Qorqud» haqqında heç bir təşəbbüs olmamışdı? Eyni zamanda, özüm belə bir cavab verə bilərəm: yəqin ona görə ki, ümumiyyətlə, bizim Azərbaycanın üzərinə pantürkizm damğası vurulduğuna, Azərbaycanda çox dəyərli insanlar pantürkist adı ilə həbs olunduğuna, repressiyaya məruz qaldığına, əsərlər, kitablar dağıdıldığına görə alimlərimiz, [171-172] ictimai xadimlərimiz «Kitabi-Dədə Qorqud» haqqında təşəbbüs qaldırmağa bəlkə də cəsarət etməyiblər. Mən bunu belə izah edə bilərəm.

Ancaq biz eyni zamanda onu da qiymətləndirməliyik ki, bir çox alimlərimiz, yazıçılarımız bu mövzuya xüsusi fikir vermişlər, əsərlər yaratmışlar və «Kitabi-Dədə Qorqud» dastanı Azərbaycanın həyatında, ədəbiyyatında yaşamış və inkişaf etmişdir. Amma şübhəsiz, bunlar bizim bu gün istədiyimiz səviyyədə - tarixi ədalət səviyyəsində olmayıbdır.

Burada artıq qeyd olundu ki, Həmid Araslının, Məmmədhüseyn Təhmasibin, Əbdüləzəl Dəmirçizadənin və başqa alimlərin yazdıqları əsərlər «Kitabi-Dədə Qorqud» dastanının elmi tədqiqi və geniş təbliğ edilməsi üçün böyük xidmətlər göstərmişdir. Başqa bir çox alimlərin də adını çəkə bilərik.

Bizim hörmətli alimlərimiz burada çıxış etdilər və öz tədqiqatları, yazdıqları əsərlər barədə məlumat verdilər. Bunlar hamısı çox qiymətlidir. Mən bu görüş ərəfəsində bir neçə belə kitabla tanış oldum. Alim, professor Samət Əlizadənin burada qeyd etdiyi həmin kitab 1988-ci ildə Fərhad Zeynalovun və Samət Əlizadənin müəllifliyi ilə nəşr edilmişdir. Mən bu kitaba baxdım. O, həqiqətən çox sanballı elmi əsərdir. Ancaq bu elmi əsərlər alimlər, tədqiqatçılar üçün böyük əhəmiyyət daşıyır, geniş ictimaiyyət isə bunlardan

istənilən səviyyədə istifadə edə bilməyibdir. «Kitabi-Dədə Qorqud»un elmi nöqteyi-nəzərdən tədqiq edilməsi bizim üçün çox lazımdır. Eyni zamanda, «Kitabi-Dədə Qorqud» Azərbaycan ictimaiyyəti, kütlə, xalq üçün tanınmalıdır.

Mən bu baxımdan Anarın xidmətlərini xüsusi qeyd etmək istəyirəm. Mənə belə gəlir ki, biz bu gün, müəyyən zaman keçəndən sonra Anarın bu sahədəki axtarışlarına, xidmətlərinə daha da yüksək qiymət verməliyik. Bəlkə də Anar uşaqlar üçün Dədə Qorqud haqqında kitab yazanda, yaxud başqa kitablarını yazanda çoxları bunun nə qədər əhəmiyyətli ol[172-173]duğunu o dərəcədə dərk edə bilmirdilər. Amma indi biz artıq öz milli dəyərlərimizi, köklərimizi, tariximizi olduğu kimi təsvir etməyə çalışarkən vaxtilə atılmış belə addımların nə qədər qiymətli olduğunu dərk edirik. Mən Anarın bu münasibətlə yaratdığı filmi də qiymətləndirirəm.

Təbiidir, siz də, biz də, hamımız bilirik ki, hər bir tarixi hadisəni elmi kitablardan da tapıb oxumaq olar. Amma hər bir insan elmi kitablardan istifadə edə bilmir. Son onilliklərin təcrübəsi onu göstərir ki, geniş kütlə, xalq üçün tarixi hadisələri izah, təbliğ etməkdən ötrü ən gözəl vasitə onlar haqqında filmlərin, səhnə əsərlərinin yaranmasıdır. Məsələn, Üzeyir Hacıbəyov vaxtilə «Koroğlu» operasını yaradana qədər bəlkə də xalqımız Koroğlunu bu qədər dərindən dərk edə bilmirdi. Ancaq Üzeyir Hacıbəyovun yaratdığı «Koroğlu» operası və onun səhnəmizdə çox gözəl şəkildə təqdim olunması indi Koroğlu obrazının və «Koroğlu» dastanının məzmununu, mənasını hamımız üçün çox gözəl göstərir. İndi hər birimizdən soruşsalar ki, Koroğlu kimdir, mərhum böyük müğənnimiz Bülbülün səhnədə yaratdığı Koroğlu obrazı yada düşür. Yaxud, - mən bunu vaxtilə demişəm, - Səməd Vurğunun Vaqif haqqında yazdığı pyes Vaqifi geniş kütləyə tanıdıbdır. Vaqifin şerləri, əsərləri tanınırdı, amma o qədər də geniş yox. Şerlərini oxuyurduq, lakin Vaqifin kim olduğu, onun həyatı, tərcümeyi-halı, yaradıcılığı haqqında geniş məlumat yox idi.

Xatirimdədir, mən orta məktəbdə oxuyarkən «Ədəbiyyat müntəxəbatı» kitabında Vaqif haqqında bir-iki səhifə və şerləri var idi. Biz orta məktəbdə oxuyarkən Vaqifin «Bayram oldu, heç bilmirəm neyləyim» şerini öyrənmişdik. Mənim orta məktəbdən yadımda qalan odur. Amma «Vaqif» pyesini görəndən sonra Ələsgər Ələkbərovun ifasında Vaqifin surəti də, eyni zamanda Vaqif də bizə məlum oldu.

Ona görə də tarixi mövzuda yaradılan əsərlər, o cümlədən «Nəsimi», «Babək» filmləri çox qiymətlidir. Şübhəsiz ki, Ana[173-174]rın yaratdığı «Dədə Qorqud» filmi də çox qiymətlidir. Onun qiyməti bəlkə də ona görə çoxdur ki, - indi hamımız bilirik - «Kitabi-Dədə Qorqud» dastanının dili çox çətindir, mürəkkəbdir. Onun tarixi də başqa dastanlar kimi o qədər tədqiq olunmayıbdır. Ona görə də bu təşəbbüs çox əhəmiyyətlidir. Hesab edirəm ki, bu film qarşıdakı yubiley zamanı Azərbaycan ictimaiyyətinə, kütləyə yenidən təqdim olunmalıdır.

Mən burada irəli sürülən təkliflərlə tamamilə razıyam ki, «Kitabi-Dədə Qorqud» haqqında böyük bir serial yaratmaq olar. Bunun nə həcmdə olacağını mən bu gün müəyyən edə bilmərəm. Amma bu təklifi dəstəkləyirəm, qəbul edirəm və biz belə bir serialın yaranması üçün lazımi vəsait taparıq. Yəqin ki, bu, tədbirlər planında öz əksini tapmalıdır və bu barədə işlər görülməlidir.

Beləliklə, indiyə qədər olan dövrdə müəyyən işlər görülübdür. Əgər biz tariximizi bu gün müəyyən qədər səliqəyə salsaq, indiyədək görülən işləri yəqin ki, «Kitabi-Dədə Qorqud»un tarixinin öyrənilməsinin birinci mərhələsi hesab etmək olar. Yəqin ki, ikinci mərhələ «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyinin keçirilməsi haqqında verilmiş fərmandan başlanır.

Siz bu fərmanın əhəmiyyətini burada çox düzgün qeyd etdiniz. Bu fərmanın ən böyük əhəmiyyəti ondan ibarətdir ki, birincisi, biz bütün dünyaya nümayiş etdirir və bildiririk ki, bəli, «Kitabi-Dədə Qorqud» dastanının azı 1300 il yaşı vardır. İkincisi, onu bildiririk ki, bəli, «Kitabi-Dədə Qorqud» dastanı Azərbaycan xalqına, bütün türk dünyasına məxsusdur. Ancaq onun vətəni Azərbaycandır. Burada çox deyildi, bəli, onun vətəni, sahibi Azərbaycan xalqıdır, onun sahibi müstəqil Azərbaycan dövlətidir.

Mən belə hesab edirəm ki, bax, bu iki cəhət bizim fərmanın böyük əhəmiyyətini nümayiş etdirir. Həmin fərman veriləndən indiyə qədər görülən işlər də çox əhəmiyyətlidir. Burada [174-175] bu barədə məlumat verildi. Ancaq daha da çox iş bundan sonra görülməlidir. Bundan sonra görüləcək işlər isə iki mərhələyə bölünə bilər: birincisi, vaxtını müəyyən edəcəyimiz builki zirvə tədbirinə qədər; ikincisi, ondan sonrakı dövrdə görüləcək işlər.

Təbiidir, biz «Kitabi-Dədə Qorqud»un 1300 illik tarixini təhlil etmək, əsərlər yaratmaq və onları nəşr etmək, dünyaya yaymaq işini bir il ərzində görə bilmərik. Ona görə də bizim iş planımızın iki hissəsi olmalıdır. Onun birinci hissəsində nəzərdə tutulan işlər son yubiley tədbirinə qədər görüləcəkdir. İkinci hissəsində planlaşdırılan işlər isə son yubiley tədbirindən sonra, gələcək illərdə görüləcəkdir.

Hesab edirəm ki, 1997-ci ildə verilmiş fərman gələcək çox illər, on illər üçün böyük perspektiv açıbdır. Biz böyük bir perspektiv plan hazırlamalı və onu ardıcıl surətdə həyata keçirməliyik. Biz nə qədər çox işləsək, «Kitabi-Dədə Qorqud»u, tariximizi bugünkü və gələcək nəsillərə daha da dolğun, düzgün çatdıra biləcəyik. Biz bunu mütləq etməliyik.

Nəhayət, həmin fərmanın meydana çıxması və indi bu müzakirənin aparılması, gələcəkdə görüləcək işlər Azərbaycanın dövlət müstəqilliyinin bəhrəsidir. Bəli, biz keçmişdə nə qədər iş görmüşüksə, indi – müstəqil dövlət olduqdan sonra gördüyümüz işlər onların hamısından üstündür. Çünki biz indi sərbəstik, azadıq, müstəqilik, biz tariximizi olduğu kimi əks etdiririk və əks etdirəcəyik.

Biz öz tariximizlə, mədəniyyətimizlə, ədəbiyyatımızla fəxr edirik və fəxr etməyə haqqımız vardır. Çünki «Kitabi-Dədə Qorqud» dastanı kimi böyük bir elm, mədəniyyət, ədəbiyyat abidəsi olan xalq öz tarixi ilə fəxr edə bilər. Bunlar da ölkəmizin müstəqilliyi nəticəsində mümkün olmuşdur. Biz bu müstəqillik dövründən səmərəli istifadə etməliyik.

Müstəqilliyin qarşımızda qoyduğu vəzifələr çoxdur. Biz hüquqi, demokratik dövlət qururuq, iqtisadi islahatlar aparı[175-176]rıq, siyasi islahatları həyata keçiririk, iqtisadiyyatı inkişaf etdiririk, dövlətimizi möhkəmləndiririk. Bununla yanaşı, mən böyük iftixar hissi ilə deyə bilərəm ki, son illər Azərbaycanda müstəqilliyin imkanlarından istifadə edərək tariximizi təhlil etmək, ədəbiyyatımızı, mədəniyyətimizi yenidən dərk etmək və dünyaya nümayiş etdirmək sahəsində çox işlər görmüşük. Ancaq bundan sonra daha da çox işlər görməliyik və ümid edirəm ki, görəcəyik. Bunların hamısı Azərbaycanın müstəqil dövlət kimi dünyada tanınmasına kömək edəcəkdir.

Mən bir daha deyirəm ki, burada irəli sürülən təkliflər çox dəyərlidir. Məsələn, mən Dədə Qorqud haqqında bu fikirlə razıyam ki, bəlkə də adi bir heykəl qoymaq o qədər də məqsədəuyğun olmazdı. Mən razıyam ki, böyük bir kompleks yaratmaq, onun üçün münasib yer seçmək olar. Yəni doğrudan da, bir surətin heykəlini qoymaq çox lazımdır, lakin «Kitabi-Dədə Qorqud» elə bir dastandır ki, kompleks götürsək, məsələn, bir şəhərcik ayırsaq, sonra orada cürbəcür başqa abidələr də yaratmaq olar. Memarlarımız, heykəltəraşlarımız, rəssamlarımız bu barədə düşünməlidirlər.

Hesab edirəm ki, biz bunu edə bilərik. Təbiidir ki, bunu qısa bir zamanda etmək mümkün deyildir. Ancaq əgər bizim mütəxəssislərimiz bu barədə yaxşı bir təklif irəli sürə bilsələr, komissiyamız bu sahədə yaxşı işləyə bilsə, biz belə bir layihəni qəbul edərək və bu layihə əsasında bir, iki, üç ilə böyük bir kompleks yarada bilərik. Bu lazımdır. Əgər film lazımdırsa ki, insanlar baxsınlar, böyük bir kompleks də lazımdır ki, insanlar daim oraya getsinlər. Dədə Qorqudu ziyarət etsinlər və tariximizlə, Dədə Qorqudla daim təmasda olsunlar.

Burada Dədə Qorqudun qəbri haqqında söhbət getdi. Biz bunu dərinləşdirmədik. Ona görə də mən bu gün bu barədə ətraflı fikir söyləmək istəmirəm. Ancaq hesab edirəm ki, komissiyamız gərək bu barədə də bir təklif versin. Bu təklifi yəqin ki, bir-iki ay müddətində vermək lazımdır. Hörmətli ali[176-177]mimiz burada dedi ki, kimsə Dədə Qorqudun qəbrini tanıyır. Amma mən eşitmişəm ki, Dədə Qorqudun Dərbənddəki qəbri məlumdur və oraya ziyarətə də gedirlər.

Biz etiraf etməliyik ki, Dədə Qorqudun Dərbənddə qəbri olduğunu son vaxtlara qədər bəlkə də az adam bilirdi. Məsələn, etiraf edirəm ki, mən bunu bilmirdim. Yaxşı, kim bilirsə əlini qaldırsın.Görürsünüz, çox az, üç-dörd adam əlini qaldırır.

Gəlin belə danışaq. Bir halda ki, hamınız deyirsiniz Dədə Qorqudun çox yerlərdə qəbri var, gəlin Dədə Qorqudun harada qəbirləri varsa, onları tapaq. Bir halda ki, bu gün deyirik Dədə Qorqudun sahibiyik, həmin qəbirləri tapaq, araşdıraq, kitablarda yazılsın, bunların ünvanı bilinsin.

Hesab edirəm ki, komissiya üzvləri Dədə Qorqudun qəbri barədə işlərlə məşğul olurlar. Mən komissiyanın sədriyəm. Ancaq mənim müavinlərim var. Onlar Elçin Əfəndiyev, Fəraməz Maqsudov və Anardır. Mən bundan sonrakı təşkilati işləri müavinlərimə tapşırıram. Çünki komissiyanın iclasını keçirməyə mənim hər dəfə imkanım olmayacaqdır. Mən müavinlərimdən xahiş edirəm ki, bu gündən iş planı qurulsun. Ola bilər, ayda iki dəfə yığışasınız, komissiyanın üzvlərindən kimləri istəsəniz dəvət edəsiniz, işləri görəsiniz və mənə məlumat verəsiniz. Mən bunu sizdən xahiş edirəm.

Bugünkü müzakirəyə görə sağ olun. [177]

## BÖYÜK BRİTANİYANIN «RAMKO» ŞİRKƏTİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ* SÖHBƏT

*Prezident sarayı*

*16 fevral 1999-cu il*

**H e y d ə r  Ə l i y e v**: Xoş gəlmisiniz. Sizinlə yenidən görüşümdən çox məmnunam.

**M a l k o l m  R i f k i n d**: Çox sağ olun, cənab prezident. Həm mənim üçün, həm də «Remko» şirkəti üçün çox böyük şərəfdir ki, biz yenidən Bakıdayıq. Cənab prezident, Sizin səhhətinizi belə gözəl görmək bizim üçün çox böyük xoşbəxtlikdir.

Cənab prezident, Birləşmiş Krallığa Sizin rəsmi səfərinizi böyük məmnuniyyətlə xatırlayırıq. O, çox uğurlu bir səfər idi və həftələr, aylar ötdükcə biz onun müsbət nəticələrini görürük. Azərbaycan ilə Böyük Britaniya arasındakı əlaqələrin və məsləhətləşmələrin miqyası da getdikcə artmaqdadır. Deməliyəm ki, Birləşmiş Krallığın parlamentində də Azərbaycana maraq artıb, ölkənizlə əlaqədar müzakirələr genişlənibdir. Həm İcmalar Palatasında, həm də Lordlar Palatasında Azərbaycan haqqında tezliklə böyük müzakirələr gözlənilir. Cənab prezident, mənə elə gəlir ki, Sizin Britaniyaya rəsmi səfəriniz bu marağın artmasına səbəb olmuşdur. [178-179]

**H e y d ə r  Ə l i y e v**: Səmimi sözlərə görə təşəkkürümü bildirirəm. Mən də Böyük Britaniyaya rəsmi səfərimi çox məmnuniyyətlə xatırlayıram. Hesab edirəm ki, mənim Birləşmiş Krallığa rəsmi səfərim, keçirdiyim görüşlər, apardığım danışıqlar, imzaladığımız sənədlər çox böyük əhəmiyyət daşıyır. Mən həmin səfəri çox məhsuldar hesab edirəm. Birləşmiş Krallığın Baş naziri Toni Bleyer ilə mən böyük bəyannamə və bir sıra konkret müqavilələr, o cümlədən «Ramko» şirkəti ilə müqavilə imzaladıq. Mən bundan çox məmnunam. Hesab edirəm ki, biz birlikdə – həm Britaniya tərəfi, həm də Azərbaycan tərəfi işlərimizin daha da sürətlənməsi üçün yaxşı əsas yaratdıq.

**M a l k o l m  R i f k i n d**: Cənab prezident, xüsusi məmnuniyyətlə qeyd etmək istəyirəm ki, ölkələrimiz arasında iqtisadi əməkdaşlıq çox uğurludur. Cənab Stiv Ramp bir neçə həftə bundan əvvəl burada olarkən biz onunla birlikdə «Muradxanlı» yatağına baş çəkdik. Mənə elə gəlir ki, cənab Rampın burada görülən işlər haqqında Sizə sözü vardır.

**S t i v  R a m p**: Cənab prezident, «Muradxanlı» yatağı barədə biz Sizinlə əvvəllər də söhbət etmişik. Mən yaxşı bilirəm ki, «Muradxanlı» yatağına tarixi baxımdan Sizin marağınız vardır. Azərbaycan Dövlət Neft Şirkətinin və «Ramko» şirkətinin iştirakı ilə «Muradxanlı» şirkəti yaradılmışdır.

Hazırda biz «Muradxanlı» yatağında birinci quyunun qazılması barədə tender keçiririk. Məqsəd ondan ibarətdir ki, bu ilin may, yaxud iyun ayında həmin quyunun qazılmasına başlayaq. Bu sahədə iş çox sürətlə gedir. Bu, «Ramko»nun iştirakı ilə Azərbaycanın qurudakı neft yatağında qazılan ilk quyudur. Daha vacib məsələ ondan ibarətdir ki, Azərbaycan Dövlət Neft Şirkəti ilə «Ramko» şirkəti arasında imzalanmış müqaviləyə əsasən «Muradxanlı» yatağında qazılan bu quyu qurudakı yataqdan Azərbaycana gəlir gətirəcək ilk quyu olacaqdır. [179-180]

Cənab prezident, mən yaxşı bilirəm ki, Azərbaycanda xarici şirkətlərə dost münasibəti yaradılmasına şəxsən Siz çox böyük əmək sərf etmisiniz. Mən əminəm ki, «Ramko»nun buradakı fəaliyyəti xarici şirkətlərin Azərbaycandakı işinə nümunə olacaqdır.

**H e y d ə r  Ə l i y e v**: «Muradxanlı» neft yatağı həqiqətən mənim üçün xüsusi əhəmiyyətə malikdir. Mən Azərbaycanda 1970-ci illərdə işlədiyim zaman «Muradxanlı»da neftin aşkar edilməsi və hasilatı bizim üçün böyük hadisə olmuşdu. Çünki əvvəllər belə bir fikir var idi ki, Azərbaycanda quruda – Abşeron yarımadasında və onun yaxınlığında olan Salyan, Neftçala, Əli Bayramlı, Şirvan bölgəsində neft var, başqa yerlərdə yoxdur. «Muradxanlı» yatağı fəaliyyətə başlayanda oradakı quyular çox yüksək miqdarda neft verirdi. Bu, bizi çox sevindirmişdi. Ancaq sonrakı illərdə bir sıra səhvlər olmuşdu, orada neft hasilatı aşağı düşmüşdü. Mən inanıram ki, həmin yataqda neft çoxdur. Siz bu yatağı çox düzgün seçmisiniz. Mən ümidvaram ki, biz birlikdə o yataqdan həm çox neft, həm də gəlir götürəcəyik. Sizin bu sahədəki işinizi həmişə dəstəkləyəcəyəm.

**M a l k o l m  R i f k i n d**: Cənab prezident, böyük məmnuniyyətlə qeyd etmək istəyirəm ki, ölkələrimiz arasında həm siyasi, həm də iqtisadi sahədə əməkdaşlıq yaxşı səviyyədədir. Mənə elə gəlir ki, Birləşmiş Krallıqda Azərbaycanı indi daha yaxşı anlayırlar. Cənab prezident, bu əməkdaşlığı daha da genişləndirmək üçün biz yeni yollar arayıb tapırıq.

---

* Görüşdə Böyük Britaniyanın keçmiş xarici işlər naziri Malkolm Rifkind, «Remko» şirkətinin prezidenti Stiv Ramp, «Remko» Kaspian şirkətinin prezidenti Mixail Qalkin və Böyük Britaniyanın ölkəmizdəki səfiri Deyvid Rocer Tomas iştirak edirdilər.

**H e y d ə r Ə l i y e v**: Bilirsiniz ki, Azərbaycan Böyük Britaniya ilə bütün sahələrdə əlaqələrini genişləndirmək istəyir. Ona görə də bu istiqamətdə görülən hər bir iş bizim üçün çox əhəmiyyətlidir. Londonda bəyan etdiyimiz kimi, bu, bizim imzaladığımız bəyannamədə də öz əksini tapıbdır ki, Böyük Britaniya ilə Azərbaycan arasında əlaqələr strateji əməkdaş[180-181]lıq xarakteri daşıyır. Bizim əlaqələrimiz adi iqtisadi əməkdaşlıq deyildir.

Biz bu sahədə üzərimizə götürdüyümüz bütün öhdəlikləri yerinə yetiririk və yetirəcəyik. Şübhəsiz ki, «Ramko» şirkəti ilə əməkdaşlıq da bizim bu böyük əməkdaşlığımızın mühüm bir hissəsidir.

Cənab Rifkind, xarici işlər naziri işlədiyiniz zaman da biz sizinlə yaxşı əməkdaşlıq etmişdik. «Ramko» şirkəti Azərbaycana birincilər sırasında gələn xarici şirkətlərdən biridir. «Ramko»nun respublikamızla əlaqələri artıq böyük sınaqlardan keçibdir. Güman edirəm ki, «Ramko» şirkəti ilə əlaqələrimizin yaxşı gələcəyi vardır. Bunları səfir də təsdiq edə bilər.

**S t i v R a m p**: Cənab prezident, cənab Rifkindlə birlikdə biz üç həftə bundan əvvəl Azərbaycana səfərə gəlmişdik. Biz Bakı–Supsa ilkin neft kəmərini də gördük. Deməliyəm ki, bu, çox gözəl bir layihədir. Aprel ayında bu layihə üzrə neftin ixracına başlanacaqdır. Biz xüsusilə burada görülən işin keyfiyyətinə valeh olduq.

**H e y d ə r Ə l i y e v**: Bəli, bu, əhəmiyyətli bir layihədir. Biz artıq aprel ayında neftin Supsa limanından tankerlərə doldurulmasını qeyd edəcəyik. Bilirsiniz ki, həmin boruya artıq neft doldurulubdur. İndi Gürcüstan yaxınlığında və Supsa limanında işlər başa çatmaq üzrədir. Həmin borunun işə başlaması böyük hadisə olacaqdır. Siz borunun çəkilişi işinin yüksək keyfiyyətdə olduğunu qeyd edirsiniz. Bu, məni sevindirir.

**S t i v R a m p**: Cənab prezident, bu boru kəmərinin daha böyük mənası vardır. Həmin kəmər həm də regional əməkdaşlıq – Gürcüstan ilə Azərbaycan arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün böyük əhəmiyyət daşıyır.

**H e y d ə r Ə l i y e v**: Bəli, bu kəmər bizim dostluğumuzun, əməkdaşlığımızın gələcək onilliklər üçün də əsasını qoyur. [181-182]

**S t i v R a m p**: Mənə elə gəlir ki, dünyanın bütün ölkələrindəki nüfuzlu investorlar bu uğurlu, gözəl regional əməkdaşlığı görüb buraya daha böyük maraq göstərəcəklər.

**H e y d ə r Ə l i y e v**: Mən də belə düşünürəm.

**S t i v R a m p**: Cənab prezident, onu da bildirmək istəyirəm ki, biz Tbilisidə olarkən Gürcüstan rəhbərliyi cənab Rifkinddən xahiş etdi ki, o, bu neft kəmərinə Qərbin münasibəti barədə televiziya vasitəsilə öz fikrini söyləsin. Mənim fikrimcə, cənab Rifkind Gürcüstan televiziyası ilə öz fikirlərini çox gözəl açıqladı.

**H e y d ə r Ə l i y e v**: Bu, Gürcüstan ictimaiyyəti üçün lazımdır. Çünki Bakı-Supsa neft kəmərinin tikilməsi Gürcüstanın iqtisadiyyatı və siyasi sabitliyi üçün çox əhəmiyyətlidir. Azərbaycan ilə Gürcüstan arasında isə çox yaxın dostluq əlaqələri vardır. Ona görə də bu kəmərin tikilməsi, şübhəsiz, həm bizim neftin ixracı üçün lazımdır, eyni zamanda, bizim Gürcüstana verdiyimiz dəstəkdir. Cənab Rifkindin Gürcüstan televiziyası ilə çıxışı, şübhəsiz ki, Gürcüstan ictimaiyyəti üçün çox əhəmiyyətli olubdur.

**S t i v R a m p**: Biz Gürcüstanda olanda mən cənab Şevardnadze ilə söhbət etdim və ona belə bir fikri çatdırdım ki, Qərbdə böyük neft kəməri ilə daha çox maraqlanırlar. İlkin neft kəməri barədə az adamın məlumatı vardır. Bakı-Supsa boru kəməri çox uğurlu bir işdir və bu barədə hamıya geniş məlumat çatdırmaq lazımdır.

**H e y d ə r Ə l i y e v**: Bəli, böyük neft kəməri hazır olana qədər biz Bakı Supsa boru kəməri ilə xeyli miqdarda neft ixrac edəcəyik. Onun ilkin tutumu 9-10 milyon tona qədərdir. Ona görə də bu kəmərin tikintisi çox əhəmiyyətlidir. Mən sizinlə şərikəm ki, bu kəmər barədə bütün dünyaya geniş məlumat çatdırmaq lazımdır. Supsada bu kəmərin təntənəli açılışı olacaqdır. Cənab Şevardnadze ilə biz nəzərdə tutmuşuq ki, oraya xarici ölkələrdən qonaqlar dəvət ediləcəkdir. [182]

**ÖZBƏKİSTAN RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB İSLAM KƏRİMOVA**

Hörmətli İslam Əbdüqəniyeviç, Daşkənd şəhərində törədilmiş amansız terror aktlarından çox narahat olmuş və hiddətlənmişəm.

Əminəm ki, bu cinayət əməllərinin təşkilatçıları və icraçıları öz çirkin məqsədlərinə – sabitliyi pozmaq, qardaş Özbəkistanı tutduğu yoldan dönməyə məcbur etmək məqsədlərinə nail ola bilməyəcəklər.

Hörmətli İslam Əbdüqəniyeviç, Sizi tam dəstəklədiyimi və Sizinlə həmrəy olduğumu bildirirəm.

Bütün özbək xalqına təmkin və mətanət arzulayıram.

Həlak olanların qohumlarına və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *17 fevral 1999-cu il*
[183]

**RUSİYA FEDERASİYASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB BORİS YELTSİNƏ**

Hörmətli Boris Nikolayeviç, Samara şəhərində baş vermiş böyük yanğın nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar Sizə, həlak olanların qohumlarına və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *17 fevral 1999-cu il*
[184]

## TÜRKİYƏNİN «MƏRMƏRƏ QRUPU» STRATEJİ VƏ SOSİAL ARAŞDIRMALAR VAKFININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*17 fevral 1999-cu il*

**H e y d ə r  Ə l i y e v**: Hörmətli qonaqlar, dostlar!

Siz Azərbaycana xoş gəlmisiniz, səfa gətirmisiniz. Mən «Mərmərə qrupu»nun böyük tərkibdə nümayəndə heyətini Azərbaycanda görməkdən çox məmnunam.

Keçən ilin oktyabr ayında sizin dəvətinizlə İstanbulda mən «Mərmərə qrupu»nun toplantısına gəldim.İlk dəfə sizinlə orada tanış oldum. Çox maraqlı söhbətimiz, danışıqlarımız oldu və beləliklə, «Mərmərə qrupu» ilə Azərbaycan arasında, Azərbaycanın prezidenti arasında gözəl bir ittifaq yarandı. Mən bundan çox məmnunam.

Ümumiyyətlə, «Mərmərə qrupu» ilə mənim, o cümlədən Azərbaycanın belə yaxından tanış olmasından çox məmnunam və hesab edirəm ki, bizim son zamanlar yaranmış bu əməkdaşlığımız həm «Mərmərə qrupu» üçün, həm də Azərbaycan üçün uğurlu və faydalı olacaqdır. Mən sizi ürəkdən salamlayıram və ümidvaram ki, Azərbaycanın paytaxtı Bakı ilə ilk tanışlığınız sizə yaxşı təsir bağışlayıbdır. Hər halda, ancaq mən belə düşünürəm. Mən sizi dinləməyə hazıram.

Mənim əmrim və tapşırığımla Azərbaycanın ticarət naziri sizinlə bərabər olubdur. Onun mənə verdiyi məlumata görə, sizin burada bizim nazirliklərdə, şirkətlərdə bir çox görüşləri[185-186]niz olubdur. Güman edirəm, hələ bu gün də görüşləri davam etdirə biləcəksiniz. Arzu edirəm ki, bu səfəriniz sizin üçün də, bizim üçün də yaxşı nəticələrə səbəb olsun. Mən sizi bir daha salamlayıram.

**A k k a n  S u v e r** («*Mərmərə qrupu» Strateji və Sosial Araşdırmalar Vakfının baş direktoru*): Çox hörmətli prezidentimiz!

Əziz şərəf başqanımız!

Bizi qəbul etməyinizdən çox şərəf duyuruq və sevincimizin həddi-hüdudu yoxdur. Ötən il oktyabr ayının 30-da Siz bizi İstanbulda ziyarət edərək şərəfləndirmisiniz. Həmin gün söylədiyiniz möhtəşəm nitqinizdə bizimlə bərabər olmağınızı izhar etmişdiniz. Bunlara görə Sizə minnətdarıq. «Mərmərə qrupu» Sizin yüksək fəaliyyətinizi, böyüklüyünüzü və xidmətlərinizi qiymətləndirərək heyətimizin toplantısında zatialilərinizi qrupumuzun şərəf başqanı – fəxri sədri seçmişdir.

Ölkəmizdə Azərbaycan və Türkiyə əlaqələrində yeni bir dövrün, yeni bir inkişafın başlanğıcına inam vardır. Onu da söyləməliyəm ki, Türkiyə Cümhuriyyətinin başçısı Süleyman Dəmirəl də Sizin şərəf başqanlığına layiq görülməyinizdən böyük sevinc hissi duymuşdur.

Cənab prezident, icazə verin Türkiyə prezidenti Süleyman Dəmirəlin şəxsi məktubunu, «Mərmərə qrupu» Strateji və Sosial Araşdırmalar Vakfının «Şərəf başqanlığı»nın sənədini, plaketini, vakfın qızıl döş nişanını və qalstuk sancağını Sizə təqdim edim.

Cənab prezident, ayrıca olaraq Sizə bir hədiyyəmiz də vardır. Ötən ilin oktyabrında İstanbulda bizimlə görüşdə söylədiyiniz nitqin mətnini türkcə və azərbaycanca kitab şəklində çap etmişik. İcazənizlə, mən həmin kitabı böyük məmnuniyyətlə Sizə təqdim edirəm.

Türkiyə ilə Azərbaycanın «bir millət, iki dövlət» olduğunu bir daha vurğulayıram. [186-187]

Biz böyük tərkibdə nümayəndə heyəti ilə və Türkiyənin tanınmış doqquz iş adamı ilə Sizin görüşünüzə gəlmişik. Onlar Bakıda iş birliyi yaratmaq istəyirlər.

Cənab prezident, artıq arxada qalmış 1998-ci ildə Sizin 75 yaşınız tamam oldu. Bu il noyabrın 1-də isə hörmətli Süleyman Dəmirəlin 75 yaşı tamam olacaqdır. Biz «Mərmərə qrupu» olaraq prezident Süleyman Dəmirəlin yubileyi ilə əlaqədar İstanbulda beynəlxalq simpozium keçirmək istəyirik. Bu simpoziumu aparmaq şərəfini cənab Süleyman Dəmirəl vakfımıza həvalə etmişdir. Zati-aliləri, dünyanın bir çox ölkələrindən tanınmış siyasət və dövlət adamlarının iştirak edəcəyi bu simpoziumu Sizin idarə etməyinizi arzulayırıq. Bizim bu istəyimizi qəbul etsəniz, çox məmnun olacağıq. Sizə uzun ömür, cansağlığı, hörmət və ehtiramımızı bildiririk.

Mən PKK lideri Abdullah Öcalanın tutulub Türkiyəyə gətirilməsini də xatırlatmaq istəyirəm və bu münasibətlə Türkiyənin Bakıdakı səfirliyinə göndərilən təbrik teleqramlarına görə Azərbaycan xalqına minnətdarlığımı bildirirəm.

**H e y d ə r  Ə l i y e v**: Əziz dostum, qardaşım!

Sizin bu atəşin, çox hərarətli və çox səmimi nitqinizə görə təşəkkür edirəm. Siz bu gün mənə çox diqqət göstərirsiniz və böyük şərəf verirsiniz. Təşəkkür edirəm ki, «Mərmərə qrupu» məni vakfın şərəf başqanlığı kimi şərəfli bir ada layiq görübdür. Bu münasibətlə mən sizə təşəkkür edirəm. Sizin hazırladığınız «Şərəf başqanlığı» haqqındakı sənədi, plaketinizi, həmçinin kitabınızı qəbul etdim və çalışacağam ki, mənə gös-

tərdiyiniz bu böyük etimadı gələcəkdə Azərbaycan ilə «Mərmərə qrupu» arasındakı əməkdaşlıqla doğruldum. Buna əmin ola bilərsiniz.

Siz bu gün mənə başqa hədiyyələr də verdiniz. Bunların hamısına görə sizə təşəkkür edirəm. Bir daha bildirmək istəyirəm ki, «Mərmərə qrupu» ilə Azərbaycan arasında yaranmış [187-188] bu əlaqələr bizim üçün çox qiymətlidir, əzizdir və bu əlaqələrin inkişaf etməsi üçün mən bundan sonra da çalışacağam.

Mən böyük məmnuniyyətlə əziz dostum, qardaşım, Türkiyə Cümhuriyyətinin prezidenti, cümhur başqanı Süleyman Dəmirəlin məktubunu sizdən qəbul etdim. Bu, mənim üçün çox əzizdir, çox qiymətlidir. Buna görə də sizə təşəkkür edirəm və hörmətli cənab Süleyman Dəmirələ bu məktubla əlaqədar cavab məktubu göndərəcəyəm. Təşəkkür edirəm.

Burada sizinlə bir heyətdə olan iş adamlarını mənə təqdim etdiniz. Mən İstanbulda sizinlə görüşəndə də dedim ki, biz Azərbaycanın qapılarını dünyaya açmışıq. Biz son illər bazar iqtisadiyyatı yolu ilə gedirik, sərbəst iqtisadiyyat yolu ilə gedirik. Ancaq hələ inkişafın ilk mərhələsindəyik. Doğrudur, təxminən son dörd il içərisində Azərbaycana sərmayə, xarici investisiya, yatırım axını çox böyükdür. Ancaq bizim imkanlarımıza görə daha da çox olmalıdır.

Bilirsiniz ki, biz 1994-cü ilin sentyabr ayında dünyada məşhur olmuş «Əsrin müqaviləsi» adlanan sənəd – dünyanın böyük neft şirkətləri ilə Azərbaycan arasında bir müqavilə imzaladıq. Bu, Azərbaycanın Xəzər dənizində olan neft yataqlarının müştərək işlənilməsi ilə əlaqədarlır. O konsorsiuma dünyanın 11 böyük şirkəti daxildir. Artıq biz o müqaviləni həyata keçiririk və bilirsiniz ki, 1997-ci il oktyabr ayının 12-də ilkin neftin alınmasını böyük bayram kimi qeyd etdik. Bu bayramda Türkiyə Cümhuriyyətinin Baş naziri hörmətli Məsud Yılmaz da iştirak edirdi. Bir çox ölkələrdən yüksək səviyyəli nümayəndələr gəlmişdi. İndi artıq o neft dünya bazarına çıxarılır. Bakı -Novorossiysk boru xətti ilə Qara dənizdə Rusiyanın limanı olan Novorossiysk limanına çıxarılır və oradan isə ixrac olunur. Bu, bizim işimizin başlanğıcıdır. Ancaq eyni zamanda biz yeni bir xətt, Bakı–Supsa boru xətti –Gürcüstanın Qara dənizdə olan Supsa limanınadək boru xətti tikirik. Artıq bu hazırdır və aprel ayında biz neftin Qara də[188-189]nizdən tankerlərlə çıxmasını qeyd edəcəyik. Güman edirəm ki, oraya bir çox dövlətlərdən, o cümlədən Türkiyədən böyük nümayəndə heyətləri gələcəkdir. Ancaq bunlar bizim gördüyümüz bu işlərin birinci mərhələsidir.

Ən böyük iş odur ki, biz keçən il oktyabr ayının 29-da Ankarada Bakı–Ceyhan boru xəttinin yaranması üçün nəhayət, böyük bir bəyannamə imzaladıq. Bu bəyannaməni imzalayan Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan, Özbəkistan cümhuriyyətləri oldu və bu bəyannamə ilə biz Bakı–Ceyhan boru xəttinin yaranmasının əsasını qoyduq. Bilirsiniz ki, son üç-dörd ildə Bakı–Ceyhan boru xətti haqqında dunyada çox mübahisələr gedir. Bir çox ölkələr bunun yaranmasını istəmirlər, onun əleyhinə çıxırlar. Ancaq biz 1994-cü ildə bunu bəyan etmişdik və bütün ötən illərdə ardıcıl olaraq öz siyasətimizi apardıq. Nəhayət, keçən ilin oktyabr ayında Ankarada bu bəyannaməni imzaladıq. İndi bu məsələnin texniki, iqtisadi məsələləri həll olunur və hesab edirəm ki, artıq biz Bakı-Ceyhan boru xəttini də tikəcəyik. Buna böyük ehtiyac vardır. Çünki Azərbaycan son dörd il içərisində Xəzər dənizində olan neft-qaz yataqları ilə əlaqədar 15 müqavilə imzalayıbdır. Bu müqavilələr əsasında Azərbaycana xarici neft şirkətləri tərəfindən 40 milyard dollar həcmində sərmayə qoyuluşu nəzərdə tutulubdur.

Birinci müqavilə, 1994-cü ildə bağlanmış müqavilə üzrə nəzərdə tutulur ki, biz «Azəri», «Çıraq» və «Cünəşli» yataqlarından 630 milyon ton neft çıxaracağıq. İndi təsəvvür edin, bu, birinci müqavilədəndir. Görün, hər bir müqavilədən nə qədər çox neft alınacaqdır.

Məsələn, keçən ilin yayında mən Londona, Böyük Britaniyaya səfərim zamanı orada İngiltərənin, Amerikanın şirkətləri ilə bir çox müqavilələr imzaladıq. Hətta ötən ilin sonunda biz Yaponiyanın dörd şirkəti ilə böyük bir müqavilə imzaladıq. Doğrudur, Yaponiya şirkətləri bizə hələ 1997-ci ildə müraciət [189-190] etmişdilər. 1998-ci ilin fevral ayında, yəni bir il bundan öncə mənim Yaponiyaya rəsmi səfərim zamanı onlar çox xahiş etdilər ki, biz bu müqaviləni imzalayaq. Ancaq biz bu məsələləri bir az da araşdırmalıydıq. Nəhayət, araşdırdıq və keçən ilin sonunda Yaponiya şirkətləri ilə müqavilələr imzaladıq.

Beləliklə, gələcəkdə Xəzər dənizinin yalnız Azərbaycan sektorundan külli miqdarda, olduqca çox neft və qaz çıxacaqdır. Bunların dünya bazarına çıxarılması lazımdır və bu baxımdan Bakı–Ceyhan boru xətti çox vacibdir, əhəmiyyətlidir.

Ancaq biz Xəzər dənizini dünyaya açdıq. İndi Xəzər dənizinin Qazaxıstan sektorunda, Türkmənistan sektorunda da artıq bu işlərə başlanıbdır. Qazaxıstanın ərazisində quruda da onlar neft çıxarırlar. Onu yenə də bu yol ilə, bu boru xətti ilə ixrac etmək arzusundadırlar. Ona görə də Bakı–Ceyhan boru xəttinin çox böyük əhəmiyyəti vardır.

Bu gün bir xoş xəbər deyə bilərəm. Biz keçən ilin oktyabr ayında Ankarada olarkən Türkmənistan prezidentini də Bakı - Ceyhan boru xəttinin bəyannaməsini imzalamağa dəvət etdik. Ancaq o, bəzi səbəblərdən onu imzalamadı. Eyni də, həmin gün Ankarada Türkmənistanın cümhur başqanı ilə Türkiyənin cümhur başqanı Türkmənistan qazının Xəzər dənizindən, Azərbaycan ərazisindən keçməklə Türkiyəyə verilməsi haqqında bir bəyannamə, anlaşma imzaladılar. Bu, çox vacib bir anlaşmadır və mən dünən bu qaz borusunun Türkmənistandan Xəzər dənizi ilə Azərbaycan ərazisindən Türkiyəyə keçməsi ilə əlaqədar böyük bir şirkətin rəhbərlərini qəbul etdim. Onlar artıq Türkmənistanda bu məsələni araşdırıblar və bu boru xəttinin inşasına başlamaq istəyirlər. İndi Azərbaycanın razılığını almaq istəyirlər. Bundan bir neçə

gün öncə Türkmənistanın cümhur başqanı, hörmətli Niyazovun bu barədə mənə müraciət məktubu olmuşdu. Mən dünən bu məsələni onlarla müzakirə etdim və razılıq verdim ki, Türkmənistan qazı Xəzər dənizi vasitəsilə Azərbaycandan [190-191] Türkiyəyə getsin. Bu da çox böyük əhəmiyyətli işdir. Burada təkcə Türkmənistan qazının Türkiyəyə getməsi yox, dünya bazarına çıxması məsələsi durur. Bu layihənin dəyəri təxminən 3 milyard dollardır. Bu da böyük hadisədir. Çünki indi biz Bakı - Ceyhan kəmərini neft üçün edirik.

Bununla bərabər, qaz üçün Türkmənistandan belə bir boru xəttinin keçməsi Orta Asiya ilə Qafqazı, Azərbaycanı və Türkiyəni iqtisadi cəhətdən çox birləşdirir.

Beləliklə Azərbaycana, Azərbaycanın ətrafında olan ölkələrə sərmayələr gəlir. Bu da, şübhəsiz ki, Azərbaycanın iqtisadiyyatına çox böyük imkanlar yaradır. Ancaq eyni zamanda biz bütün başqa sahələrə də sərmayələrin gəlməsini arzu edirik. Bu baxımdan sizin təşəbbüsünüzü, böyük bir heyətlə Azərbaycana gəlməyinizi və «Mərmərə qrupu» ilə bərabər iş adamlarının Azərbaycana gəlməsini məmnuniyyətlə qarşılayıram, qiymətləndirirəm. Əmin ola bilərsiniz ki, Azərbaycanda müştərək iş görmək üçün, sərmayə qoymaq üçün, fayda götürmək üçün imkanlar çoxdur.

Azərbaycanın iqtisadiyyatı çoxsahəlidir – həm sənaye, həm kənd təsərrüfatı, həm infrastruktur və bütün başqa sahələr. Azərbaycan bu barədə çox zəngindir. Keçmişdə, Sovetlər İttifaqı zamanı bizim çox inkişaf etmiş sənayemiz olubdur. İndi bizim çoxlu zavodlarımız, fabriklərimiz var. Onlar əvvəlki gücü ilə işləmirlər. Çünki bunların Sovet İttifaqı zamanı istehsal etdiyi məhsulları indi biz sata bilmirik, onların məhsul istehsal etməsi üçün xammal ala bilmirik. Çünki bunlar hamısı keçmiş Sovetlər İttifaqının, Rusiyanın və başqa cümhuriyyətlərin iqtisadiyyatı ilə bağlıdır. İndi orada da buna ehtiyac yoxdur və bazarda da ehtiyac yoxdur.

Amma böyük istehsal sahələrimiz vardır. Məsələn, ağır sənaye – metallurgiya, maşınqayırma sənayesi, yüngül sənaye – toxuculuq, ayaqqabı və başqa sənaye sahələri. Bunlar çoxdur. İndi biz bunları özəlləşdiririk. Özəlləşdirmə prosesində [191-192] xarici şirkətlər də iştirak edə bilərlər. Ona görə də mən bunu sizə təqdim edirəm.

Mənə dedilər ki, dünən siz bizim Əmlak Komitəsində görüşlər keçirmisiniz, orada sizə bilgilər, məlumatlar veriblər. Türkiyənin iş adamları Azərbaycanda özəlləşmədə iştirak edə bilərlər. Yaxud, başqa bir istehsal sahələrinin, iş sahələrinin yaranmasında iştirak edə bilərlər. Mən sözümün əvvəlində də dedim ki, Azərbaycan qapılarını bütün dünyaya açıbdır. Bizim qanunlarımız həm iş görmək üçün, həm də fayda götürmək üçün şərait yaradır.

Mənə bildirdilər ki, bizim qanunlarımız toplu şəklində sizə verilibdir. Ancaq bu qanunlar da təkmilləşir. Məsələn, biz iki, üç il bundan öncə qəbul etdiyimiz qanunları təkmilləşdiririk. Təkmilləşdirmə də iqtisadiyyatın daha da sərbəstləşdirilməsi istiqamətində gedir. Yəni biz iqtisadiyyatı daha da sərbəst, açıq etmək istəyirik. Ona görə mən bunları sizə təqdim edirəm. Siz harada iş görə bilərsinizsə, buyurun, orada iş görün. Mən isə sizə bu barədə yardımçı olacağam, sizə qarant olacağam ki, burada gördüyünüz iş yaxşı nəticə versin və hər iki tərəf üçün mənfəət versin.

Nəhayət, hörmətli dostum, siz mənə bildirdiniz ki, dostum, qardaşım Süleyman Dəmirəlin bu il noyabr ayının 1-də 75 yaşı tamam olur. Mən bunu yaxşı bilirəm və şübhəsiz ki, siz dəvət etsəniz də, etməsəniz də bu mərasimdə iştirak edəcəyəm. Mən noyabr ayının 1-də Türkiyədə dostum Süleyman Dəmirəlin yanında olacağam. Ancaq siz bir simpozium yapmaq istəyirsiniz. Bu da çox önəmli bir işdir. Mən buna da etiraz etmirəm. Siz dediyiniz kimi, əgər simpoziumda başqanlığı da mənə etimad etmək istəyirsinizsə, mən çalışacağam ki, bu şərəfli vəzifəni də yerinə yetirim. Ona görə əmin ola bilərsiniz ki, biz həmin gün, cənab Süleyman Dəmirəlin doğum günü bir yerdə olacağıq və dostum Süleyman Dəmirəl, siz, yaxud [192-193] başqaları hansı proqram təklif etsələr, o proqramların hamısına qatılacağam, hamısının iştirakçısı olacağam.

Bilməlisiniz ki, Türkiyənin hörmətli cümhur başqanı, prezidenti Süleyman Dəmirəl Azərbaycanda xüsusi hörmətə, böyük hörmətə malikdir. Xalq onu çox sevir. Azərbaycanda xalq hörmətli Süleyman Dəmirəli Türkiyə xalqından bəlkə də çox sevir. Bunu bilməlisiniz. Bunun da səbəbləri vardır. Çünki hörmətli Süleyman Dəmirəl Azərbaycana həmişə qayğı, diqqət göstəribdir.

Məsələn, hələ Sovetlər Birliyi zamanı, Türkiyə ilə Sovetlər Birliyi arasında əlaqələr çox zəif olduğu bir zaman, 1968-ci ildə hörmətli Süleyman Dəmirəl ilk dəfə Türkiyənin Baş bakanı vəzifəsinə seçiləndən sonra Sovetlər Birliyini rəsmi ziyarətə gəlmişdi. O zaman cənab Süleyman Dəmirəl Moskvadan əlavə, Azərbaycana da gəlməyi qərarlaşdırmışdı və ilk dəfə biz onu Azərbaycanda qəbul etdik. Mən onunla 30 il bundan öncə görüşmüşəm və o vaxtdan bizim dostluğumuz davam edir. Amma o səfərin qiyməti çox böyükdür. Çünki əgər o vaxt tarixdə ilk dəfə Türkiyənin Baş naziri Sovetlər İttifaqını ziyarətə gəlmişdisə və ziyarət proqramında Azərbaycana gəlmək arzusu olmuşdusa, demək, onun Azərbaycana nə qədər qayğısı, diqqəti vardır, nə qədər gözəl münasibəti vardır. Biz bu münasibəti o vaxt gördük. Mən 1968-ci ildə hörmətli Süleyman Dəmirəlin Bakıya ziyarəti zamanı onunla bir yerdə olmuşam. O vaxtdan bizim şəxsi dostluğumuz yaranıbdır. Ancaq Azərbaycan müstəqilliyini əldə edən zaman da hörmətli Süleyman Dəmirəl ölkəmizə çox qayğı, diqqət göstərib və Azərbaycanın müstəqilliyini dünya dövlətləri içərisində ilk dəfə Türkiyə tanıyıbdır. Bunun da təşəbbüskarı hörmətli Süleyman Dəmirəldir.

Bilirsiniz ki, ondan sonrakı dövrdə Azərbaycanda çox ağır proseslər olubdur. Müstəqil dövlət yaranan zaman Azərbaycan Ermənistanın təcavüzünə məruz qalmışdır. Azərbaycan [193-194] torpaqlarının bir qismi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuşdur. Azərbaycan çox ağır problemlərlə rastlaşmışdır. 1993-cü ildə Azərbaycanda vətəndaş savaşı oldu. Burada hakimiyyət devrilməsi halları oldu. Cənab Süleyman Dəmirəl o zaman da Azərbaycana diqqət, qayğı göstərmişdir.

Sonra Azərbaycanın Ermənistanla olan münaqişəsində problemlərin çözülməsi ilə əlaqədar Türkiyə Cümhuriyyəti, onun hökuməti, Türkiyə xalqı və xüsusən hörmətli Süleyman Dəmirəl həmişə bizimlə bərabər olmuşdur. O, beynəlxalq görüşlərdə, toplantılarda həmişə Azərbaycanın mövqeyini müdafiə etmişdir. Bunların hamısına görə hörmətli Süleyman Dəmirəl Azərbaycanda çox əziz və dəyərli bir insandır. Azərbaycan xalqı ona çox böyük hörmət edir. Mənim şəxsi hörmətim, Azərbaycan xalqının hörməti – hamısı birlikdə ona dəlalət edir ki, biz noyabrın 1-də bir yerdə olacağıq. Mən sizə təşəkkür edirəm. Mənə sözünüz, sualınız varsa, buyurun.

**Akkan Suver**: Hörmətli cənab prezident. Biz Bakı Dövlət Universitetini ziyarət etdik. Orada Süleyman Dəmirəli sevənlər cəmiyyəti təsis olunmuşdur. Bu bizi çox məmnun etdi. Mənə həmin cəmiyyətin sənədi təqdim olundu. Əlbəttə, mən bu sənədi böyük məmnuniyyətlə dövlətimizin prezidenti möhtərəm Süleyman Dəmirələ çatdıracağam. Yeri gəlmişkən, məni bu görüşdə müşayiət edən dost Azərbaycanın dövlət və hökumət nümayəndələrinə dərin minnətdarlıq bildirməyi özümə borc bilirəm.

**Halid Harin** (*«Harin tekstil» şirkətinin sahibi):* Çox möhtərəm cənab prezident! Mən Bakıya, Azərbaycana gəlməyimdən böyük şərəf duyuram. Sizin gərgin əməyiniz, böyük işləriniz sayəsində Türkiyə ilə Azərbaycan arasında olan dostluq günü-gündən daha da möhkəmlənir. Bu işdə Türkiyə prezidenti cənab Süleyman Dəmirəlin də rolu olduqca böyükdür. Mən inanıram ki, Türkiyə - Azərbaycan dostluğunun inkişafı bizim iş birliyimizi daha da genişləndirəcək. [194-195]

**Şahab Kocamonçu** (*Türkiyənin keçmiş səhiyyə naziri):* Hörmətli cənab prezident! Azərbaycan prezidenti kimi Sizin, Türkiyə prezidenti kimi cənab Süleyman Dəmirəlin ölkələrimiz arasındakı mədəni və iqtisadi əlaqələrin daha da inkişafı naminə atdığınız addımlar qardaş Azərbaycana sərmayə qoymaq imkanlarını çox genişləndirir. Mən hesab edirəm ki, Azərbaycanla işbirliyi yaratmaq böyük fayda verəcəkdir. İcazə verin Sizə dərin hörmət və ehtiramımı bildirməklə yanaşı, Azərbaycana gəlməyimdən məmnunluq duyduğumu, Azərbaycana daim kömək edəcəyimi xüsusi qeyd edim.

**Oqan Soysal** (*Türkiyənin keçmiş millət vəkili*): Möhtərəm cənab prezident! Mən hal-hazırda Amerika Birləşmiş Ştatlarında türk lobbiçiliyi ilə bağlı fəaliyyət göstərirəm. İşimiz çox gərgin və əlbəttə ki, faydalıdır.

Siz bilirsiniz ki, Amerikada güclü erməni lobbisi vardır. Mən də öz fəaliyyətimdə onlara qarşı aktiv mübarizə yolunu seçmişəm və bu işdə əlimdən gələni, bacardığımı etməyə cəhd göstərirəm. Hörmətli cənab prezident, hamıya və ilk növbədə Sizə təşəkkür edirəm. İcazə verin fürsətdən istifadə edib öz şəxsi məktubumu da Sizə çatdırım. Bir daha çox sağ ol deməyi özümə şərəf və borc bilirəm.

**Heydər Əliyev**: Hörmətli dostlar, çox sağ olun. Bizim bugünkü görüşümüz təkcə «Mərmərə qrupu» ilə Azərbaycan prezidentinin görüşü deyildir. Bu, Türkiyə – Azərbaycan dostluğunu nümayiş etdirən bir görüşdür. Türkiyə ilə Azərbaycan arasında bütün sahələrdə əlaqələrə biz Azərbaycanda xüsusi fikir veririk. Bu, bizim üçün üstün xarakter daşıyır və hər gün, hər an bu dostluq, əməkdaşlıq əlaqələrini irəli aparmağa, yüksəklərə qaldırmağa, inkişaf etdirməyə çalışırıq. Bugünkü görüş də bu istiqamətdə, bu yolda böyük bir addımdır. Mən sizi əmin etmək istəyirəm ki, Azərbaycan Türkiyə ilə dostluq, qardaşlıq əlaqələrinə həmişə sadiq olacaqdır. Biz gələcəyimizin çoxunu bu əməkdaşlıqda, dostluqda görürük. [195-196] Əmin ola bilərsiniz ki, Azərbaycan sizin doğma evinizdir, doğma məmləkətinizdir. Siz özünüz bildirdiniz ki, burada sərbəst danışırsınız. Hansı bir ölkəyə getsəniz, siz öz dilinizdə, yəni türk dilində Azərbaycanda olduğu kimi danışa bilməzsiniz. Yaxud, hansısa başqa bir ölkədə danışıqları Azərbaycanda olduğu kimi anlaya bilməzsiniz. Başqa türkdilli dövlətlər də vardır, onlar da bizim üçün əzizdir. Amma dil fərqi böyükdür. Ancaq Türkiyədə olan türklər üçün, Azərbaycanda olan türklər, azərbaycanlılar üçün arada heç bir sədd, sərhəd yoxdur. Biz sərbəst danışırıq, fikrimizi deyirik. Eyni sözlərdir, eyni cümlələrdir, eyni adət-ənənələrdir, eyni yeməklərdir – hamısı eynidir. Ona görə də bizim dostluğumuzun əsası, təməli böyükdür. Biz Azərbaycanda çalışırıq və çalışacağıq ki, bu dostluğu irəli aparaq. Sizinlə bizim əlaqələrimiz bu istiqamətdə işə çox yardım edəcəkdir.

Mən sizə bu ziyarətinizə görə bir daha təşəkkür edirəm. Sizin hər birinizə cansağlığı, işlərinizdə uğurlar arzulayıram. Türk xalqına, Türkiyə Cümhuriyyətinə səadət, xoşbəxtlik, yeni-yeni uğurlar arzulayıram. Sağ olun. [196]

## XALQ ARTİSTİ SÜLEYMAN ƏLƏSGƏROVA

Hörmətli Süleyman Ələsgərov!

Sizi – Azərbaycan musiqi mədəniyyətinin görkəmli nümayəndəsini 75 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Siz milli musiqi sənətimizin inkişafında böyük xidmətlər göstərərək xalqımızın dərin ehtiram və məhəbbətini qazanmış sənətkarlardansınız. Tükənməz xalq musiqisindən bəhrələnən yaradıcılığınız rəngarəngliyi, forma aydınlığı, musiqi dilinin səlisliyi ilə səciyyələnir. Müxtəlif janrlarda bəstələdiyiniz əsərlər son əlli il ərzində respublikanın mədəni həyatında mühüm rol oynayaraq milli musiqi sənəti tarixinə parlaq səhifələr yazmışdır.

Əsası dahi Üzeyir Hacıbəyov tərəfindən qoyulmuş musiqili komediya janrı yaradıcılığınızda əsas yer tutur. Bu janrın inkişafında əvəzsiz rol oynamış çoxsaylı operettalarınızın hər biri respublikamızda layiqincə qiymətləndirilmiş və yeni-yeni ifaçılar nəslinin yetişməsinə təkan verməklə musiqimizin inkişafı işinə xidmət etmişdir.

Siz ölkəmizdə yüzlərlə mahnı və romansın müəllifi kimi də şöhrət qazanmısınız. Xalq musiqisi intonasiyaları ilə sıx bağlı olan vokal əsərləriniz insanlara vətən sevgisi, mənəvi saflıq, incə duyğular aşılayır. Opera, simfoniya və süitalarınız, xor, instrumental və kamera əsərləriniz böyük istedadınızın ayrı-ayrı çalarlarını nümayiş etdirən gözəl sənət nümunələridir.

Respublikada peşəkar musiqi kadrlarının hazırlanmasında da sizin böyük xidmətləriniz vardır. Məhz bu iş musiqi məktəbinin direktoru, xalq çalğı alətləri orkestrinin dirijoru, musiqili komediya teatrının direktoru, baş dirijoru kimi vəzifələrdə işlədiyiniz illərdə fəaliyyətinizin əsas istiqamətlərindən [197-198] birini təşkil etmişdir. Uzun müddətdir ki, Bakı Musiqi Akademiyasının professoru kimi sənətkarlar nəslinin yetişdirilməsi sahəsində səmərəli iş aparırsınız.

İnanıram ki, musiqi mədəniyyətimizin daha da inkişaf etdirilməsi üçün zəngin təcrübənizi və bacarığınızı bundan sonra da sərf edəcək və sənətinizin pərəstişkarlarına yeni musiqi töhfələri bəxş edəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *21 fevral 1999-cu il*
[198]

## ABŞ PREZİDENTİ BİLL KLİNTONUN XƏZƏRYANI BÖLGƏ ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ SƏFİR RİÇARD MORNİNQSTARLA GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*22 fevral 1999-cu il*

**H e y d ə r Ə l i y e v**: Hörmətli səfir, sizi səmimi qəlbdən salamlayıram və Azərbaycanda yenidən görməyimdən çox məmnunam. Bu, bir daha onu göstərir ki, bizim işlərimiz sürətlə davam edir. Mən sizinlə yenidən görüşməyimi çox əhəmiyyətli hesab edirəm. Güman edirəm ki, ötən bir ildə gördüyümüz işlər haqqında sizdə çox dəyərli məlumatlar vardır. Şübhəsiz ki, bu barədə fikir mübadiləsi aparmağa ehtiyac vardır.

Azərbaycanda bir məsəl var, bir məsələ həll olunanda və yaxud iş yaxşı, uğurla gedəndə deyirlər ki, «kiminsə ayağı düşür». Cənab Morninqstar, siz Amerika Birləşmiş Ştatları prezidentinin Xəzəryanı bölgə üzrə xüsusi səlahiyyətli nümayəndəsi, səfir təyin olunandan sonra bu işlərdə və xüsusən boru kəmərlərinin çəkilməsində yeni bir mərhələ başlayıbdır. Ona görə də mən deyirəm ki, sizin ayağınız düşübdür. Güman edirəm ki, biz bundan sonra da bu işdə uğurla irəli gedəcəyik.

Səmimi sözlərə və gözəl şərhlərə görə Sizə minnətdarlığımı bildirirəm.

**R i ç a r d M o r n i n q s t a r**: Cənab prezident, Sizi yenidən görmək mənim üçün çox gözəl hadisədir. Çox şadam ki, Sizi yenidən görürəm. Deməliyəm ki, son müddətdə bu, mə[199-200]nim Azərbaycana beşinci səfərimdir. Birinci səfərimdən sonra biz çoxlu tərəqqi əldə etmişik. Mən çox şadam ki, bu səfərim zamanı Sizi gözəl səhhətdə görürəm. Çox şadam ki, Siz gözəl müalicə keçmisiniz.

**H e y d ə r Ə l i y e v**: Sağ olun, təşəkkür edirəm. Mən heç vaxt xəstə olmamışam. Amma xırda bir xəstəliyim, görürəm ki, çox narahatlıq doğurur. Ancaq indi hər şey çox yaxşıdır. Bu sözlərə görə sizə təşəkkür edirəm.

**R i ç a r d M o r n i n q s t a r**: Cənab prezident, bu gün mən eyni zamanda, xüsusi məmnuniyyət duyuram ki, enerji naziri cənab Riçardsonun məktubunu Sizə çatdırmaq istəyirəm. Əslində bu, əvvəlcədən imzalanmış məktubun davamıdır.

**H e y d ə r Ə l i y e v**: Məktuba görə təşəkkürümü bildirirəm. Mən cənab Riçardsonun məktubunu diqqətlə oxuyaram və öz mülahizələrimi bildirərəm. Bilirsiniz ki, mən cənab Riçardsonu Azərbaycana dəvət etmişəm. O, mənə son dəfə göndərdiyi məktubda bildirmişdir ki, respublikamıza səfərə gəlməyə hazırlaşır.

**R i ç a r d M o r n i n q s t a r**: Cənab prezident, bu məktubda da həmin məsələyə toxunulubdur. Mən buraya gələndə o bildirdi ki, iyun ayında Azərbaycana gəlməyə çox ümid edir. O həm də ümid edir ki, bu səfəri zamanı Azərbaycan ilə Türkmənistan arasında sərhəd məsələsinə dair sənədə də imza atılacaqdır. Hesab edirəm ki, bir qədər sonra biz bu məsələnin bütün detalları barədə söhbət edə bilərik.

Bugünkü görüş zamanı mən üç mövzuya toxunmaq istərdim. Birinci məsələ mənim Türkmənistana keçən həftəki səfərim barədədir. Həmin səfərim zamanı Türkmənistan ilə «Pİ-ES-Cİ» qrupu arasında Transxəzər boru xətti haqqında sənədə imza atıldı.

İkinci mövzu sərhəd məsələsində bizim vasitəçilik fəaliyyətimiz ilə əlaqədardır. Üçüncüsü isə Bakı–Ceyhan boru kəməri layihəsi üzrə əldə etdiyimiz tərəqqi ilə bağlıdır. [200-201]

Mən bu gün səhər Natiq Əliyevlə və Valeh Ələsgərovla görüşmüşəm. Bu, iki saata qədər davam edən çox gözəl bir görüş idi. Mənə elə gəlir ki, biz bu gün bütün məsələlər üzrə razılığa gələ bildik.

Mənim Türkmənistana səfərim çox yaxşı bir səfər idi. Ona görə ki, prezident Niyazov Transxəzər boru kəməri layihəsinə öz dəstəyini bildirdi. Mən bilirəm ki, Türkmənistan prezidentinin nümayəndələrinin buraya səfəri zamanı Siz də bu məsələyə öz dəstəyinizi vermisiniz. Buna görə mən Sizə minnətdarlığımı bildirirəm. Türkmənistana səfərim zamanı sərhəd məsələlərini müzakirə edərkən mən gördüm ki, cənab Niyazov bu məsələni dərindən anlamağa başlamışdır.

**H e y d ə r Ə l i y e v**: Mənə məlumat veriblər ki, siz bu gün Azərbaycan Dövlət Neft Şirkətində məsələlərin hamısını ətraflı müzakirə etmisiniz. Birincisi, onu qeyd etmək istəyirəm ki, Ankara bəyannaməsi imzalanandan sonra Bakı - Ceyhan boru xəttinin tikilməsi üçün hazırlıq işləri görülməsində biz xeyli irəli getmişik.

Bilirsiniz ki, Azərbaycan Dövlət Neft Şirkəti ilə Türkiyə nümayəndə heyəti arasında bir neçə görüş olmuşdur. Bakı - Ceyhan boru kəmərinin tikilməsi üçün lazım olan sənədlər, layihələr hazırlanıbdır. Mənə verilən məlumata görə, həmin məsələlərin bəziləri Türkiyə hökuməti ilə razılaşdırılmalıdır. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin mövqeyində də müəyyən dəyişikliklər müşahidə olunur. Türkiyə Cümhuriyyətinin nümayəndə heyəti Bakı-Ceyhan boru xəttinin dəyərinin 2 milyard 400 milyon dollar həcmində olduğunu artıq sübut edibdir. Görürsünüz ki, bu, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin vaxtilə elan etdiyi 3

milyard 700 milyon dollardan nə qədər ucuzdur. Yəni mən hesab edirəm ki, ötən bir neçə ayda çox iş görülübdür və biz onu davam etdirməliyik.

Türkmənistan qazının Xəzər dənizindən Türkiyəyə nəql olunması haqqında sizin gördüyünüz işlər, -mən bunları mət[201-202]buatdan aldığım məlumatlara əsasən deyirəm, -Türkmənistan prezidentinin bu sahədə qəbul etdiyi qərarlar çox sevindiricidir. Bilirsiniz, prezident Niyazov mənə bu barədə məktub göndərərək rica etmişdi ki, onun şəxsi nümayəndəsi olan «Merxav» şirkətinin başçısı İosif Maymanı qəbul edib, bu barədə öz fikrimi ona bildirim. Mən onun xahişini yerinə yetirdim, cənab Maymanı qəbul etdim. Biz çox ətraflı söhbət apardıq. Mən bu boru xəttinin tikilməsi barədə Azərbaycanın razılığını, dəstəyini bildirdim.

Xəzər dənizində Azərbaycanla Türkmənistan sərhədinin müəyyən edilməsi haqqında sizin verdiyiniz məlumat çox əhəmiyyətlidir ki, Türkmənistan prezidenti öz mövqeyində müəyyən mütərəqqi addımlar atır.

Siz bilirsiniz ki, mən oktyabrın 29-da Ankarada Türkmənistan prezidenti cənab Niyazovla görüşəndən sonra Azərbaycan və Türkmənistan nümayəndə heyətləri bir neçə görüş keçirmiş, danışıqlar aparmışlar. Şübhəsiz ki, Türkmənistanın bu sahədə, yəni Xəzər dənizindən qaz kəmərinin çəkilməsi sahəsində gördüyü işlərdə sizin – Amerika Birləşmiş Ştatlarının müstəsna rolu vardır. Bu sahədə irəliləmə eyni zamanda Azərbaycan–Türkmənistan sərhədinin müəyyən edilməsinə də çox kömək edir. Mən ümidvaram ki, bu məsələni də sizin köməyinizlə uğurla həll edə biləcəyik.

Cənab Riçardson Ankarada mənimlə görüşərkən bu barədə vasitəçilik edəcəyi haqqında öz bəyanatını verdi və mən bununla razı oldum. İndi sizin bu barədə çox dəqiq, ətraflı fikirlərinizi dinləmək əhəmiyyətli olar. [202]

## «ŞEVRON OVERSİZ PETROLEUM İNK» ŞİRKƏTİNİN PREZİDENTİ RİÇARD MATSKE İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*22 fevral 1999-cu il*

**H e y d ə r  Ə l i y e v**: Hörmətli cənab Riçard Matske! Sizi salamlayıram və eyni zamanda, Bakıya çoxdan gəlmədiyinizi vurgulayıram.

**R i ç a r d  M a t s k e**: Cənab prezident, Sizə minnətdarlığımı bildirirəm. Həqiqətən uzun müddətdir ki, Sizinlə görüşmürdük. Elə ona görə də qərara aldım ki, buraya gəlim və Sizə olan dərin ehtiramımı bir daha bildirim. Sizə cansağlığı arzulayım. Elə bilirəm ki, Siz çox yaxşı müalicə olunmusunuz və indi əvvəlkindən daha gümrah görünürsünüz.

**H e y d ə r  Ə l i y e v**: Təşəkkürümü bildirirəm. Mənim xəstəliyim böyük xəstəlik deyildi ki, elə müalicə olunum. Sadəcə, iki həftə xəstəxanada oldum ki, məni müayinə etsinlər. Qripdən sonra bədənimə bir balaca infeksiya yayılmışdı, onu müalicə etmək lazım idi. Bunların hamısını etdilər, özü də çox yaxşı etdilər.

**R i ç a r d  M a t s k e**: Cənab prezident, Siz o qədər gərgin işləyirsiniz ki, həqiqətən arada fasilə lazım idi.

**H e y d ə r  Ə l i y e v**: Burada işlədiyim dövrdə, son on ildə heç vaxt istirahət etməmişəm, ona görə də bəlkə lazım idi ki, bir balaca istirahət edim. [203-204]

**R i ç a r d  M a t s k e**: Dincəlmək hamı üçün yaxşı dərmandır, ona görə də belə yaxşı görünürsünüz.

**H e y d ə r  Ə l i y e v**: Bəli, mən əvvəllər bunu o qədər dərk edə bilməmişdim.

**R i ç a r d  M a t s k e**: Cənab prezident, bizim bu görüşümüzün məqsədini açıqlayaraq Sizə şirkətin fəaliyyəti, bugünkü vəziyyəti barədə məlumat vermək, onlara yardım göstərən Azərbaycan təşkilatlarına minnətdarlığımı bildirməkdir. Dünya bazarında neftin qiymətinin aşağı düşməsi təkcə Azərbaycan kimi neft hasil edən ölkələr üçün deyil, bu sahədə çalışan şirkətlər üçün də çətinlik törədir. Həmkarlarımız bizimlə çox yaxşı əməkdaşlıq etmiş, hər bir şərait yaratmış və elə bilirəm ki, daşınma tariflərindən müəyyən güzəştlər etmişdilər. Bunun nəticəsidir ki, biz Qazaxıstan neftini Bakı vasitəsilə Qara dənizə daşımağa imkan tapmışıq. Eyni zamanda bir neçə dəqiqə vaxtınızı alıb Bakı–Ceyhan xətti barədə danışmaq və bildirmək istəyirəm ki, şirkətimiz ona dəstəyini davam etdirir. Nəhayət, Xəzər boru kəməri haqqında söhbət açmaq istəyirəm.

**H e y d ə r  Ə l i y e v**: Qazaxıstandan «Tengiz» neftinin Xəzər dənizi–Azərbaycan–Gürcüstan üzərindən ixracı barəsində indiyə qədər sizin bütün arzularınızı, xahişlərinizi yerinə yetirmişik. Ancaq neftin qiymətinin aşağı düşməsi ilə əlaqədar sizin tərəfdən müraciət edilmişdi və bizim neft şirkəti, Nazirlər Kabineti tariflərin müəyyən qədər qaydaya salınması ilə məşğul olmuşdular. Mənə dedilər ki, siz artıq fevralın 1-dən bu marşrutla neft ixrac etmirsiniz.

Sizin «Kaspian transko» müraciət etmişdi, mən Nazirlər Kabinetinə göstəriş vermişdim ki, məşğul olsunlar. Bu gün mənə məlumat verdilər ki, yeni tarifləri müəyyən ediblər və razılaşdırıblar. Gürcüstan da yeni tarifləri müəyyən etməlidir. Yəni biz bu barədə yenə də sizə yardım etmişik və bundan sonra da yardım etməyə hazırıq. [204-205]

**R i ç a r d  M a t s k e**: Çox sağ olun, Sizə təşəkkür edirəm. Məhz bunun nəticəsində mən buraya gəlmişəm ki, əməkdaşlığa və yaratdığınız şəraitə görə Sizə minnətdarlığımı bildirim. Bir neçə gündən sonra Qazaxıstan nefti Xəzər nəqliyyat sistemi ilə axmağa başlayacaqdır.

**H e y d ə r  Ə l i y e v**: Əgər istəyirsiniz, - axsın, istəmirsinizsə axmasın. Bu, sizin üçün lazımdır. Onsuz da bizsiz işiniz keçməyəcəkdir, yəni Qazaxıstandakı işlərinizi həyata keçirə bilməyəcəksiniz. Biz əvvəldən sizə çox xoş münasibət göstərmişik. [205]

## XOCALININ ERMƏNİ İŞĞALÇILARINDAN MÜDAFİƏSİNDƏ İŞTİRAK ETMİŞ, ŞƏHİD OLMUŞ MİLLİ QƏHRƏMANLARIN, DÖYÜŞÇÜLƏRİN VALİDEYNLƏRİNƏ, AİLƏ ÜZVLƏRİNƏ VƏ FƏRQLƏNƏNLƏRƏ «QIZIL ULDUZ» MEDALLARI, «AZƏRBAYCAN BAYRAĞI» ORDENLƏRİ TƏQDİMETMƏ MƏRASİMİNDƏ GİRİŞ SÖZÜ

*Prezident iqamətgahı*

*26 fevral 1999-cu il*

Əziz bacılar, qardaşlar!

XX əsrdə ermənilər tərəfindən Azərbaycan xalqına qarşı dəfələrlə təcavüz edilibdir, soyqırımı törədilibdir. Onlardan ən dəhşətlisi Xocalı faciəsi, soyqırımıdır.

Yeddi il bundan öncə o müdhiş fevral gecəsi Ermənistan silahlı qüvvələri Sovet İttifaqı ordusunun 366-cı alayının köməyi və iştirakı ilə Azərbaycanın gözəl bir diyarı olan Xocalının sakinlərinə qarşı dəhşətli soyqırımı etmişlər. Böyük, misli görünməmiş vəhşiliklə həyata keçirilən bu soyqırımı XX əsrin ən dəhşətli faciələrindən biridir. Dinc, silahsız xocalılara bir gecənin içində böyük zərbələr vurulmuşdur. Soyqırımı nəticəsində yüzlərlə xocalılı qadın, kişi, yaşlı, gənc, körpə, uşaq həlak olmuşdur. Yüzlərlə xocalılı yaralanmış, xəsarət almış, şikəst olmuşdur. Yüzlərlə insan əsir düşmüşdür.

Bu faciə Azərbaycan xalqına qarşı Ermənistan–Azərbaycan müharibəsi dövründə vurulmuş ən ağır zərbədir. Xocalılılar bu faciəni mərdliklə, qəhrəmanlıqla qarşılamışlar. Öz [206-207] evini, şəhərini, ailəsini qəhrəmancasına müdafiə edənlər həlak olmuşlar, şəhid olmuşlar. Vəhşi ermənilər tərəfindən açılan atəşlərin nəticəsində Xocalı ərazisi qana bulaşmışdır.

Bu faciə bütün Azərbaycan xalqını sarsıtmış, xocalılılara ağır bir mənəvi zərbə olmuşdur. Ancaq xocalılıların iradəsi sınmamış, insanlar qəhrəmanlıqla, mərdliklə şəhid olmuşlar. Xocalılılar bu ağır faciəni mərdliklə yaşamışlar. Faciənin yeddi ilinin tamam olduğu bu gün məğrur xocalılılar yenə də qəhrəmanlıq həyatı keçirirlər.

Heç şübhə yoxdur ki, Ermənistan–Azərbaycan münaqişəsinə son qoyulacaqdır, Azərbaycanın işğal olunmuş torpaqları azad ediləcəkdir, bu torpaqlardan zorla çıxarılmış soydaşlarımız öz yerinə, yurduna, evinə, obasına qayıdacaqlar. Heç şübhə yoxdur ki, Xocalı işğaldan azad olunacaqdır və xocalılılar öz doğma torpaqlarına qayıdacaqlar, həyatlarını yenə də doğma torpaqları üzərində davam etdirəcəklər.

Ancaq Xocalı yarası qəlbimizdə daim yaşayacaqdır. Xocalı soyqırımını törədənlər ədalət məhkəməsi ilə məhkum olunacaqlar. Xocalı soyqırımının törədilməsində günahı olan Azərbaycanın keçmiş rəhbərliyi və digər vəzifəli şəxslər də xalq qarşısında öz cəzalarını çəkəcəklər. Ədalət məhkəməsi onların cəzasını verəcəkdir.

Xalqımız tarix boyu böyük müharibələrdən çıxmış, öz torpağını, mənliyini qoruyaraq qurbanlar vermişdir. Xalqımız hər dəfə belə müharibələrdən, döyüşlərdən, çətinliklərdən çıxaraq daha da mətin, iradəli olmuşdur. Əminəm ki, bu gün xalqımız, o cümlədən xocalılılar müstəqil Azərbaycan dövlətində daha da mətinləşiblər, dövlətimizin müstəqilliyini qoruyub saxlamaq, işğal olunmuş torpaqlarımızın hamısının azad edilməsi uğrunda sona qədər mübarizə aparmaq əzmindədirlər.

Bu gün, Xocalı faciəsinin yeddinci ildönümündə, Xocalıda qəhrəmancasına şəhid olmuş övladlarımızın ruhu qarşısında [207-208] baş əyirəm. Onların xatirəsini bir dəqiqəlik sükutla yad etməyi rica edirəm.

Allah bütün şəhidlərə rəhmət eləsin!

İndi isə Xocalı torpağını qoruyarkən qəhrəmanlıq göstərmiş, şəhid olmuş soydaşlarımızın valideynlərinə, ailə üzvlərinə və onların özünə Azərbaycan dövlətinin mükafatlarını təqdim etmək istəyirəm.

### YEKUN NİTQİ

Əziz bacılar, qardaşlar, dostlar!

Bu gün vətənimizdə, ölkəmizdə matəm günüdür. Xalqımız, Azərbaycanın vətəndaşları Xocalı soyqırımının yeddinci ildönümünü yaşayaraq, qeyd edərək eyni zamanda Xocalı faciəsini, soyqırımını dərin hüznlə yad edirlər. Bu gün hamımız Xocalıda soyqırımı nəticəsində həlak olanlara, xəsarət alanlara, şikəst olanlara, əsirlikdə qalıb hələ xəbəri bilinməyənlərə – hamısına dərin hörmət və ehtiramımızı bildiririk. Bütün xocalılılara onlarla bir yerdə olduğumuzu bəyan edirik.

Xocalı faciəsi təkcə xocalılıların yox, bütün Azərbaycan xalqının dərdi, qəmidir. Ona görə də bu gün bütün ölkəmizdə kədər günü, hüzn günüdür, matəm günüdür. Mən bütün həlak olanlara bir daha Allahdan

rəhmət diləyir və xocalılara, bütün Azərbaycan xalqına başsağlığı verirəm. Çünki həlak olmuş hər bir soydaşımız öz ailəsi ilə bərabər Azərbaycanın övladıdır və bu, Azərbaycan xalqının matəmidir.

Bununla yanaşı, bu gün sizinlə görüş mənə çox böyük təsir bağışlayır. Burada qeyd etdiniz, mən 1993-cü ildə Azərbaycanın prezidenti seçiləndən sonra ötən illərdə Azərbaycan xalqının başına gəlmiş bəlaları dərindən təhlil etməyə başladım və lazımi tədbirlər gördüm. O cümlədən Xocalı soyqırımına 1994-cü ilin fevral ayında qiymət verildi və bu gün matəm günü elan olundu. [208-209]

Ancaq hər dəfə xocalılarla görüşərkən mən qürur hissi keçirirəm. Bu qədər faciəli günlər keçirmiş, o dəhşətli, müdhiş gecəni yaşamış, ən əziz adamlarını gözlərinin qabağında itirmiş insanlar məğrurdurlar, mərddirlər. Hər biri vətən qayğısı, vətən, torpaq eşqi ilə yaşayır. Bu, xalqımızın nə qədər yüksək mənəviyyata malik olduğunu göstərir. Xocalılıların bu yüksək mənəvi keyfiyyətləri bütün Azərbaycan xalqının mənəvi keyfiyyətlərini əks etdirir. Amma xocalılılar hamı üçün örnəkdir, nümunədir – qəhrəmanlıq, mərdlik, mətanətlilik nümunəsidir, eyni zamanda vətənpərvərlik nümunəsidir.

Siz burada xoş sözlər dediniz, onlara görə təşəkkür edirəm. Amma eyni zamanda sizin hər birinizin dediyi sözlərdə çox dərin məna var. O da ondan ibarətdir ki, övladınızı, ailə başçınızı, qardaşınızı, qohumlarınızı itirsəniz də, bu gün nikbinliklə yaşayırsınız, gələcəyə ümidlə, nikbinliklə baxırsınız. Mən sizin bu əhval-ruhiyyənizə tam şərikəm. Bəli, biz Ermənistanın Azərbaycana qarşı təcavüzü başlayandan – 1988-ci ildən ağır günlər, ağır illər yaşamışıq, böyük itkilər vermişik. Bir çox ildir ki, torpaqlarımız Ermənistan silahlı qüvvələrinin işğalı altındadır. Bunlar bizim dərdimizdir, xalqımızın dərdidir.

Amma eyni zamanda 1994-cü ildə atəşi dayandıraraq biz qan tökülməsinin qarşısını almışıq və torpaqlarımızı sülh, danışıqlar yolu ilə azad etmək istəyirik, ölkəmizin ərazi bütövlüyünü bərpa etmək istəyirik.

Doğrudur, bu çətindir. Çünki düşmən torpağı işğal edəndən sonra onu oradan çıxarmaq daha çətin olur. Ancaq eyni zamanda biz bu yolla gedirik və gedəcəyik. Mən inanıram ki, bizim həyata keçirdiyimiz tədbirlər, sülhsevər siyasətimiz öz nəticəsini verəcəkdir.

Eyni zamanda mən sizin buradakı çağırışlarınızı da tam ədalətli hesab edir və bizim üçün böyük mənəvi dəstək hesab edirəm. Bəli, əgər bizim bütün sülhsevər addımlarımız, təşəbbüslərimiz, apardığımız tədbirlər son nəticədə işğal edilmiş [209-210] torpaqların azad olunmasını təmin etməsə, nəyin bahasına, hansı qurbanların bahasına olur-olsun, torpaqlarımızı azad edəcəyik, siz öz yerinizə-yurdunuza qayıdacaqsınız, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqır. Bu, bizim müqəddəs borcumuzdur, - əcdadlarımız qarşısında borcumuz, bugünkü nəsil qarşısında borcumuz, gələcək nəsillər qarşısında borcumuzdur.

Azərbaycanın prezidenti kimi mən bu barədə öz məsuliyyətimi daim hiss edirəm. Bildirirəm ki, Azərbaycan prezidenti kimi fəaliyyətimin əsas hissəsi Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına, işğal edilmiş torpaqların azad olunmasına həsr edilmişdir.

Ötən illərdə mən bu işlə gecə-gündüz məşğul olmuşam. Bu gün də məşğul oluram və gələcəkdə də məşğul olacağam. Əmin ola bilərsiniz ki, mən həmişə sizinləyəm, şəhid ailələri iləyəm, yerindən-yurdundan didərgin düşmüş soydaşlarımızlayam. Siz mənim üçün Azərbaycanın əz əziz, ən sevimli vətəndaşlarısınız və daim sizinlə bir yerdə olacağam. İnanıram ki, işğal olunmuş torpaqları hamımız birlikdə azad edəcəyik. Xocalı azad olunacaq, Xocalı torpağı yenidən öz sakinlərinə təqdim ediləcək və siz öz torpağınızın sahibi olacaqsınız.

Mən sizə cansağlığı arzu edirəm. Bu gün şəhidlərə bir daha Allahdan rəhmət diləyirəm. Hər birinizə dözümlülük, dəyanət, bütün işlərinizdə uğurlar arzulayıram. Sağ olun. [210]

**İSVEÇRƏ KONFEDERASİYASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**XANIM RUF DREYFUSA**

Hörmətli xanım Dreyfus!

Alp dağlarında qar uçqunları nəticəsində turist düşərgələrində çoxlu adamın, o cümlədən xarici vətəndaşların həlak olması xəbəri məni çox məyus etdi.

Sizə, həlak olanların qohumlarına və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *26 fevral 1999-cu il*
[211]

**AVSTRİYA RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB TOMAS KLESTİLƏ**

Hörmətli cənab prezident!

Alp dağlarında qar uçqunları nəticəsində turist düşərgələrində çoxlu adamın, o cümlədən xarici vətəndaşların həlak olması xəbəri məni çox məyus etdi.

Sizə, həlak olanların qohumlarına və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *26 fevral 1999-cu il*
[212]

## XALQ RƏSSAMI OQTAY SADIQZADƏYƏ

Hörmətli Oqtay Sadıqzadə!

Sizi – Azərbaycan rəssamlıq məktəbinin görkəmli nümayəndəsini anadanolma gününüz münasibətilə və yaradıcılığınızın 60 illiyi ilə səmimi-qəlbdən təbrik edirəm.

Siz Azərbaycan mədəniyyətində böyük xidmətləri olan sənətkarlardansınız. Müxtəlif mövzularda yaratdığınız boyakarlıq və qrafika əsərləri sizə plakat və portret ustası kimi geniş şöhrət gətirmişdir. Siz Azərbaycan xalqının dərin hörmətini qazanmış ziyalı bir ailədə dünyaya gəlmisiniz və gənc yaşlarınızdan təkrarolunmaz yaradıcı bir mühitlə əhatə olunmusunuz. Hələ gənc ikən 30-cu illərdəki siyasi repressiyalar dövründə düçar olduğunuz məhrumiyyətlər sizin iradənizi nəinki qırmamış, əksinə, haqqın təntənəsinə olan inamınızı daha da qüvvətləndirmiş və məhz bu duyğularla aşılanmış əzmkarlığınız yaradıcılığınızın əsas leytmotivini təşkil etmişdir.

Sənət yoluna boyakarlıq əsərləri ilə qədəm qoyaraq siz fəaliyyətinizin mühüm bir dövrünü kitab qrafikasına həsr etmiş və dünya klassiklərinin, Azərbaycan yazıçılarının əsərlərinə çəkdiyiniz illüstrasiyalarınızla respublikamızda bu sahənin inkişafına böyük təkan vermisiniz. Sizin yaradıcılıq dəst-xəttinizdə miniatür sənətimizin klassik ənənələrinə əsl yaradıcı münasibət özünü büruzə verir. Tablolarınızda vətənə, torpağa, doğma yurda, onun gözəl insanlarına bağlılığınızı əks etdirmisiniz.

Böyük zövq və məhəbbətlə çəkdiyiniz portretlərdə tarixi şəxsiyyətlərimizin daxili aləminə nüfuz edərək onların xarakterini həssas sənətkar məharəti ilə açmış, milli irsimizə gözəl bələd olduğunuzu nümayiş etdirmisiniz. Azərbaycan qadınla[213-214]rına həsr etdiyiniz portretlər öz dərin psixoloji çalarları ilə təsviri sənətimizdə xüsusi yer tutur.

Sizin yaratdığınız portretlər Avropa rəngkarlıq məktəbinin ənənələrini davam etdirərək özündə həm də milli koloriti əks etdirir.

İnanıram ki, rəssamlığımızda xüsusi yeri olan bir sənətkar kimi siz zəngin təcrübənizdən və istedadınızdan istifadə edərək müstəqil Azərbaycanımızın mədəniyyətinin çiçəklənməsi naminə bundan sonra da var gücünüzü əsirgəməyəcək və pərəstişkarlarınıza yeni-yeni əsərlərlə sevinc bəxş edəcəksiniz.

Sizə cansağlığı, xoşbəxtlik və yaradıcılıq uğurları arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *27 fevral 1999-cu il*
[214]

## AZƏRBAYCAN DÖVLƏT NEFT SƏNAYESİ ELMİ TƏDQİQAT VƏ LAYİHƏ İNSTİTUTUNUN ƏMƏKDAŞLARINA

Sizi – Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Neft Sənayesi Elmi Tədqiqat və Layihə İnstitutunun əməkdaşlarını institutun yaradılmasının 70 illiyi münasibətilə səmim-qəlbdən təbrik edirəm.

Azərbaycan qədim neft diyarıdır və neft ölkəsi kimi məşhurdur. Dünyada ilk dəfə 1847-ci ildə məhz Azərbaycanda neft fontan vurmuş və sənaye üsulu ilə neft hasilatına başlanmışdır.

Əsrimizin əvvəllərində Azərbaycan dünyanın neft hasil edən ən böyük ölkəsi olmuşdur. İkinci dünya müharibəsi zamanı Sovetlər İttifaqının istifadə etdiyi neftin 75 faizi Azərbaycanda hasil olunmuşdur.

Azərbaycan XX əsrə bir neft ölkəsi kimi daxil olmuş və inkişaf etmişdir. 70 il bundan öncə məhz Azərbaycanda neft sənayesinin dövlət əhəmiyyətli Elmi Tədqiqat və Layihə İnstitutunun yaradılması zamanın tələbi idi.

Fəaliyyətinin ilk dövrlərindən başlayaraq, Azərbaycan Dövlət Neft Sənayesi Elmi Tədqiqat və Layihə İnstitutunda fundamental tədqiqatlar aparılmış və burada yerinə yetirilən bir sıra elmi işlər neft elminin ayrı-ayrı istiqamətlərinin nəzəri əsaslarını təşkil etmişdir. İnstitutun əməkdaşları keçmiş Sovet İttifaqının bir çox neft rayonlarında elmi tədqiqat mərkəzlərinin yaradılmasında bilavasitə iştirak etmişlər.

Ötən illərdə Azərbaycanın neft sənayesində yaranmış elmi-texniki potensial, istehsal və maddi-texniki baza, güclü infrastruktur müstəqil respublikamızın neft sənayesində yeni mər[215-216]hələdə böyük işlər görülməsi üçün möhkəm zəmin yaratmışdır. İndi Azərbaycan dünyanın ən inkişaf etmiş dövlətlərinin iri və məşhur neft şirkətləri ilə əməkdaşlıq edir. Bu sahədə işlər uğurla davam etdirilir və əldə edilmiş nailiyyətlərə əsaslanaraq demək olar ki, Azərbaycan XXI əsrə yüksək elm və sənaye potensialına malik demokratik, hüquqi dövlət kimi daxil olacaqdır.

Əmin olduğumu bildirirəm ki, zəngin ənənələri, yüksək elmi, mühəndis və texniki kadrları olan Azərbaycan Dövlət Neft Sənayesi Elmi Tədqiqat və Layihə İnstitutu bundan sonra da müstəqil Azərbaycan dövlətinin neft sənayesi qarşısında duran böyük və şərəfli vəzifələri həyata keçirməyə qadir olan bir kollektiv kimi fəaliyyət göstərəcəkdir.

Bu əlamətdar yubiley münasibətilə institutun yaradıcı və əməksevər kollektivinə möhkəm cansağlığı və ölkəmizin tərəqqisi naminə yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *2 mart 1999-cu il*
[216]

## AZƏRBAYCAN GƏNCLƏRİNİN II FORUMUNDA FASİLƏ ZAMANI JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*Respublika sarayı*

*2 mart 1999-cu il*

**S u a l**: **Cənab prezident, gənclərin forumu ilə əlaqədar aparılan işləri qənaətbəxş hesab edirsinizmi**?

**C a v a b**: Yəqin ki, mən sabah öz sözümü tribunadan deyəcəyəm. Amma bir halda ki, siz tələsirsiniz, öyrənmək istəyirsiniz, - bəli, mən hesab edirəm ki, qənaətbəxşdir. Üç il müddətində çox işlər görülübdür. Təsəvvür edin, - üç il bundan öncə olan dövrü götürün və indiki dövrü götürün. Nə qədər işlər görülübdür, gənclərin nə qədər məsələləri həll olunubdur. Ümumiyyətlə, gənclər təşkilatlanıbdır. Bunlar çox gözəl hallardır. Mən həddindən artıq razıyam.

**S u a l**: **Cənab prezident, gənclərimizə nə arzu edərdiniz**?

**C a v a b**: Gənclərimizə arzu edirəm ki, onlar həmişə sağlam olsunlar, yaxşı təhsil alsınlar, yaxşı tərbiyə alsınlar, cəmiyyətdə öz yerlərini tuta bilsinlər, cəmiyyət üçün faydalı ola bilsinlər, bizim milli ənənələrimizi həmişə yaşatsınlar, valideynlərinə sadiq olsunlar, həmişə valideynlərinə hörmət etsinlər, məktəbdə, ictimai yerlərdə yüksək mədəniyyət nümayiş etdirsinlər.

**S u a l**: **Cənab prezident, bir neçə gündən sonra** 8 **Mart beynəlxalq qadınlar bayramıdır**. **Azərbaycan qadınlarına nə arzu edərdiniz**? [217-218]

**C a v a b**: Mən qadınlara dünyada ən yaxşı şeyləri arzu edirəm.

**S u a l**: **Cənab prezident, bir neçə gün əvvəl Rusiyaya məxsus MİQ**-29 **təyyarəsi Azərbaycan sərhədini keçibdir**. **Buna Sizin münasibətiniz necədir və bu hadisə Rusiya–Azərbaycan münasibətlərinə necə təsir göstərir**?

**C a v a b**: Bununla əlaqədar olaraq bizim Xarici İşlər Nazirliyi bəyanat veribdir. Yəqin ki, siz bunu bilirsiniz. Bu bəyanat hökumətin fikridir, yəni dövlətin fikridir, o cümlədən mənim fikrimdir. Biz bəyanatda buna çox kəskin etiraz etmişik və Rusiyanın Ermənistanı silahlandırmasına, Ermənistanda qırıcı təyyarələrin, raketlərin yerləşdirilməsinə bir daha etiraz etmişik. Azərbaycan–Rusiya münasibətlərini də siz özünüz görürsünüz, hər şey gözünüzün qabağındadır. [218]

## AZƏRBAYCAN GƏNCLƏRİNİN II FORUMUNDA NİTQ

*Respublika sarayı*

*3 mart 1999-cu il*

Əziz gənclər!

Sizi səmim-qəlbdən salamlayıram. Sizə sağlamlıq, xoşbəxt həyat və gələcək işlərinizdə uğurlar arzulayıram.

Azərbaycan gənclərinin II forumu ölkəmizin həyatında əlamətdar hadisədir. Bu iki gün ərzində Azərbaycan gənclərinin nümayəndələri öz II forumuna toplaşaraq son üç ildə gənclərin keçdiyi yolu, əldə etdiyi nailiyyətləri və mövcud problemləri ətraflı təhlil etdilər.

Mən hesab edirəm ki, gənclərin II forumu üç il müddətində görülən işlərə yekun vuraraq, eyni zamanda gələcəyə yollar açdı. Biz XXI əsrə doğru gedirik. XXI əsr gənclərin əsridir. XXI əsr Azərbaycanda gənclərin müstəqil dövlətimizi qurub-yaratmaq və inkişaf etdirmək dövrüdür. Əziz gənclər, siz Azərbaycanın XXI əsrinin qurucularısınız. Bu yolda sizə uğurlar olsun, eşq olsun!

Gənclər və idman naziri Əbülfəs Qarayevin forumdakı məruzəsində, Gənclər Təşkilatları Milli Şurasının sədri Azay Quliyevin, uşaq təşkilatının sədri Gülər Əhmədovanın, Azərbaycan Skaut Assosiasiyası Milli Məclisinin üzvü Səbinə Hüseynovanın çıxışlarında və başqa çıxışlarda, nitqlərdə dəyərli fikirlər söylənilmişdir. Gəncliyin bugünkü vəziyyəti, mövcud nöqsanlar və qarşıda duran vəzifələr ətraflı müzakirə edilmişdir. [219-220]

Bölmələrdə aparılan müzakirələr də çox səmərəli olmuşdur. Bunlar hamısı gənclərin II forumunun nə qədər böyük əhəmiyyət daşıdığını göstərir. Gənclərin II forumu Azərbaycan gəncliyinin bu gününün və sabahının aydın güzgüsüdür.

Həll olunmayan məsələlər, nöqsanlar məruzələrdə və çıxışlarda cəsarətlə göstərilmişdir. Bunlar şəxsən məni çox sevindirir. Çünki bugünkü gənclər cəsarətli olmalıdırlar, hər şeyi açıq-aydın deməlidirlər, nöqsanların üstünü örtməməlidirlər. Şübhəsiz ki, nöqsanlar dövlət və hakimiyyətin ayrı-ayrı orqanlarının fəaliyyətinə aiddir. Eyni zamanda, gənclər təşkilatlarının, gənclərin özünə aiddir.

Beləliklə, siz bizi, hakimiyyət orqanlarını tənqid etdiniz. Çox da yaxşı etdiniz. Mən sizin bu cür çıxışlarınızı xüsusi qiymətləndirirəm. Eyni zamanda, təəssüf edirəm ki, sizin burada göstərdiyiniz nöqsanları və həll olunmamış problemləri müvafiq orqanlar indiyə qədər həll edə bilməmişlər. Ancaq güman edirəm, sizin də nöqsanınız ondan ibarətdir ki, bu məsələləri siz vaxtında, kəskin olaraq qaldırmamısınız. Yəqin ki, ancaq forumu gözləmisiniz.

Mən bəyan edirəm ki, sizin tənqidi çıxışlarınızdan hamımız nəticə çıxarmalıyıq. Hakimiyyət orqanları özləri üçün ciddi nəticə çıxarmalıdırlar. Nöqsanlar qısa müddətdə aradan götürülməlidir. Problemlər nə qədər çətin olsa da, ardıcıl surətdə həll edilməlidir. Bir sözlə, Azərbaycan gəncliyinin həyatını, təhsilini, məşğulluğunu və fəaliyyətini təmin etmək üçün biz bütün imkanları səfərbərliyə almalıyıq, əlimizdən gələni etməliyik.

Çıxışlarda səsləndi ki, ötən forumda bəzi təkliflər verilmiş və ondan sonra həmin təkliflər hazırlanıb müvafiq dövlət orqanlarına çatdırılmışdır, ancaq bunlar nəticə verməmişdir. Mən bundan sonra da belə halların olmaması üçün təklif edirəm ki, Gənclər və İdman Nazirliyi, Gənclər Təşkilatlarının Milli Şurası, uşaq təşkilatı və başqa təşkilatlar forumda irəli [220-221] sürülmüş məsələlərin hamısını birlikdə cəmləşdirsinlər və onların həll olunması üçün lazımi sənədlərin layihələrini qısa bir müddətdə, ola bilər, on gün ərzində təqdim etsinlər.

Mən eyni zamanda bu tapşırığı Azərbaycanın Nazirlər Kabinetinə, Prezidentin İcra Aparatına və başqa hakimiyyət orqanlarına verirəm. Əmin edirəm ki, sizin təkliflərinizə və layihələrdə əks etdirəcəyiniz tədbirlərin hamısına mənim tərəfimdən diqqətlə baxılacaq, lazımi qərarlar qəbul ediləcəkdir. Düşünürəm ki, II forumun yekunları ilə əlaqədar irəli sürülmüş məsələlərin həll edilməsi üçün Azərbaycan prezidentinin xüsusi fərmanı olmalıdır və mən belə bir fərmanı imzalamağa hazıram.

Əziz gənclər!

Siz bu günlər öz yetkinliyinizi, fəallığınızı nümayiş etdirdiniz. II forum ölkəmizə, ictimaiyyətə tam aşkarlığı ilə göstərdi ki, gənclər təşkilatlanandan, öz istiqamətlərini müəyyən edəndən sonra çox iş görə bilərlər və çox iş də görüblər. Siz ötən üç ildə gördüyünüz işlər haqqında ətraflı danışdınız. Mənim üçün isə bunun əhəmiyyəti ondan ibarətdir ki, biz Azərbaycanda gənclər probleminin həll olunmasını düzgün istiqamətə yönəltmişik.

Məlumdur ki, keçmişdə, hamımızın yaşadığı sovet hökuməti dövründə gənclərin təşkilatları komsomol və pioner təşkilatları idilər. Dövlət tərəfindən onlara himayədarlıq edilirdi və gənclər nəsildən-nəslə keçərək bu təşkilatların çərçivəsində formalaşırdı, inkişaf edirdi, fəaliyyət göstərirdi. Sovet hakimiyyəti dağıldı, Azərbaycan dövlət müstəqilliyini əldə etdi. Qarşımıza bir çox problemlər çıxdı. Bunların biri də

gənclərin problemləridir. Doğrudur, dövlət müstəqilliyini əldə edəndən sonra birinci illərdə Azərbaycanda bunlarla məşğul olmaq mümkün olmamışdır, yaxud da ki, buna diqqət verilməmişdir. Ancaq hesab edirəm ki, Azərbaycanda son dörd ildə gənclər probleminin nizama salınması və həll olunması üçün [221-222] vacib tədbirlərin həyata keçirilməsi ilə əlaqədar biz lazımi işlər görə bilmişik. İndi bunun da əməli nəticələrini görürük.

Biz dörd il bundan öncə Azərbaycanın Gənclər və İdman Nazirliyini yaratdıq. Həmin nazirlik yaranarkən çox fikirlər var idi – bu nazirlik lazımdır, ya lazım deyil. Ancaq biz hesab edirdik ki, bu nazirlik lazımdır. Onu yaratdıq. İndi biz bu nazirliyin müstəqil Azərbaycanın həyatında nə qədər gərəkli olduğunu artıq görürük.

Gənclərin I forumu üç il bundan əvvəl hazırlandı, keçirildi. O vaxt da biz bu forumu hazırlayıb keçirərkən ona bir tərəfdən böyük ümidlərlə baxırdıq, ikinci tərəfdən isə fikirləşirdik ki, bunun nəticəsi nə olacaqdır. Ancaq üç il ərzində Azərbaycanda gənclər təşkilatlandı, gənclər təşkilatları yarandı. Gənclər və İdman Nazirliyi ardıcıl fəaliyyət göstərir və gənclərin problemləri indi ardıcıl surətdə həll olunur. Hər halda, Azərbaycan gənclərinin bugünkü vəziyyəti, əhval-ruhiyyəsi, onların ictimaiyyətdə yeri və həyatımızın bütün sahələrində iştirakı bunu açıq-aydın göstərir. Bunlar çox sevindirici hallardır. Əvvəlki illərdə bu sahədə bir təşkilatçılıq yox idi, aydınlıq yox idi. Bəziləri keçmişin qanun-qaydası ilə yaşamaq istəyirdi, bəziləri isə gənclər təşkilatının ümumiyyətlə, olub-olmaması haqqında fikirlər söyləyirdi.

İndi artıq tam qətiyyətlə demək olar ki, Azərbaycan gəncləri təşkilatlanıb, birləşib, cəmiyyətdə öz yerini tutub və müstəqil Azərbaycanın inkişaf etməsi üçün lazımi işlər görürlər.

Ölkəmiz gənclər ölkəsidir. Bilirsiniz ki, Azərbaycanın Dövlət Statistika Komitəsi yanvar ayında respublikamızda əhalinin siyahıyaalınmasını həyata keçirdi. Siyahıyaalma tamamlanıb, ancaq onun nəticələri hələ təhlil olunur. Bu siyahıyaalınmada əldə olunan ilkin nəticələr çox sevindiricidir. Birincisi, ölkəmizin əhalisi artıbdır. İndi Azərbaycanda 8 milyona yaxın əhali vardır. İlkin məlumat verirlər ki, 7 milyon 910 [222-223] mindir. Ancaq güman edirəm, onlar hələ bütün materialları təhlil etməyiblər. Hətta belə də olsa, 8 milyona yaxındır.

Sevindirici haldır ki, əhalinin tərkibi Azərbaycan vətəndaşlarının müsbət sosial tərkibini göstərir. Azərbaycanda ildə hər min nəfərə 17 uşaq doğulur, hər min nəfərə 6 adam vəfat edir.

Hesab edirəm ki, Azərbaycanda orta ömür uzunluğu da bugünkü şəraitə görə qənaətbəxşdir. Orta ömür uzunluğu 71 yaşdır – kişilər 67 yaş, qadınlar 74 yaş. Ancaq ən sevindiricisi odur ki, Azərbaycan gənclər ölkəsidir. Əhalinin 2 milyon 900 mini gənclər, 2 milyon 600 mini uşaqlardır. Beləliklə, əhalinin 5 milyon 500 min nəfəri gənclərdir.

Gənclər, uşaqlar demək olar ki, tamamilə təhsilə cəlb olunublar. Bir milyon 600 min gənc, uşaq ümumtəhsil məktəblərində təhsil alır. 100 min gənc ali məktəblərdə təhsil alır. Onlardan 80 mini dövlət ali məktəblərində, 20 mini özəl universitetlərdə oxuyur.

Bunlar hamısı Azərbaycan əhalisinin tərkibini və bugünkü sosial vəziyyətini göstərən bir neçə rəqəmdir. Eyni zamanda, onu göstərir ki, Azərbaycan bu ağır keçid dövründə də yaşayır, inkişaf edir, bizim millətimiz artır, təhsillənir.

Bütün bunlar bizim qarşımızda böyük vəzifələr – gənclərə, uşaqlara diqqəti, qayğını artırmaq, gənclərin problemlərinə daha da çox qayğı göstərmək vəzifəsini qoyur. Mən bu gün sizə bəyan edirəm ki, biz, Azərbaycan dövləti bu sahədə öz üzərimizə düşən bütün vəzifələri ardıcıl surətdə yerinə yetirəcəyik.

Ötən üç ildə Azərbaycan böyük bir inkişaf yolu keçibdir. Azərbaycan dövlət müstəqilliyinin 7-ci ilini başa vurubdur. Ancaq bilirsiniz ki, müstəqil dövlət kimi Azərbaycanın bu 7 illik tarixi çox ağır mərhələlərdən ibarətdir. 1991-ci ilin sonunda dövlət müstəqilliyini elan edən zaman Azərbaycan böyük siyasi, sosial-iqtisadi böhran içərisində idi. Ermənistanın təcavüzü nəticəsində Azərbaycan öz torpaqlarının müdafiəsi ilə məşğul idi, müharibə aparırdı. Azərbaycanda daxili [223-224] ictimai-siyasi vəziyyət çox gərgin idi. Ondan sonrakı illərdə – 1991-ci, 1992-ci və 1993-cü illərdə ölkəmizdə vəziyyət daha da gərginləşmişdi.

1993-cü ildə Azərbaycan böyük fəlakət qarşısında idi. Vətəndaş müharibəsi başladı və Azərbaycan parçalanmaq təhlükəsi ilə qarşılaşdı. Ondan sonrakı dövr Azərbaycanın bu ağır, çətin problemlərinin həll edilməsi dövrü olubdur.

Bilirsiniz ki, onlar da asan olmayıbdır. 1993-cü ildə vətəndaş müharibəsinin qarşısını almaq, Azərbaycanı parçalanmaq təhlükəsindən qurtarmaq çox ağır və çətin vəzifə idi. Bu gün iftixar hissi ilə demək olar ki, biz bunun öhdəsindən gəldik və Azərbaycanı bu böhran vəziyyətindən çıxardıq.

Ancaq ondan sonra Azərbaycanı dağıtmaq, parçalamaq cəhdləri yenə də davam edirdi. 1994-cü ilin oktyabrında, 1995-ci ilin martında dövlət çevrilişinə cəhdlər Azərbaycanı yenidən böyük təhlükə altına aldı. Ancaq Azərbaycan xalqı artıq birləşmişdi, Azərbaycan dövləti artıq öz gücünü nümayiş etdirmişdi. Bu dövlət çevrilişi cəhdlərinin hamısının qarşısı alındı. Ondan sonra Azərbaycanda sabitləşmə dövrü başlandı. Son illər əldə etdiyimiz ən böyük nailiyyət ondan ibarətdir ki, biz Azərbaycanda ictimai-siyasi vəziyyəti sabitləşdirə bildik.

Gənclər də, yaşlı nəsil də heç vaxt unutmamalıdır ki, həmin 1991, 1992 və 1993-cü illərdə Azərbaycanda sadəcə, yaşamaq da çətin idi, bəzi hallarda mümkün deyildi. Hərc-mərclik, hakimiyyətsizlik, ayrı-ayrı silahlı dəstələrin bir-biri ilə silahlı mübarizəsi, hakimiyyət uğrunda mübarizə – bunlar hamısı Azərbaycanın

həmin illərdəki reallığı idi. İndi Azərbaycanda daxili vəziyyət tam sabitləşibdir. Biz ictimai-siyasi sabitliyi təmin etmişik və onu ardıcıl surətdə qoruyub saxlayırıq. Bunlar da bütün Azərbaycan vətəndaşlarının, gənclərinin normal yaşaması, işləməsi, təhsil alması üçün əsas şərtdir.

Azərbaycan ötən illərdə sosial-iqtisadi böhrandan çıxdı. Məlumdur ki, 1993-1994-cü illərdə, hətta 1995-ci ildə Azərbay[224-225]canda iqtisadiyyat tənəzzül dövrü keçirirdi, böhran içərisində idi. Biz apardığımız tədbirlər nəticəsində ölkəmizi bu böhrandan çıxara bildik. İndi son üç ildə Azərbaycan sosial-iqtisadi inkişaf dövrü keçirir. Bu gün məmnuniyyət hissi ilə demək olar ki, keçmiş Sovetlər İttifaqına mənsub olan ölkələr içərisində Azərbaycanın sosial-iqtisadi vəziyyəti xeyli fərqlidir.

Biz tənəzzülün qarşısını 1995-ci ildə aldıq. 1996-cı ildə iqtisadiyyatda sabitləşməni təmin edə bildik və inkişafa qədəm qoyduq. 1997-1998-ci illərdən isə iqtisadiyyat inkişaf yolu ilə gedir. Bunu rəqəmlər sübut edir. Ümumi daxili məhsul 1996-cı ildə 1,3 faiz artmışdır. Amma ona qədər, ondan əvvəlki 5-6 il içərisində isə iqtisadiyyat daim tənəzzülə doğru gedirdi. 1997-ci ildə ümumi daxili məhsul 5,8 faiz, 1998-ci ildə isə 10 faiz artıbdır. Sənaye istehsalı 1997-ci ildə 0,3 faiz, 1998-ci ildə isə 2,2 faiz artmışdır. Kənd təsərrüfatı istehsalı da yüksəlmişdir.

Azərbaycana investisiya qoyuluşunun həcmi ilbəil artmışdır. Əgər 1996-cı ildə Azərbaycana 600 milyon dollar həcmində investisiya qoyulmuşdusa, 1998-ci ildə bir milyard 500 milyon dollar dəyərində xarici investisiya qoyulubdur. 1998-ci ildə kapital qoyuluşu 45 faiz artmışdır.

Bunlar hamısı Azərbaycanda əhalinin rifah halının yaxşılaşmasına təminat yaratmışdır. 1996-cı ildə orta aylıq əmək haqqı 82 min manat olduğu halda, 1998-ci ildə 170 min manat olmuşdur. Təbiidir ki, bunlar bizi qane etmir. Ancaq bu, eyni zamanda onu göstərir ki, Azərbaycan çətin şəraitdə, müharibə şəraitində olmasına baxmayaraq iqtisadiyyatda böhranın qarşısını aldı, ölkəmiz böhrandan çıxdı. Biz tənəzzüldən xilas olduq və ölkəmiz inkişafa başlamışdır. Bu, 1999-cu ildə və gələcək illərdə Azərbaycanın inkişaf etməsinə şərait yaradır, apardığımız düzgün sosial-iqtisadi siyasətin nəticəsidir. Bunlar Azərbaycanda həyata keçirilən iqtisadi islahatların – torpaq islahatının, özəlləşdirmə proqramının, iqtisadiyyatın liberallaşdırılmasının, sahibkarlığa geniş imkan [225-226] verilməsinin və beləliklə, ölkəmizin iqtisadiyyatının bazar iqtisadiyyatı, sərbəst iqtisadiyyat yolu ilə inkişaf etdirilməsinin nəticəsidir.

Biz əldə etdiyimiz nailiyyətləri qiymətləndirərək, eyni zamanda, hələ həll olunmamış problemləri də yaxşı bilirik. Gənclər bunları – həm nailiyyətləri, həm də həll olunmamış problemləri bilməlidirlər. Gənclər hər şeyi bilməlidirlər. İndi biz müstəqil dövlətdə plüralizm, demokratiyanın inkişafı şəraitində yaşayırıq, hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesini həyata keçiririk. Ona görə də Azərbaycanın hər bir vətəndaşı ölkəmizin həyatında gedən prosesləri bilməlidir və onlar bu proseslərdə fəal iştirak etməlidirlər. Gənclərin qarşısında duran vəzifələr birinci növbədə cəmiyyətdə öz yerini tutmaqdan, maariflənməkdən, təhsilini artırmaqdan, cəmiyyət üçün faydalı olmaqdan ibarətdir.

Təhsil sahəsində geniş islahatlar həyata keçirilir. Güman edirəm ki, bu, təhsilin keyfiyyətini də artıracaqdır və gənclərin daha da yüksək təhsil alması üçün şərait yaradacaqdır.

Bizim həyatımızın xarakterik cəhəti bir də ondan ibarətdir ki, Azərbaycan Ermənistanın hərbi təcavüzündən indiyə qədər xilas ola bilməyibdir. 1988-ci ildən Ermənistan tərəfindən Azərbaycana qarşı başlanmış təcavüz ölkəmizə çox ağır zərbələr vurmuşdur. Biz böyük itkilər vermişik. Azərbaycan torpaqlarının bir qismi işğal olunmuşdur. İşğal edilmiş torpaqlardan bir milyondan artıq soydaşımız məcburi köçürülmüş, onların əksəriyyəti çadırlarda ağır vəziyyətdə yaşayır.

Biz 1994-cü ilin may ayında atəşkəs haqqında saziş imzaladıq. Artıq 4 ildən çoxdur ki, atəşkəs rejimində yaşayırıq, Ermənistan–Azərbaycan münaqişəsini sülh yolu ilə həll etmək istəyirik. Bu sahədə çox işlər görülübdür. Ən böyük nailiyyət ATƏT-in 1996-cı ilin dekabrında Lissabonda keçirilmiş zirvə görüşündə Ermənistan–Azərbaycan münaqişəsinin həll edilməsi üçün qəbul olunmuş prinsiplərdir. Ancaq təəssüflər ol[226-227]sun ki, Ermənistan tərəfinin destruktiv mövqeyinə görə biz indiyə qədər həmin prinsiplərin reallaşmasına və münaqişənin sülh yolu ilə həll edilməsinə, torpaqlarımızın azad olunmasına nail ola bilməmişik.

Mən bu gün bir daha bəyan edirəm ki, biz hələ bu yolda bütün imkanlardan tam istifadə edə bilməmişik. Hesab edirəm ki, məsələnin sülh yolu ilə həll olunmasının hələ böyük potensialı vardır. Biz bu potensialdan səmərəli istifadə etməliyik. Doğrudur, ATƏT-in Minsk qrupunun həmsədrləri – Rusiya, Amerika Birləşmiş Ştatları, Fransa bu məsələnin həll olunması üçün lazımi tədbirlər görmürlər. Biz bu barədə öz narazılığımızı və bəzən etirazımızı da bildiririk. Ancaq biz eyni zamanda, münaqişənin ATƏT-in Minsk qrupu çərçivəsində həll olunmasını Azərbaycan üçün bu gün də, gələcəkdə də məqbul hesab edirik.

Güman edirəm ki, biz 1999-cu ildə münaqişənin sülh yolu ilə həll olunması üçün ciddi addımlar atacağıq və məsələnin həllinə nail olacağıq. Ancaq biz eyni zamanda, ölkəmizin təhlükəsizliyini qorumaq, torpaqlarımızı etibarlı müdafiə etmək üçün bütün imkanlarımızı inkişaf etdirməliyik. Bu baxımdan hesab edirəm ki, son illər Azərbaycan ordusunun inkişafı, bugünkü vəziyyəti bizim əldə etdiyimiz ən böyük nailiyyətlərdəndir.

Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra respublikamızda ordu quruculuğu sahəsində bir neçə il itirilibdir. Burada deyildiyi kimi, 1993-cü ilin noyabrından sonra Azərbaycanda ordu quruculuğuna başlandı. Bu gün böyük iftixar hissi ilə deyə bilərik ki, Azərbaycanın qüdrətli ordusu vardır. Azərbaycan

torpaqlarını həmişə müdafiə etməyə, lazım olarsa, torpaqlarımızı müharibə yolu ilə azad etməyə qadir olan ordumuz vardır.

Azərbaycanda cəmiyyətdə, xüsusilə gənclər arasında orduya münasibət müsbət mənada tamamilə dəyişibdir. Gənclər indi orduya həvəslə gedirlər, orduda xidmət edirlər, öz vətən[227-228]daşlıq borclarını yerinə yetirirlər və Azərbaycan ordusunu gücləndirirlər, inkişaf etdirirlər.

Ordunun nümayəndələri burada çıxış etdilər. Ordunun bugünkü vəziyyəti hamımızda böyük iftixar hissi doğurur. Bəli, qısa bir zamanda Azərbaycanda ordunun yaranması və orduda zabitlərin, əsgərlərin sədaqətlə xidmət etməsi həyatımızın ən gözəl əlamətlərindən biridir. Ancaq orduya qayğı, diqqət daim artmalıdır. Azərbaycan gəncləri orduda xidmət etməyi öz şərəfli borcları hesab etməlidirlər. Buradakı çıxışlarda bu cür sözlər səsləndi. Mən də bunu bir daha bildirmək istəyirəm ki, hər bir azərbaycanlı gənc orduda xidmət etməklə özünü yüksəldir, həqiqi vətəndaş edir, ölkəsində özünü hüquqlu bir insan edir. Biz orduya bundan sonra da diqqəti, qayğını artıracağıq. Əminəm ki, Azərbaycan gəncləri ölkəmizin ordusunu bundan sonra da gücləndirəcəklər, inkişaf etdirəcəklər.

Ordunun nümayəndələri bu gün forum iştirakçılarını salamladılar, öz raportlarını təqdim etdilər. Hesab edirəm, biz də onları salamlamalıyıq. Mən bu salondan forumun adından Azərbaycan ordusunun əsgərlərinə və zabitlərinə səmimi salamlarımızı çatdırıram, onlara bu şərəfli işlərində yeni-yeni uğurlar arzulayıram.

Azərbaycan gənclərinin bir qismi vətən yolunda canlarını qurban vermiş şəhidlərin övladlarıdır. Azərbaycan gənclərinin bir qismi Vətən müharibəsində vuruşaraq şikəst, əlil olmuş, yaralanmış, xəsarət almış insanlardır. Onlara xüsusi qayğı, diqqət olmalıdır. Vətən yolunda vuruşaraq şikəst olmuş, gözlərini itirmiş Fikrət İsayev forumun dünənki iclasında çox həyəcanlı çıxış etdi. Fikrət İsayev kimi qəhrəman insanlar Azərbaycan gəncliyini yüksəldən və yüksək zirvələrə qaldıran insanlardır.

Vətən yolunda vuruşub qəhrəmanlıq nümunələri göstərən gənclərimizin hamısına mən bu gün bir daha, bir daha təşəkkürümü, minnətdarlığımı bildirirəm və bəyan edirəm ki, [228-229] Azərbaycan dövləti, prezidenti onlara qayğısını bundan sonra daim artıracaqdır. Gənclər və İdman Nazirliyi, bütün gənclər təşkilatları gənclərin bu dəstəsinə xüsusi qayğı, xüsusi diqqət göstərməlidirlər.

Azərbaycan gənclərinin bir hissəsi işğal olunmuş torpaqlarımızdan zorla köçürülmüş ailələrin övladlarıdır, həmin torpaqların gəncləridir. Biz yerindən-yurdundan didərgin düşmüş bütün soydaşlarımıza daim qayğı və diqqət göstərməliyik və göstəririk. Ancaq köçkün, qaçqın ailələrinin uşaqlarına, gənclərinə diqqət və qayğı xüsusi olmalıdır.

Forumdakı çıxışlarda qeyd olundu ki, onların təhsili də qənaətbəxş vəziyyətdə deyildir. Mən düşündüm, - doğrudur, Təhsil Nazirliyindən soruşa bilmədim, - bu şəhid övladlarına, müharibədə şikəst olmuş, xəsarət almış gənclərə və işğal edilmiş torpaqlarımızdan zorla qovulmuş ailələrin övladlarına, gənclərə təhsil sahəsində nə kimi güzəştlər, imtiyazlar vardır? Düzü, bilmirəm. Ancaq varsa, hesab edirəm, onları artırmaq lazımdır. Yoxdursa, belə imtiyazları, güzəştləri yaratmaq lazımdır.

Bəli, gərək biz bütün qaçqın və köçkün düşərgələrində məktəblər təşkil edək və onların uşaqlara, gənclərə lazımi səviyyədə təhsil verməsi üçün ciddi tədbirlər görək. Bu da forumun yekunlarından biridir. Hesab edirəm ki, bizim qəbul edəcəyimiz sənədlərdə bunlar öz əksini tapmalıdır.

Həyatımızda problemlər çoxdur. Hər bir vətəndaş, gənc özünə qayğı istəyir. Biz bunu etməliyik. Ancaq adlarını çəkdiyim təbəqələrdən olan gənclərə xüsusi qayğı, diqqət göstərilməlidir.

Qeyd etdim ki, Azərbaycan gənclər ölkəsidir.Belə olan halda gənclərə daha da geniş imkanlar yaratmaq, geniş yollar açmaq lazımdır. Mən gənclərin təhsili haqqında öz fikirlərimi dedim. Ancaq hesab edirəm, gənclərin əmək fəaliyyətinə, dövlət, hökumət işlərinə cəlb olunması bizim əsas vəzifələrimizdəndir. Bu barədə indiyə qədər müəyyən işlər görülübdür. [229-230] Ancaq onlar azdır. Mən burada səslənən bütün fikirlərlə razıyam ki, gənclər dövlət idarəetmə işinə cəlb olunmalıdır. Bizim hökumət orqanları, Nazirlər Kabineti, nazirliklər, yerli hakimiyyət orqanları gəncləri irəli çəkməlidirlər, onları dövlət, hökumət işinə cəlb etməlidirlər, öz imkanlarını həyata keçirmək, reallaşdırmaq üçün gənclərə şərait yaratmalıdırlar.

Forumda dünən və bu gün çıxış edən gənclər özlərinin siyasi yetkinliklərini, dövlət işi üçün nə qədər hazır olduqlarını göstərdilər. Biz onlara imkanlar yaratmalıyıq. Mən bu gün bəyan edirəm ki, bütün hakimiyyət orqanlarında, dövlət və hökumət orqanlarında gənclər işə cəlb olunmalıdır və onlara bu barədə lazımi qayğı göstərilməlidir.

Mən bu fikri əvvəllər də irəli sürmüşdüm. Ancaq təəssüflər olsun ki, onun əməli surətdə tam həyata keçirilməsinə nail ola bilməmişik. Ona görə də forumun yekunları ilə əlaqədar sənədlərdə bizim bu çağırışlarımızdan əlavə, onları həyata keçirmək üçün, gənclərin dövlət, hakimiyyət işinə cəlb olunması üçün konkret tədbirlər görməliyik. Hesab edirəm ki, şəhərlərə, rayonlara, bütün nazirliklərə bu barədə lazımi göstərişlər verilməlidir və onların həyata keçirilməsi nəzarət altında olmalıdır.

Biz yaşlı, orta nəslin Azərbaycanın bugünkü həyatında xidmətlərini yüksək qiymətləndirməliyik. Onların təcrübəsindən, biliyindən, bacarığından bundan sonra da fəal istifadə edəcəyik. Ancaq bunlar gənclərin irəli çəkilməsinə, dövlət işlərinə cəlb edilməsinə mane olmamalıdır. Əmin ola bilərsiniz ki, mən bu fikri axıradək həyata keçirəcəyəm.

Gənclərin, ümumiyyətlə, Azərbaycan vətəndaşlarının fəaliyyəti üçün müstəqil dövlətimizin əsas prinsiplərinə əməl edilməlidir. Əgər belə deyə bilsək, bu, müstəqil Azərbaycanın milli ideologiyasının prinsipləridir. Bu, Azərbaycanın müstəqilliyi, onun möhkəmləndirilməsi, daim inkişaf etdirilməsi və əbədi olmasıdır. [230-231]

Azərbaycanın süverenliyi, bütövlüyü və bölünməzliyi, ölkəmizin bütün vətəndaşlarının mənsub olduğu Azərbaycan xalqı, azərbaycançılıq, ölkəmizin dövlət dili olan Azərbaycan dili, xalqımızın tarix boyu yaratdığı milli-mənəvi dəyərlərimiz, xalqımızın milli əxlaqi mentaliteti, ümumbəşəri dəyərlər və bütün bu dəyərlərin sintezi, respublikamızın ilk demokratik konstitusiyası, bu konstitusiyada hər bir vətəndaş üçün vəzifələr, vətəndaşlarımızın hüquqları, təminatları, Azərbaycanın milli bayrağı, gerbi, himni – bütün bunlar, mənim fikrimcə, müstəqil Azərbaycanın milli ideologiyasının əsasını təşkil edən prinsiplərdir. Gənclərimizi təhsil, tərbiyə sahəsində, ailə həyatında bu prinsiplər əsasında formalaşdırmaq, inkişaf etdirmək və fəaliyyətə cəlb etmək lazımdır.

Hesab edirəm ki, bunlar Azərbaycan məktəblərinin, universitetlərinin, bütün təhsil ocaqlarının, ölkəmizin gənclər təşkilatlarının, Təhsil Nazirliyinin, Gənclər və İdman Nazirliyinin, bütün hakimiyyət orqanlarının əsas vəzifəsidir. Gənclər bütün bu prinsiplər əsasında tərbiyələndirilməli, inkişaf etdirilməlidir. Onlar Azərbaycanın gələcəyini təmin etməlidirlər.

Əziz gənclər!

Forum zamanı siz Azərbaycanın dövlətçiliyi, ölkəmizin xarici və daxili siyasəti, respublikamızın bu günü və gələcəyi haqqında səmimi sözlər dediniz, öz fikirlərinizi bildirdiniz. Bütün bunlara görə sağ olun. Azərbaycan dövləti müstəqil dövlətimizi qorumaq, inkişaf etdirmək üçün öz vəzifələrini yerinə yetirir. Ancaq xalqın dəstəyi, etimadı, gənclərin Azərbaycanın dövlət siyasətinə verdiyi dəstək və bu siyasətin həyata keçirilməsində fəal iştirakı bizim bugünkü və gələcək nailiyyətlərimizin əsasını təşkil edir.

Mən bu dəstəyinizə görə sizə təşəkkür edirəm. İnanıram ki, Azərbaycanın gəncləri bundan sonra da ölkəmizin dövlətçiliyini və müstəqilliyini daim müdafiə edəcək və qoruyacaqlar, Azərbaycanın dövlətinə, prezidentinə daim dayaq olacaqlar. [231-232]

Forum və gənclərin bugünkü əhval-ruhiyyəsi məni çox sevindiribdir. Güman edirəm ki, bu forumun gedişini televiziya ilə müşahidə, seyr edənlər, həqiqi Azərbaycan vətəndaşları, vətənpərvər insanlar bizim kimi sevinirlər və Azərbaycan gəncliyinin bu günü ilə fəxr edirlər.

Əziz gənclər!

Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifələr düşür. Bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır. Siz müstəqil Azərbaycanı XXI əsrdə yaşadanlarsınız, quranlarsınız, inkişaf etdirənlərsiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq. Ona görə də Azərbaycanı, Azərbaycan dövlətini yaşatmaq, inkişaf etdirmək üçün hazır olun!

Mən sizə bir daha cansağlığı arzu edirəm, bütün işlərinizdə uğurlar arzulayıram. Əminəm ki, Azərbaycanın gəncliyi, ölkəmizin bu günü və gələcəyi həmişə parlaq, işıqlı olacaqdır.

Yaşasın Azərbaycan gəncləri!

Yaşasın müstəqil Azərbaycan! [232]

## GÖRKƏMLİ QAZAX YAZIÇISI, QAZAXISTANIN İTALİYA VƏ YUNANISTANDAKI SƏFİRİ OLJAS SÜLEYMENOVLA GÖRÜŞDƏKİ SÖHBƏT

*Prezident sarayı*

*4 mart 1999-cu il*

**Oljas Süleymenov**: Çox şadam ki, uzun illərdən sonra biz yenidən görüşürük. Amma mən Sizi həmişə görürəm, fəaliyyətinizi izləyirəm. Dünən Sizin çıxışınızı dinlədim.

**Heydər Əliyev**: Bəli, bizim axırıncı görüşümüzdən çox illər, on il, bəlkə də daha çox keçmişdir.

**Oljas Süleymenov**: Xatirimdədir, mən burada Füzulinin yubileyində olmuşam. O vaxt Siz mənə dediniz ki, Oljas, sən təkcə qazaxlara deyil, azərbaycanlılara da gərəksən.

**Heydər Əliyev**: Oljas, çox şadam ki, siz bizə qonaq gəlmisiniz. Azərbaycanda sizi xalqımızın böyük dostu hesab edirlər. Təbii ki, mən də bu fikirdəyəm. Hesab edirəm ki, siz Azərbaycan xalqının da dostusunuz, mənim də dostumsunuz. Sizə böyük hörmət hissləri bəslənilir, həm yazıçı, həm də siyasi xadim kimi, Azərbaycanda böyük nüfuza maliksiniz. Azərbaycanın 1990-cı ilin yanvarında sovet qoşunları tərəfindən işğalı zamanı sizin fəaliyyətinizi Azərbaycanda yaxşı xatırlayır və yüksək qiymətləndirirlər, sovet qoşunlarının Bakıya yeridilməsinin ikinci günü sizin buraya gəlişinizi xatırlayırlar. Siz buraya gəldiniz, çıxış edib baş verənləri pislədiniz. Bunu Azərbaycanda çox yaxşı xatırlayırlar. [233-234]

Bizi sizinlə çoxdankı dostluq bağlayır. Hələ o vaxtlar, mən burada, Azərbaycanda, siz isə Qazaxıstanda işləyən dövrlərdə, sonra Moskvada işlədiyim zaman mən sizə böyük iftixar hissi ilə baxırdım ki, xalqlarımızın belə gənc istedadları var; elə istedadlar ki, nəinki romanlar, pyeslər və ya digər ədəbi əsərlər yazmağa, həm də öz xalqı haqqında, onun taleyi, keçmişi, indisi və gələcəyi barədə düşünməyə qadirdirlər. İndi öz tarixi köklərini, tarixi keçmişini, milli özgünlüyünü və milli ləyaqətini daha dərindən dərk etmiş bütün xalqlarımızın belə görkəmli nümayəndələrindən birisiniz. Siz hələ cavanlığınızda bu məsələlərdə çoxlarına nisbətən daha böyük yetkinlik nümayiş etdirirdiniz. Bu, yaxşı məlumdur. O vaxtlar mən bunu görür, müşahidə edir, duyurdum və buna görə də bu, əslinə qalsa, ədəbi istedadınızla yanaşı, məndə sizə hörmət, ən səmimi, dostluq hissləri doğururdu. Buna görə də şadam ki, siz Azərbaycanı unutmursunuz, buraya gəlmişsiniz, özü də qəfildən, gözlənilmədən gəlmisiniz. Dünən qəfildən, günortadan sonra mənə xəbər verdilər ki, siz buraya gəlirsiniz. Əlbəttə ki, mən sevindim, çünki bu, çox xoş xəbər idi. Bununla bərabər, dərhal soruşdum ki, siz burada neçə gün qalacaqsınız. Mənə dedilər ki, çox az. Onda şübhəsiz ki, məyus oldum. Buna baxmayaraq, mən bu görüşə şadam, sizi görməyimə şadam. Siz əvvəllər olduğu kimi yenə gə gözəlsiniz. Bir sözlə, sizi salamlayıram.

**Oljas Süleymenov**: Təşəkkür edirəm. Mən buraya, həqiqətən, gözlənilmədən gəldim. Almatıdan İstanbul vasitəsilə Romaya gedirdim, yolüstü İstanbulda dayandım və buraya zəng vurub dedim ki, iki gün vaxtım var. Soruşdum ki, buraya gələ bilərəmmi? Onu da soruşdum ki, Heydər Əliyeviç indi Bakıdadırmı? Dedilər ki, bəli. Odur ki, təyyarəyə minib buraya gəldim.

Heydər Əliyeviç, mən Sizə həmişə böyük hörmətlə yanaşmışam, yanaşıram və yanaşacağam. Çünki bir şəxsiyyət kimi, [234-235] dövlət xadimi kimi bütün keçmiş Sovet İttifaqı üçün, Azərbaycan üçün, yer üzündəki bütün türk xalqları üçün qədir-qiymətinizi bilirəm. Zənnimcə, əgər onda, 1990-cı ildə Siz burada olsaydınız, həmin o Qara Yanvar olmazdı.

Xatirimdədir, o vaxt mən bundan gecə saat üçdə xəbər tutdum, yazıçılar mənə zəng vurmuşdular. O zaman mənə soyuq dəymişdi və «Moskva» mehmanxanasında qızdırmalı yatırdım. Amma hadisədən xəbər tutan kimi qalxıb buraya gəldim. Axı o anda deyə bilməzdim ki, xəstəyəm, gələ bilmərəm. Təbii ki, gəlməyə bilməzdim. Bunu düzgün başa düşməzdilər, fikirləşərdilər ki, Oljas özünü bu dəhşətli əhvalatdan kənara çəkir.

Mən gəldim və dostlarımın, doğma Azərbaycanımın müsibətinə və ağrı-acılarına şərik çıxdım. O vaxtdan həmin günlər, sonralar baş vermiş hadisələr barədə xatirələr mənim ovqatıma təsir göstərir. Mən ilk qaçqınları görmüşəm və bu gün onların məskənlərinə getmək, onlarla dərdləşmək, onların ümid və iztirablarından hali olmaq istəyirəm. Biz bütün bunlara biganə qala bilmərik.

Bu gün mən Sizinlə, Azərbaycanla bir daha görüşürəm. Burada gördüklərimi və hiss etdiklərimi dostlarıma və başqa ölkələrdə ünsiyyətdə olduğum adamlara da danışacağam. Bu torpağa, onun xalqına, şəxsən Sizə, Azərbaycanın görkəmli oğullarına öz məhəbbətimi bir daha ifadə etmək və doğma saydığım bu torpağa xoşbəxtlik, tarixin bizi qarşılaşdırdığı belə dəhşətli vəziyyətlərdən tezliklə çıxmağı arzulamaq istəyirəm. Bu xalqın, onun rəhbərliyinin nikbinliyi ümid verir ki, hər şey qaydasına düşəcək, digər xalqların köməyi, arzu və ümidləri ilə burada da günəş bərq vuracaqdır. Azərbaycan buna layiqdir. Sizinlə görüşərkən mən bax, bunları demək istəyirdim.

**H e y d ə r Ə l i y e v**: Mən sizin təşəbbüsünüzü qiymətləndirirəm və bayaq dediyim kimi, istərdim ki, burada çox qalasınız. Ancaq, hər halda, Azərbaycanda olmaq üçün ayırdığınız [235-236] vaxt ərzində biz çalışacağıq ki, qaçqınlarımızın yaşadıqları çadır düşərgələrini də, mümkün olan hər şeyi də görəsiniz. Bizim üçün başlıcası sizin ölkəmizə, xalqımıza göstərdiyiniz diqqətdir. Bu diqqət də öz ifadəsini sizin buraya gəlişinizdə tapır.

Sizi gördükdə, əlbəttə, ötən günlərdən çox şeyi yada salıram, xatırlayıram. Xatırlayıram ki, siz öz əsərlərinizdə mərdliklə və cəsarətlə elə mövzular qaldırırdınız ki, bunlar o vaxtlar da gərək idi, indi – qazax xalqı da, Azərbaycan xalqı da öz müstəqilliyini, azadlığını əldə etdiyi, suveren dövlətlər olduğu vaxtda daha yüksək qiymətləndirilir.

Əlbəttə, 1986-cı ilin dekabrını da xatırlayıram. Yeri gəlmişkən, deməliyəm ki, bu, Sovetlər İttifaqının tərkibinə daxil olan xalqlara qarşı, necə deyərlər, ilk siyasi təcavüz idi. O vaxt mən Siyasi Büronun üzvü idim və yeri gəlmişkən, Mixail Qorbaçov oraya Kolbini MK-nın birinci katibi kimi göndərməyi qərara aldıqda ona öz fikrimi söylədim. Öz narahatlığımı bildirdim, çünki bundan əvvəl o, Şimali Qafqaz respublikaları barəsində artıq müəyyən işlər görmüşdü – orada yerli millətlərdən olan adamları ruslarla əvəz etmişdi. Sonra, 1986-cı ilin dekabrında Almatıda bu hadisə baş verdikdə Solomentsev başda olmaqla, - siz onu Qazaxıstanda hələ keçmişdəki fəaliyyətindən tanıyırdınız, - komissiya göndərildiyini və nə kimi qərar qəbul edildiyini xatırlayıram.

Mən öz fikrimi çox kəskin şəkildə bildirdim. Qorbaçovun yeritdiyi milli siyasət məsələləri ilə əlaqədar bizim aramızda əvvəllər də ciddi fikir ayrılıqları olurdu. Yeri gəlmişkən deməliyəm ki, öz sələflərindən fərqli olaraq o, müsəlman xalqları, türk mənşəli xalqlar barəsində çox mənfi mövqe tuturdu. Siyasi Büronun iclaslarında, - xüsusən də bu iclaslar «məhdud» dairədə keçəndə, - oturmaq və olduqca xoşagəlməz söhbətləri eşitmək mənim üçün çox ağır idi. Məsələn, yadınızda olduğu kimi, Özbəkistanda rəhmətlik Şərəf Rəşidova qarşı kampaniya başlanmışdı və əslində günahsız insanları zindanlara salırdılar. [236-237] Hər həftə iclaslarda Rusiya Federasiyasının bu və ya digər vilayətlərinin siyahılarını təklif edir, adamlar seçir və onları Özbəkistana göndərirdilər. Soruşurdum niyə? Mənə cavab verirdilər ki, orada kadrlar yoxdur. Özbəkistan belə yüksək səviyyədə olduğu halda, demə, orada «kadrlar yox imiş».

Sonra bütün bunlar o yerə gətirib çıxarıldı ki, Qazaxıstanda, o cür kadrları olan respublikada, sən demə, yerli millətdən olan adam yox idi, oraya Kolbini gördərmək lazım imiş.

Beləcə, 1986-cı ilin dekabr hadisələri baş verdi və bir il sonra, hətta bir az da tez, 1987-ci ilin oktyabrında mən bütün vəzifələrimdən istefaya getdim. Qazaxıstanla bağlı hoqqabazlıq mənə çox ağır təsir bağışladı və əslinə qalsa, Qorbaçovla münaqişəmizin zirvəsinə çevrildi. Yeri gəlmişkən, o vaxt mən Almatıda rəsmi səfərdə olanda bu barədə parlamentdə Nursultan Abişeviçə danışdım.

Təəccüblüsü bu idi ki, Qorbaçov yalan məlumat verirdi. O, Siyasi Büroda deyirdi ki, bilirsinizmi, Qazaxıstanda hamı istəyir ki, birinci katib yerli millətdən olmasın. Görürsünüzmü, bunların hamısı necə saxtakarlıqla təqdim edilirdi, o, hətta bir dəfə bildirmişdi ki, guya Kunayev gələrək demişdir ki, orada elə bir adam yoxdur və Moskvadan adam göndərin. Bax, belə informasiyalar verirdi. Nə etmək olardı? Axı biz bunu yoxlaya bilmirdik. Axı o bunları Siyasi Büronun iclasında deyirdi. Məsələnin müzakirəsindən sonra mən onun yanına gəldim və təklikdə dedim: Siz bir başa düşün, mən burada, Siyasi Büroda rus və ya Ukrayna millətindən olmayan yeganə adamam, mən biganə qala bilmərəm, siz düz iş tutmursunuz, indi 30-cu, 40-cı illər deyil, artıq 1986-cı ildir. Hətta 30-cu illərdə Qazaxıstana Şayahmətov – yerli millətdən olan adam başçılıq edirdi. Bəs indi necə oldu ki, 1986-cı ildə Qazaxıstanda, bu qədər kadrları olan belə böyük respublikada yerli millətdən adam yoxdur? Onun şovinist mövqeyi konkret işlərində özünü çox aydın və konkret görünürdü. [237-238]

Əslinə qalsa, məhz bu ona gətirib çıxardı ki, sonralar, 1988-ci ilin fevralında Dağlıq Qarabağ üstündə Ermənistanla Azərbaycan arasında münaqişə başlandı. Sözün düzü, mən hər yerdə və həmişə dəfələrlə açıq demişəm ki, günahkar o, Qorbaçovdur. «Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinin mümkünlüyü» barədə müraciət edən ermənilərə o vəd vermişdi. O, erməniləri arxayın salmış, onlara razılıq vermişdi, sonra da onlar baş qaldırdılar. Onlar baş qaldıranda isə o bunun qarşısını ala bilərdi – o vaxt hələ Sovetlər İttifaqı kimi bir dövlət vardı. Axı Dağlıq Qarabağ məsələsi tarixin əvvəlki mərhələlərində də qaldırılmışdı. Mən burada 14 il respublikanın rəhbəri işləmişəm və bu müddətdə həmin məsələni dəfələrlə qaldırmışdılar. Biz müzakirə edir və sübut edirdik ki, bu, mümkün deyildir, qanunauyğun deyildir və məsələ obyektiv həll olunurdu. Amma bu dəfə o, həmin məsələni xüsusi olaraq qızışdırdı, faciə baş verdi. 10 ildən çoxdur davam edir.

Əslində, digər bütün münaqişələr – gürcü-abxaz münaqişəsi də, gürcü-osetin münaqişəsi də, nəhayət, Çeçenistan, Moldova münaqişələri də Dağlıq Qarabağ münaqişəsi başlandıqdan sonra yarandı. Onların hamısı sonra meydana gəldi, çünki bu, zəncirvari reaksiyadır. Tarixdə həmişə belə olmuşdur. Ermənistan – Azərbaycan münaqişəsi birinci idi. İndi həlli müşkülə düşən bütün bu münaqişələrin yaranmasında Qorbaçov təqsirkardır. Müxtəsəri, sizi gördükdə bütün keçmişi xatırlayıram.

**O l j a s S ü l e y m e n o v**: Bütün bunlar siyasi qeyri-peşəkarlığın nəticəsidir, peşəkarlar meydandan çəkilmiş və boşluğu səriştəsiz adamlar, qeyri-peşəkarlar doldurmuşdular. Siyasi nadanlıq milyonlarla insanın faciəsinə gətirib çıxarır. Buna görə də çox vacibdir ki, müstəqilliyin təşəkkül tapdığı məhz bu çətin

dövrdə xalqlara Sizin kimi yüksək dərəcəli peşəkarlar, bərkdən-boşdan çıxmış insanlar rəhbərlik etsinlər. Çünki belə imkan xalqlara min ildə bəlkə də bir dəfə verilir və onu əldən buraxmaq olmaz, ondan elə istifadə etmək lazımdır ki, [238-239] xalq bu dövrdən möhkəmlənmiş halda çıxsın və onun sonrakı nəsilləri irsən müstəqil, sözün əsl mənasında azad və məğrur insanlar olsunlar. Heydər Əliyeviç, Sizin kimi rəhbərlərin xidməti də məhz bundan ibarətdir. Sizə möhkəm cansağlığı, dünən tribunadan çoxminlik salonu lərzəyə gətirdiyiniz kimi güclü enerji arzulayıram. Mən gənclərin Sizi necə alqışladığını gördüm. Təcrübə ilə gənclik hərarətinin bu vəhdəti, bu birliyi çox şey deyir. Sizə cansağlığı, xoşbəxtlik və müvəffəqiyyətlər arzulayıram.

**H e y d ə r  Ə l i y e v**: Səmimi sözlərə və xoş arzulara görə, Oljas, Sizə təşəkkür edirəm. [239]

## MDB-nin İCRAÇI KATİBİ BORİS BEREZOVSKİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏT

*Prezident sarayı*

*5 mart 1999-cu il*

**Heydər Əliyev**: Sizi səmimi-qəlbdən salamlayır, yenidən görüşməyimizə şadam. Eşitdim ki, siz MDB-nin bəzi ölkələrinə səfər etmisiniz və zənnimcə, Bakı axırıncı məntəqədir. Yoxsa, səfəri davam etdirəcəksiniz?

**Boris Berezovski**: Bakıdan sonra Moskvaya getməyə hazırlaşıram. Heydər Əliyeviç, hər şeydən əvvəl çox sağ olun ki, vaxt tapıb məni qəbul etdiniz. Əvvəlki görüşlərimizin hamısında biz bütün dövlət başçılarının hələ keçən ilin aprelində qarşıya qoyduqları vəzifələrdə çox konstruktiv irəliləmişik. Əslinə qalsa, Sizinlə görüşümdən məqsəd mənə tapşırılmış işin necə getdiyi barədə məlumat verməkdir. Mənə elə gəlir ki, bu iş dövlət başçılarının istər azad ticarət zonası yaradılması üçün, istərsə də birliyin islahatı üçün müəyyənləşdirdikləri nəticəyə yaxınlaşmaqdadır. Zənnimcə, bu çox vacibdir ki, birlik üçün müəyyənləşdirdiyiniz yeni üstün cəhətlər, - yəni iqtisadiyyat hər şeydən irəlidir, qalanların hamısı bunun nəticəsidir və nəticəsi də olmalıdır, - yeni struktura çevrilməlidir. Həqiqətən, iqtisadi cəhətlər birliyin yeni ünsürlərində, ötən dəfə sizə dediyim və bu dəfə də diqqətinizə çatdıracağım ünsürlərdə əsas yer tutur. Bir daha çox sağ olun ki, bunu müzakirə etməyə vaxt tapdınız. [240-241]

**Heydər Əliyev**: Bəli, biz belə bir rəylə razıyıq və onu dəstəkləyirik ki, iqtisadi cəhətlər bizim üçün, MDB ölkələri üçün başlıcadır, bunlar Müstəqil Dövlətlər Birliyini möhkəmlədib inkişaf etdirə bilər. Təəssüf ki, bu sahədə hələlik ancaq söhbətlər gedir, iş isə yoxdur. Biz, dövlət başçıları axırıncı dəfə, deyəsən, ötən il aprelin 29-da görüşmüşük. Tezliklə bir il olacaqdır. Gərək ki, biz iki dəfə görüşmək istəyirdik, demişdik ki, görüşlər keçiriləcək, amma keçirilmədi. Başa düşürəm, burada müəyyən obyektiv səbəblər var. Bununla yanaşı, belə çıxır ki, MDB var, MDB-nin konkret praktiki fəaliyyəti isə yoxdur.

Siz o vaxt gəldiniz, MDB-nin, onun strukturlarının fəaliyyətini indi dediyiniz səpgidə təkmilləşdirməyə dair təkliflər verdiniz. Biz bunların hamısını bəyəndik, razılaşdıq. Bundan sonra nümayəndəmiz bir neçə dəfə iclaslarda oldu, axırıncı dəfə sizin iclasınız Minskdə keçirildi. Biz də bu fikirdəyik ki, indi həqiqətən hər şeyi MDB çərçivəsində əhatə etmək praktiki cəhətdən mümkün deyildir. Üstəlik, düşünməliyik: lazımdırmı? O ki qaldı iqtisadi əməkdaşlığa, MDB-nin iqtisadi əlaqələrinin inkişafına, mən də bu fikirdəyəm ki, bu, başlıca məsələdir, iqtisadi əməkdaşlığın yaxşı, səmərəli təşkili ona gətirib çıxara bilər ki, buna başqa sahələr də qoşula bilərlər.

**Boris Berezovski**: Heydər Əliyeviç, mən buraya həqiqətən Özbəkistandan gəlmişəm. Dünən prezident İslam Kərimovla görüşüm oldu, bundan əvvəl Gürcüstanda Eduard Amvrosiyeviç Şevardnadze ilə, Ermənistanda prezident Koçaryanla, Tacikistanda prezident Rəhmonov ilə görüşmüşdüm, Türkmənistan prezidenti Niyazovun yanında da olmuşdum. Onların hamısı narahatlıqla bildirdilər ki, çoxdandır görüşlər keçirilmir, faktiki olaraq irəliləyiş yoxdur. İstisnasız olaraq hamı belə fikir söylədi ki, əgər biz üstün istiqamətləri düzgün müəyyənləşdirsək, əgər iqtisadi məsələlər qalan hər şeydən üstün tutularsa, onda bu, ümumi mənafelərin həyata [241-242] keçirilməsinə imkan yaratmağa gətirib çıxaracaq yoldur. Siyasi hikkələr vasitəsilə, siyasi niyyətlər vasitəsilə deyil, məhz iqtisadiyyat vasitəsilə, Birliyin hər bir ölkəsinin hər bir adamını, hər bir vətəndaşını real surətdə əhatə edə biləcək vəzifələr vasitəsilə. Buna görə də prezidentlərin mövqeyini bir daha bilmək mənim üçün həqiqətən vacib idi. Mən bundan əvvəl Ukrayna prezidenti ilə, Belarus prezidenti ilə, məhz belə üstün istiqamətlərin ən qızğın tərəfdarlarından biri olan Qazaxıstan prezidenti ilə görüşmüşdüm. Düşünürəm ki, məsələlərə münasibətdəki bu vəhdət, şübhəsiz, bir nəticə verə bilər. Əminəm ki, görüş keçiriləcək, zirvə toplantısı yaxın vaxtlarda olacaqdır. Amma, əlbəttə, bu işdəki bir illik fasilə ideyanın özünü pozur. Mən bu barədə Sizinlə tam razıyam.

**Heydər Əliyev**: Mən razıyam, biz də bu fikirdəyik. Prinsipcə mən son vaxtlar bir neçə dəfə bildirmişəm ki, indi MDB çox böyük böhran keçirir. Əgər dövlət başçıları və ən əvvəl Rusiya MDB-nin mövcud olmasını və bütün ölkələrə fayda gətirməsini istəyirlərsə, onda iş bu cür vəziyyətdə qala bilməz. İndi, xüsusən də, demək olar, bütün MDB ölkələrini və ilk növbədə Rusiyanı bürümüş və şübhəsiz, bizə, Azərbaycana da mənfi təsir göstərmiş maliyyə-iqtisadi böhran fonunda iqtisadi inteqrasiyanı gücləndirmək lazımdır. Biz böhranın ziyan vurmasına yol verməmək üçün çox böyük səylər göstərməli olduq. Böhranın mənfi təsirini hiss etmişik və edirik, ancaq buna baxmayaraq, valyutamızın sabitliyini qoruyub saxlamışıq, bizdə Rusiyadakı, digər MDB ölkələrindəki kimi inflyasiya yoxdur, milli valyutamız möhkəmləndiyinə görə istehlak malları hətta ucuzlaşmışdır. Əlbəttə, biz buna böyük çətinliklə müvəffəq olmuşuq, inflyasiyanın artmasına və Rusiyadakı maliyyə-iqtisadi böhranın təsirinin böyük olmasına yol verməmək üçün ehtiyatlarımızdan istifadə etmək lazım gəlmişdir. Biz bu vəziyyətdən çıxmışıq, bu gün də çıxırıq, hər-

çənd respublikanın maliyyə-iqtisadi vəziyyətinə təzyiq var. [242-243] Təminat varmı ki, Rusiyada sabah daha hansısa bir böhran tüğyan etməyəcək və bu böhran bizə yenidən zərbə endirməyəcəkdir?

Buna görə də təbii ki, iqtisadiyyat əsasdır. Biz Rusiya iqtisadiyyatında nə kimi mürəkkəb proseslər getdiyini informasiya orqanları əsasında müşahidə edirik. Rusiya çox böyük ölkədir, bütün MDB ölkələri onunla iqtisadi cəhətdən bağlıdır. Ona görə də bu məsələlərlə daha fəal məşğul olmaq lazım idi. Təəssüf ki, belə deyildir və nədənsə, kollektiv təhlükəsizlik haqqında müqavilə məsələsi daha çox müzakirə edilir. Halbuki indi bu, heç də başlıca məsələ deyildir. Məsələn, biz Azərbaycanda hesab edirik ki, MDB ölkələri hansısa bir xarici təcavüz təhlükəsi qarşısında deyil ki, kollektiv təhlükəsizliyi möhkəmləndirsinlər. Belə təhlükə yoxdur. Amma buna baxmayaraq, iqtisadiyyatdan çox, kollektiv təhlükəsizlik haqqında müqavilənin müqəddəratından söhbətlər gedir.

Bu onu göstərir ki, Rusiya, - çünki həmin təklif və məsələlərin hamısının təşəbbüsçüsü Rusiyadır, - vəziyyəti çox da düz qiymətləndirmir, məsələlərin həllinə çox da düz yanaşmır. Əgər kollektiv təhlükəsizlik haqqında müqavilədən danışmalı olsaq, onda MDB ölkələri bu müqavilənin nə kimi faydasını görüblər? Hələ 1993-cü ilin dekabrında, Azərbaycan MDB-yə daxil olduqdan az sonra, - siz bilirsiniz ki, Azərbaycan MDB-yə 1993-cü ilin sentyabrında daxil olub, - Aşqabadda MDB dövlət başçılarının görüşündə mən məsələ qaldırdım və çox ətraflı bir bəyanat verdim ki, əgər bu birliyə daxil olan ölkələrdən ikisi – Ermənistan və Azərbaycan müharibə vəziyyətindədirsə, bir-biri ilə vuruşursa, onda Müstəqil Dövlətlər Birliyi, xüsusən kollektiv təhlükəsizlik haqqında müqavilə mövcud ola bilməz. O vaxtlar isə fəal döyüş əməliyyatları gedirdi və Ermənistan silahlı qüvvələri çox fəal hücum edirdilər. Lakin, təəssüflər olsun, - bunu demək istəyirəm, aradan artıq bir çox illər keçmişdir,- o vaxt bütün dövlət başçıları bu bəyanata [243-244] reaksiya vermədilər. Mənim bəyanatım bir bəyanat olaraq qaldı. Bəlkə ona görə ki, o vaxtlar Azərbaycanın əzab çəkdiyi qədər heç kim əzab çəkmirdi, bəlkə də, MDB ölkələrinin bu problemdən xəbəri yox idi. Bununla belə, əgər biz MDB-də birləşmişiksə və kollektiv təhlükəsizlik haqqında müqaviləyə daxiliksə, onda, gəlin, bir nəzər salaq.

Bu, 1993-cü ilin dekabrında olmuşdu. İndi 1999-cu ilin əvvəlidir, beş ildən artıq vaxt keçmişdir və kollektiv təhlükəsizlik haqqında müqavilə məsələsi yenə də müzakirə edilir. Yəni demək istəyirəm ki, əsas diqqəti indi MDB ölkələri üçün həlledici əhəmiyyətə malik başlıca məsələlər üzərində cəmləşdirmək əvəzinə, nədənsə digər, daha az əhəmiyyətli məsələlərin üstünə düşmüşlər. Əlbəttə, təhlükəsizlik məsələsi bizim üçün çox mühüm məsələdir. Əgər MDB ölkələri birləşib Ermənistan – Azərbaycan münaqişəsini həll etməyə, Qafqazda sülh yaratmağa, Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş Azərbaycan ərazisini azad etməyə, Ermənistan silahlı qüvvələrinin işğalı ilə əlaqədar öz yaşayış yerlərindən qovulmuş bir milyondan çox Azərbaycan vətəndaşlarının oraya qayıtmasına kömək etsələr, əlbəttə ki, bu halda biz təhlükəsizliyə, kollektiv təhlükəsizliyə, bütün MDB ölkələrinin, o cümlədən də ölkələrimizin təhlükəsizliyinə aid bütün məsələlərin müzakirəsinin fəal iştirakçısı olardıq. Lakin MDB ölkələri üçün ən ağır problem – Ermənistanla Azərbaycan arasında hərbi münaqişə bir kənarda qalır, bəziləri, xüsusən Moskvada, kollektiv təhlükəsizlik haqqında müqavilənin qeydinə qalırlar. Əgər bu müqavilə MDB-nin daxilində təhlükəsizliyi təmin etmirsə, nə müqavilədir?

MDB-nin fəaliyyətində, xüsusən bunu əlaqələndirməli olan adamların işində nöqsanlar, səhvlər çoxdur. Boris Abramoviç, mən başa düşürəm, siz əsasən iqtisadi məsələlərlə məşğul olursunuz. Amma gərək ki, kollektiv təhlükəsizlik haqqında müqavilənin baş katibi var. Beş ildə mən bu baş katibin [244-245] üzünü görməmişəm və ümumiyyətlə, onun nə ilə məşğul olduğunu bilmirəm. İndi, kollektiv təhlükəsizlik haqqında müqavilənin müddəti bitdiyi və onun uzadılmasından, yeni müqavilə imzalanmasından söhbət getdiyi vaxtda isə ortaya məsələ çıxır. Bəs bu beş ildə harada idilər? Ermənistanla Azərbaycan arasında mövcud olan problemə nə üçün laqeyddirlər?

Bir sözlə, məsələlər çoxdur. Lakin mənə elə gəlir ki, biz fikir mübadiləsi edirik.

Sonra. Bu gün Moskva televiziyası xəbər verdi ki, kimsə MDB-nin icraçı katibi Berezovskini işdən çıxarmışdır. Biz isə sizinlə görüş barədə razılaşmışdıq. Bu mənə aydın deyildir, mən təəccübləndim. Belə şey olar? Axı biz, dövlət başçıları Berezovskinin MDB-nin icraçı katibi təyin olunması haqqında qərarı birlikdə müzakirə və qəbul etmişdik. Əgər onun əvəz olunması və ya azad edilməsi və hətta başqa işə keçirilməsi məsələsi meydana çıxarsa, onda biz bu məsələni də müzakirə etməli, birgə həll etməliyik. Axı, nəhayət, MDB-ni hər hansı dövlətin əlavəsinə çevirmək olmaz. Sözün düzü, mən bu xəbərdən təəccübləndim və düşünürəm ki, biz bu məsələni aydınlaşdırmalıyıq. Hesab edirəm ki, bu, sizin deyil, bizim məsələmizdir. Bunu mənə səhər bildirdilər, dedilər ki, bu xəbəri Moskva televiziyası vermişdir. Ona görə də mən bu barədə də öz fikrimi söyləməyi qərara aldım.

**B o r i s  B e r e z o v s k i**: Mənə elə gəlir ki, qəribə olsa da, dövlətlər üçün çox ciddi olan birinci məsələ – təhlükəsizlik məsələsi də, Sovet İttifaqının süqutundan sonra meydana gəlmiş son dərəcə mürəkkəb problemlərin həlli məsələsi və Sizin xatırlatdığınız kiçik bir məsələ, yəni icraçı katibin təyin və azad edilməsi məsələsi də, təəssüf, eyni bir səbəblə bağlıdır. Zənnimcə, son vaxtlar dünyada baş verən hadisələr, həqiqətən dərindən dərk edilmir. Sovet İttifaqı biryolluq, həmişəlik dağılıb getmişdir. Təəssüflər olsun, kiminsə başında belə bir ideya var ki, bu, uçub dağılmış adicə kubiklərdir və onları [245-246] yenidən yığmaq, yapışdırmaq mümkündür və onda hər şey qaydasında olacaqdır. Bu adamlar qətiyyən başa düşmürlər ki, adi

kubiklər daha yoxdur, indi mürəkkəb həndəsi fiqurlar – öz milli, mədəni, iqtisadi xüsusiyyətləri olan ayrı-ayrı ölkələr var və indən belə daha adicə kubiklərdən əzəmətli bina ucaltmaq mümkün deyildir. Buna görə də çox tez-tez yanılırlar və yenə də əmr etməyə, yenə də vahid mərkəzdən idarə etməyə şirnikirlər. Hesab edirəm ki, indən belə bu, qətiyyən real deyildir.

Mən Eduard Amvrosiyeviç Şevardnadze ilə görüşdüm, axı Gürcüstanın da problemi – gürcü-abxaz problemi var və orada da sual doğur: Bu çox ağır münaqişənin həllinə birlik ötən müddətdə nə kimi kömək göstərmişdir? Buna da tamamilə birmənalı cavab verirlər – kömək olmayıbdır və biz başa düşmürük ki, kollektiv təhlükəsizlik haqqında müqavilə nəyimizə gərəkdir.

Dünən mən Özbəkistan prezidenti ilə görüşdüm. Birliyin necə qurulması ilə bağlı onun da sualları çoxdur. Kərimov çox əla bir fikir söylədi və bu, məni öz dərinliyi ilə heyran etdi. O dedi ki, biz birliyi real surətdə yalnız o halda qura bilərik ki, dövlətlərdən hər biri özünütəminata qadir olsun. Nəyə görə indi Avropa birləşmək potensialına malikdir? Ona görə ki, Avropa dövlətlərindən hər biri özünütəminata qadirdir. Müstəqilliyin və suverenliyin real mənası da məhz bundan ibarətdir. Dövlətlərdən hər birinin özünütəminata qadir olmaq üçün seçdiyi yol imperiya yaratmağa can atanlarda, təəssüf ki, bu gün də narazılıq doğurur. Amma hesab edirəm ki, o vaxtlar arxada qalmışdır, geri qaytarmaq olmaz. Bizim birlikdə etməyə çalışdığımız isə, - əslində, mən Sizin iradənizi, digər prezidentlərin iradəsini əlaqəli şəkildə ifadə etməyə çalışıram, - mənə elə gəlir ki, məhz buna doğru aparan yoldur ki, hər bir dövlət müstəqillik qazansın və başqaları ilə əməkdaşlığın faydasını görsün. Sağ olun, Heydər Əliyeviç. [246-241]

**H e y d ə r Ə l i y e v**: Boris Abramoviç, siz bu məsələyə toxundunuz və təbii ki, mən bizim fikrimizi bildirməliyəm.

Bəli, biz Rusiyada gedən və Sovetlər İttifaqını, ola bilsin Sovetlər İttifaqını yox, hansısa digər ittifaqı, hər halda, hansısa vahid ittifaq dövlətini bu və ya digər formada birmənalı şəkildə bərpa etmək cəhdi demək olan prosesləri izləyirik.

Həm Moskvada, həm də Belarusda Rusiya ilə Belarusun ittifaqı çox təbliğ olunur. Biz iki MDB dövlətinin ikitərəfli münasibətlər probleminə qarışmırıq. Onlar iki suveren dövlətdir və özlərinə faydalı olan münasibətlər qurmağa ixtiyarları var. Bununla belə, Rusiya ilə Belarusun bu ittifaqında nəzərə çarpan da, həm Rusiyada, həm də Belarusda dövlət xadimləri eyham vuranda və işarə edəndə ki, bu, digər ölkələrin də vahid ittifaqda birləşməsinin başlanğıcıdır, əlbəttə, hamımıza aydın olur ki, keçmişdə olanı bu və ya digər formada bərpa etmək cəhdindən söhbət gedir.

Təkcə bu deyil. İmperiya əhval-ruhiyyəsi bir çox digər hallarda, təəssüf ki, Rusiyanın bəzi dairələrində, Moskvada yaşayır və özünü büruzə verir. Bu, hamını narahat edir. Zənnimcə, heç bir müstəqil dövlət bununla razılaşa bilməz. Lakin əgər Belarus razılaşırsa, bu, onun işidir. Bizim üçün, Azərbaycan üçün tamamilə aydın və şəksizdir – Sovetlər İttifaqı həmişəlik dağılmışdır. O dağılmalı idi, yaşamaq qabiliyyətini itirmişdi. Onun dağılması Azərbaycan üçün xüsusilə mühümdür. Çünki Ermənistan–Azərbaycan münaqişəsinin başlanması Sovetlər İttifaqının və onun 80-ci illərdəki rəhbərliyinin əməlinin nəticəsidir.

1990-cı ilin yanvarında Azərbaycana qarşı edilən hərbi təcavüz – sovet qoşunlarının çox böyük kontingentinin Bakıya yeridilməsi, günahsız, tamamilə müdafiəsiz insanların qırılması və Moskvanın Azərbaycana qarşı eyni ədalətsizliklə törətdiyi bir çox digər əməllər bizim mövqeyimizi qəti şəkildə aydın və anlaşıqlı edir – Sovetlər İttifaqının bərpasından söh[247-248]bət gedə bilməz. Dövlət müstəqilliyinin əldə edilməsi xalqlarımızın, hər halda, Azərbaycan xalqının, Azərbaycan dövlətinin tarixi nailiyyətidir. Biz heç vaxt və heç bir şəraitdə onu əlimizdən verməyəcəyik, yol verməyəcəyik ki, xalqımızın bu hüququ tapdansın, yaxud məhdudlaşdırılsın.

İmperiya əhval-ruhiyyəsi ilə yaşayan və hansısa yeni ittifaq yaratmaq planları hazırlayan adamlar bu həqiqəti başa düşməlidir. Özü də, onlar tarixi yaxşı bilməlidir. Məsələn, Sovetlər İttifaqı 1922-ci ildə yaranmışdı. Tarixdən yaxşı bilirik ki, 1922-ci ilin dekabrında Sovetlər İttifaqında birləşən respublikaların razılığına nail olmaq üçün bir neçə il fəal iş aparmaq lazım gəlmişdi. Doğrudanmı, həmin adamlar güman edirlər ki, bu ölkələr XX əsrin sonunda, müstəqillik əldə etdikləri və tamamilə başqa səviyyədə olduqları bir vaxtda yenidən kiminsə tabeçiliyinə düşməyə, yaxud, necə deyərlər, kiminsə vassalı olmağa razılaşarlar? Bu, ola bilməz. Buna görə də onlar səhv edirlər və səhvlərini nə qədər tez başa düşsələr, bir o qədər yaxşı olar. Biz MDB-yə daxil olan bütün ölkələrin müstəqilliyi, suverenliyi və öz müstəqilliyimizin mövqeyində möhkəm dayanmışıq. Biz öz suverenliyimizi var gücümüzlə qoruyacağıq. [248]

## BAKI BEYNƏLXALQ HAVA LİMANININ AEROVAĞZAL KOMPLEKSİNDƏ TİKİNTİNİN GEDİŞİ İLƏ TANIŞ OLDUQDAN SONRA TOPLAŞANLAR QARŞISINDA ÇIXIŞ

*6 mart 1999-cu il*

1980-ci ildə biz Azərbaycanın bu hava limanı binasının tikilməsi haqqında qərar qəbul etmişdik. O vaxt aeroflot var idi, sizin bu idarə də ona, eyni zamanda Azərbaycana tabe idi. O zaman bu işlərlə Mülki Aviasiya Nazirliyi məşğul olurdu. Mülki aviasiya naziri Boris Pavloviç Buqayev də tez-tez buraya gələrdi. Onu Azərbaycandan Sovet İttifaqının Ali Sovetinə deputat seçmişdik, ona görə də bizim yaxşı münasibətlərimiz var idi. Biz xahiş elədik ki, Azərbaycana vəsait ayırsınlar, onlar da ayırdılar.

Mən göstəriş verdim ki, bunun layihəsi hazırlansın. Layihəni hazırladılar. Rasim Əliyevə tapşırmışdım, - o vaxt Bakının baş memarı idi. Mən layihələrə iki dəfə, özü də burada, hava limanında baxmışam.

1981-ci ildə bunun tikintisinə başlandı. İndi 1999-cu ildir, 18 il keçibdir, amma tikilib qurtarmayıb. Belə çıxır ki, bunun əsasını da biz qoyduq, tikib başa çatdırmağı da tale bizim üzərimizə qoyubdur.

İndi mən Azərbaycanda belə şeyləri çox görürəm: hansı binanı ki, mən vaxtilə başlamışam, qurtara bilməmişəm, - mən olmadığım müddətdə heç kəs onu qurtarmayıbdır. İndi gəlmişəm, onları axıra çatdırıram. Şübhəsiz, mənim üçün yaxşı olardı ki, bu, 4-5 ilə tikilib qurtaraydı və Azərbaycana xidmət edəydi. Təəssüf ki, belə olmayıbdır. Bir halda ki, olmayıb, [249-250] bunu heç kəs başa çatdıra bilməyib, indi yenə də mənim üzərimə düşüb, mən başa çatdırmalıyam. Mən də başa çatdırıram. Bu barədə qəbul etdiyimiz qərarlar məlumdur, kreditlər almışıq, «AzAL»ın vəsaitindən, başqa vəsaitlərdən istifadə olunur.

Mən baxdım, indiyə qədər görülən iş, ümumiyyətlə, yaxşıdır. Bunu müsbət qiymətləndirirəm, qənaətbəxşdir. Keyfiyyətinə də fikir verdim, o da yaxşıdır. Son vaxtlar ayrı-ayrı ölkələrdə, Müstəqil Dövlətlər Birliyi ölkələrində bəzi yerlərdə tikilənlərlə müqayisə etmək olar. Mən görürəm ki, bu onlardan geri qalmır. Ona görə də bu məni sevindirir.

Ancaq iki ay müddətində – mart, aprel aylarında çox böyük iş görülməlidir. Siz görülən işlər haqqında bu gün mənə məruzə etdiniz və söz verdiniz ki, mayın 5-nə bu kompleks istifadəyə verilmək üçün tamamilə hazır olacaqdır. Elədir, yoxsa yox? Elə olmasın ki, bunu mənə göstərəsiniz, sonra da deyəsiniz ki, sərnişinləri bir aydan sonra buraxacağıq. Biz gəlib burada binanın açılışını bayram edib çıxanda sərnişinlər buraya girməlidirlər. Başa düşdünüz, belə olmalıdır. Görürəm ki, vaxtınız az, işiniz də çoxdur. İşlərinizi elə qurun ki, verdiyiniz söz yerinə yetsin və mənim bugünkü təəssüratım daha da artsın.

Şübhəsiz ki, bu, bizim Azərbaycan üçün, dövlətimiz, ölkəmiz üçün çox böyük həcmli obyekt olacaqdır. Çünki indi müstəqil dövlət kimi, Azərbaycan dünyanın bütün ölkələri ilə əlaqə saxlayır, insanlar gedib-gəlirlər. Bunun da əksəriyyəti hava yolu ilə, təyyarələrlə olur. Demək, Azərbaycanın əsas giriş-çıxış qapısı buradır. Keçmişdə, 10-20 il öncə dəmir yolu vağzalı ilə olurdu, çünki əsas nəqliyyat vasitəsi dəmir yolu idi. Bu yollar da ancaq Sovetlər İttifaqının ərazisindən keçirdi. Amma indi dünyaya açılan qapılar bu yoldan gedir. Demək, qapısı da buradır. Ona görə də bura həm gözəl, çox rahat olmalı, həm də [250-251] beynəlxalq standartlara cavab verməli, insanların bu nəqliyyatdan istifadə etməsi üçün bütün şərait olmalıdır.

Siz bəzi yerləri göstərdiniz. Müasir, beynəlxalq standartlara uyğun səviyyədə tikilən hər bir bina insanların da mədəni və davranış səviyyəsini qaldırır. Köhnə binada kababdan, ləvəngidən can qurtara bilmirsiniz, çünki oranın kökü elə qoyulubdur. Amma burada elə vərdişlərə yol vermək olmaz. Burada hər şey dünya standartları səviyyəsində olmalıdır. Bu da insanları daha da nizam-intizamlı edəcəkdir. Görəndə ki, bina təmizdir, hər şey yaxşıdır, insanlar da çalışacaqlar ki, bu səviyyəyə qalxsınlar. Amma görəndə ki, orada-burada zibil var, deyəcək ki, onsuz da zibilləyiblər, qoy mən də zibilləyim.

Sizin ən böyük vəzifəniz (konsernin baş direktoru Cahangir Əsgərova müraciətlə) bura üçün işçi heyəti hazırlamaqdır. Amma təkcə sizin işçi heyəti yox idi. Gərək bu gün buraya daxili işlər naziri, milli təhlükəsizlik naziri, Gömrük Komitəsinin sədri, sərhədçilər də çağırılaydı.

İki-üç günə (Baş nazir Artur Rasizadəyə müraciətlə) onların hamısını toplayıb hərəsinin qarşısında vəzifə qoymaq lazımdır. Köhnə aerovağzaldan istifadə prinsiplərini buraya köçürmək olmaz. Bura tamamilə yeni olmalıdır. Məsələn, bayaq dedilər ki, burada sərhədçi formada durmamalıdır. Amma orada durur. Deyəcək ki, məni niyə formada durmağa qoymursan? Bunları mən sənə, Baş nazirə tapşırıram. Bu iki ay müddətində gərək hərə öz işçi heyətini hazırlasın. Yaxşı işləməyən, qanunu pozan, yararlı olmayan adamlar buraya gəlməməlidir – həm «AzAL» üzrə, həm də burada fəaliyyət göstərəcək nazirliklər üzrə. Buraya gələn heyət yeni tələblərə tamamilə uyğun olmalıdır. Onlar gələndə attestasiyadan keçməlidirlər ki, burada işləmək hüquqları var, ya yox. Yaxşıları seçməlisiniz, prinsip bu olmalıdır. Yoxsa ki, kiminsə xətrinə dəyər, nə bilim, kimsə xahiş elədi – belə şeylər olmamalıdır. Bura dövlətin ən mühüm, ən böyük obyektlərindən [251-252] biridir. Ona görə burada dövlətçilik prinsipi hər şeydər üstün olmalıdır.

Mən Baş nazirə müraciət edərək bildirirəm ki, vəzifələr məlumdur, sən bütün bu işlərə rəhbərlik, nəzarət edirsən və mənim göstərişlərimin həyata keçirilməsini təmin edirsən.

*Heydər Əliyev binadan çıxarkən orada toplaşmış inşaatçılarla və hava limanının işçiləri ilə bir daha səmimi salamlaşaraq dedi:*

– Mən tanış oldum, inşaat işi yaxşı gedir, hava limanında çox gözəl vağzal tikilir. Söz veriblər ki, may ayının 5-nə qədər hamısı hazır olacaq, istismara verəcəyik, Azərbaycanın vətəndaşları üçün yaxşı şərait yaranacaqdır. Burada çalışanlara, işləyənlərə uğurlar arzulayıram. Əgər burada işləməyənlər varsa, onlar da arxayın olsunlar ki, may ayında buradan səmərəli istifadə edəcəklər. Sağ olun. [252]

## BEYNƏLXALQ QADINLAR GÜNÜNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ GECƏDƏ NİTQ

*Şıxəli Qurbanov adına Azərbaycan Dövlət Musiqili Komediya Teatrı*

*6 mart 1999-cu il*

Hörmətli xanımlar, əziz bacılar!

Sizi, bütün Azərbaycan qadınlarını bayram münasibətilə, Beynəlxalq Qadınlar günü münasibətilə ürəkdən təbrik edirəm. Sizə cansağlığı, səadət və həmişə gözəllik arzulayıram.

Biz XX əsrin son illərini yaşayırıq. Tarixə nəzər salarkən böyük məmnuniyyət hissi ilə demək olar ki, Azərbaycan qadını bu əsrdə böyük, şanlı yol keçmiş və uğurlar əldə etmişdir. Çoxəsrlik tariximizdə demək olar ki, qadın heç vaxt XX əsrdəki qədər yüksəlməmiş, heç vaxt bu zirvələrə çatmamışdır.

Azərbaycan qadını azadlıq əldə edəndən sonra sürətlə özü də inkişaf etmiş və cəmiyyətin də inkişaf etməsinin səbəbkarı, böyük iştirakçısı olmuşdur. Ona görə də bu gün müstəqil Azərbaycanda qadınların problemi ondan ibarətdir ki, onlara daha da çox qayğı göstərmək lazımdır, onların qüvvəsindən daha da səmərəli istifadə etmək, onlara daha da çox hörmət etmək, cəmiyyətin minnətdarlığını bildirmək lazımdır.

Təsəvvür edin, əgər ölkəmizdə səhiyyə və təhsil sahəsində işləyənlərin 50-60 faizini qadınlar təşkil edirsə, görün qadınlar savadsızlıqdan, çadra altından çıxandan sonra, cəmiyyətdə hüququ olmadığı bir zamandan bəri tarixi nöqteyi-nəzərdən qısa bir dövrdə nə qədər sıçrayış əldə etmiş, inkişaf etmişlər. [253-254]

Təbiidir ki, qadınlara yaradılmış şərait, ölkəmizdə qadınlara göstərilən münasibət və qayğı, eyni zamanda qadınların daxili istedadı, onların potensialı, ağlı, zəkası, biliyə, təhsilə, elmə, mədəniyyətə olan hədsiz marağı və öz istedadlarını həyata keçirmək üçün çalışqanlığı – bunlar hamısı birlikdə Azərbaycan qadınını yüksəklərə qaldırmışdır. Biz fəxr edə bilərik ki, qadınlar cəmiyyətimizdə çoxluq təşkil edir. Çünki əhalimizin 51 faizindən çoxu qadınlardır.

Azərbaycan qadını haqqında çox yazılıb, çox deyilib. Bu gün də burada natiqlər hamısı Azərbaycan qadınının qeyrətindən, namusundan, ağlından, istedadından, gözəlliyindən, sədaqətindən xoş sözlər dedilər. Mən bütün sözlərin, ifadələrin hamısı ilə tam razıyam. Həmin sözlər mənim də qəlbimdən gələn sözlərdir.

Bizim sevimli şairimiz, çox hörmətli Mirvarid xanım Dilbazi qadın haqqında şer oxudu. Mirvarid xanımın şerləri həmişə bizim cəmiyyətimizin ürəyinə yatandır. Mən onları çox sevirəm. Ancaq hesab edirəm, bu gün qadın haqqında bizə çatdırdığı şer qadınların Azərbaycanda, təkcə Azərbaycanda yox, ümumən bəşəriyyətdə ən yüksək keyfiyyətlərini əks etdirdi. Çox gözəl sözlər dedi. Ancaq mənim ən çox xoşuma gələn söz, əgər unutmadımsa, bundan ibarətdir: təbiət dünyanı dəyişdirərkən cənnəti qadınla əvəz etdi. Həqiqətən belədir! Nə qədər gözəl sözdür, ədalətli ifadədir! Cəmiyyətdə, həyatda, insan cəmiyyətində qadının yerini nə qədər gözəl göstərir! Həqiqətən, biz kişilər cənnət haqqında düşünməməliyik. Cənnət – qadınlar bizim yanımızdadır. Qoy qadınlar cənnət haqqında düşünsünlər və cənnətə çatmaq üçün bu dünyada öz işlərini görsünlər. Bizim cənnətimiz buradadır.

Azərbaycan qadını mərd, cəsarətli, qeyrətli, namuslu qadındır. Biz fəxr edirik ki, Azərbaycan qadını xalqımız üçün qəhrəman ərlər yetişdirir. Biz fəxr edirik ki, Azərbaycan qadını [254-255] dünyaya böyük alimlər bəxş edir. Azərbaycan qadını dünyaya böyük sənət ustaları, siyasi, dövlət xadimləri bəxş edir. Bunlar hamısı Azərbaycan qadınının xidmətidir.

Biz bu dövrdə, son illər artıq xalqımızın milli mənliyini dərk edirik və müstəqil dövlətimizdə, azad ölkəmizdə müstəqil dövlətimizi, həyatımızı qururuq. Bu dövrdə öz millətimizin bütün xüsusiyyətlərini dərindən dərk edərkən yenə də, yenə də düşünürük – nə qədər xoşbəxtik ki, bizim xalqımız zəkalı, qüdrətli, mərd, qəhrəman xalqdır! Nə qədər xoşbəxtik ki, bizim xalqımızı yetişdirən, böyüdən, xalqımızı artıran gözəl və mərd qadınlarımız vardır!

Qadınlara bundan sonra da qayğı göstərmək bizim vəzifəmiz, borcumuzdur. Azərbaycanın Konstitusiyası qadınların hüquqları haqqında bütün bəşər mədəniyyətinin əldə etdiyi nailiyyətləri özündə əks etdiribdir. Bu gün biz fəxr edirik ki, Azərbaycan qadını, ölkəmizdə qadınların cəmiyyətdə yeri və mövqeyi bir çox başqa ölkələrdəkindən çox-çox üstündür.

Biz indi yeni həyat quraraq çalışırıq ki, öz iqtisadiyyatımızı, insanların sosial həyatını, rifahını iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin səviyyəsinə çatdıraq. Güman edirəm ki, biz buna nail olacağıq. Çünki müstəqil Azərbaycan öz dövlət müstəqilliyinin yeddinci ilini başa vurduğu zaman biz artıq əvvəlki illərdə mövcud olan sosial-iqtisadi böhrandan çıxmışıq. Azərbaycanın iqtisadiyyatı, sosial həyatı inkişaf mərhələsindədir. Qarşıdakı illərdə Azərbaycanın iqtisadiyyatı daha da sürətlə inkişaf edəcək, xalqın rifahı daha da yaxşılaşacaqdır. Deməli, qadınların da həyatı, güzəranı yaxşılaşacaqdır. Ancaq bir daha deyirəm, biz istəyirik ki, ölkəmizdə iqtisadiyyat dünyada iqtisadi cəhətdən inkişaf etmiş ölkələrin səviyyəsinə çatsın. Lakin qadınların səviyyəsi,

bu günü barəsində biz buna ehtiyac duymuruq. Çünki Azərbaycan qadınının səviyyəsi – bilik, elm səviyyəsi, onun azadlığı inkişaf etmiş ölkələrin qadınlarının heç birindən aşağı deyildir. Bu həqiqətdir. Bu, bizim reallığımızdır. Biz bu reallıqla da XX əsri başa vururuq. [255-256]

Burada bu sözü də işlətdilər ki, fransız yazıçısı Lui Araqon deyibdir ki, qadın həyatın, bəşəriyyətin gələcəyidir. Həqiqət belədir. Qadınsız nə bu gün var, qadınsız nə həyat var, qadınsız gələcək də ola bilməz. Qadınlar bizim gələcəyimizdir.

Mən arzu edirəm ki, Azərbaycan qadınları indiyə qədər əldə etdikləri nailiyyətləri daha da yüksəltsinlər. Biz dövlət, hökumət olaraq bunun üçün imkanlar yaradırıq və yaradacağıq. Keçən ilin sentyabr ayında qadınlar qurultayında bu barədə çox ətraflı söhbət getdi. Siz bir çox məsələlər qaldırdınız. Onların həll edilməsi barədə göstərişlər verilibdir və prezident fərmanı da veriləcəkdir. Onun hazırlanması bəlkə də bir az gecikib, ancaq bu günlərdə biz onu bəyan edəcəyik.

İndi bizim iqtisadiyyatımızın imkanları o qədər də böyük deyil. Ancaq bütün imkanlardan istifadə edərək qadınların problemlərinin həll olunmasına çalışırıq və bundan sonra da çalışacağıq. Qadın Azərbaycanda cəmiyyətin ən şöhrətli, ən hörmətli üzvüdür. Mən bu sözlərlə sizi bir daha ürəkdən təbrik edirəm. Sizə öz hədsiz məhəbbətimi bildirirəm.

Mən şair deyiləm ki, sizi şerlə sevindirim. Şairlərimiz bu barədə burada çox dəyərli sözlər dedilər. Ancaq bilin, mənim qəlbim də şair qəlbidir. Ona görə şair qəlbidir ki, mən qadınları sevirəm.

Qadınları sevməyən heç vaxt şair ola bilməz. Ancaq qadınları sevən hər kəs də şair deyil. Amma onun qəlbi qadınlara o biri şairlərdən bəlkə də yaxındır.

Azərbaycan qadınlarının bir keyfiyyətini də mən qeyd etmək istəyirəm. O da bizim qadınlarımızın gözəlliyidir. Bilirsiniz, biz əvvəllər, məsələn, dünyada, hansı ölkədə qadın nə qədər gözəldir – onu o qədər də bilmirdik. Mənim yadımdadır, gənc olarkən biz bir-birimizlə söhbət aparırdıq – gənc vaxtlarında insanlar bu barədə söhbətləri daha çox aparırlar – hansı millətin qadını daha gözəldir? İndi mən demirəm ki, o vaxtlar biz hansı millətin qadınlarını gözəl hesab edirdik. Amma mən [256-257] sizə deyim, hamı belə fikirləşirdi ki, - hər halda, ətrafımda olanlar, hansılarla ki, mən təmasda idim – başqa qadınlar bizim qadınlardan gözəldir. Ancaq indi dünya bizim üzümüzə açıldı, hər yerə getdik, bütün ölkələri gördük. Hamımız dünyanın hər yerini görmüşük – kimi az, kimi çox. Mən özümü deyə bilərəm, başqalarının fikrini bilmirəm. Mən dünyanın çox yerini gəzmişəm, qadınlarını görmüşəm. Fikrim belədir ki, Azərbaycan qadını bütün dünyadakı qadınlardan gözəldir.

Bunu sizə xoş gəlməsi üçün demirəm. Bu, mənim həqiqi fikrimdir və mən bütün dünya qadınlarını görəndən sonra bu fikrə gəlmişəm. Ona görə də mən Azərbaycan kişilərinə məsləhət verirəm: qadınları qiymətləndirin, qadınları sevin, heç yerdə, heç bir ölkədə, heç bir millətdə Azərbaycan qadını kimi gözəl qadın tapa bilməyəcəksiniz.

Mən sizi ürəkdən təbrik edirəm. Sizə sevgimi, məhəbbətimi bildirirəm. Sizə cansağlığı arzulayıram. Gələcək həyatınızda sizə uğurlar arzu edirəm. Sağ olun. [257]

## AZƏRBAYCAN RESPUBLİKASININ ELM, MƏDƏNİYYƏT, İNCƏSƏNƏT XADİMLƏRİNƏ, İCTİMAİ XADİMLƏRƏ AZƏRBAYCAN DÖVLƏTİNİN YÜKSƏK MÜKAFATLARININ – ORDENLƏRİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ

*Prezident iqamətgahı*

*7 mart 1999-cu il*

Hörmətli xanımlar və cənablar!

Siz Azərbaycan dövlətinin yüksək mükafatları – ordenlərlə təltif olunmusunuz. Mən böyük məmnuniyyətlə bu yüksək mükafatları sizə təqdim edirəm.

Bundan öncə qadınları 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə ürəkdən təbrik edirəm. Onlara cansağlığı, xoşbəxtlik və bütün işlərində uğurlar arzulayıram.

Mərhum akademik Ziya Bünyadovun layiq görüldüyü «İstiqlal» ordenini alimin həyat yoldaşı Tahirə xanıma təqdim edirəm.

**T a h i r ə x a n ı m B ü n y a d o v a**: Əziz Heydər Əliyeviç, Ziya Bünyadovun xatirəsinin əbədiləşdirilməsinə görə ailəmiz adından və şəxsən öz adımdan Sizə təşəkkürümü bildirirəm.

Bakıda prospektlərdən birinə, respublika Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutuna Ziya Bünyadovun adı verilmiş, Ziya Bünyadov adına təqaüd təsis edilmiş, onun yaşadığı evə xatirə lövhəsi vurulmuş, qəbri üstündə gözəl bir abidə qoyulmuşdur. [258-259]

Cənab prezident, mən Sizə ürəkdən təşəkkür edirəm. Ziyanın xidmətlərinə yüksək qiymət verərək onu respublikanın ən yüksək ordeni ilə təltif etdiyinizə görə minnətdarlığımı bildirirəm. Sizə cansağlığı, gümrahlıq, xoşbəxtlik arzulayıram. Əziz Heydər Əliyeviç, heç bir günümüz Sizsiz olmasın.

**H e y d ə r Ə l i y e v**: Görkəmli sənətkar, xalq artisti Leyla Bədirdəyliyə «İstiqlal» ordeni təqdim edirəm.

**L e y l a B ə d i r b ə y l i**: Əziz və möhtərəm prezidentimiz cənab Heydər Əliyevə hörmət və ehtiram!

Bizə göstərdiyiniz qayğı çox qiymətlidir. Çətin və gərgin işinizin içində bizi unutmursunuz, bizim haqqımızda düşünürsünüz. Ensiklopedik biliyiniz Sizə hər şeyi işıqlandırır. Sizinlə fəxr edir, həmişə gözəl hisslər keçiririk. Sizin hər bir addımınız bizim üçün dəyərlidir. Xalqımızın səadəti naminə Sizə möhkəm cansağlığı, uzun ömür arzulayırıq. Həmişə belə cavan və gümrah qalın. Sonsuz minnətdarlıq, təşəkkür və razılığımızı qəbul edin.

Heydər Əliyev Rusiya–Azərbaycan Dostluğu Cəmiyyətinin sədri, həmyerlimiz, professor, ictimai xadim Nikolay Baybakova, ictimai xadim Kamran Hüseynova, professor Məzahir Abasova, xalq artisti Tükəzban İsmayılovaya, professor Abdulla Muxtarova, professor Yaqub Mahmudova, xalq artisti, bəstəkar Süleyman Ələsgərova, xalq rəssamı Oqtay Sadıqzadəyə «Şöhrət» ordenləri təqdim etdi.

**H e y d ə r Ə l i y e v**: Əziz Nikolay Konstantinoviç!

Azərbaycanın yüksək mükafatını – «Şöhrət» ordenini sizə dərin məmnuniyyətlə təqdim edirəm. Nikolay Konstantinoviç, siz bizim üçün doğma insansınız, həmyerlimizsiniz, bakılısınız, əsl azərbaycanlısınız.

Nikolay Konstantinoviç Baybakovu Azərbaycanda hamı tanıyır. Bununla belə, bir neçə söz deyəcəyəm.

O, Bakıda doğulmuş, burada təhsil almış, Azərbaycan Sənaye İnstitutunu bitirmiş, neftçi-mühəndis olmuş və əmək [259-260] fəaliyyətinə Azərbaycanın neft mədənlərində başlamışdır. Onun hələ 30 yaşı yox idi, amma ən iri idarəyə – Sabunçu Neft-Mədən İdarəsinə başçılıq edirdi. Bu idarə həmin illərdə - mən 30-cu illərin ikinci yarısını nəzərdə tuturam – Azərbaycan, Bakı neftinin, demək olar, əsas hissəsini verirdi.

Nikolay Konstantinoviç Azərbaycanda gözəl məktəb – mərdlik məktəbi, şərəf məktəbi, ləyaqət məktəbi keçmiş və buradan, təkrar edirəm, hələ 30 yaşı bitməmiş daha da yüksəklərə vəsiqə aldı. O, həmin vaxtlar Sovetlər İttifaqının yenicə açılmış neft rayonlarına, «İkinci Bakı»ya göndərildi. O rayonları nə üçün «İkinci, Üçüncü Bakı» adlandırmışdılar? Çünki bütün bu neft yataqları Azərbaycan neftçilərinin fəal iştirakı ilə kəşf olunmuş və açılmışdı. Bu neftçilərdən biri də Nikolay Konstantinoviç Baybakov idi. O, «İkinci Bakı» neft yataqlarının açılması və istismarı sahəsində üzərinə qoyulmuş vəzifəni ləyaqətlə yerinə yetirdi və sonra Sovetlər İttifaqının paytaxtında – Moskvada işə irəli çəkildi.

O, 30 yaşında artıq Sovetlər İttifaqının xalq komissarı, yəni SSRİ-nin neft sənayesi naziri oldu. Onun sonrakı yolu da Sovetlər İttifaqının neft sənayesinin və iqtisadiyyatının inkişafı ilə bağlı mürəkkəb, çətin, lakin şərəfli yoldur. Nikolay Konstantinoviç Baybakov Sovetlər İttifaqının neft sənayesinin inkişafına, keçmişdə ittifaqa daxil olan indiki müstəqil respublikaların – Rusiyada və Müstəqil Dövlətlər Birliyinin

digər ölkələrində neft sənayesinin belə potensialının və onun belə böyük inkişaf perspektivlərinin olmasına böyük töhfə vermişdir.

Nikolay Konstantinoviç Baybakov 20 ildən çox Sovetlər İttifaqının Dövlət Plan Komitəsinə başçılıq etmişdir. Bu, nəhəng ölkənin xalq təsərrüfatının inkişafını planlaşdıran, təşkil edən və planların həyata keçirilməsinə çalışan başlıca iqtisadi idarəsi idi. Beləliklə, o, təkcə neft sənayesinin deyil, bütün [260-261] Sovetlər İttifaqının iqtisadiyyatının və xalq təsərrüfatının inkişafına böyük töhfə vermişdir.

Nikolay Konstantinoviç, keçmişin üstündən qələm çəkərək, həyatın guya onlardan başlanmasını düşünən və əlbəttə, dərin səhvə yol verən bir çoxlarından, yeri gəlmişkən, moskvadakılardan fərqli olaraq, biz keçmişdə olanları unutmuruq. Çünki belə zəngin keçmiş olmasaydı, bu gün malik olduqlarımız da olmazdı. Yox, biz keçmişdə olanların hamısını lazımınca qiymətləndiririk. Keçmiş isə o deməkdir ki, Sovetlər İttifaqına daxil olan respublikalar 20-ci illərdən başlayaraq sosial-iqtisadi, mədəni və bütün digər sahələrdə böyük inkişaf əldə etmişdilər. Hazırda bu inkişaf keçmiş Sovetlər İttifaqı respublikalarının, o cümlədən Azərbaycanın bugünkü və gələcək həyatının təməlini təşkil edir. Bütün bunlarda Nikolay Konstantinoviç Baybakovun böyük xidməti var.

Nikolay Konstantinoviç Baybakovu Azərbaycanda hamı doğma adam kimi tanıyır. O, Azərbaycandan getdikdən sonra da bütün illər ərzində bizimlə əlaqəni kəsməmiş, Azərbaycana daim gəlmiş, Moskvada işləyərkən respublikamızın inkişafı ilə bağlı bir çox problemlərlə məşğul olmuşdur. 1938-ci ildən başlayaraq o, Azərbaycandan bütün çağırışlarda SSRİ Ali Sovetinin deputatı seçilir. Məhz Azərbaycan neftçiləri, azərbaycanlı həmvətənlər ona böyük etimad göstərərək SSRİ Ali Sovetinə deputatlığa namizəd irəli sürür və deputat seçirdilər. Nikolay Konstantinoviç bu etimadı layiqincə doğruldurdu.

Şəxsən mən Nikolay Konstantinoviçi çoxdan tanıyıram. Lakin 30 il əvvəl biz onunla lap sıx əməkdaşlığa başladıq, yəni 1969-cu ildə mən Azərbaycana rəhbərlik etdikdə qarşılıqlı münasibətlərimizin yeni mərhələsi, yeni dövrü başlandı.

Azərbaycana rəhbərlik etdiyim bütün o illər ərzində biz Nikolay Konstantinoviçlə fəal əməkdaşlıq etmişik. O, mənim dəvətimlə və ya öz arzusu ilə tez-tez Azərbaycana gəlirdi, biz Azərbaycan iqtisadiyyatının problemlərini birlikdə nəzərdən [261-262] keçirirdik. Hamıya məlumdur ki, 70-ci illər və 80-ci illərin birinci yarısı Azərbaycanda iqtisadiyyatın, sosial həyatın sürətli inkişaf dövrü idi. Bütün bunlarda Nikolay Konstantinoviç Baybakovun böyük xidməti var.

Sonralar biz Moskvada, SSRİ Nazirlər Sovetinin tərkibində birlikdə işlədik. Mən Nazirlər Soveti Sədrinin birinci müavini idim. Nikolay Konstantinoviç Nazirlər Soveti sədrinin müavini idi. Biz hər gün birlikdə olurduq, hər halda, həftədə bir dəfə Nazirlər Sovetinin iclaslarında, Siyasi Büronun iclaslarında olurduq. Biz birlikdə idik və fəal əməkdaşlıq edirdik.

Nikolay Konstantinoviç Azərbaycanla əlaqələrini bu gün də itirmir. Məhz bütün bu böyük xidmətlərinə görə və hazırda Rusiya ilə Azərbaycan arasında əməkdaşlığın möhkəmlənməsində və inkişafında çox böyük rol oynadığına görə o, Rusiya – Azərbaycan Cəmiyyətinin sədri seçilmişdir və özünün bu vəzifələrini layiqincə yerinə yetirir.

Nikolay Konstantinoviç uzun ömür sürmüşdür, lakin gördüyünüz kimi, bu gün də cavan, yaraşıqlı kişidir. Bu gün onun 88 yaşı tamam olur, bu gün Nikolay Konstantinoviçin ad günüdür. Nikolay Konstantinoviç, mən şadam ki, siz öz ad gününüzdə buradasınız, Azərbaycanda, Bakıda, köhnə dostlarınız arasındasınız. Şadam ki, məhz ad gününüzdə sizə Azərbaycan dövlətinin yüksək mükafatını təqdim etmək şərəfinə malikəm.

Nikolay Konstantinoviç bu gün də enerjilidir, çox gülərüzdür, çox nikbindir, neft elminin problemləri ilə yaxından məşğul olur. O professordur, iqtisadiyyat sahəsində, neft sənayesi sahəsində görkəmli alimdir. O, böyük neftçidir, hətta deyərdim, keçmiş Sovetlər İttifaqında bir nömrəli neftçidir, çünki onun kimi ikinci beləsi Rusiyada da yoxdur, Azərbaycanda da. Nikolay Konstantinoviç elmi fəaliyyətlə də, neft sənayesinin inkişafı sahəsində fəaliyyətlə də məşğul olur və [262-263] bununla əlaqədar Azərbaycan neftçiləri ilə əməkdaşlığı davam etdirir. Nikolay Konstantinoviç, bütün bunlara görə biz çox şadıq. Təkrar edirəm, mən şadam ki, bu gün biz sizinlə bir yerdəyik.

Əziz Nikolay Konstantinoviç, siz öz həyatınız boyu Sovetlər İttifaqının da, dünyanın bir çox digər dövlətlərinin də neçə-neçə yüksək mükafatlarını almısınız. Lakin siz doğma Azərbaycanınızın dövlət mükafatını ilk dəfə alırsınız. Belə düşünürəm ki, bunun sizin üçün də, bizim üçün, bu gün müstəqil dövlət kimi vətəndaşlarını da, öz hüdudlarından kənarda olan həmvətənlərini də mükafatla təltif etmək imkanına malik olan Azərbaycan üçün də əhəmiyyəti var.

Nikolay Konstantinoviç, sizi bir daha təbrik edir, cansağlığı arzulayıram. Allaha şükür, yaxşı qalmısınız. Düşünürəm ki, yüz illiyinizi sizinlə birlikdə qeyd edəcəyik. Sizə bütün işlərinizdə uğurlar, ən xoş diləklər arzulayıram.

**N i k o l a y B a y b a k o v**: Əziz Heydər Əliyeviç!

Əziz dostlar və yoldaşlar!

Bu gün mənə təqdim edilən bu yüksək mükafata görə minnətdarlıq sözləri tapa bilmirəm. Bəli, Heydər Əliyeviç mənim həyatımdan çox danışdı. Buna görə də təkrar etmək fikrində deyiləm, bir də ki, buna lüzum yoxdur, çünki çoxları məni tanıyır. Mən yalnız bir şeyi demək istəyirəm ki, faşizm üzərində qələbə

üçün Azərbaycanın etdiklərini bəlkə də heç bir respublika etməmişdir. Dövlət Müdafiə Komitəsinin cəbhənin yanacaqla təmin olunması üzrə keçmiş müvəkkili kimi, - bu vəzifəyə məni Stalin təyin etmişdi, - bilirəm ki, almanlar Azərbaycana lap yaxınlaşan zaman ölkəmiz nə vəziyyətdə idi. Axı onlar artıq Krasnodarı işğal edərək Qroznının həndəvərinə gəlib çıxmışdılar və Azərbaycanın aqibəti həll olunurdu. Bəs Azərbaycanın aqibəti nə demək idi? Müharibədən əvvəlki dövrdə, 40-cı ildə çıxardığımız 33 milyon ton neftin 23,5 milyon tonu Azərbaycanın payına düşürdü. Ukrayna (o, çox [263-264] az miqdarda neft verirdi), Krasnodar (xeyli neft vermirdi) faşistlər tərəfindən işğal edildikdən sonra bütün ağırlıq Azərbaycanın üzərinə düşdü. Almanlar cənubda Rostov yolunu kəsdikdə, faşistlər Stalinqrada yaxınlaşıb cəbhənin də, xalq təsərrüfatının da yanacaqla bütün təchizat yollarını kəsdikdə biz çox böyük işlər görməli olurduq. Hətta iş o yerə gəlib çatmışdı ki, cəbhə üçün və xalq təsərrüfatı üçün nefti Xəzər dənizi ilə çənlərdə daşıyıb aparırdıq. Necə deyərlər, sağ əlimizlə sol qulağımızı qaşıyırdıq.

Bu mövzuda çox danışmaq istəmirəm, lakin faşizm üzərində qələbədə vətənimin əhəmiyyətini bir daha nəzərə çarpdırmaq istəyirəm. Dekabrda buraxılmış və yaxın vaxtlarda Bakıya da gəlib çatacaq «Stalindən Yeltsinədək» kitabında faşizm üzərində qələbədə Azərbaycanın rolu və əhəmiyyətindən danışılır. Buna görə də çıxışımı bitirərək demək istəyirəm ki, Azərbaycanın neft və qaz sənayesinin inkişafına az-çox kömək göstərməyə nə qədər ki, qüvvəm var, mümkün olan hər şeyi edəcəyəm, təbii ki, sizin köməyinizlə. Biz köhnə rayonların və ən əvvəl Balaxanı, Sabunçu və Ramananın canlandırılmasına dair qəbul olunan sazişlər əsasında birlikdə hərəkət edəcəyik. Mən həmin rayonlarda trest müdiri olmuşam və oradan da məni «İkinci Bakı»ya, sonra da «Üçüncü Bakı»ya aparmışdılar.

İstəyirəm ki, neftin geoloji ehtiyatlarının qalan 50 faizi əziz vətənimə xidmət üçün çıxarılsın. Sağ olun, Sizə möhkəm cansağlığı, azı 100 il ömür arzulayıram. Az olsa, yanıma gəlin, ömrünüzü uzadaram, çünki mən 150 il yaşamışam. Ona görə ki, bu «dəlixanada» - 22 il sədr işlədiyim Dövlət Plan Komitəsində bir il üç il hesab edilir. 15 il xalq komissarı və nazir işləmişəm, bunu ikiyə vurun, 5 il Şimali Qafqaz Xalq Təsərrüfatı Şurasının sədri işləmişəm, bunu ikiyə vurun, 2 il Dövlət Neft və Kimya Komitəsinin sədri olmuşam, bunu iki il hesab edirəm, çünki orada heç nəyə cavabdeh deyildim. Bunların [264-265] üstünə mənim 88 yaşımı gəlib hesablayın, görərsiniz ki, hamısı birlikdə 150 ilə bərabərdir. Odur ki, sizin ömrünüzü uzatmağa ixtiyarım var. Üstəlik, burada, mən Kirovabaddan deputat seçilərkən ilk dəfə uzunömürlü Novruz Baryamovla görüşdüm, həmin gün onun 147 yaşı tamam olurdu. O, buraya, Bakıya herontoloqlarla birlikdə gəlmişdi və təəssüf ki, burada xəstələnib vəfat etdi.

Bunu ona görə deyirəm ki, insanın potensialı çox böyükdür. Mənim keçmiş köməkçim Aleksandr Nikolayeviç Umnov burada oturur. Biz onunla 20 il Dövlət Plan Komitəsində işlədik. O, burada mənə materiallar verdi. Bu materiallardan nə qədər uzunömürlü insan olduğunu və onların nə qədər yaşadığını öyrəndim. Bax, dünyada ən çox yaşayan bir balıqçı olmuşdu – 205 il. Necə istəyirsiniz, yoxlayın, lakin rəsmi məlumat bunu təsdiq etmişdir.

Stalin məni xalq komissarı təyin edərkən nə kimi keyfiyyətlərə malik olmalı olduğumu yoxlamaq üçün məni imtahana çəkdi. Mən hər şeyi danışırdım, o isə hey soruşurdu. Daha nə, özgə nə. Mən dedim: Yoldaş Stalin, mən bildiklərimin hamısını söylədim, əgər Siz faydalı keyfiyyəti mənə desəniz, şad olaram. O, mənə yaxınlaşıb qəlyanı ilə çiynimə vuraraq dilləndi; hər şeyi doğru dediniz, amma başlıca məsələni demədiniz. Təbii ki, mən tez ayağa qalxdım. O isə yenə də qəlyanıyla çiynimə vuraraq bildirdi: Xalq komissarı möhkəm əsəblərə malik olmalı və nikbin olmalıdır. Budur, nikbinliyin nə demək olduğunu bütün həyatım boyu anlayıram. Nikbinlik mənə kömək etmişdir. Bunu Sizə də təklif etmək istəyirəm, çünki bu, ağır şəraitdə xüsusilə vacibdir.

Əziz Heydər Əliyeviç, sözün düzü, heç bilmirəm yaxşı nə deyim. Amma Azərbaycanın inkişafı üçün Heydər Əliyeviçin etdiyini, zənnimcə, heç kim etməmişdir. Mən Mircəfər Bağırovla, başqaları ilə işləmişəm. Lakin açığını deyəcəyəm, kiminsə Heydər Əliyeviç kimi işlədiyini görməmişəm. Respub[265-266]likamızın, Azərbaycanımızın inkişafı, çiçəklənməsi onun dövründə olmuşdur. Arzu etmək istəyirəm ki, Siz bu məsul vəzifədə də həmişə o cür fəal olasınız, Azərbaycanı daha böyük enerji ilə möhkəmlədəsiniz. Mən Azərbaycanı, onun həyatını, rəqəmləri izləyirəm və xalq təsərrüfatının inkişafında, Azərbaycan əməkçilərinin həyat səviyyəsinin yüksəlməsində uğurlar arzulamaq istəyirəm. Çox sağ olun.

**Heydər Əliyev**: «Nikolay Konstantinoviç özünün bir keyfiyyətindən danışmadı - o, qadınları çox sevir və qadınlar da onu çox sevirdilər və bu gün də sevirlər. Hər halda, Dövlət Plan Komitəsində çoxlu qadın işləyirdi və o, hamısını sevirdi, onlar da onu sevirdilər. Ümumiyyətlə, nəzərə alın ki, o elə həmin kişidir.

Mən «Şöhrət» ordenini Kamran Hüseynova təqdim edirəm.

**Kamran Hüseynov**: Heydər Əliyeviç, Siz indicə Nikolay Konstantinoviçdən danışdınız və o da öz sözünü dedi. Siz bir müddət qısa müalicədə olarkən, inanın, bütün respublika həyəcan keçirirdi, hər gün hamı Sizin səhhətinizlə maraqlanırdı. Allaha şükür, Siz özünüz deyirdiniz ki, hər şey çox əladır və biz sakitləşirdik. Bu, hamının arzu və istəyi idi. Qayıdanda özünüz gördünüz ki, uşaqdan tutmuş böyüyədək bütün ölkə Sizi necə təntənə ilə qarşılamağa çıxmışdı. Çox sağ olun. Allaha şükür ki, Siz tam sağalıb qayıtdınız.

İcazə verin, Nikolay Konstantinoviç Baybakov haqqında bir neçə kəlmə deyim.

Heydər Əliyeviç, Sizin dediklərinizi təkrar etmək mümkün deyildir. Nikolay Konstantinoviç bizim doğma adamımızdır. Çox sağ olun ki, Siz bütün hallarda, heç vaxt Nikolay Konstantinoviçi unutmursunuz.

Siz respublikaya rəhbərlik etdiyiniz 70-ci illərdən danışdınız. Hesab edirəm ki, Azərbaycanın həmin dövrünü intibah, dirçəliş, bərpa, inkişaf dövrü adlandırmaq olar. Nikolay [266-267] Konstantinoviç də bu işdə heç də axırıncı rol oynamırdı, görkəmli rol oynayırdı. Bizdə nəinki güclü kimya, metallurgiya, maşınqayırma sənayesi meydana gəlmişdi, neft sənayesi inkişaf edirdi, başlıcası bu idi ki, Siz maarifin maddi-texniki bazasının inkişafına diqqət yetirirdiniz. Həmin illərdə bir milyon iki yüz min şagird yeri yaradılmışdı. Demək olar, bütün şagirdlər yeni məktəblərdə oxuyurdular. Səhiyyənin, maarifin bazaları, elmi-texniki idarələr, hər yerdə çox saylı yeni müəssisələr yaradılmışdı. Siz bizi onun yanına göndərib deyirdiniz, «Baybakov oradadır, onun yanına gedin». Biz onun yanına gəlir, deyirdik: Nikolay Konstantinoviç, məktəblərin inkişafı üçün bizə bir milyard manat lazımdır. O, məktəb tikintisinin inkişafı üçün birbaşa, təyinatla 500 milyon manat tapırdı. Azərbaycan kəndinin görkəmi dəyişirdi.

Siz burada da tamamilə doğru dediniz, çox sağ olun.Siz onu unutmursunuz. O, doğma adamımızdır, həmyerlimizdir. Onun Dövlət Plan Komitəsinin sədri olması o demək deyildi ki, bizə hər şey verməli idi. O, bizə nə düşürdüsə, onu da verirdi. Bu da böyük işdir.

İki kəlmə ilə onu da demək istəyirəm ki, o, Rusiyanın müxtəlif rayonlarında işləyən bir çox Azərbaycan neftçiləri, - Komi Respublikasının baş, əməkdar geoloqu Məmmədov, qaz kəşfiyyatı təsərrüfatının başçısı Akif Səyyadov və başqaları üçün mayak olmuşdur. Belələri nə qədərdir! Dardüşüncəli adamlara elə gəlir ki, azərbaycanlılar yalnız göy-göyərti satırlar. Amma onların sənayeni irəlilətməsini unudurlar. Müharibə başlananda Sumqayıtdan 6 min nəfərlik kollektiv bütünlüklə Nijni Tagilə, yerli kombinatın tikintisinə getdi və onu inşa etdi. Mingəçevirin tikintisi başa çatdı və böyük texnika, ehtiyatlar Yenisey SES-in tikintisinə göndərildi. Biz orada tikintiyə başladıq, Beləliklə, Azərbaycan borclu qalmırdı, hər şey edirdi. Çox sağ olun. [267-268]

Siz Nikolay Konstantinoviçi gözəl xatırlayırsınız, ona hər zaman dostluq, yoldaşlıq əli uzadırsınız. O da Sizə son dərəcə hörmət bəsləyir. Biz bununla fəxr edirik.

**H e y d ə r Ə l i y e v**: Mən Sizi də həmişə xatırlayıram. Görürsünüz, köhnə qvardiyaya necə hörmət edirik. Öz aramızdır, bu heç də hər yerdə belə deyildir. Hamı da belə deyildir.

**K a m r a n H ü s e y n o v**: Çox sağ olun. İcazə verin kiçik hədiyyəni – «Bir həyatın salnaməsi» kitabını Sizə təqdim edim. Bu kitab yaxınlarda nəşr olunmuşdur, tezliklə rus dilində də çıxacaqdır.

**H e y d ə r Ə l i y e v**: Professor Məzahir Abasova «Şöhrət» ordenini təqdim edirəm.

**M ə z a h i r A b a s o v**: Sizə minnətdarlığımı bildirirəm. Möhtərəm cənab prezident, Siz mənə zəng vuranda mən öz ürək sözlərimi bildirdim. Sizin tapşırığınızla mən general Əbilov haqqında kitab yazmışam. Sizə təqdim etmək istədiyim kitabda ürək sözlərimi belə ifadə etmişəm: «Böyük zəka və ağıl sahibi, xalqımın yüksək hüsn-rəğbətini qazanmış, dünya şöhrətli, müdrik Heydər Əlirza oğluna kiçicik xatirə kimi təqdim olunur».

Heydər müəllim, bu kitab Sizin tapşırığınızla yazılıb, oxuyarsınız, əgər iradınız olsa, mən onları düzəltməyə hazıram.

**H e y d ə r Ə l i y e v**: İrad ola bilməz. Yəqin ki, yaxşıdır. Sağ olun.

**M ə z a h i r A b a s o v**: Heydər müəllim, Sizinlə telefonla danışanda dediniz ki, mənə sözünüz var? Fikirləşdim ki, mən nə deyim, - prezident məni təbrik edir. Amma iki-üç gündən sonra Sizin adınıza bir məktub yazdım. Həmin məktuba hələlik bir cavab yoxdur. Ona görə də yenisini yazmışam.

**H e y d ə r Ə l i y e v**: Sənin məktubun mənə çatmayıb, mən onu almamışam.

**M ə z a h i r A b a s o v**: Cənab prezident, mən Sizə minnətdaram, uzun ömür, cansağlığı arzulayıram. Siz Allah tərə[268-269]findən göndərilmiş səma elçisisiniz. Azərbaycanın taleyi yalnız Sizdən asılıdır.

**H e y d ə r Ə l i y e v**: Xalq artisti Tükəzban İsmayılovaya yüksək mükafatı təqdim edirəm.

**T ü k ə z b a n İ s m a y ı l o v a**: Əziz və möhtərəm prezidentimiz, Sizə minnətdarlığımı bildirirəm. Siz bizim əzizimizsiniz. Siz həmişə bizim ailəmizə qayğı göstərmisiniz. 75 yaşımın tamam olması münasibətilə Siz mənə zəng vuranda elə bildim ki, Allah mənə yenidən ömür bəxş etdi. Sizin danışığınız mənə çox böyük təsir etdi. Mən hər yerdə bu barədə danışıram.

İşinizin çox olmasına baxmayaraq, vaxt tapıb müğənniyə - mənə zəng etməyinizlə elə bildim ki, dünyanı mənə bağışladınız. Mən Sizə cansağlığı, uzun ömür arzulayıram. Dünyada nə qədər yaşamaq istəyirsinizsə, Allah onu Sizə bəxş eləsin. Allah mənim ömrümdən kəsib Sizə versin. Çox sağ olun.

**H e y d ə r Ə l i y e v**: Maşallah, yaxşısınız, gözəl qalmısınız, heç dəyişməmisiniz.

**T ü k ə z b a n İ s m a y ı l o v a**: Sizin kimi prezidenti olan qocalmaz. Çox sağ olun, təşəkkür edirəm.

**H e y d ə r Ə l i y e v**: Professor Abdulla Muxtarova «Şöhrət» ordenini təqdim edirəm.

**A b d u l l a M u x t a r o v**: Bu yüksək mükafat üçün Sizə dərin təşəkkürümü bildirirəm.

**H e y d ə r Ə l i y e v**: Tarixçi, professor Yaqub Mahmudova «Şöhrət» ordenini təqdim edirəm.

**Y a q u b M a h m u d o v**: Öz dərin minnətdarlığımı bildirirəm.

Möhtərəm cənab prezident!

Bu gün Azərbaycan ziyalılarına, bizim sənət adamlarımıza müstəqil Azərbaycanımızın ali mükafatlarının təqdim olunması çox əlamətdar bir hadisədir. Buna görə də Azərbaycanın ən yüksək ordenini Sizdən qəbul edərkən hədsiz [269-270] həyəcan hissi keçiririk. Bunun müqabilində nə isə demək son dərəcə çətindir.

Amma mən bir neçə söz demək istəyirəm. Çünki Sizin bu gün müstəqilliyini qurduğunuz, yaratdığınız, qoruduğunuz, xilas etdiyiniz Azərbaycanda gələcəkdə yüz illərlə ölkəmizin yüksək mükafatları veriləcəkdir. Tarixçi alim kimi mən bu yüksək mükafatı, ali ordeni Sizdən qəbul edərkən bilirəm ki, onu Azərbaycanın prezidentindən, dövlətçiliyimizin xilaskarından, Azərbaycan millətinin fəxrindən qəbul edirəm.

Mən böyük qürur hissi keçirirəm ki, lap bu yaxın günlərdə planetimizin ən qüdrətli siyasətçiləri arasında sorğu aparılanda Siz Kembricdə Bioqrafik Araşdırmalar Mərkəzində «XX əsrin ən görkəmli dövlət xadimi» adına layiq görülmüsünüz. Bu, hər bir azərbaycanlı üçün, şəxsən məndən ötrü böyük bir fəxrdir.

Azərbaycanın bu yüksək ordenini, ali mükafatı bu gün Sizdən qəbul edərkən belə hesab edirəm ki, Siz bu ali mükafatı təkcə mənə deyil, 1950-ci, 1960-cı, 1970-ci illərdə şəxsən Sizin qoruduğunuz milli əhval-ruhiyyəli gənclərin – Siz onları məhv olmaqdan xilas etmisiniz, zülm dəyirmanının qarşısında dayanaraq onları müdrikliklə, son dərəcə ölçüb-biçərək, amma böyük cəsarətlə xilas edirdiniz, mən onların bir nümayəndəsiyəm – onların hər birini təltif edirsiniz.

Siz 1970-ci illərdə Azərbaycanı qaldırdınız. Azərbaycan geniş SSRİ məkanında ən qüdrətli respublikalardan birinə çevrildi. O böyük məkanda azərbaycanlı başını qaldırıb qürurla gəzirdi. O zaman mən də qürur hissi keçirirdim ki, bu mənim Azərbaycanımın qeyrətli oğlunun sayəsindədir, onun xidmətlərinin nəticəsidir ki, Azərbaycan tanınır, xalqımız xalqlar içərisində öz imzasını tapa bilir. Bax, o zaman qürur hissi keçirən azərbaycanlılardan biri kimi, mən bu gün məmnuniyyətlə belə hesab edirəm ki, bu, həmin azərbaycanlıların hamısına verilən mükafatdır. [270-271]

Nəhayət, Siz 1970-ci illərdə Azərbaycana rəhbərlik edərkən ziyalılarımızın böyük bir dəstəsini məhv olmaqdan xilas etdiniz. Siz tarixçiləri, sənət adamlarını o çox ağır şəraitdə xilas etdiniz, qoruyub saxladınız. Bizim ziyalı potensialımız yaşadı, onlar bu gün Sizin arxanızdadır. Belə hesab edirəm ki, bu mükafat onların hər birinə verilən mükafatdır.

Nəhayət, biz Azərbaycanda neçə il Sizsiz yaşadıq, ağır günlərimiz oldu. Mən cəbhə bölgələrini qarış-qarış gəzmişəm. Kərkicahanda, Xocalıda, Qubadlıda, Laçında gəncləri döyüşə ruhlandıranda hamı bir ağızdan deyirdi ki, bizi bu bəladan, fəlakətdən Heydər Əliyev xilas edəcəkdir, onu hakimiyyətə gətirin.

Ölkəmizdə dövlət çevrilişinə cəhdlər göstərilərkən mən Azərbaycanın bütün guşələrini gəzmişəm. Uzaq Zaqatalada, Şəkinin Göynük kəndində, Qaxda, Balakəndə, Lənkəranda, Füzulidə Azərbaycan dövlətçiliyindən söhbət düşəndə hamı əllərini açaraq tribunaya yaxınlaşıb deyirdi: «Tale Heydər Əliyevi yaşatsın, ona cansağlığı versin, bizi o xilas edəcəkdir».

Mənim sözümün mahiyyəti ondan ibarətdir ki, bu gün bizim hamımız dərindən-dərinə dərk edir ki, 1993-cü ildə Azərbaycan məhv olmaqda ikən, daşnakların arzularının yerinə yetməsi ərəfəsində, ölkəmiz parçalananda, xalqımız ayaq altında qalanda, dövlətçiliyimiz məhv olmaq təhlükəsi qarşısında qalanda bizim bir silahımız var idi: Heydər Əliyevin zəkası! O zəkanı bizə Allah-taala bəxş etmişdir. Təkcə o silahla bizim düşmənlərimiz - xalqımızı məhv etməyə çalışan zəhmli xarici düşmənlər də, daxildəki satqınlar da məğlubiyyətə uğradılar. Bu gün Azərbaycan yaşayır!

Düzünü deyim ki, mən həmişə bu salonda yüksək mükafatların təqdim olunması mərasimini izləyəndə daxilən narahatlıq keçirirəm. Bizim hər birimizə – Azərbaycanın ziyalılarına, dövlət adamlarına bu mükafatları Heydər Əlirza oğlu verir. Bəs onun mükafatı nə olmalıdır, ona kim mükafat verməlidir? [271-272]

Möhtərəm prezident, mən belə hesab edirəm ki, bizim qurtuluş mübarizəmizin qalibi Siz oldunuz. Yəni Sizin kimi şəxsiyyətlərin mükafatla təltif edilməsinə fərmanı tarix verir. Tarix isə min illər üçün Sizi Azərbaycan xalqının qurtuluş mücadiləsinin qalibi kimi yüksək fəxri adla təltif etmişdir. Siz bizim dövlətçiliyimizin xilaskarısınız. Siz bu gün Azərbaycan xalqını planetdə təmsil edirsiniz və xalqımız Sizin sayənizdə dövlətçiliyini qoruyub saxlayır. Mən belə hesab edirəm ki, Azərbaycan dövlətçiliyinin xilaskarı olmaq Azərbaycan üçün, dünyamız, planetimiz üçün ən böyük fəxri addır. Bütün bu adlara layiq olduğunuz üçün və xalqımız Sizi öz ürəyinin başına yazdığına görə Sizi qəlbən təbrik edirik, Sizə möhkəm cansağlığı arzulayırıq.

Cənab prezident, təyyarə meydanında Sizi qarşılayanlardan ən çox sevinənlərdən biri mən oldum. İndi həmişəki kimi millətlə baş-başa vermisiniz. Arzu edirik ki, millətimizi bir də belə sınağa çəkməyəsiniz. Sizə möhkəm cansağlığı arzulayıram. Sizə eşq olsun!

**H e y d ə r Ə l i y e v**: Xalq artisti, bəstəkar Süleyman Ələsgərova vətənin yüksək mükafatını təqdim edirəm.

**S ü l e y m a n Ə l ə s g ə r o v**: Möhtərəm prezidentimiz!

57 illik zəhmətimə, Azərbaycan milli musiqisinin inkişafında gördüyüm işlərə verdiyiniz qiymətə, mənə göndərdiyiniz məktubda yazdığınız ürək sözlərinə, telefon danışığımız zamanı dediyiniz qəlbdən gələn sözlərə və məni «Şöhrət» ordeni ilə təltif etdiyinizə görə Sizə minnətdaram. Xahiş edirəm mənim təşəkkürümü qəbul edin.

Mən hər gün düşünürəm, öz-özümə sual verirəm. Deyirəm, görəsən dünyada bizim hörmətli prezidentimiz qədər mədəniyyətimizin, musiqimizin ayrı-ayrı sahələrinə bu dərəcədə diqqət, qayğı göstərən ikinci bir dövlət başçısı varmı? Özüm də o saat cavab verirəm ki, xeyr, əsla yoxdur. [272-273]

Yaşımın bu ahıl vaxtında bir arzumu Sizə bildirmək istəyirəm. Mənim ən böyük arzum odur ki, torpaqlarımız düşməndən azad edilsin. Şüşamız qayıtsın. Biz Şuşada, Cıdır düzündə izdihamlı bir toplantı quraq və Siz orada çıxış edəsiniz. İştirakçıların hamısı bir ağızdan desin: Xalqımızın və vətənimizin xilaskarına eşq olsun! Möhtərəm prezident, yaşayın, çox yaşayın! Allah bizi bu arzularımıza çatdırsın!

**H e y d ə r Ə l i y e v**: Xalq rəssamı Oqtay Sadıqzadəyə «Şöhrət» ordenini təqdim edirəm.

**O q t a y S a d ı q z a d ə**: Bu yüksək mükafat üçün səmimi-qəlbdən təşəkkürümü bildirirəm.

**H e y d ə r Ə l i y e v**: Əziz dostlar!

Biz bu gün Beynəlxalq Qadınlar Günü bayramı ərəfəsindəyik. Bu, təkcə qadınların deyil, bütün cəmiyyətin bayramıdır, yəni kişilərin də bayramıdır. Əgər belə olmasaydı, 8 Mart günü heç də istirahət günü olmazdı. Qadınların bayramına görə bütün cəmiyyət, kişilər də istirahət edir, bayram edir.

Bu gün təltif olunanların arasında Azərbaycanın gözəl qadınları vardır. Onlar bizimlə bir yerdədirlər. Leyla xanım Bədirbəyli, Tükəzban xanım İsmayılova Azərbaycan mədəniyyətinin tarixidirlər. Ola bilər, mən onlarla bir yaşdayam, bəlkə də bir az yaşlıyam. Mən ən gənc vaxtlarımdan həm Leyla xanımın, həm də Tükəzban xanımın sənətinə vurulan adamlardan biriyəm. Mən xoşbəxtəm ki, Leyla xanım da, Tükəzban xanım da bu gün cəmiyyətdə fəal iştirak edirlər və nəhayət, müstəqil Azərbaycanın, dövlətimizin yüksək mükafatlarını alırlar.

Mən istəyirəm ki, hamımızın adından qadınları bir daha təbrik edim, onlara xoşbəxtlik, səadət arzulayım. Qadınların özlərinə, ailələrinə, balalarına, nəvələrinə, nəticələrinə – hamısına cansağlığı, sağlam həyat, xoş güzəran arzulayıram.

Sağ olun, sizin hamınızı Qadınlar bayramı münasibətilə bir daha təbrik edirəm. [273]

## AZƏRBAYCANDA KEÇİRİLƏN DAĞISTAN MƏDƏNİYYƏT GÜNLƏRİNDƏ DAĞISTAN İNCƏSƏNƏT USTALARININ KONSERTİNƏ BAXDIQDAN SONRA YARADICI KOLLEKTİVLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*Respublika sarayı*

*12 mart 1999-cu il*

Sizi Azərbaycanda səmimi salamlayır və Azərbaycanda Dağıstan mədəniyyəti günlərinin başlanğıcı olan gözəl çıxışınız münasibətilə ürəkdən təbrik edirəm.

Bu, Azərbaycan üçün də, Dağıstan üçün də böyük hadisədir. Xalqlarımız, ölkələrimiz bir-biri ilə həmişə sıx bağlı olmuşlar, indi isə buna xüsusi zərurət və xüsusi tələbat var. Siz də məhz bu məqsədə xidmət edirsiniz. Öz sənətinizlə, öz çıxışlarınızla Dağıstanla Azərbaycan arasında dostluq münasibətlərinin möhkəmlənməsinə və inkişafına kömək edirsiniz. Bu baxımdan Azərbaycanda Dağıstan mədəniyyəti günləri böyük əhəmiyyətə malikdir.

Bu günlərin başlanmasına mən çox şadam və əminəm ki, Azərbaycanda olmağınız xalqlarımızı, dövlətlərimizi, ölkələrimizi, şübhəsiz, daha da yaxınlaşdıracaqdır.

Bu gün siz Dağıstan xalqının parlaq incəsənətini nümayiş etdirdiniz. Dağıstan nadir ölkədir. Zənnimcə, dünyada Dağıstan kimi ölkə yoxdur. Əlbəttə, bu ölkənin zəngin təbiəti var, ancaq ən çox öz gözəl insanları və çoxmillətli tərkibi ilə zəngindir. Təkrar edirəm, mən dünyada elə bir ölkə tanımıram ki, [274-275] Dağıstan kimi kiçik bir ərazidə bir çox millətlərdən olan insanlar yaşasın və özü də gözəl yaşasınlar. Bu gün siz öz çıxışınızla Dağıstanın bu rəngarəngliyini, çoxmillətliliyini olduqca parlaq şəkildə nümayiş etdirdiniz.

Şəxsən mən və Azərbaycan xalqı Dağıstanı yaxşı tanıyırıq. Biz sizin tarixinizə, mədəniyyətinizə, incəsənətinizə də bələdik. Bu gün siz yüksək səviyyəli, yüksək dərəcəli incəsənət və Dağıstan xalqları mədəniyyətinin yüksək nailiyyətlərini göstərdiniz. Müxtəlif dillərdə - avar, dargin, qumuq, lak, ləzgi və Dağıstanın bir çox digər dillərində mahnıları dinləmək xoş idi. Əlbəttə, rəqslərinizi görmək də xoş idi. Siz virtuozsunuz. Əlbəttə, İqor Moiseyevin bizim hamımız üçün məşhur olan, rəqs sənətinin həqiqətən yüksək səviyyəsinə yiyələnmiş ansamblı var. Qafqazın – Azərbaycanın da, Gürcüstanın da, başqa xalqların da rəqs ansamblları var. Biz Azərbaycanın rəqs ansamblını çox yüksək qiymətləndiririk. Ancaq bu gün sizin göstərdiklərinizi, açığını deyəcəyəm, mən əvvəllər Dağıstanda görməmişdim.

Mən Dağıstan xalqlarının gözəl rəqslərinin dəfələrlə şahidi olmuşam, amma «Ləzginka» məşhur ansambldır. O, bütün dünyanı gəzib dolaşmışdır və özünün yüksək ustalığını bu gün də saxlayır. Bu gün siz «Ləzginka»nın çıxışından əlavə, çoxmillətli Dağıstana aid bir çox digər şeylər də göstərdiniz.

Buraya gəldiyinizə görə, Dağıstan mədəniyyətini Azərbaycanda göstərməyə başladığınıza görə sağ olun. Mən bunu çox böyük hadisə hesab edirəm, incəsənət və mədəniyyətdə qazandığınız əla uğurlar münasibətilə sizi təbrik edirəm.

Dağıstan Rusiya Federasiyasının ayrılmaz hissəsidir. Biz Dağıstanla, Dağıstan xalqları ilə dostluqdan danışdıqda Azərbaycan və Rusiya Federasiyası arasında dostluqdan danışırıq. Mən Dağıstanı yaxşı tanıyıram və Rusiya Federasiyasını yaxşı tanıyıram. Ürəkdən arzu edirəm ki, siz Dağıstanda, Rusiya Federasiyasının ən cənub hüdudlarında onun [275-276] dayağı, Rusiya ilə Azərbaycan arasında dostluğun çox mühüm vəsiləsi olasınız. Biz Rusiya ilə münasibətlərimizin möhkəmlənməsi və inkişafı üçün mümkün olan hər şeyi edəcəyik.

İqtisadi əməkdaşlıq yaxşı inkişaf edir. Digər bütün sahələrdə də xoş cəhətlər olduqca çoxdur. Ancaq Azərbaycan ilə Rusiya arasında hərtərəfli, çoxsahəli dostluq münasibətlərindən və sıx əməkdaşlıqdan danışa bilməyimiz üçün bütün bunlar hələlik çox azdır. Biz bu baxımdan səy göstərir və göstərəcəyik. Buna Rusiya tərəfi də çalışır. Bu işdə Dağıstan da çox mühüm yer tutur, onun xüsusi rolu var, çünki siz Azərbaycana çox yaxınsınız, eləcə də Azərbaycan sizə tarix, milli ənənələr, adətlər, din, müəyyən qədər dil baxımından yaxındır. Bütün bunlar Dağıstan–Azərbaycan dostluğu vasitəsilə Rusiya - Azərbaycan dostluğu və əməkdaşlığını da möhkəmlətmək üçün yaxşı zəmin yaradır.

Şadam ki, sizin belə istedadlarınız, yaxşı müğənniləriniz var. Naida xanım bunu mənə demişdi. Şadam ki, Dağıstan xalqlarının incəsənəti belə yüksək səviyyədədir. Çox şadam, sözün düzü, buraya gəlməyə hazırlaşarkən bilirdim ki, konsert yaxşı olacaq, amma güman etmirdim ki, belə gözəl olacaqdır.

Sizə cansağlığı, firavanlıq, yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Dağıstan ilə Azərbaycan arasında dostluğun, qardaşlığın möhkəmlənməsi sahəsində sizin tərəfinizdən də, Azərbaycanın mədəniyyət xadimləri tərəfindən də yeni-yeni səylər göstərilməsini arzu edirəm.

**N a i d a  Ə b d ü l h ə m i d o v a** (*Dağıstanın mədəniyyət naziri*): Heydər Əliyeviç, Azərbaycanda Dağıstan mədəniyyəti günlərinin keçirilməsini lazım bildiyinizə görə, vaxt tapıb konsertimizdə olduğunuza görə çox sağ olun. Hesab edirəm ki, Azərbaycanda bütün gözəl işlər Sizin xoş məramınızla başlayır. Bizim Dağıstan dövlətinin başçısı Məhəmmədəli Məhəmmədoviç də Azərbaycanla əməkdaşlığa aid bütün tə[276-277]şəbbüslərinizi həmişə dəstəkləyir. Azərbaycanda bu qəbula görə çox sağ olun.

Bu gün biz iki çox mühüm tədbir keçirdik – sərgi açdıq və indi də konsert verdik. Sabah Qusarda böyük konsert verəcəyik. [277]

## XALQ RƏSSAMI OQTAY SADIQZADƏ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Prezident sarayı*

*13 mart 1999-cu il*

**Oqtay Sadıqzadə**: Cənab prezident, vaxt ayırıb məni qəbul etdiyinizə görə Sizə dərin minnətdarlığımı bildirir və bu görüşdən çox şad olduğumu vurğulayıram. Sizin yenidən ölkəmizin prezidenti seçilməyiniz münasibətilə çəkdiyim portretinizi, habelə xalq rəssamı mərhum Elmira Şahtaxtinskayanın mənzərə janrında iki əsərini Sizə təqdim etmək istəyirəm.

**Heydər Əliyev**: Mən bu hədiyyələrə görə təşəkkürümü bildirirəm və sənət əsərlərini yüksək qiymətləndirirəm. Bu əsərlər çox dəyərli əsərlərdir. Elmira xanım da Azərbaycanın rəssamlıq həyatında böyük bir iz qoyub gedibdir.

**Oqtay Sadıqzadə**: Təşəkkür edirəm, cənab prezident. Mən bu fürsətdən istifadə edərək Sizdən bir xahiş etmək istəyirəm. Bu yaxınlarda Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Müşeyinin 60 illiyi tamam olur. Bu, ən şöhrətli və məşhur muzeylərdən biridir. Hazırda o, çox acınacaqlı vəziyyətdədir, təmirə ehtiyacı vardır. Muzeyin imkanları isə olduqca məhduddur. Hətta ekspozisiyaların bir hissəsi işləmir, çünki təmirə ehtiyac vardır. Əgər imkan daxilində bu işə kömək göstərsəydiniz, orada çalışanlar çox şad olardılar. Mən bunu onların adından yox, öz adımdan deyirəm. Çünki mən muzey üçün rəsmlər çəkir, onların sifarişini yerinə yetirirəm. [278-279]

Məlumat verim ki, mən dahi şairimiz Nizami Gəncəvinin yaradıcılığı ilə bağlı son dövrdə bir neçə şəkil çəkmişəm və hazırda bu əsərlər muzeydə saxlanılır. Eyni zamanda şairə Natəvanın portretini də çəkmişəm. İcazə verin onların fotosurətini Sizə təqdim edim.

**Heydər Əliyev**: Mən bu tablolara baxmaq istərdim. Mən belə işlərlə çox maraqlanıram. Siz vaxtilə Zərifə xanımın da portretini çəkmişdiniz. Çox yaxşı portretdir, mənim çox xoşuma gəlir. Ona görə sizə təşəkkür edirəm.

**Oqtay Sadıqzadə**: Cənab prezident, bu bizim borcumuzdur. Bunu biz öz borcumuz hesab edirik. Çünki Siz doğrudan da bizə həm mənəvi, həm maddi cəhətdən çox kömək etmisiniz. Siz bizim prezidentimizsiniz. Ona görə biz həmişə Sizə borcluyuq.

**Heydər Əliyev**: Sizin mənə heç bir borcunuz yoxdur. Siz böyük bir rəssamsınız, çox işlər görürsünüz, Azərbaycanın rəssamlıq sənətini inkişaf etdirirsiniz. Dediyim kimi, Elmira xanım Şahtaxtinskaya da çox böyük əsərlər yaradıbdır, bizim rəssamlıq sənətində böyük iz qoyub gedibdir. Ona görə sizin sənətiniz, yaradıcılığınız çox qiymətlidir. Bunları nəzərə alaraq mən sizi ordenlə təltif etdim. Amma siz bundan sonra da çox işlər görə bilərsiniz. Görürəm ki, siz çox məhsuldar işləyirsiniz. Bu, çox yaxşıdır.

Muzey haqqında dediyiniz məlumatı nəzərə alaram. Mən bilmirdim, eşitməmişdim və heç kəs mənə deməyibdir. Yəqin ki, bir tədbir görmək lazımdır. Doğrudan da o, nadir bir binadır, unikal muzeydir. Oranı qorumaq, saxlamaq lazımdır.

Mənim yadıma salsınlar. Gərək bir gün vaxt tapıb gedim muzeydə bu tablolara baxım. Bunlar çox maraqlıdır. Bunların reproduksiyasını buklet kimi çıxarmaq lazımdır. Çox gözəl işlərdir. Azərbaycan haqqında cürbəcür rəngli albomlar hazırlayanda bu reproduksiyalardan oraya daxil etmək lazımdır. Çünki bunlar həm kompozisiya, məzmun nöqteyi-[279-280]nəzərindən, həm də rəssamlıq sənəti nöqteyi-nəzərdən çox dəyərlidir. Mən bunu fotolardan görürəm. Yəqin ki, əsli bundan daha da təsirlidir. Sizi təbrik edirəm. Gərək vaxt tapıb Natəvanın da portretinə gedib baxım. Bu şəkildən görünür ki, çox yaxşı portretdir. [280]

**TÜRKİYƏ RESPUBLİKASININ**
**PREZİDENTİ ZATİ-ALİLƏRİ**
**CƏNAB SÜLEYMAN DƏMİRƏLƏ**

Möhtərəm cənab prezident!
Əziz qardaşım!

Türkiyənin İstanbul şəhərində törədilən terror aktı nəticəsində çoxsaylı insan tələfatı olması xəbəri məni çox kədərləndirdi.

Sizə, həlak olanların qohumlarına və yaxın adamlarına, bütün Türkiyə xalqına dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *14 mart 1999-cu il*
[281]

## AZƏRBAYCAN RESPUBLİKASINDA DÖVLƏT İDARƏETMƏ SİSTEMİNDƏ İSLAHATLARIN HƏYATA KEÇİRİLMƏSİ ÜZRƏ BEYNƏLXALQ KONFRANSDA* NİTQ

*Azərbaycan Milli Bankının iclas salonu*

*16 mart 1999-cu il*

Hörmətli xanımlar və cənablar!

Bu gün respublikamızda işə başlayan beynəlxalq konfrans Azərbaycanda dövlət idarəetmə sisteminin islahatlarına həsr edilmişdir. Ölkəmizdə son illər dövlət müstəqilliyini möhkəmləndirmək və inkişaf etdirmək sahəsində ciddi addımlar atılmış və müsbət nəticələr əldə olunmuşdur. Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesi ardıcıl surətdə həyata keçirilir.Ölkəmizin iqtisadiyyatını planlı iqtisadiyyat sistemindən bazar iqtisadiyyatı sisteminə keçirmək yolunda böyük işlər görülür. Bazar iqtisadiyyatı yaranır, formalaşır və inkişaf edir. Bunların hamısı Azərbaycanda bütün sahələrdə islahatların həyata keçirilməsinin nəticəsidir. Son illər iqtisadiyyatda islahatların həyata keçirilməsi kompleks xarakter daşıyır. Özəlləşdirmə proqramının, torpaq islahatının həyata keçirilməsi, bütün dövlət mülkiyyətinin özəlləşdirilməsi artıq öz müsbət nəticələrini verir.

Bunlar hamısı Azərbaycanın ilk Demokratik Konstitusiyasının əsasında və qəbul olunmuş 200-dən çox qanunların [282-283] və prezident fərmanlarının əsasında həyata keçirilir. Bunların nəticəsində Azərbaycanın həyatının bütün sahələrində böyük dəyişikliklər əldə edilmişdir. Birinci növbədə aparılan islahatlar, həyata keçirilən tədbirlər iqtisadiyyatın inkişafını təmin etmişdir.

Məlumdur ki, Azərbaycanın iqtisadiyyatı 1990-cı ildən başlayaraq tənəzzül dövrü keçirmiş, sosial-intisadi böhran içərisində olmuşdur. Həmin dövrdə iqtisadiyyat davamlı olaraq ildə 20 faiz aşağı düşmüşdür. Bizim apardığımız tədbirlər, həyata keçirdiyimiz islahatlar iqtisadiyyatda makroiqtisadi sabitliyin təmin olunması ilə nəticələnmişdir.

1995-ci ildə iqtisadiyyatda stabillik əldə olunmuş, 1996-cı ildən başlayaraq iqtisadiyyat inkişaf yoluna düşmüşdür. Məhz bunun nəticəsidir ki, Azərbaycanda ümumi daxili məhsul 1996-cı ildə 1,3 faiz, 1997-ci ildə 5,8 faiz, 1998-ci ildə 10 faiz artmışdır. 1998-ci ildə sənaye və kənd təsərrüfatı məhsulları istehsalı artmışdır. Maliyyə sistemində aparılan tədbirlər yaxşı nəticələr vermişdir.

1994-cü, hətta 1995-ci ilə qədər inflyasiya Azərbaycanın iqtisadiyyatına, maliyyə sisteminə böyük zərbələr vururdu. Aparılan tədbirlər, düzgün iqtisadi, maliyyə siyasəti nəticəsində bunların qarşısı alınmış, inflyasiya tədricən aradan götürülmüşdür. Son illər, xüsusən 1998-ci ildə inflyasiya tamamilə ləğv edilmişdir. Hətta 1998-ci ildə Azərbaycanın milli valyutasının – manatın dəyəri dollara nisbətən o qədər möhkəmlənmişdir ki, istehlak mallarının qiymətlərinin azalması və deflyasiya müşahidə olunur.

Bütün bunların nəticəsində iqtisadiyyatın başqa sahələrindəki göstəricilər də sevindiricidir. Təbiidir ki, bütün bu nailiyyətləri əldə etmək üçün Azərbaycanda birinci növbədə ictimai-siyasi sabitliyi təmin etmək lazım idi və bu, Azərbaycanın dövlət müstəqilliyini əldə edəndən sonrakı vəziyyətinə görə xüsusi əhəmiyyət kəsb edirdi. [283-284]

Məlumdur ki, 1988-ci ildən Ermənistan-Azərbaycan münaqişəsi nəticəsində respublikamız böyük, gərgin ictimai-siyasi proseslər içərisində olubdur. Bununla yanaşı, Azərbaycanda sabitlik olmamış, müxtəlif qüvvələrin hakimiyyət uğrunda qanunsuz mübarizəsi, qanunsuz silahlı dəstələrin mövcudluğu ölkəmizin daxili həyatını həddindən çox gərginləşdirmişdir. Şübhəsiz ki, bunlar da Azərbaycanın iqtisadiyyatına böyük zərbələr vurmuşdur. Ona görə də Azərbaycan dövlətinin qarşısında duran əsas vəzifə ictimai-siyasi sabitliyi təmin etmək idi. Məhz 1994–95-ci illərdə bunu təmin edəndən, Azərbaycanda əldə olunmuş ictimai-siyasi sabitliyi dönməz edəndən sonra ölkədə iqtisadiyyat və bütün sahələrdə islahatların həyata keçirilməsi mümkün olmuşdur və bunlar məlum müsbət nəticələri vermişdir. Bunların əsasında Azərbaycanın dünya miqyasında hörməti artmış, ölkəmizin iqtisadiyyatına maraq yüksəlmiş, respublikamıza xarici dövlətlərdən investisiya qoyulması prosesi başlanmışdır. Bütün bunlar yüksələn istiqamətlə irəliləyir.

Keçən il, 1998-ci ildə Azərbaycanın iqtisadiyyatına bir milyard 500 milyon Amerika dolları dəyərində investisiya qoyulmuşdur. Adambaşına xarici investisiya qoyuluşunun miqdarına görə Azərbaycan Müstəqil Dövlətlər Birliyi içərisində birinci yerdədir. Ümumiyyətlə, iqtisadi göstəricilərə görə Azərbaycan Müstəqil Dövlətlər Birliyinin üzvü olan ölkələr arasında çox görkəmli yer tutur.

Məlumdur ki, 1998-ci ildə dünyanın bir sıra bölgələrində baş vermiş maliyyə böhranı başqa ölkələrə də sirayət etmişdir. Xüsusən, Rusiyada baş vermiş və bu günə qədər davam edən maliyyə böhranı onun

* Konfrans Azərbaycan hökuməti və Dünya Bankı tərəfindən təşkil olunmuşdur.

ətrafında olan ölkələrə, o cümlədən Azərbaycana da öz təsirini göstərmişdir. Ancaq başqa ölkələrdən fərqli olaraq Azərbaycanda son illər aparılan düzgün iqtisadi siyasət, həyata keçirilən düşünülmüş, tədbirlər və ölçülüb-biçilmiş islahatlar nəticəsində biz Azərbaycanın [284-285] maliyyə və iqtisadiyyat sahəsində elə bir şərait yaratmışıq ki, hətta Rusiyada baş vermiş böyük maliyyə böhranının da ölkəmizə təsirini azaldıb, onun qarşısını ala bildik.

Qeyd etdiyim kimi, bunların nəticəsində Azərbaycanda iqtisadiyyat inkişaf edir. Biz özəlləşdirmənin də müsbət nəticələrini görürük. İndi artıq Azərbaycanda ümumi daxili məhsul istehsalının 55 faizi özəl sektora məxsusdur. Sənaye məhsulunun 26 faizi özəl sektorda istehsal olunur. Kənd təsərrüfatı məhsulları istehsalının 95 faizi, ticarətin 98 faizi və inşaatın 70 faizi Azərbaycanda özəl sektora məxsusdur. Bunlar iqtisadiyyatın inkişafında da müsbət nəticələr əldə olunmasını təmin edir. Eyni zamanda, bu göstəricilər Azərbaycanda iqtisadi islahatların və onların içərisində özəlləşdirmənin doğru-düzgün, səmərəli aparıldığını göstərir.

Bütün bunlarla yanaşı, indiyə qədər Azərbaycanda dövlət idarəetmə sistemində də islahatlar aparılıb və müsbət nəticələr əldə edilibdir. İqtisadi islahatlarla və özəlləşdirmə proqramının həyata keçirilməsi ilə bağlı iqtisadiyyatı idarəetmə sahəsində ölkənin 20-dən çox nazirliyi, Dövlət Komitəsi, konserni və şirkəti ləğv olunubdur. Bir çox nazirliklərdə və idarəetmə orqanlarında ayrı-ayrı qurumlar ləğv olunub, yaxud da onların bugünkü fəaliyyəti bazar iqtisadiyyatı prinsiplərinə uyğunlaşdırılıb və uyğunlaşdırılır.

Bunlar bizim gördüyümüz işlər və əldə etdiyimiz nailiyyətlərdir. Ancaq bu, bizim işimizin başlanğıcıdır. İslahatlar bütün istiqamətlərdə davam etdirilir və davam etdirilməlidir. Bu islahatlar içərisində dövlət idarəetmə sistemində islahatların aparılması bir daha zəruri xarakter daşıyır.

Biz ümumiyyətlə, bütün islahatların keçirilməsində Müstəqil Dövlətlər Birliyinə daxil olan başqa ölkələrin bir çoxundan bu işləri vaxt etibarilə gec başlamışıq. Bəzən bizim bu işlərimizi tənqid edənlər, yaxud da ki, bu işlərə qərəzli münasibət göstərənlər islahatların aparılmasında gecikməyimizi və [285-286] beləliklə, guya islahatlara lazımi münasibət göstərməməyimizi sübut etməyə çalışmışlar. Biz hələ bir neçə il bundan əvvəl belə avantüristlərə və Azərbaycanın iqtisadiyyatını dağıtmağa çalışanlara lazımi cavabları vermişik. Ancaq ötən üç ilin nəticələri onu göstərir ki, keçid dövrünü yaşayan bir neçə başqa ölkələrlə Azərbaycanı müqayisə edəndə bizim gördüyümüş işlər daha da dərin xarakter daşıyır. Biz bütün tədbirləri ölçüb-biçib, düşünüb həyata keçiririk və bunlar öz müsbət nəticəsini verir.

Ancaq eyni zamanda islahatların, özəlləşdirmənin həyata keçirilməsi bir çox nöqsanları və çatışmazlıqları, hətta səhvləri də meydana çıxarır. Məsələn, Azərbaycanın kənd təsərrüfatında pambıq istehsalı sahəsi mühüm yer tutur. Biz torpaq islahatı keçirərək, torpağı kəndliyə şəxsi mülkiyyətə verərək ciddi addımlar atmışıq. Biz eyni zamanda, kənd təsərrüfatını, idarəetmə sistemini və kənd təsərrüfatı məhsulları istehsal müəssisələrini də özəlləşdirmişik və özəlləşdiririk. Bunlar hamısı olmalıdır. Biz bunu etmişik və bundan sonra da edəcəyik. Ancaq təəssüf ki, bu tədbirlərin həyata keçirilməsi ilə meydana çıxan bəzi problemləri vaxtında aşkar etmək və nöqsanların, mənfi meyllərin qarşısını almaq sahəsində ayrı-ayrı nazirliklərdə və dövlət orqanlarında səhvlərə yol verilmişdir. Bu, pambıqçılıq sahəsində özünü göstərir.

Prezident Aparatı, Nazirlər Kabineti bu yaxınlarda bu məsələləri müzakirə etmişlər. Aydın olmuşdur ki, pambıqtəmizləmə zavodlarının özəlləşdirilməsi müsbət xarakter daşıdığı halda, iş nəticələri istənilən səviyyədə deyil, hətta istehsalı keçmiş dövrlərə nisbətən çox geri salmışdır. Məsələn, Azərbaycanda 1997-ci ilə nisbətən 1998-ci ildə pambıq istehsalı xeyli azalmışdır. 1999-cu il üçün pambıq istehsalına hazırlıq işləri isə çox qeyri-qənaətbəxş vəziyyətdədir. Səbəbi nədir? Səbəbi ondan ibarətdir ki, torpaqları fermerlərə verdikdən, pambıqtəmizləmə zavodlarını özəlləşdirdikdən sonra dövlət, [286-287] hakimiyyət orqanları bu məsələlərdən əlini demək olar ki, tamamilə üzmüş, bu mərəkkəb və çətin məsələləri fermerlərin, özəl sektorun ixtiyarına vermişdir. Təbiidir ki, on illərlə yaranmış sistemi dağıdıb özəl sektor, bazar iqtisadiyyatı prinsipi əsasında yeni bir iş yaratmaq asan deyildir. Buna dövlət, hökumət qayğısı, yardım, kömək olmalıdır. Ancaq bunlar edilməyibdir. Nəinki edilməyibdir, bu məsələ tamamilə nəzərdən qaçıbdır. Ona görə də indi biz özəlləşdirmənin, torpaq islahatının həyata keçirilməsi nəticəsində pambıqçılıq sahəsində istehsalın artması əvəzinə istehsalın xeyli azalmasının və heç təsəvvür edilməyəcək qədər azalmasının şahidiyik.

Mən dünən bu məsələləri müzakirə etdim və lazımi tədbirlər görülməsi haqqında göstərişlər verdim. Bu günlərdə müəyyən sənədlər qəbul olunacaqdır. Çünki biz iqtisadiyyatımızın böyük bir sahəsini belə bir vəziyyətdə qoya bilmərik.

Mən bu günlər bizim üçün tam aşkar olan bu məsələni sizə çatdırmaqla onu bildirmək istəyirəm ki, iqtisadi islahatlar, özəlləşdirmə, iqtisadiyyat sahəsində bizim apardığımız işlərin hamısı iqtisadiyyatı inkişaf etdirməyə, vətəndaşların rifah halını yaxşılaşdırmağa, sosial problemləri həll etməyə yönəldilibdir və bu məqsədi daşıyır. Əgər biz aparılan bütün tədbirlər nəticəsində buna nail ola bilmiriksə, onda bazar iqtisadiyyatının, özəlləşdirmənin həyata keçirilməsi istiqamətində gördüyümüz işləri, islahatları özümüz ləkələmiş oluruq. Şübhəsiz ki, bunlara yol vermək olmaz.

Beləliklə, bizim indiyə qədər gördüyümüz işlər dövlət idarəetmə sistemində islahatların daha da dərinləşdirilməsi zəruriyyətinə gətirib çıxarır.

Mən bildirmək istəyirəm ki, ümumiyyətlə, Azərbaycanda dövlət quruculuğu, iqtisadi islahatlar prosesi ilə əlaqədar beynəlxalq təşkilatlarla – Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Birliyi ilə sıx əməkdaşlıq edirik. mən bu gün məmnuniyyətlə qeyd etmək istəyirəm ki, bu əməkdaşlıq Azər[287-288]baycan üçün yaxşı nəticələr verir. Biz bu əməkdaşlıqdan məmnunuq. Mən bu gün Dünya Bankının, Beynəlxalq Valyuta Fondunun Azərbaycana göstərdiyi qayğıya, diqqətə və yardıma görə təşəkkür edirəm. Bu təşkilatların Azərbaycana olan münasibətini, yardımını və qayğısını yüksək qiymətləndirirəm. Bizim bu əməkdaşlığımız artıq uzunmüddətli xarakter daşıyır. Ona görə də biz Beynəlxalq Valyuta Fondu və Dünya Bankı ilə ayrı-ayrı tədbirlərin həyata keçirilməsi barədə vaxtaşırı məsləhətləşirik, onların tövsiyələrindən istifadə edirik.

Bu gün demək istəyirəm ki, bu təşkilatlar tərəfindən verilən bütün tövsiyələr indiyə qədər bizə kömək edibdir. Bəzən ayrı-ayrı ölkələrdə belə fikirlər irəli sürülür ki, guya bu təşkilatlarla əməkdaşlıq istənilən nəticəni vermir. Biz belə fikirdə deyilik. Hesab edirik ki, əməkdaşlıq səmərəlidir, Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsində çox əhəmiyyətlidir. Biz bu əməkdaşlığı bundan sonra da davam etdirmək əzmindəyik.

Dövlət idarəetmə sisteminin islahatları ilə əlaqədar biz Dünya Bankı ilə indiyə qədər də əməkdaşlıq etmişik və bu sahədə ciddi addımlar atılması üçün yenidən Dünya Bankına müraciət etdik. Onlar bizim müraciətimizə çox müsbət münasibət göstərdilər. Onlarla birlikdə biz dövlət idarəetmə sisteminin islahatları ilə əlaqədar yeni proqramların hazırlanmasına başladıq. Məhz buna görə də mən 1998-ci ilin dekabr ayında bu məsələlərlə əlaqədar böyük bir fərman vermişəm, komissiya təşkil etmişəm. Bu komissiyanın bir neçə bölməsi vardır. Onlar dövlət idarəetmə sisteminin bütün istiqamətlərində islahatların keçirilməsi üçün layihələrin hazırlanması, təqdim edilməsi və ondan sonra həyata keçirilməsi ilə məşğul olmalıdırlar.

Dövlət idarəetmə sistemindəki islahatlar 1999-cu ildə və ondan sonrakı dövrdə Azərbaycanın qarşısında duran əsas [288-289] vəzifələrdən biridir. Biz buna çox böyük əhəmiyyət veririk. Hesab edirəm ki, Dünya Bankının köməyi ilə biz bu islahatları da uğurla həyata keçirəcəyik.

Biz Azərbaycanda apardığımız bütün işlərdə dünya təcrübəsindən, ayrı-ayrı ölkələrdə islahatların həyata keçirilməsi sahəsində əldə olunmuş təcrübədən istifadə edirik. Biz müsbət təcrübələri ölkəmizin xüsusiyyətinə uyğun olaraq tətbiq etməyə çalışırıq. Ancaq mənfi nəticələri, təcrübəni, nöqsanları da öyrənib nəzərə alırıq ki, onlara yol verməyək.

İndi keçid dövrünü yaşayan ölkələrin həyatındakı proseslər bizim üçün də, başqa ölkələr üçün də məlumdur. Məsələn, əgər Rusiyanı götürsək, o, böyük bir ölkədir və islahatlara MDB ölkələri içərisində demək olar ki, hamıdan tez başlamışdır. Lakin bunların aparılmasında, xüsusən iqtisadi islahatların keçirilməsində buraxılan səhvlərə görə böyük və çətin problemlərlə rastlaşıbdır. Biz bunların hamısını ətraflı öyrənirik, müzakirə edirik. Yenə də deyirəm, biz dünyanın harasında olmasından asılı olmayaraq, əldə edilmiş təcrübələrdən ölkəmizdə istifadə edilməsinə çalışırıq.

Düşünürəm ki, bugünkü beynəlxaq konfrans Azərbaycanda bütün islahatların həyata keçirilməsi və xüsusən də dövlət idarəetmə sistemindəki islahatların həyata keçirilməsi sahəsində mühüm bir mərhələ olacaqdır. Bu konfransda aparılan müzakirələr və indiyə qədər əldə edilən təcrübənin ümumiləşdirilməsi bizim gələcək işlərimizə kömək edəcəkdir.

Mən konfransın işini açıq elan edirəm. Konfransın işində sizə uğurlar arzulayıram. [289]

## AZƏRBAYCAN RESPUBLİKASINDA TƏHSİL SAHƏSİNDƏ İSLAHATLAR ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ İCLASINDA* GİRİŞ SÖZÜ

*Prezident sarayı*

*17 mart 1999-cu il*

Azərbaycanda təhsil islahatları keçirmək üçün bir il bundan öncə xüsusi komissiya yaranıbdır. Verilən məlumatlara görə, komissiya artıq öz işini başa çatdırıb və təhsil islahatları ilə əlaqədar təkliflərini hazırlayıbdır.

Biz Azərbaycanda islahatların keçirilməsində müəyyən beynəlxalq təşkilatların köməyindən istifadə edirik və onların tövsiyələrini, təkliflərini nəzərə alırıq. Bu baxımdan Dünya Bankı ilə Azərbaycanın əməkdaşlığı xüsusi əhəmiyyət kəsb edir. Biz bir çox sahələrdə islahatlar aparmaq üçün Dünya Bankı ilə əməkdaşlıq edirik və Dünya Bankı Azərbaycana yardım göstərir.

Təhsil sahəsində islahatların aparılmasında da Dünya Bankı ilə əməkdaşlıq edirik və onun tövsiyələri nəzərə alınır. Mən məmnunam ki, Dünya Bankının nümayəndələri bu gün Azərbaycandadırlar, Təhsil Nazirliyi və Təhsil islahatları keçirmək üçün təşkil olunmuş komissiyanın üzvləri ilə əməkdaşlıq edirlər. Bu gün də birgə görüş keçiririk.

Mən belə düşünürəm ki, biz təhsil sahəsində islahatlar komissiyasının sədri, təhsil naziri Misir Mərdanovu dinləməliyik. Ondan sonra fikir mübadiləsi aparmalıyıq. [290-291]

### YEKUN NİTQİ

Azərbaycanda təhsil sahəsində islahatların hazırlanması və yeni təhsil qanununun hazırlanması bizim işimizin əsas hissələrindən biridir.

Təhsil hər bir dövlətin, ölkənin, cəmiyyətin həyatının, fəaliyyətinin mühüm bir sahəsidir. Azərbaycanda iki milyon uşaq, gənc ümumtəhsil məktəblərində və ali təhsil ocaqlarında təhsil alır. Səkkiz milyon əhalidən iki milyonu, yəni bütün əhalinin dörddə bir hissəsi təhsil alır. Əgər nəzərə alsaq ki, təhsil alan hər bir uşağın, gəncin arxasında ailə durur, ailə də əhalinin o iki milyondan əlavə hissəsini təşkil edir, beləliklə, təhsil sahəsi elə bir sahədir ki, cəmiyyət üzvlərinin, əhalinin, demək olar, tam əksəriyyəti bu sistemlə bağlıdır. O mənada ki, kimin uşağı, oğlu-qızı təhsil alıbsa, - amma hamınınkı alır, kimin ki, evdə uşağı, oğlu-qızı var, onlar təhsil alır, - Azərbaycanda belədir, əksəriyyət təhsillə bağlıdır. Ona görə də təhsil sahəsi cəmiyyət üzvlərinin, demək olar ki, tam əksəriyyətini həm maraqlandırır, həm də onların bu və ya digər şəkildə iştirakını tələb edir, yaxud da iştirakı ilə bağlıdır. Bir də ona görə ki, təhsil mürəkkəb bir sahədir. Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətli yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır. Hesab edirəm ki, bu tələblər hər ölkədə var. Amma keçid dövrünü yaşayan ölkələr, bir ictimai-siyasi sistemdən başqasına keçən ölkələr bu işə daha da diqqətli olmalı, daha da ciddi və həssas yanaşmalıdırlar.

Təəssüflər olsun ki, Azərbaycanda bu mühüm sahəyə 1992-ci ildə qəbul olunmuş təhsil qanunu ilə böyük zərbə vurulmuşdur. Mən təəssüf edirəm ki, təhsil sahəsində çalışan məsul şəxslər və təhsil işçiləri Azərbaycanın təhsil sisteminə vurulan bu zərbəni indiyə qədər təhlil etməyiblər, araşdırmayıblar [291-292] və buna lazımi qiymət verməyiblər. Keçid dövründə iqtisadiyyata vurulmuş zərbə, yaxud həyatımızın bir çox başqa sahələrinə vurulmuş zərbə aydındır, bunu cəmiyyət bilir. Amma təhsil sisteminə də böyük zərbə vurulubdur.

Biz indi yeni təhsil qanunu qəbul etmək ərəfəsindəyik. Təhsil qanunu Milli Məclisdə müzakirə olunub, ümumxalq müzakirəsinə verilibdir. Tamamilə düzgündür ki, təhsil qanunu ümumxalq müzakirəsinə verilibdir. Mən artıq dedim ki, ölkə əhalisinin, demək olar, tam əksəriyyəti təhsillə əlaqədardır, təhsillə bağlıdır. Buna görə hər bir vətəndaş öz fikrini bildirməlidir ki, Azərbaycanın yeni təhsil qanunu onu qane edir, ya etmir.

Bununla yanaşı, biz təhsil sahəsində islahatlar proqramı hazırlamışıq. Burada Dünya Bankı bizə yardım göstərir, bizimlə əməkdaşlıq edir. Mən belə anladım ki, indi bizim təhsil islahatları komissiyası və eyni zamanda Dünya Bankının nümayəndələri yekdil fikirdədirlər ki, hazırlanmış təhsil islahatları proqramının layihəsi günün tələblərinə cavab verir. Mən bu layihəyə diqqətlə baxacağam və əgər mən də sizin fikrinizlə razı olsam, layihəni təsdiq edəcəyəm. Beləliklə, sənəd əməli iş üçün hazır olacaqdır.

* İclasda Dünya Bankının ekspertləri də iştirak etmişdir.

Bu münasibətlə bir neçə kəlmə demək istəyirəm. Azərbaycanda təhsil sisteminin tarixi böyükdür. Ancaq Azərbaycanın təhsilində böyük dəyişikliklər, böyük inkişaf XX əsrə məxsusdur. XX əsrin əvvəllərində Azərbaycanda məktəblər çox az olubdur, ali təhsil məktəbi olmayıbdır. Mövcud məktəblər də, demək olar, vahid bir prinsip, sistem əsasında qurulmayıbdır. O vaxtlar Azərbaycan Rusiya imperatorluğunun tərkibində idi, ona görə dünyəvi təhsil sistemi Rusiyada çox əsrlər ərzində olan təhsil sistemindən götürülmüşdü. Rusiya imperatorluğu dağılandan sonra, 1918-ci ildə Azərbaycanda ilk xalq cümhuriyyəti yaranmışdır. Xalq cümhuriyyəti dövründə təhsil sahəsində bəzi işlər görülüb, Bakı Dövlət Universiteti açılıb[292-293]dır. Bu, Azərbaycanda ilk ali təhsil müəssisəsi idi. Mən bilmirəm, onlar təhsil qanunu qəbul eləmişdilər, ya yox? Bundan xəbəriniz varmı? Deyəsən, xəbəriniz yoxdur. Mən də deyə bilmərəm, ancaq hesab edirdim ki, komissiya üzvləri, nazir mənim sualıma cavab verə bilərlər. Yəqin ki, bilmirsiniz. Mən də belə düşünürəm ki, onlar təhsil qanunu qəbul etməyiblər, yəni təhsil sahəsində ciddi addım atmağa imkanları olmayıbdır. Hesab edirəm, xalq cümhuriyyətinin böyük xidməti ondan ibarətdir ki, Azərbaycanda ilk ali təhsil müəssisəsi yaradıbdır. Ancaq bu ali təhsil müəssisəsinin yaranması ondan əvvəl Azərbaycanda gedən ictimai-siyasi proseslərin məntiqi nəticəsi olmuşdur.

Azərbaycanda indi mövcud olan təhsil sistemi 1920-ci ildən sonrakı dövrdə yaranıbdır. Bu, sizə, hamıya məlum olan sovet təhsil sistemidir. Bu gün bunu utanmadan, çəkinmədən açıq demək lazımdır. Bilirsiniz, biz özümüzün varlığımızı nümayiş etdirmək, göstərmək üçün heç vaxt heç kəsdən çəkinməməli, heç kəsdən də utanmamalıyıq. Nazir dedi ki, etiraf etmək lazımdır. Nəinki etiraf etmək lazımdır, çox cəsarətlə, qətiyyətlə demək lazımdır ki, Azərbaycanda 1920-ci ildən indiyə qədər mövcud olan təhsil sistemi sovet təhsil sisteminin bir hissəsidir.

Mən açıq demək istəyirəm, bu təhsil sistemi çox yaxşı bir sistemdir. Hər şey öz nəticəsi ilə ölçülür. Qısa bir zamanda Azərbaycanda savadsızlıq ləğv olunub, ibtidai, ümumtəhsil məktəblərinin geniş şəbəkəsi yaranıb, on-on beş ilin içərisində Azərbaycanda bir neçə ali təhsil müəssisələri, institutlar yaranıb və tarixi nöqteyi-nəzərdən qısa bir zamanda – 1920-ci illə 1940-cı ilin arasında nə var, cəmisi 20 ildir – təhsil Azərbaycanın hər yerini əhatə edibdir. Azərbaycanda savadsızlıq ləğv olunub, insanlar məktəblərdə təhsil alıblar və fəaliyyətə başlayıblar. Bunun əsasında Azərbaycanın böyük elmi yaranıbdır. Elmi müəssisələr yaranıb və Azərbaycanın mədəniyyəti inkişaf edibdir. Bunların hamısı təhsil sisteminin və ondan səmərəli istifadə edilməsinin nəticəsidir. İndi burada oturanların hamısı, təkcə onlar yox, bu gün Azərbaycanda yaşayanlar - həm yaşlı, həm orta nəsil, həm də gənc nəsil - öz təhsilini, biliyini həmin bu təhsil sistemində alıbdır.

Bu təhsil sisteminin nə qədər dəyərli olduğunu ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı Azərbaycanın iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı Azərbaycanın elmi inkişaf edə bilməzdi. Bunlar olmasaydı biz indi Azərbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Bunları qiymətləndirmək lazımdır və on illərlə əldə etdiyimiz nailiyyəti heç vaxt unutmamalıyıq. İndi təhsil sistemində islahatlar apararaq, onu dünya təhsil sisteminin standartlarına uyğunlaşdıraraq heç vaxt buna yol verməməliyik ki, 70 il, yaxud, demək olar ki, 80 ilə yaxın bir dövrdə istifadə etdiyimiz təhsil sisteminə başqa cür qiymət verilsin.

Mən sizə deyə bilərəm ki, sovet təhsil sistemi yerində durmayıb, daim təkmilləşibdir, islahatlar keçirilibdir. Məsələn, 30-40-cı illərdə olan təhsil sistemindən sonrakı - 60-70-80-ci illərdəki təhsil sistemi fərqlidir. Bu baxımdan mən çox təəssüf edirəm ki, 1992-ci ildə, Azərbaycanda yeni qüvvələr hakimiyyətə gələn zaman qısa bir müddətdə, yəni iki-üç ay içərisində nə qədər mürəkkəb, böyük sahəyə aid olan bir qanun qəbul olunubdur.

Biz keçid dövrünü yaşayırıq. 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra hüquqi, demokratik, dünyəvi dövlət quruculuğunu öz dövlətçiliyinin əsası kimi müəyyən edib, bazar iqtisadiyyatı yaratmağı, inkişaf etdirməyi də öz iqtisadiyyatının əsas istiqaməti kimi bəyan edibdir. Amma bəyan etməklə bunlara nail olmaq arasında böyük bir məsafə var. Bəyan olunan şey heç də o demək deyildir ki, [294-295] artıq o realdır, mövcuddur. Hətta inqilabi dəyişikliklər belə, köhnə sistemi dərhal yeni bir sistemlə dəyişdirmir. İnqilabi dəyişikliklər adətən köhnə sistemi vurub dağıdır, amma ondan çox fərqli olan bir sistem yaratmaq üçün buna vaxt lazımdır, illər lazımdır. Bunu bilirsiniz, Rusiyada 1917–1920-ci illərdə baş vermiş inqilabda və keçmişdə başqa ölkələrin tarixində olmuş inqilablarda da görmüşük.

Ancaq təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz. Ümumiyyətlə, bizim həyatımızın bütün sahələrində dəyişikliklər təkamül xarakteri, tədricən dəyişikliklər xarakteri daşıyır. Heç vaxt yol vermək olmaz ki, on illərlə yaranmış şeyi bir gündə vurub dağıdasan, ondan sonra heç bilmədiyin yeni bir şey yaradasan. Ancaq 1992-ci ildə qəbul olunmuş təhsil qanunu belə bir xarakter daşıyır. Ona görə mən deyirəm ki, bu təhsil qanunu Azərbaycan təhsilinə böyük zərbələr vurubdur.

İndi biz yeni təhsil qanunu qəbul etmək, təhsildə islahatlar aparmaq üçün görün nə qədər vaxt sərf edirik. Bir ildən artıqdır ki, islahatlar hazırlanır. Ondan da çox zamandır ki, təhsil qanunu hazırlanır. Deyəsən, bir dəfə cəhd olunmuşdu ki, bu təhsil qanununa parlamentdə baxılsın, ancaq baxa bilməmişdilər. İndi iki aydır ki, o, parlamentdə müzakirə olunur, onu ümumxalq müzakirəsinə vermişik. Bu, tamamilə normal prosesdir.

Yenə də deyirəm, təhsil qanunu elə bir qanundur, təhsil islahatları elə islahatlardır ki, iqtisadiyyatdan, maliyyədən, başqa sahələrdən fərqli olaraq, bunda bütün cəmiyyətin iştirakı lazımdır. Biz iqtisadi islahatları iqtisadiyyat sahəsindəki qanunlarla hazırlayır, müəyyən çərçivədə müzakirə edir və qəbul edirik. Ancaq təhsil islahatları belə ola bilməz.

Mən sovet təhsil sistemində gedən dəyişiklikləri də xatırlayıram. Sovetlər Birliyinin rəhbərliyində olduğum zaman, Sovet İttifaqı Baş nazirinin birinci müavini vəzifəsində işlə[295-296]diyim zaman SSRİ-nin bütün təhsil sisteminə rəhbərlik edirdim. O vaxt Sovetlər İttifaqında təhsili təşkil edən üç nazirlik var idi: Maarif Nazirliyi, Ali Təhsil Nazirliyi, Dövlət Texniki Peşə Təhsili Komitəsi. Yerlərdə, müttəfiq respublikalarda, o cümlədən Azərbaycanda da üç nazirlik var idi.

Mən Sovetlər İttifaqının rəhbərliyində başqa nazirliklərdən əlavə, bu nazirliklərin üçünə də rəhbərlik edirdim. Mən bu rəhbərliyi beş il müddətində aparmışam – 1983-cü ilin əvvəlindən 1988-ci ilə qədər.

O vaxt Sovetlər İttifaqında «yenidənqurma» adlanan bir proses gedirdi, özünəməxsus islahatlar aparılırdı. O zaman biz Sovetlər İttifaqı parlamentində məktəb islahatı haqqında qanun qəbul etdik. Mənim xatirimdədir, bu islahatları hazırlayan komissiyanın sədri idim. Bu qanunu, onun yerinə yetirilməsi üçün lazımi qərarları qəbul etməkdən ötrü il yarım o komissiya ilə birlikdə işlədim. Qanunu parlamentin müzakirəsinə verməzdən əvvəl iki ay ümumxalq müzakirəsinə verdik, rəyləri topladıq. Ondan sonra qanunu parlamentin müzakirəsinə verdik, orada qəbul və təsdiq olundu.

Mən indi demək istəmirəm ki, o islahatlar hansı qiymətə malik idi. Hesab edirəm ki, o dövrün tələblərinə görə çox yüksək səviyyədə hazırlanan islahatlar idi. Bununla onu demək istəyirəm ki, indi çoxlarının xoşuna gəlməyən hətta keçmiş sovet sistemində, guya qeyri-demokratik olan bir sistemdə də təhsilə münasibət bu qədər həssas idi. Ona görə də, - mən bunu bizim təhsil işçiləri və cəmiyyətimiz üçün deyirəm, - 1992-ci ildə iki-üç ayın içərisində təhsil qanunu qəbul edib və onu icra edərək Azərbaycanın təhsilinə zərbələr vurmaq, - bu, Azərbaycan xalqına qarşı cinayət etmək deməkdir.

Biz bu acı təcrübədən nəticələr çıxarmalıyıq. Təhsil sahəsində qəbul edəcəyimiz qanunda və islahatlar proqramında da məsələyə çox dəqiq, həssas münasibət göstərməliyik. Mənim fikrimcə, bu ondan ibarət olmalıdır ki, Azərbaycanda [296-297] təhsil sistemində indiyə qədər əldə edilmiş müsbət təcrübə özünü doğrultmuş, müsbət nəticələr vermiş sistem saxlanmalı, inkişaf etdirilməli və müasirləşdirilməlidir. Nöqsanlar, yaxud mənfi təcrübə aradan götürülməlidir. Dünya təcrübəsindən Azərbaycanın milli xüsusiyyətlərinə uyğun olan prinsiplər, qaydalar təhsil sistemimizə tətbiq edilməlidir. Biz dünyanın bütün ölkələrində – Qərbdə də, Şərqdə də əldə olunmuş nailiyyətləri dərindən öyrənməli və onlardan Azərbaycan üçün müsbət xarakter daşıyan cəhətləri ölkəmizin təhsil sistemində tətbiq etməliyik.

Bu fikirləri siz də burada söylədiniz və Dünya Bankının nümayəndələri də belə fikirdədirlər. Mən bunu məmnuniyyətlə dinlədim ki, Dünya Bankının nümayəndələri də Azərbaycanda indiyə qədər mövcud olan təhsil sisteminin müsbət cəhətlərini görür, bunları qiymətləndirirlər və bunlardan imtina etməyin tərəfdarı deyillər.

Şübhəsiz ki, biz bütün beynəlxalq təşkilatların məsləhətlərinə çox diqqətlə yanaşmalıyıq. Xüsusən Dünya Bankı ilə ki, əməkdaşlıq edirik, - onun verdiyi tövsiyələri, məsləhətləri çox diqqətlə qəbul etməliyik. Azərbaycanın reallığına, milli xüsusiyyətinə uyğun olan hər bir müsbət təklifdən istifadə etməli, onu öz təhsil sistemimizdə tətbiq etməliyik. Ancaq indiyə qədər mövcud olan təhsil sistemində əldə edilmiş müsbət nəticələri və bu günün, gələcəyin tələblərinə uyğun gələn hər şeyi saxlamalı və inkişaf etdirməliyik.

Mən belə anlayıram ki, indi bizdə təhsil sistemində islahatların əsas məqsədi ondan ibarətdir ki, Azərbaycanın təhsil sistemi dünya təhsil sisteminin standartlarına uyğunlaşsın. Yenə də deyirəm, Azərbaycanın təhsil sistemi son on illərdə müsbət nəticələr veribdir. Ancaq Azərbaycanın təhsil sistemində təhsil alan insanların və xüsusən ali məktəbləri bitirənlərin bilik səviyyəsi və onların biliklərini təsdiq edən sənədlər gərək dünyanın inkişaf etmiş ölkələrinin ali məktəblərinin bilik sə[296-297]viyyəsinə uyğunlaşdırılsın. Onların prinsiplərinə uyğunlaşdırılsın ki, Azərbaycanda təhsil almış və mühəndis diplomu almış bir insan başqa ölkələrdə də həmin diplomla qəbul edilə və fəaliyyət göstərə bilsin. Yaxud da, Azərbaycanda Tibb Universitetində təhsil almış, həkim ixtisası diplomu almış adam hər bir başqa ölkədə öz diplomu ilə işləyə bilsin. Ona görə də onun bilikləri, Azərbaycan Tibb Universitetində təhsilin istiqaməti gərək dünya miqyasında ümumbəşəri dəyərlər hesab edilən tibb təhsilinin səviyyəsində olsun. Məqsəd bundan ibarətdir.

Amma eyni zamanda, buna nail olmaq, yenə də deyirəm, indiyə qədər, on illərlə əldə etdiyimiz təhsil prinsipləri gözlənilməli və inkişaf etdirilməlidir. Mən hesab edirəm ki, əgər biz bu yolla gediriksə, qısa bir zamanda Azərbaycanda təhsil sistemini dünya standartlarına çatdıra bilərik.

Mən sizin təkliflərinizi - təhsil islahatlarının üç mərhələdə aparılmasını müsbət qiymətləndirirəm. Sizin bu təklifləriniz mənim dediyim sözləri tam təsdiq edir, yəni biz eyni fikirdəyik. 1992-ci ildə qəbul olunmuş qanun haqqında mən nə üçün bu qədər həyəcanla danışıram? Çünki bilirsiniz, o qanunda belədir ki, « olanı dağıt, bunu hazırlamışam, bunu da həyata keçir». Həyata keçirmək də mümkün deyildir. Amma siz üç mərhələ təklif edirsiniz. Birincisi 1999-cu il, ikincisi 2004-cü ilə qədər, üçüncüsü də ondan sonrakı dövr. Tamamilə düzdür.

Məsələn, biz ölkəmizdə, - təkcə bizdə deyil, bizə bənzər başqa ölkələrdə də belədir, - iqtisadiyyatda dəyişiklikləri bir il, iki il yox, beş il, on il müddətində həyata keçiririk. Məsələn, bazar iqtisadiyyatına keçid

bir ildə mümkün deyildir. Yaxud da özəlləşdirmə, dövlət mülkiyyətini xüsusi mülkiyyətə çevirmək - bu, bir ildə mümkün deyildir.

Biz 1995-ci ildə «Torpaq islahatı haqqında» qanun qəbul etmişik. İndi 1999-cu ildir, «Torpaq islahatı haqqında» qanunu hələ ki, axıra çatdıra bilməmişik. Amma indi «Torpaq [298-299] islahatı haqqında» qanunu tətbiq edərkən qarşıya yeni-yeni ağır problemlər çıxır. İdarəetmə sahəsindəki islahatlar haqqında dünən Dünya Bankı ilə keçirdiyimiz beynəlxalq konfransda bunu dedim. Yeni-yeni problemlər çıxır və onları da həll etmək üçün yeni bir proqram lazımdır. Yenə də deyirəm, əgər iqtisadiyyat sahəsində islahatları keçirmək bir il, iki il yox, bir neçə il və ondan da çox vaxt tələb edirsə, təhsil sahəsində islahatlar bundan daha çox vaxt tələb edir. Bunu anlamaq, bilmək lazımdır. Ona görə də deyirəm ki, burada inqilabi dəyişikliklər ola bilməz.

Mən sizin bu təkliflərinizi bəyənir və çox dəyərli hesab edirəm. Güman edirəm ki, hər mərhələnin tədbirlərini vaxtında hazırlayacaq və vaxtında həyata keçirəcəksiniz. Bununla onu qeyd etmək istəyirəm ki, bir halda siz üç mərhələ müəyyən etmisiniz, hər mərhələ üçün nəzərdə tutulan tədbirlər vaxtında həyata keçirilməlidir ki, o biri mərhələnin vaxtı uzanmasın. Bu, çox ciddi iş tələb edir.

Hesab edirəm ki, təhsil islahatları komissiyası bununla məşğul olacaq və Dünya Bankı da bizə kömək edəcəkdir. Mən belə başa düşürəm. Dünya Bankının köməyi yalnız qrant və kredit ayırmaqdan ibarət deyildir. Çox məmnunam ki, burada Dünya Bankı nümayəndələrinin, ekspertlərinin böyük bir tərkibi iştirak edir. Dünya Bankının bizə köməyi dünya təcrübəsini Azərbaycana gətirməkdir. Biz özümüz də dünya təcrübəsini öyrənirik, təhsil işçiləri bununla məşğuldurlar. Amma burada da kömək, yardım lazımdır. Mənə belə gəlir ki, Dünya Bankı ilə əməkdaşlığımızın əsasını bu təşkil etməlidir. Şübhəsiz ki, kreditlər bu tədbirləri həyata keçirmək üçün çox lazımdır, zəruridir. Ümidvaram ki, siz bu kreditləri də ayıracaqsınız. Dediniz ki, 5 milyon dollar kreditdən sonra böyük bir proqram krediti hazırlayacaqsınız. Mən bunu dəstəkləyirəm, bununla razıyam və arzu edirəm ki, bu bəyanatlarınızı, sözlərinizi real işlə təsdiq edəsiniz. [299-300]

Hesab edirəm ki, Azərbaycanda islahatlar bütün sahələrdə irəliləyir. Biz dünən idarəetmə sistemində islahatlara həsr olunmuş beynəlxalq konfransın işini başladıq. Bu gün də o davam edib, işi sona çatıbdır. İqtisadiyyat sahəsində çox ciddi islahatlar aparırıq. Təhsil sahəsində islahatlar aparacağıq. Səhiyyə sahəsində islahatların keçirilməsi ilə əlaqədar mən komissiya yaratmışam. Yəqin ki, onların da təkliflərini yaxın zamanlarda müzakirə etməli və həyata keçirilməsini təmin etməliyik. Dünya Bankı kömək edir. Yoxsa yox? Birgə işləyirsiniz.

Biz bununla bir daha bəyan edirik ki, Azərbaycan keçid dövründən səmərəli istifadə etməyə çalışır. Azərbaycan tutduğu yolla ardıcıl surətdə gedir. Azərbaycanda demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesi davam edir. Azərbaycanın iqtisadiyyatı bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf edir və bu da öz müstət nəticələrini verir. Azərbaycanın həyatının başqa sahələrində də, o cümlədən təhsil, səhiyyə sahələrində islahatlar bundan sonra həyata keçiriləcəkdir. Mən Dünya Bankına və onun bizim bu işlərdə iştirak edən nümayəndələrinə təşəkkür edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, bizim bu əməkdaşlığımız bundan sonra daha da genişlənəcək və dərinləşəcəkdir.

Gələcək işlərinizdə Sizə uğurlar arzulayıram. Sağ olun. [300]

# BİR QRUP HƏRBİ QULLUQÇUYA VƏ ONLARIN AİLƏ ÜZVLƏRİNƏ YÜKSƏK DÖVLƏT MÜKAFATLARININ TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ NİTQ

*Prezident iqamətgahı*

*17 mart 1999-cu il*

Əziz dostlar!

Sizi Azərbaycan dövlətinin yüksək mükafatları ilə bir daha təbrik edirəm, hamınıza cansağlığı, səadət və bütün işlərinizdə uğurlar arzulayıram.

Sizin aldığınız dövlət mükafatları xüsusi əhəmiyyət kəsb edir. Çünki siz 1995-ci ilin mart ayında Azərbaycanın dövlətçiliyinə qəsd edən, dövlət çevrilişi cəhdi göstərən və bununla əlaqədar Azərbaycanda gərgin bir vəziyyət yaradan cinayətkar dəstənin zərərsizləşdirilməsində, Azərbaycanın dövlətçiliyinin qorunmasında, müdafiə olunmasında iştirak etmisiniz, öz xidmətlərinizlə, qəhrəmanlığınızla, şücaətinizlə müstəqil Azərbaycan dövlətinə, Azərbaycan Konstitusiyasına, Azərbaycan xalqına sədaqətinizi nümayiş etdirmisiniz. Yenə də deyirəm, sizin bu xidmətləriniz xüsusi əhəmiyyətə malikdir və ona görə də siz Azərbaycanın yüksək ordenləri və medalları ilə təltif olunmusunuz.

Təltif olunanların bir qismi ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşlər. Onlar öz gənc canlarını Azərbaycanın müstəqilliyi yolunda, Azərbaycanın dövlətçiliyi yolunda, Azərbaycan xalqının azad və rahat ya[301-302]şaması yolunda qurban vermişlər, qəhrəmancansına həlak olmuşlar.

Bu gün mən 1995-ci ilin mart ayında Azərbaycan dövlətçiliyini qoruyarkən şəhid olmuş, canlarını qurban vermiş Azərbaycan oğullarının xatirəsi qarşısında baş əyirəm və sizdən rica edirəm, onların xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah rəhmət eləsin!

Əziz bacılar, analar!

Sizin dərdiniz böyükdür. Mən sizin dərdinizi sizin kimi çəkirəm. Çünki Azərbaycan dövləti üçün, Azərbaycan xalqı üçün böyük təhlükə törədən 1995-ci ilin mart hadisələrini mən də yaşamışam, onun bütün əzab-əziyyətini çəkmişəm. Ancaq siz fəxr edə bilərsiniz ki, övladlarınız Azərbaycan dövlətinin qorunub saxlanması yolunda, sizin bugünkü rahat yaşamağınız yolunda özlərini qurban vermişlər. Bu, şərəfli bir işdir.

Siz Azərbaycanın hörmətli adamlarısınız. Çünki belə qəhrəman övladlar böyütmüsünüz, Azərbaycanın Milli Ordusuna göndərmisiniz və onlar sizin analıq, bacılıq xidmətlərinizi, səylərinizi doğrulddublar. Onlar qəhrəmancasına həlak olublar.

Bütün təltif olunanlar fəxr edə bilərlər ki, siz, əziz dostlar, məhz böyük bir şərəfli vəzifəni yerinə yetirmisiniz – Azərbaycanın dövlətçiliyini, Azərbaycanın Dövlətini qorumusunuz. Bu həqiqətdir. Ötən dörd il müddətində 1995-ci ilin mart hadisələri ətraflı tədqiq və təhlil olunubdur. Müvafiq hüquq-mühafizə orqanları, ədalət məhkəmələri bu hadisələrin başvermə səbəblərini və o hadisələrin özünü, o cinayəti törədənlərin hamısını ətraflı təhlil ediblər, hər kəsin günahını ədalətlə müəyyən ediblər və günahkarların tam əksəriyyəti cəzalanıbdır. Ötən dörd il bir daha sübut etdi ki, 1995-ci ilin mart ayında Azərbaycan dövlətçiliyi, Azərbaycan Respublikası böyük təhlükə qarşısında idi. Bu hadisələr ondan öncəki dövrdə Azərbaycanda mövcud olan cinayətkar dəstələrin, qrupların, hakimiyyət [302-303] uğrunda silahlı dəstələr vasitəsilə mübarizə aparan qüvvələrin Azərbaycanda gördüyü işlərin bir hissəsi idi.

Məlumdur ki, 1990-cı ildən başlayaraq Azərbaycanda daxili ictimai-siyasi vəziyyət pozulmuşdu. Azərbaycan Ermənistanın təcavüzünün qarşısını almağa çalışırdı. Ancan yaranmış şəraitdən istifadə edən cinayətkar qruplar, dəstələr, bəzi siyasi partiyalar və qüvvələr vətənin Ermənistan təcavüzkarlarından qorunması əvəzinə, ölkənin içində hakimiyyət mübarizəsinə başlamışdılar. Onların bu cinayətkar əməlləri Azərbaycanın özünü müdafiə etmək qüdrətini sarsıtmış, zəiflətmiş və bunlar hamısı da Ermənistan silahlı qüvvələrinə Azərbaycan torpaqlarını işğal etmək üçün şərait yaratmışdı. Bütün bu proseslər, müxtəlif siyasi qüvvələr, cinayətkar dəstələr tərəfindən aparılan çəkişmələr, toqquşmalar, hakimiyyət mübarizəsi nəhayət, 1993-cü ildə Azərbaycanın parçalanması təhlükəsinə gətirib çıxardı, Azərbaycanda vətəndaş müharibəsi başladı, qardaş qanı töküldü.

Sizə məlumdur ki, böyük çətinliklərlə həyata keçirilən ardıcıl və dövlət mənafeyinə xidmət edən siyasət nəticəsində, tədbirlər nəticəsində Azərbaycan 1993-cü ilin iyun ayında və ondan sonrakı aylarda vətəndaş müharibəsindən xilas oldu, onun parçalanmasının qarşısı alındı və Azərbaycanda ictimai-siyasi vəziyyətin sabitləşməsi uğrunda ardıcıl tədbirlər həyata keçirilməyə başlandı. Ancaq daxildə çox cinayətlər etmiş və cinayətlər yolu ilə öz istəklərinə nail olmuş insanlar, dəstələr və müxtəlif qruplar, hətta özlərini siyasi par-

tiya adlandıran qruplar yenə də öz cinayətkar əməllərindən əl çəkməmişdilər. Məhz bunların nəticəsi idi ki, 1994-cü ilin oktyabr ayında Azərbaycanda bir qrup silahlı dəstələr tərəfindən dövlət çevrilişinə cəhd göstərildi.

Xatırlayırsınız, mənim gecə vaxtı xalqa müraciətimə Azərbaycan xalqı, Bakı şəhərinin sakinləri həyəcanla cavab verdilər və Azərbaycanın dövlətçiliyini, müstəqilliyini, öz həyat[303-304]larını qorumaq üçün dərhal Azərbaycan prezidenti sarayının ətrafına toplaşdılar. O gecə Azərbaycan xalqı öz milli birliyini dünyaya nümayiş etdirdi. Azərbaycan xalqı Azərbaycanın daxilində cinayətkarlıq yolu ilə hakimiyyəti zəbt etmək istəyən qruplara, dəstələrə bəyan etdi ki, xalqımız Azərbaycanın dövlətini müdafiə edir və edəcəkdir, Azərbaycanın prezidentini müdafiə edir və edəcəkdir. Məhz xalqın dəstəyi, xalqın birliyi ilə biz o cinayətkar dəstələrin qarşısını ala bildik və dövlət çevrilişinə cəhd baş tutmadı. Cinayətdə iştirak edən insanlar yaxalandılar və həbs olundular.

Doğrudur, onların çoxu qaçdı, gizləndi, özlərinə başqa ölkələrdə sığınacaq tapdı. Ancaq indi artıq Azərbaycanda hamı görür ki, heç kəs cəzadan canını qurtara bilmədi - onların tam əksəriyyəti müxtəlif ölkələrdə və Azərbaycanda yaxalandılar, məsuliyyətə cəlb olundular, ədalət məhkəməsi qarşısında durdular və cəzalarını da aldılar.

Həmin 1994-cü ildə Azərbaycan Daxili İşlər Nazirliyinin tərkibində olan OMON dəstəsinin içindəki cinayətkar qruplar oktyabr hadisələrində iştirak edirdilər. Onlar başqa qruplarla birlikdə Azərbaycanın dövlətçiliyinə qəsd edirdilər, dövlət çevrilişinə cəhd göstərirdilər. O vaxt OMON dəstəsinin başçıları bəyan etdilər ki, onlar öz səhvlərini anlayıblar. Oktyabrın 4-dən 5-nə keçən gecə gəlib Prezident sarayının qarşısında öz səhvlərini etiraf etdilər, güzəşt istədilər. Biz böyük humanistlik göstərdik, insanpərvərlik göstərdik, onları bağışladıq. Ancaq eyni zamanda qəti bildirdik ki, onlar bu cinayətkar əməllərindən əl çəkməlidirlər. Təəssüflər olsun ki, onlar bir neçə vaxtdan sonra yenə də öz bəd əməllərinə başladılar.

Bu gün artıq məlumdur ki, onların bu hərəkətləri tək özlərinin içindən gələn istəklər, arzular, yaxud da qərarlar deyildi. Onlar xarici ölkələrin xüsusi xidmət orqanları tərəfindən bu cinayət işlərinə sövq edilirdilər, onlara yardım göstərilirdi, [304-305] Azərbaycan dövlətini dağıtmaq, pozmaq üçün məsləhətlər verilirdi. Amma bununla yanaşı, Azərbaycanın daxilində olan bəzi siyasi qüvvələr, partiyalar bu şəraitdən istifadə edib, əvvəlki illərdə olduğu kimi yenə də zorla hakimiyyətə gəlmək arzularından, istəklərindən əl çəkməmişdilər və onlar həmin OMON dəstəsinin içindəki cinayətkar qrupları, insanları yenə də cinayət etməyə yönəltdilər. Onlara məsləhətlər verirdilər, onlara dəstək verirdilər, onları qızışdırırdılar, inandırırdılar ki, onlar qəhrəmandır, onlar Azərbaycan dövlətini, Azərbaycanın prezidentini devirə bilərlər və hakimiyyəti ələ keçirə bilərlər.

Bütün bunların nəticəsində 1994-cü ilin son aylarında və 1995-ci ilin əvvəlindən başlayaraq Daxili İşlər Nazirliyinin OMON dəstəsində bu cinayətkar insanlar yenə də qatı cinayətlər etməyə başladılar. Onların qarşısı alınırdı, ancaq onlar bundan özləri üçün nəticə çıxarmırdılar. Onlar artıq mənaviyyatca pozulmuşdular. Onlar əvvəlki illərdə etdikləri cinayətdən bəhrələndiklərini, zənginləşdiklərini, varlandıqlarını unuda bilmirdilər və bu yolla getməkdə davam edirdilər. Bu cür hərəkətləri də onları fəlakətə gətirdi və nəhayət, onlar mart ayının əvvəlindən Azərbaycanda ictimai-siyasi sabitliyi pozmağa, Azərbaycan dövlətçiliyinə qəsd etməyə, Azərbaycan dövlətini silah gücü ilə zorla devirməyə başladılar.

Məlumdur ki, onlar Ağstafa, Qazax rayonlarının ərazisində bu işə başladılar. Demək olar ki, onlar o vaxt bu rayonlarda hakimiyyəti ələ keçirməyə nail oldular. Sonra isə onların əsas dəstəsi Bakıda 8-ci Kilometr qəsəbəsində yerləşən bazada güclü silahlarla, sursatlarla Azərbaycanda vətəndaş müharibəsi başlamağa və Azərbaycan dövlətini devirməyə hazırlaşdılar.

Xatırlayırsınız, biz çox cəhdlər göstərdik, onları düz yola dəvət etdik. Müxtəlif imkanlardan – Azərbaycanın ağsaqqal[305-306]larından, hörmətli adamlarından, alimlərindən istifadə etdik. Ancaq heç bir şey nəticə vermədi. Bu insanlar artıq pozulmuşdular. Onlar özləri və onları bu cinayət yoluna salan qüvvələr xaricdən və daxildən artıq hesab edirdilər ki, bu cinayət yolu ilə Azərbaycanda dövlətçiliyi dağıtmaq olar. Bu da ona gətirib çıxardı ki, 1995-ci il mart ayının 16-dan 17-nə keçən gecə güclü silahlara və qüvvəyə malik olan OMON dəstəsi Azərbaycanın dövlətçiliyi üzərinə hücum etdi. Ancaq hamı – həm onlar, həm onlara havadarlıq edənlər, onları bu yola salanlar, maliyyələşdirənlər, dəstəkləyənlər təəssüf ki, anlamırdılar ki, artıq Azərbaycan dövlətinin özünü müdafiə etmək üçün qüdrəti var, gücü var. Artıq Azərbaycanın güclü silahlı qüvvələri var və Azərbaycan dövləti, onun prezidenti, Azərbaycanın silahlı qüvvələri Azərbaycan dövlətini hər an qorumağa qadirdirlər.

Onlar bunu dərk edə bilməmişdilər. Ancaq onlar böyük faciə törətdilər, qan tökdülər. Azərbaycanda qardaş qanı tökdülər, böyük cinayətlər etdilər. Azərbaycanın silahlı qüvvələri, Azərbaycanın dəyərli insanları, Azərbaycanın igid əsgərləri, zabitləri o böyük qüvvəyə malik olan cinayətkar dəstənin qarşısını məharətlə aldılar. O gecə qanlı döyüşlər getdi. Bu gün məlumdur ki, o döyüşlərdə Azərbaycan silahlı qüvvələrinin əsgərlərindən, zabitlərindən və mülki adamlarından 42 nəfər Azərbaycan dövlətçiliyini müdafiə edərkən həlak oldu. 150-dən artıq şəxs yaralandı, xəsarət aldı. Biz qurbanlar verməyə məcbur olduq, ancaq dövlətçiliyi qoruduq. Azərbaycanın dövlətini qoruduq, Azərbaycanın müstəqilliyini qoruduq.

Mən bu gün sizin qarşınızda 1995-ci ilin mart ayında Azərbaycan dövlətçiliyinin qorunmasında, Azərbaycanın müstəqilliyinin qorunmasında xidmətlər göstərmiş Azərbaycan vətəndaşlarının hamısına təşəkkürümü, minnətdarlığımı bildirirəm. [306-307]

Əziz dostlar!

Mən sizə təşəkkürümü, minnətdarlığımı bildirirəm. Siz həmin qanlı gecənin iştirakçılarısınız. Siz o gecə Azərbaycanın dövlətçiliyinin qorunmasında qəhrəmanlıqlar göstərmisiniz. Ona görə də Azərbaycan dövləti sizi, sizin fəaliyyətinizi, xidmətinizi yüksək qiymətləndiribdir. Siz ordenlərlə və medallarla təltif olunmusunuz.

Artıq bu gün qətiyyətlə demək olar ki, 1995-ci ilin mart ayı Azərbaycan tarixinə həm faciə kimi daxil olacaq, - çünki biz böyük itkilər verdik, - həm də Azərbaycan dövlətinin, dövlətçiliyinin qüdrətini nümayiş etdirən dövr kimi daxil olacaqdır. Biz fəxr edirik ki, həm 1995-ci ilin mart ayında, həm də ondan sonrakı aylarda, illərdə Azərbaycanda mövcud olan cinayətkar dəstələrin qarşısını ala bildik. Onların əksəriyyəti yaxalandı, öz cəzalarını aldılar.

Cinayətkarlar öz cəzalarını Azərbaycanın cəza yerlərində çəkirlər. Bu gün bunun müsbət nəticəsi ondan ibarətdir ki, həmin mart hadisələrində cinayət törətmiş insanlar, onların əksəriyyəti cəza yerlərində öz günahlarını anlayırlar, peşiman olduqlarını bildirirlər və onları bu cinayətə sövq edənləri, yəni həmin o cinayətkar dəstənin başçılarını lənətləyirlər, onlara öz nifrətlərini bildirirlər. Bu da bizim Azərbaycan qanunlarının humanist, ədalətli olmasını və eyni zamanda hər bir Azərbaycan vətəndaşını tərbiyə etmək məqsədi daşımasını bir daha göstərir.

Bizim cəmiyyətdə elə qüvvələr, adamlar da var ki, indi də həmin o cinayətkarlara havadarlıq etmək istəyirlər, hadisələri təhrif etmək istəyirlər, cürbəcür yalanlar uydururlar və beləliklə də, cinayətkarlara bəraət qazandırmaq istəyirlər, hadisələr haqqında qeyri-obyektiv fikir yaratmaq istəyirlər. Ancaq onlar unutmamalıdırlar ki, 1995-ci ilin mart ayında Azərbaycanda tökülən qanların günahkarlarına bəraət qazandırmaq olmaz. 42 nəfər qəhrəmancasına həlak olub. Onlar [307-308] Azərbaycanın xarici düşmənləri tərəfindən yox, erməni qəsbkarları tərəfindən yox, Azərbaycanın daxilində olan Azərbaycan vətəndaşları, cinayətkarlar tərəfindən vəhşicəsinə öldürülübdür. Bunları heç vaxt dövlət də unutmayacaq, xalq da unutmayacaq və həlak olanların ailələri, qohum-əqrəbaları da unutmayacaqlar. Ona görə də həqiqəti təhrif edənlərə aydın olmalıdır ki, onlar heç bir şeyə nail ola bilməzlər. Əksinə, onlar öz günahlarını boyunlarına almaqla, etiraf etməklə bəlkə də müəyyən qədər cəmiyyətdə anlaşıla bilərlər. Ancaq belə mövqedə duran insanlar Azərbaycan cəmiyyətində heç vaxt özünə yer tapa bilməyəcəklər.

Mən bu gün sizə Azərbaycanın dövlət mükafatlarını təqdim edərək bir daha bəyan edirəm ki, Azərbaycan dövləti ötən dörd il müddətində daha da möhkəmlənib, daha da qüdrətlənibdir. Azərbaycanın dövləti, onun silahlı qüvvələri Azərbaycan torpaqlarını müdafiə etməyə qadirdir və hər bir halda Azərbaycanın dövlətçiliyini, Azərbaycanın dövlətini müdafiə etməyə qadirdir. Məhz bizim gördüyümüz işlərin nəticəsində, Azərbaycanda 1989-90-cı illərdən başlayaraq mövcud olan silahlı dəstələrin, cinayətkar qrupların zərərsizləşdirilməsi nəticəsində, onların aradan götürülməsi nəticəsində indi Azərbaycanda ictimai-siyasi sabitlik yaranıbdır. İnsanlar rahat yaşayırlar, rahat işləyirlər və Azərbaycan indi artıq inkişaf mərhələsindədir.

Mən bu gün bir daha bildirmək istəyirəm ki, əziz dostlar, siz öz xidmətlərinizlə Azərbaycanda bugünkü ictimai-siyasi sabitliyin yaranmasına da xidmət etmisiniz. Siz öz xidmətlərinizlə özünüzün və bütün Azərbaycan xalqının bu gün rahat yaşaması üçün yaradılan şəraitə xidmət etmisiniz. Bunlara görə sizə təşəkkür edirəm.

Mən bəyan edirəm ki, Azərbaycanda yaranmış ictimai-siyasi sabitlik bundan sonra daha da qətiyyətlə qorunacaqdır. Azərbaycan xalqının rahat yaşaması üçün bundan sonra daha [308-309] da yaxşı imkanlar yaradılacaqdır. Heç kəs güman etməsin ki, o keçmiş dövrlərdə olduğu kimi, kimsə güclə, silahla Azərbaycanda nəyəsə nail ola bilər. Artıq o zamanlar keçibdir. İndi hər kəs qanuna tabe olmalıdır, hər kəs qanun çərçivəsində öz istəklərini, arzularını bildirməlidir, onlara nail olmağa çalışmalıdır. Qanunu pozan hər bir vətəndaş, hər bir qrup, hər bir dəstə bilməlidir ki, o, qanun əsasında cəzalanacaq və qanunsuz iş görməyə Azərbaycanda yol verilməyəcəkdir.

Mən sizi bir daha təbrik edirəm.

Siz burada çıxışlarınızda Azərbaycan dövləti haqqında xoş sözlər dediniz. Buna görə təşəkkür edirəm. Eyni zamanda bəziləriniz öz problemləriniz haqqında mənə xahişinizi, istəyinizi çatdırdınız. Bildirirəm ki, bu gün mən Prezidentin İcra Aparatına tapşırıram, - sizin burada qaldırdığınız məsələlərin hamısına baxılacaqdır və imkan dairəsində sizin xahişlərinizin hamısı ödəniləcəkdir. Sizin ümumi xahişiniz - Milli qəhrəmanlara, qəhrəmanlıq göstərən insanlara, onların ailələrinə, şəhid ailələrinə diqqət, qayğı və yardım - indiyə qədər göstərilib, bundan sonra da göstəriləcək və daim artacaqdır. Kim dövlət, hökumət, hakimiyyət orqanlarında bu müqəddəs işə mane olursa, yaxud da ki, öz vəzifə borcunu yerinə yetirmirsə, diqqətsizlik göstərirsə, onlar cəzalanacaqdır. Buna əmin ola bilərsiniz.

Biz hamımız birlikdə cəmiyyətimizdə olan nöqsanları, mənfi halları aşkar edib onları aradan qaldırmalıyıq. Təəssüf ki, nöqsanlar da az deyildir. Dövlət, hökumət, hakimiyyət işlərində çalışan insanlar arasında vəzifəsindən sui-istifadə edənlər, vətəndaşlara biganə münasibət göstərənlər də vardır. Bunlar da aşkar

olunmalıdır. Onlar dövlət, hökumət işindən kənarlaşdırılmalıdır. Dövlət, hökumət işində çalışan insanların hamısı xalqa xidmət etməlidir, öz vəzifəsini layiqincə yerinə yetirməlidir. Əgər bunlar olmursa, demək, belə insanlar dövlət işində işləyə bilməzlər. Biz bu barədə tədbirlər görürük [309-310] və bundan sonra da görəcəyik. Sizin burada verdiyiniz məlumatlar da bizim bu tədbirləri aparmağımıza kömək edəcəkdir.

Mən sizin hamınıza cansağlığı arzu edirəm. Qarşıdan bizim əziz bayramımız – Novruz bayramı gəlir. Sizi Novruz bayramı münasibətilə təbrik edirəm! Sizə səadət, bütün işlərinizdə uğurlar arzulayıram. Sağ olun. [310]

## BİLƏSUVAR RAYONUNDA MƏSKUNLAŞMIŞ QAÇQINLAR VƏ MƏCBURİ KÖÇKÜNLƏRLƏ GÖRÜŞDƏ ÇIXIŞ

*19 mart 1999-cu il*

Əziz bacılar, qardaşlar!

Sizi, çadır şəhərciyində yaşayan bütün soydaşlarımızı xalqımızın əziz bayramı - Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm. Sizə xoş ovqat, şən həyat, səadət, bütün arzularınıza çatmağınızı diləyirəm.

Novruz bayramı insanlara həmişə xoşbəxtlik gətirir, insanları xeyirxah, nikbin edir. Bu Novruz bayramı da Azərbaycan, bütün xalqımız üçün yeni müjdələr gətirir. Sizin hamınıza cansağlığı arzulayıram. Bildirirəm ki, hamımızın yeganə arzusu – Azərbaycanın işğal edilmiş torpaqlarının azad olunması, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsi və işğal olunmuş bütün torpaqlarımızdan zorla çıxarılmış, didərgin düşmüş soydaşlarımızın öz doğma torpağına, elinə - obasına qayıtması bizim və Azərbaycan prezidenti kimi şəxsən mənim müqəddəs vəzifəmizdir. Mən bu vəzifəni yerinə yetirmək üçün bundan sonra da əzmlə çalışacağam.

Bu gün Azərbaycan xalqı bayram edir, şənlənir. Ölkəmizin hər yerində Novruz insanlara səadət gətirir. Amma eyni zamanda, xalqımızın qəlbində qəm də, kədər də vardır. Bu dərd, qəm bizim torpaqlarımızın parçalanması, ərazilərimizin bir qisminin işğal olunması qəmidir. Bu qəm torpaqlarımızın müdafiəsi uğrunda vuruşaraq şəhid olmuş övladlarımızın dərdidir, qəmidir. Bu qəm, kədər hər bir insanın qəlbində [311-312] onun əzizlərinin bu bayramda olmamasının dərdidir. Bu dərdi hamımız çəkirik.

Bilməlisiniz ki, Azərbaycanın hər bir vətəndaşının vətən, torpaq dərdi bizim ümumxalq dərdimizdir, mənim dərdimdir. Hər bir vətəndaşın öz ailəsinə, öz həyatına məxsus olan kədəri, dərdi Azərbaycan prezidenti kimi mənim özümün dərdimdir.

Adətən Novruz bayramında hər kəs, hər ailə dünyasını dəyişmiş yaxınlarını, doğmalarını xatırlayır. Bu gün biz burada, çadır şəhərciyindəki bu şən gündə torpaqlarımız uğrunda canlarını qurban vermiş şəhidləri xatırlayırıq, hər bir ailənin doğmasının, yaxınının həyatını dəyişməsini xatırlayırıq. Ona görə də mən arzu edərdim ki, şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad edək.

Allah şəhidlərimizə rəhmət eləsin!

Biz, buraya toplaşanların hamısı bu kədər, qəmlə yanaşı, böyük sevinc hissi keçiririk. Sevinc hissi keçiririk ki, məhz belə bir ağır şəraitdə də çadırlarda, bu şəhərcikdə ayrı-ayrı evlərdə yaşayan insanlar heç vaxt başlarını aşağı dikməyiblər və dikməyəcəklər. Onlar həmişə alnıaçıq, üzüağdırlar, bu dərdin, qəmin içində də öz sevinclərini, məhəbbətlərini bildirirlər, öz şadlıqlarını keçirirlər.

Bu gün belə bir şad gün iki ailənin övladlarının, bəlkə də dörd ailənin övladlarının yeni ailə qurması ilə əlaqədardır, toy şənliyidir. Mən oktyabr ayında burada olanda söz vermişdim ki, sizin şəraitinizin yaxşılaşdırılması üçün mümkün olan tədbirləri görəcəyəm. Bilirsiniz ki, - burada artıq deyildi, - ötən aylarda bu sahədə bir neçə qərar qəbul etmişəm, bir sıra tədbirlərin həyata keçirilməsini təmin etmişəm. Bunlar hamısı sizin həyat şəraitinizi, maddi vəziyyətinizi azca da olsa yaxşılaşdırıbdır.

Təbiidir ki, elindən-obasından didərgin düşmüş, çadırda yaşayan insanın problemi heç vaxt tükənmir. Ancaq biz im[312-313]kan dairəsində əlimizdən gələni etdik və bundan sonra da edəcəyik.

Mən o vaxt sizə söz vermişdim ki, burada toy mərasimi, yaxud başqa ailə mərasimlərini keçirmək üçün müəyyən bir yer də yaratmaq lazımdır. Mənim bu sözlərim artıq həyata keçirilibdir. Görürəm, hesab edirəm ki, burada çox gözəl bir şadlıq evi tikilibdir. Bu gün burada ilk şadlıq, toy mərasimi keçirilir. Mən bundan çox məmnunam və buna çox sevinirəm. Çünki əgər biz hər bir insan üçün yaxşı bir iş görə biliriksə, bu, bizə sevinc gətirir. Burada bir yox, bir neçə belə şadlıq evi olacaqdır. Qoy daim şənlik, şadlıq olsun, toylar, başqa şadlıq mərasimləri keçirilsin. Mən bu gün burada keçirilən ilk mərasimə gəlmişəm və sizinlə bir yerdəyəm. Xoşbəxtəm ki, bu gün, novruz bayramı ərəfəsində keçirilən iki toy mərasimində mən də iştirak edirəm.

Ümumiyyətlə, adətən mən həyatımda demək olar, heç bir toyda olmamışam. Mənim həyatım belə gətiribdir. Bəlkə də gənc yaşlarımda toyda olmuşam, amma sonra dövlət işləri ilə məşğul olduğuma görə toy mərasimlərinə getməyə imkan tapmamışam. Bu gün sizə bildirmək istəyirəm ki, hətta mənim oğlum da, qızım da ailə qurarkən mən onlara toy edə bilmədim. Yəni ona görə yox ki, imkanım yox idi. Ancaq mənim iş şəraitim elə idi ki, hesab edirdim, onlar elə toysuz da öz ailələrini qurub xoşbəxt ola bilərlər. Mən bu gün sevinclə deyə bilərəm ki, toy edə bilmədimsə də onlar gözəl ailə qurublar, mənim nəvələrim var, xoşbəxt yaşayırlar.

Ancaq mən burada, çadır şəhərciyində, soydaşlarımızın ağır şəraitdə yaşadıqları yerdə keçirilən belə bir toy mərasiminə çox böyük həvəslə, istəklə gəlmişəm. Sizin şad gününüzün mən də iştirakçısıyam.

Mən bu gün bu toy mərasimində iştirak etdim. Sizə demək istəyirəm ki, belə bir mərasimi birinci dəfədir görürəm. Mən belə mərasimi heç vaxt görməmişdim. Bilmirdim ki, o, necə [313-314] olur. Çünki mən evlənəndə - bu, çoxdan olubdur - belə şeylər yox idi. Mən bunları sizə danışa bilərəm. Mərhum həyat yoldaşım Zərifə xanımla biz iki-üç il idi ki, evlənmək istəyirdik. Amma o vaxt şəraitimiz yox idi. Sizə deyim ki, mən evlənmək istəyirdim, Zərifə xanımla biz müəyyən vaxt tanış idik. Ancaq mənim evim yox idi. Ona görə də biz iki il gözləməli olduq ki, mən ev alım. Mən sonra ikiotaqlı ev aldım. Deməк, evlənmək mümkün idi. O vaxt bir siyasi məsələ də var idi, onu bu gün burada deməyin yeri yoxdur. O zaman - 1950-ci ilin əvvəllərində totalitar rejimin ən qatı vaxtı idi. Bir sıra dairələr bəzi siyasi səbəblərə görə bizim evlənməyimizə razılıq vermirdi. Ona görə də biz müəyyən vaxt gözlədik. 1953-cü ildə Stalin öldü, ondan sonra ölkədə siyasi vəziyyət dəyişdi və 1954-cü ildə mən evləndim.

Ancaq nə təhər evləndim? Biz Bakıda şəhəri gəzirdik. O vaxt Voroşilov küçəsi var idi, indi həmin küçə Yusif Məmmədəliyevin adını daşıyır. Gəlib gördük ki, orada bir ZAQS şöbəsi var. Biz həmin ZAQS-a getdik. Nə şahid, nə də başqa iştirakçı var idi. Heç kəs yox idi. ZAQS-da bir qadın oturmuşdu, ona dedik ki, biz kəbin kəsdirmək istəyirik. Bildirdi ki, yaxşı, gəlin oturun. Heç üzük də yox idi. Biz oturduq. Buradakı kimi belə təntənəli nitqlər olmadı. Həmin qadın bizdən soruşdu ki, ailə qurmağa razısınız? Dedik ki, bəli. Bildirdi ki, buraya imza atın, biz də imza atdıq. Bizim kəbin kağızımızı verdilər. Soruşdum ki, nə edək? O vaxt «Nizami» kinoteatrının yanında bir mağaza var idi, orada yaxşı konfet satırdılar. Yadınızdadır ki, o zaman «Mişka» konfeti var idi, amma baha idi. Biz həmin mağazaya getdik, bir kiloqram «Mişka» konfeti aldım. Sonra oradan piyada dəniz kənarına gəldik. Zərifə xanımın ailəsi orada yaşayırdı. Biz onların evinə gəldik, Zərifə xanımın anasına və qohumlarına dedik ki, artıq kəbin kəsdirmişik. Bildirdim ki, bir kiloqram «Mişka» konfeti gətirmişəm ki, ağzımızı şirin edək. [314-315]

Bax, o vaxt bizim evlənməyimiz belə olubdur. Ona görə də mən belə şeyləri görməmişəm. Dedim ki, oğlum, qızım da evlənəndə mən belə mərasimlərdə olmadım. Həyat yoldaşım Zərifə xanım Bakıdakı şadlıq evinə, «Səadət sarayı»na gedib, onların kəbinini kəsdirib gətirmişdi, amma mənim xəbərim olmamışdı.

Ona görə də bu toy mərasimi mənim üçün yeni bir şeydir. Yəni bu, yeni yox, adi bir şeydir, amma mən bunu indi görürəm. Elə buna görə də çox sevinirəm ki, belə bir mərasimdə iştirak edirəm, bizim millətimizin, xalqımızın çox gözəl adət-ənənəsinin həyata keçirilməsində iştirak edirəm. bütün bunlara görə sağ olun, təşəkkür edirəm.

Ancaq mənim əsas sözüm bugünkü gənclərədir. Əziz övladlarımız Kifayət, Azər, Aygün, Tuqay! Bu gün siz həyatınızda ən məsuliyyətli və əhəmiyyətli bir addım atdınız, - öz səadətinizi birləşdirdiniz, ailənizin əsasını qoydunuz.

Siz gəncsiniz. Bəlkə də bu hadisənin sizin hər biriniz üçün nə dərəcədə əhəmiyyətli olduğunu o qədər dərk edə bilmirsiniz. Amma bizim kimi yaşlı, həyatı görmüş adamlar bütün bunları yaxşı bilirlər. Mən arzu edərdim ki, sizin bugünkü addımınız hər birinizə daim səadət, sevinc gətirsin. Arzu edərdim ki, siz bir-birinizə həmişə bugünkü kimi məhəbbətli olasınız. Arzu edərdim ki, həyatınızda birinci növbədə bir-birinizlə səmimi olasınız, bir-birinizə daim yardım edəsiniz. Çalışasınız ki, ailəniz əbədi, möhkəm olsun. Çalışasınız ki, öz ailə həyatınızla ətrafınızda olan insanlara da sevinc gətirəsiniz.

Burada mənim yanımda sizin analarınız Ziba xanım və Ruba xanım oturublar. Ananın zəhməti böyükdür. Siz bəlkə hələ onu da dərindən dərk edə bilmirsiniz. Ancaq nə qədər yaşlaşacaqsınız, həyatda nə qədər yeni-yeni mərhələlərə çatacaqsınız, valideynlərinizin və xüsusən ananızın qədrini bir o qədər çox biləcəksiniz.

Analarınız, atalarınız sizi yaradıb, sizə həyat verib, böyük çətinliklərə baxmayaraq sizi bugünkü xoşbəxt günə gətirib [315-316] çıxarıblar. Güman edirəm ki, siz də analarınız kimi sədaqətli, səmimi olacaqsınız. Arzu edirəm ki, ailə səmimiyyəti, insan sədaqəti həmişə sizinlə olsun.

Hər bir insan üçün vətənə, torpağa sədaqət ən ülvi xüsusiyyətdir. Mən arzu edərdim ki, siz bu xüsusiyyətlərə həmişə malik olasınız. Qarşıda sizin böyük həyat yolunuz vardır. Siz təhsil alacaqsınız, işləyəcəksiniz, ailə, övladlar sahibi olacaqsınız. Şübhəsiz ki, bütün bunlar sizə həm sevinc gətirəcək, həm də problemlər, çətinliklər yaradacaqdır.

Əlbəttə, asanlıqla ailə quran, hamar yolla gedən hər bir ailə xoşbəxtdir. Ancaq onlar dünyanın problemlərinin çoxunu bilmirlər. Dünyanın, həyatın problemlərinin çoxunu bilən, həyatda bunlarla rastlaşan insanlar yaşadıqca həmişə daha da mətinləşir, qüdrətlənir, həyatı dərindən başa düşür. Mən arzu edirəm ki, siz həyatınızda qarşınıza çıxan problemlərin öhdəsindən gələ biləsiniz, onlar sizi qorxutmasın, çəkindirməsin. Çalışın hər bir çətin vəziyyətdən özünüz çıxasınız. Beləliklə, siz daha da möhkəmlənəcəksiniz, insan kimi daha da formalaşacaqsınız.

Təbiidir ki, gənclərimiz üçün mənim arzum mənəviyyatla əlaqədardır. Azərbaycan xalqının ən gözəl xüsusiyyəti onun yüksək mənəviyyata malik olmasıdır. Arzu edirəm ki, siz millətimizin, xalqımızın gözəl ənənələrini özünüzdə cəm edəsiniz, onlar sizə həmişə düz yol göstərsin, ailənizə, işinizə, vətəninizə, torpağınıza, dövlətinizə sadiq olasınız.

Siz XX əsrin sonunda ailə qurursunuz, XXI əsrin ailəsini yaradırsınız. Siz müstəqil Azərbaycanın vətəndaşlarısınız. Bu, hər bir azərbaycanlı üçün böyük xoşbəxtlikdir. Əmin ola bilərsiniz ki, biz – dövləti idarə edənlər indi artıq elə bir əsas yaratmışıq ki, Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir. Öl-

kəmizdə həyat şəraiti, insanların rifah halı ilbəil yaxşılaşacaqdır, hər bir insan üçün işləmək, normal yaşamaq imkanları yaradılacaqdır. Şübhəsiz ki, bunlar hamısı işğal [316-317] olunmuş torpaqlarımızın azad olunması və Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi ilə bağlıdır.

Beləliklə, siz azad, müstəqil ölkədə – Azərbaycanda yaşayırsınız və ailənizi qurub inkişaf etdirirsiniz. Bunlar hamısı sizin ailə həyatınızın istədiyiniz kimi olmasına şərait yaradır. Güman edirəm ki, siz bu imkanlardan səmərəli istifadə edəcəksiniz.

Mənim ən əsas tövsiyəm odur ki, bir-birinizi sevin, bir-birinizə sədaqətli olun, valideynlərinizi unutmayın, torpağınıza, ölkəmizə, dövlətimizə sədaqətli olun.

Mən sizə cansağlığı, səadət, gözəl ailə həyatı arzu edirəm. Sağ olun.

Şübhəsiz ki, yeni ailə quran üçün ən dəyərli hədiyyə ailə həyatında əsas, lazımi əşyalardan ibarət ola bilər. Hesab edirəm ki, müasir dünyada indi hər bir adam üçün televizor əsas əşyalardan biri olubdur. Ona görə də mən sizin hər birinizə müasir tələblərə uyğun olan televizor hədiyyə edirəm. Onlar buradadır, gətirilibdir. Güman edirəm ki, onlar sizə dünyada olan hadisələri daha da yaxşı bilmək və ailənizi daha da yaxşı qurmaq üçün kömək edəcəkdir. Sağ olun.

### *Mərasim iştirakçıları qarşısında çıxış*

Əziz dostlar, bacılar, qardaşlar!

Mən çox şadam ki, bu gün bizim hamımıza, xüsusən mənə belə bir toy mərasimində iştirak etmək qismət oldu. Təbiidir ki, bu toy gənclərin yeni həyata başlaması ilə bağlıdır. Eyni zamanda bu toy salonda oturanların, düşünürəm ki, təkcə onların yox, bütün bu çadır şəhərciyində olanların hamısının bayramına, şadlığına çevrildi. Belə bir xoş günə görə sizə və bizim gənclərə təşəkkürümü bildirirəm. [317-318]

Gənclər yeni həyat yoluna başlayırlar. Bir daha onlara xoşbəxt həyat, ailə səadəti, uğurlu yol arzulayıram. Gənclərin valideynlərini, qohum-əqrəbalarını bu şad gün münasibətilə təbrik edirəm. Sizin hamınızı təbrik edirəm. Bu gün Füzuli və Cəbrayıl rayonlarının bu gənclərinin ailə qurması, güman edirəm ki, hamı üçün böyük sevinc gətirir.

Eyni zamanda toy mərasimi bu şəhərcikdə yeni bir xoş əhval-ruhiyyə yaradır. Arzu edirəm ki, belə şad günlər burada çox olsun, qəm-qüssə az olsun.

Bu son beş ay müddətində, oktyabr ayından indiyə qədər biz burada və başqa çadır şəhərciklərində əlavə tədbirlər görmüşük. Bundan sonra da görəcəyik. Bilirsiniz, biz burada və başqa yerlərdə böyük evlər sala bilərik ki, siz bu evlərdə yaşayasınız, daha da rahat olasınız. Amma bu sizə də lazım deyil, bizə də. Çünki hamımızın vəzifəsi sizin öz torpaqlarınıza qayıtmağınızdır. Bunun üçün də hamımızın birlikdə vəzifəsi işğal olunmuş torpaqların hamısının azad edilməsidir. Ona görə də siz belə əzab-əziyyətə dözürsünüz. Biz də dözürük, hamımız bir yerdə dözürük. Bu dərd, əzab-əziyyət, yerindən-yurdundan didərgin düşmək aqibəti təkcə sizin üçün deyil, bütün Azərbaycan xalqı üçündür, bizim üçündür, mənim üçündür. Ona görə də biz hamımız bir tərəfdən daha da dözümlü olmalıyıq. Eyni zamanda torpaqlarımızın işğaldan azad edilməsi üçün daha da gərgin iş aparmalıyıq.

Əmin ola bilərsiniz ki, biz bu işlərlə məşğuluq. Mən burada bir daha bəyan edirəm ki, iş günümün əksər hissəsi Ermənistan–Azərbaycan münaqişəsinin, yəni Ermənistanın Azərbaycana təcavüzünün ləğv olunmasına yönəldilibdir. Bu barədə çox iş görürük. Görülən hər işi, tədbiri elan etməyə ehtiyac yoxdur. Ancaq çox iş görülür, bütün imkanlardan istifadə edilir.

İki ay öncə mən Minsk qrupunun həmsədləri olan Rusiya prezidentinə, Amerika Birləşmiş Ştatları prezidentinə, Fransa [318-319] prezidentinə çox geniş məktub göndərmişəm, məsələnin indiyə qədər həll olunmamasını bir daha bildirmişəm. Bugünkü vəziyyəti ətraflı təhlil edib müraciət etmişəm ki, onlar öz üzərlərinə düşən vəzifələri yerinə yetirməlidirlər. Yəni onlar, ATƏT tərəfindən Minsk qrupunun həmsədrləri kimi üç böyük ölkə bu münaqişəni, məsələni həll etməlidirlər. Bunun da birinci nəticəsi Azərbaycan torpaqlarının işğaldan azad edilməsi, Azərbaycanın ərazi bütövlüyünün bərpası olmalıdır.

Başqa tədbirlər də görmüşük və görürük. Bu gün də, gələcəkdə də bu barədə ciddi addımlar atacağıq. Yəni bildirmək istəyirəm ki, bu məsələni həll etməyənə qədər biz öz vəzifəmizi bitmiş hesab edə bilmərik. Ona görə siz də, biz də dözməliyik ki, məsələni həll edə bilək. Ancaq mən əminəm, inanıram, - çünki bu işin içindəyəm, - biz məsələni sülh yolu ilə mütləq həll edəcəyik. Başqa yollar da var, onlar da məlumdur. Onların heç birisi bizim üçün mümkünsüz deyil, hər bir yoldan istifadə edib məsələni həll edə bilərik. Ancaq indi səylərimizi məsələnin sülh yolu ilə həll olunmasına yönəltmişik və mən bunun müsbət nəticəsinə inanıram.

Beləliklə, siz dözməlisiniz, biz sizə daha çox qayğı, diqqət göstərməli, daha çox yardım etməliyik. Beləliklə, hamımız birlikdə bu vəziyyətdən çıxacağıq.

Mən yerindən-yurdundan didərgin düşmüş Azərbaycan vətəndaşlarına, soydaşlarımıza təşəkkür edirəm, minnətdaram. Çünki siz hamınız böyük çətinliklər içərisində yaşayaraq çox təmkin göstərirsiniz. Belə bir çətin şəraitdə yaşayaraq daim Azərbaycan dövlətinə, onun siyasətinə, Azərbaycanın prezidentinə etimadınızı, inamınızı göstərirsiniz. Mən bunlara görə təşəkkür edirəm və daim minnətdaram.

İşğal olunmuş torpaqlardan didərgin düşmüş soydaşlarımız keçən ilin oktyabr ayında Azərbaycanda prezident seçkilərində də özlərinin qətiyyətliliyi, mütəşəkkilliyi ilə bu seçkilərin uğurla keçirilməsini təmin etdilər və Heydər Əliyevə səs [319-320] verib onu prezident seçdilər. Mənim üçün, yəni prezident seçilməyim üçün hər bir seçicinin səsi qiymətlidir. Ancaq sizin səsiniz, bu ağır şəraitdə, çadırlarda yaşayan insanların səsi mənim üçün hədsiz qiymətlidir. Mən sizə olan məhəbbətimi daim bildirirəm və məmnunam ki, siz də bu hisslərimi anlayır, duyursunuz və həmişə məni dəstəkləyirsiniz, mənə etimad göstərirsiniz. Mən həmişə sizinləyəm. Bu gün də sizinləyəm, sabah da, gələcəkdə də sizinlə olacağam. İnanıram ki, işğal edilmiş torpaqlar azad olan zaman biz sizinlə Cəbrayılda da, Füzulidə də, Zəngilanda da, Qubadlıda da, Ağdamda da, Kəlbəcərdə də, Laçında da, Şuşada da, bütün rayonlarda, Azərbaycan torpağı olan Dağlıq Qarabağda da görüşəcəyik.

Mən sizə bir daha cansağlığı arzulayıram. Novruz bayramı münasibətilə sizi bir daha təbrik edir, hər birinizə səadət, işlərinizdə uğur arzulayıram.

İndi isə musiqiçilər yaxşı, ürəyəyatan bir hava çalsınlar, mən yeni ailə quran gənclərlə və onların ailə üzvləri ilə rəqs edib sizi tərk edəcəyəm. [320]

## HƏCC ZİYARƏTİNƏ GEDƏN BİR QRUP ZƏVVARLARLA GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Prezident sarayı*

*20 mart 1999-cu il*

**H e y d ə r Ə l i y e v**: Hörmətli qonaqlar, dostlar!

Əvvəlcə sizi Novruz bayramı münasibətilə təbrik edirəm. Sizin hamınıza cansağlığı, səadət və bütün işlərinizdə uğurlar arzulayıram.

Bu gün bizim xalqımızın əziz günüdür, Novruz bayramı axşamıdır. Adətən bu gün insanlar istirahət edir, bayram edirlər. Ancaq biz sizinlə gözəl bir məqamda, bayram axşamında görüşürük. Güman edirəm, bu bayram axşamındakı görüş və danışıqlar hər birimizə fayda gətirəcəkdir.

Siz Həccə getməyə hazırlaşmısınız. Çox gözəl təşəbbüsdür, gözəl işdir. Məlumdur ki, sizin Həccə getməyiniz Səudiyyə Ərəbistanının kralı, iki müqəddəs şəhərin xadimi, bizim əziz dostumuz Fəthin Mərhəməti ilə, onun Azərbaycana yardımı ilə əlaqədardır. Siz yola düşməzdən əvvəl mənimlə görüşmək istəmisiniz. Mən də sizinlə görüşmək istəmişəm. Ona görə də bizim bu görüşümüz artıq başlayıbdır. Sizin mənə deyəsi sözünüz varsa, buyurun. Cənab şeyx, siz danışmaq istəyirsinizsə, buyurun.

**H a c ı A l l a h ş ü k ü r P a ş a z a d ə**: Hörmətli prezident həzrətləri! Bu gün bizim üçün iki bayramdır. Bunun biri Novruz bayramıdır, ikincisi isə Novruz bayramı axşamında, müqəddəs gündə prezident həzrətlərimizin xeyir-duasını almaq, onunla birlikdə olmaq bizim üçün böyük şərəfdir. Deyərdim ki, bu, [321-322] bütün müsəlmanlar üçün böyük bayramdır. Bu gün vaxt tapıb bizi qəbul etdiyinizə görə bütün Qafqaz müsəlmanları adından, hacılar adından Sizə öz təşəkkürümü bildirirəm.

Hörmətli prezident həzrətləri! Bilirsiniz ki, Sizi Azərbaycan torpaqlarından kənarda da müsəlman qardaşlarınız həmişə yad edirlər və Sizə böyük hörmət bəsləyirlər. İki müqəddəs şəhərin rəhbəri, Sizin qardaşınız Fəth ibn Əbdül Əziz həzrətləri Sizin xatirinizə öz hesabına Azərbaycandan 250 nəfər hacının ziyarəti barədə qərar qəbul etmişdir. Bu, Sizin Yaxın Şərqdə və müsəlman aləmində, müsəlman dövlətləri arasında hörmətinizin yüksək olmasını bir daha göstərir. Bu ziyarətimizin təşkili Səudiyyə Ərəbistanı Krallığının Din İşləri və Vəqflər Nazirliyinin rəhbərinə tapşırılmışdır.

Hörmətli prezident, nazirliyin nümayəndələri buradadır, onları Sizə təqdim edirəm. Biz neçə gündür Bakıda bir yerdə işləyirik. Qardaşlarımız tərəfindən bizə olan tövsiyələri tam yerinə yetirmişik. Onlar və Həccə gedənlər çox istədilər ki, Sizinlə görüşsünlər və bu, bizə nəsib oldu.

Məlumat verim ki, ziyarətə gedənlərin 25 nəfərdən çoxu Qarabağ müharibəsi əlilləri və iştirakçılarıdır, şəhid ailələri üzvlərinin sayı 90-dan yuxarıdır. Onlardan dörd nəfəri Milli Qəhrəman valideynləridir. Qaçqın və məcburi köçkün, əsgər ailələrindən olanların sayı 30-dan çoxdur. Qalanları isə pensiyaçılar, dindarlar və cənab prezidentə şəxsən müraciət edən insanlardır.

Cənab prezident, mən hər yerdə, xüsusən Səudiyyə Ərəbistanında Sizə daim hörmət bəslənilməsinin şahidi olmuşam. Biz söz veririk ki, Sizin Həccə göndərdiyiniz adamlar - şəhid anaları, ataları, qaçqınlar və məcburi köçkünlər Kəbə evində şəhidlərimizi yada salaraq dua edəcəyik ki, inşallah, tezliklə torpaqlarımız düşmən tapdağından azad olunsun. Mən bir daha bütün müsəlmanlar adından, hacılar adından Sizi təbrik edirəm və bizi qəbul etdiyinizə görə təşəkkürümü bildirirəm. [322-323]

**Ə f r a s Q a s ı m o v** (*Əli Bayramlı Şəhər Ağsaqqallar Şurasının sədri*): Sizi Novruz bayramı və qarşıdan gələn Qurban bayramı münasibətilə təbrik edirəm. Cənab prezident, Sizə uzun ömür, cansağlığı arzulayırıq. Bizə bu şəraiti yaratdığınıza görə Sizə minnətdarlığımızı bildiririk. Biz müqəddəs Məkkədə, Kəbədə torpaqlarımızın azad olunması, qaçqın və məcburi köçkünlərimizin öz yurdlarına qayıtması üçün dualar edəcəyik ki, Siz bütün bu işləri başa çatdırasınız. Ümidvarıq ki, qan tökülmədən torpaqlarımız qaytarılacaqdır. Biz Sizə inanırıq. Biz Sizə həmişə duaçıyıq. Biz Sizin daxili və xarici siyasətinizi müdafiə edirik və həmişə sizinləyik.

**Ə l i M ə m m ə d y a r o v** (*Qarabağ müharibəsi veteranı*): Cənab prezident, özümü çox xoşbəxt sayıram ki, Həcc ziyarəti ərəfəsində Sizinlə görüşürəm. Siz dünyanın böyük şəxsiyyətlərindən birisiniz. Sizinlə həmişə fəxr etmişəm. Vaxtilə Siz Siyasi Büronun üzvü seçiləndə, inanın ki, sevincimdən oynamışam. Həmişə Sizi televizorda görəndə fəxr etmişəm, öyünmüşəm. Öyünmüşəm ki, böyük bir fövqəldövlətin başçıları arasında mənim də xalqımın öz şəxsiyyətinə, mahir nitqinə, bacarığına görə seçilən oğlu vardır. Sevinirəm ki, həmin oğul bu gün öz xalqının rəhbəridir, müstəqil dövlətini qurmuş ölkəmizin əvəzsiz prezidentidir. Ona görə Sizinlə fəxr edirəm.

Əziz prezidentimiz, Siz respublikamızda əmin-amanlıq yaratmısınız. Müstəqillik qazanmış ölkələrdə nə cür hadisələrin baş verdiyini mütəmadi olaraq eşidirik. Amma bizdə bunlar yoxdur. Bayırda, hər yerdə hamı rahat gəzir. Siz xüsusən Qarabağ müharibəsi iştirakçılarına, əlillərə, şəhid ailələrinə, qaçqınlara böyük qayğı göstərirsiniz. Biz dünən televizora baxanda gördük ki, Siz Biləsuvar rayonundakı qaçqın şə-

hərciyində qaçqınların toy məclisində doğma övladlarınızın toyundakı, şadlığındakı kimi oynadınız. Bu, doğrudan da xalqa, onlara göstərdiyiniz böyük qayğının təzahürüdür. Mən [323-324] həm qaçqınam, həm veteranam, həm də pensiyada olan bir şəxsəm. Onların adından Sizə minnətdarlığımı bildirirəm.

Mən böyük ailə sahibiyəm. Dörd uşağım Tibb Universitetində oxuyur. Biz həmişə haqq-ədalət görmüşük. Uşaqlarımın hamısı əlaçıdır. Bunu Sizin gücünüz hesab edirəm. Çünki Sizin siyasətiniz, gənclərə göstərdiyiniz diqqət onların öz dərslərini yaxşı oxumalarına kömək edir. Qiymətli vaxtınızı bizə sərf etdiyinizə görə təşəkkürümü bildirirəm.

Yazdığım bu kitabı Sizə təqdim edirəm.

**Z ə r i f ə  P i r i y e v a** (*Şəhid anası)*: Hörmətli prezident, bu görüşümdən şərəf duyduğumu bildirirəm. Sizi ziyarət etməyimə və Həccə getməyimə qəlbən sevinirəm. O qədər həyəcan keçirirəm ki, danışmağa söz tapa bilmirəm. Mən şəhid Ceyhun Piriyevin anasıyam. Bizə göstərdiyiniz etimadı yazdığım «Pənahımız Heydərə» şerimlə demək istəyirəm. Mən bunu xalqımın ən əziyyətli günündə bir ilahi kimi onun dadına çatan, gecəsini gündüzə, gündüzünü gecəyə qatan, baldan şirin yuxusunu xəyalda yatan elimizin atası Heydər Əliyevə həsr etmişəm.

*Yalvarıram sənə, ey gözəl Allah,*
*Dəymə bizim pənahımız Heydərə.*
*Dualar yetişsin ulu dərgaha,*
*Dəymə bizim pənahımız Heydərə.*

*Sızlayan körpənin gülüşüdür o,*
*Buludlu havanın günəşidir o,*
*Sönmüş ürəklərin atəşidir o,*
*Dəymə bizim pənahımız Heydərə.*

*Heydər babam, adın uca ay kimi,*
*Heç vaxt qışın olmasın, ol yay kimi,*
*Parla günəş kimi, parla ay kimi,*
*Dəymə, Allah, pənahımız Heydərə.* [324-325]

*El əlin qaldırıb ulu dərgaha,*
*Namaz üstə yalvarıram Allaha,*
*Otuz il də bir saf ömür bir daha,*
*Allah, pay ver sən bizim Heydərə.*

*Əlçatmaz babama əlim yetəydi,*
*Allah, bir gün müharibə bitəydi,*
*Acı günlər bir-bir gəlib ötəydi,*
*Bütün dünya baş əyəydi Heydərə.*

İcazə verin şeri Sizə təqdim edim.

**B ə k i r  N ə b i y e v** (*Elmlər Akademiyasının ədəbiyyat, dil və incəsənət bölməsinin akademik-katibi)*: Möhtərəm prezident, Sizi Novruz bayramı münasibətilə təbrik edirəm. Vaxtın az olmasına görə istəyirəm bir mətləbi çatdırım.

Siz 1994-cü ildə Səudiyyə Ərəbistanına yüksək səviyyəli görüşə gedərkən nümayəndə heyətinin tərkibində məni də özünüzlə aparmışdınız. Orada etdiyimiz ziyarət, ibadət - hamısı sizinlə bağlı olmuşdu. Mən orada müşahidə etmişdim ki, Azərbaycanın rəhbəri özünün dini ənənəsinə necə sadiqdir və o, dinin tələblərinə əsasən müqəddəs məkanı - Kəbəni necə böyük ürəklə, sidqi-məhəbbətlə ziyarət etdi. Cənab prezident, biz onda Sizin arxa tərəfinizdə namaz qıldıq. Bu gün ikinci dəfə Səudiyyə Ərəbistanı kralının dəvəti ilə, bilavasitə şəxsən Sizin göstərdiyiniz hörmət sayəsində Həccə yola düşəcəyəm.

Cənab prezident, «Atalar üçdən deyib» məsəlinə uyğun olaraq bir arzumu bildirmək istəyirəm. Mən o günü arzulayıram ki, Siz torpaqları azad edilmiş, öz haqq işi uğrunda qələbə çalmış bir ölkənin rəhbəri kimi, o müqəddəs yerləri üçüncü dəfə ziyarətə gedəndə məni də heyətinizin tərkibinə alaydınız və mən yenə Sizinlə bir sırada namaz qılıb Allahın dərgahına öz dualarımı, minnətdarlığımı bildirəydim. Sizə uzun ömür, cansağlığı və arzuladığım o böyük niyyətə çatmağı diləyirəm. [325-326]

**S ə d ə s - S ə ə d** *(Səudiyyə Ərəbistanı Krallığının Din İşləri və Vəqflər Nazirliyinin nümayəndəsi, doktor)*: Mərhəmətli, rəhmli Allahın adı ilə, Allahın xeyir-duası Məhəmmədə, onun ailəsinə və onun silahdaşlarına olsun.

Zati-aliləri cənab prezident!

Hörmətli dostlar, qardaşlar və bacılar!

Mən bizim nümayəndə heyətinin üzvləri adından zati-aliləri cənab prezidentə bu görüş üçün vaxt ayırdığına və bizi qəbul etdiyinə görə dərin minnətdarlığımı bildirirəm. Cənab prezident Heydər Əliyev iman sahibi olan bir insandır və o, iman sahibi olan bir xalqa başçılıq edir. Bu, öz əksini ölkənin bayrağında və bu yaxınlarda bizim də gördüyümüz Azərbaycan Respublikasının yeni pasportlarında da tapmışdır. Bu fürsətdən istifadə edərək, zati-aliləri cənab prezidentə və hörmətli qardaş və bacılarımıza iki müqəddəs ocağın xadiminin səmimi salamlarını yetirirəm və eyni zamanda ölkəmizin, dövlətimizin, hökumətimizin digər üzvlərinin salamlarını, xeyirli, gözəl ziyarət arzularını yetirirəm.

Mən də burada çıxış edən şəhid anası kimi şair olmaq istərdim ki, öz hisslərimi və buradakı ab-havanı şair qələmi ilə təsvir edəm. Lakin sözün çoxluğundansa ürəklərdəki hisslərin səmimiliyi, çoxluğu daha mühümdür. Ona görə də çox danışmaq istəmirəm. Sözümün sonunda Sizə bildirmək istəyirəm ki, iki müqəddəs ocağın xadimi Sizin ölkəmizə çatandan sonra hər cür qayğı ilə əhatə olunmağınız barədə müvafiq göstərişlərini vermişdir və biz onu yerinə yetirəcəyik.

Bu ölkənin, Azərbaycanın torpaqlarının işğal olunması Sizin kimi, bizim də ürəyimizdə bir yaradır. Arzu edirəm ki, gələn il belə bir münasibətə qədər torpaqlarınız azad edilmiş olsun və biz bunu qeyd edək. Mən Sizin hamınıza uğurlar, xoşbəxtlik, səadət arzulayıram. Sağ olun.

**H e y d ə r  Ə l i y e v**: Mən çıxış edənlərə və Səudiyyə Ərəbistanı Krallığından gəlmiş qonağa təşəkkürümü bildirirəm. [326-327]

Hörmətli dostlar, bacılar, qardaşlar!

Mən sizi bu müqəddəs yolda bir də təbrik edirəm. Hər birinizin Məkkəni, Mədinəni, Kəbəni ziyarət etmək istəyiniz, arzunuz özlüyündə sizin daxili mənəviyyatınızı nümayiş etdirir, o müqəddəs yerləri ziyarət etmək istəyən hər bir şəxs yüksək mənəviyyat yoluna düşməlidir və ümidvaram ki, siz məhz bunu dərk edərək Məkkə, Mədinə, Kəbə ziyarətinə getmək üçün can atmısınız və bu istəyiniz, arzunuz da artıq yerinə yetirilir. Siz yol üstəsiniz, gedirsiniz. Siz də, biz də - hamımız Səudiyyə Ərəbistanının kralı, iki müqəddəs ocağın xadimi, bizim dostumuz və qardaşımıza Azərbaycana göstərdiyi bu qayğıya, diqqətə görə təşəkkür edirik. Bu, artıq ənənəyə çevrilibdir. Hər il Həcc ziyarəti zamanı Azərbaycana belə qayğı göstərilir və Səudiyyə Ərəbistanı kralının qonağı kimi 250 nəfər Həcc ziyarətinə gedir. Həcc ziyarətinin özü insan üçün böyük nemətdir. Ancaq bu ziyarəti iki müqəddəs ocağın xadiminin qayğısı altında, onun himayəsi altında həyata keçirmək buna daha da xüsusi əhəmiyyət verir.

İndi Azərbaycanda xalqlar bütün azadlıqları əldə ediblər. O cümlədən vicdan azadlığı, din azadlığı tamamilə bərqərar olunubdur. Bizim millətimiz öz islam dininə, islam mənəviyyatına olan bağlılığını, sevgisini, məhəbbətini indi keçmişdə olduğu kimi gizli, yaxud da xəlvət yox, açıq-aşkar nümayiş etdirir.

Bu gün məmnuniyyətlə qeyd etmək olar ki, Azərbaycanda insanlar vicdan azadlığı əldə edəndən sonra respublikamızda müqəddəs yerlər – məscidlər, məbədlər xalqımıza, onun mənəvi dəyərləri mənimsəməsinə çox yardım edir. Bütün bunların içərisində islam dininə mənsub olan insanların, azərbaycanlıların ən böyük arzusu Həcc ziyarəti etməkdir. Kim buna nail olursa, o, şübhəsiz ki, dünyanın ən xoşbəxt adamı olur. Siz buna nail olmusunuz, yəni bu hüququ almısınız və artıq yola düşürsünüz. Mən inanıram ki, siz sağ-salamat gedəcəksi[327-328]niz, ziyarəti edəcəksiniz, sağ-salamat öz vətəninizə, evinizə qayıdacaqsınız və bu ziyarətdən aldığınız mənəvi yardım sizin gələcək həyatınızda, əmək fəaliyyətinizdə çox şeylər verəcəkdir.

Çox şadam ki, illər boyu qəlbimdə yaşayan arzumu 1994-cü ildə həyata keçirə bildim, müqəddəs yerləri - Məkkəni, Mədinəni, Kəbəni ziyarət etdim. Bu, mənim həyatımda ən dəyərli tarixi bir hadisə olubdur. Deyə bilərəm ki, belə bir ziyarətdən sonra insan nə qədər yüksəlir, nə qədər yüksək hisslərə qovuşur. Buna görə də mən deyirəm ki, siz artıq xoşbəxt bir insansınız. Təbiidir, hər bir insanın həyatında müxtəlif qayğılar, çətinliklər, problemlər vardır. Ancaq bunların içərisində Həcc ziyarəti etmək insanlarda müəyyən qədər rahatlıq yaradır və başqa çətinliklərin öhdəsindən gəlmək üçün insanları daha da cəsarətli edir, daha da məğrur edir.

Mən şübhə etmirəm ki, siz bu Həcc ziyarətini uğurla başa çatdıracaqsınız. Sizdən başqa, Azərbaycanda çoxları da bu Həcc ziyarətinə gedir. 250 nəfər bizim dostumuz, Səudiyyə Ərəbistanı kralının himayəsi altında, 450 nəfər də özləri öz imkanları hesabına ziyarətə gedir. Beləliklə, bu il 700 nəfər Azərbaycan vətəndaşı, azərbaycanlı Həcc ziyarətini həyata keçirəcəkdir. Bu, Həcc ziyarətini edən hər bir insan üçün də əhəmiyyətlidir, amma bizim cəmiyyətimiz, xalqımız üçün də əhəmiyyətlidir. Çünki Həcc ziyarətini edən hər bir şəxs nəinki özü mənəviyyatca zənginləşir, o, aldığı mənəvi zənginlikdən bəhrələnərək öz ətrafına, ailəsinə, öz dostlarına da təsir edir, kömək edir, onları daha da düz yola, Allah yoluna dəvət edir.

Mən sizin hamınıza yaxşı yol, uğurlu yol arzulayıram. Əvvəlcədən arzulayıram ki, Həcc ziyarətinizi Allah qəbul etsin və siz sağ-salamat vətənimizə qayıdasınız.

Bir daha sizinlə bu bayram axşamı, bu əziz, müqəddəs gündə görüşdüyümə görə çox sevinirəm. Çünki belə gündə hər bir [328-329] görüş insan üçün xüsusi əhəmiyyətlidir. Mən sizinlə görüşürəm, yəni Allah yolunda Həccə gedən adamlarla görüşürəm.

Məndən Məkkəyə, Mədinəyə, Kəbəyə salam çatdırın və Azərbaycan xalqının islam dininin bütün yüksək mənəvi dəyərlərinə nə qədər sadiq olduğunu öz hissiyyatlarınızla oraya çatdıran. Sizə yaxşı yol! Bir daha bayramınızı təbrik edirəm. Hamınıza cansağlığı, bütün işlərinizdə uğurlar arzulayıram.

Sağ olun. [329]

## NOVRUZ BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Əziz həmvətənlər!

Sizi, respublikanın bütün vətəndaşlarını Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə xoş arzularımı yetirirəm.

Qədim zamanlardan hər bir azərbaycanlı ailəsində yaşanan Novruz bayramı respublikamızın müstəqillik əldə etməsi ilə artıq neçə ildir ki, dövlət səviyyəsində qeyd olunur.

Novruz dostluq, ünsiyyət, təmizlik və yenilik bayramıdır. Əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə təcəssüm etdirən bu bayram insanlar arasında birliyin və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə qayğı və diqqət göstərməsi üçün daima gözəl zəmin yaratmışdır. Novruz həmişə barışıq, ülfət və səmimiyyət bayramı olmuşdur. İnanıram ki, builki Novruz da cəmiyyətimizdə milli həmrəyliyin daha da möhkəmlənməsinə kömək edəcəkdir.

Novruz təbiətin oyanması, ürəklərdə saf niyyətlərin, xoş arzuların yaşandığı bir gündür. Azərbaycanın işğal olunmuş torpaqlarının azad olunması, erməni təcavüzü nəticəsində yurd-yuvasından didərgin düşmüş soydaşlarımızın öz ata-baba ocaqlarına qayıtması, xalqımızın firavan yaşaması hər bir azərbaycanlının ürəyində yaşatdığı ən müqəddəs arzudur. Əminəm ki, bu arzu və niyyətlərin həyata keçəcəyi gün uzaqda deyil.

Novruz həm də bütün dünya azərbaycanlılarının milli birlik bayramıdır. Ölkə hüdudlarından kənarda yaşayan bütün dünya azərbaycanlıları bu bayramı böyük sevinc və qürurla qeyd edir. Novruz şənliklərində yaranan xoş ünsiyyət onları [330-331] həm bir-biri ilə, həm də doğma Azərbaycanla daha sıx bağlayır, hər bir soydaşımızda azərbaycançılıq hisslərini gücləndirir.

Bu bayram günü Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olmuş şəhidlərimizi böyük minnətdarlıq hissi ilə xatırlayaraq, onlara Allahdan rəhmət, xalqımıza səbr diləyirəm.

Əziz bacı və qardaşlar, əziz soydaşlar!

Xalqımızın milli bayramı olan Novruz münasibətilə sizin hər birinizə əmin-amanlıq, möhkəm can-sağlığı, işlərinizdə və həyatınızda uğurlar diləyirəm.

Bayramınız mübarək olsun!

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *20 mart 1999-cu il*
[331]

## BAKI ƏYLƏNCƏ MƏRKƏZİNDƏ KİMSƏSİZ VƏ ŞƏHİD AİLƏLƏRİNDƏN OLAN UŞAQLAR ÜÇÜN KEÇİRİLMİŞ NOVRUZ BAYRAMINDA NİTQ

*20 mart 1999-cu il*

Əziz uşaqlar, əziz balalar!

Sizi Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, şən həyat və xoşbəxt gələcək arzulayıram.

Əziz balalar, Azərbaycan gənclər ölkəsidir, 8 milyon əhalimizin 5,5 milyondan çoxu gənclər, uşaqlardır. Siz xalqımızın sevimlilərisiniz, siz bizim sevincimiz, gülümüz, çiçəyimiz, siz bizim ürəyimiz, qəlbimizsiniz! Siz Azərbaycanın gələcəyisiniz.

XX əsr sona çatır, biz XXI əsrə qədəm basaraq gələcəyi sizin üzərinizə qoyuruq. Siz uşaqlar, gənclər bu gün müstəqil Azərbaycanın gələcəyinin qurucularısınız. Mən bu gün sizinlə burada olduğum dəqiqələr, saatlar içərisində çoz düşünmüşəm və bunların nəticəsi ondan ibarətdir ki, sizin istedadınız, gözəlliyiniz, vətənpərvərliyiniz məni əmin edir ki, Azərbaycanın çox gözəl, xoşbəxt gələcəyi var.

Siz bu gün öz istedadınızı parlaq şəkildə nümayiş etdirdiniz – mahnılarınızla, rəqslərinizlə, sözlərinizlə, musiqinizlə. Siz Azərbaycana nümayiş etdirdiniz ki, xalqımızın çox istedadlı uşaqları, gəncləri var. Deməli, xalqımızın, millətimizin bugünkündən də gözəl gələcək qurucuları var və bu gündən də gözəl, xoşbəxt gələcəyi var.

Əziz uşaqlar, biz atalar, analar, babalar, nənələr sizin rahat yaşamağınız, sülh və əmin-amanlıq içərisində olmağınız [332-333] üçün çalışırıq. Görürsünüz ki, son illər Azərbaycanda gördüyümüz işlərin nəticəsində həyat gündən-günə yaxşılaşır, insanların rifah halı yüksəlir və sizin bugünkü görkəminiz, əhval-ruhiyyəniz, xoş mahnılarınız da bunu təsdiq edir ki, Azərbaycan gündən-günə yaxşılığa doğru gedir. Siz sülh və əmin-amanlıq şəraitində yaşayırsınız. Bizim apardığımız siyasət, gördüyümüz tədbirlər nəticəsində Azərbaycanda sabitlik, rahatlıq yaranıbdır. Siz uşaqlar rahat yaşayıb oxumaq, təhsil almaq və gələcəyə hazırlaşmaq imkanını əldə etmisiniz.

Bu Novruz bayramı günü mən sizi və Azərbaycanın bütün uşaqlarını, gənclərini əmin edirəm ki, sizin bundan sonra daha da firavan, şən, rahat yaşamağınız üçün biz bütün tədbirləri görəcəyik, bütün fəaliyyətimizi buna həsr etmişik və bundan sonra da həsr edəcəyik.

Sizin qarşınızda təhsil almaq, həyatda öz yerinizi tutmaq üçün çalışmaq kimi böyük və çox məsuliyyətli yol durur. Sizin təhsilinizin daha da səmərəli olması üçün, məktəblərdə, ali təhsil ocaqlarında tədrisin keyfiyyətini artırmaq üçün, sizi - uşaqları, gəncləri gələcəyə hazırlayaraq müasir tələblər əsasında sizə təhsil vermək üçün biz böyük tədbirlər görürük. Təhsil islahatı kimi böyük bir proqram hazırlamışıq və onu həyata keçiririk. Azərbaycanın təhsil islahatı proqramı bu əsrin sonundan XXI əsrin birinci onilliyinə qədər nəzərdə tutulubdur. Demək, məktəblərdə sizin təhsilə baxmağınız, təhsil almağınız, ali məktəblərə hazırlaşmağınız dövrü ölkəmizdə təhsil islahatları dövrü ilə üst-üstə düşür. Biz çalışacağıq ki, məktəblər, bütün təhsil ocaqları daha da mükəmməl olsun, beynəlxalq standartlara cavab versin. Çalışacağıq ki, gənclərimiz gələcəkdə aldıqları təhsillə dünyanın hər bir yerində yaşayıb işləyə bilsinlər, özlərinə münasib yer tapa bilsinlər.

Azərbaycan müstəqil ölkə kimi Dünya Birliyinə bağlanıbdır. Biz çalışırıq ki, uşaqlarımız, gənclərimiz elə təhsil alsınlar, elə hazırlaşsınlar ki, öz ölkələrinə fayda verməklə bərabər, [333-334] dünyanın hər bir ölkəsində Azərbaycanı təmsil edə bilsinlər və öz vətəni, ölkəsi üçün səmərəli iş görə bilsinlər. Biz sizin bu gününüz, gələcəyiniz üçün çalışırıq, çox işlər görürük və bundan sonra da görəcəyik. Bu gün sizinlə burada birlikdə olduğum dəqiqələr məni bir daha əmin edir ki, siz buna layiqsiniz. Biz sizin üçün daha çox çalışmalıyıq. Siz çox gözəlsiniz, öz gözəlliyinizlə, istedadınızla bizim cəmiyyətimizi sevindirirsiniz, ataları, anaları, bütün insanları sevindirirsiniz. Güman edirəm ki, bu gözəl Əyləncə Mərkəzində bugünkü Novruz bayramını keçirməyiniz, bunun televiziya ilə bütün Azərbaycana yayılması vətənini, millətini istəyən hər bir insanı sevindirməlidir. Çünki siz o qədər gözəllik, sevinc gətirirsiniz ki, insan buna biganə qala bilməz.

Bu Əyləncə Mərkəzi Azərbaycanda son illər aparılan iqtisadi siyasətin gözəl təzahürü, bazar iqtisadiyyatının gözəl nümunəsidir. Bu Əyləncə Mərkəzi Azərbaycanda insanların rahat istirahət etməsi, əylənməsi üçün yaranıbdır. Burada siz uşaqlar əylənir, bayram edirsiniz. Demək, bu Əyləncə Mərkəzi bütün xalqımızındır, millətimizindir, uşaqlarındır. Bu məni daha da sevindirir. Əylənin, oynayın, oxuyun, şadlanın, bayram edin!

Novruz bayramınız mübarək olsun, əziz balalar! Sağ olun! [334]

## BAKININ GƏNCLƏR MEYDANINDA, QOŞA QALA QAPISI ÖNÜNDƏ NOVRUZ BAYRAMI ŞƏNLİYİNDƏ ÇIXIŞ

*21 mart 1999-cu il*

Əziz həmvətənlər, dostlar!

Ölkəmizin paytaxtı Bakının sakinləri!

Sizi, Azərbaycanın bütün vətəndaşlarını əziz bayramımız - Novruz bayramı münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, səadət, gələcək işlərinizdə uğurlar arzulayıram.

Novruz bayramı xalqımızın qədim zamanlardan sevdiyi və həmişə xalqımıza xoşbəxtlik, sevinc gətirən bayramdır. Biz sevinirik ki, indi artıq müstəqil Azərbaycanda Novruz bayramı hər yerdə özünə yer tapıbdır, insanlar əziz bayramlarını sərbəst, azad qeyd edir və bu günlərdə öz arzularına çatmağa çalışırlar.

Qoy Novruz bayramı Azərbaycanın vətəndaşlarına, bütün xalqımıza yeni-yeni uğurlar, sevinc, şadlıq gətirsin. Qoy Novruz bayramı Azərbaycanın hər bir vətəndaşına, ailəsinə sülh, əmin-amanlıq, səadət, rahatlıq, rifah, mehribanlıq gətirsin. Qoy Novruz bayramı xalqımızı daha da birləşdirsin, həmrəy etsin, cəmiyyətimizdə mehribanlıq, qarşılıqlı anlaşma yaratsın. Qoy Novruz bayramı ölkəmizə sabitlik, rahatlıq, sülh, əmin-amanlıq gətirsin. Qoy Novruz bayramı hər bir azərbaycanlının, vətəndaşımızın öz istəklərinə, arzularına çatmasına yardım etsin.

Şübhə yoxdur ki, Novruz bayramı ilə başlanan bu bahar, yeni il Azərbaycan xalqı üçün daha da uğurlu olacaqdır. Şübhə yoxdur ki, biz müstəqil, azad, demokratik, hüquqi [335-336] dövlət quruculuğu yolu ilə yeni addımlar atıb irəliləyəcəyik. Şübhə yoxdur ki, vətəndaşlarımızın hamısının səyi ilə ölkəmiz daha da inkişaf edəcək və insanlar öz arzularına çatmaq üçün daha da irəliləyəcəklər.

Mən sizin hamınıza cansağlığı arzu edirəm. Hər bir ailəyə səadət, xoşbəxtlik, rahatlıq arzulayıram. Ölkəmizə, xalqımıza sülh, mehribanlıq, əmin-amanlıq arzulayıram.

Bayramınız mübarək olsun, əziz dostlar, bacılar, qardaşlar! Sağ olun. [336]

# SUMQAYITDA EP-300 İSTEHSALATINDA BUXAR-GENERATOR QURĞUSUNUN ÖZÜLÜNÜN QOYULMASI MƏRASİMİNDƏ

*24 mart 1999-cu il*

Əziz sumqayıtlılar!

Hörmətli xanımlar və cənablar!

Sizi səmim-qəlbdən salamlayıram və sizinlə bugünkü görüşümə görə çox şad olduğumu bildirirəm.

Bu gün biz sizinlə Sumqayıt şəhəri və bütün Azərbaycan üçün çox əhəmiyyətli olan bir işin başlanğıcını, təməlini qoyuruq. Bu, Azərbaycanda nəhəng bir qurğunun - kimya sənayesi üçün böyük əhəmiyyəti olan buxar-generator kompleksinin inşasına başlanması mərasimidir. Bu, böyük hadisədir. Deyə bilərəm ki, müstəqil Azərbaycanın 1990-cı illər tarixində respublikamızda yeganə hadisədir ki, biz böyük bir sənaye obyektinin tikintisinə başlayırıq.

Azərbaycanda, o cümlədən Sumqayıtda keçmiş illərdə, onilliklərdə nəhəng sənaye müəssisələri yaradılıb istifadəyə verilibdir. Onların əksəriyyəti Azərbaycan xalqına indiyə qədər xidmət edir. Sumqayıt şəhəri bu sahədə xüsusi yer tutur. Sumqayıt gənc şəhərdir, hələ 50 yaşı tamam olmayıbdır. Ancaq bu müddətdə Xəzərin sahilində böyük bir şəhər yaranıbdır. Bu şəhərin yaranmasının da əsas səbəbi burada nəhəng sənaye müəssisələrinin olmasıdır.

Sumqayıtın sənayesinin böyük bir hissəsini kimya sənayesi təşkil edir. Məlumdur ki, 1960, 1970, 1980-ci illərdə Azərbaycanda kimya sənayesinin yaradılması və inkişaf etdirilməsi üçün böyük işlər görülmüş və mühüm nailiyyətlər əldə olun[337-338]muşdur. İndi şəhərin nəhəng kimya sənayesi kompleksi Sumqayıt və Azərbaycan sənayesinin böyük bir hissəsini təşkil edir.

Biz vaxtilə burada kimya sənayesi müəssisələrini yaradarkən həm Azərbaycanın iqtisadiyyatını inkişaf etdirməyə, həm də o illər mənsub olduğumuz Sovetlər İttifaqının kimya sənayesini inkişaf etdirməyə çalışırdıq. Bizim gördüyümüz işlər ölkəmizə böyük sərvətlər gətirib, bir neçə nəsil insanlar bu sənaye müəssisələrində ixtisas alıb, işləyib, öz həyatlarını qurublar. Bir sözlə, bu sənaye müəssisələri Azərbaycan üçün öz xidmətlərini göstərib. Ancaq bu müəssisələrin hələ böyük potensialı vardır. Müasir şəraitdə bunları hərəkətə gətirmək üçün isə əlavə tədbirlər görülməlidir.

Sumqayıtın kimya sənayesində EP-300 qurğusunun tikilməsi 1970-ci illərdə Azərbaycanda qarşımızda duran böyük vəzifələrdən biri idi. O illər EP-300 qurğusu ümumiyyətlə, nadir bir sənaye müəssisəsi idi. Onun texnologiyası yeni idi, həmin müəssisənin yaradılması böyük vəsait, mütəxəssislər - texnologiyadan istifadə edə bilən mühəndislər, texniklər, fəhlələr tələb edirdi. Amma biz bu məhsulun o vaxtlar çox əhəmiyyətli olduğunu bilərək Azərbaycanın kimya sənayesində EP-300 kompleksini tikməyə çalışdıq.

Mən indi keçmişi yada salaraq sizə bildirmək istəyrəm ki, bu o qədər də asan deyildi. Çünki Sovetlər İttifaqında belə qurğuların başqa yerlərdə də yaradılması nəzərdə tutulurdu, böyük vəsait lazım olduğuna görə buna vəsait ayırmaq çətin idi. Ona görə də biz davamlı olaraq bir neçə il bu təkliflərimizi Sovet İttifaqı hökumətinə təqdim edirdik və bunların həyata keçirilməsinə çalışırdıq.

Xatirimdədir, 1975–1976-ci illərdə EP-300 qurğusunun tikilməsi haqqında təklif irəli sürmüşdük və bu təklif qəbul olunmuşdu. Ancaq lazımi hazırlıq işləri, layihələrin hazırlanması, vəsaitin tapılması zaman tələb edirdi. Biz bu işlə bir [338-339] neçə il ardıcıl məşğul olduq. Nəhayət, 1980-ci ildə bu qurğunun tikintisinə başladıq.

Təəssüflər olsun ki, bu kompleks istənilən həcmdə yaradıla bilmədi. Ancaq yaradılan da Azərbaycan üçün böyük sərvət oldu və böyük sərvətdir. Ətrafda gördüyünüz qurğular, nəhəng cihazlar, sənaye müəssisələri – bütün bunlar müstəqil Azərbaycanın, xalqımızın sərvətidir. Biz məhz o illərdə – Sovetlər İttifaqının tərkibində olduğumuz zaman böyük çətinliklərin öhdəsindən gələrək, ümumxalq büdcəsindən vəsaiti almağa nail olaraq bu sərvəti yarada bildik.

İndi bizim sənayemiz, iqtisadiyyatımız bazar iqtisadiyyatı prinsipləri əsasında qurulmalıdır. Məhz buna görə də keçmiş zamanda Sumqayıtda yaradılmış sənaye müəssisələri indi əvvəlki gücü ilə işləmir. Bizim məqsədimiz sənaye müəssisələrini müasir tələblərə, bazar iqtisadiyyatı prinsiplərinə uyğunlaşdırmaqdan və bunlara yeni həyat verməkdən ibarətdir.

Bilin ki, biz bu sahədə çox işlər görmüşük və görürük. İnanıram ki, görülən işlər gələcəkdə öz nəticəsini verəcəkdir. Bu baxımdan kimya sənayesini yeni mərhələdə bazar iqtisadiyyatı prinsiplərinə uyğun, istehsalın, məhsulun keyfiyyətini artırmaq yolu ilə inkişaf etdirmək qarşımızda duran mühüm vəzifədir. Ancaq məlumdur ki, bunun üçün vəsait lazımdır. Müstəqil Azərbaycanın indiki həyatında istənilən vəsait yoxdur. Biz iqtisadiyyatımızı inkişaf etdirmək üçün xarici sərmayələrin Azərbaycana gətirilməsi sahəsində tədbirlər həyata keçiririk.

Bilirsiniz ki, son illər bizim bu tədbirlərimiz yaxşı nəticələr verir. Məsələn, keçən il Azərbaycana 1 milyard 500 milyon dollar dəyərində xarici sərmayə gəlmişdir. Amma 4 il bundan öncə respublikamıza

cəmi 300 milyon dəyərində sərmayə qoyulmuşdu. Biz son vaxtlar bu istiqamətdə apardığımız işləri Yaponiya hökuməti və bu ölkənin böyük şirkətləri ilə həyata keçirməyə çalışırıq. [339-340]

Burada deyildiyi kimi, keçən ilin fevralında mənim Yaponiyaya rəsmi səfərim zamanı apardığımız danışıqlar, imzaladığımız müqavilələr bizə yeni böyük imkanlar açmışdır. EP-300 qurğusunun müasirləşdirilməsi, ona yeni həyat verilməsi üçün burada buxar-elektrik kompleksinin tikilməsi bunların içərisində mühüm yer tutur. Biz bu qurğunun tikilməsi üçün Yaponiyanın «Niçimen» və başqa şirkətləri ilə danışıqlar apardıq. Bunların nəticəsində Yaponiya hökumətinin güzəştli kreditinin alınmasına nail olduq. Bu qurğuya 90 milyon dollar dəyərində vəsait tələb olunur. Bunun əksər hissəsi Yaponiyanın «Eksim bank»ının krediti vasitəsilə həyata keçiriləcəkdir.

Bu, böyük hadisədir. Həm bu miqyasda, həcmdə kreditin əldə olunması, həm də bu kreditin həyata keçirilməsi üçün yüksək texnologiyaya, yüksək sənaye səviyyəsinə malik xarici şirkətlərin Azərbaycana cəlb edilməsi böyük hadisədir. Bu, müstəqil Azərbaycanın iqtisadiyyatının inkişafını nümayiş etdirir. Eyni zamanda, müstəqil dövlət kimi Azərbaycana inamın olduğunu nümayiş etdirir.

Beləliklə, biz Sumqayıtın kimya sənayesində yeni mərhələ açırıq, bu qurğunun tikintisinə başlayırıq. Biz buraya bu münasibətlə toplaşmışıq, onun təməlini qoyuruq.

Artıq burada bəyan edildi ki, bu qurğu, kompleks qısa bir zamanda inşa olunub istismara veriləcəkdir. Mən bu bəyanatları - həm Yaponiya, həm də Türkiyə şirkətləri tərəfindən verilən bəyanatları qəbul edirəm və onlara inanıram. «Azərkimya» Dövlət Şirkəti tərəfindən verilən bəyanatı da inamla qəbul edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, burada bəyan edilmiş müddət ərzində bu böyük kompleks tikiləcək, istifadəyə veriləcək, məhsul verəcək və Azərbaycan iqtisadiyyatının inkişafına xidmət edəcəkdir.

Güman edirəm ki, sumqayıtlılar, kimyaçılar üçün bu qurğunun təkcə yaradılıb istismara verilməsi yox, onun inşaat prosesi də çox böyük əhəmiyyətə malikdir. Çünki bunun inşasın[340-341]da xarici şirkətlərlə bərabər, Sumqayıtın inşaatçı, quraşdırıcı və başqa təşkilatları da iştirak edəcəklər.

Verilən məlumata görə, burada gündə 600 nəfər işləyəcəkdir və onların tam əksəriyyəti, demək olar ki, 99 faizi siz sumqayıtlılar, şəhərin müxtəlif təşkilatları olacaqdır. Demək, bu qurğu hələ tikilib istismara verilənə qədər artıq burada yeni iş yerləri açılacaq, insanlar işləyəcək, əmək haqqı alacaqdır. Öz-özlüyündə bu, Azərbaycanın həm iqtisadiyyatına, həm də insanların rifah halının yaxşılaşmasına xidmət edəcəkdir. Mən qeyd etdim ki, bu, müstəqil Azərbaycanın tarixində ilk hadisədir. Ona görə də mən bu hadisəni sizinlə bir yerdə qeyd etmək üçün buraya gəlmişəm.

Sumqayıtın problemləri çoxdur. Mən qeyd etdim ki, vaxtilə Sumqayıtda nəhəng sənaye müəssisələri yaradılıbdır. İnsanlar burada işləyib özlərinə iş yeri tapıblar. İndi sənaye müəssisələrinin istənilən səviyyədə işləməməsi bir çox çətinliklər, problemlər yaradıbdır. Biz bu problemləri bilirik, onların aradan qaldırılması üçün çalışırıq. Mən Baş naziri və bir çox nazirləri, respublika təşkilatlarının rəhbərlərini keçən ay Sumqayıta göndərdim. Onlar burada vəziyyəti öyrəndilər, araşdırdılar və müəyyən təkliflər təqdim etdilər. Biz yardımlar etdik və bundan sonra da edəcəyik. Əmin ola bilərsiniz ki, Sumqayıtda sənaye müəssisələrinin, ümumiyyətlə, istehsalın, şəhərin həyatının bugünkü problemlərinin həll olunması bizim nəzarətimiz altındadır. Biz bunların həll edilməsi ilə məşğul oluruq və bundan sonra da məşğul olacağıq. Sadəcə, hamımız bilməliyik ki, müstəqil Azərbaycan öz həyatının keçid dövrünü yaşayır, iqtisadiyyatda böyük dəyişikliklər baş verir, bazar iqtisadiyyatı formalaşır.

Biz keçmiş istehsal sistemindən, imkanlarından əvvəlki kimi səmərəli istifadə edə bilmirik. Ancaq bu proses get-gedə öz müsbət nəticələrini verir. İnanırıq ki, biz Azərbaycanda sərbəst iqtisadiyyat, bazar iqtisadiyyatı, azad iqtisadiyyat sis[341-342]temini təşkil edə, yarada biləcəyik və Azərbaycanın vətəndaşları bütün bu imkanlardan get-gedə daha da çox bəhrələnəcəklər, istifadə edəcəklər.

Mən bu hadisə münasibətilə kimyaçıları, bütün sumqayıtlıları təbrik edirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu qurğu Sumqayıtda istehsalın yeniləşdirilməsinin başlanğıcı olacaqdır. Biz gələcəkdə də belə tədbirləri həyata keçirməyə nail olacağıq.

Sizə cansağlığı arzu edirəm. Bu kompleksin inşasına uğurlar arzulayıram. Sağ olun. [342]

## TÜRKDİLLİ DÖVLƏTLƏRİN TƏHLÜKƏSİZLİK XİDMƏTLƏRİNİN RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*26 mart 1999-cu il*

*Prezident sarayı*

Hörmətli dostlar, sizi salamlayıram və şadam ki, siz – türkdilli dövlətlərin xüsusi idarələrinin rəhbərləri bir yerə toplaşmısınız və öz başlıca problemlərinizi müzakirə edirsiniz.

Mən bilən, ilk belə görüş İstanbulda olmuşdur, ikinci görüş Bakıda keçir. Bu, yaxşı ənənədir və ümumi səylərimizə uyğundur. Siz bilirsiniz ki, Türkiyə prezidenti, dostumuz Süleyman Dəmirəlin təşəbbüsü ilə 1992-ci ildən türkdilli ölkələrin dövlət başçılarının görüşləri keçirilir. Bu görüşlər hər il keçirilir və sizə deməliyəm ki, onlar böyük fayda gətirir. Ötən il belə görüş Qazaxıstanda, Astanada oldu, biz məsələlərimizi müzakirə etdik, sonra da Qazaxıstanın yeni paytaxtının təqdimat mərasimində iştirak etdik. Növbəyə uyğun olaraq, bu il iyunda görüş Bakıda keçiriləcəkdir. Beləliklə, türkdilli ölkələrin dövlət başçılarının görüşü dövlətlərarası münasibətlərin və əməkdaşlığın, xüsusən mədəniyyət, təhsil, elm, iqtisadiyyat sahəsində əməkdaşlığın daha da inkişaf etdirilməsinə böyük fayda gətirən illik görüşlərin sabit sisteminə malikdir. Odur ki, bu baxımdan türkdilli dövlətlərin xüsusi xidmətləri rəhbərlərinin görüşünün artıq təşəkkül tapmış forması bəyənilməli və dəstəklənməlidir. [343-344]

Belə düşünürəm ki, siz artıq bunun zəruriliyini duyaraq görüşürsünüz, ünsiyyətdə olursunuz, məsələləri müzakirə edirsiniz. Əminəm ki, siz buna getdikcə daha böyük tələbat duyacaqsınız. Təbii ki, bu, dövlətlərimizin maraqlarına tamamilə uyğundur. Xüsusən indi, dünyanın belə mürəkkəb dövründə, ölkələrimizin dövlət müstəqilliyi yolu ilə getdikləri, öz taleyini keçmişdə, Sovetlər İttifaqının tərkibində olduğumuz dövrdəkinə nisbətən müstəqil həll etdiyi bir vaxtda xüsusi idarələrin fəaliyyəti ilə bağlı məsələlər meydana çıxır. Beynəlxalq terrorizm, ekstremizm, narkotik maddələrin yayılması və artıq transmilli xarakter daşıyan bir çox digər cinayətlər bütün ölkələri xüsusilə narahat edir. Buna ölkələrimizin daxilində baş verən və təbii ki, xarici amillərlə sıx bağlı olan müxtəlif proseslər də əlavə edilir. Dövlətlərimiz, onlardan hər biri bəzi başqa ölkələrin bu və ya digər dərəcədə böyük maraq obyektidir. Bu isə ölkələrimizdə təxribat xarakterli tədbirlər həyata keçirilməsini şərtləndirir. Hər halda, biz bunu ölkəmizin timsalında deyə bilərik. Buna görə də xüsusi idarələrin səylərinin əlaqələndirilməsi, qarşılıqlı fəaliyyət, təcrübə mübadiləsi, qarşılıqlı yardım olduqca böyük əhəmiyyət kəsb edir.

Azərbaycanın dövlət müstəqilliyi əldə etməsindən əvvəl də sonra da daxili siyasi vəziyyətimizi nəzərə alsaq, görərik ki, bu baxımdan Azərbaycan bəlkə də daha mürəkkəb şəraitli ölkə olmuşdur. Digər tərəfdən, bir də ona görə ki, bildiyiniz kimi, Azərbaycan Ermənistan tərəfindən zorla müharibəyə cəlb olunmuşdur. 10 ildən də əvvəl Ermənistan Azərbaycanın Dağlıq Qarabağ vilayətini özünə birləşdirmək üçün, ərazi, qanunsuz iddialarını həyata keçirməyə çalışaraq müharibəyə başlamış və Azərbaycana hərbi təcavüz etmişdir. Siz bunun tarixini bilirsiniz. Siz bilirsiniz ki, Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal etmişdir və bir milyondan çox azərbaycanlı öz yaşayış yerlərindən didərgin salınmışdır və onlar çox ağır şəraitdə, çadır şəhərciklərində yaşayırlar. [344-345]

Münaqişə hələ dayandırılmayıbdır, hərçənd ki, 1994-cü ilin mayında biz atəşkəsə nail olmuşuq. Lakin münaqişəni və onun nəticələrini hələ aradan qaldıra bilməmişik. Hazırda biz münaqişənin sülh yolu ilə tənzimlənməsi üçün fəal iş aparırıq, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasına, işğal olunmuş Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələrindən azad edilməsinə və vətəndaşlarımızın öz yaşayış yerlərinə qayıtmasına çalışırıq. Bu, mürəkkəb, çətin prosesdir, amma biz məsələnin məhz dincliklə tənzimlənməsi xəttini götürmüşük.

Münaqişə vəziyyəti 80-ci illərin təxminən axırlarından başlayaraq Azərbaycanda daxili siyasi şəraitin mürəkkəbləşməsini şərtləndirdi. Bu, ölkəmizdə hakimiyyətin dəyişməsinə, 1993-cü ildə vətəndaş müharibəsinə gətirib çıxardı. Vətəndaş müharibəsi Azərbaycanın bütövlüyünü əslində təhlükə qarşısında qoydu, Azərbaycan fəlakət, parçalanma həddində idi. Ancaq iş bununla bitmədi, hərçənd biz vətəndaş müharibəsinin qarşısını almağa müvəffəq olduq. 1994-cü ildə Azərbaycanda dövlət çevrilişi cəhdi oldu, 1995-ci ildə silahlı dövlət çevrilişi cəhdi oldu. Bu hadisələr nəinki Azərbaycandakı müxtəlif ekstremist qüvvələrin əməlləri ilə, həm də bəzi xarici dövlətlərin xüsusi idarələrinin hərəkətləri ilə bağlı idi. Bunu əsas tutaraq biz dövlətlərimiz arasında əməkdaşlığı xüsusilə zəruri hesab edirik.

Məsələn, bu yaxınlarda Daşkənddə, Özbəkistanda amansız terror hərəkətləri törədildi. Bizə elə gəlirdi ki, bu Mərkəzi Asiya ölkəsində möhkəm, sarsılmaz daxili siyasi sabitlik mövcuddur. Orada dövlətin idarə edilməsi baxımından sabitlik var. Bununla belə, bir görün terrorçular nə kimi hərəkətlərə əl atırlar?!

Odur ki, xüsusi idarələrin fəaliyyətini əlaqələndirmək zamanın tələbidir. Təkrar edirəm, - yəqin siz bu məsələləri daha ətraflı müzakirə etmisiniz, - mən buna siyasi cəhətdən, dövlət [345-346] mövqeyi cəhətdən

belə yanaşıram ki, dövlətçiliyi, dövlət müstəqilliyini möhkəmlətmək üçün, ölkələrimizdə iqtisadi islahatlar planlarının həyata keçirilməsini və iqtisadi, sosial, siyasi islahatların aparılmasını təmin etmək üçün, ölkələrimizdə bazar iqtisadiyyatının formalaşdırılması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin təmin olunması nəzərə alınmaqla, daxili siyasi sabitlik tələb olunur. Ölkələrimizi, xalqlarımızı istər ölkələrimizdə pozuculuq fəaliyyəti, istərsə də terrorizm kimi azğın hərəkətlər törədilməsi baxımından kənardan göstərilən hər cür cəhdlərdən qorumaq tələb edilir.

Buna görə də sizin bu növbəti görüşünüzü alqışlayıram, inanıram ki, bu görüşlər ənənəvi xarakter daşıyacaqdır. Əminəm ki, ölkələrimizin xüsusi xidmət orqanları nə qədər çox ünsiyyətdə olsalar, qarşılıqlı fəaliyyət göstərsələr, bir-birinə kömək etsələr, dövlətlərimiz bir o qədər möhkəm olacaq və biz ölkələrimiz qarşısında duran vəzifələri bir o qədər uğurla həyata keçirəcəyik.

Sovetlər İttifaqı dağıldıqdan sonra dövlət müstəqilliyi əldə etmiş ölkəmiz üçün qorxu odur ki, Azərbaycanın dövlət müstəqilliyi təhlükədə olmasa da, elə vəziyyətdədir ki, müstəqilliyimizin daim qorunmasının təmin olunmasına ehtiyac var. Əvvəlki idarəetmə formalarına qayıtmaq üçün dövlət müstəqilliyimizi tapdalamağa cürbəcür cəhdlər göstərilir. Biz bunu Azərbaycana münasibətdə hiss edirik. Hesab edirəm ki, belə vəziyyət digər ölkələrdə də bu və ya başqa dərəcədə mövcuddur.

Odur ki, vəzifə dövlət müstəqilliyini möhkəmlətməkdən ibarətdir. Azərbaycanda biz öz vəzifəmizi dövlət müstəqilliyini sabit, dönməz, əbədi etməkdə görürük. Bundan ötrü isə xalqlarımızı, ölkələrimizi mümkün ola bilən hər cür cinayət və hücumlardan qorumaq lazımdır. [346-347]

Ölkələrimizdə xüsusi xidmət orqanları böyük tarixə malikdir. Lakin onların fəaliyyətində ən mürəkkəb, ən məsul dövr dövlət müstəqilliyi əldə etdiyimiz vaxtdan sonrakı dövrdür. Bununla belə, bu, ən şərəfli vəzifədir. Biz dövlət müstəqilliyinə malik olmaqla hər halda, tarixi uğurlar qazanmışıq. Bu müstəqilliyi qoruyub saxlamaq, ölkələrimizin həmişəlik müstəqil olması, bir daha heç vaxt digər ölkələrin əlinə keçməməsini təmin etmək isə bizim şərəf işimizdir. Azərbaycanda biz vəzifəni məhz bu səpkidə qoyuruq.

Mən sizə bunu deyə bilərəm. Yəqin siz də mənə nəsə deyəcəksiniz. Bir sözlə, sizi salamlayıram, uğurlu iş münasibətilə təbrik edirəm.

**Miktat Alpay** *(Türkiyə Cümhuriyyəti Milli Təhlükəsizlik xidməti rəhbərinin birinci müavini):*Sayın cümhur başkanım, bu toplantını Süleyman Dəmirəlin və sizin təşəbbüsünüzlə biz başladıq. Ancaq burada gördük ki, hörmətli nazirlər başda olmaqla, əlbir şəkildə daha irəli getmək mümkündür. Azərbaycanda bu əməkdaşlıq altı dövlətin birliyi anlamına gələcək qədər gözəl oldu. Çox yaxşı anlaşmalar imzalandı və bunu etmək şərəfi bizə nəsib oldu. Zənnimcə, türkdilli dövlətlərin təşəbbüsləri başqalarına da örnək olar. İnanıram ki, bundan sonra Qazaxıstanda keçirəcəyimiz görüş daha səmərəli olacaq, bizi daha irəli aparacaqdır.

**Rüstəm İnoyatov** *(Özbəkistan Milli Təhlükəsizlik xidmətinin sədri):*Heydər Əliyeviç, Özbəkistanın daxili işlər naziri Zakircan Almatovla mən Bakıya gəlməzdən əvvəl prezidentimizin yanında olduq. İslam Əbdüqəniyeviç Sizə çoxlu salam göndərdi, Ən yaxşı arzularını bildirdi. Ən başlıcası isə, səfər ərəfəsində bizə nəinki bugünkü konfransda, eləcə də gələcəkdə Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyi ilə səmərəli işləməyi tapşırdı. Bu gün biz təkcə Özbəkistanı deyil, Azərbaycanı da narahat edən bir çox istiqamətlərdə uzunmüddətli qarşılıqlı iş haqqında müqavilə imzaladıq. İşimizin bir çox [347-348] mərhələlərini müəyyənləşdirdik. Bizim işimiz isə gələcəkdə istər Azərbaycanın, istərsə də Özbəkistanın müstəqilliyinin möhkəmlənməsi işinə kömək edəcəkdir.

Siz yaxşı bilirsiniz ki, Özbəkistanın ətrafında çox da sağlam olmayan bir vəziyyət mövcuddur – Əfqanıstanda müharibə davam edir, Tacikistanda vəziyyət gərgindir. Bundan başqa, bəzi məqamlar da var. Və bunlar Özbəkistanın da həm dünya miqyasında, həm də MDB miqyasında müstəqil siyasət yeritməsi ilə əlaqədar vəziyyətə təsir göstərir. Ona görə də elə dünən biz prezidentin belə bir göstərişini aldıq ki, azərbaycanlı həmkarlarla birlikdə işi daha yüksək səviyyədə, tam etimad şəraitində təşkil etmək lazımdır, Əlbəttə, əgər belə bir arzu olarsa. Qarşılıqlı münasibətlərimiz yeni, daha yüksək səviyyədə qurulacaqdır. Çünki Azərbaycanın da, Özbəkistanın da olduqca çox ümumi maraqları var. Diqqətinizə görə sağ olun.

**Heydər Əliyev**: Təşəkkür edirəm. Bu yaxınlarda biz İslam Əbdüqəniyeviçlə telefonla danışdıq, fikir mübadiləsi etdik. Danışdıq ki, siz buraya gələcəksiniz və biz daha ətraflı fikir mübadiləsi apara biləcəyik. Çox sağ olun.

**Nurtay Abıkayev** *(Qazaxıstan Dövlət Təhlükəsizliyi Komitəsinin sədri):*Hörmətli Heydər Əliyeviç, prezidentimizə, xalqımıza Sizin şəxsi münasibətinizi Qazaxıstanda bilirlər. Burada toplaşmağa imkan verdiyinizə görə Sizə təşəkkür etmək istəyirəm. Biz çox səmərəli işlədik. Bildirmək istəyirəm ki, dövlət başçılarının növbəti görüşü burada, bizim növbəti görüşümüz isə Astanada olacaqdır. Bizdə vəziyyət normaldır, tam etimad şəraitində işləyəcəyik və dövlət başçıları tərəfindən qarşıya qoyulmuş vəzifələri layiqincə yerinə yetirəcəyik.

**Heydər Əliyev**: Təşəkkür edirəm. Dünən mən Nursultan Abişoviçlə telefonla danışdım, biz də fikir mübadiləsi apardıq.

**Misir Aşirkulov** *(Qırğızıstanın Milli Təhlükəsizlik naziri):*Hörmətli Heydər Əliyeviç, bizi qəbul etdiyinizə görə [348-349] Sizə təşəkkürümü bildirmək istəyirəm. Bu, bizim üçün böyük şərəfdir.

Bayaq qeyd etdiyiniz kimi, bəzi mütəşəkkil cinayətkar ünsürlər transmilli xarakterə malikdir. Buna görə də türkdilli dövlətlər qərara almışlar ki, onların xüsusi idarələri bir-biri ilə sıx əlaqə saxlamalıdır. Qırğızıstan çoxtərəfli sazişdən əlavə, Azərbaycanla da ikitərəfli saziş imzaladı. Biz dövlətlərimizin təhlükəsizliyini təmin etmək üçün Azərbaycanla sıx əməkdaşlıq edəcəyik.

**H e y d ə r Ə l i y e v**: Təşəkkür edirəm. Mən bu yaxınlarda Əsgər Akayevlə də danışdım. Biz belə bir razılığa gəldik ki, iyunda burada, Bakıda görüşək. Hazırda Parisdə YUNESKO-nun konfransı keçirilir. Konfrans Çingiz Aytmatovun yaradıcılığına həsr olunmuşdur. Mən bizim mədəniyyət naziri Polad Bülbüloğlunu da oraya göndərdim ki, konfransda iştirak və çıxış etsin. Yeri gəlmişkən, Çingiz Aytmatovun yazıçı Şaxanovla birlikdə yazdığı pyesi bizim Azərbaycan teatrı tamaşaya hazırlamışdır. Deyirlər ki, yaxşı tamaşadır, yəqin mayın əvvəllərində göstəriləcəkdir. Ola bilsin ki, biz bu pyesin müəllifi ilə burada görüşəcəyik. Gördüyünüz kimi, mədəniyyət sahəsində əməkdaşlıq çox fəal həyata keçirilir.

**T ı r k e ş T ı r m ı y e v** *(Türkmənistan Milli Təhlükəsizlik Komitəsi sədrinin birinci müavini):* İlk öncə, Saparmurad Atayeviçin xoş arzularını Sizə yetirmək istəyirəm. Sizin münasibətlərinizi Türkmənistan xalqı çox xeyirxahlıqla, dərin hörmətlə qarşılayır. Və münasibətlərimizdə, xüsusən iqtisadi sahədə münasibətlərimizdə müsbət irəliləyişlər yaxşı qarşılanır. Ümidvarıq ki, baş verən bütün hadisələr xalqlarımızın xeyrinə olacaqdır. Həmkarlarımın dedikləri kimi, xüsusi idarələr təhlükəsizliyin qorunub saxlanması, ölkələrimiz arasında təhlükəsizliyin təmin olunması üçün hər şeyi edəcəklər.

**H e y d ə r Ə l i y e v**: Təşəkkürümü bildirirəm. Bu yaxınlarda Saparmurad Atayeviçlə telefon söhbətimiz oldu. Biz [349-350] əməkdaşlığımızın daha da inkişaf etdirilməsindən danışdıq. Yeri gəlmişkən, Türkmənistandan başlayaraq Xəzərdən keçməklə Azərbaycana, Gürcüstana və Türkiyə Trançxəzər qaz kəmərinin çəkilişi sahəsində birgə böyük işə başlayırıq. Bu, tarixi əhəmiyyətli layihədir. Biz bu layihənin həyata keçirilməsinə razılıq vermişik. Mən bununla əlaqədar Saparmurad Atayeviçə məktub yazaraq, onu tamamilə dəstəklədiyimizi bildirmişəm. Telefonla söhbət zamanı biz bu işin təşkili sahəsində praktiki addımlar barədə fikir mübadiləsi apardıq. Bir sözlə, ölkələrimiz arasında iqtisadi əlaqələr getdikcə daha çox inkişaf edir, bizi daha da yaxınlaşdırır, digər bütün münasibətlərimizi möhkəmləndirir.

Ötən ilin oktyabrında Ankarada biz Türkiyə Cümhuriyyətinin 75 illiyini qeyd edərkən Bakı–Ceyhan neft kəmərinin inşası haqqında çox mühüm bəyannamə imzaladıq. Bu bəyannaməni Türkiyə, Gürcüstan, Azərbaycan, Özbəkistan və Qazaxıstan prezidentləri imzaladılar. İndi bəyannamə ardıcıl surətdə həyata keçirilər və inanıram ki, Bakı–Ceyhan neft kəməri çəkiləcək, Xəzər nefti bu kəmərlə Türkiyə ərazisi vasitəsilə dünya bazarlarına göndəriləcəkdir.

Eyni zamanda Ankarada Türkiyə ilə Türkmənistan arasında qaz kəməri haqqında bəyannamə imzalandı, indi isə bu Transxəzər qaz kəməri üzrə işə praktiki olaraq başlanmışdır.

Hazırda biz TRASEKA proqramının həyata keçirilməsi – böyük tarixi İpək yolunun bərpa edilməsi üçün böyük iş görürük. Sizin yadınızdadır ki, ötən ilin sentyabrında Bakıda beynəlxalq konfrans keçirildi. Konfransda İpək yolunun üstündə yerləşən 35-dən çox ölkənin nümayəndələri, bir çox dövlətlərin başçıları, o cümlədən Türkiyə prezidenti Süleyman Dəmirəl, Özbəkistan prezidenti İslam Kərimov, Qırğızıstan prezidenti Əsgər Akayev iştirak edirdilər. Qazaxıstan və Türkmənistandan çox mötəbər nümayəndə heyətləri gəlmişdi. [350-351]

Bu, çox böyük layihədir və yeri gəlmişkən deyim ki, senator Braunbekin İpək yolu strategiyası barədə təklifi hazırda Amerika Birləşmiş Ştatlarının Senatında müzakirə edilir. Biz ümidvarıq ki, həmin qanun layihəsi qəbul ediləcək və onun çox böyük əhəmiyyəti olacaqdır.

Belə çıxır ki, tarixi İpək yolunun bərpası ilə bağlı iqtisadi prinsiplərimiz də bir çox siyasi məsələlərlə birləşir. Bütün bunlar Mərkəzi Asiyanı, Qafqazı, Türkiyəni və Avropanı, qərbi coğrafi, coğrafi-siyasi cəhətdən çox sıx bağlayır. Əlbəttə, bununla əlaqədar ölkələrimizin xüsusi xidmət idarələri qarşısında çox mühüm və böyük vəzifələr durur. Çünki bu layihələrin həyata keçirilməsi ölkələrimiz üçün çox böyük iqtisadi, sosial, siyasi əhəmiyyətə malikdir. Bununla yanaşı, biz bilirik ki, bu layihələrin nə qədər əleyhdarları var, nə qədər adam bu layihələrə maneçilik törədir və ya onların olmasını istəmir. Məsələn, son illər ərzində biz Xəzərin enerji ehtiyatlarının – neftin və qazın dünya iqtisadiyyatının sərvətinə çevrilməsi üçün böyük iş görmüşük. Çox böyük işlərə başlanmışdır. Məsələn, biz dünyanın bir çox ən iri neft şirkətləri ilə bir çox müqavilələr imzalamışıq. Amma bu, heç də hamının xoşuna gəlmir, bəziləri buna mane olmaq istəyir, bəziləri isə indi belə bir təbliğat aparırlar ki, bəs Xəzərdə güman edildiyi qədər neft yoxdur və sair. Bütün bunlar işimizə mane olmağa yönəldilmişdir. Xəzərdə isə neft çoxdur, lap çoxdur, neçə-neçə nəslə çatacaqdır.

Bizim fəal hərəkətlərimiz, ümumi uğurlarımız xalqlarımız üçün, ölkələrimiz üçün, şübhəsiz, gözəl perspektivlər açır, amma bunun olmasını istəməyən ayrı-ayrı qüvvələrdə narazılıq və hətta düşmənçilik hissləri doğurur. Elə bunun özü də bizdən daha sıx birləşməyi, bir-birimizə kömək göstərməyi tələb edir. Bu isə, təkrar edirəm, xüsusi xidmət idarələri qarşısında çox böyük vəzifələr qoyur. Sağ olun. [351]

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ**
**SENATORU ZATİ-ALİLƏRİ**
**CƏNAB SEM BRAUNBEKƏ**

Hörmətli cənab senator!
Əziz dost!
Amerika Birləşmiş Ştatları Senatının xarici münasibətlər komitəsində sizin əzmlə dəstəklədiyiniz İpək yolu strategiyasına aid qanunvericiliyin uğurla təsdiq edilməsi bütün Azərbaycan xalqı tərəfindən böyük hüsn-rəğbətlə qarşılanmışdır.

Sizə şərəfli fəaliyyətinizə görə dərin minnətdarlığımı bildirirəm. Bu qan unvericiliyin ABŞ Konqresi tərəfindən də qəbul edilməsi sizin dediyiniz kimi, böyük regionların çiçəklənməsini və 71 milyon əhalinin rifahının yüksəlməsini təmin edə bilərdi.

Eyni zamanda, sizin təklif etdiyiniz qanunvericiliyin həyata keçməsi məlum ədalətsiz 907-ci bəndin tezliklə ləğv edilməsinə şərait yaradardı, Amerika–Azərbaycan əlaqələrinin sürətli inkişafına, ölkələrimizin üst-üstə düşən milli maraqlarına fəal surətdə xidmət edərdi.

Səmimi görüşlərimizi və apardığımız söhbətləri daim xatırlayıram, Vaşinqtonda bu ilin aprel ayında NATO-nun 50 illiyinə həsr olunmuş, iştirak edəcəyim mərasimlər zamanı görüşümüzü səbirsizliklə gözləyirəm.

Hörmətlə

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *27 mart 1999-cu il*
[352]

## AZƏRBAYCAN MİLLİ TƏHLÜKƏSİZLİK ORQANLARI YARADILMASININ 80 İLLİYİNƏ HƏSR OLUNMUŞ TƏNTƏNƏLİ YUBİLEY MƏRASİMİNDƏ NİTQ

*Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı*

*27 mart 1999-cu il*

Hörmətli xanımlar və cənablar, dostlar!

Sizi Azərbaycan təhlükəsizlik orqanlarının 80 illik yubileyi münasibətilə ürəkdən təbrik edirəm.

Azərbaycanın təhlükəsizlik orqanları 80 il ərzində mürəkkəb, ziddiyyətli, eyni zamanda uğurlu yol keçmişdir. Azərbaycanın təhlükəsizlik orqanlarında 80 il ərzində bir neçə nəsil azərbaycanlılar, vətənpərvər insanlar xidmət etmişlər və respublikamızın təhlükəsizlik orqanlarının tarixinin yaranmasında iştirak etmişlər.

Təhlükəsizlik orqanlarının tarixi haqqında danışarkən təbiidir ki, bu orqanların Azərbaycana, bizim milli mədəniyyətimizə, tariximizə, elmimizə, milli kadrlarımıza vurduğu zərbəni və zərəri də nəzərə alıb qeyd etməliyik. Eyni zamanda, bu orqanlarda sədaqətlə xidmət etmiş soydaşlarımızı, azərbaycanlıları unutmuruq.

Xalq cümhuriyyəti zamanı Azərbaycanın təhlükəsizlik orqanları gənc müstəqil dövlətimizə xidmət etmişdir. Sonrakı 70 il ərzində Azərbaycanın təhlükəsizlik orqanları sovet hakimiyyətinə, kommunist ideologiyasına xidmət etmiş, Sovet İttifaqının təhlükəsizlik orqanlarının tərkib hissəsi olaraq onların siyasətini və əməli tədbirlərini həyata keçirməklə məşğul [353-354] olmuşdur. Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra respublikamızın dövlət orqanlarının müstəqil fəaliyyət göstərməsi prosesində Azərbaycanın təhlükəsizlik orqanları da öz yerini tapmışdır.

Bütün bu mərhələlərdə təhlükəsizlik orqanlarının fəaliyyətində xalqımız üçün zərərli amillər də olmuş, ancaq eyni zamanda, təhlükəsizlik orqanlarının xalqımıza xidmətləri də olmuşdur. Onu qeyd etmək lazımdır ki, sovet hakimiyyəti dövründə və xüsusən 1920-1930-cu illərdə təhlükəsizlik orqanları sovet hakimiyyətinin repressiya siyasətinin həyata keçirilməsində alət olmuş və Azərbaycan xalqına böyük zərbələr vurmuşdur. Azərbaycanın təhlükəsizlik orqanlarında 1953-cü ildən sonra, yəni Stalinin vəfatından sonra Sovetlər İttifaqında mövcud olan prosesdə eyni zamanda müsbət dəyişikliklər başlamışdı. Beləliklə, 1953-cü ildən sonrakı dövrdə Azərbaycanın təhlükəsizlik orqanları Sovet İttifaqının təhlükəsizlik orqanlarının tərkib hissəsi olaraq, eyni zamanda Azərbaycanda təhlükəsizlik orqanlarının respublikamızın milli mənafelərinə xidmət etməsinə müəyyən qədər nail olmuşdur.

Bu gün onu da qeyd etmək lazımdır ki, sovet hakimiyyətinin təhlükəsizlik orqanları müttəfiq respublikalarda və xüsusən müsəlman respublikalarında, türkdilli respublikalarda mərkəzin hakimiyyətini həyata keçirməkdə xüsusi səlahiyyətə malik idi. Azərbaycanda təhlükəsizlik orqanlarında milli kadrlar çox azlıq təşkil edirdi. Azərbaycanda repressiyaların aparılmasında, xalqımıza vurulmuş zərbələrdə məhz mərkəzə tabe olan və onun iradəsini həyata keçirən kadrlar fəallıq göstərirdilər.

Qeyd etdim ki, müsəlman respublikalarına mərkəzdən münasibət başqa respublikalara nisbətən çox fərqli idi. Ona görə də Azərbaycanın təhlükəsizlik orqanlarında milli kadrların yaranmasına imkan verilmirdi. Məhz 1950-ci illərdən, 1950-ci illərin ikinci yarısından başlayaraq bu imkan əldə [354-355] edildi. Ancaq buna nail olmaq üçün təhlükəsizlik orqanlarında Azərbaycan xalqına zidd siyasətin həyata keçirilməsində fəallıq göstərənləri orqanlardan uzaqlaşdırmaq, kənarlaşdırmaq lazım idi.

Mənim xatirimdədir, 1953-cü ildə Stalin vəfat edəndən sonra təhlükəsizlik orqanlarında müəyyən struktur dəyişiklikləri əmələ gəldi. Mən o vaxt Azərbaycanın Dövlət Təhlükəsizliyi Nazirliyinin, sonra komitəsinin Əks-Kəşfiyyat İdarəsinin rəisi idim. O dövrü bu gün də xatırlayanda dəhşətə gəlirəm ki, biz kimlərlə işləyirdik. Yerli kadrlar çox az idi. Vaxtilə elələrini seçirdilər ki, onlar yüksək savada, biliyə, yaxud keyfiyyətə malik olmasınlar. Əsas rəhbər vəzifələrdə işləyənlər başqa millətlərə mənsub olan kadrlardan ibarət idi. Ancaq 1950-ci illərin ikinci yarısında, 1960-cı illərdə, sonra 1970-ci illərdə Azərbaycanın təhlükəsizlik təşkilatında ciddi dəyişikliklər həyata keçirmək mümkün oldu.

Mən hesab edirəm ki, Azərbaycanda təhlükəsizlik təşkilatının milliləşdirilməsi prosesi bu təşkilatın Azərbaycana vurduğu zərərə baxmayaraq, bizim əldə etdiyimiz ən böyük nailiyyət idi. Təşkilat milliləşdikcə onun fəaliyyətinin istiqamətini də Azərbaycanın milli mənafelərinə daha çox uyğun aparmaq mümkün olurdu.

Təsəvvür edin, Azərbaycanda o illərdə Təhlükəsizlik Nazirliyinin, təşkilatının başçısını yerli kadrlardan təyin etmək mümkün deyildi. Sadəcə olaraq, açıqca bəyan edirdilər ki, bu, mərkəzdən gəlməlidir, azərbaycanlı olmamalıdır. 1967-ci ildə ilk dəfə Azərbaycanın Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə azərbaycanlının təyin edilməsi, demək olar ki, bir tarixi hadisə oldu.

O illər biz çox iş gördük, təhlükəsizlik orqanlarında milli kadrların hazırlanmasına və irəli çəkilməsinə nail olduq. Ancaq təəssüflər olsun ki, 1985-ci ildən etibarən, yenə də Azərbaycanın Təhlükəsizlik Komitəsinə kənardan kadrların [355-356] gətirilməsi prosesi başladı. Nəhayət, burada qeyd edildiyi kimi, 1988-ci ildə, Azərbaycanın ən ağır dövründə yenə də Təhlükəsizlik Nazirliyinin rəhbərliyinə mərkəzdən təyin olunmuş insan, Azərbaycanda heç vaxt işləməmiş, respublikamızın xüsusiyyətini bilməyən adam təyin olundu. Bu, qəsdən edilmişdi. Çünki lazım idi ki, Azərbaycanın təhlükəsizlik orqanlarında milli kadrların iradəsi sındırılsın və onlar yenə də mərkəzin iradəsinə tabe etdirilsin.

Onu da qeyd etmək istəyirəm ki, məsələn, Cənubi Qafqazın digər respublikalarında vəziyyət belə deyildi. Orada təhlükəsizlik orqanlarında həm yerli, milli kadrlar əksəriyyəti təşkil edirdi, həm də onların rəhbərləri, birinci şəxs həmişə öz yerli, milli kadrlarından idi.

Belə bir faktı xatırlayıram. Deyəsən, 1972, 1973, 1974-cü illərdə Ermənistanda Dövlət Təhlükəsizliyi Komitəsinin sədrini dəyişdirib oraya Moskvadan rus göndərdilər. Xatirimdədir, bir dəfə görüşümüzdə Andropov mənə danışırdı ki, belə bir qərar qəbul ediləndən sonra Mikoyan ona telefonla zəng etmiş və öz narazılığını, etirazını bildirmişdi. Bəyan etmişdi ki, Ermənistana təhlükəsizlik orqanının başçısı vəzifəsinə rus təyin etmək mümkün deyildi. Siz bunu nə üçün etdiniz. O vaxt mən Andropova dedim ki, bəs Mikoyan düşünmürmü ki, Azərbaycanda on illərlə bu vəzifəyə heç vaxt azərbaycanlı təyin olunmayıbdır, həmişə Moskvadan göndərilmiş, rus millətinə mənsub olan adam təyin edilibdir.

Beləliklə, görürsünüz, o vaxt Cənubi Qafqazın digər respublikalarına nisbətən Azərbaycana qarşı münasibət tamamilə başqa idi. Bunlar hamısı Azərbaycanı daim təzyiq altında saxlamaq, daim idarə etmək və Azərbaycanda milli dirçəlişin, milli oyanışın qarşısını almaq məqsədi daşıyırdı.

Təəssüflər olsun ki, təxminən 1985–1986-cı illərdə Azərbaycanın Təhlükəsizlik Komitəsində milli kadrların azalması prosesi getdi, kənardan gələn kadrlar burada müəyyən yerlər [356-357] tutdu. Xatirinizdədir ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi başlamamışdan əvvəl Azərbaycanın həm Milli Təhlükəsizlik Nazirliyinə, həm də Daxili İşlər Nazirliyinə Moskvadan böyük-böyük briqadalar göndərilirdi və həmin briqadalar respublikamızı dağıtmaq, Azərbaycanın milli mədəniyyətinə, milli sərvətlərinə zərər vurmaq məqsədi daşıyırdı. Belə bir şəraitdə Azərbaycanın təhlükəsizlik orqanlarında 1988-ci ildən ölkəmiz müstəqillik əldə edənə qədər olan dövr, demək olar ki, 1930-cu illərin təkrarı kimi göstərilə bilər.

Beləliklə, təhlükəsizlik orqanlarının tarixində müxtəlif dövrlər, hər dövrün özünəməxsus xüsusiyyəti olubdur. Ölkəmizin XX əsrdəki tarixini doğru-düzgün əks etdirmək, yazmaq üçün mütləq tədqiqatlar, tarixi araşdırmalar aparılmalıdır və obyektiv, ədalətli əsərlər yaradılmalıdır.

Bütün bu dövrlərdə Azərbaycanın təhlükəsizlik orqanlarında mövcud olan nöqsanlarla, qüsurlarla yanaşı, vətənpərvər insanlar, azərbaycanlıların əksəriyyəti öz xalqına, millətinə sədaqətlə xidmət etmişdir. Biz bunu heç vaxt unutmamalıyıq.

Bu gün bu təntənəli mərasimdə Azərbaycan təhlükəsizlik orqanlarının veteranları da iştirak edirlər. Hesab edirəm, biz onların keçmiş dövrdə Azərbaycan Respublikasına göstərdiyi xidmətləri qiymətləndirməliyik və vətənə, xalqa sədaqətlə xidmət etdiklərinə görə onlara təşəkkür etməliyik.

Dövlət müstəqilliyi əldə ediləndən sonra milli təhlükəsizlik orqanlarında çox ciddi proseslər getmişdir. Nəhayət, Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyi ölkəmizin dövlət müstəqilliyinə xidmət etmək səviyyəsinə gəlib çatmışdır.

Şübhəsiz ki, bu proseslərin gedişində Milli Təhlükəsizlik Nazirliyinin işinə çox zərbələr, zərərlər də vurulmuşdur. Ancaq bu gün məmnuniyyətlə qeyd etmək olar ki, bütün bunlar artıq geridə qalmış, Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyi indi müstəqil Azərbaycanın milli mənafelərinə tam xidmət etməyə qadirdir. [357-358]

Müstəqil Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyinə keçmişdən də çox şey çatmışdır. Bu, birinci növbədə Azərbaycanın milli kadrlarıdır. Əgər keçmiş dövrlərdə milli kadrlar hazırlanmasaydı, müstəqillik dövründə Milli Təhlükəsizlik Nazirliyində – belə bir mürəkkəb təşkilatda fəaliyyət göstərmək və onun işini təmin etmək mümkün olmazdı.

Bizim təhlükəsizlik təşkilatımıza keçmişdən böyük maddi-texniki baza çatmışdır. Bu baza olmasaydı, bu gün Milli Təhlükəsizlik Nazirliyi öz işini apara bilməzdi. Mən xüsusən Milli Təhlükəsizlik Nazirliyinin gözəl binasını qeyd etmək istəyirəm. Bilirsiniz ki, mən keçmiş illərdə Azərbaycanda, o cümlədən Bakıda bir çox binaların, sarayların yaranmasının, tikilməsinin təşəbbüskarı, təşkilatçısı olmuşam. Bunların içərisində ən görkəmlisi indi müstəqil Azərbaycanın Prezident sarayıdır. Bunlardan biri də Azərbaycanın təhlükəsizlik təşkilatının binasıdır. Bu binalar həm memarlıq nöqteyi-nəzərindən, həm şəhərin memarlıq kompleksinin tərkib hissəsi kimi, həm də öz funksiyalarını həyata keçirmək baxımından müasirdir və çox yararlıdır. İndi Milli Təhlükəsizlik Nazirliyinin belə bir gözəl və öz işləri üçün yararlı olan binada yerləşməsi də keçmişdən bu nazirliyə çatan böyük sərvətlərdən biridir.

Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyinin son illər gördüyü işlər və əldə etdiyi nəticələr müsbət qiymətə layiqdir.

Nazir Namiq Abbasovun buradakı məruzəsində gətirilən konkret faktlar onu göstərir ki, ölkəmizdə Milli Təhlükəsizlik Nazirliyinin, ümumiyyətlə, təhlükəsizlik orqanlarının fəaliyyəti çox gərəklidir və çox əhəmiyyətlidir. Ümidvar olduğumu bildirmək istəyirəm ki, artıq formalaşan və təşkilatlanan Milli

Təhlükəsizlik Nazirliyi qarşışında duran vəzifələri bundan sonra daha da müvəffəqiyyətlə yerinə yetirəcəkdir. Vəzifələr isə çox böyükdür.

Keçmiş dövrlərdə, sovet hakimiyyəti vaxtında Azərbaycanın təhlükəsizlik təşkilatı ümumi sovet hökumətinin qərarları[359-360]nı və göstərişlərini yerinə yetirməklə məşğul idi. İndi müstəqil Azərbaycanda ölkəmizi təhlükəsizlik təşkilatı müstəqil Azərbaycanın, xalqımızın milli mənafelərini təmin etmək vəzifəsini daşıyır. Ancaq bu vəzifəni yerinə yetirmək çox çətindir. Ona görə də biz Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyindən çox şeylər gözləyirik.

Məlum olan, burada elan edilən faktlar onu göstərir ki, Azərbaycana xarici ölkələrin kəşfiyyat orqanlarının marağı günü-gündən artır. Onların qarşısını almaq, Azərbaycanın milli mənafelərini qorumaq üçün təhlükəsizlik təşkilatı daha da fəal işləməlidir. Azərbaycanın bu baxımdan vəziyyətini mürəkkəbləşdirən bir də odur ki, ölkəmiz Ermənistan ilə müharibə vəziyyətindədir. İndi biz Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasına çalışırıq. Ancaq bununla yanaşı, Azərbaycana qarşı Ermənistan tərəfindən aparılan müxtəlif kəşfiyyat, təxribat işləri davam edir və onların qarşısı alınmalıdır, Azərbaycanda bunlara yol verilməməlidir.

Bir sözlə, Azərbaycan indi bir çox xarici kəşfiyyat orqanlarının diqqətini cəlb edir və Azərbaycanı bunlardan qorumaq lazımdır. Bunun üçün də Milli Təhlükəsizlik Nazirliyi daha da yaxşı işləməlidir. Ölkəmizin daxilində Azərbaycanın müstəqilliyinə, dövlətçiliyinə qəsd etmək cəhdləri hələ tükənməyibdir. Bunların da qarşısı alınmalıdır.

Son illərin təcrübəsi onu göstərdi ki, Azərbaycan dövlətçiliyinə qarşı terror, təxribat və başqa düşmənçilik aksiyaları davam edir. Bunların qarşısının alınması üçün lazımi tədbirlər görülməlidir.

Beləliklə, Milli Təhlükəsizlik Nazirliyinin qarşısında çox böyük vəzifələr durur. Bu vəzifələr, birinci növbədə, Azərbaycanın dövlət müstəqilliyini qorumaq, mühafizə etməkdən ibarətdir. Azərbaycanın dövlət müstəqilliyinə təcavüz halları davam edir və dövlətimizin müstəqil siyasəti bəzi dairələri narahat edir. Bu müstəqil siyasətin sarsıdılması üçün həmin siya[359-360]sətə zidd hərəkətlər həyata keçirilir və Azərbaycanı bu müstəqillik yolundan müxtəlif təzyiq vasitələri ilə çəkindirməyə çalışırlar. Ona görə də Azərbaycanın müstəqil siyasətinə xidmət etmək, dövlət müstəqilliyimizi qorumaq, mühafizə etmək Milli Təhlükəsizlik Nazirliyinin əsas vəzifəsidir.

Bizim qarşımızda duran vəzifə Azərbaycanın ərazi bütövlüyünü bərpa etməkdir. Qeyd etdim ki, biz Ermənistan – Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunmasına çalışırıq. Burada Milli Təhlükəsizlik Nazirliyinin də vəzifələri var. Bu vəzifələri layiqincə yerinə yetirmək lazımdır.

Terrorizm indi dünyada geniş yayılıbdır. Burada gətirilən faktlar əyani sübut edir ki, Azərbaycanda terror aksiyaları keçirmək cəhdləri, dövlətçiliyimizi sarsıtmaq məqsədi daşıyan cəhdlər son illər olmuşdur. Ancaq bu gün də bunların mümkünlüyü var. Ona görə də Milli Təhlükəsizlik Nazirliyi terror aksiyalarına qarşı xüsusi tədbirlər hazırlayıb həyata keçirməlidir.

Azərbaycan öz iqtisadi imkanlarını genişləndirir. Ölkəmizə xarici investisiyalar gəlir. Azərbaycan neft sənayesinin inkişaf etdirilməsi üçün müqavilələr imzalayıb və onları həyata keçirir. Neft kəmərləri tikilir. Azərbaycan neftinin dünya bazarlarına çıxarılması üçün tədbirlər həyata keçirilir. Ancaq bunlar Azərbaycanın düşmənlərini çox narahat edir və bizim bu işlərimizi pozmaq üçün müxtəlif təxribat aksiyalarının keçirilməsi də mümkündür. Ona görə bizim iqtisadiyyat sahəsində apardığımız işlərin də mühafizə olunması Milli Təhlükəsizlik Nazirliyinin əsas vəzifələrindən biridir.

Azərbaycanın sərhədləri daha da etibarlı qorunmalıdır. Sərhəd qoşunlarının fəaliyyəti daha da gücləndirilməlidir. Azərbaycan Milli Təhlükəsizlik Nazirliyinin kəşfiyyat idarəsi də öz işini gücləndirməlidir. Biz hələ kəşfiyyat idarəsinin fəaliyyətindən lazımi məlumatlar, lazımi materiallar ala bilmirik. [360-361] Bir sözlə, kəşfiyyat idarəsinin fəaliyyəti zəifdir, burada ciddi tədbirlər görülməlidir.

Milli Təhlükəsizlik Nazirliyi və onun əməkdaşları bilməlidirlər ki, Azərbaycan dövləti nazirliyə və nazirliyin əməkdaşlarına böyük etimad göstərir. Azərbaycanda Milli Təhlükəsizlik Nazirliyi böyük sahəni əhatə edir. Bir çox başqa ölkələrdə təhlükəsizlik sistemində kəşfiyyat ayrıdır, sərhəd qoşunları müstəqildir. Ancaq biz Azərbaycanda bu sahələrin hamısını Milli Təhlükəsizlik Nazirliyinin tərkibində saxlamışıq və hesab edirəm ki, düz etmişik. Bu, Milli Təhlükəsizlik Nazirliyinin üzərinə daha da çox məsuliyyət qoyur, daha da çox vəzifələr qoyur. Bu, eyni zamanda, Milli Təhlükəsizlik Nazirliyinə Azərbaycan dövləti tərəfindən göstərilən böyük etimadı nümayiş etdirir. Mən bu gün bir daha bəyan edirəm ki, Milli Təhlükəsizlik Nazirliyinə tam etibar edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, nazirlik, onun bütün əməkdaşları bu etimadı daim doğruldacaqlar.

Milli Təhlükəsizlik Nazirliyi üzərinə düşən vəzifələri yerinə yetirmək üçün öz peşəkarlıq fəaliyyətini, təcrübəsini daha da artırmalıdır. Bilikli gənc kadrlar hazırlanmalıdır, müasir tələblərə cavab verən kadrlar hazırlanmalıdır.

Məlumdur ki, bu keçid dövründə Təhlükəsizlik Nazirliyini təmizləmək lazım idi. Bu günün tələblərinə cavab verməyən, yaxud da ki, işə sədaqətli olmayan şəxslərdən azad olmaq lazım idi. Bunu bilin, bəlkə buna hələ bu gün də müəyyən qədər ehtiyac vardır. Ancaq eyni zamanda vaxtı itirmədən, müasir tələblərə cavab verən, yüksək professional səviyyədə olan kadr korpusu hazırlanmalıdır. Güman edirəm ki, Milli Təhlükəsizlik Nazirliyinin Akademiyası tezliklə fəaliyyətə başlayacaqdır və bu vəzifənin yerinə yetirilməsi

üçün öz xidmətlərini göstərəcəkdir. Hər halda, biz bu sahədə Milli Təhlükəsizlik Nazirliyinə bütün yardımları etməyə hazırıq. Ancaq sədaqətli, bilikli, peşəkar kadrlar hazırlanmalıdır. Əgər bu gün [361-362] Milli Təhlükəsizlik Nazirliyi Azərbaycana qarşı yönəldilmiş bu casusluq, təxribatçılıq, terrorçuluq faktları ilə bu qədər rastlaşırsa, təsəvvür edin, qarşıdakı dövrdə bu, nə qədər olacaqdır. Azalmayacaqdır, - mən bunu deyə bilərəm, - artacaqdır. Bir daha qeyd edirəm, Azərbaycanın müstəqil siyasəti çoxlarını narahat edir və müxtəlif istiqamətlərdən Azərbaycana təsir göstərmək, bunun üçün casuslardan istifadə etmək, terror aksiyaları keçirmək, təxribatlar həyata keçirmək cəhdləri azalmayacaqdır. Bunların qarşısının alınması üçün Milli Təhlükəsizlik Nazirliyi gərək həm sayca, həm də keyfiyyətcə öz gücünü artırsın.

Milli Təhlükəsizlik Nazirliyində işləmək, dövlətimizin, xalqımızın təhlükəsizliyini təmin etmək peşəsinə sahib olmaq hər bir vətəndaş üçün şərəfli vəzifədir. Çünki təhlükəsizlik təşkilatının əməkdaşları cəmiyyətdə yüksək etimada, eyni zamanda yüksək səlahiyyətə malikdirlər. Gərək hər bir əməkdaş bunların müqabilində öz məsuliyyətini dərk edə bilsin və uzərinə düşən vəzifəni yerinə yetirə bilsin.

Nazirliyin əməkdaşları yüksək biliyə malik olmalıdırlar, Azərbaycanın daxili və xarici siyasətini yaxşı bilməlidirlər, Azərbaycanın Konstitusiyasını, qanunlarını yaxşı bilməlidirlər. Konstitusiyanın və qanunların həyata keçirilməsi Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşlarının əsas vəzifələridir. Siz beynəlxalq vəziyyəti yaxşı bilməlisiniz, beynəlxalq aləmdə gedən prosesləri izləməlisiniz. Bunlar sizin işlərinizin təşkil olunması üçün əsas şərtlərdən biridir. Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları xalqımıza, Azərbaycan dövlətinə, ölkəmizə hədsiz sədaqətli olmalıdırlar. Saf mənəviyyata, əxlaqa malik olmalıdırlar. Yüksək mənəviyyat sizin fəaliyyətinizin əsas şərtidir. Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları heç vaxt öz xalqına, dövlətinə xəyanət yoluna duşməməlidirlər. Sədaqət, vətənpərvərlik əsas keyfiyyətlərdir və siz özünüzdə bu keyfiyyətləri daim yaratmalısınız, inkişaf etdirməlisiniz. [362-363]

Eyni zamanda sizin peşəniz çətin peşədir, böyük qəhrəmanlıq tələb edir, böyük şəxsi cəsarət, iradə, dönməzlik tələb edir. Güman edirəm ki, Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyinin əməkdaşları bu keyfiyyətlərə daim malik olacaqlar.

Bir sözlə, Milli Təhlükəsizlik Nazirliyi Azərbaycanın dövlət orqanları arasında xüsusi yer tutur və arzu edirəm ki, öz əməli işinizlə, fəaliyyətinizlə belə yüksək yer tutmağa həmişə nail ola biləsiniz. Mən Milli Təhlükəsizlik Nazirliyinin son illərdə əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirdiyimizi bir daha bildirirəm və bu nailiyyətlərə görə Milli Təhlükəsizlik Nazirliyinin rəhbərliyinə və əməkdaşlarına təşəkkür edirəm.

80 illik yubiley mərasimləri Azərbaycanın Milli Təhlükəsizlik Nazirliyinin həyatında yeni bir mərhələ açır. Müstəqillik illərinin arxada qalan dövründə görülən işlərə yekun vurulur və gələcək illərdə qarşıda duran vəzifələrin həyata keçirilməsi üçün daha da əlverişli şərait yaradılır. Əmin olduğumu bildirmək istəyirəm ki, Milli Təhlükəsizlik Nazirliyi, onun bütün əməkdaşları son illər əldə etdikləri təcrübədən bundan sonra daha da səmərəli istifadə edəcəklər, öz vəzifələrini şərəflə yerinə yetirəcəklər.

Mən bu gün, bu bayram günü sizi təbrik edirəm. Bildirirəm ki, biz sizə inanırıq və sizdən Azərbaycanın dövlətçiliyinin qorunması sahəsində daha da çox işlər gözləyirik. Sizi bu bayram münasibətilə bir daha təbrik edirəm. Hər birinizə cansağlığı, səadət arzu edirəm. Gələcək işlərinizdə yeni-yeni uğurlar arzulayıram. [363]

## BAKININ BİBİHEYBƏT ZİYARƏTGAHINDA QURBAN BAYRAMI MƏRASİMİNDƏ ÇIXIŞ

*28 mart 1999-cu il*

**H a c ı  H i k m ə t  Ə l i z a d ə** *(Bibiheybət məscidinin axundu)*: Cənab prezident, 1994-cü il mayın 21-də, peyğəmbər əleyhissəlam həzrəti Məhəmmədin mövlud günü Siz ilk dəfə buraya gələndə indi gördüyünüz ikinci minarənin ucaldığı yerdə çıxış edib bizə söz verdiniz ki, inşallah, Bibiheydət məscidi tikiləcəkdir. Bu xeyirxah əməlinizə görə Sizə cansağlığı diləyirik. Allah Sizi bizə, xalqımıza çox görməsin. Sizin sözünüz də, əməliniz də bütövdür və hər işi başa çatdırırsınız. Bayramınız mübarək olsun!

**H e y d ə r  Ə l i y e v**: İş onda deyil ki, mən söz vermişəm və sözümü yerinə yetirmişəm. Təbiidir ki, mən söz verəndə həmişə onu yerinə yetirməyə çalışıram və çox vaxt da nail oluram. Amma bu, təkcə sizin arzunuz, istəyiniz olmamışdı. Bu, mənim qəlbimdən gələn bir hiss idi. Keçmişdə biz Azərbaycanda saraylar, böyük-böyük binalar yaratmışıq. Amma bu müqəddəs yerdə məscidin yaranması sizin də, bizim də – bütün müsəlmanların arzusu olubdur. Mən xoşbəxtəm ki, biz belə bir gözəl məscid yaratdıq. Gözəl də minarələri var, çox gözəldir. Özü də ancaq Azərbaycan memarlığı üslubunda tikilibdir, başqa cür ola bilməz. Çox gözəl məsciddir və o, burada olmalı idi. Bura müqəddəs yer, pirdir. İnsanlar buna inanır, buraya böyük ümidlərlə gəlirlər. Ona görə də burada belə bir məscid binası olmalı idi ki, insanlar gəlib həm öz arzu-istəklərini bildirsinlər, eyni zamanda ibadət eləyə bilsinlər. Mən çox xoşbəxtəm, çox gözəldir. [364-365]

**H a c ı  A l l a h ş ü k ü r  P a ş a z a d ə**: Bismillahir-rəhmanir-rəhim.

Həmd və səna olsun Allaha ki, bizi yaradıb və içərimizdən bizə elə şəxslər göndərib ki, onlar dünyaya gələndən sonra saleh işlər görürlər, insanlara yaxşı yollar göstərir, yaxşı əməllər sahibi olurlar.

Sovet rejimi, ateizm rejimi zamanı Bibiheybət məscidi, müqəddəs yerimiz – imam Rza əleyhissəlamın bacısı Hökumə xanımın dəfn olunduğu məscid yerlə yeksan edildi, şəhidliyə məruz qaldı. Hətta üstündən yol çəkildi ki, bir daha tikilməsin. Bəli, onu sökənlər, dağıdanlar, üstündən yol çəkənlər də təəssüf ki, xalqımızın nümayəndələri, azərbaycanlılar idi.

Amma bu gün biz Heydər minarəsindən birinci dəfə olaraq, hörmətli prezidentimizin iştirakı ilə, onunla bərabər gəlmiş qonaqların iştirakı ilə «Allahu-əkbər» səsini eşidirik, yəni dirilik səsini eşidirik. Allah-təala bir tərəfdən bizi ümidsiz eləyirdisə, bu gün bizə ümid, gələcəyə inam bəxş eləyibdir. Allah-təala Azərbaycan torpağına xalqımızı birlikdə görmək əzmində olan bir rəhbər göndərdi və biz bugünkü gündə onun nemətini görürük.

Biz bu məscidə cansız daş kimi baxmamalıyıq. Yox, bu məscid diridir, şahiddir, xalqımızın tarixidir. Xalqımızı əyə bilərlər, torpaqlarını əlindən müvəqqəti ala bilərlər. Amma heç vaxt imanımızı, inamımızı əlimizdən ala bilməzlər. Çünki bu xalqın belə oğulları varsa, inşallah, o xalq həmişə yaşayacaq və yaşamaqdadır.

Bu tikintidə zəhmət çəkənlər çoxdur. Bibiheybət məscidinin tikilməsində onun ətrafında yaşayan adi camaat, xalq kömək göstərib, işçilər də yaxşı çalışıblar. Elə adamlar var ki, daxilən, Allaha məhəbbət üçün, xalqına və rəhbərə məhəbbət üçün iş görürlər. Mən istərdim ki, şeyxülislam kimi, bu bayram günündə şəhərimizin meri Rəfael Allahverdiyevə bütün [365-366] müsəlmanlarımız adından təşəkkürümü bildirim. Onun gördüyü işlər, köməyi sayəsində tikinti bu ərsəyə çatmışdır.

Bəziləri deyirlər ki, indi məscid tikmək vaxtıdırmı, başqa şeylər də tikmək olar. Bəli, zavod tikməklə bərabər, gərək bizim mənəviyyatımızın da qülləsi ucaldılsın. Xüsusən, Bibiheybət məscidinin ikinci dəfə həyat qazanmasına, bu məbədin, belə müqəddəs yerin olmasına böyük ehtiyacımız var.

Ürəyimdə çox söz var. Elə bilirəm ki, bu arzular təkcə mənim deyil, bütün xalqımızın arzularıdır. Mən bayaq dedim ki, bu məscidi yıxanlar, dağıdanlar da bizim xalqımızın nümayəndələri olub, qıraqdan gəlib külüng vuranlar olmayıbdır. Amma indi tikənlər prezident həzrətlərinin rəhbərliyi ilə onu ucaldıblar.

Bu gün Heydər minarəsindən birinci dəfə olaraq Allahu-əkbər azanı deyildi. Allahu-əkbər azanının mənası çox böyükdür. Yəni bu gün biz bu azanla birlik yaradırıq. «Allahu-əkbər» deməklə bildiririk ki, biz bir xalq, Azərbaycan xalqıyıq, bizi ayrı-ayrı millətlərə, məzhəblərə ayırmaq olmaz. Bu addımı atan, buna rəhbərlik edən, öz vəsaiti ilə bu minarəni tikdirən prezidentimizə dua edirik. Bütün xalqımızın adından, dili və dinindən asılı olmayaraq hamımızın adından ona, ailəsinə, apardığı işlərinə müvəffəqiyyətlər arzu edirik.

Dünən mən Məkkə ziyarətində olan bizim hacılarla danışdım. Bu gün onların hamısı Ərəfatda əllərini göyə qaldırıb dua edirlər, qurban kəsirlər. Prezident həzrətləri, mən istərdim onların da salam-dualarını Sizə, işçilərinizin hamısına çatdırım.

Mən bir daha minnətdarlığımı bildirirəm. Əlbəttə, Sizin gördüyünüz bu işlərə qiymət vermək mənim üçün çətindir. Mən dua edirdim ki, Allah-təala özü əcrini versin. Bilirik ki, Allah-təala bir şeyin əcrini verərsə, inşallah, o daimidir, heç vaxt yıxılmayacaq, büdrəməyəcəkdir. Kim də istəsə ki, ona qarşı getsin, özü

həmişə məhv olacaqdır. Allah-təala prezi[366-367]dentimizə cansağlığı versin! Biz onun bugünkü gününə mübarək deyir, bayramını təbrik edirik.

Bütün Azərbaycan xalqını həmişə bayramlarda, toylarda, şənliklərdə görmək istərdik. Prezidentimizin siyasəti sayəsində torpaqlarımızın azad olunmasını istərdik. Mən bunu neçə dəfə demişəm və bir daha təkrar edirəm ki, biz ruhanilər, din xadimləri Sizin ruhani əsgərinizik. Biz həmişə Sizinləyik. Çünki Siz haqqın tərəfdarısınız, biz də həmişə haqla bərabərik və Sizinləyik. Allah Sizə cansağlığı versin!

**H e y d ə r  Ə l i y e v**: Əziz həmvətənlər!

Sizi, bütün Azərbaycan xalqını, bütün müsəlmanları müqəddəs bayramımız – Qurban bayramı münasibətilə təbrik edir, hamınıza cansağlığı, ölkəmizə sülh, əmin-amanlıq, rifah arzulayıram.

Qurban bayramı dostluq bayramı, məhəbbət, birlik, mehribanlıq bayramıdır. Bu gün kəsilən qurbanlarla hər bir şəxs, hər bir xalq, millət arzularının, niyyətlərinin yerinə yetməsi üçün Allahdan rəhm, kömək istəyirlər. Arzu edirəm ki, Azərbaycan torpağında müsəlmanların bu gün bayram münasibətilə kəsdikləri qurbanlar hamısı qəbul olunsun. Hər kəsin qəlbində olan arzular, niyyətlər yerinə yetsin. Hər kəs xoşbəxt, sağlam olsun. Bütün ölkəmizə, xalqımıza səadət arzulayıram.

Bu gün xalqımız bəlkə də hər şeydən çox dostluq, mehribanlıq, birlik ehtiyacındadır. Son illər Azərbaycanda, cəmiyyətimizdə bu arzular günü-gündən möhkəmlənir. Xalqımızın, cəmiyyətimizin məhz birliyi, həmrəyliyi nəticəsində biz Azərbaycanda sülhə və əmin-amanlığa nail olmuşuq. Azərbaycan dövlətinin apardığı siyasət, həyata keçirdiyi tədbirlər xalqın əksəriyyəti tərəfindən minnətdarlıqla qəbul olunur. Xalqın, vətəndaşlarımızın hamısının səyləri nəticəsində biz ölkəmizdə sabitliyə nail olmuşuq, ictimai-siyasi sabitlik əldə etmişik. [367-368]

1994-cü ildə Ermənistan-Azərbaycan müharibəsində atəşi dayandırmışıq, atəşkəs rejimi əldə etmişik. İnsanlarımıza rahat, sülh şəraitində yaşamaq, yaratmaq, qurmaq imkanları təmin etmişik. Biz müharibədən tamamilə xilas olmaq istəyirik, işğal edilmiş torpaqlarımızın azad olunması, ölkəmizin ərazi bütövlüyünün bərpası üçün çalışırıq.

Ölkəmizin suverenliyi, müstəqilliyi, torpaqlarımızın müdafiəsi yolunda böyük qurbanlar vermişik. Qan tökülübdür, şəhidlər vermişik. Bu Qurban bayramı günündə bütün şəhidlərə Allahdan rəhmət diləyirəm, xalqımıza səbr diləyirəm. İnanıram ki, biz Azərbaycanın ərazi bütövlüyünü təmin edəcəyik, işğal olunmuş torpaqlar azad olunacaq, yerindən-yurdundan didərgin düşmüş soydaşlarımız öz elinə-obasına qayıdacaqlar. Bütün xalqımızın rahat, firavan həyat sürməsi üçün imkanlar yaradılacaqdır.

Son illərdə bütün sahələrdə əldə etdiyimiz nailiyyətlər xalqımızın, vətəndaşlarımızın Azərbaycan dövlətinə, iqtidarına göstərdiyi etimadın, dəstəyin nəticəsidir, cəmiyyətimizin əksəriyyətinin həmrəy olmasının, birliyə, mehribanlığa səylər göstərməsinin nəticəsidir. Bütün bunlara görə bu gün mən Azərbaycanın vətəndaşlarına, xalqımıza təşəkkür edirəm. Bayram günü sizi əmin edirəm ki, Azərbaycanın dövləti bundan sonra da ölkəmizin müstəqilliyinin möhkəmlənməsi uğrunda əzmlə çalışacaq, vətəndaşlarımızın rifah halının yaxşılaşması üçün ardıcıl tədbirlər həyata keçirəcək və respublikamızın inkişafını təmin edəcəkdir. Buna əmin ola bilərsiniz.

Amma bunlara nail olmaq üçün yenə də və yenə də ölkəmizə sülh, əmin-amanlıq, sabitlik lazımdır, qarşılıqlı anlaşma, həmrəylik, birlik lazımdır. Mən bu gün sizləri, Azərbaycanın bütün vətəndaşlarını bu yolda əməkdaşlığa dəvət edirəm. Əmin olduğumu bildirmək istəyirəm ki, biz istədiyimizə nail olacağıq. [368-369]

Bu gün biz Qurban bayramı münasibətilə islam aləminin müqəddəs yeri Bibiheybət pirinə, həzrəti Hökumənin qəbri olan yerə toplaşmışıq. Hamımızı sevindirən odur ki, keçmişdə, bir neçə il öncə burada olan xarabazarlıq ləğv edilibdir, 1933-cü ildə nadanlar tərəfindən dağıdılmış Bibiheybət məscidinin yerində yeni, ondan da gözəl, yaraşıqlı, əzəmətli məscid tikilib və bu gün biz bu məsciddəyik. Bu, bizim tariximizə, dinimizə, imanımıza, milli-mənəvi ənənələrimizə sədaqətin rəmzidir. Biz heç vaxt öz dinimizi, tariximizi, milli-mənəvi dəyərlərimizi unutmamalıyıq. Onları yaşatmaq, onlardan bəhrələnmək, ruhlanmaq həyatımızın əsas istiqaməti, gələcək işlərimizin zəmanətidir.

Mən məmnunam ki, qısa bir zamanda Bibiheybət məscidini yenidən yaratdıq. Xatirimdədir, 1994-cü ildə mən buraya gələrkən xırda bərpa işləri başlanmışdı. Hamımız birlikdə belə qərar qəbul etdik ki, həzrəti Hökumənin ruhuna, islam dinimizin ənənələrinə layiq, milli ənənələrimizə layiq məscid tikməliyik.

Xoşbəxtəm ki, buna nail olduq. Bu məscid bütün ziyarətə gələnlər üçün böyük bir töhfədir. Böyük xoşbəxtlikdir ki, biz bu töhfəni hər bir müsəlmana bəxş edə bilirik. Keçmiş illərdə biz Azərbaycanda çox zavodlar, fabriklər, saraylar, məktəblər, xəstəxanalar, elmi tədqiqat institutları, teatrlar, kinoteatrlar tikmiş, yaratmış, ölkəmizi inkişaf etdirmişik. Ancaq o illərdə bizim dinimiz qadağan edilmişdi, millətimizin, xalqımızın ən əziz dəyərlərinə itaət etməkdən məhrum olmuşdur, Azərbaycanda məscidlərin əksəriyyəti dağıdılmışdı.

Ona görə də indi bu boşluğu mütləq doldurmalıyıq və bunu da edirik. Azərbaycan vətəndaşları, insanlar öz imkanlarından istifadə edərək ölkəmizin hər yerində dini ocaqlar, məscidlər yaradırlar. Bu təqdirəlayiqdir. Bu sahədə bizim də işlərimiz göz qabağındadır. Gördüyümüz işlərin ən gözəl nümunəsi də bu gün toplaşdığımız Bibiheybət məscididir. Biz [369-370] bunu yaratmışıq ki, azərbaycanlılar, müsəlmanlar bun-

dan istifadə edib öz istəklərini, arzularını yerinə yetirsinlər. Biz bunu gələcək nəsillər üçün bir abidə kimi yaratmışıq. İnanıram ki, xalqımız bu müqəddəs yeri, Bibiheybət məscidini daim yaşadacaqdır.

İndi Azərbaycan müstəqil dövlətdir, öz taleyini özü həll edir. Bundan sonra biz heç vaxt imkan verməyəcəyik ki, yadellilər, dinimizə, imanımıza, mənəviyyatımıza zidd olan hansısa qüvvələr gəlib bizə hakim olsunlar və mənəvi dəyərlərimizə yenidən xəsarət gətirsinlər. Bundan sonra heç vaxt buna yol verilməyəcəkdir. İnanıram ki, Bibiheybət məscidi bu gündən sonra daha da zənginləşəcək və gələcək üçün yaşayacaq, gələcək nəsillərə bizdən töhfə olacaqdır.

Mən bu gün bütün Azərbaycan xalqına, müsəlmanlara ən xoş arzularımı bildirirəm. Əziz dostlar, bu gün bu müqəddəs məscidə toplaşdığınıza görə sizə təşəkkür edirəm. Hər birinizə cansağlığı və səadət arzulayıram. Bayramınız mübarək olsun! Sağ olun.

* * *

**Hacı Allahşükür Paşazadə**: Əziz prezidentimiz və Sizinlə gələn dövlət işçiləri! Bu, bizim üçün yeni addımdır. Bilirsiniz ki, vaxtilə nəinki Qurban bayramını qeyd etmək, hətta qurban kəsmək bizim üçün çox çətin idi. Bir vaxt vardı qurbanı gizli kəsirdik, qorxurduq. Amma indi müstəqil Azərbaycan dövlətinin rəhbəri kimi, Siz Qurban bayramı gününü elan etdiniz və o günü istirahət günü elədiniz. Bugünkü gündə də Qurban bayramını bizimlə bir yerdə keçirirsiniz. Allah-təala Sizi bəladan qoruyub saxlasın. Allah-təala Sizin rəhbərliyinizlə bütün Azərbaycanın, xalqımızın gələcəyini xoşbəxt eləsin. Bir arzum da var: Allah-təala xoş niyyətlərinizə çatmağınıza kömək eləsin və biz də həmişə Sizə duaçıyıq. [370-371]

Sizə bir daha minnətdarlığımı bildirirəm, çox sağ olun. Sizin gəlişiniz bizim üçün xeyirdir, xoşbəxtlikdir. Bütün müsəlmanlara, Azərbaycan müsəlmanlarına, mənəviyyatımıza verdiyiniz qiymətdir ki, bu qədər işiniz olduğu halda, gəlib bizimlə görüşürsünüz. Biz bunu çox qiymətləndirir və bir daha minnətdarıq. Çox sağ olun. [371]

## RUSİYA PAYTAXTI MOSKVA ŞƏHƏRİNİN MERİ YURİ LUJKOV BAŞDA OLMAQLA MOSKVA HÖKUMƏTİNİN NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ* SÖHBƏT

*Prezident sarayı*

*29 mart 1999-cu il*

**H e y d ə r Ə l i y e v**: Hörmətli cənab Yuri Mixayloviç Lujkov, Moskva Bələdiyyə İdarəsi nümayəndə heyətinin hörmətli üzvləri, dostlar!

Sizi Azərbaycanda salamlayıram və Moskva ilə Azərbaycan arasında əməkdaşlığın müvəffəqiyyətlə davam etməsi ilə əlaqədar çox məmnun olduğumu bildirirəm. Buna görə də bu gün mer, dostumuz Yuri Mixayloviç Lujkov başda olmaqla, Moskva hökumətinin mötəbər nümayəndə heyətini qəbul etməyimizə şadıq. Azərbaycana xoş gəlibsiniz!

Səfərinizin proqramında Bakıda, Azərbaycanda çox qısa müddətdə olmaq nəzərdə tutulur. Buna baxmayaraq, bu, əməkdaşlığımızın gedişi barədə, mövcud problemlər barədə bir daha fikir mübadiləsi etmək və əməkdaşlığın inkişafına işlərin hər iki tərəfdən gücləndirilməsindən ötrü tədbirlər görmək üçün gözəl imkandır. [372-373]

Biz bilirik ki, Moskva Rusiya Federasiyasının paytaxtı olmaqla yanaşı, öz uğurlarına görə, iqtisadi islahatların həyata keçirilməsinə görə, iqtisadiyyatın inkişafına görə Rusiyada xüsusi yer tutur. Moskvada bazar iqtisadiyyatının formalaşması, iqtisadi və sosial sahələrdə islahatların genişlənməsi və dərinləşməsi üçün çox işlər görülür. Odur ki, Moskva ilə əməkdaşlıq, bir tərəfdən, münasibətlərimizin inkişafı üçün, iqtisadiyyatda, elmdə, mədəniyyət və təhsildə qarşılıqlı fayda baxımından, digər tərəfdən, təcrübə mübadiləsi üçün Azərbaycandan ötrü böyük əhəmiyyətə malikdir. Məsələn, Moskvanın təcrübəsi bizim üçün böyük maraq doğurur və biz Moskvada islahatların aparılması sahəsində görülən bütün işləri diqqətlə izləyirik. Elə bugünkü görüş də ondan ötrüdür ki, bu barədə daha çox məlumat əldə edək. Zənnimcə, siz də Azərbaycanda müəyyən şeylər öyrənə bilərsiniz, çünki sizin gördüyünüz işlərlə, təbii ki, respublikamızın şəraitini nəzərə alaraq biz də məşğuluq.

Bizim üçün, Azərbaycan üçün, azərbaycanlılar üçün Moskva həmişə elm, mədəniyyət, təhsil, tərəqqi şəhəri olmuşdur. Azərbaycanın ən yaxşı adamlarının, ziyalılarının, iqtisadiyyatın müxtəlif sahələrində çalışan mütəxəssislərin bir çox nəsilləri Moskvada təhsil almış, orada böyük hazırlıq keçmiş, işləmişlər və müstəqil Azərbaycanın inkişafı naminə ölkəmizdə öz fəaliyyətlərini bu gün müvəffəqiyyətlə davam etdirirlər.

Bir çox digər məsələlər də var ki, burada da əməkdaşlığımız çox səmərəli və faydalı ola bilər. Buna görə də sizin gəlişinizə şadam. Sizi salamlayıram və Yuri Mixayloviç, Sizə söz verirəm.

**Y u r i L u j k o v**: Heydər Əliyeviç, buraya gəlmək dəvətinə görə çox sağ olun. Nümayəndə heyətimizə Sizin diqqətinizi, bu görüşə ayırdığınız vaxtı çox yüksək qiymətləndiririk.

Biz buraya həqiqətən qısa müddətə gəlmişik. Lakin bəlkə də bu, sazişlərimizin necə yerinə yetirildiyinə yığcam qiymət [373-374] verildiyini vurğulamaq üçün nümayəndə heyətimizin işgüzar əhval-ruhiyyədə olduğunu təsdiq edir. Çünki bu sazişlər çox mühüm, konkretdir və həyatımızın, fəaliyyətin, biznesin, mədəniyyətin, təhsilin müxtəlif sahələrinə aiddir, öz məqsədləri baxımından xeyli dərəcədə xeyirxahdır. Ona görə ki, bu sazişlərdən hər birində, onların hər bölməsində xoş işgüzar təməllər və faydalı nəticələr əldə etmək arzusu var.

Sazişlərdə ticarətin həcmlərini artırmaq nəzərdə tutulur, lakin bu gün biz, təəssüf ki, problemlərdən danışmalıyıq. Əmtəə dövriyyəsini yüksək səviyyədə saxlamaq üçün ümumi istəyimiz və buna olan obyektiv tələbat səylərimizlə tam həcmdə təmin edilmir və indi əmtəə dövriyyəsinin həcmi artmır. Bu, bizi narahat edir.

Biz özümüzə deyə bilərik ki, hər halda yaşayırıq. Lakin əgər biz həyatımızı yaxşılaşdırmaq, iş yerlərinin sayını artırmaq, daha çox sabitliyi təmin etmək istədiyimizi deyiriksə, onda, əlbəttə, məqsədlərimiz bunlara imkan verən qərarlarla bağlı olmalıdır. Heydər Əliyeviç, mənə elə gəlir, mən əminəm ki, bu qərarlar obyektiv cəhətlərin özündə deyil, meydana çıxan problemlərin düyününü necə açmağımızdır.

Bu gün Baş nazir bizi qəbul etdi və bizə bu işdə, mən əminəm, müsbət nəticələnəcək bəzi məsələlərdən danışdı. Kiçik sahibkarlıq biznesinin inkişafı üçün bizdə yaxşı, dəyərli meyllər yaranmışdır və burada deyə bilərəm ki, görüşümüz bu inkişafa köməklə bağlı olmalıdır. Bəlkə də çox yüksək səviyyədə hər hansı qərar-

---

* Görüşdə Azərbaycanın Baş naziri Artur Rasizadə, Baş nazirin birinci müavini Abbas Abbasov, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Rəfael Allahverdiyev, mədəniyyət naziri Polad Bülbüloğlu, təhsil naziri Misir Mərdanov, ARDNŞ-in prezidenti Natiq Əliyev, Milli Məclisin deputatı, Azərbaycanın rus icmasının sədri Mixail Zabelin, respublikamızın Rusiyadakı səfiri Ramiz Rizayev, Rusiyanın Azərbaycandakı səfiri Aleksandr Bloxin iştirak edirdilər.

lar qəbul etmək tələb olunmur, amma sahələri, istiqamətləri bəyənmək, dəstəkləmək, təklif etmək faydalı məsələdir. Əlbəttə, bütün bunların necə təşəkkül tapdığına vaxtaşırı yekun vurmaq da lazımdır.

Mən buraya gələndə yolda zil avtomobilinin «Bıçok» adlanan yeni nümunəsini gördüm. O, orta təbəqə üçün, sahibkarlar üçün yaxşı avtomobildir və onu Bakının yollarında görmək mənə xoş idi. Mənə dedilər ki, onları yaxşı alırlar. [374-375] Deməli, biz yeni texnikaya dair, Moskvada istehsal olunan avtomobillərə dair öz təkliflərimizlə Azərbaycan bazarına daha tez-tez gəlmək barədə müraciət etməyi çox istərdik. Xüsusən də ona görə ki, bu maşınlar ucuzdur, onlara yaxşı bələddirlər. Dediyim kimi, onlara «Belarus» traktorunun mühərrikləri qoyulur, yəni onlar keçmiş Sovet İttifaqının istənilən ölkəsində çox yaxşı məlumdur və buna görə də həqiqətən maraq doğurur.

Əlbəttə, hesab edirəm ki, təhsillə bağlı sazişlər, məsələlər xüsusən son vaxtlar, Siz təqdir etdikdən sonra çox irəli getmişdir. Əvvəla, tələbələrin təhsili haqqında və kvotalar haqqında birgə qərarımız həyata keçirilir və azərbaycanlı gənclər Rusiyanın ali məktəblərində təhsil alırlar. Biz bunu həm faydalı, həm də mühüm bilirik. Moskvanın nüfuzlu ali məktəblərində təhsil alacaq gənclərin daha bir qrupu haqqında bu gün qərar qəbul olundu. Yaxşı işdir, onu biz Sizinlə birlikdə müəyyən etmişik, xeyir-dua vermişik. Bu iş irəliləyir.

Xalq təhsili sahəsində əlaqələrimiz barədə. Biz indi böyük bir təyyarə ilə gələrək, rusdilli məktəblər üçün, o cümlədən rus dili fakültətiv olaraq öyrədilən məktəblər üçün özümüzlə çox böyük miqdarda dərslik gətirmişik. Heydər Əliyeviç, rus dilində təhsil məsələlərində, təhsilin rus dilində olduğu məktəblərin say və potensialının azalmaması üçün Sizin tutduğunuz mövqeni biz yüksək qiymətləndiririk. Hesab edirəm ki, bu, çox ətraflı düşünülmüş, perspektivli və düzgün mövqedir. Biz bu mövqeyə müstəsna minnətdarlıqla yanaşırıq.

Cari il Puşkinin anadan olmasının 200 illiyi olduğuna görə, bu yubileyi iyunun 6-da qeyd edəcəyik, - biz buraya Puşkinin adı ilə bağlı kifayət qədər zəngin çeşiddə ədəbiyyat gətirmişik. Bütün bunlar çox yaxşıdır.

Heydər Əliyeviç, ildə məhdud miqdarda, 20 nəfər ağır xəstənin müalicəsinə kömək haqqında qərarlarımız radikal surətdə artıqlaması ilə yerinə yetirilmişdir və bu gün biz onların [375-376] sayını 480 nəfərə çatdırmaq istədiyimizi bildirdik. Yəni biz Azərbaycandan olan xəstələri qəbul edirik və burada heç bir məhdudiyyət və manеə yoxdur. Zənnimcə, bu, çox düzgün və faydalıdır. Ona görə çox düzgündür ki, səhiyyə sahəsində ən güclü qüvvələr, institutlar hələ ittifaq vaxtında Moskvada cəmləşdirilmişdir və Moskva MDB ölkələrinin vətəndaşlarına müalicə üçün imkan yaratmalıdır.

Nəhayət, mədəniyyət sahəsində yaxşı əlaqələrimiz var. Onlar çox intensiv olmasa da, hər halda, daimi və mehriban əlaqələrdir. İndiki halda Respublika Mədəniyyət Nazirliyinin və bizim Mədəniyyət Komitəsinin həyata keçirdikləri xətti qeyd etmək istərdim. İndi biz çox mühüm bir tədbirin – Moskvada Azərbaycan mədəniyyəti günlərinin keçirilməsinə hazırlaşırıq. Biz Moskva şəhərinin ən dəbdəbəli salonlarını apreldə qonaqlarımızın sərəncamına verməyə hazırıq. Bu bayramdır, elə bir əzəmətli bayram ki, heç də təkcə mədəniyyət xadimlərini deyil, başqalarını da həmişə çox sıx birləşdirir. Heydər Əliyeviç, tədbirlər, mədəniyyət günləri keçirilən salonlar adətən tamaşaçılarla dolu olur. Əgər Siz bizə qəti olaraq xeyir-dua verirsinizsə, onda aprelin üçüncü ongünlüyündə biz bu tədbiri keçirməyə hazırıq. Əlbəttə, bu tədbir dövlətlərarası xarakter daşıyacaqdır, belə ki, bu mədəniyyət günlərində biz müxtəlif tədbirlər həyata keçirəcəyik. Mədəniyyət günlərinin açılışından əvvəl dövlət xadimləri çıxış edib ümumi məqsədlərimiz, vəzifələrimiz və perspektivlər barədə mövqelərini bildirəcəklər.

İndi biz Bakıya Moskva hökumətinin böyük bir nümayəndə heyəti ilə gəlmişik. Tanınmış biznesmenlər gəliblər və bu gün onlardan hər birinin öz mövzusu, öz istiqaməti var və günün sonunda biz hökumət rəhbərliyi ilə birlikdə görülmüş işə yekun vuracaq, Bələdiyyə İdarəsi ilə işləyəcəyik. Ümumi və maraqlı cəhətlər çoxdur. Biz təcrübə mübadiləsi aparırıq. Məsələn, araq-şərab məhsulu üzərində dövlət inhisarının tətbiqi probleminin həlli üzrə öz təcrübəmizi öyrətmişik. Sovet [376-377] İttifaqında araq-şərab məhsulundan büdcəyə mədaxilin payı 43 faizə çatırdı. Sonra bu pay azaldı, təxminən dörd il əvvəl isə Moskvada bu göstərici 0,8 faizə çatdı. Halbuki əvvəllər nə qədər içirdilərsə, indi də bir o qədər içirlər. Deməli, 40 faiz ilə 0,8 və ya 1 faiz arasındakı bu fərq dövlətin cibindən çıxıb. Cinayətkarlar dünyasının cibinə, yaxud, necə deyərlər, qanunsuz istiqamətə gedirdi. Moskvada biz güclü bir qərar qəbul etdik və indi bu pay artıq 11 faizədək qalxmışdır. Bu gün öyrəndim ki, bu təcrübədən burada istifadə edilmişdir, normativ baza, mexanizm müəyyənləşdirilmişdir və xeyli gəlir götürülür. Bu isə büdcə, vəziyyətin özünün sağlamlaşması deməkdir. Cinayətkarlar dünyasına gedən çox güclü pul axını dayandırılır. Bunların hamısı çox yaxşıdır.

Çıxışımı qurtararaq ümumən deyə bilərəm ki, Azərbaycanla bizim, Moskva hökumətinin çox yaxşı, gözəl, səmimi münasibətlərimiz yaranmışdır. İşgüzar əlaqələr, şəxsi ünsiyyətlər çox səmimi və intensivdir. Başqa yerlərdə yalnız elan edilənlərin əksəriyyəti burada artıq həyata keçirilir. Biz bundan elə xüsusi heyranlıq duymuruq, lakin deyirik ki, bu işə başlamışıq, o, öz nəticələrini verir və biz onu genişləndirmək istəyirik.

Heydər Əliyeviç, nümayəndə heyətimizə göstərdiyiniz diqqətə görə, bizə şəxsi mehriban münasibətinizə görə bir daha çox sağ olun. Biz bunu hiss edirik və Sizə – millətin rəhbərinə, atasına, postsovet məkanında

ən yüksək nüfuza malik rəhbərə uğurlar, cansağlığı arzulamaq istəyirik. Çünki bütün bunlar Azərbaycanın xeyrinə, Rusiyanın xeyrinə və ümumi işimizin xeyrinə işləyir.

**H e y d ə r Ə l i y e v**: Sağ olun, Yuri Mixayloviç. Moskva ilə Azərbaycan arasında əməkdaşlığın nəticələri barədə məlumata görə, Moskva Azərbaycan gənclərinə özünün bütün bünyada məşhur olan və Azərbaycanda böyük nüfuza malik ali məktəblərində təhsil almaq imkanı verdiyinə görə sizə tə[377-378]şəkkür edirəm. Təşəkkür edirəm ki, Moskvanın tibb ocaqları müalicəyə kəskin ehtiyacı olan azərbaycanlıların müalicəsini təmin edir. Bizim tərəfimizdən meydana çıxan bütün məsələlərə Moskvanın həmişə xoş münasibət göstərməsinə görə də sizə təşəkkür edirəm.

Sizin kimi, mən də hesab edirəm ki, Moskva ilə Azərbaycan arasında əməkdaşlıq sazişləri imzalandıqdan sonra ötən vaxt ərzində az iş görülməmişdir. Bununla yanaşı, hələ çox iş görmək olar. Siz «Bıçok» avtomaşınlarından danışdınız. Mən heç bilmirdim ki, bizdə, Bakının küçələrində belə avtomaşın var. Görünür, buna cavabdeh olan Abbas Abbasov təqsirkardır, o, məlumat vermir. Bununla belə, bu, yaxşı haldır. Yəni vacib deyil ki, prezidentin bundan xəbəri olsun. Sərbəst ticarət, sərbəst sahibkarlıqdır. İş də burasındadır ki, keçmişdə – sizinlə eyni sistemdə yaşadığımız vaxtlarda biz hər şeyi bilməli idik, çünki bizsiz heç nə etmək olmazdı. İndi isə azadlıqdır. Adamlar ticarət edir, öz sərvətlərinin mübadiləsini həyata keçirirlər və sair. Bakıda, Azərbaycanda biz ticarət üçün tam sərbəst şərait yaratmışıq. Deyə bilmərəm ki, biz bu sahədə hər şey etmişik, amma hər halda, çox iş görmüşük. Əgər azərbaycanlılar «Bıçok» avtomobilini, - yeri gəlmişkən, onun haqqında siz ötən dəfə, ZİL-in yenidən qurulmasına və yeni minik avtomobilləri buraxılmasına dair öz planlarınızdan söhbət açarkən danışmışdınız və mən sizin planlarınızı xatırlayıram, - alırsa, onda məmnunluqla demək olar ki, planlarınız həyata keçirilmişdir və Azərbaycan Moskvada buraxılan ZİL avtomobillərinin satışında iştirak edir.

Bu, yaxşı nümunədir, lakin düşünürəm ki, yeganə deyildir. Azərbaycanda Rusiyadan, xüsusən Moskvadan gətirilən müxtəlif mallar, məhsullar olduqca çoxdur. Bununla belə, imkanlar daha genişdir, əgər indi siz bizim mağazalarla tanış olsanız, görərsiniz ki, Moskvanın mağazalarında olduğu kimi, burada da hər şey var. Onları dünyanın bütün ölkələrin[378-379]dən gətirirlər. Sahibkarlar – ticarətlə məşğul olan adamlar gətirirlər. İstərdik ki, Moskvadan daha çox gətirsinlər. Ancaq, şübhəsiz, istərdik ki, biz də Azərbaycandan Moskvaya öz məhsullarımızı aparıb, orada sata bilək. Bu sazişlərdə Moskvaya satışa kənd təsərrüfatı məhsulları – meyvə, tərəvəz və başqa məhsullar aparılması xüsusi nəzərdə tutulmuşdur. Yeri gəlmişkən, belə məhsullar Moskvaya və Azərbaycana dünyanın bir çox ölkələrindən, bəzən çox uzaq ölkələrdən gətirilir. Görünür, burada müəyyən tədbirlər görmək lazımdır ki, məsələn, Azərbaycanda yetişdirilən kənd təsərrüfatı məhsulları, xüsusən meyvə və tərəvəz Moskvaya satışa göndərilə bilsin. Bu, yəqin daha ucuz olar və zənnimcə, keyfiyyət də pis olmaz.

Belə faktlar çoxdur. Hesab edirəm ki, onların üzərində bizim də, sizin də nümayəndələr, şübhəsiz, işləyəcəklər. Dediyiniz kimi, günün sonuna yaxın Baş nazirin yanında yekun vurmaq və bundan sonra görüləcək işləri müəyyənləşdirmək olar.

Aydındır ki, sizinlə birlikdə bir müddət əvvəl başladığımız iş bizim istədiyimiz kimi dərhal həyata keçirilə bilməz. Lakin vacib olan budur ki, irəliləyiş, inkişaf var və bu cür görüşlər daha böyük nəticələrə nail olmaq üçün nə kimi işlər görülməsini nəzərdən keçirməyə imkan verir.

Biz Moskva ilə bütün sahələrdə fəal əməkdaşlıq mövqelərində möhkəm dururuq və onun uğurlu olması üçün öz tərəfimizdən hər şey edəcəyik.

Mədəniyyət günləri barədə. Buna konkret surətdə baxmaq lazımdır. Zənnimcə, indi bu məsələni də müzakirə etmək olar, biz mədəniyyət xadimlərini, Azərbaycan mədəniyyətini Moskvada təqdim etmək imkanlarına həmişə şadıq. Bir sözlə, əgər belə imkan olarsa, biz ondan yəqin ki, istifadə edəcəyik.

Yuri Mixayloviç, iqtisadi əməkdaşlıq, mədəniyyət, elm, təhsil sahəsində əməkdaşlıq bizim əlaqələrimizin əsas istiqa[379-380]mətləridir. Bizim bu əməkdaşlığa ehtiyacımız var və onu inkişaf etdirəcəyik.

Bununla bərabər, bu görüşdən istifadə edərək və Yuri Mixayloviç, Rusiya Federasiyasında Sizin görkəmli, fəal və nüfuzlu siyasi xadimlərdən biri olduğunuzu nəzərə alaraq, Rusiya ilə qarşılıqlı münasibətlərimizin problemləri barədə də bir neçə kəlmə demək istərdim.

Məlumdur ki, Moskva ilə əməkdaşlığın özü Rusiya Federasiyası ilə əməkdaşlığın inkişafı üçün böyük əhəmiyyətə malikdir. Çünki Moskva paytaxtdır, Rusiyada deyildiyi kimi, öz miqyaslarına görə də, əhəmiyyətinə görə də çox mühüm yer tutur. Əməkdaşlığımız müvəffəqiyyətlə inkişaf edir və biz Rusiya ilə Azərbaycan arasında əməkdaşlığın inkişaf etməsi, genişlənməsi və dərinləşməsi, Rusiya Federasiyası ilə Azərbaycan arasında, rus və Azərbaycan xalqları arasında dostluğun möhkəmlənməsi mövqelərində möhkəm dayanmışıq. Bu, bizim qəti, prinsipial, strateji mövqeyimizdir.

Bax, Siz qeyd etdiniz ki, Azərbaycanda rusdilli məktəblərin sayı azalmır, əvvəllər olduğu səviyyədə qalmaqdadır. Sağ olun ki, özünüzlə dərsliklər gətirmisiniz. Əlbəttə, bizim onlara ehtiyacımız var, çünki bizdə tədrisi rus dilində olan məktəblər çoxdur. Həm də orada təkcə rus millətindən olan uşaqlar deyil, rus dilində təhsil almaq istəyən azərbaycanlılar da oxuyurlar. Bu, Azərbaycanın köhnə ənənəsidir. Yeri gəlmişkən, bu ənənə indi də mövcuddur və biz bundan ötrü şərait yaradır, keçmiş Sovetlər İttifaqının bəzi respublikalarında olan hallara yol vermirik. Həmin respublikalarda rus dilində təhsil məhdudlaşdırılır, bu hallar bizdə – Cənubi Qafqazda, Zaqafqaziyada da, başqa ölkələrdə də var. Yəni bunun özü də müəyyən

dərəcədə göstəricidir ki, biz Rusiya ilə, rus xalqı ilə əməkdaşlığımızı, dostluğumuzu fəaliyyətimizin mühüm strateji istiqaməti kimi qiymətləndiririk. [380-381]

Bununla bərabər, təəssüf ki, əməkdaşlığa mane olan hallar da var. Rusiyanın Cənubi Qafqazda, Zaqafqaziyada heç də bərabər siyasət yeritməməsi ilə əlaqədar Rusiyaya bəzi etirazımızı, narazılığımızı bildirməyimiz artıq faktdır. Əlbəttə, biz çox narahatıq ki, Rusiya, - mən Rusiya Federasiyasının Müdafiə Nazirliyini, digər strukturlarını nəzərdə tuturam, - Ermənistanı böyük miqdarda silahla, hərbi texnika və döyüş sursatı ilə təchiz edir. Yuri Mixayloviç, sizə belə bir fakt məlumdur ki, 1997-ci ilin əvvəllərində Rusiyanın hökumət, dövlət orqanlarının özləri, Rusiya Prezidenti Aparatının özü ötən əvvəlki üç ildə Rusiya Müdafiə Nazirliyi tərəfindən Ermənistana qanunsuz olaraq, qeyri-leqal yolla bir milyard dollarlıq silah göndərilməsi faktının üstünü açdılar. Bu, məlum olduqda, məsələ Dövlət Dumasında müzakirə edildikdə biz, əlbəttə, çox narahat olduq və Rusiya rəhbərliyinə müraciət etdik. Şəxsən mən prezident Boris Nikolayeviç Yeltsinlə görüşdüm. Biz bu məsələni müzakirə etdik, o, söz verdi və həqiqətən bütün müvafiq orqanlara məsələni araşdırmağı, tədbirlər görməyi tapşırdı. Təbii ki, mən ona rəsmi müraciət göndərdim.

Bu, 1997-ci ilin əvvəllərində olmuşdu. Həmin ilin ortalarında mənim Rusiyaya rəsmi səfərim oldu, biz çox mühüm sənədlər imzaladıq. Artıq onda hiss etdik ki, vəziyyət bir qədər dəyişmişdir, Rusiya hökumətinin bəzi strukturları bu faktı, görünür, birtəhər ört-basdır etməyi qərara almışlar. Buna görə də danışıqlarımız zamanı ortaya belə bir məsələ çıxdı ki, guya Sovetlər İttifaqının parçalandığı vaxtlarda Ermənistana nisbətən Azərbaycanda daha çox silah qalmışdır. Elə bunu da üç ildə Rusiya tərəfindən Ermənistana bir milyard dollarlıq silah göndərilməsi ilə əlaqələndirməyə başladılar.

Əlbəttə, biz belə mövqe ilə razılaşmadıq. Çünki bunun digəri ilə heç bir əlaqəsi yoxdur. Bir də ona görə ki, Azərbaycanda daha çox silah qaldığı barədə məlumat həqiqətə uyğun deyildir. Buna baxmayaraq, məsələnin aydınlaşdırılması üçün [381-382] Rusiya tərəfinin təkidi ilə Rusiya–Azərbaycan–Ermənistan birgə komissiyası yaratmağı təklif etdilər. Yəni o vaxt biz belə bir qənaətə gəldik ki, əgər Rusiya bunda təkid edirsə, onda qoy bu komissiya aydınlaşdırsın görək nə üçün, hansı yolla son üç ildə Rusiya Ermənistana bir milyard dollarlıq silah göndərmişdir və Zaqafqaziyanın hər bir ölkəsinə 1992-ci ildən bəri, Sovetlər İttifaqından nə qədər silah qalmışdır.

Komissiyanı yaratdılar, biz öz nümayəndəmizi – Baş nazirin birinci müavini Abbas Abbasovun namizədliyini irəli sürdük. Rusiya tərəfi öz nümayəndəsini gec olsa da, hər halda müəyyənləşdirdi. Amma Ermənistan bunu etmədi. Beləliklə, komissiya heç bir iş görmədi, məsələ həll edilməmiş qaldı. Bu, bizi indiyədək həyəcanlandırır, narahat edir. Biz hesab edirik ki, Rusiya hökuməti bu məsələyə dəqiq cavab verməlidir.

İkinci məsələ də bu səpgidədir. Təəssüf ki, son illər Rusiya Federasiyası Ermənistan ərazisindəki hərbi bazalarında öz hərbi qüvvələrini artırmağa başlamışdır. Əvvəla, biz öz mövqeyimizi bildirərək demişdik ki, hesab edirik, Rusiya Federasiyasının Zaqafqaziyada, xüsusən Azərbaycanla hərbi münaqişədə olan Ermənistanda hərbi bazalar saxlamağa ehtiyacı yoxdur. Biz Rusiya tərəfindən Ermənistana silah göndərilməsinə nə üçün belə ağrılı münasibət göstəririk? Ona görə ki, Ermənistanla Azərbaycan hərbi münaqişə vəziyyətindədir. Bu münaqişə nəticəsində Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunmuş, bu torpaqlardan bir milyon azərbaycanlı qovulub didərgin salınmışdır və onlar çadırlarda yaşayırlar. Odur ki, bu münaqişənin həll edilmədiyi bir vaxtda, - 1994-cü ildə biz atəşi dayandırdıq, atəşkəs haqqında saziş imzaladıq, məsələnin dincliklə tənzimlənməsinə dair danışıqlar aparırıq. Minsk konfransının həmsədri kimi Rusiya bu məsələnin dincliklə tənzimlənməsində vasitəçi olduğu halda, nə Azərbaycana, nə də Ermənistana heç bir hərbi yardım göstərməməlidir. Yeri gəlmişkən, Rusiya [382-383] prezidenti Yeltsinin 1993-cü il tapixli fərmanı var və bu, Rusiya silahlarının hərbi münaqişə zonalarına göndərilməsini qadağan edir. Rusiya prezidentinin bu fərmanı da pozulur.

Bir halda ki, Ermənistanla Azərbaycan hərbi münaqişədə olduğuna görə hesab edirik ki, Ermənistanda xarici bazalar, o cümlədən Rusiya Federasiyasının bazaları olmamalıdır. Amma Rusiya bu rəylə hesablaşmır və bu barədə müvafiq normaları pozur. Son bir neçə ayda, bəlkə də yarım ildə Rusiya Ermənistan ərazisindəki hərbi qüvvələrini daha da artırmağa başlamışdır. Oraya S-300 raketləri, MİQ-29 təyyarələri göndərmişlər, həm də bu təyyarələrin iştirakı ilə hərbi manevrlər keçirmişlər. Biz narazılığımızı, etirazımızı bildirmişik. Ancaq buna heç kim məhəl qoymur.

Bilirsinizmi, mən bununla əlaqədar prezident Boris Nikolayeviç Yeltsinə məktub yazdım. Bu yaxınlarda o, mənə məktub göndərdi və məktubda göstərir ki, Rusiya tərəfi nə etmək barədə düşünür. Bununla bərabər, bu yaxınlarda mən Rusiya xarici işlər nazirinin müavini cənab Draçevskini qəbul etdim, onunla ətraflı söhbət oldu. Lakin Azərbaycanın müdafiə naziri bu günlərdə Moskvada oldu, MDB ölkələri müdafiə nazirlərinin görüşündə iştirak etdi. Rusiyanın müdafiə naziri Sergeyevlə görüşdü və bu barədə ona danışdı, xarici işlər naziri ilə görüşdə bəyanat verdi. Ancaq Rusiyanın Müdafiə Nazirliyi bütün bunlara məhəl qoymur. Cavabları da bizi təəccübləndirir – gəlin, sizə də S-300 raketləri, MİQ-29 təyyarələri göndərək. Bu, təəccüblü bəyanatdır. Məgər Rusiyanın o qədər raketləri, o qədər təyyarələri var ki, onları hər yerə göndərir? Bu, nəyə gərəkdir?

Silahlanmaq yox, əksinə, silahsızlaşmaq lazımdır. Xüsusən də Zaqafqaziyada. Zaqafqaziya onsuz da çox ağır vəziyyətdədir.

Yuri Mixayloviç, bütün bunları sizə ona görə deyirəm ki, Rusiyadakı siyasi nüfuzunuzu bilirəm. Təkrar edirəm, Rusiyanın çox görkəmli siyasi xadimi, bu baxımdan da çox fəal xa[383-384]dim kimi sizə böyük hörmətlə yanaşırıq. Mənə elə gəlir ki, bunları ilk mənbədən eşitmək, bu baxımdan narahatlığımızdan xəbər tutmaq və bu cür hərəkətlərin Qafqazda, xüsusən Zaqafqaziyada sülhün və sabitliyin möhkəmlənməsinə və təbii olaraq, Rusiya ilə Azərbaycan arasında dostluğun və əməkdaşlığın daha da möhkəmlənməsinə kömək etmədiyini bilmək sizin üçün maraqlı olacaqdır.

Bunun bəlkə də mövzuya dəxli yoxdur, ancaq bunu sizə demək istəyirəm. Əlbəttə, mən hər hansı bir cavaba ümid bəsləmirəm, sadəcə olaraq sizi məsələdən agah edirəm.

**Y u r i  L u j k o v**: Heydər Əliyeviç, mən Sizin narahatlığınızı, əlbəttə, başa düşürəm və bilmək istərdim ki, şəxsən mən, necə deyərlər, mövzunun içində deyiləm. Amma söz verirəm ki, bu narahatlığı şəxsən Rusiya prezidentinə çatdıracağam. Ötən həftə, cümə axşamı günü onunla uzun sürən görüşümüz oldu və biz bundan sonra tez-tez görüşmək barədə razılığa gəldik. Onunla sabah çətin ki, görüşüm, çünki sabah onun müraciəti oxunacaq və bütün günü prezident müraciətlə bağlı olacaqdır. Lakin prezidentdən məni qəbul etməsini xahiş edəcəyəm və Sizi narahat edən hər şeyi ona çatdıracağam və bunu, əlbəttə, müvafiq tövsiyələrlə edəcəyəm.

**H e y d ə r  Ə l i y e v**: Azərbaycana gəlməyinizlə əlaqədar bir daha təşəkkürümü bildirmək istəyirəm. Sizin bu gəlişiniz münasibətlərimizin daha da inkişaf etməsinə böyük imkan yaradır.

Bilirəm ki, proqramınız gərgindir, çünki Siz Azərbaycana, Bakıya çox az vaxt ayırmısınız. Buna baxmayaraq, biz sizinlə bu gün bir daha görüşəcəyik. [384]

## 31 MART – AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA MÜRACİƏT

Hörmətli həmvətənlər!

Bu gün Azərbaycan öz müstəqilliyinin səkkizinci ilini yaşayır. Müstəqillik dövründə qazandığımız mühüm nailiyyətlərdən biri tariximizin uzun illər gizli saxlanılan, saxtalaşdırılan və təhrif edilən dövr və hadisələrinin obyektiv mənzərəsini yaratmaq imkanı əldə etməyimizdir. Belə hadisələrdən biri də dövlətimiz tərəfindən artıq öz siyasi və hüquqi qiymətini almış və bu gün ildönümünü qeyd etdiyimiz azərbaycanlıların soyqırımı günüdür.

Hər il martın 31-ni azərbaycanlıların soyqırımı günü kimi qeyd etməklə biz bir daha tarixi keçmişə qayıdır, xalqımıza qarşı açıq şəkildə həyata keçirilən geniş miqyaslı qanlı aksiyaları ürək ağrısı ilə yad edirik.

XIX–XX əsrlərdə xalqımızın başına bir sıra ağır faciələr gətirilib. Böyük dövlətlərin yeritdikləri imperiya siyasətinin qəddar və məkrli icraçısı olan ermənilərin əli ilə dəfələrlə azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı törədilmiş, xalqımızı ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə düçar etmişlər. Yüz minlərlə dinc azərbaycanlı milli mənsubiyyətinə görə məhv edilmiş, öz ata-baba yurdundan didərgin salınmış, Azərbaycanın qədim yaşayış məskənləri xarabalığa çevrilmişdir.

Erməni millətçilərinin əsrin əvvəllərində çar Rusiyasının imperiya siyasətindən, 40–50-ci illərdə sovet rejimindən bəhrələnərək həyata keçirdikləri soyqırımı siyasəti 80-ci illərin ortalarından başlayaraq yenidənqurma pərdəsi altında daha [385-386] da güclənmiş və Azərbaycan xalqına yeni-yeni faciələr gətirmişdir. Təəssüflər olsun ki, bu qanlı aksiyalara nə beynəlxalq ictimaiyyət, nə də ki, Azərbaycan Respublikasının rəhbərliyi vaxtında prinsipial qiymət verməmiş və beləliklə də, millətçi-separatçı qüvvələrin qol-qanad açmasına şərait yaratmışdır. Elə bunun nəticəsidir ki, 1988-ci ildən ortaya atılan qondarma Dağlıq Qarabağ münaqişəsinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlı milli mənsubiyyətinə görə məhv edilmiş və öz tarixi torpaqlarından qovulmuş, 1990-cı ilin yanvarında Bakıda və Azərbaycanın digər yerlərində bu haqsızlıqlara etiraz səsini ucaldan xalqa qarşı vəhşi cinayətlər törədilmiş, 1992-ci ildə qanlı Xocalı soyqırımı baş vermişdir.

Erməni təcavüzkarlarının və böyük Ermənistan ideoloqlarının etnik təmizləmə avantürist hərəkətinin nəticəsi olaraq bir milyondan artıq soydaşımız öz yurd-yuvasından didərgin salınaraq hər cür qeyri-insani məhrumiyyətlərə düçar edilmişdir. Təkcə XX əsrdə iki milyondan çox azərbaycanlı bu və ya digər şəkildə düşmənlərimizin yürütdükləri mənfur soyqırımı siyasətinin ağır təsirinə məruz qalmışdır. Lakin bu faciələrə, çətinliklərə, haqsızlıqlara baxmayaraq, xalqımız yaşamış, öz müstəqillik əzmini qorumuş və möhkəm iradə nümayiş etdirmişdir.

Bu gün biz tariximizə bir daha nəzər salırıq. Uğurlarımızla fəxr edir, itkilərimizə görə kədərlənirik. İndi Azərbaycanın müstəqil dövlət kimi yaşaması, öz haqq səsini bütün dünyaya yayması və keçmişdə baş vermiş ədalətsizliklərin aradan qaldırılmasına çalışması üçün bütün əsaslar yaranıbdır.

Qarşımızda duran əsas vəzifələrdən biri son əsrdə xalqımıza qarşı həyata keçirilən soyqırımı haqqında indiki və gələcək nəsillərdə möhkəm milli yaddaş formalaşdırmaq, bu faciələrə bütün dünyada siyasi və hüquqi qiymət verilməsinə nail olmaq, onun ağır nəticələrinin aradan qaldırılmasına və bir daha belə halların təkrar olunmamasına çalışmaqdır. Bunun [386-387] üçün isə yalnız möhkəm və yenilməz milli birlik nümayiş etdirməliyik. Xalqımıza qarşı törədilə biləcək hər cür xəyanətin və təcavüzün qarşısını hamımız üçün ali məqsəd olan müstəqil Azərbaycan dövləti uğrunda dönməz mübarizə əzmi və iradəsi ilə almaq olar.

Sizi birliyə, xalqımızın milli maraqlarının və hüquqlarının qorunması uğrunda yenilməz mübarizəyə səsləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *30 mart 1999-cu il*
[387]

## AZƏRBAYCAN BEYNƏLXALQ ƏMƏLİYYAT ŞİRKƏTİNİN SABİQ PREZİDENTİ TERRİ ADAMSA «ŞÖHRƏT» ORDENİNİN TƏQDİM EDİLMƏSİ MƏRASİMİNDƏ ÇIXIŞ

*Prezident iqamətgahı*

*31 mart 1999-cu il*

Hörmətli xanımlar və cənablar, dostlar!

Bu gün mənim üçün çox xoş olan bir tədbiri həyata keçirmək istəyirəm. Bizim dostumuz cənab Terri Adamsa Azərbaycanın dövlət mükafatı – «Şöhrət» ordenini təqdim etmək mərasiminə gəlmişəm.

Cənab Terri Adams Azərbaycanın yüksək dövlət mükafatı – «Şöhrət» ordeni ilə Azərbaycan qarşısındakı xidmətlərinə görə və respublikamızın xarici ölkələrin neft şirkətləri ilə əməkdaşlığında həyata keçirdiyi səylərə görə təltif olunubdur. Mən bu hadisəni, yəni cənab Terri Adamsın Azərbaycanın dövlət mükafatı ilə təltif olunmasını və bugünkü mərasimi bir xarici ölkənin vətəndaşına Azərbaycanın mükafatının verilməsi kimi yox, böyük əhəmiyyət kəsb edən bir hadisə kimi qiymətləndirirəm. Bu, bizim Azərbaycanın və bir neçə ölkənin Dövlət Neft Şirkətlərinin 1994-cü ildə başladığı böyük işin nümunəsidir.

1994-cü ilin sentyabr ayında Azərbaycanda tarixi bir hadisə baş verdi, böyük neft müqaviləsi imzalandı və bu müqaviləni dünya ictimaiyyəti «Əsrin müqaviləsi» adlandırdı. Bu, Azərbaycanın tarixində, respublikamızın neft sənayesinin tarixində ilk hadisə idi, Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının xarici ölkələrin neft şirkətləri ilə müş[388-389]tərək işlənilməsi üçün yaradılmış konsorsium ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında müqavilənin imzalanması idi.

Bu hadisə Azərbaycanda və müqaviləni imzalayan şirkətlərin mənsub olduqları ölkələrdə böyük ümidlər yaratdı, eyni zamanda dünyada geniş əks-səda verdi. Müqavilənin imzalanması Xəzər dənizinin zəngin enerji ehtiyatlarının – neft və qaz yataqlarının işlənilməsi və hasil ediləcək neftin, qazın dünya bazarlarına çıxarılması üçün ilk böyük bir addım idi. Biz bu müqavilə ilə dünyaya Xəzər dənizini təqdim etdik, onun zəngin enerji ehtiyatlarını bəyan etdik və dünyanın neft şirkətlərini Xəzər dənizində Azərbaycanla əməkdaşlığa dəvət etdik.

Eyni zamanda, bu müqavilənin həyata keçirilməsi və nəticələri haqqında dünyada müxtəlif fikirlər dolaşırdı. Bəziləri böyük ümidlər bəsləyirdi, amma bəziləri isə hesab edirdilər ki, bunu həyata keçirmək çətin olacaq, yaxud da mümkün olmayacaqdır.

Bu gün böyük məmnuniyyətlə qeyd etmək olar ki, konsorsium və Azərbaycan Dövlət Neft Şirkəti tərəfindən müqavilənin həyata keçirilməsi ilə əlaqədar proqram əvvəlcədən çox doğru-düzgün tərtib olunmuşdur və onun ardıcıl surətdə həyata keçirilməsi təmin edilmişdir. Məhz buna görə də «Çıraq» yatağından neftin hasil edilməsi və sahilə nəql olunması, sahildən isə Bakı – Novorossiysk kəməri ilə dünya bazarlarına ixrac edilməsi müqavilənin şərtlərində nəzərdə tutulan proqram, cədvəl əsasında qısa bir zamanda həyata keçirildi.

1997-ci il noyabrın 12-də biz «Çıraq» yatağından neftin alınmasını və boru kəməri ilə Qara dənizdəki Novorossiysk limanı vasitəsilə dünya bazarlarına nəql olunmasını bayram etdik. Biz bununla birlikdə, 1994-cü ilin sentyabr ayında başladığımız işin əməli nəticəsini əldə etdik. Sübut etdik ki, Xəzər dənizində, Xəzərin Azərbaycan sektorundakı yataqlarda nefti [389-390] həqiqətən müasir texnika, texnologiya ilə hasil etmək olar və onu dünya bazarlarına çıxarmaq mümkündür.

«Çıraq» yatağından müqavilədə nəzərdə tutulmuş miqdardan xeyli artıq neft hasil edilir və hasilat getgedə çoxalır. Müqavilənin proqramında nəzərdə tutulan digər işlər də ardıcıl surətdə həyata keçirilir. Qısa bir zamanda neftin Qərb marşrutu ilə Qara dənizə, oradan isə dünya bazarlarına ixrac edilməsi üçün Bakı–Supsa neft kəməri tikilib hazırlanıb və bu yaxınlarda onun istismara verilməsi də təmin olunacaqdır.

Konsorsium təşkil ediləndən onun başçısı bizim dostumuz Terri Adams olubdur. Onun çox məharətli rəhbərliyi nəticəsində, böyük təcrübəsinə, işgüzarlığına görə konsorsiumun işi yüksək səviyyədə aparılıbdır və ümumiyyətlə, Azərbaycanda, Xəzər dənizində yeni-yeni neft yataqlarında neft hasil etməkdən ötrü yaranan konsorsiumlar üçün də böyük təcrübə toplanıbdır.

Cənab Terri Adams bu yüksək vəzifədə işlədiyi dövrdə böyük işgüzarlıq göstəribdir. O, özünün böyük mühəndis, mütəxəssis olduğunu nümayiş etdiribdir və öz biliyi, təcrübəsi, əməli fəaliyyəti ilə konsorsiumun uğurla işləməsini təmin edibdir. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin yaranmasında, inkişaf etməsində, onun infrastrukturunun, kadr potensialının yaranmasında və başqa bütün işlərdə cənab Terri Adamsın xidmətləri böyükdür.

Məhz bunlara görə cənab Terri Adams Azərbaycan ictimaiyyətinin hörmət və ehtiramını qazanmışdır. Ona görə də o, Azərbaycanın yüksək dövlət mükafatına – «Şöhrət» ordeninə layiq görülmüşdür. Cənab Terri Adamsın rəhbərliyi ilə yaradılmış Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti öz üzərinə düşən vəzifə-

ni bu gün də müvəffəqiyyətlə həyata keçirir. Mən əmin olduğumu bildirmək istəyirəm ki, müqavilədə nəzərdə tutulmuş proqram bundan sonra da ardıcıl surətdə yerinə yetiriləcəkdir. [390-391]

1994-cü ilin sentyabr ayında imzalanmış müqavilə və onun əsasında yaradılmış Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti Xəzər dənizində neft hasil edilməsi sahəsində dünyanın neft şirkətlərinin birgə işləməsi üçün atılan ilk addım olmuşdur. O, Azərbaycanın Xəzər dənizində olan digər neft və qaz yataqlarının da dünyanın neft şirkətləri ilə müştərək işlənilməsi üçün yol açmışdır. Bu gün məmnuniyyətlə deyə bilərik ki, ondan sonra bir çox müqavilələr imzalanmış və həmin müqavilələr də indi əməli surətdə həyata keçirilir.

Biz bu işlərimizlə Xəzər dənizinin digər Xəzəryanı ölkələrə mənsub olan sektorlarında da neft və yataqlarının işlənilməsi üçün böyük imkanlar, şərait yaratmış olduq. İndi Xəzər dənizinin Türkmənistan, Qazaxıstan, İran, Rusiya sektorlarında da işlər aparılır. Beləliklə, biz ilk təşəbbüsümüzlə, addımımızla Xəzər dənizinin zəngin neft və qaz yataqlarının dünya iqtisadiyyatı üçün işlənib fayda gətirməsinin əsasını qoymuşuq. Bizim bu işlərimizin böyük gələcəyi vardır. Bu işlər XXI əsrdə dünyada neft hasilatının artmasını təmin edəcəkdir. Biz buna inanırıq və inanaraq da ardıcıl surətdə işləyirik.

Bizim bu nailiyyətlərimiz, Xəzər dənizində müştərək iş görən şirkətlər, ölkələr Azərbaycan üçün böyük faydalar gətirir və gətirəcəkdir. Şübhəsiz ki, bu nailiyyətlərimiz bizim hamımızı, dostlarımızı sevindirir. Amma eyni zamanda, bizim bu işlərimizə paxıllıq, qısqanclıq edənlər, hətta onu ləkələməyə çalışanlar da az deyildir.

Son vaxtlar ayrı-ayrı ölkələrin bəzi mətbuat orqanlarında, təəssüf ki, Azərbaycanda da əsası olmayan məqalələr dərc edilir, fikirlər yaradılır ki, guya Xəzər dənizində Azərbaycanın dünyaya bəyan etdiyi neft, qaz, enerji ehtiyatları yoxdur, yaxud da azdır. Bu məqalələri yazanlar və yaxud onları yazdıranlar, şübhəsiz ki, bunları arzu edirlər. Yəni onların istəyidir ki, bizim proqnozlarımız düzgün olmasın və nəzərdə tutulmuş böyük neft Azərbaycan üçün, - təkcə Azərbaycan üçün yox, [391-392] həm də bu neftdən istifadə etmək istəyən ölkələr üçün – hasil olmasın. Bunları edənlər Azərbaycana mənfi münasibət göstərən və yaxud da düşmənçilik edən dairələrdir. Amma təəssüflər olsun ki, belə qüvvələr Azərbaycanın içində də vardır.

Bizim apardığımız işlərə və əlimizdə olan nəticələrə əsaslanaraq mən bu gün bəyan edirəm ki, bu fikirlər tam uydurmadır. Onların heç bir əsası yoxdur. Onlar Azərbaycana qarşı sadəcə, təxribat məqsədi daşıyır. Belə dairələr, bu cür qüvvələr nahaq canfəşanlıq edirlər. Onlar yanılırlar. Qoy onlar sevinməsinlər. Ümumiyyətlə, Xəzər dənizində, o cümlədən Xəzərin Azərbaycan sektorunda nəzərdə tutulduğundan da artıq neft və qaz ehtiyatları vardır. Onlar bizim imzaladığımız müqavilələr əsasında ardıcıl surətdə işlənəcək və neft, qaz hasil ediləcəkdir. Bizim bütün proqramlarımız həyata keçəcəkdir.

Dünyanın böyük neft şirkətləri bu gün də bizə, Azərbaycana, respublikamızın Dövlət Neft Şirkətinə müraciət edərək Xəzər dənizinin Azərbaycan sektorunda olan neft və qaz yataqlarında iş almaq barədə xahiş edirlər, təkliflərini verirlər. Biz bu təkliflərə baxırıq. Bu yaxın zamanlarda yeni böyük müqavilələr imzalanacaqdır və bu işin hələ böyük gələcəyi vardır.

Cənab Terri Adams, sizinlə, həmkarlarınızla birlikdə 1994-cü ilin sentyabr ayında başladığımız iş günügündən öz bəhrələrini verir. Biz və gələcək nəsillər bu işin şahidi olacaqlar.

Cənab Terri Adams, mən sizi təbrik edirəm. Azərbaycanda gördüyünüz işlərə görə sizə bir daha təşəkkür edirəm. Böyük məmnuniyyətlə Azərbaycanın yüksək mükafatını – «Şöhrət» ordenini sizə təqdim edirəm. [392]

# MDB ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK ETMƏK ÜÇÜN MOSKVAYA YOLA DÜŞMƏZDƏN ƏVVƏL BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA CAVAB

*1 aprel 1999-cu il*

**S u a l**: **Cənab prezident, MDB ölkələri dövlət başçılarının Moskva zirvə görüşündə hansı məsələlər müzakirə olunacaqdır**?

**C a v a b**: Müzakirə ediləcək məsələlər çoxdur. Əsas məsələ MDB-nin işinin təkmilləşdirilməsi ilə əlaqədardır. Bilirsiniz ki, keçən ilin aprel ayında qəbul etdiyimiz qərardan sonra keçirilmiş forumda müəyyən təkliflər hazırlanıbdır. Biz həmin təkliflərə baxacağıq. Bu təkliflər MDB-nin strukturunun sadələşdirilməsi, ştatların ixtisara salınması və MDB-nin orqanlarının daha çevik işləməsi məqsədi daşıyır. Biz bu məsələləri müzakirə edəcəyik. Sonra bir neçə başqa məsələlər də var, biz onları da müzakirə edəcəyik.

**S u a l**: **Siz MDB-nin icraçı katibi vəzifəsinə təklif edilən yeni namizədə razı olacaqsınızmı**?

**C a v a b**: Yeni namizədin kim olduğunu bilmirəm. Görək hansı namizəd olacaq, baxarıq.

**S u a l**: **Siz MDB-nin təkmilləşdirilməsinin perspektivlərini necə görürsünüz**?

**C a v a b**: Bilirsiniz, biz MDB-ni daim təkmilləşdirməyə çalışırıq, ancaq istədiyimizə hələlik nail ola bilməmişik. Ancaq [393-394] yeni addım atılacaqdır. Baxarıq, bəlkə də bunun bir nəticəsi olacaqdır.

**S u a l**: **NATO-nun Kosovodakı tədbirlərini pisləyən hansısa birgə bəyanat olacaqmı**?

**C a v a b**: Orada nə olacaqsa, buna Azərbaycan Respublikasının prinsipial mövqeyi nəzərə alınmaqla münasibətimizi bildirəcəyik.

**S u a l**: **Azad iqtisadi zona məsələsinin müzakirəsi zamanı, Ermənistanın və Rusiyanın bizə olan münasibətini nəzərə alaraq Azərbaycan**…

**C a v a b**: Azad iqtisadi zona haqqında layihəyə bizim müvafiq qeydlərimiz var. Hesab edirəm, bunlar qəbul olunacaqdır.

**S u a l**: **Robert Koçaryanla Sizin görüşünüz gözlənilirmi**?

**C a v a b**: Ola bilsin, Robert Koçaryanla görüşəcəyəm. [394]

## GÜRCÜSTAN PREZİDENTİ EDUARD ŞEVARDNADZE İLƏ TƏKBƏTƏK GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Moskva, Vorobyovı Qorı,*
*Azərbaycan prezidentinin iqamətgahı*

*2 aprel 1999-cu il*

H e y d ə r Ə l i y e v: Əziz dostum Eduard Amvrosiyeviç! Sizi səmimi-qəlbdən salamlayır və yenidən görüşmək imkanından çox məmnun qaldığımı bildirirəm. Ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin daha da genişləndirilməsi və inkişaf etdirilməsi ilə bağlı məsələlərin müzakirəsi üçün belə görüşlərin çox əhəmiyyətli olduğunu vurğulamaq istəyirəm.

E d u a r d Ş e v a r d n a d z e: Mənim əziz dostum və qardaşım Heydər Əliyev! Sizinlə hər bir görüşüm məndə xoş duyğular oyadır. Bu mötəbər məclisdə Sizinlə yenidən görüşmək imkanı yaranmasından məmnun qaldığımı bildirirəm.

H e y d ə r Ə l i y e v: Azərbaycan ilə Gürcüstan, xalqlarımız arasında qarşılıqlı surətdə faydalı əlaqələrin hazırkı vəziyyətindən razı qaldığımı bildirir və bu əməkdaşlığın daha da möhkəmləndirilməsi və dərinləşdirilməsinin gündən-günə inkişaf etməsinə çalışmalıyıq.

E d u a r d Ş e v a r d n a d z e: Əziz dostum, Sizin fikirlərinizlə razı olduğumu vurğulayaraq bildirirəm ki, ölkələrimiz, xalqlarımız arasında dostluq münasibətlərinin, iqtisadi əlaqələrin daha da genişləndirilməsi, bütün bunlar bizi daha da yaxınlaşdırır. [395-396]

Biz Qafqazda sülhün və əmin-amanlığın bərqərar olunmasına, Ermənistan–Azərbaycan və gürcü-abxaz münaqişələrinin sülh yolu ilə aradan qaldırılmasına var gücümüzlə çalışmalıyıq.

Cənab prezident, Xəzərin Azərbaycan sektorundakı yataqlardan hasil edilən neftin dünya bazarına çıxarılması üçün Bakı–Supsa boru kəmərinin Gürcüstan ərazisindən keçməsində göstərdiyiniz qətiyyətə və köməyə görə Sizə bir daha minnətdarlığımı bildirirəm. Məlumat verim ki, Poti terminalının tikintisi hazırdır və Sizi bir daha həmin terminalın açılışı mərasiminə dəvət edirəm.

H e y d ə r Ə l i y e v: Dəvəti böyük məmnuniyyətlə qəbul edirəm. Bizim tarixi dostluq ənənələrinə malik olan xalqlarımız arasında münasibətlərin gündən-günə möhkəmlənməsində iqtisadi əlaqələrin son dərəcə böyük əhəmiyyət daşıdığını vurğulayıram. Bütün bunlar qonşu və dost müstəqil dövlətlərimizin bütün sahələrdə əməkdaşlığının daha da möhkəmləndirilməsi üçün mövcud imkanlardan bundan sonra da səmərəli istifadə edilməsi üçün yaxşı əsasdır.

* * *

*Görüşdən sonra Azərbaycan prezidenti Heydər Əliyevin və Gürcüstan prezidenti Eduard Şevardnadzenin jurnalistlərin suallarına cavabı*

S u a l: **Siz zirvə görüşü barədə nə deyə bilərsiniz?**

H e y d ə r Ə l i y e v: Nə demək olar? Yaxşı keçdi.

E d u a r d Ş e v a r d n a d z e: Hər halda düşünürəm ki, bu, faydalı görüş idi.

H e y d ə r Ə l i y e v: Şübhəsiz, faydalı görüş idi.

E d u a r d Ş e v a r d n a d z e: Qəbul edilmiş qərarların da, dövlətlərimizin müstəqilliyini nəzərə almaqla, prinsipial əhəmiyyəti, hətta deyərdim, daha müasir əhəmiyyəti var. [396-397]

H e y d ə r Ə l i y e v: Qəbul etdiyimiz bəyannamənin, eləcə də digər sənədlərin çox böyük əhəmiyyəti var.

S u a l: **Qısaca deyə bilərsinizmi, bu bəyannamənin konkret məzmunu nədən ibarətdir?**

H e y d ə r Ə l i y e v: Özünüz oxuyarsınız. Bəyannamə yəqin ki, dərc ediləcəkdir. Ondan qısaca danışmaq mümkün deyildir.

S u a l: **Cənab prezident, ikitərəfli danışıqlarınızın yekunları necədir?**

H e y d ə r Ə l i y e v: Bizim ikitərəfli danışıqlarımız həmişə uğurla keçir. Gürcüstanla Azərbaycan arasında dostluq, mehribanlıq, qardaşlıq münasibətləri var və biz hansısa məsələləri tənzimləmək üçün deyil, təcrübə, informasiya mübadiləsi aparmaq, habelə səylərimizi əlaqələndirmək üçün görüşürük ki, əməkdaşlığımız daha yaxşı olsun, Gürcüstana da yaxşı olsun, Azərbaycana da.

E d u a r d Ş e v a r d n a d z e: Görüşlərimiz daha tələbata çevrilir. Görüşümüz bir qədər gecikəndə…

H e y d ə r Ə l i y e v: Darıxırıq.

E d u a r d Ş e v a r d n a d z e: Bəli, darıxırıq.

S u a l : **Necə razılaşdınız, siz Gürcüstanda tezliklə görüşəcəksiniz?**

H e y d ə r Ə l i y e v : Bəli, tezliklə görüşəcəyik. Bakı-Supsa neft kəmərinin açılışı olacaqdır.

**S u a l**: **Heydər Əliyeviç, Sizin bəyanatınıza münasibət necədir**?
**H e y d ə r Ə l i y e v**: Sizin münasibətiniz necədir?
**M ü x b i r**: Bizim münasibətimiz yaxşıdır.
**H e y d ə r Ə l i y e v**: Lap yaxşı.
**S u a l**: **Yuqoslaviya məsələsinə dair birgə mövqe bildirildimi**?
**H e y d ə r Ə l i y e v**: Yox.
**S u a l**: **Heç nə qəbul etmədiniz**?
**H e y d ə r Ə l i y e v**: Qətiyyən. [397]

## RUSİYA FEDERASİYASININ BAŞ NAZİRİ YEVGENİ PRİMAKOVLA TƏKBƏTƏK GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Moskva,*
*Rusiya Federasiyasının hökumət evi*

*3 aprel 1999-cu il*

**Y e v g e n i  P r i m a k o v**: Xoş gəlmisiniz Heydər Əliyeviç. Sizinlə görüşmək mənə məmnunluq verir.

**H e y d ə r  Ə l i y e v**: Xoş gördük, Yevgeni Maksimoviç, Sizi görməyimə çox şadam.

**Y e v g e n i  P r i m a k o v**: Rusiya xalqı, Rusiya hökuməti müstəqil Azərbaycan Respublikası ilə bütün sahələrdə əlaqələrin inkişaf etdirilməsinə böyük əhəmiyyət verir.

**H e y d ə r  Ə l i y e v**: Mən inanıram ki, xalqlarımız ənənəvi dostluq əlaqələrimizi daha da möhkəmləndirmək əzmindədir. Azərbaycanla Rusiya arasında ikitərəfli münasibətləri inkişaf etdirmək üçün yeni imkanlardan səmərəli istifadə olunması olduqca zəruridir.

**Y e v g e n i  P r i m a k o v**: Elədir, Heydər Əliyeviç, bu olduqca vacibdir.

**H e y d ə r  Ə l i y e v**: Mənə elə gəlir ki, biz əlbəttə, bir çox sahələrdə əməkdaşlığımızı yenidən bərpa etməliyik. Lakin iqtisadiyyat sahəsində əməkdaşlığı nəinki davam etdirmək, hətta daha da dərinləşdirmək xüsusilə önəmlidir.

**Y e v g e n i  P r i m a k o v**: Biz əməkdaşlığımızı daha da genişləndirməyin vacibliyini yaxşı dərk etdiyimiz üçün bu işlərin həyata keçirilməsini surətləndirməliyik. [398-399]

**H e y d ə r  Ə l i y e v**: Bu belədir. Lakin bunun üçün çox mühüm bir problem – Dağlıq Qarabağ problemi həll edilməlidir. Ermənistan–Azərbaycan münaqişəsi aradan götürülməli, bu problemin doğurduğu məsələlər araşdırılmalı, Azərbaycan torpaqlarında əmin-amanlıq bərpa olunmalıdır.

**Y e v g e n i  P r i m a k o v**: Doğru buyurursunuz, cənab prezident. Biz bu ağır problemin sulh yolu ilə aradan qaldırılması üçün əlimizdən gələni etməyə hazırıq.

**H e y d ə r  Ə l i y e v**: Azərbaycan dövləti də, Azərbaycan xalqı da münaqişənin sülh yolu, danışıqlar vasitəsi ilə həll edilməsinə üstünlük verir. Buna görə ATƏT-in Minsk qrupunun fəaliyyətinə ümidimiz çoxdur.

**Y e v g e n i  P r i m a k o v**: Rusiya dövləti də Sizin kimi əmindir ki, münaqişənin Minsk qrupu çərçivəsində sülh yolu ilə həll edilməsi xüsusi əhəmiyyət daşıyır.

**H e y d ə r  Ə l i y e v**: Onu da deməliyəm ki, Ermənistan-Azərbaycan münaqişəsinin həlli yolunda Minsk qrupu həmsədrlərinin səylərinin artırılması olduqca vacibdir. Biz bu işin uğurla həyata keçirilməsi üçün hər cür mümkün imkanlardan istifadə etməyə hazırıq.

**Y e v g e n i  P r i m a k o v**: Mən bilirəm ki, Siz atəşkəs rejimini əldə etməklə problemin həll olunması yolunda ilk addımlarınızı atmışsınız. Minsk qrupu həmsədrlərinin münaqişənin aradan götürülməsi üçün səylərinin artırılması fikri ilə mən tamamilə şərikəm. Bu, vacib şərtdir. Lakin bu münaqişə tam aradan qaldırılanadək atəşkəs rejimi qorunub saxlanmalıdır.

**H e y d ə r  Ə l i y e v**: Biz bunu yaxşı dərk edirik və imkan daxilində atəşkəsə əməl edəcəyik. Lakin Rusiya – həm MDB Ölkələri Dövlət Başçıları Şurasının sədri kimi, həm də Minsk qrupunun həmsədri kimi Azərbaycana və Ermənistana daim eyni münasibət göstərməli və hansısa tərəfə heç vaxt xüsusi yardım və ya kömək etməməlidir. Biz Rusiyanın gizli olaraq [399-400] Ermənistana külli miqdarda müasir hərbi silahlar verməsindən xəbərdarıq və bu bizi olduqca narahat edir. Azərbaycan Respublikasının prezidenti kimi, mən dövlətimizin və xalqımızın adından Rusiyanın bu addımını bir daha qətiyyətlə pisləyirik və bunun regionun digər ölkələri üçün də böyük təhlükə yaratdığını nəzərinizə çatdırırıq.

**Y e v g e n i  P r i m a k o v**: Mən Sizin narahatlığınızı başa düşürəm. Rusiya hökuməti Azərbaycan–Rusiya münasibətlərinin müsbət istiqamətdə genişləndirilməsi üçün əlindən gələni etməyə hazırdır. Biz MDB-də islahatlar aparılmasının perspektivləri baxışından bu əlaqələrin inkişaf etdirilməsinə səy göstərəcəyik.

**H e y d ə r  Ə l i y e v**: Azərbaycan-Rusiya siyasi-iqtisadi-mədəni əlaqələrinin genişləndirilməsi və daha da dərinləşdirilməsi həm Azərbaycan, həm Rusiya, həm də bütövlükdə bütün region üçün əhəmiyyətlidir. İstər bilavasitə regionda, istərsə beynəlxalq aləmdə baş verən və hər iki tərəfi maraqlandıran hadisələr ətrafında fikir mübadiləsini davam etdirmək olduqca vacibdir. Mən əminəm ki, müstəqil dövlətlərimizin bütün sahələrdə əməkdaşlığının möhkəmləndirilməsi, regionda baş verən münaqişələrin aradan götürülməsi naminə həm Azərbaycan, həm Rusiya dövlətləri bütün mövcud imkanlardan səmərəli istifadə edəcəklər. [400]

## MOSKVADA MDB ÖLKƏLƏRİ DÖVLƏT BAŞÇILARININ ZİRVƏ GÖRÜŞÜNDƏN BAKIYA QAYIDARKƏN BİNƏ HAVA LİMANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİ NÜMAYƏNDƏLƏRİNİN SUALLARINA CAVAB

*3 aprel 1999-cu il*

S u a l: **Cənab prezident, Moskvaya səfərinizin nəticələri barədə nə deyə bilərsiniz?**

C a v a b: Müstəqil Dövlətlər Birliyinin dövlət başçılarının görüşü keçirildi. Bir sıra məsələləri müzakirə etdik. Yaxşı sənədlər də qəbul etdik. Xüsusən, bəyannamə qəbul olundu. Mən bunu yaxşı hesab edirəm. Başqa sənədlər də əhəmiyyətlidir.

Dövlət başçılarının görüşü zamanı Azərbaycan həmişə olduğu kimi, öz mövqeyini bildirdi. Mən Rusiyanın Ermənistana bir milyard dollar dəyərində qanunsuz, gizli silah verməsi məsələsini bir də qaldırdım. Bu məsələnin Rusiya hökuməti tərəfindən indiyə qədər həll olunmadığını qeyd etdim və yenidən tələb etdim ki, Rusiya hökuməti, Rusiyanın prezidenti verdikləri vədi yerinə yetirsinlər, bu məsələ ilə məşğul olsunlar. Ermənistana verilmiş silahlar geriyə qaytarılsın və bu barədə günahkar olan insanlar cəzalandırılsınlar.

İkinci, mən Rusiyanın Ermənistanda hərbi bazaları haqqında məsələni bir də qaldırdım. Məlumdur ki, mən bu barədə Rusiyanın prezidenti Boris Yeltsinə məktub göndərmişdim, öz fikirlərimizi bildirmişdik, bəyanatlar vermişdik. Burada dövlət başçılarının hamısının bir yerdə olmasından istifadə edərək mən məsələni qaldırdım və xüsusən, Ermənis[401-402]tanda hərbi bazaların olmasını dözülməz hesab etdiyimizi bəyan etdim.

Bizim bu barədə mövqeyimiz çox ədalətlidir. Çünki Ermənistanla Azərbaycan hərbi münaqişə şəraitində olduğu zaman Rusiya həm böyük dövlət kimi, həm Müstəqil Dövlətlər Birliyində prezidentlər, yəni Dövlət Başçıları Şurasının sədrliyi vəzifəsini həyata keçirən ölkə kimi, həm də ki, Ermənistan – Azərbaycan münaqişəsinin sülh yolu ilə həll olunması üçün yaranmış Minsk Konfransının həmsədri kimi, Azərbaycanla Ermənistana eyni münasibət göstərməli və heç vaxt hansısa tərəfə xüsusi bir yardım, ya xüsusi kömək etməməlidir. Amma buna baxmayaraq Rusiya bu prinsipləri saymır, yəni bunlara hörmətsizlik göstərir. Rusiya Ermənistana gizli olaraq silahlar veribdir və Ermənistanda Rusiyanın hərbi bazaları var. Onlar çoxdan yerləşdirilibdir. Biz buna həmişə etiraz etmişik. Amma son vaxtlar, son aylar orada yeni S-300 raketləri yerləşdiriblər, MİQ-29 təyyarələri yerləşdiriblər. Mən buna qəti etirazımızı bildirdim və xahiş etdim, tələb etdim ki, Rusiya izah etsin – bu, nə üçündür, hərbi bazalar nə üçündür, orada yeni güclü silahların yerləşdirilməsi nə üçündür? Mən bunların hamısını dövlət başçılarının görüşündə bildirdim. Sonra isə bu sözlərimin hamısını əks etdirən yazılı bəyanatı Müstəqil Dövlətlər Birliyi rəhbərlərinin iclasında biz yaydıq. Ola bilər, bizim bu görüşümüzün əsas mənası bundan ibarətdir. Başqa sualınız varmı?

S u a l: **Cənab prezident, Ermənistan prezidenti ilə görüşünüzdə hansı məsələlər müzakirə olundu?**

C a v a b: Robert Koçaryanla görüşüm oldu. Ətraflı söhbət etdik. Hərə öz mövqeyini bildirdi. Ancaq bizim mövqelərimiz hələ bir-birinə istənilən qədər yaxınlaşmayıbdır. Ona görə də biz bu dialoqu davam etdirməliyik.

Bizim görüşümüzün ikinci hissəsində Rusiyanın xarici işlər naziri İqor İvanov da iştirak edirdi. O da bizim görüşümüz[402-403]dən aldığı təəssüratdan belə nəticəyə gəldi ki, Rusiya fikirləşməlidir və yeni təşəbbüslər irəli sürməlidir.

Bütün bu danışıqlarda – həm Koçaryanla danışıqda, həm Rusiyanın xarici işlər naziri ilə danışıqda – mən bu gün Rusiya hökumətinin başçısı Yevgeni Primakovla da görüşdüm, ətraflı danışığımız oldu – mən onlara bildirdim ki, həmsədrlərin son təklifi keçən ilin noyabr ayında bizə verilmişdi. Bu təklifin müəllifi Rusiyadır. «Ortaq dövlət», yaxud «ümumi dövlət» anlayışı – biz heç vəchlə bunu qəbul edə bilmərik. Biz bunu bəyan etmişdik. Ancaq bilirsiniz ki, indi Ermənistanda bu təklif çox dəstəklənibdir, təbliğ olunur və Ermənistan çox narahatlığını bildirir ki, Azərbaycan nə üçün bunu qəbul etmir. Mən Moskvada onlara dedim, - elə bir bu onu göstərməlidir ki, əgər Ermənistan indiyə qədər Minsk qrupunun heç bir təklifini qəbul etməyibsə, amma indi bu təklifi qəbul edib və bunun həyata keçirilməsi üçün bu qədər çalışırsa, onda nəticə çıxarmaq lazımdır: Bu təklif Ermənistana nə qədər xeyirlidir və Azərbaycana nə qədər zərərlidir. Ona görə də mən Koçaryana da bildirdim, Rusiyanın xarici işlər naziri İvanova da bildirdim, bu gün isə Rusiya hökumətinin başçısı Yevgeni Primakova da bildirdim ki, biz bu təklifi heç vaxt qəbul edə bilmərik. Ona görə də Minsk qrupunun həmsədrləri – Rusiya da həmsədrlərdən biri kimi – yenidən təklif hazırlayıb təqdim etməlidir.

S u a l: **Cənab prezident, Yuqoslaviya ilə bağlı bəyanatı Azərbaycan dəstəklədimi?**

C a v a b: Yuqoslaviya barədə orada heç bir bəyanat olmadı. Çox sağ olun. [403]

## TÜRKİYƏNİN TRT-1 TELEVİZİYA KANALININ «DÜNYA DÜŞÜNCƏLƏRİ ATATÜRKÜN GÖZÜ İLƏ» VERİLİŞİNDƏ* MÜSAHİBƏ

*6 aprel 1999-cu il*

**S e v t a r  Y a s a** *(aparıcı)*: Salam. Dünyanın fikir mütəfəkkirlərindən biri olan Sartr demişdir: «Müasir cəmiyyətimizdə hər kəs hər şeyə görə məsuliyyət daşıyır. Ancaq məsuliyyətlərin yerinə yetirilməsi hər şeydən öncə və hər şeydən çox, məlumat sahibi olmaqla gerçəkləşdirilə bilər».

Bu məqsədlə bugünkü verilişimizdə daha bir dünya mütəfəkkirinin gözü ilə böyük öndərimiz Mustafa Kamal Atatürkü və onun qurduğu cümhuriyyəti gözünüz önünə gətirəcək və sizin müzakirələrinizə, fikir mübadiləsi aparmağa təqdim edəcəyik. Hörmətli professor, doktor Özer Ozankayanın hazırladığı bir müsahibəni izləyəcəksiniz.

**Ö z e r  O z a n k a y a**: Həmin şəxs böyük dövlət və siyasət adamı, eyni zamanda da qardaş türk xalqlarından birinin dövlət başçısı, yəni qonşu və qardaş Azərbaycanın cümhur başqanı hörmətli Heydər Əliyevdir. Bildiyiniz kimi, çox hörmətli Heydər Əliyev Sovetlər Birliyinin dağılması gedişində öz ölkəsində hadisələri diqqətlə izləyən və xalqını düzgün yola istiqamətləndirmiş bir şəxsdir.

**S e v t a r  Y a s a**: Zənnimcə, Heydər Əliyev əvvəllər də böyük vəzifələrdə çalışmış bir dövlət adamı olmuşdur.

**Ö z e r  O z a n k a y a**: Bəli, hörmətli Heydər Əliyev Azərbaycanın çox dəyərli bir siyasətçisi, dövlət adamı, uzun [404-405] müddət ictimai həyatda müəyyən vəzifələr daşımış, xalqının etimadını qazanmış bir şəxsdir. Təbii ki, belə bir şəxsiyyətin Atatürk və cümhuriyyətlə bağlı fikirlərini öyrənmək bizim üçün hər cəhətdən faydalı və yararlıdır.

Hörmətli Heydər Əliyev kiçik rahatsızlığı ilə əlaqədar müayinə və müalicə almaq üçün qısa zamanda Ankaraya gəlmişdi. O, tam sağaldıqdan sonra biz cənab Heydər Əliyevlə Çankayada onun üçün ayrılmış iqamətgahda görüşdük. Bir saata yaxın ətraflı söhbət etdik. Bu görüşün iki önəmli istiqaməti vardır. Birincisi, 75 illik sosializm quruculuğunu yaşayan və onun zəifləyərək dağılması zamanı da öz xalqına istiqamət verən bir şəxs kimi, Heydər Əliyevin Türkiyədə həyata keçirilən Mustafa Kamal Atatürkün demokratik inqilabı ilə bağlı fikirlərini dinləmək maraqlıdır.

**S e v t a r  Y a s a**: İndi müstəqillik təcrübəsi və ona sahib olmaq qayğıları ilə yaşayan Azərbaycan üçün bu, çox maraqlı bir təcrübədir.

**Ö z e r  O z a n k a y a**: Türkiyə demokratik yolla inkişafını müstəqillik bayrağı altında, tam müstəqillik qazandıqdan sonra həyata keçirmişdir. Ancaq qonşu və qardaş Azərbaycan sovet imperiyası tərkibində, Rusiyanın böyük təzyiqi altında yaşamağa məcbur olmuşdu. Bunun doğurduğu səbəblər barədə hörmətli prezident Heydər Əliyevin bir dövlət adamı kimi söylədiyi maraqlı fikirləri də, şübhəsiz ki, verilişimizdə diqqətlə işləyəcəyik, şahidi olacağıq.

**S e v t a r  Y a s a**: Siz müsahibə alarkən hörmətli Heydər Əliyevin fikirləri 6-7 illik, ya da elə bir neçə il əvvəl əldə edilən müstəqillik dövrü ərzində Atatürkü çox oxuması təəssüratı bağışladı, yoxsa uzun müddətdir onlar bu məlumatlara sahibdirlər?

**Ö z e r  O z a n k a y a**: Şübhəsiz ki, onun açıqlamalarından, suallara verdiyi cavablardan da aydın oldu ki, Azərbaycanın görkəmli xadimləri Türkiyə və Atatürk ilə çox yaxından [405-406] maraqlanmış və onu anlamağa çalışmışlar. Təbii ki, Atatürkə çox böyük bir heyranlıq, çox dərin bir hörmət, çox yüksək duyğular bəsləyən bir qonşu və qardaş xalqdan söz gedir.

İndi isə gəlin hörmətli Heydər Əliyevin bu düşüncə və duyğular içərisində söylədiyi fikirləri izləyək.

**S u a l: Hörmətli cümhur başqanım, bəllidir ki, Mustafa Kamal Atatürkün ölümündən 60 il keçdiyi halda, millətimiz bu gün də onu ehtiramla yad edir, ona ilham qaynağı kimi baxır. Baxmayaraq ki, onunla eyni dövrdə, XX yüzillikdə yaşayan Lenin kimi başqa şəxsiyyətlər də vardı. Onlarla müqayisədə Mustafa Kamal Atatürkün bu daimi dəyərini necə izah edərdiniz və bizə bu barədə nə deyə bilərdiniz?**

**C a v a b**: Bu təbiidir. Çünki Mustafa Kamal Atatürk XX əsrin dünyada ən böyük şəxsiyyətlərindən biridir. Dövlət adamı kimi, siyasət adamı kimi və dövlət başçısı kimi ölümündən 60 il sonra da Türkiyə xalqı onun qoyduğu yol ilə gedir. Görün yol nə qədər doğru-düzgün qurulub ki, o yoldan nə sağa, nə sola dönmək mümkün deyil. Bu, Mustafa Kamal Atatürkün müdrikliyini göstərir, dahiliyini göstərir, öz xalqına böyük xidmətlərinin nəticəsini göstərir.

Mən istəməzdim ki, böyük Mustafa Kamal Atatürkü digər şəxsiyyətlərlə müqayisə edim. Çünki Türkiyə qədim bir ölkədir, qədim bir dövlətdir, xalqdır. Osmanlı imperatorluğunun 700-cü ildönümü olacaqdır. Bu dövlət 700 il yaşayıbdır və dünyanın böyük bölgələrinə öz təsirini göstəribdir, böyük izlər qoyubdur. Ancaq bütün imperatorluqlar kimi, Osmanlı imperatorluğu da dağılmağa məcbur edildi. Ola bilər, bəzi imperatorluqlar daha da çox yaşadı, bəzisi ondan az yaşadı. Bunların səbəbləri çeşidlidir, fərqlidir.

* Veriliş dünyanın bütün ölkələrinə yayımlanmışdır.

Ancaq Birinci Dünya müharibəsindən sonra Osmanlı imperatorluğu dağıldı. Türkiyənin torpaqlarını əlinə keçirmək istəyən başqa ölkələr o vaxt çox idi. Yalnız Mustafa Kamal Atatürkün iradəsi, ağlı, zəkası, qəhrəmanlığı, müdrikliyi ona [406-407] imkan verdi ki, türk xalqının içindən çıxaraq Osmanlı imperatorluğunun dağıntılarının, külünün yerində yeni bir çağdaş dövlət yaratsın. Onu da Mustafa Kamal Atatürk yaratdı.

Ancaq bundan öncə Türkiyə böyük sınaqlardan keçdi. Bilirsiniz ki, Türkiyəni o vaxt parçalamaq istəyirdilər. Mustafa Kamal Atatürkün başçılığı ilə, onun başqanlığı, rəhbərliyi ilə aparılan qurtuluş savaşı türk xalqını bütün bu ölkələrin Türkiyəyə qarşı yönəldilmiş cəhdlərindən xilas etdi. Burada, Türkiyənin torpağında yerləşən yunanlar, italyanlar, oradan ermənilər, onunla bərabər Rusiya Türkiyənin Şərq hissəsini əllərinə keçirmək istəyirdilər. Bunların hamısının qarşısı alındı və nəhayət, 1923-cü ildə Türkiyə torpağında, 700 il imperatorluq tarixi olan bir ölkənin üzərində yeni bir dövlət – Türkiyə Cümhuriyyəti yarandı. Bu, çox tarixi bir hadisədir. Şübhəsiz ki, hər bir ölkənin həyatında tarixi hadisələr çoxdur. Ancaq Türkiyənin həyatında 700 il ömür sürən bir imperatorluq dağılan zaman Mustafa Kamal Atatürk belə bir zəka, ağıl göstərib, iradə, qəhrəmanlıq göstərib, xalqı bir yerə toplayıb, xalqın önündə gedib və cümhuriyyət yaradıbdır.

Siz bilirsiniz ki, cümhuriyyətin yaranması da o qədər asan olmayıbdır. Ondan sonra onun yaşaması da o qədər asan olmayıbdır. Ancaq Mustafa Kamal Atatürkün şəxsiyyəti bir də ona görə qiymətlidir ki, həm Türkiyə xalqı üçün, həm bütün türk dünyası üçün, həm də bütün dünya üçün o, qurub-yaratdığı cümhuriyyəti yaşada bilibdir.

Məsələn, 1918-ci ildə Rusiya imperatorluğu dağılan zaman, yəni orada bir inqilab – Oktyabr inqilabı olandan sonra Rusiya dağılmağa başladığı zaman Qafqazda Azərbaycan və digər Qafqaz ölkələri cümhuriyyət yaratdılar. 1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Amma o, cəmisi 23 ay yaşadı. Yaşaya bilmədi. Çünki Rusiya imperatorluğunun yerində yeni bir dövlət – bolşevik, kommunist imperatorluğu yarandı. O imperatorluq da Rusiyanın torpaq[407-408]ları içərisində olmuş bütün ölkələri əlindən vermək istəmədi. Bir tərəfdən də Ermənistanla Azərbaycan arasında o vaxt gedən savaş, Azərbaycanın içində sabitliyin olmaması və yaranmış cümhuriyyətin içində böyük bir liderin olmaması, lider məsələsi var idi. Elə oldu ki, 23 aydan sonra bu cümhuriyyət dağıldı.

1923-cü ildə Türkiyə Cümhuriyyətinin yaranması bir də ona görə tarixi hadisədir ki, bu, müsəlman aləmində, türk dünyasında ilk yaşayan cümhuriyyətdir. Yenə də deyirəm, yaranması da çox əhəmiyyətlidir. Bu, tarixi bir hadisədir. Amma əgər yaranan şey yaşaya bilmirsə, davam edə bilmirsə, onun əhəmiyyəti də itir. Mustafa Kamal Atatürk Cümhuriyyəti yaratdı, onun təsislərini yaratdı, cümhuriyyəti qaldırdı, xalqı qaldırdı və ondan sonra da cümhuriyyəti, ölkəsini etibarlı əllərə tapşırdı.

**S u a l: Çox hörmətli cümhur başqanım. Atatürkün qurduğu bu cümhuriyyətin bir dünyəviliyi də vardır. Bildiyiniz kimi, təkcə Azərbaycandan və bir-iki başqa türk cümhuriyyətlərindən savayı, bütün islam dünyasında, Pakistandan İndoneziyaya qədər və ərəb ölkələrində – heç birində belə bir dünyəvi dövlət yoxdur. Bu cümhuriyyətin əhəmiyyəti barədəki fikirlərinizi bilmək istərdik.**

**C a v a b**: Mustafa Kamal Atatürkün böyüklüyü bir də ondan ibarətdir ki, islam dininin təsiri altında yaşamış və islam dininin hakim olduğu bir dövlətdən çıxan yeni bir dövlət, məhz dünyəvi dövlət qurulubdur. Siz ona layiq dövlət deyirsiniz, biz Azərbaycan dilində buna dünyəvi dövlət deyirik. Bu da Mustafa Kamal Atatürkün o cümhuriyyəti qurarkən ən böyük nailiyyətlərindən biridir.

Şübhəsiz ki, o zaman, islam dini bütün islam aləmində, o cümlədən Türkiyə torpağında hakim olduğu bir dövrdə bu torpaqda əsrlər boyu islam dininin təsiri altında, onun hökmü altında yaşamış xalq üçün cümhuriyyət yaradaraq onu [408-409] dünyəvi, layiq cümhuriyyət etmək böyük bir qəhrəmanlıqdır, böyük bir cəsarətdir. Eyni zamanda, çox uzaqgörənlikdir. Yəni o, xalqı üçün dünya sivilizasiyası yolunu açıbdır. Geriyə yox, irəliyə. Ona görə də Türkiyə Cümhuriyyətinin dünyəvi cümhuriyyət olması, şəbhəsiz ki, onu bütün başqa cümhuriyyətlərdən fərqləndirir.

Mən sizə deyə bilərəm ki, Azərbaycanın da cümhuriyyəti dünyəvi cümhuriyyət olubdur. 1918-ci ildə də və indi, 1991-ci ildə biz müstəqilliyimizi, istiqlaliyyətimizi əldə edəndən sonra biz ancaq dünyəvi bir cümhuriyyətik. Bizim Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətdir. Bu, bizim Konstitusiyamızda yazılmış əsas prinsiplərdir.

Mustafa Kamal Atatürk bu barədə çox böyük iş görübdür. Hesab edirəm ki, ötən 75 il ərzində Türkiyə xalqı bu istiqamətdə böyük bir məsafə qət edibdir. Doğrudur, hələ bu gün də problemlər var. Biz də bunu bilirik, siz də bunu bilirsiniz. Bu dünyəvi cümhuriyyətə pis baxanlar, yəni onu qəbul etməyənlər də vardır. Amma mən hesab edirəm ki, onlar geridə qalacaqlar. Türkiyə xalqını bundan sonra da irəliyə yalnız Mustafa Kamal Atatürkün qoyduğu yol, onun müəyyən etdiyi prinsiplər aparacaq, o cümlədən Türkiyə Cümhuriyyəti dünyəvi dövlət olaraq inkişaf edəcəkdir.

**S u a l: Bununla əlaqədar olaraq bizdə Mustafa Kamal Atatürkün dünyəvi bir cümhuriyyət qurmaqla həqiqətən islam dininin demokratiya ilə əlaqəliyini və heç də bundan kənara çıxmadığını sübut etdiyini, göstərdiyini, eyni zamanda islam dininin etibarını yüksəltdiyini də söyləyirlər. Bu barədə fikrinizi bilmək olarmı?**

**C a v a b**: Bu da Mustafa Kamal Atatürkün dahiliyidir və eyni zamanda o, bütün islam dünyasına nümayiş etdirib, göstəribdir ki, islam dinindən imtina etmədən, islam dinini xalqın mənəvi dəyərləri hesab

edərək dünyəvi bir dövlət qurmaq olar. Yəni bunlar heç vaxt bir-birinə zidd deyildir. Bunu yal[409-410]nız islam dövlətçiliyini qoruyub saxlamaq istəyən adamlar o vaxt da, indi də sübut etmək istəyirlər ki, guya dünyəvilik islam dininə ziddir. Bu, doğru deyildir.

Azərbaycanda əsas prinsiplərimizdən biri, yəni bizim mənəvi, milli ideologiyamız milli-mənəvi dəyərlərimizi ümumbəşəri dəyərlərlə birləşdirməkdən, sintez etməkdən ibarətdir. Biz bu yol ilə gedirik. Mustafa Kamal Atatürk bu yolu qoyubdur. Yəni islam dinindən heç kəs imtina etmir. İslam dini bizim mənəvi mənbəyimizdir. Əsrlər boyu bizim xalqlarımız – Türkiyə də, Azərbaycan da islam dininə itaət edibdir.

Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra din tamamilə yasaq olundu. Təkcə islam dini yox, bütün dinlər. Yəni ateizm siyasəti aparıldı. Azərbaycanda 70 il din yasaq olundu. Amma din ölmədi. İnsanlar dini saxladı, qorudu – qəlbində qorudu, bütün adət-ənənələrində qorudu. Amma sovet hakimiyyətindən sonra, yəni o yasaq üzərindən götürüləndən sonra bir ilin içərisində bu din hər yerdə özünü göstərdi. İndi, son illərdə Azərbaycanda çoxlu məscidlər tikilibdir, yaradılıbdır. Özü də bunu xalq edir. Bu, çox gözəl bir haldır. Yəni biz dinimizi heç vaxt unutmamalıyıq. İslam dini bizim xalqımıza böyük dəyərlər veribdir. Amma bu da heç zidd de-yil ki, biz bəşəri dəyərlərdən də istifadə edək və layiqli, öz xalqımız üçün daha da uyğun yol ilə gedək.

**S u a l**: **Bir misal çəkmək istəyirəm. Türkiyədə inqilabdan sonra cəmiyyət daxilində qadınlarla kişilər eyni hüquqa sahib oldular. İnqilabın bu töhfəsi barədə fikirlərinizi söyləyərsinizmi?**

**C a v a b**: Şübhəsiz ki, bu da Mustafa Kamal Atatürkün böyük xidmətlərindən biridir. Bilirsiniz, bizim üçün, azərbaycanlılar üçün burada qeyri-adi bir şey yoxdur. Çünki Azərbaycanda sovet hakimiyyətinin nə qədər zərərli cəhətləri olubsa, o qədər də xeyirli cəhətləri olubdur. Azərbaycanda 1920-ci ildə bütün qadınlara tam azadlıq verildi, qadınlarla [410-411] kişilərin hüquqları bərabərləşdirildi. Qadınlar çadraları atdı. Bu, bir gündə olmadı. Bu proses 20 il getdi. Amma indi bizim qadınlar sərbəst, rahatdırlar. Bir indi deyil, 50 il bundan öncə də belə idi və onlar hər şeydə bərabərhüquqludurlar.

Məsələn, Azərbaycanda təhsil sahəsində çalışanların 70 faizi qadınlardır. Səhiyyə sahəsində çalışanların – həkimlərin, başqa tibb işçilərinin 60 faizi qadınlardır. Yəni bu, bizim üçün yeni bir şey deyildir. Amma əgər biz bütün islam dünyasını, islam aləmini götürsək, o vaxt Mustafa Kamal Atatürkün islam aləminin içində qalaraq, cümhuriyyət quraraq, eyni zamanda islam dininin qadınlara qarşı qoyduğu yasaqları götürməsi də ən böyük, cəsarətli addımlarından biridir. Bu da özünü doğrultdu. İndi, Allaha şükür, Türkiyədə qadın, kişi – hamısı bərabərhüquqludur. Hətta bəzən baxırsan, Fransadan da irəliyə gedibdir.

**S u a l**: **Cənab prezident, Atatürkün iqtisadi siyasətinin üzərində dayanmaq istərdim. Bəllidir ki, Atatürk dövlətçilik siyasəti ilə həm kapitalizmdən, həm də sosializmdən, yəni kollektivləşmədən bəhrələnərək onların əsasında yeni, üçüncü iqtisadi yol yaratmış oldu. Bu barədə nə deyə bilərsiniz?**

**C a v a b**: Bu da doğrudur. Bu, tamamilə doğrudur. Məsələn, biz o vaxt Sovetlər Birliyində yaşayan zaman belə düşüncələr var idi ki, Türkiyədə də Mustafa Kamal Atatürk sosializm qurur. Bilirsiniz ki, Mustafa Kamal Atatürkün Leninlə də ünsiyyəti olmuşdur və Sovetlər Birliyi ilə Türkiyənin münasibətləri İkinci Dünya müharibəsi başlayana qədər normal olmuşdur. Çünki burada da sosializm ideyaları yayılırdı və Mustafa Kamal Atatürkün həm siyasətində, həm dövlətçilik işlərində, həm də iqtisadiyyatın qurulmasında bu prinsiplərdən istifadə olunurdu. Amma mən burada Mustafa Kamal Atatürkün müdrikliyini yenə də qeyd etmək istəyirəm. Bu, nədən ibarətdir? [411-412]

Sovetlər Birliyində kommunizm ideologiyası kapitalizmi tamamilə yox etməyə, yeni bir iqtisadi sistem qurmağa əsaslanırdı. Sosializm sistemi kapitalizmi dağıtdı, kapitalizmlə olan bütün kapitalı dağıtdı. Kəndlilərdən torpaqları alıb dövlətə verdi. Kəndlini torpaqsız etdi, kollektivləşdirdi. Bu, 30-40 il öz nəticəsini verdi. Amma nəticədə nə oldu?

Məsələn, Sovetlər Birliyində kollektivləşmə başlayanda bu kollektivləşməni həyata keçirmək üçün o qədər zor, güc işlədilirdi, o qədər insanlar repressiya olunurdu, o qədər öldürülürdü ki, - milyonlarla. Yəni sovet hakimiyyəti öz xalqına böyük zərbələr vurdu – o ideyasını həyata keçirmək üçün. Amma ideya da doğru ideya olmadı. Yəni bu cür ola bilməz. Atatürk isə burada yanlışlığa yol vermədi. O, bundan da istifadə etdi, ondan da istifadə etdi və düzgün yol tutdu, ölkəsini iqtisadi nöqteyi-nəzərdən çox düz yol ilə apardı. Bu da onun böyüklüyüdür.

Məsələn, 1992-ci ildə mərhum Turqut Özal və mənim dostum, qardaşım hörmətli Süleyman Dəmirəl məni İzmir iqtisadi Konqresinə dəvət etdilər. Mən onda bildim ki, 1923-cü ildə Atatürk birinci iqtisadi Konqresi keçiribdir və iqtisadiyyatın inkişaf etməsinin yollarını göstəribdir. 1992-ci ildə keçirilən üçüncü iqtisadi Konqres idi. Ona görə iqtisadiyyat sahəsində, dövlətçilik sahəsində də o, çox ağıllı yollarla gedibdir.

**S u a l**: **Hörmətli prezident, Mustafa Kamal Atatürkün vaxtilə həyata keçirdiyi yazı, yəni əlifba məsələsi ilə bağlı fikirlərinizi öyrənə bilərikmi?**

**C a v a b**: Bu da bizim üçün yeni deyildir. Ancaq mən bunu başqa ölkələrlə müqayisədə deyə bilərəm.

Şübhəsiz ki, Mustafa Kamal Atatürkün ərəb əlifbasından imtina edib latın əlifbasına keçməsi də türk xalqı üçün böyük bir nailiyyət oldu, xalqın gələcəyi, mədəniyyəti üçün böyük yollar açdı. Ancaq mən sizə bildirmək istəyirəm ki, hələ XIX əsrin 70-ci illərində Azərbaycanın böyük yazıçısı Mirzə Fətəli [412-413] Axundov Azərbaycan xalqı üçün, türk xalqı üçün latın əlifbasına keçmək təşəbbüsünü irəliyə sürmüşdür.

Sonra onu çox sıxmışlar. O, İstanbula gəlib, çünki o vaxt mərkəz İstanbul idi, - bütün bu alimlərin, üləmaların qarşısında bir neçə dəfə sübut etməyə çalışıb ki, biz artıq latın əlifbasına keçməliyik. Ancaq onu qəbul etməyiblər və Mirzə Fətəli Axundov da bir şey edə bilməyibdir. Yəni görün bu işin başlanğıcı haradadır. Ancaq o vaxt bunu həyata keçirmək mümkün olmadı.

Azərbaycanda sovet hakimiyyəti qurulanda Azərbaycan çox böyük bir təşəbbüs etdi: 1926-cı ildə Azərbaycanda türkoloji Konqres oldu və Türkiyədən də oraya böyük insanlar, o cümlədən Fuad Köprülüzadə gəlmişdi. Onlar Bakıda birinci türkoloji Konqresdə iştirak etdilər. 1926-cı ildə qərar qəbul olundu ki, Azərbaycan latın əlifbasına keçir. Yəni bu, bizim üçün yeni bir şey deyildir. Amma Mustafa Kamal Atatürkün Türkiyədə latın əlifbasına keçməsi, - mən bilirəm, buna dindarlar tərəfindən nə qədər müqavimətlər olubdur, bu nə qədər çətin olubdur. Amma o, bunu həyata keçiribdir, - bu da böyük uğurdur.

**S u a l: Sayın cümhur başqanım. Mustafa Kamal Atatürkün liderliyi ilə aparılan bu inqilabların qardaş türk cəmiyyətlərinə, islam dünyasına, eləcə də Avropa cəmiyyətlərinə nə kimi təsirləri olmuşdur?**

**C a v a b**: Şübhəsiz, çox təsir edibdir.

Məsələn, biz Azərbaycanda Mustafa Kamal Atatürkü həmişə böyük bir qəhrəman kimi tanımışıq. Baxmayaraq ki, Sovetlər Birliyinin içərisində olduğumuz zaman bizim sərhədlər bağlı, hər şey qapalı idi və Moskva Azərbaycanda pantürkizm ideyasının olduğunu daim irəliyə sürərək bizi Türkiyədən ayırmağa çalışırdı. Biz öz mədəniyyətimiz, ədəbiyyatımız haqqında bir həqiqəti deyəndə və yaxud öz xalqımıza xas olan bir yazı yazanda deyirdilər ki, bunlar pantürkistlərdir. Yəni Rusiyanı, Moskvanı bir tərəfdən ermənilər qızışdı[413-414]rırdılar, bir tərəfdən də Rusiya qorxurdu ki, Azərbaycan Türkiyə ilə çox yaxın bir dövlətdir, ona görə bunların arasını o qədər kəsmək lazımdır ki, heç kəs qovuşa bilməsin.

Biz Mustafa Kamal Atatürkü o dövrdə – bizim tarixdə də var, mən özüm bunu çox kitablardan oxumuşam, - həmişə böyük bir şəxsiyyət, qəhrəman kimi tanımışıq. Ona görə indi Mustafa Kamal Atatürkü Azərbaycanda Türkiyədən də çox sevirlər. Mən bilirəm, bəlkə bəziləri, dünyəvi dövlətin əleyhinə çıxan adamlar buna etiraz da edirlər. Amma Azərbaycanda birmənalı şəkildə elə bir insan tapa bilməzsən ki, Mustafa Kamal Atatürkün haqqında pis bir söz desin. Hamı onu böyük sevgi və məhəbbətlə xatırlayır.

Şübhəsiz ki, Türkiyə kimi bir ölkədə dünyəvi cümhuriyyətin yaradılması başqa islam ölkələrinə də təsir edibdir. Ola bilər, birinə çox, birinə az. O cümlədən Avropaya da müəyyən təsir edibdir. Yəni orada da görüblər ki, bu dünyəvilik təkcə Avropaya məxsus deyildir, Şərq xalqlarında, islam dünyasında da bu ola bilər. Yəni avropalılar güman etməsinlər ki, bu, ancaq onlarındır, onlara məxsusdur, başqalarında ola bilməz. Mustafa Kamal Atatürkün gördüyü işlər, şübhəsiz ki, burada da öz təsirini göstəribdir.

**S u a l: Cənab prezident, icazənizlə, son sualımı vermək istəyirəm. Mustafa Kamal Atatürkün bu inqilablarının və qurduğu cümhuriyyətin təmsil etdiyi düşüncələrin Türkiyə üçün, islam dünyası üçün ən böyük mirası nədir? – sualına necə cavab verərdiniz? Əvvəlcədən çox təşəkkürümü bildirirəm.**

**C a v a b**: Ən böyük mirası Türkiyə Cümhuriyyətidir. O, 75 ildən çoxdur ki, yaşayır və şübhəsiz ki, Mustafa Kamal Atatürkdən sonra altmış il içərisində onun işinin davamçılarının fəaliyyəti nəticəsində, onların çox böyük işlərinin nəticəsində cümhuriyyət çox yüksəlmişdir. Türkiyə böyük, qüdrətli bir dövlətə çevrilmişdir. Budur Mustafa Kamal Atatürkün mirası! Qüdrətli, güclü, iqtisadi cəhətdən inkişaf etmiş, dünya [414-415] miqyasında çox özəl bir yer tutmuş Türkiyə Cümhuriyyəti! Budur Mustafa Kamal Atatürkün mirası!

Təşəkkür edirəm. Mən bu görüşdən çox məmnunam.

* * *

**S e v t a r  Y a s a**: Hörmətli Ozankaya, bu görüşdə sizin ən çox diqqətinizi çəkən nə oldu?

**Ö z e r  O z a n k a y a**: Doğrusu, dəyərli tamaşaçılarımıza ətraflı məlumat vermək üçün görüşdəki bəzi məqamları qeydə almışdım və hətta sonra onu kağıza köçürdüm. Atatürkün çox böyük imtahanlardan böyük uğurlarla çıxmış bir şəxsiyyət olaraq, Osmanlı imperatorluğunun süqutundan sonra, özünün dediyi kimi, imperiyanın külünün içindən yeni, yaşayan, müstəqil, canlı bir Türkiyəni çıxarmış və yaratmış olması çox təqdirəlayiqdir.

İkincisi, islam və türk dünyasında ilk cümhuriyyətdir, deyir.

Mən bir az sonra təkrar yenə toxunacağam. 1918-ci ildə yaranmış və cəmi 23 ay yaşamış bir respublikanı onlar daha əvvəl qurmuş olmaqla bərabər, tam müstəqillik ideyasına sahib olan türk inqilabı, türk mədəni inqilabı nəticəsində, Atatürkün deyimi ilə, sonsuzluğa qədər yaşaya biləcək qüdrətdə bir cümhuriyyət qurulmuşdur. Bunun islam və türk dünyasında ilk cümhuriyyət olduğunu xüsusi vurğulaması önəmlidir.

Hörmətli Heydər Əliyev Atatürkün liderliyi altında gerçəkləşdirilən ictimai inqilabların mühüm bir hissəsinin Azərbaycanda çoxdan həyata keçirildiyini, sınandığını və bunların qeyri-adi bir şey olmadığını söyləyir. O, Türkiyədə bunların daha böyük miqyasda uğurla gerçəkləşdirildiyini bildirir və belə bir nəticəyə gəlir ki, 1918-ci ildə ilk dəfə Azərbaycanda qurulan respublika Qafqazda baş verən geosiyası hadisələr axarında, sovetlər imperiyası daxilində müstəqillikdən məhrum olaraq yaşaya bilmədi. Eləcə də əlifba inqilabının zəruri[415-416]liyini, ərəb əlifbasının dilimizə uymadığını və latın əlifbası ilə dəyişdirilməsi lüzumunu görürdük. 1926-cı ildə Bakıda keçirilən türkoloji Konqresdə latın qrafikasına keçmək barədə qərar

qəbul edildi. Amma Stalinin təzyiqi nəticəsində Azərbaycan latın əlifbasından istifadə edə bilmədi. Çünki Türkiyə də 1928-ci ildə latın qrafikasına keçmişdi. Türkiyə-Azərbaycan mədəni əlaqələrinə mane olmaq üçün və dolayısı ilə Azərbaycanı sovet sərhədləri daxilində təcrid etmək məqsədi ilə Azərbaycana bu qrafikadan istifadə etməyə icazə verilməmişdi.

Dünyəvilik, qadın haqları sahəsində də mühüm uğurlar qazanılmışdır. Bunlar həqiqətən də müasir sivilizasiyanın mühüm ünsürləridir. Bunlar hörmətli Heydər Əliyevin çıxışlarında və açıqlamalarınla bir leytmotiv kimi keçir və ümumən türk inqilablarına onun dərin ehtiramını nümayiş etdirir.

Cənab prezident iqtisadi sahədə də bir müqayisə aparır. Məsələn, dövlət və ictimai sektorlara yer vermək lüzumunun, Atatürkün etatizm siyasətinin Azərbaycan üçün gözlənilməz bir şey olmadığını söyləyir. Ancaq o vaxt Azərbaycanda, bütün sovet imperiyasında olduğu kimi, inzibati-amirlik üslubu, kollektivləşdirmə üsulu zorakılıqla həyata keçirildiyinə görə bunlar lazımi səmərə verməmişdi. Bu mənada Atatürkün həyata keçirdiyi demokratik islahatların tam müstəqilliyə xidmət etdiyi və düzgün olduğu hörmətli Heydər Əliyev tərəfindən açıqca qeyd olunur.

Cənab prezident maraqlı bir cəhətə də toxundu. Mən bunu ilk dəfə onun özündən eşitdim. Onun türk inqilabının dünyəvilik sahəsində Avropaya təsir göstərdiyi və dünyəviliyin yalnız Avropaya xas olmadığı, başqa millətlərin, xüsusilə müsəlman xalqlarının da dünyəviliyi gerçəkləşdirmiş olması barəsində fikri də son dərəcə qiymətlidir.

Pantürkizm və panislamizm ideyalarının Atatürk tərəfindən rədd edilməsinin Türkiyə və digər türkdilli cəmiyyətlər [416-417] üçün nə qədər dəyərli olduğunu söyləyərkən prezident Heydər Əliyevin bu ideyaların bütün türk dünyasını çıxılmaz vəziyyətə saldığını, onlara qarşı rusların müdaxiləsi üçün şərait yapatdığını bildirməsi də maraqlıdır.

Zatən Atatürk də pantürkizmin və panislamizmin tarixdə heç vaxt həyata keçmədiyini və keçə bilməyəcəyini, bunun boş bir xəyal olduğunu, bundan türk millətinin, türk xalqının böyük ziyan çəkdiyini dəfələrlə söyləmiş, bunun düşmənlərimizin sayını artırmağa, bizə qarşı təzyiqləri çoxaltmağa səbəb olduğunu bildirmişdir. Hörmətli Heydər Əliyev də eyni şəkildə Atatürk kimi, panturanizm və pantürkizm ideyalarının, bu cür siyasətin zərərli olduğunu nəzərə çarpdırır.

**Sevtar Yasa**: Hörmətli Özer Ozankaya, sizə çox təşəkkür edirik. Ümid edirik ki, biz yeni bir düşüncə çiçəyi dərərək elm, sənət, fəlsəfə sahəsində görülən hər işdə olduğu kimi, dünyanın gözəlliyə, yaxşılığa, həqiqətə doğru dəyişməsinə kiçik bir töhfə verdik. Güman edirik ki, hamımız irəliyə doğru bir addım da atdıq. Bu amalla sizinlə yenidən görüşənədək. Sağ olun.

*Müsahibəni professor, doktor*
*Özer Ozankaya aparmışdır*
[417]

## GÜRCÜSTANIN AZƏRBAYCAN RESPUBLİKASINDAKI SƏFİRİ ZURAB QUMBARİDZE İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*7 aprel 1999-cu il*

**H e y d ə r Ə l i y e v**: Xoş gördük, hörmətli cənab Qumbaridze! Bu yaxınlarda mən Moskvada prezident Eduard Amvrosiyeviç Şevardnadze ilə görüşdüm. Biz işlərimiz barədə yaxşı danışdıq. İndi işlər necədir?

**Z u r a b Q u m b a r i d z e**: Heydər Əliyeviç, vaxt tapıb məni qəbul etdiyinizə görə sağ olun. Mənə kifayət qədər xoş və çox sevindirici bir tapşırıq verilibdir. Əlbəttə, xəbəriniz var ki, aprelin 17-də Gürcüstan Azərbaycanla birlikdə region üçün, Azərbaycan və Gürcüstan üçün, bəlkə də bütün dünya ictimaiyyəti üçün böyük bir günü qeyd etməyi planlaşdırır. Həmin gün Bakı–Supsa neft kəmərinin və Supsa terminalının – böyük bir layihənin, bir vaxtlar Sizin başladığınız, Sizin həyata keçirdiyiniz böyük bir işin açılış mərasimi olacaqdır.

Birmənalı şəkildə deyə bilərəm ki, indi Gürcüstanda böyük hazırlıq görülür. Gürcüstan Azərbaycan nümayəndə heyətinin, bu layihənin həyata keçirilməsi üçün hər şeyi etmiş olan Azərbaycan Respublikasının prezidenti Heydər Əliyeviç Əliyevin gəlişini böyük hörmətlə, məsuliyyətlə və böyük fərəhlə gözləyir.

Siz bilirsiniz ki, ötən dövrdə çoxları bu layihənin reallaşması ideyasına, bütövlükdə Azərbaycanın neft sərvətlərindən [418-419] istifadə edilməsi ideyasına şəkk-şübhə ilə yanaşırdı. Amma Sizin sayənizdə, çəkdiyiniz zəhmət sayəsində bütün bunlar artıq həyata keçirilir və aprelin 17-si buna ən yaxşı misaldır, həmin gün Siz və prezident Eduard Amvrosiyeviç bu layihənin başa çatdırıldığını elan edəcəksiniz.

Mən Eduard Amvrosiyeviç Şevardnadzedən dəvət məktubunu çatdırmaq tapşırığı almışam. Amma Siz özünüz bilirsiniz ki, Eduart Amvrosiyeviç ilə birlikdə Sizin xidmətiniz olan bu tədbirə dəvət rəmzi səciyyə daşıyır. Siz qonaq deyil, Gürcüstan prezidenti ilə birlikdə bu tədbirin əsas sahibi hesab edilirsiniz. Bu, birgə tədbirdir və əlbəttə, indiki halda bu dəvət diplomatik xarakterə malikdir. Biz Sizi salamlamağa həmişə şadıq. Bir səfir kimi əminəm və şadam ki, münasibətlərimiz elə səviyyəyə çatacaq ki, onda biz Sizi Gürcüstanda hətta formal dəvətlərsiz də salamlaya biləcəyik.

17 aprel çox maraqlı gün olacaqdır. Potiya çoxlu qonaq gələcəyi gözlənilir. Poti kiçik şəhər olsa da, oraya 400-500 adam dəvət edilmişdir. Bunlar əsasən jurnalistlər, bu layihənin iştirakçıları – səhmdarlar, inşaatçılardır, mən layihənin həyata keçirilməsində iştirak etmiş şirkətləri nəzərdə tuturam. Yəni tədbirin böyük əhəmiyyəti var və orada Sizin iştirakınız, Sizin rolunuz isə, şübhəsiz, olduqca mühüm və çox fərəhlidir.

Siz bilirsiniz ki,elə həmin gün Poti dəmiryol terminalının açılışı da planlaşdırılır. Bizim qonağımız kimi Siz yəqin ki, hər iki tədbirdə iştirak edəcəksiniz. Ukrayna prezidenti Leonid Daniloviç Kuçmanın gəlişi gözlənilir. Bu tədbirlərdə o da iştirak edəcəkdir. Beləliklə, həmin gün iki tədbirlə – Supsa terminalının açılışı ilə, - bu zaman Siz ilk tankerə neftin necə vurulduğunu görəcəksiniz, - habelə Poti dəmiryol terminalının açılışı ilə əlamətdar olacaqdır.

Tədbir müəyyən vaxt üçün nəzərdə tutulmuşdur Sizi Eduard Amvrosiyeviç Şevardnadze salamlayacaq və mən onun dəvət məktubunu məmnuniyyətlə Sizə çatdırıram. [419-420]

**H e y d ə r Ə l i y e v**: Dəvətə görə, prezident Şevardnadzenin məktubuna görə sağ olun. Biz həmin məsələni bu yaxınlarda Moskvada görüşümüz zamanı müzakirə etdik.

Bakı–Supsa neft kəmərini birlikdə açmaq üçün aprelin 17-də Gürcüstanda, Potidə hökmən olacağam. Bu, özünün həm iqtisadi, həm texniki, həm də siyasi əhəmiyyətinə görə həqiqətən çox böyük layihədir. Biz bu yaxınlarda xarici neft şirkətləri ilə birlikdə Xəzərdəki yataqların istismarına başladıq. Qısa müddətdə Bakı–Novorossiysk neft kəmərini çəkdik və 1997-ci ilin noyabrından başlayaraq Xəzərdə çıxarılan nefti Qara dəniz sahilindəki Novorossiysk limanına ixrac edirik. Bundan sonra biz Bakı–Supsa neft kəmərinin və Poti şəhərində terminalın inşasına başladıq. Bu, böyük işdir, orada milyonlarla dollar qoyulmuşdur, mürəkkəb texniki qurğular tikilməsi nəzərdə tutulurdu. Allaha şükür ki, biz bunun öhdəsindən yaxşı və vaxtında gəldik. Neft kəməri artıq çoxdan çəkilmişdir. Son vaxtlar boru neftlə doldurulurdu. Məlumdur ki, boru kəməri artıq tamamilə doldurulmuş və neft artıq Potiyə çatmışdır. Mənə söyləyiblər ki, çox yaxşı terminal tikiblər və ayın 17-də neft kəmərini işə salmaq lazımdır ki, neft bu kəmərlə axsın və biz onu həmin marşrutla ixrac edə bilək.

Bizdə neft uğurla çıxarılır. Bu il «Çıraq» platformasından 5 milyon tondan artıq, ola bilsin, daha çox neft çıxarılacaqdır. Bakı–Supsa neft kəmərinin gücü 5 milyon tondan çoxdur və lazım gələrsə, bu marşrutla vurulan nefti artırmaq olar.

Bu, böyük hadisədir, Gürcüstanla Azərbaycan və Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti, yəni xarici ölkələrin bir çox neft şirkətlərinin daxil olduqları konsorsium arasında yaxşı və səmərəli əməkdaşlıqdan xəbər verir.

Bu marşrutun böyük əhəmiyyəti var, çünki o, Azərbaycan üçün hər cəhətdən daha məqbuldur. O, bir də bununla əlamətdardır ki, biz Azərbaycan neftini dünya bazarına birbaşa çıxaracağıq. Azərbaycan nefti çox keyfiyyətlidir, lakin Novo[420-421]rossiyskdə onu Qərbi Sibirdən göndərilən neftlə qarışdırırlar. Burada isə neft xalis Azərbaycan, Xəzər neftidir. Bu boru ilə dünya bazarlarına keyfiyyətli neft daşınacaqdır.

Bu, yaxşı işdir və düşünürəm ki, Xəzərdə işimizin böyük perspektivi var. Bilirsiniz ki, biz dünyanın müxtəlif neft şirkətləri ilə 15-dən çox iri müqavilə imzalamışıq, fəal iş gedir. Odur ki neft hasilatı ildən-ilə artacaq və təbii olaraq, indi «Çıraq» platformasında nəzərdə tutulduğundan daha çox miqdarda neft ixracı məsələsi qarşıya çıxacaqdır. Buna görə də biz Bakı-Ceyhan neft kəmərinin inşasını planlaşdırırıq. Ötən ilin oktyabrında Ankarada Türkiyə, Gürcüstan, Azərbaycan, Qazaxıstan və Özbəkistan Bakı–Ceyhan neft kəmərinin inşası haqqında bəyannamə imzaladılar. Düşünürəm ki, biz tezliklə bu neft kəmərinin də inşasına başlayacağıq, o da Azərbaycanı və Gürcüstanı birləşdirəcək və təbii ki, ölkələrimizin iqtisadi inkişafına təkan verəcəkdir.

Bütün bünlar Azərbaycanla Gürcüstan arasındakı mövcud olan dostluq, qardaşlaq münasibətlərinə əsaslanır. Buna görə də şadam ki, biz artıq bu işi yerinə yetirmişik və indi yalnız rəsmi açılış qalır. Ayın 17-də biz Potidə, Gürcüstanda bir yerdə olacağıq.

Xahiş edirəm, mənim salamımı, ən xoş arzularımı Eduard Amvrosiyeviçə, Gürcüstandakı dostlarımızın hamısına çatdırasınız.

**Z u r a b  Q u m b a r i d z e** : Cənab prezident! İcazə vein aprelin 17-dəki hadisə ilə əlaqədar informasiya materialı hazırlamaq üçün Bakıya gəlmiş Gürcüstan jurnalistlərini Sizə təqdim edim. [421]

## GÜRCÜSTAN JURNALİSTLƏRİ – GÜRCÜSTAN TELEVİZİYASININ BİRİNCİ KANALINDAN GEORGİ KVİTAŞVİLİNİN, «SAKARTVELOS RESPUBLİKA» QƏZETİNDƏN ALEKO ASLANİŞVİLİNİN VƏ «GÜRCÜSTAN» (AZƏRBAYCAN DİLİNDƏ) QƏZETİNDƏN İSLAM ƏLİYEVİN SUALLARINA CAVAB*

*Prezident sarayı*

*7 aprel 1999-cu il*

**S u a l: Cənab prezident, Siz Qərb istiqamətində neft kəmərinin inşasının başa çatdırılmasına nə kimi əhəmiyyət verirsiniz?**

**C a v a b**: Bakı-Supsa neft kəmərinin inşası istər Azərbaycan, istərsə də Gürcüstan üçün və Xəzər dənizinin Azərbaycan sektorunda bizimlə birlikdə neft çıxaran şirkətlər üçün böyük hadisədir.

Azərbaycan qədim neft diyarıdır. Onun torpaqlarının təkindən artıq bir milyaprd ton neft çıxarılmışdır. Lakin Azərbaycanda quruda və dənizdə hələ çoxlu neft və qaz var. Son 50 ildə mütəxəssislər, geoloqlar, neftçilər Xəzərin nəzəri ehtiyatlarını fəal surətdə müəyyənləşdirirlər.

Biz Xəzərin təkindən neft çıxarmağa hələ 1949-cu ildə başlamışıq. Dənizin dibində neft çıxarılması işində biz dünyada birinci olmuşuq. Bu müddət ərzində dənizdə neft hasilatı sa[422-423]həsində dünya praktikası çox irəliləmişdir və biz bu üsulla neft çıxarılmasının indi əslində ikinci mərhələsindəyik.

1994-cü ilin sentyabrında biz 11 ən iri neft şirkətinin daxil olduğu konsorsiumla müqavilə imzaladıq. Bu müqavilə «Əsrin müqaviləsi» adlandırılmışdır. Bu, həqiqətən belədir. Biz Xəzər dənizindən neft hasilatı sahəsində irimiqyaslı işlərin bünövrəsini qoymuşuq.

Həqiqətən də, böyük neftin hasilatından söhbət gedir. Müqaviləyə görə, üç yataqda («Azəri», «Çıraq» və «Günəşli») neft ehtiyatları 510 milyon ton miqdarında müəyyən edilmişdi. Təxminən yarım ildən sonra, ilk quyuların sınaqlarından sonra isə ehtiyatları yenidən müəyyənləşdirməyə imkan yarandı: məlum oldu ki, ehtiyatlar 630 milyon tondur!

Lakin bu, yalnız ilk müjdə idi. İndi biz artıq 15 müqavilə imzalamışıq.

Təsəvvür edin, Xəzər dənizinin Azərbaycan sektorundan nə qədər neft çıxarmaq olar: elə neft yataqları var ki, onların işlənilməsinə hələ başlanmayıbdır. Bir çox xarici şirkətlər bizə yataqların birgə işlənilməsi barədə təkliflə müraciət edirlər. Yəqin ki, ayın sonunda biz Amerikanın daha iki iri şirkəti ilə müqavilələr imzalayacağıq.

1994-cü ildə biz müqavilə imzalayan kimi, dərhal neft kəmərləri barədə də düşünməyə başladıq. Əsas magistral kimi Bakı-Ceyhan neft kəməri çəkmək ideyası yarandı. Biz bu ideyanı araşdırmaqla yanaşı, Bakı-Novorossiysk xəttinin inşasına başladıq. Sonra belə qərara gəldik ki, alternativ marşrut gərəkdir. Bakı-Supsa magistralının tikintisinin zəruriliyi belə yarandı. Hərçənd ki, bu magistral ilk müqavilədə nəzərdə tutulmurdu.

Təbii ki, bu məsələnin həlli zamanı biz böyük maneələrlə qarşılaşdıq. Çünki burada dünyanın bir çox ölkələrinin maraqları cəmləşirdi, müxtəlif tərəflərdən təzyiqlər də var idi. Lakin biz öz sözümüzü dedik və qərar qəbul etdik, hərçənd, [423-424] təkrar edirəm, ilk layihədə Bakı-Supsa neft kəmərinin inşası və çox böyük məbləğdə müvafiq sərmayələr nəzərdə tutulmamışdı. Üstəlik, müxtəlif ölkələrin qəzetlərində mənfi rəylər, hətta hədə-qorxular olan məqalələr dərc edilirdi.

Sonra Bakı-Supsa neft kəməri inşasının dəyəri 275 milyon dollar artdı və 590 milyon dollar oldu. Lakin bizi bu da dayandırmadı, biz tikintini davam etdirdik. Mütəxəssislərin dedikləri kimi, neft kəməri keyfiyyətlə, çox yüksək texniki səviyyədə çəkilmişdir. Azərbaycan, Gürcüstan mütəxəssisləri, mühəndislər, əcnəbi mütəxəssislər böyük birgə iş görmüşlər.

Budur, vaxt gəlib çatmışdır və biz neft kəmərinin açılışını, Supsa terminalından tankerə ilk neftin vurulmasını birlikdə bayram edirik.

Bu, böyük hadisədir.

Şübhəsiz ki, Bakı-Supsa neft kəmərinin Gürcüstan və Azərbaycan üçün böyük iqtisadi əhəmiyyəti var. Biz bu yeni marşrutla Xəzər neftini təmiz halda dünya bazarına ilk dəfə çıxaracağıq. Bu, yalnız başlanğıcdır. Bakı-Supsa xəttinin yanından keçəcək əsas marşrutun Bakı-Tbilisi-Ceyhan neft kəmərinin inşası üçün yaxşı başlanğıcdır.

---

* Müsahibənin mətni aprelin 17-də Bakı-Supsa neft kəmərinin və Supsa yerüstü terminalının rəsmi açılış günü Gürcüstan qəzetlərində dərc olunmuşdur.

Dostluq və qardaşlıq ənənələrinə sadiqliyi qoruyub saxlayan Gürcüstan və Azərbaycan bu gün müstəqil dövlətlər kimi sıx əməkdaşlıq edirlər. Mən buna böyük əhəmiyyət verirəm və ümidvaram ki, bu, Gürcüstana da, Azərbaycana da böyük fayda gətirəcəkdir.

Bir sözlə, biz böyük hadisələrin astanasındayıq, məmnunluq duyur, bununla fəxr edirəm.

**S u a l**: **Cənab Əliyev, Gürcüstan bilir ki, Bakı-Supsa neft kəməri Sizin zəhmətinizin və səylərinizin nəticəsidir, buna görə biz Sizə minnətdarıq. Magistralın iqtisadi mənfəəti dollarla ifadə ediləcək, bəs onun siyasi faydası nə olacaq? Deməк olarmı ki, Qərb neft kəməri «dinc Qafqaz» ideyasının – Gürcüstan prezi**[424-425]**denti Eduard Şevardnadze ilə birlikdə müəlliflərindən birinin Siz olduğunuz ideyanın həyata keçirilməsinə töhfə verəcəkdir?**

**C a v a b**: Siyasi nəticələr iqtisadi nəticələrdən heç də az olmayacaqdır. Ən əvvəl, Qərb neft kəməri bütün dünyaya göstərəcək ki, müstəqil dövlətlər kimi Azərbaycan və Gürcüstan, heç nəyə baxmayaraq, öz problemlərini müstəqil həll edir və öz məqsədlərinə çatırlar. Bu, çox böyük siyasi əhəmiyyət kəsb edir, imkanları nümayiş etdirir və bunu təsdiqləyir ki, hərbi münaqişələrlə əlaqədar Azərbaycanda və Gürcüstanda, bütövlükdə Qafqazda vəziyyətin ağır olmasına baxmayaraq, biz müstəqil ölkələrik, yaşayıb yaradırıq, uğurlar qazanırıq, planlarımızı həyata keçiririk. Bu, ən başlıcasıdır! İqtisadi səmərə isə, əlbəttə, olacaq və onu hamı hiss edəcəkdir.

**S u a l**: **Siz Bakı–Tbilisi–Ceyhan əsas neft kəmərinin gələcəyini necə təsəvvür edirsiniz? Onun həyata keçirilməsinin ləngiyə biləcəyi barədə çox danışırlar. Tikintisi haqqında ötən ilin oktyabrında Ankarada Türkiyə, Gürcüstan, Azərbaycan, Qazaxıstan və Özbəkistanın bəyannamə imzaladıqları bu marşrut həyata keçiriləcəkmi?**

**C a v a b**: Bu layihə ümumən istər Dünya Birliyində, istərsə də ayrı-ayrı ölkələrdə mübahisələr doğurur. Elə «Əsrin layihəsi»ni götürək. Nə qədər mübahisələr və maneələr oldu! Amma biz bu layihəni imzalayan kimi onu Qazaxıstan və Türkmənistanın ehtiyatlarını demirəm, - Bakı–Supsa və Bakı–Novorossiysk boru kəmərləri ilə nəql etmək çox çətin olacaqdır. Neftin həcmi buna imkan verməyəcəkdir.

Ona görə də Bakı–Tbilisi–Ceyhan real layihədir və mütləq həyata keçiriləcəkdir.

**S u a l**: **Cənab prezident, Siz «Əsrin müqaviləsi»nin həyata keçirilməsi prosesində olmuş hədələri, qorxutmaq cəhdlərini xatırlatdınız. Siz hesab etmirsinizmi ki, istər Azərbaycanda, istərsə də Gürcüstanda kifayət qədər olmuş terror aktları, təxribatlar hansı şəkildəsə neft kəmərinin inşasına qarşı yönəldilmişdi?** [425-426]

**C a v a b**: Mən bu fikri həqiqətə uyğun sayıram. Biz «Əsrin müqaviləsi»ni imzalayan kimi dərhal mənə qarşı terror etməyə cəhd göstərdilər. 1995-ci ilin martında dövlət çevrilişi cəhdi oldu, elə həmin ilin yayında isə Azərbaycan prezidentinin təyyarəsini istilik raketi ilə vurmağa cəhd göstərdilər. Azərbaycan Milli Məclisi sədrinin müavinini öldürdülər. Başqa terror aktları da oldu, bunlar ölkəyə böyük zərər vurdu.

Mən Azərbaycan prezidentinə qarşı terror tədbirləri barədə danışdım. Gürcüstan prezidenti Eduard Şevardnadzeyə qarşı törədilən terror tədbirləri barədə də bizim məlumatımız vardır. Bunlar əsasən bizim – həm Azərbaycan, həm də Gürcüstan prezidentlərinin apardıqları cəsarətli, müstəqil siyasəti gözü götürməyənlərin əməlləridir. Amma biz yolumuzdan, siyasətimizdən dönməyəcəyik. Bu siyasətin miqyası genişdir. Burada bizim neft siyasətimiz müstəsna yer tutur. Azərbaycan prezidentinin hazırlayıb həyata keçirdiyi Azərbaycan neft strategiyası möhtəşəm hadisədir və bir sıra ölkələrin müəyyən qüvvələrinin mənafeyinə toxunur. Buna görə də bizim real hərəkətlərimiz qarşısında maneələr törədilir.

**S u a l**: **Cənab prezident, müəllifi özü olduğu ideya reallaşarkən insan hansı hisslər keçirir?**

**C a v a b**: Əgər Siz məni nəzərdə tutursunuzsa, deyə bilərəm: böyük məmnunluq duyuram. 1994-cü ildə biz müqaviləni imzalayandan sonra Azərbaycanı böyük təhlükə gözləyirdi. Bizi qorxutmaq, əsrin layihəsinin həyata keçirilməsinə mane olmaq üçün hər şey edilirdi.

Biz bu maneəni dəf edib, 1997-ci ildə neft çıxarmağa başlayanda da çoxlu məkrli məqalələr yazıldı, şayiələr yayıldı ki, neft azdır, böyük neft olmayacaq və s. Biz Bakı-Novorossiysk boru kəmərinə neft vurmağa və Bakı-Supsa neft kəməri barədə düşünməyə başlayanda da çox çətinlikləri dəf etməli olduq. Bu gün biz öz məqsədimizə çatmışıq. İmzalanandan sonra bu müqaviləni dərhal «Əsrin müqaviləsi» adlandırmağa [426-427] başladılar. Ona bu adı biz vermədik, dünyanın iri dövlətləri, o cümlədən ABŞ belə adlandırdı. Onlar bu müqavilənin əhəmiyyətini belə qiymətləndirdilər. Halbuki lap əvvəldən çoxları elə düşünürdü ki, o, həyata keçirilə bilməz. Ancaq biz sübut etdik ki, bu, real layihədir.

İndi Bakı-Tbilisi–Ceyhan magistralının növbəsi gəlib çatmışdır. Bizi çox maneələr gözləyir. Bəziləri düşünür ki, bu magistral məqsədəuyğun deyildir, digərlərinin fikrincə, ona ehtiyac yoxdur, üçüncülər isə ümumiyyətlə, hədə-qorxu gəlirlər. Amma mən inanıram ki, bu layihə də həyata keçiriləcək, çünki təkcə Azərbaycan sektorundakı olduqca böyük neft ehtiyatlarını, - mən hələ Qazaxstan demirəm, nəzərə almamaq olmaz. Bizi yolumuzdan döndərməkdən aciz olan adamlar terror tədbirləri, dövlət çevrilişi cəhdləri kimi qeyri-insani vasitələrə əl atırlar.

Sözümün sonunda fürsətdən istifadə edib gürcü xalqına, Gürcüstanın bütün sakinlərinə salamımı və ən xoş arzularımı göndərirəm. Mən gürcü xalqını Bakı –Supsa neft kəmərinin açılışı bayramı münasibətilə təbrik etmək istəyirəm. Xahiş edirəm Gürcüstan prezidenti, mənim dostum Eduard Şevardnadzeyə atəşin salamımı və ən xoş arzularımı yetirin. Ona böyük dövlət fəaliyyətində yeni-yeni uğurlar arzulayıram.

Bu hadisə Azərbaycan və gürcü xalqlarının sarsılmaz dostluğunun daha bir təsdiqidir. [427]

## «KİTABİ-DƏDƏ QORQUD» DASTANININ 1300 İLLİK YUBİLEYİ ÜZRƏ DÖVLƏT KOMİSSİYASININ NÖVBƏTİ İCLASINDA* GİRİŞ SÖZÜ

*Prezident sarayı*

*8 aprel 1999-cu il*

Hörmətli xanımlar və cənablar!

Bu gün biz «Kitabi-Dədə Qorqud» dastanının yubileyi üzrə komissiyanın növbəti iclasına toplaşmışıq. Ötən iclasda yubileyin hazırlanması və keçirilməsi ilə əlaqədar məsələləri ətraflı müzakirə etdik və qərar qəbul etdik. Bundan sonra yubiley tədbirlərini hazırlayıb keçirmək üçün iş planı tərtib olundu və mən onu təsdiq etdim.

Müəyyən vaxt keçibdir. Bu gün mən komissiyanın iclasını toplamışam ki, işlərin gedişatını təhlil edək. Nəzərə almaq lazımdır ki, yubiley tədbirlərinin zirvə mərasiminə az vaxt qalıbdır. Qərar qəbul etmişəm ki, yubileyin zirvə mərasimi iyun ayının 15-də keçiriləcəkdir. İyun ayının 14-də Azərbaycanda, Bakıda türkdilli dövlətlərin başçılarının ənənəvi zirvə görüşü olacaqdır. Bunu nəzərə alaraq, iyun ayının 15-də «Dədə Qorqud» dastanının yubileyinin zirvə mərasimini keçirməyi qərara almışam.

Güman edirəm, bu, çox yaxşı olacaqdır. Çünki qonaqların arasında türkdilli ölkələrin dövlət başçıları-prezidentləri də [428-429] olacaq, onlar da «Dədə Qorqud» dastanının yubileyində iştirak edəcəklər. Mən onların hər biri ilə ayrılıqda danışmışam. Onlar «Dədə Qorqud» dastanının yubileyini öz xalqlarının da yubileyləri kimi qəbul edirlər, ona görə də bu mərasimdə böyük məmnuniyyətlə iştirak etmək arzusunu bildirirlər.

Beləliklə, zirvə tədbiri günü müəyyən olunubdur. İki ay vaxt qalır. İki ay müddətində, güman edirəm, hələ çox iş görülməlidir. Biz keçən dəfə də bu məsələləri müzakirə etmişdik və hamımızın ümumi fikri budur ki, «Dədə Qorqud» dastanının yubileyini birinci növbədə Dədə Qorqudun irsinə, özünə layiq keçirməliyik. Ona görə də qalan dövrdə indiyə qədər görülməmiş işləri görməliyik və nəzərdə tutulmuş başqa işlərin hamısını həyata keçirməliyik.

### YEKUN NİTQİ

«Kitabi-Dədə Qorqud» dastanının yubileyinin keçirilməsi ən böyük siyasi, mənəvi xarakter daşıyır və mədəniyyətimizə, ədəbiyyatımıza olan qayğını və münasibəti göstərir. Biz son onilliklərdə Azərbaycanda tariximizin görkəmli səhifələrini yad etmək, tariximizi bugünkü və gələcək nəsillərə daha da geniş anlatmaq, xalqımızın, millətimizin tarixini dünyaya nümayiş etdirmək məqsədi ilə bir çox yubiley mərasimləri keçirmişik. Bunların da hər birinin çox böyük faydası olubdur. Bu faydanı nə faizlə, nə miqdarla, nə də çəki ilə ölçmək olar. Ancaq əgər bir ölçü olsaydı, demək olar ki, ən böyük ölçüyə malik faydalardır.

1947-ci ildə Nizami Gəncəvinin 800 illik yubileyi keçirildi. Xatırlayın, o vaxta qədər Azərbaycan xalqı Nizamini nə qədər tanıyırdı, yaxud dünya nə qədər tanıyırdı? Tədqiqatçılardan, alimlərdən, yazıçılardan və mədəniyyətlə, ədəbiyyatla məşğul olan adamlardan başqa, ölkəmizdə Nizami bu qədər tanınırdımı, xalqımız, insanlar Nizaminin əsərlərini oxuyur[429-430]dularmı? Dünya tanıyırdımı ki, Azərbaycanın Nizami Gəncəvi kimi böyük bir şairi, yazıçısı, mütəfəkkiri, filosofu, alimi var? Yox. Təsəvvür edin, əgər 1947-ci ildə bu yubiley keçirilməsəydi, Nizaminin əsərləri o vaxt Azərbaycan dilinə tərcümə olunmasaydı, kitabları nəşr edilməsəydi, portreti yaranmasaydı, heykəli qoyulmasaydı, Nizaminin adı əbədiləşdirilməsəydi və 1947-ci ildən sonra Nizaminin adı dünyaya geniş yayılmasaydı, Azərbaycan tarix, mədəniyyət, elm cəhətdən bu qədər zəngin olacaqdımı? Yox.

1947-ci ildə İkinci Dünya müharibəsi yenicə qurtarmışdı, ondan bir-iki il keçmişdi. 1947-ci ildə biz yaşadığımız Sovet İttifaqında kartoçka sistemi ləğv olundu, pul islahatı keçirildi. Bəli, ölkə, Azərbaycan onda ağır iqtisadi vəziyyətdə idi. Ancaq Nizaminin yubileyi keçirildi və biz böyük bir sərvət əldə etdik. İndi biz hər yerdə fəxr edirik ki, Nizamimiz vardır. Doğrudur, o, həmişə olubdur. Lakin o, nə bizim xalqımıza, nə də dünyaya indiki kimi məlum deyildi.

Biz 1973-cü ildə Nəsiminin yubileyini - 600 illiyini keçirəndə Nəsimi bu qədər tanınmış bir şair idimi? Yox. Heç bizim orta məktəb dərsliklərində Nəsiminin əsərləri yox idi. Elədir, yoxsa yox? Nəsimini bütün dünyaya tanıtdıq. Biz Nəsimini dünyaya tanıtmaqla Azərbaycanı yenidən tanıtdıq. O vaxtlar respublikamız müstəqil olmasa da, biz onun əsərlərini nəşr etdirdik, başqa dillərə - ingilis, fransız dillərinə tərcümə etdirdik, yaydıq.

* İclasda dövlət komissiyasının üzvləri, ədəbiyyat, elm, mədəniyyət və incəsənət xadimləri iştirak edirdilər.

Biz Füzulinin 500 illiyini keçirdik. Bəlkə də Füzuli xalqımıza Nizamidən, Nəsimidən daha da çox tanış idi. Ancaq xalqımız Füzulini də o qədər tanımırdı. Doğrudur, hələ yubileyi olmadan, məsələn, 1950-ci illərdən başlayaraq Füzuli ölkəmizdə təbliğ edildi. Xatirimdədir, 1930-cu illərdə mən orta məktəbdə təhsil alarkən biz Füzulinin ancaq bir-iki qəzəlini oxuyurduq. Füzuli şəxsiyyəti, təfəkkürü, elmi, fəlsəfəsi bir o qədər məlum deyildi. Yadınıza salın, biz müstəqillik dövründə [430-431] Füzulinin 500 illik yubileyini keçirdik. Həmin yubileyi xatirinizə salın – bütün türk dünyasından nümayəndələr Azərbaycana yığıldı.

Xatirimdədir, Gürcüstan parlamentinin sədri Zurab Jvaniya gəlib həmin tədbirdə iştirak edirdi. Biz «Gülüstan» sarayında axşam mərasimindəydik. O mənim yanımda oturmuşdu, heyranlıqla söyləyirdi ki, «Baxın, Azərbaycan nə edir. Azərbaycan bütün türk dünyasını bura yığıbdır. Görün, türk dünyası nədən ibarətdir». Zurab Jvaniya o qədər heyran olmuşdu ki, bunu gizlədə bilmirdi. Amma təkcə bu deyil, mən belə faktları çox saya bilərəm.

Mən bunları ona görə deyirəm ki, bu yubileylərin, o cümlədən «Kitabi-Dədə Qorqud» dastanının yubileyinin keçirilməsi ilə əlaqədar tədbirlərimizi anlamayanlar, yaxud da onu qəsdən anlamaq istəməyənlər, - çünki bizdə elə qüvvələr var ki, Azərbaycanda hər şeyin pis olmasını istəyirlər. Yaxşı nə olursa, elə bil onların canı çıxır, - hamısı başa düşsünlər ki, biz bütün bunları millətimiz, xalqımız üçün, müstəqilliyimizi və tarixi keçmişi, köklərimizi bir daha sübut etmək üçün edirik. Bunlar lazımdır, şəraitimiz nə cür olur-olsun, bunları etmişik və bundan sonra da edəcəyik.

Biz keçmiş zamanlarda böyük minnətdarlıq hissi ilə qeyd edirdik ki, İkinci Dünya müharibəsi, Vətən müharibəsi gedən zaman, Leninqrad blokadada olduğu dövrdə orada Nizaminin 800 illik yubileyi keçirilmişdi. Bu, yazılarda, kitablarda dəfələrlə qeyd olunubdur. Leninqrad blokadada ikən orada Nizaminin yubileyi keçirilmişdir. Bu tarixdir, həqiqətdir. Biz indi müstəqil dövlətik. Müstəqil dövlət kimi xalqımızın milli köklərini, tarixini, qədim mədəniyyətini, böyüklüyünü öz vətəndaşlarımıza da, bütün dünyaya da göstərməliyik, təbliğ etməliyik.

Əgər nəzərə alsaq ki, bizə düşmən olan bəzi ölkələr, xalqlar sübut etmək istəyirlər ki, «Azərbaycan xalqının dərin kökü, [431-432] tarixi yoxdur», erməni millətçiləri daim təbliğ edirlər ki, «bunlar köçəri xalqdır, onların heç keçmişi olmayıbdır», əgər xalqımızın keçmişinə dair mənfi təbliğatı nəzərə alsaq, bu tədbirlərimizin nə qədər əhəmiyyəti olduğunu görərik. Azərbaycanın tarixində indiyədək keçirilmiş bütün yubiley mərasimlərindən «Kitabi-Dədə Qorqud» dastanının yubileyi hamısından əhəmiyyətlidir, vacibdir.

Birincisi, bu, bizim tariximizin, mədəniyyətimizin, ədəbiyyatımızın qədimliyini, eyni zamanda tarixi köklərimizin 1300 il bundan əvvəlki dövründə xalqımızın böyük bir eposu olduğunu göstərir. Biz buna adi bir hal kimi baxa bilmərik.

Bir məsələni də qeyd etmək lazımdır. Mən bunu keçən dəfə də demişəm. Biz keçmiş illərdə, onilliklərdə tariximiz, mədəniyyətimiz, ədəbiyyatımız haqqında çox işlər gördük. Mən Nizaminin, Nəsiminin və başqa klassiklərimizin yubileyləri haqqında burada danışdım. Ancaq təəssüflər olsun ki, biz o illər «Kitabi - Dədə Qorqud» dastanının yubileyi ilə əlaqədar məsələni qaldıra bilmərik. Biz ötən iclasımızda bunun səbəblərini izah etdik.

Mən bir daha qeyd edirəm ki, məsələn, Anarın bu barədə təşəbbüsü, yazıları olmasaydı və o, «Dədə Qorqud» filmini yaratmasaydı, «Kitabi-Dədə Qorqud» dastanı haqqında xalqımız üçün bu qədər geniş məlumat yox idi. Təbiidir ki, bizim dədəqorqudçularımız, alimlərimiz, tədqiqatçılarımız çoxdur. Bizim ötən iclasımızda onların bir çoxu çıxış etdilər, çox gözəl fikirlər söylədilər. Göstərdilər ki, onlar 30–40 ildir ki, «Dədə Qorqud» dastanının tədqiqi ilə məşğuldurlar. Amma bunlar hamısı elmi tədqiqatlardır. Adətən elmi tədqiqatlar dar çərçivədə olur, müəyyən insanları əhatə edir, yaxud onlara mənsub olur. Amma «Kitabi-Dədə Qorqud» dastanını geniş kütləyə populyar şəkildə göstərmək əvvəllər mümkün olmamışdı. Bunun müəyyən səbəbləri var idi. Bu da ondan ibarətdir ki, bəli, bəziləri bizim türk kökümüzü göstərmək istəmirdilər, yaxud da [432-433] bunu göstərməyə qorxurdular. Bir çoxları isə buna mane olurdular. Bunlar hamısı keçmişdən məlumdur.

Bunları nəzərə alaraq, bizim «Kitabi-Dədə Qorqud» dastanının 1300 illik yubileyi haqqında qəbul etdiyimiz qərar və indi həyata keçirdiyimiz tədbirlər xüsusi əhəmiyyət kəsb edir. Onun bu gün üçün də, gələcək nəsillər üçün də, dünya üçün də böyük əhəmiyyəti vardır.

Bunun əhəmiyyəti bir də ondan ibarətdir ki, biz artıq böyük türk dünyası, türk xalqları, türkdilli xalqların ümumi kökləri, müştərək mədəniyyəti, tarixi haqqında danışırıq. Bunları böyük tarixi şəxsiyyətlərin yaradıcılığı əsasında edirik. Məsələn, biz qırğız eposu «Manas»ın 1000 illik yubileyini birlikdə qeyd etdik, keçirdik. Bu, böyük bir hadisə oldu. Açıq deyək ki, Manasın kimliyi, onun tarixi, yaratdığı irs haqqında o vaxta qədər Azərbaycanda çox az adam bilirdi. Amma qırğızlar bunu etdilər. Biz hamımız - türkdilli ölkələrin dövlət başçıları oraya toplaşdıq. Hamımız birlikdə sübut etdik ki, bəli, bizim xalqlarımızın qədim kökü və bu xalqların müştərək tarixi, mədəniyyəti vardır. «Dədə Qorqud» dastanının yubileyi bu baxımdan böyük siyasi əhəmiyyət daşıyır. Təsadüfi deyildir ki, mən türkdilli ölkələrin dövlət başçıları ilə «Dədə Qorqud» dastanının yubileyinin Azərbaycanda keçirilməsi haqqında danışarkən bunu izah etməyə ehtiyac duyulmadı. Onların hər biri dedi ki, bu, bizim hamımızındır, bu yubileyi hamımız bir yerdə böyük məmnuniyyətlə qeyd etməliyik.

Yəni «Dədə Qorqud» dastanı bizi bu gün eyni zamanda birləşdirir, bir-birimizə yaxınlaşdırır. Birləşməyə də ehtiyac vardır. Məsələn, biz TÜRKSOY təşkilatını qiymətləndiririk. Azərbaycan bu təşkilatın inkişaf etməsinə həmişə öz səylərini göstərir. Biz – türkdilli ölkələrin dövlət başçıları görüşərkən türkdilli dövlətlərin bu təşkilatını çalışırıq ki, mədəniyyətə və iqtisadiyyata yönəldək, onu siyasiləşdirməyək. Şübhəsiz ki, hər bir türkdilli dövlət gərək öz tarixini təqdim etsin. Belə də [433-434] oldu. Biz Qırğızıstanda «Manas»ın, Qazaxıstanda Abayın yubileylərini qeyd etdik, Özbəkistanda Əmir Teymurun yubileyində olduq. «Dədə Qorqud» dastanı da həm Azərbaycanın, həm də bütün türkdilli dövlətlərindir.

Məsələn, Türkiyənin prezidenti, başqa rəhbər şəxsləri ilə danışarkən mən «Dədə Qorqud» deyirəm, onlar isə bildirirlər ki, biz buna «Dədəm Qorqud» deyirik. Bax, siz mənə təqdim etdiyiniz medalların bəzilərinin içərisində «Dədə Qorqud», bəzilərində isə «Dədəm Qorqud» yazmısınız. Yəni bu, hamımız – onlar üçün də, bizim üçün də doğmadır. Amma bu, hamının olmaqla bərabər, xüsusən Azərbaycanındır, Azərbaycana məxsusdur. Bu da türk aləmində Azərbaycanın nə qədər görkəmli yer tutduğunu göstərir.

Bəs biz indi onları nümayiş etdirməməliyikmi, biz onları öz xalqımıza və başqa xalqlara çatdırmamalıyıqmı?

Beləliklə, mən hesab edirəm ki, indiyə qədər xeyli iş görülübdür. Mən görülən işləri qiymətləndirirəm. Ancaq işlərin çoxu hələ yarımçıq vəziyyətdədir, hazırlanma mərhələsindədir. Bunların əksəriyyəti iyunun 15-nə qədər tamamlanmalıdır, başa çatmalıdır. Ola bilər ki, bu tədbirlərin bəzilərini o vaxta qədər çatdırmayaq. Bundan narahat olmaq da, tələsmək də lazım deyildir. Gərək hər bir şeyi keyfiyyətli edək. Çünki bu dövrdə biz nə etsək, onlar on illərlə yaşayacaqdır.

Mən yenə də Nizaminin yubileyinə qayıdıram. Məsələn, Nizaminin əsərləri hələ 1947-ci ildə tərcümə olunub, nəşr edilibdir. Ondan sonra Azərbaycanda bu sahədə işlər həmin əsas üzərində davam etdirilibdir. Şübhəsiz ki, ondan sonra biz Nizami Gəncəvinin 840 illik yubileyini də keçirdik.

Xatirimdədir, Moskvada buna nə qədər mənfi münasibət göstəriblər. Mən təklif vermişdim ki, Nizami Gəncəvinin 840 illik yubileyini keçirmək lazımdır. O vaxt Mərkəzi Komitənin ikinci katibi Suslov mənə dedi ki, axı bu, yuvarlaq tarix deyil, gərək ya 800, 850, ya da 900 olsun. O vaxt mənim ona dedi[434-435]-yim sözlər Moskvada da geniş yayılmışdı. Mən dedim ki, «Hörmətli Suslov, Nizami Gəncəvi elə bir şəxsiyyətdir ki, onun yubileyini hər il keçirmək lazımdır». Biz o vaxt Nizaminin 840 illik yubileyini keçirdik. Ola bilər, onların dediklərində də müəyyən məntiq var idi. Amma biz nə üçün bu yubileyləri keçirmək istəyirdik? Çünki hər bir belə yubiley tədbiri bizim mədəniyyətimizi, tariximizi, millətimizin milliliyini təbliğ edir. Biz bunları daim etməliyik. Yenə də deyirəm, bu işlərin ölçüsü, çəkisi yoxdur, amma faydası hədsizdir. Ona görə biz bunları etməliyik.

«Kitabi-Dədə Qorqud» dastanının yubileyi ilə əlaqədar nəzərdə tutulan tədbirlərin hansını iyunun 15-dək keçirmək mümkündürsə, onu etmək lazımdır. Onlardan hansını bu müddətdə keyfiyyətlə keçirmək mümkün olmasa, tələsmək lazım deyildir. O demək deyildir ki, iyunun 15-də keçiriləcək zirvə tədbirinə qədər bütün tədbirlər keçirilsin, sonra hər şey bitsin. Yox, belə deyildir. Yubiley tədbiri sadəcə bir vasitədir ki, «Dədə Qorqud» dastanını təkcə Azərbaycanda yox, eləcə də bütün dünyada daha geniş tədliğ edək və Dədə Qorqud irsini ardıcıl surətdə yazaq, təhlil edək, yayaq, insanlara çatdıraq.

Mən komissiya üzvlərindən, xüsusən Elçindən, Anardan, Fərəməz Maqsudovdan xahiş edirəm ki, bu işlə hər gün məşğul olsunlar. Hansı məsələlərdə qarşıya çətinlik çıxarsa, mənə gecikmədən məlumat versinlər ki, biz onları vaxtında həll edək.

Burada bir neçə təklif irəli sürüldü. Mən onları indi müzakirə etmək istəmirəm. Xahiş edirəm ki, komissiya sədrinin müavinləri başqa müvafiq şəxslərlə birlikdə bu təkliflərə iki-üç gün müddətində baxsınlar, onları təhlil etsinlər. Sonra mənim yanımda toplaşaq və son qərar qəbul edək. Mən indi belə bir şəraitdə bir qərar qəbul etmək istəmirəm. Çünki belə bir şəraitdə qərar qəbul etmək də mümkün deyildir. Gərək ona bir baxaq, təhlil edək. [435-436]

Burada, məsələn, Qobustan haqqında təklif verildi. Təbiidir ki, bu, cazibədar bir təklifdir. Ancaq baxmaq lazımdır ki, bunu həyata keçirmək nə qədər realdır. Bakıdan Qobustana 60 kilometrdən bir qədər çox məsafə vardır. Bu təklifə ətraflı baxmaq lazımdır ki, o nə qədər realdır. Dediniz ki, zirvə görüşünə gələcək dövlət başçıları da orada iştirak etsinlər. Ona görə də mən dəqiqləşdirmək istəyirəm ki, bu, necə olacaqdır?

**Polad Bülbüloğlu**: Cənab prezident, dövlət başçılarını oraya vertolyotla aparmaq olar.

**Heydər Əliyev**: Vertolyota divinincə, düşüncə çox vaxt gedəcəkdir. Yaxşı, Qobustanda tədbir keçirilməsi barədə təklifə baxmaq olar ki, o nə dərəcədə realdır.

Yaxud, burada park haqqında söhbət getdi. Uşaq dəmir yolu yerləşən park haqqında bir təklif oldu. Memar İlham Əliyev isə Şıx yamacında yerləşən park haqqında təklif irəli sürdü. Buna da baxmaq lazımdır. Sonra, - Dədə Qorqud abidəsi harada, necə olmalıdır? – biz bunu da müəyyənləşdirməliyik, həll etməliyik. Bu abidə parkla əlaqədar, yaxud necə olmalıdır? Hər halda, bu təkliflərin hamısı dərin təhlil tələb edir.

Fərəməz Maqsudov dedi ki, İçərişəhərdə bir yer var, ona da baxmaq lazımdır. Burada «Dədə Qorqud» mükafatı haqqında da danışıldı. Bu o qədər də real deyildir ki, digər dövlət başçıları ilə birlikdə mükafat təyin edək. Mən bunu təsəvvür edə bilmədim, ancaq ona da baxmaq lazımdır. Xahiş edirəm, bütün bu təkliflərin hamısına 2-3 gün ərzində baxın, məsləhətləşin, sonra mənim yanıma gəlin. Bir neçə variant ola bi-

lər. Ancaq dəqiq bir fikrə gəlməliyik ki, görək bunlar hansı yollarla həyata keçirilə bilər, reallıq nədən ibarətdir.

Başqa bir məsələ. Siz dediniz ki, müsabiqə elan olunubdur, Dədə Qorqudun portreti hazırlanır?

**E l ç i n  Ə f ə n d i y e v**: Cənab prezident, Dədə Qorqudun portretini hazırlamaq üçün müsabiqə elan edilibdir. Amma [436-437] bu müsabiqənin nəticəsi zirvə tədbirinə qədər məlum olmayacaqdır.

**H e y d ə r  Ə l i y e v**: Vaxtilə Nizaminin də portreti yox idi, amma yarandı. Bilirsiniz, yubileydə Dədə Qorqudun portretinin hazır olmaması heç də mümkün deyildir. Sizin verdiyiniz bu medallarda da Dədə Qorqud şəkli var. İndi Dədə Qorqudu kim necə istəyir, o cür də çəkir. Amma bu yaramaz. Məsələn, Füzulinin bizə məlum olan portreti 1930-cu illərdə çəkilmişdi. Mən yenə də orta məktəb dövrünü yada salıram. O vaxt rəsmlə çox məşğul olurdum. Mən 1938-ci ildə Füzulinin həmin portretinə baxıb, onu boya ilə çəkmişəm. Bu, mənim yaxşı yadımdadır. Bu portret var idi, özü də rəngli idi. Yəni Füzulinin rəngli portreti var idi.

Nizaminin portretini 1947-ci ildə Qəzənfər Xalıqov yaradıbdır, heykəlini də Fuad Əbdürrəhmanov yaradıbdır. Nəsiminin portretini Mikayıl Abdullayev, heykəlini isə Tokay Məmmədovla İbrahim Zeynalov yaradıblar. Yəni bunlar hamısı gözümüzün qabağında olmuş işlərdir.

Təsəvvür edin, biz «Kitabi-Dədə Qorqud» dastanının yubileyinə gəlirik. Dədə Qorqudun portreti yoxdur. Yaxşı, bəs bu müsabiqə nə qədər davam edəcəkdir? Xahiş edirəm, bu barədə düşünün. Gəlin məsləhətləşək. Bu mümkündürmü - biz «Kitabi-Dədə Qorqud» dastanının yubileyini keçiririk, ancaq onun portreti yoxdur. Xahiş edirəm, oturun, bu barədə fikirləşin, görün nə edə bilərsiniz.

Layihələrin maliyyələşdirilməsi ilə əlaqədar sözümü mən artıq maliyyə nazirinə dedim. Ancaq eyni zamanda, mən Baş nazirə tapşırıram – xahiş edirəm, sən özün şəxsən bunların hamısına bax və mənə məruzə et. Prinsip bundan ibarət olmalıdır ki, israfçılığa qətiyyən yol verilməməlidir. Eyni zamanda, yubileyi layiqincə keçirmək üçün tələb edilən vəsait tapılmalıdır və verilməlidir. Maliyyə naziri burada dedi ki, «Mədəniyyət Nazirliyinin, akademiyanın və başqalarının öz [437-438] pulları vardır. Mən sizə göstərəcəyəm ki, onu haradan götürmək lazımdır». Sən belə fikirlərini kənara qoy. Başa düşdün? Əgər xüsusi yubiley keçirilirsə, demək, büdcədən ayrılmış vəsait ora gedə bilməz. Çünki büdcə vəsaiti onların cari işləri üçün ayırır. Amma bu, xüsusi bir tədbirdir. Baş nazir, sən özün bu məsələlərə bax, mənə mərüzə et.

Bilirsiniz, Azərbaycan dövlətinin vəsaitini qoruyub saxlayan bizik. Altı ilə yaxındır ki, mən buna rəhbərlik edirəm. İndiyə qədər çox şeyi qorumuşuq, saxlamışıq. Baxmayaraq ki, bizdən qabaq çox şeylər dağıdılmışdı. Təsəvvür edin, indi Azərbaycanda inflyasiya yoxdur. Ətrafımızdakı ölkələrin hamısı inflyasiya içərisindədir. Bizdə iqtisadiyyat inkişaf edir. Torpaqlarımızın 20 faizinin işğal altında olmasına, ölkəmizdə bir milyondan çox qaçqın yaşamasına baxmayaraq biz bunları ediriksə, demək, biz Azərbaycanın iqtisadiyyatını, maliyyə işlərini ağılla aparırıq. Çətinliyimiz, çatışmazlığımız çoxdur, hamısı var. Amma hansı işi necə etməyi biz bilirik. Heç kəs bundan narahat olmasın.

Mən komissiya üzvlərinin və buraya dəvət olunmuş şəxslərin hamısına müraciət edirəm ki, «Dədə Qorqud» dastanının yubileyinin yüksək səviyyədə keçirilməsi üçün bundan sonra hər kəs öz səylərini daha da artırmağa çalışsın, biz bu yubiley tədbirini birlikdə hazırlayıb həyata keçirək.

Mən inanıram ki, bu yubiley mərasimləri Azərbaycanda vətəndaşlarımızın daha böyük ruh yüksəkliyini təmin edəcəkdir, cəmiyyətdə daha da birlik, həmrəylik yaradacaqdır. Bu, bizim həm mədəniyyətimizin, həm ədəbiyyatımızın, həm də ümumiyyətlə, tariximizin daha da geniş təbliğ olunması üçün yeni bir şərait yaradacaqdır. Hamınıza bu yolda uğurlar arzulayıram. [438]

## İTALİYA RESPUBLİKASININ AZƏRBAYCANDAKI SƏFİRLİYİNİN YENİ BİNASININ AÇILIŞI MƏRASİMİNDƏ* NİTQ

*Bakı, İçərişəhər*

*9 aprel 1999-cu il*

Hörmətli cənab senator!
Hörmətli cənab səfir!
Hörmətli səfirlər, xanımlar və cənablar!

Bu gün Bakıda, Azərbaycanda əlamətdar hadisə baş verir. İtaliyanın Azərbaycandakı səfirliyi binasının açılış mərasimi keçirilir. Bu münasibətlə sizi təbrik edir, İtaliyanın Azərbaycandakı səfirliyinə uğurlu fəaliyyət arzulayıram.

Çox təqdirəlayiqdir ki, İtaliyanın Azərbaycandakı səfirliyi iki il müddətində öz işini təşkil edə bilibdir və nəhayət, bu gün gözəl bir binada işini davam etdirməyə başlayır.

Biz İtaliyanın Azərbaycana olan diqqət və qayğısını yüksək qiymətləndiririk. Ölkələrimiz arasında qarşılıqlı anlaşma, əlaqələr yaranıb, bir neçə müqavilə imzalanıbdır. Bunlar hamısı İtaliya-Azərbaycan əməkdaşlığının, dostluğunun əsaslarını qoyubdur.

Biz İtaliya ilə əlaqələrimizə xüsusi əhəmiyyət veririk. Bu əlaqələrin həm iqtisadi, həm siyasi sahələrdə, həm də elm, [439-440] mədəniyyət sahəsində inkişaf etməsini arzu edir və bunun üçün öz tərəfimizdən lazımi tədbirlər görürük.

İki il bundan öncə İtaliyanın Azərbaycanda səfirliyi açıldı və iki il öncə ilk dəfə Azərbaycan prezidenti İtaliyaya rəsmi səfər etdi. Biz Azərbaycanda bu səfərə və həmin səfər zamanı İtaliyanın prezidenti, Baş naziri, hökumət üzvləri ilə və başqa rəsmi şəxslərlə apardığımız danışıqlara və imzaladığımız sənədlərə yüksək qiymət veririk.

Ötən iki il ərzində İtaliya-Azərbaycan əlaqələri inkişaf edibdir. Ancaq bu əlaqələri genişləndirmək, daha da inkişaf etdirmək ehtiyacı həm İtaliya tərəfindən, həm də Azərbaycan tərəfindən duyulur. İtaliyanın böyük şirkəti olan «Eni/ACİP» şirkəti Azərbaycanda neft hasilatı sahəsində imzalanmış müqavilələrdə iştirak edir və öz sərmayəsini Azərbaycan neft sənayesinin inkişafına sərf edir. Ancaq Azərbaycan iqtisadiyyatının başqa sahələrində də İtaliya ilə əməkdaşlıq etmək üçün böyük imkanlar var. Biz çalışmalıyıq ki, bu imkanlardan istifadə edib həm İtaliya üçün, həm də Azərbaycan üçün faydalı olan işlər görək.

Ümidvar olduğumu bildirmək istəyirəm ki, İtaliyanın Azərbaycandakı səfirliyi belə gözəl, yaraşıqlı və eyni zamanda iş üçün çox uyğun olan binada yerləşəndən sonra İtaliya-Azərbaycan əlaqələrinin inkişaf etməsinə daha çox səy qoyacaqdır. Biz isə İtaliya ilə Azərbaycan arasında əlaqələrə xüsusi əhəmiyyət verərək, İtaliyanın Azərbaycandakı səfirliyinin uğurlu fəaliyyəti üçün lazımi imkanları yaratmışıq və bundan sonra da yaradacağıq.

Cənab senator, sizin bu münasibətlə, ümumiyyətlə İtaliya – Azərbaycan əlaqələrini inkişaf etdirmək məqsədi ilə Azərbaycana səfəriniz də çox əhəmiyyətlidir. Güman edirəm ki, bu səfər zamanı aparılan danışıqlar və əldə olunan nəticələr bizim əlaqələrimizi daha da inkişaf etdirəcəkdir. İtaliyanın prezidentinə, Baş nazirinə, İtaliya hökumətinə mənim salam[440-441]larımı, hörmət-ehtiramımı və ən xoş arzularımı çatdırmağı sizdən xahiş edirəm.

İtaliyanın Azərbaycandakı səfirliyinə - səfirə və səfirliyin bütün işçilərinə bu yaraşıqlı binada uğurlu fəaliyyət göstərməyi arzu edirəm. Sizi bu münasibətlə bir daha təbrik edirəm.

### İtaliya Respublikası Xarici İşlər Nazirinin müavini Valentino Martelli ilə söhbət

**V a l e n t i n o  M a r t e l l i**: Cənab prezident, mən Azərbaycanda tibb məsələləri ilə maraqlanıram. İxtisasca ürək cərrahıyam. İstəyirəm biləm, Siz həkim Debeyki ilə yeni xəstəxananı tezlikləmi açacaqsınız?

**H e y d ə r  Ə l i y e v**: Tezliklə açmaq çətindir, amma açmaq istəyirik. Pul lazımdır, İtaliya versə, tez açarıq.

**V a l e n t i n o  M a r t e l l i**: Mən İngiltərədə 15 il ürək cərrahı işləmişəm. Mən istərdim ki, Azərbaycandan həkimlərin, tibb bacılarının İtaliyaya dəvət olunub öyrədilməsi məsələsini Sizinlə müzakirə edim. İtaliya həkimlərinin çox yaxşı nəticələri var. Biz ürək transplantasiyası – köçürülməsi sahəsində böyük nailiyyətlər əldə etmişik.

* Mərasimdə İtaliya Respublikası xarici işlər nazirinin müavini, senator Valentino Martelli çıxış etmişdir.

**H e y d ə r Ə l i y e v**: Çalışmaq lazımdır ürəyi müalicə edəsiniz, transplantasiya yox.

**V a l e n t i n o M a r t e l l i**: Elə vaxtlar olur ki, transplantasiya etməli oluruq. Özü də biz bu zaman çox sadə üsuldan istifadə edirik və elə bilirəm ki, onu burada da yaya bilərik. Mənim bir xəstəm vardı, indi 12 yaşı var, daha doğrusu, 72 yaşındadır. Yəni 60 yaşında ona ürək köçürmüşük və 12 ildir yeni ürəklə yaşayır, həm də işləyir. Bizim istifadə etdiyimiz üsul texniki baxımdan çox sadədir.

**H e y d ə r Ə l i y e v**: İtaliya həkimlərinin bu nailiyyətini yüksək qiymətləndirirəm. Gəlin Azərbaycanda da xəstəxana tikin, sonra burada da cərrahiyyə əməliyyatı aparарsınız. [441-442]

**V a l e n t i n o M a r t e l l i**: Cənab prezident, mən İngiltərədə işlədikdən sonra səkkiz yeni ürək mərkəzi açmışam, Azərbaycana məmnuniyyətlə kömək edərəm. Bu mərkəzləri açanda təkcə həkim-cərrah kimi deyil, həm də mühəndis kimi işləmişəm. İndi isə xarici işlər nazirinin müaviniyəm.

**H e y d ə r Ə l i y e v**: Mən sizi, səfirliyin əməkdaşlarını və mərasim iştirakçılarını bir daha təbrik edirəm. Sağ olun. [442]

## İTALİYA RESPUBLİKASI XARİCİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ, SENATOR VALENTİNO MARTELLİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Prezident sarayı*

*9 aprel 1999-cu il*

**Heydər Əliyev**: Cənab senator, sizi və italiyalı şəxsləri səmimi-qəlbdən salamlayıram. Azərbaycanda, onun paytaxtı Bakıda özünüzü necə hiss edirsiniz?

**Valentino Martelli**: Bakıda özümüzü çox yaxşı hiss edirik. Keçirilən görüşlərdən də razı qaldığımızı bildirirəm.

Cənab prezident, hər şeydər əvvəl, Sizə İtaliya hökuməti adından dərin minnətdarlığımı bildirmək istəyirəm. Siz bu gün səfirliyin yeni binasının açılışında iştirak etdiniz. Çox şadıq ki, səfirliyimizin binasını Sizə göstərmək imkanımız oldu.

**Heydər Əliyev**: Sağ olun, təşəkkür edirəm. Azərbaycanın iqlimi İtaliyanın iqliminə bənzərdir. Burada hava İtaliyadakı kimidir. Ola bilər, sizdə havalar daha da istidir.

**Valentino Martelli**: Bizim ölkəmizdə də havalar Azərbaycandakı kimidir. Təəssüf ki, Bakını ətraflı ziyarət edə bilmədim.

**Heydər Əliyev**: Sizin səfiriniz səfirliyin binası üçün çox yaxşı yer tapıbdır. Gərək ki, bu, İçərişəhərdə ilk səfirlik binasıdır. İçərişəhər Bakının ən qədim yeridir. Bina da yaxşıdır, mənim xoşuma gəldi. Bir az İtaliyanın arxitekturasına bənzəyir. [443-444]

Ümumiyyətlə, İtaliya gözəl ölkədir. Sizin şəhərlərin hamısı böyük tarixi abidələrlə çox məşhurdur. Amma Azərbaycanın da tarixi böyükdür və memarlıq abidələri də az deyildir. Ona görə də bizim şəhərimizə daha çox baxsaydınız sizin üçün faydalı olardı.

İtaliya-Azərbaycan əlaqələri haqqında mən bu gün səfirlikdə olarkən dedim. Bir daha təkrar etmək istəyirəm ki, biz bu əlaqələrə çox böyük əhəmiyyət veririk. Mənim 1997-ci ildə İtaliyaya səfərimdən sonra biz bu əlaqələri daha da genişləndirməyə çalışırıq və imkanlar da çoxdur. Hər halda, biz öz tərəfimizdən belə bir mövqe tuturuq və bundan sonra da belə edəcəyik.

**Valentino Martelli**: Ölkələrimizin əlaqələrinin gündən-günə inkişaf etməsi barədə fikirlərinizlə mən də tam razıyam. Onu da vurğulayım ki, İtaliyanın səfirliyi Qafqazda ilk dəfə olaraq məhz Azərbaycanda, Bakıda açılmışdır.

Cənab prezident, biz böyük məmnuniyyətlə Sizin Romaya, Neapola və Kapriyə olan səfərlərinizi yada salırıq. Orada Sizinlə birlikdə olan mahnı və rəqs qrupları Sizi çox böyük məmnuniyyətlə xatırlayırlar. Ümid edirik ki, həmin təntənəli şənlikləri bir daha təkrar etmək mümkün olacaqdır.

Mən Sizi özümün yaşadığım, İtaliyanın ən gözəl yerlərindən olan Sardiniyaya dəvət edirəm.

**Heydər Əliyev**: Çox sağ olun. Mən Sardiniyanın tərifini çox eşitmişəm, amma görməmişəm. İnşallah, növbəti dəfə İtaliyaya gələndə bunu həyata keçirərik. [444]

## AZƏRBAYCAN BEYNƏLXALQ ƏMƏLİYYAT ŞİRKƏTİNİN (ABƏŞ-in) PREZİDENTİ DEVİD VUDVORD VƏ ŞİRKƏTİN DİGƏR RƏHBƏRLƏRİ İLƏ GÖRÜŞDƏKİ SÖHBƏTDƏN

*Prezident sarayı*

*9 aprel 1999-cu il*

**H e y d ə r Ə l i y e v**: Sizinlə görüşümdən çox məmnunam. Mənim də, sizin də belə bir görüşə ehtiyacımız var idi. Mən Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin hazırkı işlərinin vəziyyəti barədə məlumat almaq istəyirəm.

**D e v i d V u d v o r d**: ABƏŞ-in rəhbərləri ilə görüşə vaxt ayırdığınıza görə Sizə minnətdarlığımızı bildiririk.

Cənab prezident, ABƏŞ-in fəaliyyətinə verdiyiniz dəstəyə görə çox sağ olun. Biz bu yaxınlarda bir daha Supsada olmuşuq. Ümidvarıq ki, Siz aprelin 17-də Supsa terminalının açılış mərasimində iştirak edəcəksiniz. Mənə elə gəlir ki, Bakı-Supsa kəməri layihəsinin həyata keçirilməsi çox əlamətdar bir hadisədir. Bu kəmər tezliklə Şərqdən Qərbə yeni bir dəhliz açacaqdır və həmin dəhlizlə təkcə neft yox, bir çox digər məhsullar da dünya bazarına ixrac ediləcəkdir. Cənab prezident, bu layihə məhz Sizin uzaqgörən siyasətiniz nəticəsində həyata keçirilir.

**H e y d ə r Ə l i y e v**: Səmimi sözlərə görə təşəkkürümü bildirirəm. Cənab Vudvord, mən çox məmnunam ki, siz qərb marşrutu üzrə Bakı-Supsa neft kəmərinin tikintisinin başa çatdırılmasına nail olmusunuz. Mən Azərbaycan Beynəlxalq [445-446] Əməliyyat Şirkətini və Azərbaycan Dövlət Neft Şirkətini bu münasibətlə təbrik edirəm. Mən aprelin 17-də Bakı-Supsa neft kəmərinin istismara verilməsi mərasimində iştirak edəcəyəm. Bu, böyük hadisədir. Biz Xəzərin Azərbaycan sektorundakı yataqlardan hasil olunan neftin dünya bazarlarına çıxarılması üçün ikinci neft kəməri əldə edirik. Bu gün siz digər işlərin gedişi və proqramın həyata keçirilməsi barədə də verdiyiniz məlumat əhəmiyyətli və maraqlıdır. [446]

## AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI İLƏ AZƏRBAYCAN ARASINDA TƏHLÜKƏSİZLİYƏ DAİR DİALOQUN NÖVBƏTİ MƏRHƏLƏSİNDƏ İŞTİRAK EDƏN ABŞ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*10 aprel 1999-cu il*

**H e y d ə r Ə l i y e v**: Hörmətli qonaqlar, Sizi səmimi qəlbdən salamlayıram. Sizin səfəriniz çox əhəmiyyətlidir, - Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında təhlükəsizlik məsələlərini müzakirə edirsiniz. Biz buna çox əhəmiyyət veririk.

Bildiyimə görə, bu gün Amerika Birləşmiş Ştatlarının səfirliyində çox faydalı müzakirələr aparmısınız. Sizin müzakirə etdiyiniz bütün məsələlər bizi, Azərbaycanı çox maraqlandırır. Bu məsələlər ətrafında sizinlə aparılan dialoqun gələcəkdə də davam etdirilməsinin tərəfdarıyıq.

**R o b e r t M . B i k r o f t** *(ABŞ nümayəndə heyətinin rəhbəri, Dövlət katibinin regional təhlükəsizlik üzrə köməkçisinin müavini)*: Cənab prezident, hər şeydər əvvəl, Sizi əmin etmək istəyirəm ki, bizim və sizin nümayəndə heyətləri arasında həqiqətən də çox gözəl, səmərəli danışıqlar olmuşdur. Bizim nümayəndə heyətinin tərkibində Dövlət Departamentinin, Müdafiə Nazirliyinin, eləcə də Avropada yerləşən ordu hissəsinin nümayəndələri vardır.

Azərbaycan xarici işlər nazirinin müavini cənab Əzimova xüsusi minnətdarlığımı bildirmək istəyirəm. O, danışıqlarda [447-448] Azərbaycan tərəfindən aparıcı şəxs idi və burada qaldığımız müddət ərzində bizə yaxından kömək etmişdir.

Sizə məlum olduğu kimi, bu, təhlükəsizlik məsələləri barəsində Azərbaycan hökumətinin nümayəndələri ilə dördüncü dialoqumuzdur. Bundan əvvəlki dialoqlar Vaşinqtonda və Bakıda keçirilmişdir.

Birləşmiş Ştatlar Cənubi Qafqaz regionu ilə çox maraqlanır. Ona görə də indiki səfər zamanı bizim məqsədimiz Yerevanda, Tbilisidə və Bakıda olmaq idi. Biz bu şəhərlərdə olduq və Cənubi Qafqazın üç ölkəsinin paytaxtlarında mövcud problemləri, məsələləri daha yaxşı anlamağa başladıq. Biz Azərbaycanın narahatlığını xüsusi maraqla dinlədik. Azərbaycanın əsas narahatlığı bölgədə qüvvələr nisbəti tarazlığının pozulması ilə əlaqədardır. Biz Azərbaycanın bu fikri ilə tam şərikik ki, bölgədə həqiqətən qüvvələrin tarazlığı olmalıdır. Çünki bu problem Birləşmiş Ştatların özünə də məlumdur və ABŞ yalnız bu bölgədə deyil, ümumiyyətlə, bütün dünyada, hər şeydən əvvəl özü ilə Rusiya arasında qüvvələr tarazlığının olmasına çalışır.

Bu məqsədlə Birləşmiş Ştatlar sizin ölkə ilə, eləcə də sizin ətrafınızdakı qonşu ölkələrlə sıx əlaqədə işləmək fikrindədir. Yalnız bu halda Moskvanın mümkün fitnəkar aktlarına son qoyula bilər. Biz keçmişdə olan hadisələrin bir daha təkrar olunmasını istəmirik.

Qərb neft kəməri marşrutunun açılması münasibətilə Sizi böyük məmnuniyyətlə təbrik edirik. Ümid edirik ki, lap yaxın günlərdə bu marşrut işə düşəcəkdir.

Biz Vaşinqtonda sizin nümayəndələrlə böyük məmnunluqla işləyirik və səbirsizliklə gözləyirik ki, yaxın zamanlarda sizin səfirlikdə hərbi attaşe də olacaqdır.

Eyni zamanda başa düşürük ki, bizim əlaqələrimizə, əməkdaşlığımıza mane olan bir problem də var. Bu, 907-ci maddədir. Biz Azərbaycan hökuməti, eləcə də ölkənizin Vaşinqton[448-449]dakı səfirliyi ilə sıx əlaqədə işləmək əzmindəyik ki, 907-ci maddənin törətdiyi məhdudiyyəti aradan qaldıraq və ABŞ hökuməti tezliklə Azərbaycana tam qüvvəsi ilə yardım edə bilsin.

Cənab prezident, biz böyük məmnuniyyət hissi ilə Sizi Vaşinqtonda gözləyirik. Ümid edirik ki, Vaşinqtona səfəriniz uğurlu və səmərəli olacaqdır. Biz də əlimizdən gələni edəcəyik ki, səfəriniz dolğun proqramla həyata keçsin.

**H e y d ə r Ə l i y e v**: Sizin ətraflı məlumatınız məni çox məmnun etdi. Əvvəla, çox sevindirici haldır ki, Amerika Birləşmiş Ştatları ilə Azərbaycan arasında bu dialoq mövcuddur, davam edir və siz bir neçə görüş keçirib təhlükəsizlik məsələlərini müzakirə etmisiniz.

Siz doğru buyurdunuz ki, bu məsələlər həm Amerika Birləşmiş Ştatları, həm də Azərbaycan üçün mühüm əhəmiyyət kəsb edir. Bildirmək istəyirəm ki, Azərbaycan üçün bunun bəlkə də daha çox əhəmiyyəti var və bizim buna daha da çox ehtiyacımız var.

Siz qeyd etdiniz ki, qüvvələrin tarazlığı məsələsi təhlükəsizliyi təmin etmək üçün əsas şərtlərdən biridir. Eyni zamanda bildirdiniz və mən bunu bir daha bəyan edirəm ki, Qafqazda, xüsusən Azərbaycanın vəziyyəti nəzərə alınsa, qüvvələrin tarazlığı ciddi şəkildə pozulubdur. Birincisi, ona görə ki, Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal edib və Ermənistanın silahlı qüvvələri işğal olunmuş torpaqlardadır. İşğal olunmuş torpaqlardan Azərbaycanın bir milyon vətəndaşı zorla çıxarılıbdır. Beləliklə, Ermənistanla Azərbaycan arasında qüvvələr tarazlığı Ermənistanın xeyrinə tamamilə pozulubdur.

Biz Ermənistan – Azərbaycan münaqişəsini sülh yolu ilə həll etməyə çalışırıq. Dörd ildən artıqdır ki, atəşkəs rejimi mövcuddur və biz sülh danışıqları aparırıq. Ancaq sülh danışıqları getdiyi zaman və Amerika Birləşmiş Ştatları, Fransa [449-450] ilə bərabər Rusiya Ermənistan – Azərbaycan münaqişəsinin sülh yolu ilə həlli üçün Minsk qrupunun həmsədri vəzifəsini həyata keçirdiyi bir vaxtda Rusiya Ermənistana həddən çox silahlar verir və onun ərazisində öz hərbi bazasını yaradıbdır.

Güman edirəm, siz bu barədə geniş müzakirə aparmısınız. Sadəcə, mən qeyd edirəm ki, son illərdə Rusiya Ermənistana bir milyard Amerika dolları dəyərində silah-sursat və hərbi texnika veribdir. Ermənistanın ərazisində Rusiyanın hərbi bazası, qoşun hissələri yerləşir. Son aylarda isə bu hərbi bazada Rusiyanın güclü silahları – S-300 raketləri, MİQ-29 təyyarələri yerləşdirilibdir.

Biz bu məsələlər barəsində Rusiyaya qəti etirazımızı dəfələrlə bildirmişik. Aprel ayının 2-də Moskvada Müstəqil Dövlətlər Birliyi ölkələri dövlət başçılarının görüşü zamanı mən bu məsələ haqqında öz fikirlərimi demişəm, Rusiyanın prezidentinə narazılığımızı, etirazımı bildirmişəm və bu barədə bəyanat vermişəm. Mənim bəyanatım Mustəqil Dövlətlər Birliyinin toplantısında, bütün mətbuatda yayılıbdır.

Bütün bunlar nəinki Ermənistanla Azərbaycan arasında qüvvələr tarazlığını tamamilə pozub, ümumiyyətlə Qafqazda sülh, əmin-amanlıq olmasına böyük təhlükə yaradır. Biz həmişə demişik və bu gün bir daha deyirəm ki, Amerika Birləşmiş Ştatları da bu məsələlərə öz münasibətini bildirməlidir. Sizin ölkənin dövlət katibi xanım Olbrayt bir müddət bundan öncə mənə göndərdiyi məktubda qeyd etmişdir ki, Moskvada Rusiyanın xarici işlər naziri ilə görüşdüyü zaman Rusiyanın Ermənistana silah verməsinə və orada hərbi baza yerləşdirməsinə Amerika Birləşmiş Ştatlarının narazılığını bildirmişdir. Təəssüf ki, bunlar da hələ heç bir nəticə vermir. Ona görə də yəqin ki, sizin dialoqunuz haqqında fikirlər, təkliflər meydana çıxmalı və bütün ölkə Qafqazdakı vəziyyətə daha dərindən münasibət göstərməlidir. Qafqazda sülhün, əmin-[450-451]amanlığın qorunması üçün sizin ölkə tərəfindən lazımi təşəbbüslər göstərilməlidir.

Təhlükəsizlik məsələləri haqqında danışarkən, şübhəsiz ki, Amerika Birləşmiş Ştatlarının burada – Azərbaycanda və bizim regionda indi artıq yerləşdirdiyi böyük kapitalın, Amerikanın neft şirkətlərinin və digər şirkətlərinin Azərbaycanda gördükləri və gələcəkdə görəcəkləri işlərin də təhlükəsizliyini nəzərə almaq lazımdır.

Bəli, biz Azərbaycanın Xəzər dənizindəki sektorundan dünyanın böyük neft şirkətləri, o cümlədən Amerika Birləşmiş Ştatlarının iri şirkətləri ilə birlikdə hasil etdiyimiz neftin dünya bazarlarına çıxarılması üçün neft kəmərləri yaratmışıq. Birinci neft kəməri Bakı–Novorossiysk marşrutu ilə gedibdir. İkinci neft kəmərini Bakıdan Gürcüstanın Qara dəniz sahilində yerləşən Supsa limanına çəkmişik və yaxın günlərdə onun istismara verilməsi nəzərdə tutulubdur.

Bu neft kəmərlərinin təhlükəsizliyi haqqında da çox ciddi düşünmək lazımdır. Mən xüsusən Qərb marşturu ilə gedən neft kəmərini nəzərdə tuturam. Şübhəsiz ki, bunlar hamısı sizin və bizim qarşımızda çox ciddi problemlər qaldırır. Arzu edərdim ki, sizin bu müzakirələr bu problemlərin real həll olunması üçün müəyyən təkliflər irəli sürə bilsin.

907-ci maddə Azərbaycana çox böyük zərər vurur. Ancaq indi siz özünüz dərk edirsiniz ki, o, sizin ölkəyə – Amerika Birləşmiş Ştatlarına da xeyir gətirmir. Güman edirəm, indi Amerika Birləşmiş Ştatlarının hökumətində, Konqresində də 907-ci maddənin ümumiyyətlə zərərli olması tamamilə dərk edilir. Biz bunun ləğvinə, yaxud da tam məhdudlaşmasına nə qədər tez nail ola bilsək, o qədər də bütün işləri daha müvəffəqiyyətlə görə bilərik.

907-ci maddənin varlığı bilavasitə Qafqazda təhlükəsizlik məsələlərinə çox zərər verir. Hesab edirəm ki, Dövlət Departamenti, Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi və [451-452] başqa dövlət dairələri 907-ci maddənin aradan götürülməsi üçün daha ciddi təşəbbüslər göstərməlidirlər.

Bir çox başqa məsələlər də var. Güman edirəm, siz onları müzakirə etmisiniz. Lazım olsa, indi bu barədə də danışa bilərik. [452]

## PASXA BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİANLARINA TƏBRİK

Əziz həmvətənlər!

Sizi xristianlığın müqəddəs bayramlarından biri olan Pasxa münasibətilə ürəkdən təbrik edir, hamınıza həyatda xoşbəxtlik və səadət arzulayıram.

Azərbaycan tarixən müxtəlif xalqların mehriban bir ailə kimi dinc yanaşı yaşadığı, milli adətlərin, dini-mənəvi dəyərlərin qorunub saxlandığı bir ölkə olmuşdur. Müstəqillik qazandıqdan sonra bu şərəfli ənənə davam etdirilmiş, hər kəsin vətəndaş hüquqları, vicdan azadlığı və dini etiqad sərbəstliyi təmin olunmuşdur. Təsadüfi deyildir ki, 1934-cü ildə sovet rejiminin dini etiqad azadlığına müdaxiləsi nəticəsində ləğv edilmiş Bakı və Xəzəryanı yeparxiya da müstəqil dövlətçilik şəraitində öz fəaliyyətini yenidən bərpa etmişdir.

Respublikamızın müasir həyatında dinindən və milliyyətindən asılı olmayaraq bütün Azərbaycan vətəndaşları fəal iştirak edir. Onlar dövlətimizin müvəffəqiyyətləri ilə birgə sevinir, qayğıları ilə yaşayır və problemlərini birgə həll edirlər. İnanıram ki, öz sıralarında vətəndaşlarımızı birləşdirən bütün milli-mədəni təşkilatlar, vətəndaş təsisatları, dini qurumlar və konfessiyalar, o cümlədən rus Pravoslav kilsəsi bundan sonra da cəmiyyətin mənəvi-əxlaqi saflaşması, insanlar arasında mehribanlıq, xeyirxahlıq, dostluq və qardaşlıq hisslərinin yaranması, bir-birinə qayğı ilə yanaşması yolunda öz layiqli töhfələrini verəcəkdir. [453-454]

Pasxa bayramı pravoslav xristianların həyatında ən əlamətdar və əziz günlərdən biridir. Qoy builki bayram hər bir vətəndaşımıza, onların ailələrinə, bütün insanlara sevinc, əmin-amanlıq və xeyir-bərəkət gətirsin.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *10 aprel 1999-cu il*
[454]

## YƏHUDİ XALQININ MÜSİBƏTİ GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCANIN YƏHUDİ İCMASINA MÜRACİƏT

Hörmətli həmvətənlər!

Bütün mütərəqqi bəşəriyyət hər il yəhudi xalqının müsibəti gününü – İkinci Dünya müharibəsində yəhudi xalqına qarşı həyata keçirilmiş soyqırımı siyasətinin günahsız qurbanlarının xatirəsini ürək ağrısı ilə yad edir.

1943-cü ilin aprelində Varşava gettosunda saxlanan yəhudi məhbusları öz insani ləyaqətlərini qorumaq naminə üsyan etmiş, lakin onların haqlı etirazı faşistlər tərəfindən ağlasığmaz qəddarlıqla yatırılmışdır. Acınacaqlı faktdır ki, İkinci Dünya müharibəsində altı milyon mülki əhali yalnız yəhudi xalqına mənsub olması səbəbi ilə müxtəlif faciələrə düçar edilmişdir.

O günahsız qurbanların xatirəsini bir daha yad edir və təəssüflə bildirirəm ki, bu gün də dünyada bəzi millətçi – separatçı qüvvələrin təhriki ilə insanlar milli mənsubiyyətinə görə məhv edilir, öz tarixi torpaqlarından didərgin salınır və qeyri-insani məhrumiyyətlərə məruz qalır. XIX–XX əsrlərdə Qafqazda böyük dövlətlərin məkrli ermənilərin əli ilə Azərbaycan xalqına qarşı dəfələrlə həyata keçirdikləri soyqırımı siyasəti son on ildə özünün növbəti mərhələsinə qədəm qoymuş, yüz minlərlə dinc əhalimiz milli mənsubiyyətinə görə təqib olunmuş, öz ata-baba yurdundan qovulmuş, qanlı faciələrə sürüklənmişdir.

Yəhudilərin müsibəti günündə öz ağrılarımızın da yada salınması təbiidir. Çünki milli mənsubiyyətinə görə soyqırımı siyasətinə, kütləvi qanlı faciələrə məruz qalan xalqlardan biri də Azərbaycan xalqıdır. İnanıram ki, faşizmin törətdiyi ci[455-456]nayətlər bütün dünyada öz qiymətini aldığı kimi, ermənilərin xalqımıza qarşı həyata keçirdikləri təcavüzkar, qanlı və mənfur hərəkətlər də öz siyasi və hüquqi qiymətini alacaqdır.

Yaşadıqları oxşar tale və düçar edildikləri faciəli müsibətlər yəhudi və Azərbaycan xalqlarını bir-birinə daha da yaxınlaşdırır. Bu hüznlü gündə yəhudi xalqının kədərinə şərik olduğumu bildirir və dünyanın bütün tərəqqi qüvvələrini insanlığa zidd olan hər cür zorakılığa, milli, dini və irqi ayrı-seçkiliyə qarşı mübarizəyə səsləyirəm.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *12 aprel 1999-cu il*
[456]

**AMERİKA BİRLƏŞMİŞ ŞTATLARININ**
**SENATORU ZATİ-ALİLƏRİ**
**CƏNAB SEM BRAUNBƏKƏ**

Hörmətli cənab senator!

Böyük İpək Yolu ölkələrinin prezidentləri ilə aprelin 24-də Vaşinqtondla Kapitolidə keçirəcəyiniz görüşə məni dəvət etdiyiniz üçün Sizə minnətdarlığımı bildirirəm. Mən bu görüşdə iştirak etməyə, Sizinlə, dəvət etdiyiniz Amerikanın görkəmli siyasətçiləri və Böyük İpək Yolu ölkələrinin prezidentləri ilə birgə xalqlarımızın və dövlətlərimizin ümumi maraqlarını əks etdirən planları və layihələri müzakirə etməyə böyük əhəmiyyət verirəm.

Əminəm ki, Sizin irəli sürdüyünüz və Amerika Konqresində müdafiə etdiyiniz Böyük İpək Yolunun strategiyası haqqında qanunvericiliyin həyata keçirilməsi XXI əsrin ən görkəmli hadisəsinə çevriləcək və bu yolun üstündə olan ölkələrin və xalqların inkişafına xidmət edəcəkdir. Eyni zamanda Sizin qanun layihənizin gerçəkləşdirilməsi ədalətsiz 907-ci düzəlişin də tezliklə aradan götürülməsini təmin edərdi.

Vaşinqtondakı görüşümüzü səbirsizliklə gözləyirəm.

Sizə və bütün Amerika xalqına səadət və çiçəklənmə arzulayıram.

**HEYDƏR ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *13 aprel 1999-cu il*
[457]

# Q E Y D L Ə R

1. **Kübra Fərəcova**, K ü b r a  Y ə h y a  q ı z ı (1907-1988) – pediatr, tibb elmləri doktoru, professor. Müxtəlif illərdə Azərbaycan Xalq Səhiyyə komissarının müavini, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan SSR Səhiyyə naziri, Ana və Uşaq Mühafizəsi İnstitutunun direktoru vəzifələrində çalışmışdır. Tədqiqatı, əsasən, uşaqların fiziki inkişafına, ana və üşaqların mühafizəsinə həsr olunmuşdu. – 5-6.

2. **Leyla Bədirbəyli**, L e y l a  A ğ a l a r  q ı z ı (1920-1999) – görkəmli səhnə ustası, Azərbaycanın xalq artisti. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Azərbaycan Milli Dram Teatrında fəaliyyət göstərmişdir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 7-8,259,273.

3. **Azərbaycan Milli Bankı**, Azərbaycan Dövlət Milli Bankı - Azərbaycan Respublikasının mərkəzi bankıdır. Onun əsas vəzifəsi qiymətlərin sabitliyinin təmin edilməsi, xarici dönərli valyutalara nisbətən milli valyutanın kursunun möhkəmləndirilməsi, həmçinin ölkə bank sisteminin sabitliyinin qorunmasıdır. AMB valyuta tənzimlənməsi və nəzarətini həyata keçirir, xarici dövlətlərlə hesablaşma qaydalarını müəyyən edir, xarici valyuta ehtiyatlarını idarə edir. AMB həmçinin Azərbaycan Respublikasının ödəmə-hesabat balansının tərtibinə rəhbərlik edir. – 12,13.

4. **Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon km$^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı iki palatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 14-23,36,37,134-138,189,199-202,227,284,318,351,447-452,457.

5. **Henri Kissincer** (d.1923) – görkəmli Amerika siyasətçisi, politoloq. 1951-69-cu illərdə Beynəlxalq Harvard Seminarının icraçı direktoru olmuşdur. 1969-75-ci illərdə ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi işləmişdir. 1973-77-ci illərdə ABŞ-ın Dövlət Katibi olmuşdur. [458-459]

Beynəlxalq problemlərə dair bir sıra kitabın müəllifidir. Nobel sülh mükafatı və bir sıra digər mükafatların laureatıdır. – 14-23.

6. **Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalandı və 1945-ci il oktyabrın 24-də qüvvəyə mindi. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

1992-ci ildən Azərbaycan Respublikası BMT-nin üzvüdür. – 14,27-30.

7. **İkinci dünya müharibəsi** (1939-45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibə elan etdi. 1942-43-cü illərdə Sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də Sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağılmışdı. – 14,66, 411,430,431,455.

8. **Sovetlər İttifaqı**, S o v e t  S o s i a l i s t  R e s p u b l i k a l a r ı  İ t t i f a q ı (SSRİ) – 1922-1991-ci illərdə keçmiş Rusiya imperiyasının böyük hissəsində mövcud olmuş dövlət. SSRİ-nin yaradılmasına dair Müqaviləyə (dek.1922) əsasən onun tərkibinə Belorusiya (BSSR), Rusiya (RSFSR), Cənubi Qafqaz respublikaları (ZSFSR; 1936-cı ildən müttəfiq respublikalar – Azərbaycan SSR, Ermənistan SSR, Gürcüstan SSR) və Ukrayna SSR, 1925-ci ildə – [459-460]Özbəkistan SSR, Türkmənistan SSR, 1929-cu ildə Tacikistan SSR, 1936-cı ildə Qazaxıstan SSR, Qırğızıstan SSR, 1940-cı ildə Moldaviya SSR, Latviya SSR, Litva SSR, Estoniya SSR daxil olmuşdular.

1991-ci ilin dekabrında Belorusiya, Rusiya və Ukrayna SSRİ-nin mövcudluğunun dayandırıldığını elan edərək Müstəqil Dövlətlər Birliyinin (MDB) yaradılması haqqında Saziş imzaladılar (8 dekabr, Minsk). 1991-ci il dekabrın 21-də Latviya, Litva və Estoniya istisna olmaqla keçmiş SSRİ-nin digər müttəfiq respublikalarının başçıları Alma-Atada Bəyannamə imzalayaraq MDB-nin yaradılması haqqında məqsəd və prinsiplərə qoşulduqlarını bəyan etdilər. – 17,65,66,68,129,130,131,150,191,193,236, 247,248,250,260,261,262,296,338,344,346,380,382,411,412,413.

9. **Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları Saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və xarici sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici işlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 17,27-30,88,89,131,161,240-248,250,260, 284,288,289,348,376,393-403,450.

10. **ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdı.

1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və Fransa həmsədrləri var. Qrupun əsas vəzifəsi [460-461] Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 17,134,135,136,137,227,318,319,382,399, 403,450.

11. **Amerika Konqresi**, A m e r i k a B i r l ə ş m i ş Ş t a t l a r ı K o n- q r e s i – ali qanunverici hakimiyyət orqanı. İki palatadan – Senatdan və Nümayəndələr Palatasından ibarətdir.

Senatın 100 nəfər üzvü var. Ölkənin hər ştatından Senata iki senator seçilir. Nümayəndələr Palatasının 435 üzvü var. Bu palatanın üzvləri hər seçki dairəsində yaşayan əhalinin sayına görə seçilir. Qanun layihələri hər iki palatada müzakirə olunur. Konqres tərəfindən qəbul olunan qanunları ABŞ prezidenti təsdiq edir. – 17,18,20,37,352,451,457.

12. **Rusiya**, R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dovlət. Ərazisi 17075,4 min km², əhalisi 146,3 milyon nəfərdir. Rusiya respublika idarəetmə fopmalı demokratik federativ dövlətdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı iki palatalı – Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 17,22,53,54, 65-68,69,72,87,88,89,113,135,137,150,151,152,159,160,165,166,184,191, 218,227,237,242,243,247,260,262,275,276,289,292,372-384,391,394,395-403,405,407,413,414,448,450.

13. «907-**ci maddə**» – ABŞ Konqresinin 1992-ci il oktyabrın 24-də erməni lobbisinin təzyiqi ilə qəbul etdiyi «Rusiyanın və yeni müstəqillik qazanmış dövlətlərin azadlığını müdafiə aktı»na 907-ci düzəliş nəzərdə tutulur. Düzəliş ABŞ hökumətinin Azərbaycan hökumətinə yardımını qadağan edir.Buna baxmayaraq istər Bill Klinton, istərsə də ondan sonra ABŞ prezidenti seçilən Corc Buş administrasiyası bu düzəlişin reallığı nəzərə almadığını təsdiq edərək onun ləğv edilməsi təklifini müdafiə etmişlər. C.Buş hökuməti 2002-ci ildə bu düzəlişin fəaliyyətdən düşdüyünü qərara almışdır. – 17,18,20,37,352,448, 449,451,452,457.

14. **Bill Klinton**, U i l y a m C e f e r s o n B l a y d (d.1946) – ABŞ-ın görkəmli siyasi və dövlət xadimi. ABŞ-ın 41-ci prezidenti (1992-2000). Klinton xarici siyasətində SSRİ dağıldıqdan sonra müstəqillik qazanmış dövlət[461-462]lərlə, o cümlədən Azərbaycan Respublikası ilə münasibətlərin yaxşılaşdırılmasına mühüm əhəmiyyət vermişdir. – 18,21,36,37,134-138, 199-202.

15. **NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə

Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1990) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzilqərargahı Brüsseldədir. – 22,70,89,352, 394.

16. **Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərq kənarında dövlət. Sahəsi 780,6 min km², əhalisi 62,7 mln. nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı Prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 22,33-102,104,105,106,107,108,109,117-118,119,151,185-196, 281,340,343,347,350,351,404-417,425.

17. **Ceyhan** – Aralıq dənizi sahilində liman. 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 22,37,38,70, 189,190,191,201,204,350,423,424.

18. **Qobustan** – Azərbaycanın şərqində alçaq dağlıq sahə, uzunluğu 100 km, eni 80 km-ə yaxındır. Qobustan yaxınlığında, Qobustan qoruğu ərazisində zəngin qayaüstü təsvirlərlə yanaşı, Daş dövründən başlamış orta əsrlərədək çoxlu ibtidai insan düşərgəsi, qədim yaşayış məskəni, kurqanlar və s. arxeoloji abidələr vardır. Onların beşində Mezolit, dördündə Neolit, yeddisində Tunc, birində antik və beşində orta əsrlər dövründə yaşayış olduğunu göstərən mədəni təbəqə və maddi qalıqlar aşkar edilmişdir. – 23,436.

19. **İhsan Doğramacı** (d.1915) – türkdilli ölkələrin Milli Pediatriya Cəmiyyətləri Birliyinin fəxri prezidenti, elmlər doktoru, professor. 1963-[462-463]65-ci illərdə Ankarada Uşaq Sağlamlığı İnstitutunun direktoru, 1977-93-cü illərdə institutun icraçı direktoru, 1992-ci ildən isə fəxri prezidenti, 1968-73-cü illərdə Pediatorların Tibb Assosiasiyasının prezidentidir. 1959-cu ildən YUNİSEF-in İcraiyyə Komitəsinin üzvüdür. İki dəfə Bilkənd Universitetinin sədri və rektoru olmuş, 1975-ci ildən isə universitetin fəxri rektorudur. – 26.

20. **Avropa Birliyi** (AB) – 1951-57-ci illərdə yaranmış üç Qərbi Avropa inteqrasiya təşkilatının ümumi adı (Avropa İqtisadi Birliyi - AİB, Avropa Kömür və Polad Birliyi – AKPB, Avropada Atom Energetika Birliyi – (AAEB). AB ümumi prinsiplərin müəyyən edilməsindən birgə fəaliyyətə qədər bir neçə mərhələ (Avropa İnvestisiya Bankının, Avropa Regional İnkişaf Fondunun - vahid valyutaya keçməsi - AVRO-ya) keçmişdir. Mühüm mərhələ Vahid Avropa Aktının (1986-1987-ci ildən qüvvəyə minmişdir) qəbul edilməsi olmuşdur. 1967-ci ildə rəhbər orqanların birləşməsindən sonra - AİB, AKPB və AAEB – Avropa Birliyi – 1993-cü ildə isə Avropa Şurası yarandı. – 26,287.

21. **Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə nazirliklərinin müşavirəsi və katiblikdir. Azərbaycan 2001-ci ildən AŞ-nın üzvüdür. – 26,121.

22. **BMT-nin Ümumdünya Ərzaq Proqramı** – ərzaq məhsullarının istehsalında və ticarətdə beynəlxalq əməkdaşlığı koordinasiya etmək məqsədilə BMT-nin tərkibində yaradılmış orqan. 1975-ci ildən fəaliyyət göstərir. Katibliyi Roma şəhərindədir. – 27-30.

23. **Artur Rasizadə**, Artur Tahir oğlu (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986-92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 27,28,48, 53,115,251.

24. **Əli Həsənov**, Əli Məhəmmədəli oğlu (d.1960) – siyasi xadim; tarix elmləri doktoru, professor. Yeni Azərbaycan Partiyasının [463-464] yaradıcılarından biri kimi onun Siyasi Şurasının üzvü (1992), İdarə Heyətinin üzvü (1999), 1993-95-ci illərdə partiyanın ideoloji şöbəsinin müdiri işləmişdir. 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti İcra Aparatının ictimai-siyasi şöbəsinə rəhbərlik edir. Müasir siyasi problemlərə aid kitabların və çoxlu məqalələrin müəllifidir. – 28.

25. **Ramazan bayramı** – Müsəlman aləmində orucluq bitəndən sonra keçirilən bayram. Qurani-kərim oruc tutmağı islamın vacib əməllərindən biri hesab etmiş və insanlarda yol verilmiş xətaların oruc tutmaqla bağışlanmasını təsbit edir. Bu bayram bir də ona görə əzizdir ki, məhz Qurani-kərim müqəddəs Rama-

zan ayında nazil olmuşdur. Bu bayram bir fərdin deyil, bütün cəmiyyətin mənəvi sevinci, bu həyəcanın hamıya çatması, bütün müsəlmanları qəlbdən qardaş sanmaqdır. – 31-32,41,42,43,44, 45,60,64,71.

26. 1990-**cı ilin qanlı yanvarı** – 1990-cı ilin yanvarında Azərbaycanda faciə baş verdi. Yanvarın 19-dan 20-nə keçən gecə fövqəladə vəziyyət elan edilmədən Sovet ordusunun xüsusi təyinatlı cəza dəstələri, dəniz donanmasının və daxili qoşunların bölmələri Bakı şəhərinə yeridildi. Sovet ordusunun bu kütləvi zorakılıq aktı nəticəsində 131 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, yüzlərlə adam qanunsuz həbs edilmiş və itkin düşmüş, dövlət əmlakına, ictimai və şəxsi əmlaka, şəhər təsərrüfatına və vətəndaşlara böyük maddi ziyan dəymişdi. 1990-cı ilin Qanlı Yanvarı Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan mübarizə tariximizdə Vətənin şəhid övladlarının qanı ilə yazılmış şərəfli səhifə oldu. – 31,49,50,60,61,235.

27. **Gülhanə Hərbi Tibb Akademiyası** – Türkiyədə məşhur tibb ocaqlarından biri. 1898-ci ildən fəaliyyət göstərir. Akademiya ən müasir tibb avadanlığı ilə təmin edilmişdir. Burada həm müalicə edilir, həm də elmi tədqiqatlar aparılır. – 33-98,105,106,109,117.

28. **Süleyman Dəmirəl** (d.1924) – Türkiyənin görkəmli siyasi, ictimai və dövlət xadimi. Yeddi dəfə hökumətə başçılıq etmiş, 1993-2000-ci illərdə Türkiyə Respublikasının prezidenti olmuşdur. Süleyman Dəmirəlin siyasi fəaliyyətinin mənasını Türkiyəni iqtisadi cəhətdən dinamik inkişaf edən, demokratik dəyərlərə əsaslanan, Avropa ilə qovuşan bir dövlətə çevirmək əzmi təşkil etmişdir. Yeni türk dövlətləri ilə münasibətlərin, xüsusilə Azərbaycanla əlaqələrin genişlənməsi və möhkəmlənməsi Süleyman Dəmirəlin diqqət mərkəzində olmuşdur. Süleyman Dəmirəl: [464-465] «Türkiyə həmişə Azərbaycanın yanındadır, Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkədir, onun inkişaf etməsi üçün əlindən gələn hər bir yardımı göstərmişdir və göstərməkdə də davam edəcəkdir» kəlamına əbədi sadiq dövlət xadimidir.

S.Dəmirəl Türkiyə-Azərbaycan, xalqlarımız və dövlətlərimiz arasında sarsılmaz dostluq münasibətlərinə xüsusi diqqət göstərdiyinə görə Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 33-37,42-43,47,48,52,53,54,55,58,62,69-70,73,76,77,78,80,83,87,91,92,93,95,96,97, 99-100,105,106,108,109,117-118,119,186,187,188,192,193,194,195,281, 343,347,350,412.

29. **Moskva** – Rusiya Federasiyasının paytaxtı. Ölkənin siyasi, inzibati və mədəni mərkəzi, mühüm nəqliyyat qovşağıdır. Əsası 1147-ci ildə Suzdal knyazı Yuri Dolqoruki tərəfindən qoyulmuşdur. – 34,49,53,57, 59,61,66,67,72,76,79,82,83,87,97,105,106,127,128,152,166,171,193,234, 237,240,244,245,247,356,357,372-384,395-403,413,435,448,450.

30. **Hikmət Çətin** (d.1937) – Türkiyənin siyasi və dövlət xadimi. Ayrı-ayrı illərdə Türkiyə Respublikasının xarici işlər naziri, Baş nazirin müavini vəzifələrində çalışmışdır. 1997-99-cu illərdə Türkiyə Böyük Millət Məclisinin sədri olmuşdur. – 38-39,47,52,62,69-70,77,78.

31. **Böyük Millət Məclisi** (BMM) – Türkiyənin ali qanunverici orqanı. Parlament 1920-ci il aprelin 23-də yaradılmışdır. BMM-nin ilk sədri M.K.Atatürk olmuşdur. BMM iki palatadan ibarətdir: Senat (yuxarı palata) və Milli palata. BMM məclis üzvlərindən respublika prezidentini seçir. – 38-39,47,107.

32. **Bülənd Ecevit** (1925-2006) – Türkiyənin siyasi və dövlət xadimi. 1974,1978-79 və 1997-2003-cü illərdə Türkiyə Respublikasının Baş naziri olmuşdur. 1972-80-ci illərdə Respublika Xalq Partiyasının, 1978-88-ci illərdə Türkiyə Demokrat Sol Partiyasının Baş katibi olmuşdur. – 40-41, 47,52,62.

33. **Naxçıvan Muxtar Respublikası** (1920-23-cü illərdə Naxçıvan Sovet Sosialist Respublikası, 1923-24-cü illərdə Naxçıvan Muxtar Diyarı, 1924-90-cı illərdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası, 1990-cı ildən Naxçıvan Muxtar Respublikası) – Azərbaycan Respublikasının tərkibində muxtar dövlət. [465-466]

Muxtar respublika ərazisinin sahəsi 5,5 min km², əhalisi 361,2 min nəfərdir. Hazırda 6 inzibati rayonu (Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur 4 şəhəri (Naxçıvan, Ordubad,Culfa, Şərur), 4 şəhər tipli qəsəbəsi (Babək, Şahbuz, Parağaçay, Heydərabad), 207 kənd və qəsəbəsi var. – 41,143-154.

34. **Ümid körpüsü**, Həsrət körpüsü – Araz çayı üzərində körpü (uz. 286 metr). Türkiyə ilə Azərbaycan arasında sərhəddə (Türkiyənin Dilucu və Azərbaycanın Sədərək bölgələri) iki qardaş dövlət və ölkəni birləşdirir. 90-cı illərin əvvəllərində Naxçıvan MR-nin keçirdiyi iqtisadi çətinliklərin, xüsusilə nəqliyyat blokadasının ləğvində körpünün müstəsna rolu olmuşdur. –41.

35. **Azər TAc** – Azərbaycanda dövlət informasiya orqanı. 1920-ci ildə yaradılmışdır. Əvvəllər Azərinform adlanırdı. 1992-ci ildən Azər TAC kimi fəaliyyət göstərir. Azərbaycan Respublikası mətbuatı, televiziya və radiosu üçün xarici və daxili informasiyanı yayır, respublikanın həyatı haqqında ölkədə və xaricdə yaymaq üçün informasiya verir. – 46-51.

36. **Ramiz Mehdiyev**, R a m i z  Ə n v ə r  o ğ l u (d.1938) – Azərbaycanın tanınmış siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. 1978-80-ci illərdə rayon partiya komitəsinin birinci katibi, 1980-81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981-83-cü illərdə Azərbaycan KP MK-da təşkilat partiya işi şöbəsinin müdiri, 1983-88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988-94-cü illərdə Azərbaycan Respublikası MEA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəridir. 1995-2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. – 48,53.

37. 1993-**cü il vətəndaş müharibəsi** – Azərbaycanı vətəndaş müharibəsi həddinə gətirmiş Gəncə hadisələri, Bakıda Ali Sovetin binası qarşısında keçirilən çoxsaylı mitinqlə, Heydər Əliyevin xalqın tələbilə Naxçıvandan Bakıya gəlməsi, Ali Sovetin sədri seçilməsi, o zamankı respublika prezidenti Ə.Əliyevin (Elçibəyin) Kələki kəndinə getməsi, Ali Sovetin sədri Heydər Əliyevin respublika prezidentinin vəzifəsini icra etməyə başlaması nəzərdə tutulur. – 49,194,303.

38. 1994-**cü il dövlət çevrilişi** – Oktyabrın 3-də Gəncə və Qazaxda, həmçinin Bakıda Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə düşmən [466-467] olan qüvvələr tərəfindən dövlət çevrilişi cəhdi nəzərdə tutulur. Həmin gün Bakıda fövqəladə vəziyyət elan edilmiş və Azərbaycan Prezidenti Heydər Əliyev televiziya və radio ilə xalqa müraciət etmişdi. Gecə olmasına baxmayaraq Bakı və ona yaxın yerlərdən yüz minlərlə insan Prezident Sarayı qarşısına toplaşaraq milli və vətəndaşlıq həmrəyliyi nümayiş etdirərək Heydər Əliyevin siyasətini dəstəkləmişlər. – 49,304.

39. **Şəhidlər xiyabanı**. Azərbaycanın azadlığı, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş mərd oğul və qızların uyuduğu müqəddəs ziyarətgah. 1990-cı il yanvarın 20-də Sovet ordusunun hücumu zamanı həlak olmuş onlarla adam «Dağüstü park»ın qərb hissəsində dəfn edilmişdir. Bura o vaxtdan «Şəhidlər xiyabanı» adlanır. Xiyabanda eyni zamanda Ermənistan işğalçılarına qarşı Azərbaycan torpaqlarının müdafiəsi uğrunda qəhrəmancasına həlak olanlar da dəfn edilmişdir. 1998-ci ildə burada hündürlüyü 22 metr olan əbədi məşəl-abidə qoyulmuşdur. – 50,51.

40. **«ANS» televiziyası** – Azərbaycanda 1991-ci ildən fəaliyyət göstərən müstəqil televiziya kanallarından biri. – 52-59,74.

41. **Cəmil Əliyev**, C ə m i l  Ə z i z  o ğ l u (d.1946) – həkim, tibb elmləri doktoru, professor, Azərbaycan MEA-nın akademiki. Rusiya Təbiyyat EA və Tibb EA-nın həqiqi üzvü, Azərbaycan Respublikasının əməkdar elm xadimi. 1990-cı ildən Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Milli Onkologiya Mərkəzinin (MOM) direktoru, 1994-cü ildən eyni zamanda Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutu Onkologiya kafedrasının müdiri, Respublika Səhiyyə Nazirliyinin baş onkoloqudur. Onkologiyanın aktual və praktik problemlərinə – bədxassəli şiş törəmələrinin epidimiologiyası, müalicəsi və reabilitasiyasına dair tədqiqatların müəllifidir. C.Əliyev tədqiqatları nəticəsində dünyada ilk dəfə olaraq süd vəzi xərçəngi olan xəstələrdə gizli keçən B viruslu hepatit olmasının belə xəstələrdə müalicə proqnozuna xeyli dərəcədə mənfi təsir göstərdiyini sübut etmişdir. – 53,58.

42. **Əli İnsanov**, Ə l i  B i n n ə t  o ğ l u (d. 1946) – tibb elmləri doktoru, professor, MEA-nın akademiki. 1993-2005-ci illərdə Azərbaycan Respublikasının səhiyyə naziri olmuşdur. – 54.

43. **İlham Əliyev**, İ l h a m  H e y d ə r  o ğ l u (d.1961) – görkəmli ictimai-siyasi və dövlət xadimi, diplomat. 2003-cü ildən Azərbaycan Respublikasının [467-468] prezidenti. Prezident Heydər Əliyevin oğludur. 1994-cü ildən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, 1997-ci ildən həmin şirkətin birinci vitse-prezidentidir. Azərbaycan Respublikasının neft strategiyasının həyata keçirilməsində mühüm xidmətləri vardır.

2003-cü ildə Azərbaycan Respublikasının Baş naziri olmuşdur. Siyasi və dövlət xadimi kimi İlham Əliyev beynəlxalq aləmdə böyük hörmət və nüfuz qazanmış, bir neçə ölkənin ordenləri ilə təltif olunmuşdur.

Azərbaycan idmançılarının beynəlxalq yarışlarda uğurlar əldə etməsində də AMOK-un prezidenti kimi İlham Əliyevin böyük xidmətləri var. Onun şəxsi təşəbbüsü ilə Bakıda, Naxçıvanda, Gəncədə, Şəkidə və respublikanın digər rayonlarında dünya standartlarına cavab verən böyük olimpiya kompleksləri tikilib istifadəyə verilmiş, güclü maddi-texniki baza yaradılmışdır.

Ölkədə demokratik islahatlar aparılmasında, hüquqi dövlət quruculuğunda, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmlənməsində uğurlu xidmətlər göstərən İlham Əliyev Yeni Azərbaycan Partiyasının I qurultayında partiya sədrinin müavini, II qurultayında sədrin birinci müavini vəzifəsinə seçilmişdir. 2005-ci ilin martından isə Yeni Azərbaycan Partiyasının sədridir. 1995-ci ildən

Azərbaycan Respublikası Milli Məclisinin (1-2-ci çağırış) deputatı, Avropa Şurası Parlament Assambleyasında Azərbaycan Parlamenti daimi nümayəndə heyətinin başçısı olmuşdur. Azərbaycan haqqında, xüsusilə Ermənistanın ölkəmizə hərbi təcavüzü və onun nəticələri, erməni terrorizmi haqqında həqiqətlərin ən mötəbər beynəlxalq təşkilatlar vasitəsilə dünya ictimaiyyətinə çatdırılmasında müstəsna xidmətləri var. «Heydər Əliyev» ordeni ilə təltif olunmuşdur. – 53,55,58,80,86.

44. **Murtuz Ələsgərov**, M u r t u z  N ə c ə f  o ğ l u (d.1928) – Azərbaycanın dövlət xadimi, hüquq elmləri doktoru, professor. Respublikanın Əməkdar hüquqşünasıdır. Yeni Azərbaycan Partiyasının sədr müavini və partiyanın Siyasi Şurasının üzvüdür. 1993-cü ildə Bakı Dövlət Universitetinin rektoru olub. 1995-ci ildə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilib. 1996-2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin sədri olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 56,141.

45. **Cəlal Əliyev**, C ə l a l  Ə l i r z a  o ğ l u (d.1928) – bitki fizioloqu, elm təşkilatçısı, ictimai xadim. Azərbaycan Milli EA-nın akademiki, əməkdar elm xadimi, Rusiya Kənd Təsərrüfatı EA-nın həqiqi üzvü, Uk[468-469]rayna və Belarus Aqrar EA-larının əcnəbi üzvü, Beynəlxalq Elmi İnkişaf Şurasının – Beynəlxalq EA Azərbaycan Bölməsinin fəxri prezidentidir. Azərbaycan MEA-nın Botanika İnstitutunda məhsuldarlıq proseslərinin molekulyar- genetik əsasları şöbəsinin müdiri vəzifəsində çalışır. Azərbaycan MEA Rəyasət Heyətinin üzvüdür.

Cəlal Əliyevin başçılığı ilə respublikada genetik ehtiyatların öyrənilməsi üzrə və «Biomüxtəliflik» milli proqramları həyata keçirilir. C.Əliyev həm də vətənimizin ərazi bütövlüyü, ölkəmizdə müstəqil, demokratik, hüquqi dövlət quruculuğu uğrunda mübarizə aparan görkəmli ictimai xadimdir. Azərbaycan Respublikası Milli Məclisinin (1995-ci ildən) deputatıdır. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 58.

46. «**Azərbaycan**» – Azərbaycan Respublikasında gündəlik, siyasi, ictimai qəzet. Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur. 1992-ci ildən yenidən nəşr edilir. Azərbaycan Respublikası Milli Məclisinin orqanıdır. – 59.

47. «**NTV**» – Rusiya Federasiyasının müstəqil televiziya kanallarından biri. 1991-ci ildən fəaliyyət göstərir. – 65-68,74.

48. **Qorbaçov**, M i x a i l  S e r g e y e v i ç (d.1931) – 1985-91-ci illərdə Sov.İKP MK-nın Baş katibi, 1990-91-ci illərdə SSRİ-nin ilk və son prezidenti. Qorbaçov «yenidənqurma» adı ilə «aşkarlıq və demokratiya» siyasi xəttini, «humanist, demokratik sosializm» şüarını meydana atdı. Sovet totalitar rejimi ilə uyuşmayan «yenidənqurma» ölkəni dərin siyasi və iqtisadi böhrana saldı. Qorbaçovun milli münaqişələrə səbəb olan siyasəti xüsusən Azərbaycana qarşı qərəzli, düşmənçilik mövqeyi ilə səciyyələnirdi. Ermənilərin Azərbaycana olan torpaq iddialarını dəstəkləyən Qorbaçov 1990-cı ilin yanvarında Bakıda baş verən Qanlı Yanvar faciəsinin, həmçinin Tbilisi və Vilnusdakı qanlı hadisələrin təşkilatçısı və günahkarıdır. – 65,66,236,237,238.

49. **Yazov** Dmitri Timofeyeviç (d.1924) – Sovet İttifaqı marşalı. 1987-ci ildən SSRİ Müdafiə naziri olmuşdur. Yazov 1990-cı ilin yanvarında Bakıda baş verən Qanlı Yanvar faciəsinin təşkilatçılarından biridir. – 66.

50. **Bakatin** Vadim Viktoroviç (d.1937) – 1989-90-cı illərdə SSRİ Daxili İşlər naziri, 1991-92-ci illərdə SSRİ DTK-nın sədri və Rusiya Federasiyası Təhlükəsizlik İdarəsinin direktoru işləmişdir. Bakatin 1990-cı [469-470] ilin yanvarında Bakıda baş verən Qanlı Yanvar faciəsinin təşkilatçılarından biridir. – 66.

51. 1956-**ci il Macarıstan hadisələri** – 1956-cı ildə Macarıstanda kommunist rejiminə qarşı kütləvi surətdə xalq hərəkatı başladı. Bu hərəkat sovet qoşunları tərəfindən yatırıldı. – 67.

52. 1968-**ci il Çexoslovakiya hadisələri** – 1968-ci ildə Çexoslovakiyada demokratik qüvvələr yaranmağa başladı. Bu qüvvələr ölkədə sovet rejiminə qarşı çıxmağa başladı. Bu zaman Varşava Paktı Ölkələrinin hərbi qüvvələri Çexoslovakiyaya yeridildi. Ölkədəki demokratik qüvvələr kütləvi surətdə həbs və məhv edildi. – 67.

53. **Xruşşov Nikita Sergeyeviç** (1894-1971) – SSRİ-nin partiya və dövlət xadimi. 1953-1964-cü illərdə Sov.İKP MK-nın birinci katibi, 1958-1964-cü illərdə həmçinin SSRİ Nazirlər Sovetinin sədri olmuşdur. – 67.

54. **Nazarbayev Nursultan**, N u r s u l t a n  A b i ş  o ğ l u (d.1940) – Qazaxıstanın dövlət və siyasi xadimi. 1979-cu ildə Qazaxıstan MK-nın katibi, 1984-cü ildə Qazaxıstan Ali Sovetinin sədri, Nazirlər Sovetinin sədri, 1989-91-ci illərdə Qazaxıstan KP MK-nın Birinci katibi. 1990-cı ildə həm də Ali Sovetin sədri, 1991-ci ildə Qazaxıstan SSR-in prezidenti və 1991-ci ilin dekabrından Qazaxıstan Respublikasının prezidentidir. – 69,77,237,348.

55. **Özbəkistan**, Ö z b ə k i s t a n  R e s p u b l i k a s ı – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min km², əhalisi 23 206 min nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı – prezident, qanunverici orqanı – Məclisdir. Paytaxtı Daşkənd səhəridir. – 69,155-158,183,189,237,241,246,345,347, 348,425,434.

56. **İslam Kərimov**, İ s l a m  Ə b d u q ə n i  o ğ l u (d.1938) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989-1990-cı illərdə Özbəkistan KP MK-nın birinci katibi olmuşdur. 1990-cı ildən Özbəkistan Respublikasının prezidentidir. – 69,78,155,156,183,241,246,347.

57. **Əsgər Akayev** (d.1944) – Qırğızıstanın siyasi və dövlət xadimi. 1989-90-cı illərdə Qırğızıstan EA-nın prezidenti, 1990-2005-ci illərdə Qırğızıstan Respublikasının prezidenti olmuşdur. – 69,78,349. [470-471]

58. **Yevgeni Maksimoviç Primakov** (d.1929) – Rusiyanın siyasi və dövlət xadimi, diplomat. REA-nın akademiki. 1990-cı illərdə Rusiya Federasiyasının xarici işlər naziri, Nazirlər Sovetinin sədri vəzifələrində çalışmışdır. Hazırda Rusiya Federasiyası Sənaye-Ticarət Palatasının prezidentidir. – 69,87,398-400,403.

59. **Şaymiyev Mintemir Şaripoviç**(d.1937) – Rusiya dövlət xadimi. 1985-89-cu illərdə Tatarıstan MSSR Ali Sovetinin sədri, 1991-ci ildən Tatarıstan Respublikasının prezidentidir. – 69.

60. **NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramı** – NATO ilə Şərqi Avropa və keçmiş SSRİ ölkələri arasında siyasi və hərbi sahələrdə əməkdaşlıq sənədi, 1994-cü il yanvarın 10-11-də NATO Şurasının dövlət və hökumət başçıları səviyyəsində Brüsseldə keçirilən görüşdə ABŞ tərəfindən təklif edilmişdir.

Azərbaycan Prezidenti Heydər Əliyev 1994-cü il mayın 4-də NATO-nun Brüsseldəki mənzil-qərargahında Azərbaycanın «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulması haqqında sənədi imzalamışdır. 1996-cı ilin aprelində Heydər Əliyev NATO-nun Brüsseldəki mənzil-qərargahında NATO-nun Baş katibi Xavyer Solana ilə görüşündə Azərbaycan Respublikasının təqdimat sənədini ona vermişdir. Həmin sənəd əsasında Azərbaycanın NATO ilə tərəfdaşlığının fərdi proqramı hazırlanmışdır. – 70.

61. **Kosovo hadisələri** – 1999-cu ildə Serbiya hakimiyyəti tərəfindən Kosovoda yaşayan alban əhalisinə qarşı etnik zor tətbiq edilməyə başlandı. Bunun nəticəsində milyona yaxın dinc alban əhalisi vəhşicəsinə öldürüldü. Bunun qarşısını almaq üçün NATO hərbi qüvvələri işə qarışdı. Yuqoslaviya hərbi qüvvələri öz qoşunlarını Kosovodan çıxarmağa məcbur edildi və NATO sülh məramlı qüvvələri Kosovoya gətirildi. – 70,394.

62. **Ş e y x ü l i s l a m  H a c ı  A l l a h ş ü k ü r  P a ş a z a d ə**, A l- l a h ş ü k ü r  H ü m m ə t  o ğ l u (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 71-74,162,322,364-371.

63. **Aleksi II**, Ridiger Aleksandr Mixayloviç (d.1929) – 1990-cı ildən Moskvanın və Ümum Rusiyanın patriarxi. RAO-nun akademiki. – 72, 159,162,166. [471-472]

64. **Elçin Əfəndiyev**, E l ç i n  İ l y a s  o ğ l u (1943) – Azərbaycan yazıçısı, ictimai və dövlət xadimi. Azərbaycan Respublikasının xalq yazıçısı. Yazıçı İlyas Əfəndiyevin oğlu. Azərbaycan Yazıçılar Birliyinin katibi, Xaricdə Yaşayan Həmvətənlərlə Mədəni Əlaqələr «Vətən» cəmiyyətinin sədri vəzifəsində işləmişdir. 1993-cü ildən Azərbaycan Respublikasının Baş nazirinin müavinidir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 77-78,82,130,177,435,436.

65. **Arif Rəhimzadə**, A r i f  Q a f a r  o ğ l u (d.1941) – Azərbaycanın siyasi və dövlət xadimi. 1990-cı ildən Azərbaycan Respublikası Ali Sovetinin deputatı, 1995-2005-ci illərdə Milli Məclis sədrinin birinci müavini olmuşdur. Arif Rəhimzadə hazırda Milli Məclisin Regional məsələlər üzrə daimi komissiyasının sədridir. – 78.

66. **Bəxtiyar Vahabzadə**, B ə x t i y a r  M a h m u d  o ğ l u (d.1925) – Azərbaycanın xalq şairi, dramaturq, ədəbiyyatşünas. Azərbaycan Dövlət mükafatı laureatı, 1991-2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan Milli EA-nın akademikidir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 81,82,83, 128.

67. **Birinci cahan müharibəsi** – burada Birinci dünya müharibəsi nəzərdə tutulur.

68. **Osmanlı imperiyası**, Osmanlı imperatorluğu – Sultan Türkiyəsinin rəsmi adı (Osmanlılar sülaləsinin əsasını qoymuş I Osmanın adındandır). XV əsrin 2-ci yarısından Osmanlı dövləti imperiyaya çevrilməyə başlamış, XV-XVI əsrlərdə Asiya, Avropa və Afrikada türk işğalları nəticəsində dünyanın ən böyük dövlətlərindən biri olmuşdur. 1918-ci ildə Birinci dünya müharibəsində məğlubiyyətindən sonra tamamilə dağıldı, 1922-ci ildə Türkiyə sultanlığına da son qoyuldu. – 82, 169,406,407.

69. **YUNESKO** – BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 82,168,169,349.

70. **Əli Nağıyev** (d.1954) – 1996-2006-cı illərdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziri olmuşdur. 2006-cı ilin [472-473] mayında Azərbaycan Respublikasının Belarus Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilmişdir. I çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. – 83.

71. **Zeynəb Xanlarova**, Zeynəb Yəhya qızı (d.1936) – müğənni, xanəndə. Azərbaycan və SSRİ xalq artisti. Xanlarovanın repertuarında muğam, təsnif, Azərbaycan xalq mahnıları və Azərbaycan bəstəkarlarının mahnıları əsas yer tutur. Xalq musiqisinin, eləcə də Azərbaycan bəstəkarlarının mahnılarının populyarlaşmasında xidməti böyükdür. Azərbaycan Respublikası Milli Məclisinin (2000-ci ildən) üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 83.

72. **Mir Möhsün Ağa**, Ağa Seyid Əli Mir Möhsünzadə (Ətağa) (1883-1950) – Azərbaycanda və onun sərhədlərindən kənarda tanınan kəramət və möcüzə sahibi. Ağanın bu cür kəramət sahibi olması – həm sağlığında, həm də haqq dünyasına köçəndən sonra dara düşən insanları xilas edir, nicat verir. Ətağa müəyyən telepatik qabiliyyətə də malik idi. Onun varlığından hansısa fitri, bioloji enerji saçılırdı. İndinin özündə də Ağanın ruhuna, kəramətinə inam eynilə qalır. – 83.

73. **Məsud Yılmaz** (d.1947) – Türkiyənin siyasi və dövlət xadimi. 1997-ci ildə Türkiyə Cümhuriyyətinin Baş naziri olmuşdur. Ana Vətən Partiyasının başqanıdır. – 83,93-94,188.

74. **Maykl Debeyki** (d.1908) – dünya şöhrətli ürək cərrahı. Hyüstondakı tibb mərkəzində kardioloji xəstəliklərin müalicəsi üzrə professordur. Tibb mərkəzində 1949-cu ildən çalışır. Debeyki tərəfindən hazırlanan müvəqqəti işləməkdən ötrü süni ürəkdən ilk dəfə 1966-cı ildə istifadə edilmişdir. – 85.

75. **Lujkov Yuri Mixayloviç** (d.1936) – Rusiyanın istimai və dövlət xadimi. 1992-ci ildən Moskva şəhərinin meridir. Moskva şəhəri ilə Azərbaycan arasında iqtisadi və mədəni əlaqələrin güclənməsi və möhkəmləndirilməsində yaxından iştirak edir. – 87,372-384.

76. **İran**, İran İslam Respublikası – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon $km^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Dövlətdə ən yüksək [473-474] rəsmi şəxs prezidentdir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 89,139-142,151,391.

77. **Mustafa Kamal Atatürk**, Qazi Mustafa Kamal (1881-1938) –Türkiyə dövlət, siyasi və hərbi xadimi, Türkiyə Respublikasının banisi və ilk prezidenti (1923-38). Birinci dünya müharibəsi zamanı Dardanel boğazının müdafiəsində (1915) şücaət göstərmişdir.

Atatürk 1919-cu ildə «kamalçılar hərəkatına» – milli azadlıq hərəkatına başçılıq etmişdir. 1920-ci ildə Atatürk Ankarada yeni parlament – Türkiyə Böyük Millət Məclisini (TBMM) yaratdı, məclisin və təşkil edilən hökumətin sədri seçildi. Sakarya çayı yaxınlığında qələbəyə görə TBMM Atatürkə marşal rütbəsi və «Qazi» fəxri adını vermişdir. 1922-ci ildə Atatürkün komandanlığı ilə türk ordusu Türkiyəni xarici müdaxiləçilərdən tamamilə azad etdi.

Atatürk soy adı ona 1934-cü ildə TBMM tərəfindən verilmişdir. – 101,404-417.

78. **Beynəlxalq Valyuta Fondu** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi, beynəlxalq valyuta təşkilatı. 1945-ci ildə yaradılmış, 1947-ci ildən fəaliyyətə başlamışdır. İdarə heyəti Vaşinqtondadır. Dünyanın 130-a yaxın ölkəsi fondun üzvüdür. Nizamnaməsinə görə məqsədi beynəlxalq valyuta əməkdaşlığına yardım etmək, ölkələr arasında valyuta-hesablaşma münasibətlərini nizama salmaq, fonda daxil olan ölkə-

lərin ödəmə balanslarını tarazlaşdırmaq və valyuta məzənnəsini tənzimləməkdən ibarətdir. 1992-ci ildə Azərbaycan Respublikası Beynəlxalq Valyuta Fonduna qəbul olunmuşdur. – 114,287,288.

79. **Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1945-ci ildə ABŞ-da Bretton–Vuds çərçivəsi sistemində yaradılmışdır. İdarə heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial inkişafına kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 130-dan artıq dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 114,287,288,289,290,292,297,299,300.

80. **Şevardnadze** E d u a r d  A m v r o s i y e v i ç (d.1928) – Gürcüstanın və SSRİ-nin siyasi və dövlət xadimi. 1972-85-ci illərdə Gürcüstan KP MK-nın birinci katibi, 1985-90-cı illərdə SSRİ xarici işlər naziri, 1994-2003-cü illərdə Gürcüstanın prezidenti olmuşdur. – 121,182,241,246, 395-397,418,419,426,427. [474-475]

81. **Rüstəm İbrahimbəyov**, İ b r a h i m b ə y o v  R ü s t ə m  M ə m -m ə d i b r a h i m  o ğ l u (d.1939) – görkəmli yazıçı, dramaturq, kino-ssenarist. Azərbaycanın xalq yazıçısı. Azərbaycan, Rusiya və SSRİ Dövlət mükafatları laureatı. Respublikada və xaricdə əsərləri mütəmadi nəşr edilən yazıçıdır. Onun ssenariləri əsasında respublikamızda və xaricdə onlarla film çəkilmişdir. 1981-90-cı illərdə Azərbaycan Kinematoqrafçılar İttifaqının birinci katibi, 1990-cı ildən isə sədridir. 1996-cı ildə «Günəşdən usanmışlar» kinofilminin ssenarisinə görə Amerika Kino Akademiyasının «Oskar» mükafatına layiq görülmüşdür. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 122-123,124-133.

82. **Eldar Quliyev**, Q u l i y e v  E l d a r  T o f i q  o ğ l u  (d.1941) – kino rejissoru. Azərbaycan Respublikasının xalq artisti. Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 125.

83. **Xəlil Rza Ulusoy**, Xəlilov Xəlil Rza oğlu (1932-1994) –Azərbaycanın xalq şairi, Azərbaycanda müstəqillik hərəkatının görkəmli öndərlərindən biri. – 128.

84. **Nəriman Nərimanov**, N ə r i m a n  N ə c ə f  o ğ l u (1870-1925) – görkəmli dövlət xadimi, yazıçı və publisist, həkim. 1917-ci ildən Bakı Xalq Komissarları Sovetinin tərkibinə daxil olur.

1920-ci il aprelin 27-də Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi ərəfəsində Nərimanov qiyabi olaraq Azərbaycan İnqilab Komitəsinin, sonra isə Azərbaycan SSR XKS-nin sədri seçildi. O, Azərbaycan xalqının maraqlarını müdafiə etdiyinə görə 1922-ci ildə Moskvaya çağırılır və SSRİ-nin 1-ci Sovetlər qurultayında (1922) SSRİ MİK-nin sədri seçilir. – 128,129,152.

85. **Anar**, R z a y e v  A n a r  R ə s u l  o ğ l u (d.1938) – Azərbaycan yazıçısı, publisist, dramaturq, ictimai xadim, Azərbaycanın xalq yazıçısı. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatıdır. Azərbaycan və SSRİ Ali sovetlərinin xalq deputatı olmuşdur. 1995-2005-ci illərdə Milli Məclisin deputatı və Mədəniyyət məsələləri komissiyasının sədri, 1987-ci ildən Azərbaycan Respublikası Yazıçılar Birliyinin sədridir. Əsərləri dünyanın bir çox ölkələrində nəşr olunmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 128,130,172,173, 177,435.

86. **Lenin**, V l a d i m i r  İ l i ç (Ulyanov) (1870-1924) – SSRİ-nin siyasi xadimi. Hələ tələbəlik illərindən inqilabi hərəkata qoşulmuşdur. [475-476] Lenin 1895-ci ildə Peterburq «Fəhlə sinfinin azadlığı uğrunda mübarizə İttifaqı»nın yaradılmasında iştirak etmişdir. 1900-cu ildə Plexanovla birlikdə «İskra» qəzetini nəşr edir. 1903-cü ildən RSDFP-nin 2-ci qurultayında bolşevik fraksiyasına başçılıq edir. 1907-ci ildən xaricə emiqrasiya edilir. 1917-ci ildə Petroqrada qayıdıb silahlı üsyana başçılıq edir. Lenin başda olmaqla 2-ci Ümumrusiya Sovetlər qurultayında hökumət – XKS yarandı. Vətəndaş müharibəsi dövründə «hərbi kommunizm» siyasətinin aparıcılarından olmuşdur. Bunun nəticəsində ölkə birpartiyalı sistemə keçmiş, ölkədə geniş surətdə repressiya başlanmış, müxalifət qüvvələri və orqanları ləğv edilmiş, görkəmli adamlar və ziyalılar ölkəni kütləvi surətdə tərk etmişlər. 1922-ci ildə xəstələnmiş və ölkənin siyasi həyatından üzaqlaşdırılmışdır. – 128,129.

87. «**Qobustan**» – rüblük incəsənət toplusu. 1969-cu ildən Bakıda nəşr edilir. Jurnalda Azərbaycan və dünya incəsənətinin korifeyləri haqqında məqalələr, bədii yazılar, müsahibələr verilir. «Qobustan»da bədii yaradıcılığın müxtəlif sahələri ilə yanaşı, estetika, incəsənət tarixi və nəzəriyyəsi problemləri də əks olunur. – 128,129.

88. **İsa Hüseynov**, İ s a M u s t a f a o ğ l u (d.1928) – Azərbaycanın xalq yazıçısı. «Məhşər» tarixi romanı böyük Azərbaycan şairi İ.Nəsimiyə həsr olunmuşdur. Onlarla povest və romanlar müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 129.

89. **Maqsud İbrahimbəyov**, M a q s u d M ə m m ə d i b r a h i m o ğ- l u (d.1935) – görkəmli nasir, dramaturq, ssenarist, ictimai və siyasi xadim, Azərbaycan xalq yazıçısı. Azərbaycan Respublikası Dövlət mükafatı laureatıdır. Respublikada və xaricdə nəşr edilən onlarla povest və hekayələrin müəllifidir. Onun pyesləri keçmiş SSRİ məkanında onlarla teatrlarda tamaşaya qoyulmuşdur. Onun ssenariləri əsasında bir çox film çəkilmişdir. Azərbaycan Respublikası Əsilzadələr Məclisinin sədridir. 1995-ci ildən Milli Məclisin üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif olunmuşdur. – 129,130, 131,133.

90. **Səməd Vurğun**, S ə m ə d Y u s i f o ğ l u V ə k i l o v (1906-1956) – böyük Azərbaycan şairi, ictimai xadim. Azərbaycanın xalq şairi. S.Vurğunun yaradıcılığı XX əsr Azərbaycan şerinin inkişafında mühüm rol oynamışdır. S.Vurğun Azərbaycan Yazıçılar İttifaqının məsul katibi, sədri, Azərbaycanın Xarici Ölkələrlə Mədəni Əlaqə Cəmiyyətinin sədri, [476-477] Azərbaycan MEA-nın vitse prezidenti olmuşdur, iki dəfə SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. – 130,173.

91. **Yusif Səmədoğlu**, V ə k i l o v Y u s i f S ə m ə d o ğ l u (1935-1998) – Azərbaycan yazıçısı və ictimai xadim. Azərbaycanın xalq yazıçısı. Milli Məclisin deputatı və parlamentdə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komissiyasının sədri, Azərbaycan Yazıçılar Birliyinin birinci katibi olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 130.

92. **Vaqif Vəkilov**, V a q i f S ə m ə d o ğ l u (d.1939) – Azərbaycanın xalq şairi, dramaturq. Azərbaycanın Əməkdar incəsənət xadimi. «Bəxt üzüyü», «Yaşıl eynəkli adam» və s. pyeslərin müəllifidir. Vaqif Vəkilov 2000-ci ildən Milli Məclisin üzvüdür. – 130.

93. **Rəsul Rza**, R ə s u l İ b r a h i m o ğ l u R z a y e v (1910-1981) – görkəmli Azərbaycan şairi, ictimai xadim. Azərbaycanın xalq şairi. O, Azərbaycan poeziyasını yeni forma və üslub keyfiyyətləri, orijinal obrazlarla zənginləşdirmişdir. SSRİ Dövlət mükafatı laureatı, Sosialist Əməyi Qəhrəmanı. – 130.

94. **Nigar Rəfibəyli**, N i g a r X u d a d a t q ı z ı (1913-1981) – Azərbaycanın xalq şairi. N.Rəfibəyli lirik şerlər müəllifidir. Vətənimizin gözəl təbiət mənzərələri, Azərbaycan qadınlarının mənəvi zənginliyi, vətənpərvərlik, sülh, demokratiya, azadlıq ideyaları yazdığı şer və poemaların əsas mövzusudur. – 130.

95. **İlyas Əfəndiyev**, İ l y a s M ə h ə m m ə d o ğ l u (1914-1996) – görkəmli Azərbaycan yazıçısı, dramaturq. Azərbaycanın xalq yazıçısı. İ.Əfəndiyevin dram əsərlərinin Azərbaycan Milli Dram Teatrının repertuarının zənginləşməsində müstəsna rolu var. Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 130.

96. **Bülbül**, M u r t u z a M ə ş ə d i R z a o ğ l u M ə m m ə d o v (1897-1961) – Azərbaycan klassik vokal məktəbinin banisi, musiqi folkloru tədqiqatçısı. Bülbülün yaradıcılığı müasir Azərbaycan musiqili teatrı tarixində mühüm bir mərhələ təşkil edir. Bülbül Azərbaycan xalq mahnılarını, təsnifləri böyük sənətkarlıqla ifa etmişdir. Azərbay[477-478]can Ali Sovetinin deputatı olmuşdur. SSRİ xalq artisti və SSRİ Dövlət mükafatı laureatıdır. – 130,173.

97. **Polad Bülbüloğlu** (d.1945) – bəstəkar, müğənni, ictimai və dövlət xadimi. Azərbaycan Respublikasının xalq artisti. Mahnıları 1960-70-ci illərdə SSRİ məkanında məşhur estrada müğənnilərinin ifasında səslənmişdir. 1988-2005-ci illər Azərbaycan Respublikasının mədəniyyət naziri olmuşdur. Hazırda Azərbaycan Respublikasının Rusiyada fövqəladə və səlahiyyətli səfiridir. – 130,131,349,436.

98. «**Oskar**» – Amerika Kinematorqafiya İncəsənəti və Elmi Akademiyasının mükafatı. 1929-cu ildən hər il ən yaxşı Amerika filminə (bəzən ingilis) və müxtəlif sahələrdə Amerika kinosunda (20 kateqoriya üzrə) müstəsna xidməti olanlara və ən yaxşı xarici filmlərə verilir. «Oskar» mükafatına bütövlükdə kino sənətinə xeyir verənlər də layiq görülür. – 131.

99. **Tahir Salahov**, T a h i r T e y m u r o ğ l u (d.1928) – görkəmli Azərbaycan boyakarı və qrafiki. Azərbaycan və SSR-nin xalq rəssamı. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı. Rusiya Rəssamlıq Akademiyasının həqiqi üzvü. 1973-cü ildən SSRİ Rəssamlar İttifaqı İdarə Heyətinin 1-ci katibi olmuşdur. Salahovun yaradıcılığı mövzu və janr zənginliyi, bədii forma əlvanlığı, estetik kamilliyi ilə səciyyələnir. Bu baxımdan muasir portret sənətinin ən kamil nümunələrindən olan «Bəstəkar Qara Qarayev»in

portreti, eləcə də monumental divar rəsmini xatırladan «Abşeron qadınları» əsərləri xüsusilə fərqlənir. Azərbaycan Respublikası və SSRİ Ali sovetlərinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 131.

100. **Müslüm Maqomayev**, Müslüm Məhəmməd oğlu (d.1942) – görkəmli Azərbaycan müğənnisi. Azərbaycan Respublikası və SSRİ xalq artisti. Bəstəkar Müslüm Maqomayevin nəvəsi. Opera səhnəsində ifa etdiyi Fiqaro partiyası ona geniş şöhrət qazandırmışdır. Keçmiş SSRİ məkanında və bir çox xarici ölkələrdə müvəffəqiyyətlə çıxış etmişdir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 131.

101. **Anar Məmmədxanov**, Anar Camali oğlu (d.1970) – mexanik riyaziyyatçı, 1991-95-ci illərdə Bakı Şən və Hazırcavablar klubunun prezidenti və «Bakılı oğlanlar» komandasının kapitanı idi. 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. – 131. [478-479]

102. **ATƏT-in Budapeşt Zirvə görüşü** – 1994-cü il dekabrın 3-7-də Macarıstanın paytaxtı Budapeştdə keçirilmişdir. Görüşdə ATƏT-in üzvü olan ölkələrin dövlət və hökumət başçıları, o cümlədən Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti iştirak etmişdir. Heydər Əliyev Budapeşt sammitində regionlarda və bütünlükdə qitədə sülh konsepsiyasının həyata keçirilməsi üçün çox əhəmiyyətli fəaliyyət göstərdi. Budapeşt zirvə görüşündə ilk dəfə olaraq Dağlıq Qarabağ problemi xüsusi məsələ kimi müzakirə olundu və «Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi» haqqında qətnamə qəbul olundu. – 135.

103. **ATƏT-in Lissabon Zirvə görüşü** – 1996-cı il dekabrın 2-4-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində ATƏT-in 54 üzvünün dövlət və hökumət başçılarının iştirakı ilə növbəti Zirvə toplantısı keçirildi. Lissabon Zirvə toplantısında müzakirə olunan məsələlər arasında Azərbaycan Respublikası nümayəndə heyətinin təkidi ilə Ermənistan-Azərbaycan münaqişəsi geniş diskussiyaya səbəb oldu. Azərbaycan Respublikası nümayəndə heyətinin başçısı Heydər Əliyevin qəti, prinsipial mövqeyi və gərgin səyi nəticəsində yekun sənədə əlavə kimi qəbul edilən ATƏT sədrinin bəyanatında ilk dəfə olaraq ən yüksək səviyyədə münaqişənin həllinin əsası kimi Azərbaycan Respublikasının ərazi bütövlüyü 53 dövlət tərəfindən qətiyyətlə dəstəkləndi və Dağlıq Qarabağın statusunun yalnız Azərbaycan Respublikasının tərkibində müəyyən olunması öz əksini tapdı. – 135,137,226.

104. **Denver görüşü** – 1997-ci il iyunun 20-də Denver şəhərində Rusiya dövlət başçısının da iştirak etdiyi «Yeddilər» yığıncağında ATƏT-in Minsk konfransının həmsədrləri olan dövlətlərin prezidentləri – Bill Klinton, Boris Yeltsin və Jak Şirak Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair birgə bəyanat imzalamışlar. Münaqişənin tarixində ilk dəfə olaraq üç dövlət başçıları bəyanat vermişlər ki, münaqişəni tezliklə aradan qaldırmaq lazımdır. – 135.

105. **Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 134. [479-480]

106. **İran İslam İnqilabı** – İranın daxilində Milli Cəbhənin, xaricdən isə ruhanilərin Fransada mühacirətdə olan başçısı Ayətüllah Ruhulla Xomeyninin rəhbərlik etdiyi ümumxalq hərəkatı. Bu hərəkat getdikcə gücləndi və 1979-cu ildə şah (Məhəmməd Rza Pəhləvi) ölkəni tərk etdi. Mühacirətdən vətənə qayıtmış imam Xomeyni İran İslam Respublikasını elan etdi. – 139-142.

107. **Tehran** – İranın paytaxtı. Ölkənin əsas siyasi, iqtisadi, ticarət-maliyyə və mədəniyyət mərkəzi. Tehranın əsası IX əsrdə Rey şəhərinin yaxınlığında qoyulmuşdur. XIII əsrdə monqollar Reyi dağıtdıqdan sonra Tehran böyüməyə başladı. 1785-ci ildə İranın paytaxtı elan edilmişdir. – 141.

108. **İslam Konfransı Təşkilatı (İKT)** – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv-dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. – 141.

109. **Ayətullah Xamnei**, Hüseyn Xamnei Seyid Əli (d.1939) – İranın dini və dövlət xadimi. 1981-89-cu illərdə İranın prezidenti, 1989-cu ildən isə İran İslam Respublikasının dini rəhbəridir. – 141.

110. **Xatəmi**, Məhəmməd Xatəmi (d.1943) – İranın siyasi, ictimai və dövlət xadimi. 1989-92-ci illərdə İranın mədəniyyət və islam orijentasiyası naziri olmuşdur. 1997-2005-ci illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 141.

111. **Azərbaycan Xalq Cümhuriyyəti** – Müsəlman Şərqində ilk dəfə dünyəvi, demokratik respublikanın əsasını qoymuş müstəqil Azərbaycan dövləti. Cəmi 23 ay (1918-ci il mayın 28-də yaradılmış, 1920-ci il aprelin 28-də bolşeviklərin və daşnakların səyi ilə devrilmişdir) yaşamışdır. Paytaxtı əvvəlcə Gəncə (1918, 16 iyun – 17 sentyabr), sonra Bakı şəhəri (1918, 17 sentyabr – 1920, 28 aprel) idi. Azərbaycan hökuməti yeni suveren milli dövlətin müxtəlif problemlərinin həlli yollarında böyük əzmlə çalışırdı. Nazirlər Şurasının 27 iyun 1918-ci il tarixli fərmanı ilə respublikada dövlət dili türk dili elan edildi. Azərbaycan Respublikasının parlamenti 1919-cu il avqustun 11-də Azərbaycan vətəndaşlığı haqqında qanun qəbul etdi. Xalq maarifi sahəsində qısa müd[489-481]dətdə böyük tədbirlər həyata keçirildi. Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsi Qazaxa köçürüldü, Bakı Dövlət Universiteti təsis edildi, xarici ölkələrdə kadr hazırlığı məqsədi ilə 1919-20-ci tədris ilində 100 nəfər gənc Avropanın müxtəlif təhsil müəssisələrinə göndərildi. Məktəblərin xeyli hissəsi milliləşdirildi, kitabxanalar açıldı, savadsızlığın ləğvi üçün kəndlərdə kurslar yaradıldı. Azərbaycan Xalq Cümhuriyyətinin dövlət rəmzləri (üçrəngli bayraq, gerb, himn) milli Azərbaycan rəmzləri kimi tanındı. Azərbaycan dövlət bankı yaradıldı, 1918-ci ilin martında dağıdılmış neft sənayesi və Bakı-Batum neft kəməri bərpa edildi. – 144,292,407.

112. **Fətəli xan Xoyski** (1875-1920) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi. 1918-20-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının sədri, daxili işlər, ədliyyə və xarici işlər naziri olmuşdur. 1920-ci ildə Tiflis şəhərində erməni terrorçuları tərəfindən xaincəsinə qətlə yetirilmişdir. – 144.

113. **İrəvan xanlığı** – XVIII əsrin ortalarında Cənubi Qafqazda, keçmiş Çuxursəd bəylərbəyliyi ərazisində yaranmış müstəqil Azərbaycan feodal dövləti. Azərbaycanın şimali-qərbində yerləşən bu xanlıq paytaxtı İrəvan şəhəri olmaqla inzibati cəhətdən 15 mahala bölünürdü. İrəvan xanlığı 1747-97-ci illərdə müstəqil dövlət olmuş, 1797-1829-cu illərdə burada İranın hakimiyyəti bərpa olunmuşdu. Dövlətin başçısı xan idi. Əhalisi əsasən azərbaycanlılardan ibarət idi. İrəvan xanlığı Həsənəli xanın dövründə (1756-64) gürcü Kartli-Kaxeti çarlığından asılı vəziyyətə düşdü. Nəhayət, İrəvan xanlığı Gülüstan müqaviləsinə (1813) görə İranın tərkibinə keçmiş, Türkmənçay müqaviləsinə (1828) görə isə Rusiyaya ilhaq edilmişdi. – 144,148,152.

114. **İrəvan**, Rəvan, Erivan, Yerevan, – orta əsrlərdə və yeni dövrdə (1918-ci ilin mayın 29-dək İrəvan) Azərbaycan şəhəri. XVİ əsrin əvvəllərində Zəngi çayı sahilində dağlarla əhatə olunmuş düzənlikdə salınmışdır. İrəvan şəhəri dəfələrlə Səfəvi və Osmanlı qoşununun hücumlarına məruz qalmış, gah bu, gah da o biri dövlətin tərkibinə qatılmışdı. İkinci Rusiya–İran müharibəsi (1826-28) dövründə, Türkmənçay müqaviləsinə (1828) əsasən, Rusiyaya birləşdirildi. XİX əsrin 20-30-cu illərində İran və Türkiyədən köçürülmüş çoxlu erməni İrəvanda yerləşdirilmişdi. 1918-ci ilin mayında Daşnaksutyun partiyası liderlərinin başçılığı ilə Ermənistan Respublikası yarandı. 1918-ci il mayın 28-də yaradıl[481-482]mış Azərbaycan Xalq Cümhuriyyəti hökuməti mayın 29-da keçirdiyi iclasında İrəvan şəhərini «paytaxtı» olmayan Ermənistan Respublikasına güzəştə getdi. – 144,148.

115. **Zəngəzur mahalı**, Zəngəzur qəzası – XIX əsrin 2-ci yarısında Azərbaycanda inzibati ərazi vahidi. 1861-ci ildə təşkil olunmuşdur. Çar Rusiyası hökumətinin 1867-ci il dekabr tarixli fərmanına əsasən yaradılmış Yelizavetpol (Gəncə) quberniyasının tərkibinə daxil edilmişdi. – 144,153.

116. **Moskva müqaviləsi** (1921) – RSFSR ilə Türkiyə arasında bağlanmış müqavilə. Moskva müqaviləsinin 3-cü maddəsi bütünlüklə Naxçıvan məsələsinə həsr edilmiş və orada aydın şəkildə göstərilmişdir ki, danışıqlarda iştirak edən hər iki tərəfin razılığı ilə hazırkı müqavilənin I maddəsinin V əlavəsində göstərilən sərhədlərdə Naxçıvan vilayəti Azərbaycanın himayəsi altında, həmin protektoratı Azərbaycanın heç bir üçüncü dövlətə güzəştə getməməsi şərti ilə muxtar ərazi təşkil edir. – 144,150.

117. **Qars müqaviləsi** (1921) – Azərbaycan, Ermənistan və Gürcüstan Sovet Sosialist Respublikaları ilə Türkiyə, RSFSR-in iştirakı ilə oktyabrın 13-də Qarsda bağlanmışdır. Qars müqaviləsinin 5-ci maddəsi və 3-cü əlavəsi Naxçıvanın ərazi mənsubiyyəti məsələsini bir daha təsdiqlədi, onun sərhədlərini qəti surətdə müəyyənləşdirdi. Qeyd olunan maddədə dürüst və konkret göstərilirdi: «Türkiyə hökuməti, Sovet Ermənistanı və Azərbaycan hökumətləri razıdırlar ki, indiki müqavilənin III əlavəsində göstərilən sərhədlərdə Naxçıvan vilayəti Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil edir». Qars müqaviləsi beynəlxalq müqavilə kimi Naxçıvanın Azərbaycanın tərkibində müxtar ərazi statusunu təsbit etmişdir. Təsadüfi deyildir ki, Naxçıvan MR-in təhlükəsizliyi hədələnəndə Qars müqaviləsi mühüm tarixi sənəd olmaqla onun taleyinin qarantı kimi gündəliyə gəlir. – 144,150, 153.

118. **Mahmud İsmayılov**, Mahmud Əliabbas oğlu (1920- 2002) – tarix elmləri doktoru, professor. Azərbaycan MEA-nın müxbir üzvü, Azərbaycanın əməkdar elm xadimi, Böyük vətən müharibəsi iştirakçısı. 1954-cü ildən ömrünün sonunadək Tarix institutunda elmi işlər üzrə direktor müavini işləmişdir. Azərbaycanın sosial-iqtisadi tarixi istiqamətində tədqiqat aparmışdır. – 148.

119. **Vasif Talıbov**, V a s i f  Y u s i f  o ğ l u (d.1960) – dövlət xadimi, 1995-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin və Naxçı[482-483]van Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir. – 149.

120. **XIX əsrin əvvəllərində Rusiya-İran və Rusiya-Türkiyə müharibələri** – 1801-ci ildə Rusiyanın Şərqi Gürcüstanı, Çar-Balakən camaatlığını (1803), Gəncə xanlığını (1804) tutması İran və Türkiyənin, həmçinin İngiltərə və Fransanın güclü müqavimətinə rast gəldi. İran 1804-cü ilin iyununda Rusiyaya qarşı müharibəyə başladı. Lakin Abbas Mirzənin qoşunu İrəvan yaxınlığında vuruşmada məğlub oldu. 1805-ci ildə Qarabağ, Şəki, Şirvan xanlıqları da işğal edildi. 1806-cı il oktyabrın 3-də rus ordusu Bakını işğal etdi. 1813-cü ilə qədər davam edən qanlı döyüşlər Gülüstan müqaviləsi ilə (1813) nəticələndi. Şimali Azərbaycan xanlıqları Rusiyanın tabeliyinə keçdi.

1826-28-ci illərdə aparılan müharibə nəticəsində isə Naxçıvan, Abbasabad, İrəvan, Xoy, Mərənd, Urmiyə, Ərdəbil, Təbriz işğal edildi. Nəticədə Türkmənçay müqaviləsi (1828) imzalandı. Naxçıvan və İrəvan xanlıqları da Rusiyaya verildi.

1804-cü il Türkiyə-Rusiya müharibəsində ruslar Afonda və Dunay sahillərində qələbə qazandılar. Buna görə də Fransanın vasitəçiliyi ilə (1807) Rusiya və Türkiyə arasında barışıq imzalandı. Barışıq 1809-cı ilədək davam etdi. Rusiya yenə də işğalçılıq siyasəti yeridərək bir neçə türk qalasını ələ keçirdi. 1811-ci ilin noyabrında türklərin əsas qüvvələri Slobodzeya rayonunda məğlubiyyətə uğradılar. Müharibə Buxarest sülh müqaviləsi (1812) ilə başa çatdı. – 151.

121. **Stalin İosif Vissarionoviç** (1879-1953) – 1922-53-cü illərdə SSRİ-nin partiya və dövlət rəhbəri. Sosializm quruculuğuna dair Lenin planını, SSRİ-nin Böyük vətən müharibəsində (1941-45) müdafiə qabiliyyətinin möhkəmləndirilməsində və s. rəhbər kimi iştirak etmişdir. Fəaliyyətində nəzəri və siyasi səhvlərin çoxluğu, kobud qanun pozuntuları, bəzi mənfi xüsusiyyətləri Stalinin şəxsiyyətinə pərəstişin yaranması ilə nəticələndi. 30-cu illərdə baş verən və milyonlarla insanın repressiyasına səbəb olan qanlı cinayətlər məhz onun səhvlərinin nəticəsidir. Təkcə 1937-ci ildə Azərbaycanda «xalq düşməni» kimi 29 min nəfər güllələnmiş və ya sürgün edilmişdi. – 152,263,265,355,416.

122. **Orconikidze Qriqori Konstantinoviç** (Serqo) (1886-1937) – SSRİ-nin dövlət və siyasi xadimi. 1903-cü ildən RSDFP-nin fəal üzvlərindən biri olmuşdur. Rusiyanın cənubunda və Şimali Qafqazda Sovet hakimiyyətinin qurul[483-484]masında mühüm rol oynamışdır. Qızıl ordunun rəhbərlərindən biri olmuş və Azərbaycanda Sovet hakimiyyətinin qələbəsi üçün bütün vasitələrdən istifadə etmişdir. – 152.

123. **Şahtaxtinski Behbud Ağa** (1881-1924) – diplomat. 1917-18-ci illərdə Bakı Soveti İcraiyyə Komitəsinin, Bakı XKS fövqəladə komissiyasının üzvü, «Hümmət» təşkilatı Mərkəzi Komitəsinin sədri olmuşdur. Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra (1920) xalq ədliyyə komissarı, eyni zamanda Azərbaycan SSR-in RSFSR-də fövqəladə numayəndəsi idi. Naxçıvan diyarının Azərbaycanın tərkibində muxtariyyət statusu qazanmasında mühüm mərhələ – Moskva və Qars müqavilələrinin (1921) bağlanmasında Şahtaxtinskinin böyük xidməti olmuşdur. – 153.

124. **Vəli Əliyev**, V ə l i  H ü s e y n  o ğ l u (d.1936) – tarixçi-arxeoloq. Tarix elmləri doktoru, professor. 1997-ci ildən N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin ümumi tarix kafedrasının müdiridir. O, Naxçıvan MR-in maddi mədəniyyət abidələrinin əsas tədqiqatçısı və Naxçıvan arxeoloji ekspediyasının rəhbəridir. – 153.

125. **İpək yolu**, B ö y ü k  İ p ə k  Y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də böyük İpək yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–

Qafqaz–Avropa ticarət dəhlizinin – böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 156,157,350,351,352,457.

126. **Transqafqaz nəqliyyat dəhlizi** (TRASEKA) – Avropanı Asiya ilə birləşdirən yol. Bu nəqliyyat dəhlizini Şərqlə Qərbi birləşdirən orta materik [484-485] xətti də adlandırmaq olar. Transqafqaz nəqliyyat dəhlizi Azərbaycanı, bütünlükdə Qafqazı Avropa ilə birləşdirir. – 156.

127. **TRASEKA** – bax Transqafqaz nəqliyyat dəhlizi.

128. **İsa peyğəmbərin mövlud günü** – Milad bayramı – İsa peyğəmbərin anadan olması şərəfinə keçirilən xristian bayramı. Dekabrın 25-də qeyd edilir. Milad bayramının ilkin mənbəyi hər il qış günəş duruşu zamanı (21-25 dekabr) xilaskar allahın «doğulması» ilə əlaqədar keçirilən qədim bütpərəst mərasim bayramı olmuşdur. Milad bayramını ilk dəfə Roma xristian icmaları keçirmişdir. Milad bayramı 431-ci ildə Efes kilsə yığıncağında qanuniləşdirilmişdir. – 160,162.

129. **Böyük Teatr** – Rusiya Federasıyasında Dövlət Akademik Böyük Teatr. Əsası 1775-ci ildə Moskvada qoyulmuşdur. Burada xarici və rus operaları və baletləri tamaşaya qoyulur. XX əsrin əvvəllərindən teatrda çalışan vokalistlər və balet ustaları dünya şöhrəti qazanmışlar. – 166.

130. «**Kitabi-Dədə Qorqud**» – türk xalqları və Azərbaycan xalq ədəbiyyatının ən qədim yazılı abidəsi. «Kitabi-Dədə Qorqud» dastanının yaranmasından 1300 il keçir. Elm aləminə XIX əsrdən məlum olan bu qəhrəmanlıq dastanının hələlik XV-XVI əsrlərdə köçürülmüş iki əlyazma nüsxəsi (Drezden və Vatikan) tapılmışdır. – 167-177,428,438.

131. «**Manas**» – qədim qırğız qəhrəmanlıq eposu. Eposun manasçılar tərəfindən söylənilmiş 18-dən çox variantı qeydə alınmışdır. Nə vaxt yarandığı dəqiq müəyyənləşdirilməmişdir. – 169,433.

132. **Əmir Teymur**, Teymurləng, Teymur, Topal Teymur (1336-1405) – Orta Asiya görkəmli dövlət xadimi, sərkərdə, əmir. Teymurilər imperiyasının banisi. Türkləşmiş barlas tayfasından idi; döyüşlərdə aldığı yaralara görə «Teymurləng» (Topal Teymur) ləqəbi ilə tanınmışdır. Teymurləng üç yürüşündə (1386-87; 1392-97; 1399-1404) Azərbaycanda olmuşdur. Əlincə qalası uğrunda 14 il mübarizə aparan Teymurləng buraya 4 dəfə (1387,1393,1397,1400) yürüş etmiş, ciddi döyüşlər aparsa da məqsədinə nail ola bilməmişdi. – 169,434.

133. **Təhmasib Məmmədhüseyn**, Məmmədhüseyn Abbas-qulu oğlu (1907-1982) – ədəbiyyatşünas, folklorşünas, dramaturq. Filologiya elmləri doktoru, professor. Təhmasib Azərbaycan folklor[485-486]şünaslığının əsasını qoyanlardandır. «Kitabi-Dədə Qorqud», «Koroğlu» eposlarının, şifahi xalq ədəbiyyatı abidələrinin toplanması, nəşri və tədqiqində mühüm xidməti var. – 172.

134. **Dəmirçizadə Əbdüləzəl**, Əbdüləzəl Məmməd oğlu (1909-1979) – dilçi. Filologiya elmləri doktoru, professor. Azərbaycan MEA-nın müxbir üzvü. Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. Azərbaycan ədəbi dili tarixinə, müasir Azərbaycan dilinin fonetikasına, üslubiyyatına və etimologiyaya dair əsərlərin müəllifidir. – 172.

135. **Həmid Araslı**, Həmid Məhəmmədtağı oğlu (1909-1983) – əbədiyyatşünas, filologiya elmləri doktoru, professor, Azərbaycan MEA-nın akademiki, 1960-68-ci illərdə Nizami adına Azərbaycan Əbədiyyatı Muzeyinin direktoru, 1970-ci ildən ömrünün sonuna kimi Azərbaycan Respublikası MEA-nın Yaxın və Orta Şərq Xalqları İnstitutunun direktoru olmuşdur. Araslı qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı, Nəsimi, Kişvəri, Əmani, Saib Təbrizi, Qövsi Təbrizi, Məhcur Şirvani, Vaqif, Vidadi haqqında tədqiqat əsərlərinin müəllifidir. Nizami və Füzuli irsinin öyrənilməsində xüsusilə mühüm işlər görmüşdür. Azərbaycan folklorunun, «Kitabi-Dədə Qorqud», «Koroğlu» dastanları və aşıq yaradıcılığının tədqiqi ilə də məşğul olmuşdur. – 172.

136. «**Koroğlu**» – Azərbaycan, Yaxın Şərq və Orta Asiyada geniş yayılmış qəhrəmanlıq epopeyası. XVII əsr tarixçilərinin verdiyi məlumatda Koroğlunun və onun silahdaşlarının adı çəkilir. Zaman keçdikcə Koroğlu mərdliyinə, şücaətinə görə bir çox xalqın əfsanəvi qəhrəmanına çevrilmişdir. – 173.

137. **Ələsgər Ələkbərov**, Ələsgər Hacağa oğlu (1910-1963) – görkəmli Azərbaycan aktyoru. Azərbaycan və SSRİ xalq artisti. 1933-cü ildən ömrünün sonunadək Azərbaycan Milli Dram Teatrında işləmişdir. Ələkbərovun yaradıcılığı Azərbaycan teatrının inkişafında mühüm rol oynamışdır. Ələkbərov həmçinin Azərbaycan kinosunun görkəmli aktyorlarındandır. – 173.

138. **Üzeyir Hacıbəyov**, Ü z e y i r Ə b d ü l h ü s e y n o ğ l u (1885-1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 173,197. - [486-487]

139. **V a q i f**, Molla Pənah Vaqif (1717-1797) –görkəmli Azərbaycan şairi, dövlət xadimi. Vaqif qəzəl, müxəmməs, müstəzad və s. formalarda şerlər yazmışdır. Gözəllərin vəsfi Vaqif lirikasının əsas qayəsidir. Vaqif şerindəki realizmə meyl Azərbaycan poeziyasının inkişafına güclü təsir göstərmişdir. Qarabağ hakimi İbrahim xanın (1769-cu il) baş vəziri olmuşdur. – 173.

140. **Dərbənd** – Rusiya Federasiyasının Dağıstan Muxtar Respublikasında şəhər. Dərbənd Qafqaz Albaniyasının ən qədim şəhərlərindən biri olmuşdur. V əsrdə Dərbənd iqtisadi və siyasi cəhətdən Qafqaz Albaniyasının mühüm şəhərlərindən biri, həm də Sasani canişinlərinin iqamətgahı idi. Abbasilər xilafəti dövründə (750-1258) Dərbənd Avropa və Asiya ölkələri ilə ticarətdə əsas tranzit məntəqəsi idi. Dərbənd X əsrdə Şirvanşahların hakimiyyəti altına keçdi. Bundan sonra Azərbaycana yiyələnmək istəyən yadellilər arasında gedən müharibələr zamanı Dərbənd əldən-ələ keçirdi. 1509-cu ildə I Şah İsmayıl (1501-24) Dərbəndi tutdu. Nəhayət, 1796-cı ildə V.A.Zubovun başçılığı ilə Rusiya qoşunu Dərbəndi tutdu. Gülüstan müqaviləsinə (1813) əsasən Dərbənd Rusiyaya verildi. – 177.

141. **Fəraməz Maqsudov**, F ə r a m ə z Q ə z ə n f ə r o ğ l u (1930-2000) – görkəmli Azərbaycan riyaziyyatçısı, elm təşkilatçısı, siyasi xadim. 1997-2000-ci illərdə Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının prezidenti olmuşdur. Birinci çağırış Milli Məclisin deputatı seçilmişdir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 177,435,436.

142. **Böyük Britaniya**, B ö y ü k B r i t a n i y a v ə Ş i m a l i İ r - l a n d i y a B i r l ə ş m i ş K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. B.Britaniya adası, İrlandiya adasının şimal şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km², əhalisi 58,8 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük London xüsusi inzibati vahiddir. B.Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 178-182,189.

143. «**Ramko**» – İngiltərənin aparıcı neft kompaniyalarından biri. 1977-ci ildə yaradılmışdır. Dünyanın bir çox ölkələrində neftin çıxarılması, emalı və satışı ilə məşğuldur. 1994-cü ildən «Bi-Pi» və «Şell» ilə birlikdə «Azəri–Çıraq» yatağında kəşfiyyat işləri aparmışdı. – 178-182. [487-488]

144. **İcmalar palatası** – Böyük Britaniyada parlamentin aşağı palatası. İcmalar palatası ümumi, bərabər və birbaşa seçki yolu ilə 5 il müddətinə seçilir. İcmalar palatası hökumətin fəaliyyətinə nəzarət edir, ona etimad göstərir, qanun layihələrini müzakirə və qəbul edir. – 178.

145. **Lordlar palatası** – Böyük Britaniya parlamentinin yuxarı palatası, dünyəvi və dini lordlardan (perlərdən) ibarətdir. – 178.

146. **Toni Bleyer**, E n t o n i Ç a r l z L i n t o n (d.1953) – B.Britaniyanın görkəmli siyasi və dövlət xadimi. Hüquqşünas. 1983-cü ildən parlamentə deputat, 1994-cü ildən Leyboristlər partiyasının sədri seçilmişdir.1997-ci ildən B.Britaniyanın Baş naziridir. – 179.

147. **Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (**ARDNŞ**) – Respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 179, 201,389,392,446.

148. **Bakı-Supsa neft kəməri** – 1994-cü ilin sentyabrında Azərbaycan hökumətinin xarici neft şirkətləri ilə imzaladığı «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin mühüm bir vəsiləsi Bakı-Supsa neft kəməridir. Kəmərin uzunluğu 830 km, gündəlik maksimum ötürmə gücü 115 min barreldir. Supsada hər birinin tutumu 250 min barrel olan dörd terminal tikilmişdir.

Aprelin 17-də Sursada ilkin Xəzər neftinin Qərb istiqamətində nəqli üçün Bakı-Supsa ixrac boru kəmərinin və Supsa yerüstü terminalının təntənəli rəsmi açılış mərasimi olmuşdur. – 181-182,188,388,396,397, 418,420,423,424,425,426,427,445,446,452.

149. «**Əsrin müqaviləsi**» – 1994-cü ilin sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şək-

lində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə.– 181-182,188,388,396,397,418,420,423,424,425,426,427,445,446,451.

150. **Yeltsin Boris Nikolayeviç** (d.1931) – Rusiyanın siyasi və dövlət xadimi. 1991-2000-ci illərdə Rusiya Federasiyasının ilk prezidenti olmuşdur. – 184,381,383,401. [488-489]

151. «**Mərmərə» qrupunun Strateji və Sosial Araşdırmalar Vaqfı** – 1985-ci ildə İstanbulda yaradılmışdır. Hazırda 200-dən çox üzvü olan bu qrupa tanınmış sənət və iş adamları, nazirlər və millət vəkilləri daxildirlər. Qrup xarici ölkələrin prezidentləri, görkəmli dövlət xadimləri, nüfuzlu siyasətçiləri ilə mütəmadi olaraq görüşlər keçirir. – 185-196.

152. **PKK** – burada, əsasən Türkiyədə fəaliyyət göstərən senapatist, terrorçu Kürd Fəhlə Partiyası nəzərdə tutulur. – 187.

153. **Abdullah Ocalan** – Kürd Fəhlə Partiyasının sədri, qatı separatçı – terrorist. 30 mindən çox günahsız insanın ölümünə fitva vermişdir. Hazırda türk məhkəməsi tərəfindən ömürlük həbs cəzasına məhkum edilmişdir. – 187.

154. **Novorossiysk** – Rusiya Federasiyasının Krasnodar diyarında liman. Bakıdan Novorossiyskə neft kəməri çəkilmiş və 1997-ci ildə istifadəyə verilmişdir. – 188,389,420,423,425,426,451.

155. **Saparmurad Niyazov**, S a p a r m u r a d A t a o ğ l u (d.1940) – Türkmənistanın siyasi və dövlət xadimi. 1985-ci ilin dekabrından 1990-cı ilə qədər Türkmənistan KP MK-nın birinci katibi olmuşdur. 1990-cı ildən Türkmənistan Respublikasının prezidentidir. – 190,201,202,241, 349.

156. **Bakı Dövlət Universiteti** (BDU) – Azərbaycanda elmi-pedaqoji kadrlar hazırlayan ən böyük ali təhsil ocağı, elmi-tədqiqat müəssisəsi. 1919-cu ildə yaradılmışdır. İlk vaxtlar tibb və tarix-filologiya fakültələri fəaliyyət göstərmişdir. Hazırda BDU-nun 17 fakültəsi, onlarla kafedrası, elmi-tədqiqat laboratoriyası və s. var. Universitetdə 43 ixtisas üzrə 13 minə yaxın tələbə təhsil alır. – 194,292.

157. **Süleyman Ələsgərov**, S ü l e y m a n Ə y y u b o ğ l u (1924-2000) – Azərbaycan bəstəkarı, dirijor, pedaqoq. Azərbaycan Respublikasının xalq artisti. Ü.Hacıbəyov adına Respublika mükafatı laureatı. Müxtəlif musiqi janrlarında əsərləri var. S.Ələsgərovun yaradıcılığında operetta janrı əsas yer tutur. Əsərlərində musiqi dilinin sadəliyi, səlisliyi, forma aydınlığı səciyyəvidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 197-198,259,272.

158. **Bakı Musiqi Akademiyası** – 1921-ci ildə yaradılıb. Bakı Musiqi Akademiyası Azərbaycanda ilk musiqi tədris müəssisəsidir. Buranın 4 [489-490] fakültəsi var. Təhsil iki pilləlidir - bakalavr və magistratura. Bakı Musiqi Akademiyasının tərkibində Opera studiyası və musiqi məktəb studiyası fəaliyyət göstərir. – 198.

159. **Natiq Əliyev**, N a t i q A g a ə l i o ğ l u (d.1947) – 1993-2006-cı illər Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti olmuşdur. Hazırda Azərbaycan Respublikası Sənaye və Energetika naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 201.

160. **Valeh Ələsgərov** (d.1946) – neftçi mühəndis. SSRİ Nazirlər Soveti yanında Xalq Təsərrüfatı Akademiyasını bitirmişdir. Müxtəlif illərdə neft sənayesi sahəsində rəhbər vəzifələrdə çalışmışdır. 2005-ci ildən Milli Məclisdə sədr müavinidir. Qubkin adına Qızıl medal və Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 201.

161. **A z ə r b a y c a n B e y n ə l x a l q Ə m ə l i y y a t Ş i r k ə t i (ABƏŞ)** –1994-cü ilin axırlarında yaradılmışdır. «Xəzərin Azərbaycan sektorunda neft yataqlarının müştərək işlədilməsi və istifadəyə verilməsi» haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin və dünyanın bir neçə böyük neft şirkətləri ilə imzalanmış müqavilənin payçıları adından onun şərtlərini həyata keçirmək məqsədilə yaradılmış əməliyyat şirkətidir. Buraya 7 ölkəni (B.Britaniya, Yaponiya, Norveç, Rusiya, Türkiyə və Səudiyyə Ərəbistanı) təmsil edən 11 iri neft şirkəti daxildir. – 201,390, 391,420,445-446.

162. «**Şevron**» – dünyanın ən iri beynəlxalq enerji və kimya şirkətlərindən biri. Baş ofisi Kaliforniyanın San-Fransisko şəhərində yerləşir. Neft və kimya sənayesinin bütün sahələrində iş görən «Şevron»un dünyanın 100-ə qədər ölkəsində 450 filialı və birgə müəssisəsi fəaliyyət göstərir. Dünyanın müxtəlif ölkələrində 41000 işçisi var. 1879-cu ildə «Pasifik Kost Oyl Kompani» adı ilə fəaliyyətə başlamışdır. – 203-205.

163. **Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndində yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar; 1000 nəfərdən artıq azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 206-210,386.

164. **Tomas Klestil** (d.1932) – Avstriyanın prezidenti. 1987-92-ci illərdə XİN-nin Baş katibi olmuşdur. – 212. [490-491]

165. **Oqtay Sadıqzadə**, O q t a y  S e y i d  H ü s e y n  o ğ l u (d.1921) – Azərbaycan boyakarı və qrafiki, Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi. Seyid Hüseynin oğludur. Əsasən, kitab qrafikası sahəsində fəaliyyət göstərmişdir. Tematik tablo, kompozisiya, portret və s. boyakarlıq əsərləri də çəkmişdir. Azərbaycan şairlərindən Qətran Təbrizi, Qönçəbəyim, Heyran xanımın portretlərinin müəllifidir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 213-214,259,278-280.

166. **Azərbaycan Dövlət Neft Sənayesi Elmi-Tədqiqat və Layihə İnstitutu** (AzNSETLİ) – Azərbaycan Respublikası Neft Sənayesi Nazirliyinin «Azərneft» istehsalat birliyi nəzdində elmi-tədqiqat institutu. 1929-cu ildə Bakıda yaradılmışdır. İnstitut ilk əvvəllər Azərbaycan Elmi-Tədqiqat Neft İnstitutu adlandırılmış, neftçıxarma və neftayırma üzrə tədqiqatlar aparmışdır. 1945-ci ildə iki müstəqil instituta (neftçıxarma və neftayırma üzrə) ayrılmışdır. 1970-ci ildən AzNSETLİ adlanır. İnstitutun əsas tədqiqat problemləri: neft yataqlarının geologiyası və işlənilməsi, qazımanın texnika və texnologiyası, quruda və dənizdə neft və qaz çıxarılması. İnstitutun elmi tədqiqatlarının nəticələrindən ölkənin neft sənayesində geniş istifadə edilir. – 215-216.

167. 8 **mart Beynəlxalq qadınlar günü** – iqtisadi, ictimai və siyasi bərabərlik uğrunda mübarizədə qadınların beynəlxalq həmrəylik günü. Beynəlxalq qadınlar gününün bayram edilməsi Klara Setkinin təklifi ilə 1910-cu ildə sosialist qadınların 2-ci Beynəlxalq konfransında (Kopenhagen) qərara alınmışdı. İlk dəfə bayram 1911-ci ildə bir sıra Avropa ölkələrində keçirilmişdir, Azərbaycanda isə 1917-ci ildən qeyd edilməyə başlanmışdır. – 217,253-257,258.

168. **Əbülfəs Qarayev**, Ə b ü l f ə s  M ü r s ə l  o ğ l u (d.1956) – ictimai və siyasi xadim, fəlsəfə elmləri namizədi. Sov.İKP MK yanında İctimai Elmlər Akademiyasını bitirmişdir. 1994-cü ildən 2006-cı ilədək Azərbaycan Respublikası Gənclər, İdman və Turizm naziri, 2006-cı ildən Mədəniyyət və Turizm naziridir. Respublika Olimpiya Komitəsinin birinci vitse prezidentidir. Gənclər, İdman və Turizm naziri işlədiyi vaxtda respublikada idmanın və bədən tərbiyəsinin inkişafına ciddi fikir verilmiş, çoxlu idman meydançaları və olimpiya kompleksləri tikilmişdir. – 219.

169. **Gülər Əhmədova**, G ü l ə r  M i k a y ı l  q ı z ı (d.1965) – riyaziyyatçı, psixologiya elmləri namizədi. Heydər Əliyev tərəfindən yara[491-492]dılmış Respublika Uşaq Təşkilatının (1996) sədridir. 2000-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. – 219.

170. **Atəşkəs** – 1994-cü il mayın 12-də Moskvada Ermənistan–Azərbaycan arasında atəşin müvəqqəti dayandırılması (atəşkəs) haqqında müqavilə imzalandı. Müqaviləyə görə müharibə aparan tərəflər sülh müqaviləsi bağlanana qədər atəşin dayandırılması haqqında razılığa gəldilər. – 226,399,449.

171. **Süleymenov Olyas Ömər oğlu** (d.1936) – məşhur qazax şairi, diplomat. Ümumittifaq Lenin komsomolu mükafatı laureatı. «Asiya» əsəri ilə məşhurlaşmışdır. Hazırda Qazaxıstan Respublikasının YUNESKO-da daimi nümayəndəsidir. – 233-239.

172. **Kolbin** Gennadi Vasilyeviç (d.1927) – 1986-89-cu illərdə Qazaxıstan KP MK-nın birinci katibi. Kolbinin Qazaxıstana birinci katib təyin olunması Qazaxıstan ictimaiyyəti tərəfindən narazılıqla qarşılanmış və milli zəmində ixtişaşlara səbəb olmuşdur. – 236,237.

173. **Solomentsev Mixail Sergeyeviç** (d.1913) – Rusiya Federasiyasının partiya və dövlət xadimi. İki dəfə Sosialist Əməyi Qəhrəmanı. 1971-1983-cü illərdə RSFSR Nazirlər Sovetinin sədri, 1983-1991-ci illərdə Sov.İKP MK yanında Partiya Nəzarəti Komissiyasının sədri idi. – 236.

174. **Şərəf Rəşidov**, Ş ə r ə f  R ə ş i d o ğ l u (1917-1983) – Özbəkistanın partiya və dövlət xadimi, yazıçı. İki dəfə Sosialist Əməyi Qəhrəmanı. 1959-83-cü illərdə Özbəkistan KP MK-nın birinci katibi olmuşdur. – 236.

175. **Qazaxıstanda 1986-cı il hadisələri** – G.V Kolbinin Qazaxıstanda birinci katib təyin olunması Qazaxıstan gəncləri tərəfindən narazılıqla qarşılanmış və milli zəmində toqquşmaya səbəb olmuşdur. – 237.

176. **Kunayev Dinmühəmməd**, D i n m ü h ə m m ə d   Ə h m ə d   o ğ- l u (d.1912-1993) – Qazaxıstanın partiya və dövlət xadimi. Qazaxıstan EA-nın akademiki. 1964-86-cı illərdə Qazaxıstan KP MK-nın birinci katibi olmuşdur. – 237.

177. **Berezovski**, B o r i s   A b r a m o v i ç (d.1946) – texnika elmləri doktoru, Rusiya EA-nın müxbir üzvü. Rusiyanın ən böyük oliqarxlarından biri. Hazırda mühacirətdə – İngiltərədə yaşayır. – 240-248. [492-493]

178. **İmaməli Rəhmonov**, R ə h m a n o v   İ m a m ə l i   Ş ə r i f  o ğ – l u (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin sədri olmuşdur. 1992-ci ilin noyabrından Tacikistan Respublikasının prezidentidir. – 241.

179. **Rusiya və Belarus İttifaqı** – 1997-ci ildə təşkil edilmişdir. Burada hər iki ölkənin ali idarəçilik sisteminin vahid pul, sərhəd, parlament yaradılması, rus və belarus xalqlarının birləşməsi və s. nəzərdə tutulmuşdur. – 247.

180. **Rasim Əliyev**, R a s i m   H ə s ə n   o ğ l u (d.1934) – memar. Azərbaycan Respublikası əməkdar memarı. Şərq ölkələri Beynəlxalq Memarlıq Akademiyasının həqiqi üzvü, Rusiya Memarlıq Akademiyasının fəxri üzvü, Azərbaycan Respublikası Dövlət mükafatı laureatı. Akademik Həsən Əliyevin oğludur. 1965-74-cü illərdə Bakı şəhəri Baş memarının birinci müavini, 1974-88-ci illərdə Baş memarı olmuşdur. Bakıda yaşayış binaları, respublika nazirlər kabinetinin qonaq evi, «Xalqlar dostluğu» metro stansiyası (müştərək layihə), Naxçıvanda H.Cavidin məqbərəsinin (müştərək layihə), Bakıda bir sıra xatirə abidələrinin və s. memarlıq layihəsini vermişdir. 1980-88-ci illərdə Azərbaycan Memarlar İttifaqının katibi olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. Azərbaycan Memarlar İttifaqının vitse-prezidentidir. – 249.

181. **Cahangir Əsgərov**, C a h a n g i r   C ə l a l   o ğ l u (d.1950) – təyyarəçi. 1991-93-cü illərdə Aviasiya İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, 1993-96-cı illərdə Dövlət Konserninin Türkiyədə baş nümayəndəsi vəzifələrində işləmişdir. 1996-cı ildən «Azərbaycan Hava Yolları» Dövlət Konserninin baş direktorudur. – 251.

182. **Mirvarid Dilbazi**, M i r v a r i d  P a ş a  q ı z ı (1912-2001) - Azərbaycanın xalq şairi. Şerlərində müasirlərimizin mənəvi zənginliyi, vətənpərvərlik tərənnüm edilir. Azərbaycan Respublikasının «İstiqlal» opdeni ilə təltif olunmuşdur. – 254.

183. **Ziya Bünyadov**, Z i y a   M u s a   o ğ l u (1921-1997) – görkəmli Azərbaycan alimi, şərqşünas-tarixçi, ictimai xadim. Böyük Vətən müharibəsi (1941-45) iştirakçısı, Sovet İttifaqı Qəhrəmanı, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1989-97-ci illərdə Azərbaycan Milli [493-494] Elmlər Akademiyasının vitse-prezidenti, 1995-ci ildən Milli Məclisin deputatı olmuşdur. 1997-ci ildə Azərbaycanın dövlətçiliyinə və müstəqilliyinə düşmən olan qüvvələr tərəfindən xaincəsinə qətlə yetirilmişdir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif edilmişdir. – 258.

184. **Kamran Hüseynov**, K a m r a n   Ə s ə d   o ğ l u (1913-2006) – ictimai və dövlət xadimi. Müxtəlif illərdə Neftçala Rayon Partiya Komitəsinin birinci katibi, Sumqayıt Şəhər Partiya Komitəsinin birinci katibi, Respublika Həmkarlar Şurasının sədri, ÜİHİMŞ-in katibi, Azərbaycan SSR Nazirlər Sovetinin sədr müavini vəzifələrində çalışmışdır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 259,266, 267,268.

185. **Məzahir Abbasov**, M ə z a h i r   H ə m i d   o ğ l u (1918-2002) – vətən müharibəsi qəhrəmanı, tarix elmləri doktoru, professor. Tədqiqatları, əsasən, İkinci dünya müharibəsi haqqındadır. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 259,268.

186. **Tükəzban İsmayılova**, T ü k ə z b a n   M ə h ə r r ə m   q ı z ı  (d.1923) – xalq artisti. Böyük Vətən müharibəsinin iştirakçısı. Uzun müddət Azərbaycan Dövlət Televiziya və Radio Şirkətinin və Filarmoniyanın solisti olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 259,269,273.

187. **Abdulla Muxtarov**, A b d u l l a   İ b r a h i m   o ğ l u (d.1918) fizik. Fizika-riyaziyyat elmləri doktoru, professor. Azərbaycan MEA-nın müxbir üzvü, Tədqiqatları elementar zərrəciklərə və sahə nəzəriyyəsinə aiddir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 259,269.

188. **Yaqub Mahmudov**, Y a q u b   M i k a y ı l   o ğ l u   (d.1939) – tarix elmləri doktoru, professor, Əməkdar elm xadimi. Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü. Müxtəlif illərdə Azərbaycan Sovet Ensiklopediyasında, Bakı Dövlət Universitetində, Ali Attestasiya Komissiyasında məsul vəzifələrdə çalışmışdır. 2004-cü ildən Azərbaycan MEA Tarix İnstitutunun direktorudur. Tədqiqatları Azərbaycanın orta əsrlər tarixinə (Ağqoyunlu və Səfəvi dovlətlərinə), diplomatiya tarixinə və ümumdünya tarixinə aiddir. 2000-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 259,269. [494-495]

189. **Mircəfər Bağırov**, M i r c ə f ə r   A b b a s   o ğ l u (1896-1956) – 1933-53-cü illərdə Azərbaycan KP MK-nın birinci katibi olmuşdur. Bütün SSRİ-də olduğu kimi Azərbaycanda da inzibati-amirlik idarəetmə sisteminin möhkəmləndirilməsinə, totalitar Stalin rejiminin bərqərar olmasına, partiya sıralarını «təmizləmə» adı ilə baş verən repressiyaların həyata keçirilməsinə bilavasitə rəhbərlik etmişdir. – 265.

190. **İqor Moiseyev**, İ q o r   A l e k s a n d r o v i ç (d.1906) – məşhur rus balet artisti, baletmeyster. SSRİ xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət mükafatı laureatı. 1924-39-cu illərdə Böyük Teatrın solisti olmuşdur. Moiseyev xalq səhnə rəqslərinin yaradıcılarındandır. Bütün dünyada «Moiseyev ansamblı» ilə tanınmışdır. – 275.

191. **Elmira Şahtaxtinskaya**, E l m i r a   H ə b i b u l l a   q ı z ı (1930-1996) – rəssam. Azərbaycan Respublikasının xalq rəssamı və əməkdar incəsənət xadimi. H.B.Şahtaxtinskinin qızıdır. Plakat və dəzgah rəsmlərinin müəllifidir. 70-ci illərdə çəkdiyi «Azərbaycan qədim mədəniyyət diyarıdır» plakat silsiləsində Azərbaycanın orta əsrlərdə yaşayıb yaratmış elm və mədəniyyət xadimlərinin (N.Tusi, M.Gəncəvi, İ.Nəsimi, M.Füzuli, Ə. Naxçıvani, S.Məhəmməd v.b.), 70-80-ci illərdə isə müasir sənətkarların (Ü. Hacıbəyov, H.Cavid, S.Vurğun, S.Bəhlulzadə, Q.Qarayev, F.Əmirov və b.) portretlər qalereyasını yaratmışdır. – 278,279.

192. **Azərbaycan Ədəbiyyatı Muzeyi**, Azərbaycan Respublikası MEA Nizami adına Azərbaycan Dövlət Ədəbiyyatı Muzeyi – 1945-ci ildə Nizaminin həyat və yaradıcılığını əks etdirən muzey kimi Bakıda yaradılmışdır. Muzeydə ən qədim zamanlardan müasir dövrədək Azərbaycan əbədiyyatının inkişaf yolu əks etdirilir. Muzeyin ekspozisiyasında 4 mindən çox əlyazması, nadir kitab, yazıçıların xatirə əşyaları, portret, heykəl, illüstrasiya, miniatür, bədii işləmə və s. eksponatlar nümayiş etdirilir. Nizaminin «İsgəndərnamə» poemasının 1413-cü ildə, Füzulinin «Bəngü-Badə» əsərinin 1569-cu ildə köçürülmüş əlyazma nüsxələri ən qiymətli eksponatlardır. Muzeyin qədim və orta əsrlər Azərbaycan ədəbiyyatı, 19-20-ci illər Azərbaycan ədəbiyyatı ekspozisiyaları və elmi fondlar, bədii tərtibat, elmi-kütləvi şöbələri var. Elmi fondlar şöbəsində 70 minə yaxın qiymətli əşya qorunub saxlanılır. – 278.

193. **Zərifə xanım**, Ə l i y e v a   Z ə r i f ə   Ə z i z   q ı z ı (1923-1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb EA-nın akademiki, [495-496] Azərbaycan Respublikasının əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, prezident Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anası. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə Rusiya Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdü. – 279,314-315.

194. **Nizami Gəncəvi**, İ l y a s   Y u s i f   o ğ l u (1141-1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 279,429,430,431,432,434,435,437.

195. **Natəvan**, X u r ş u d b a n u (1832-1897) – tanınmış Azərbaycan şairi. Mehdiqulu xanın qızı, İbrahimxəlil xanın nəvəsidir. «Xan qızı» adı ilə tanınmışdır. Əsərləri dərin səmimiyyəti, incə lirizmi ilə seçilir. Yüksək sənətkarlıq nümunəsi olan şerlərində təkrir, qoşa qafiyə, rədif, məcaz və s. bədii vasitələri məharətlə işlətmişdir. Natəvan həm də istedadlı rəssam olmuşdur. – 280.

196. **Misir Mərdanov**, M i s i r C u m a y ı l o ğ l u (d.1946) fizika-riyaziyyat elmləri doktoru, professor. Tədqiqatları, əsasən, riyaziyyatın müasir sahələrindən biri olan optimal idarəetmə nəzəriyyəsinin aktual problemlərinə həsr edilmişdir. [496-497]

Azərbaycan Respublikası Təhsil Nazirliyi ali təhsil və elm idarəsinin rəisi, Təhsil nazirinin müavini, BDU-nin tədris işləri üzrə prorektoru, BDU-nun rektoru kimi müxtəlif vəzifələrdə çalışmışdır. 1998-ci ildən Azərbaycan Respublikasının Təhsil naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 290.

197. **Azərbaycan Dövlət Tibb Universiteti**, N.Nərimanov adına Azərbaycan Dövlət Tibb Universiteti – Respublikada tibb mütəxəssisləri hazırlayan ali məktəb. 1919-cu ildə Bakı universitetinin nəzdində tibb fakültəsi, 1920-ci ildə isə həmin fakültənin əsasında müstəqil tibb institutu yaradılmışdır. Universitetin 8 fakültəsi var. Universitetdə 6700 tələbə təhsil alır. – 298,324.

198. 1995-**ci il mart hadisələri** – Martın 12-13-də Qazax və Agstafa, martın 16-17-də isə Bakının 8-ci kilometr qəsəbəsində Xüsusi Təyinatlı Polis Dəstələrinin bir qrup üzvünün silahlı çıxışı nəzərdə tutulur. Respublika rəhbərliyinin qəti tədbirləri nəticəsində çevriliş cəhdinin qarşısı alındı və silahlı dəstə tərksilah olundu. – 301,302,306,307,426.

199. **OMON** – 1992-95-ci illərdə Daxili İşlər Nazirliyinin tərkibində olan Xüsusi Təyinatlı Polis Dəstələri (XTRD). – 304,305,306.

200. **ZAQS** – vətəndaşlıq vəziyyəti aktlarının qeydiyyatı (VVAQ) şöbəsi. – 314.

201. **Yusif Məmmədəliyev**, M ə m m ə d ə l i y e v Y u s i f H e y- d ə r o ğ l u (1905-1961) – görkəmli kimyaçı alim. Azərbaycan EA-nın akademiki, SSRİ EA-nın müxbir üzvü, SSRİ Dövlət mükafatı laureatı. Məmmədəliyevin əsas elmi işləri, neftin və neft qazlarının katalitik emalı sahəsindədir. O, benzolu propilenlə alkilləşdirmək yolu ilə izopropilbenzolun sintezi yolunu işləyib hazırlamış, bu da Böyük Vətən müharibəsində aviasiyanın yüksək oktanlı yanacaqla təmin edilməsinə kömək etmişdir. 1947-50-ci və 1958-61-ci illərdə Azərbaycan EA-nın prezidenti olmuşdur. – 314.

202. **Səudiyyə Ərəbistanı**, S ə u d i y y ə Ə r ə b i s t a n ı K r a l- l ı ğ ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 2,15 milyon km², əhalisi 18,4 milyon nəfərdir. Paytaxtı ər-Piyaddır. İnzibati cəhətdən 4 əyalətə [497-498] bölünür.

Səudiyyə Ərəbistanı mütləq teokratik monarxiyadır. Dövlət başçısı kraldır. Ölkədə bütün hakimiyyət krala məxsusdur. İcra orqanı Nazirlər Şurasıdır, Şuranı kral təyin edir və ona başçılıq edir. Hökumətin nəzdində Məşvərət Şurası var. Müsəlmanların iki müqəddəs şəhəri Məkkə və Mədinə Səudiyyə Ərəbistanındadır. – 321-329.

203. **Fəhd ibn Əbdüləziz**, ə l - S ə u d (1922-2005) – 1982-ci ildən iki müqəddəs ocağın xidmətçisi və Səudiyyə Ərəbistanının kralıdır. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 321-322.

204. **Kəbə** - müsəlmanların Məkkədə müqəddəs məbədi. «Qaradaş» Kəbədədir. Kəbə hələ qədimdən bütpərəst tayfalarının məbədi olmuşdur. Müsəlmanlar Məkkəni tutduqdan sonra (630) bütlər məhv edildi və Kəbə müsəlmanların ziyarətgahına çevrildi. Kəbəni ziyarət edənlər hacı adlanır. – 322,323,325,327.

205. **Qurban bayramı** – Müsəlman dünyasında ən əziz bayramlardan biri. Qurban bayramı zil-hiccə ayının 10-cu günü başlayır. Müsəlmanlar bu bayramı islamın əsas şərtlərindən biri – həcc mərasimlərinin yerinə yetirilməsi və böyük Allahın bəndələrinin günahının bağışlanması günü kimi qeyd edirlər. – 323,364-371.

206. **Məkkə** – Səudiyyə Ərəbistanının qərbində şəhər. Salınma tarixi məlum deyildir. İslamın banisi həzrəti Məhəmməd peyğəmbər Məkkədə doğulmuşdur. VII əsrdən müsəlmanların müqəddəs şəhəri və ziyarətgahıdır. – 323,327,328,329,355.

207. **Bəkir Nəbiyev**, B ə k i r Ə h m ə d o ğ l u (d.1930) – ədəbiyyatşünas, filologiya elmləri doktoru, professor, Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının həqiqi üzvü. Azərbaycan Dövlət mükafatı laureatı. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 325.

208. **Məhəmməd (Əleyhüssəlam)** – (570/571-632) – İslamın banisi, siyasi və dövlət xadimi. İslama görə Məhəmməd əleyhüssəlam böyük peyğəmbər və «allahın elçisi» sayılmış, «Qurani-Kərimi» xalqa çatdırmışdır. – 326,364.

209. **Sumqayıt** – Azərbaycanda şəhər. Bakıdan 35 km şimal-qərbdə, Xəzər dənizinin qərb sahilində yerləşir. Sahəsi 83 km$^2$, əhalisi 231,1 min [498-499] nəfərdir. Əvvəllər kiçik yaşayış məntəqəsi olan Sumqayıt, 1938-ci ildə Bakı neft sənayesini elektrik enerjisi ilə təmin edəcək İstilik Elektrik stansiyasının tikintisi ilə şəhər tipli qəsəbəyə çevrildi və get-gedə Bakıdan sonra ölkəmizin ikinci sənaye şəhərinə çevrildi. Sənayesində kimya və metallurgiya sahələri əsas yet tutur. – 337-342.

210. **«Niçimen»** – yapon şirkəti. Azərbaycanda 1993-cü ildən fəaliyyət göstərir, 1997-ci ildə Bakıda öz nümayəndəliyini açmışdır. Şirkət, əsasən qara metallurgiya, yanacaq, elektrotexnika, kimya və yüngül sənaye sahələri ilə məşğuldur. – 340.

211. **Çingiz Aytmatov**, Ç i n g i z T o r e g ü l o ğ l u (d.1928) – görkəmli qızğız yazıçısı. Qırğızıstan Respublikasının xalq yazıçısı. Qırğızıstan və SSRİ Dövlət mükafatları laureatı. SSRİ Yazıçılar İttifaqının (1976-1990) katibi, SSRİ Ali Sovetinin deputatı olmuşdur. İncə lirizm, dərin ictimai psixologizm, obrazların daxili aləminə nüfuz etmək Aytmatovun yaradıcılığının xarakterik xüsusiyyətləridir. İnsan və cəmiyyət problemi yaradıcılığının əsas mövzusudur. – 349.

212. **Sem Braunbek** (d.1956) – hüquqşünas. ABŞ Konqresi Nümayəndələr Palatasının üzvü, 1996-cı ildən senator, Xarici Əlaqələr Komitəsinin üzvü. – 351,352,457.

213. **Vaşinqton şəhəri** – Amerika Birləşmiş Ştatlarının paytaxtı. Ölkənin iri siyasi, elm və mədəniyyət mərkəzi. Şəhər 1791-ci ildə salınmış və ABŞ-ın ilk prezidenti C.Vaşinqtonun şərəfinə adlandırılımışdır. – 352,448,449,457.

214. **Andropov Yuri Vladimiroviç** (1914-1984) – SSRİ-nin partiya və dövlət xadimi. 1967-ci ildən SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin sədri, 1982-1984-cü illərdə Sov.İKP MK-nın Baş katibi olmuşdur. – 356.

215. **Mikoyan Anastas İvanoviç** (1895-1978) – SSRİ-nin dövlət və partiya xadimi. 1918-ci il aprel-mayında «İzvestiya Bakinskoqo Soveta» qəzetinin faktiki redaktoru olmuş, Bakı kommunasının müdafiəsində fəal iştirak etmiş, Bakıda azərbaycanlıların soyqırımına başçılıq etmişdir. 1920-ci ilin aprelində Leninin tapşırığı ilə XI Qızıl ordu ilə Bakıya daxil olmuş və Azərbaycan Xalq Cümhuriyyətinin xitam verilməsində iştirak etmişdir. – 356. [499-500]

216. **Namiq Abbasov**, N a m i q R ə ş i d o ğ l u (d.1940) – general-polkovnik. 1995-2004-cü illərdə Azərbaycan Milli Təhlükəsizliyi naziri olmuşdur. 2004-cü ildən Özbəkistan Respublikasında Azərbaycanın fövqəladə və səlahiyyətli səfiridir. – 358.

217. **Bibiheybət ziyarətgahı** – Bakının Şıx kəndində türbə. Rəvayətə görə, türbədə şiələrin yeddinci imamı Museyi Kazımın qızı Hökumə və onun Heybət adlı nökəri dəfn olunmuşdur. «Bibiheybət» adının da buradan yarandığı güman edilir. Başqa rəvayətə görə, səkkizinci imam Rzanın qızı və bacısı Bakı yaxınlığında məskən salmış, burada da vəfat etmişlər. Onların dəfn olunduğu yerdə türbə, onun yanında isə 20 metrlik minarəsi olan məscid tikilmişdi. Məscidin XIII əsrin sonunda tikildiyi ehtimal edilir. Məscid sovetlər vaxtında yerlə-yeksan edilmişdi. Respublikamız müstəqillik qazandıqdan sonra prezident Heydər Əliyevin təşəbbüsü ilə yenidən tikilmişdir. – 364-371.

218. **Hacı Hikmət Əlizadə (d**.1954) – din xadimi 1994-cü ildən Bibiheybət məscidinin axunduдur. – 364.

219. **Rəfael Allahverdiyev**, A l l a h v e r d i y e v R ə f a e l X a n - ə l i o ğ l u (d.1945) – 1993-2001-ci illərdə Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. 1995-2000-ci illərdə Milli Məclisin deputatı olmuşdur. – 365.

220. **Həzrəti Hökumə**, H ə k i m ə – İmam Rzanın bacısı. VII əsrdə yaşamışdır. Təxminən 1257-ci ildə Şirvanşah Fərrux Zal tərəfindən Bibiheybətdə onun şərəfinə birinci türbə tikilmişdir. – 369.

221. **Puşkin**, A l e k s a n d r  S e r g e y e v i ç (1799-1837) – dahi rus şairi, yeni rus ədəbiyyatının banisi. Puşkin rus ədəbi dilini yeni yüksək zirvəyə qaldırmışdır. Rus poeziyasının «atası olan» (N.Q.Çernışevski) Puşkin novator şair kimi yeni tipli realist şerin, mənzum romanın, tarixi povestin, mənzum hekayə, nağıl və dramın gözəl nümunələrini yaratmışdır. Puşkinin Qafqaz həyatı onun yaradıcılığına müstəsna təsir göstərmiş, şairin bu mövzuda yazdığı əsərlər («Qafqaz əsiri», «Quldur qardaşlar», «Baxçasaray fontanı», «Qaraçılar», «Ərzuruma səyahət») rus ədəbiyyatında yeni səhifə açmışdır. Bakıda Puşkinə abidə qoyulmuşdur. – 375.

222. **Abbas Abbasov**, A b b a s  A y d ı n  o ğ l u (d.1949) – 1992-2006-cı illərdə Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini [500-501] olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 378,382.

223. **Terri Devid Adamc** (1938) – görkəmli ingilis mühəndis-neftçi, geoloq. Əmək fəaliyyətinə 1963-cü ildə başlamışdır. 1969-cu ildən «Britiş Petroleum» şirkətinin bir çox ölkələrdə nümayəndəsi olmuşdur.

1994-1998-ci illərdə Azərbaycan Beynəlxalq Neft Konsorsiumunun ilk prezidenti olmuşdur.

Azərbaycanda səmərəli fəaliyyətinə görə 1997-ci ildə Britaniya krallığının «Müqəddəs Mixail və Müqəddəs Georgi», 1998-ci ildə isə Azərbaycan Respublikasının «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 388-392.

224. **Yuqoslaviya hadisələri** – 1980-ci illərdən başlayaraq Yuqoslaviyada (Yuqoslaviya Federativ Sosialist Respublikası) ciddi iqtisadi və siyasi çətinliklərlə qarşılaşdı. 1991-ci ildə millətlərarası qarşıdurma nəticəsində YFSR parçalandı. Federasiyanın tərkibindən Sloveniya, Xorvatiya, Bosniya və Hersoqovina, Makedoniya çıxdı və müstəqil dövlət oldular. 1992-ci ildə Serbiya və Çernoqoriya Yuqoslaviya Respublikasını (SRY) yaratdılar. 1999-cu ildə Serb hökuməti tərəfindən Kosovoda (Serbiyanın tərkibində) yaşayan albanlara qarşı zorakılığa başlandı və nəticədə etnik qarşıdurma yarandı. Buna görə də NATO aviasiyası tərəfindən bombardman edildi. Məhz bundan sonra Yuqoslaviya öz ordusunu Kosovodan çıxartdı və NATO-nun sülh məramlı ordusu albanları şerblərdən qorumaq üçün Kosovaya girdi. 2002-ci ildə SRY Serbiya və Çernoqoriya adı ilə adlandırıldı. 2006-cı ildə keçirilən referendum nəticəsində Çernoqoriya da Serbiyadan ayrıldı və müstəqil dövlət yaratdı. – 403.

225. **Sartr Jan Pol** (1905-1980) – məşhur fransız yazıçısı, filosof, publisist. Tənhalıq, mütlət azadlıq, həyatın mənasızlığı pyeslərinin və povestlərinin əsas mövzusu olmuşdur. Sartrin idealist fəlsəfəsi ateist ekzistensializminin bir növüdür. Onun dialektikası yalnız şüur sahəsi ilə məhdudlaşır. Əxlaq sahəsində Sartr xalis subyektivlik və fərdiyyətçilik mövqeyində durur. 1964-cü ildə avtobioqrafik «Sözlər» povestinə görə təltif olunduğu Nobel mükafatından imtina etmişdir. – 404.

226. **Oktyabr inqilabı**, Böyük Oktyabr sosialist inqilabı – müasir tarixşünaslıqda Oktyabr çevrilişi də adlanır. 1917-ci il oktyabrın 24-dən 25-nə (noyabrın 6-dan 7-nə) keçən gecə V.İ.Leninin başçılığı ilə bolşeviklər silahlı üsyan edərək Müvəqqəti hökuməti devirdilər. Bunun nəticəsində, V.İ.Lenin [501-502] başda olmaqla, Rusiyada Sovet hökuməti - Xalq Komissarları Soveti yarandı. – 407.

227. **Turqut Özal**, Ö z a l  T u r q u t (1927-1993) –Türkiyənin görkəmli dövlət və siyasi xadimi. 1980-82-ci illərdə Dövlət naziri, 1983-89-cu illərdə Türkiyənin Baş naziri, 1989-93-cü illərdə Türkiyənin prezidenti olmuşdur. – 412.

228. **Mirzə Fətəli Axundov** (1812-1878) – böyük Azərbaycan yazıçısı, dramaturq, materialist – filosof. Axundov Azərbaycan ədəbiyyatı tarixində pyesləri və fəlsəfi əsərləri ilə tanınmışdır. 1850-55-ci illərdə yazdığı altı komediya ilə Azərbaycan və bütün Şərq ədəbiyyatında realist dramaturgiyanın əsasını qoymuşdur. – 412,413.

229. **Fuad Köprülüzadə**, K ö p r ü l ü  M e h m e t  F u a d (1890-1966) – türk filoloqu, publisist və tarixçi. Türkiyə Demokrat Partiyasının yaradıcılarından biri (1946). Türkiyənin xarici işlər naziri (1950-57) olmuşdur. Avropada türk ədəbiyyatşünaslığı məktəbinin yaranması Köprülünün adı ilə bağlıdır. İslam ensiklopediyasının nəşrində fəal iştirak etmiş, türk tarixi, ədəbiyyatı və mədəniyyətinə dair məqalələrin müəllifidir. Azərbaycan ədəbiyyatına, xüsusilə Füzuli yaradıcılığına həsr olunmuş əsərlər yazmışdır. – 413.

230. **Pantürkizm** – XIX əsrin sonu – XX əsrin əvvəllərində yaranmış ideologiya. Türkiyədə pantürkizmin ideoloqu Ziya Göy Alp olmuşdur. Onun «Türkləşmək, islamlaşmaq, müasirləşmək» və s. əsərlərində türkdilli xalqların eyni millət olduğu və Türkiyənin himayəsi altında vahid dövlətdə birləşməsi geniş təbliğ

olunmuşdur. Azərbaycanda pantürkizmin fəal təbliğatçıları XX əsrin əvvəllərində Əzmədbəy Ağayev, Əlibəy Hüseynzadə idi. – 416,417.

231. **Panislamizm** – XIX əsrin sonlarında Yaxın və Orta Şərqdə yaranmış dini-siyasi ideologiya. Türkiyədə meydana gəlmiş və müsəlman ölkələrində yayılmışdır. Panislamizm milliyyətindən asılı olmayaraq bütün müsəlman xalqların vahid dövlətdə birləşməsini təbliğ edirdi. – 416,417.

232. **Nəsimi**, əsl adı S e y i d Ə l i (1369-1417) – böyük Azərbaycan şairi və mütəfəkkiri. İmadəddin Nəsimi adı ilə də məşhurdur. Əsərlərini [502-503] Azərbaycan, ərəb, fars dillərində yazmışdır. Hürufiliyi yaydığı üçün Hələbdə həbs olunmuş, «kafir», «dinsiz» elan edilərək ruhanilərin fitvası ilə vəhşicəsinə edam edilmişdir. – 430,432.

233. **Füzuli**, M ə h ə m m ə d S ü l e y m a n o ğ l u (1494-1556) – Azərbaycanın dahi şairi və mütəfəkkiri. Azərbaycan, fars və ərəb dillərində qəsidə, müsəddəs, rübai, qitə və s. yazmışdır. Aşiqanə qəzəlləri ilə lirik şair kimi şöhrətlənmişdir. Yaradıcılığının zirvəsi olan «Leyli və Məcnun» poeması Azərbaycan, eləcə də Şərq və dünya poeziyasının nadir incilərindəndir. Kərbəlada dəfn edilmişdir. – 430.

234. **Zirab Jvaniya** (1953-2005) – Gürcüstanın siyasi və dövlət xadimi. 1989-cu ildə Gürcüstanda «Yaşıllar» hərəkatını, sonra isə eyni adlı partiyanı yaratmış və onun ilk sədri olmuşdur. 1992-95-ci illərdə Gürcüstan parlamentinin deputatı seçilmiş, 1995-ci ildə spiker vəzifəsini tutmuşdur. 1999-cu il seçkilərdən sonra yenidən bu vəzifəyə seçilmiş, amma iki ildən sonra istefa vermişdir. 2002-ci ildən «Birləşmiş demokratlar» partiyasına rəhbərlik etmişdir. 2003-cü ilin noyabrında məxməri inqilabın təşkilatçılarından biri olmuş və Baş nazir təyin edilmişdir. – 431.

235. **Suslov Mixail Andreyeviç** (1902-1982) – SSRİ-nin siyasi xadimi. 1947-ci ildən MK katibi, MK üzvü, Siyasi Büronun üzvü olmuşdur. Suslov sovet cəmiyyətinin inkişafının mühüm ictimai-siyasi və ideya-nəzəri məsələlərinin işlənib hazırlanmasında mühüm rol oynamışdır. – 434,435.

236. **Abay Kunanbayev** (1845-1904) – görkəmli qazax şairi, maarifçi, qazax realist yazılı ədəbiyyatının banisi. – 434.

237. **İçərişəhər** – Bakının qala divarları ilə əhatə olunan qədim hissəsi. Ərazisi 22 hektardır. İçərişəhər ərazisində iki mədəni təbəqə müəyyənləşdirilmişdir. XIV-XVII əsrləri əhatə edən üst təbəqədən düzbucaqlı və dördkünc yaşayış evlərinin qalıqları, VIII-XIII əsrlərə aid alt təbəqədən düzbucaqlı formalı kiçik otaqların qalıqları, quyular və s. aşkar edilmişdir.

İçərişəhər orta əsrlərdə Bakının əsas mərkəzinə çevrilmiş, XII əsrdə burada ilk qala divarları çəkilmişdir. Bu divarlar 25-30 m dənizin içərisinə uzanaraq İçərişəhərin qarşısında qapalı liman əmələ gətirmişdi. İçərişəhərin üç əsas – Şamaxı, Salyan və dəniz sahilinə açılan darvazası olmuşdur. İçərişəhərdəki Sınıqqala (1078), Qız qalası və s. abidələr İçə[503-504]rişəhərin əvvəllər dənizə yaxın sahədə inkişaf etdiyini göstərir. XV əsrdə Şirvanşahlar sarayı tikilmişdir. XVII əsrdə İçərişəhərdə çoxlu karvansara və ticarət binası inşa edilmişdi, XVIII əsrdə isə Xan sarayı tikilmiş, yeni su kəmərləri çəkilmişdi. XIX əsrdə və XX əsrin əvvəllərində İçərişəhərin plan quruluşu dəyişdirilmədən köhnə binaların yerində əsaslı daş binalar tikilmişdir. Bu zaman qala divarlarının ikinci sırası sökülmüş və yalnız Şamaxı darvazasının yanında 2-ci darvaza tikilmişdir (1888). Beləliklə, qoşa qarvaza əmələ gəlmişdir. 1977-ci ildə İçərişəhər Azərbaycan memarlığı tarixi qoruğuna çevrilmişdir. – 436, 443.

238. **Qəzənfər Xalıqov**, Q ə z ə n f ə r Ə l ə k b ə r o ğ l u (1898-1981) – Azərbaycan Respublikasının xalq rəssamı. Boyakarlıq, qrafika və teatr rəssamlığı sahəsində fəaliyyət göstərmişdir. Nizami Gəncəvinin 800 illiyi ilə əlaqədar Xaliqov dahi şairin portretini yaratmışdır. Xalıqov Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyinin interyer tərtibatı müəlliflərindəndir. – 437.

239. **Fuad Həsən oğlu Əbdürrəhmanov** (1915-1971) – Azərbaycan heykəltəraşı, Azərbaycan Respublikasının xalq rəssamı, SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü, iki dəfə SSRİ Dövlət mükafatı laureatı. Əbdürrəhmanov mahir portret ustası kimi tanınmışdır. Onun yaradıcılığında monimental heykəltəraşlıq mühüm yer tutmuşdur. Nizaminin Gəncədəki və Bakıdakı abidələri, Bakıda S.Vurğunun abidəsi və s. əsərləri Azərbaycan monimental heykəltəraşlığının ən yaxşı nümunələrindəndir. – 437.

240. **Mikayıl Abdullayev**, A b d u l l a y e v M i k a y ı l H ü s e y n o ğ l u (1921- 2002) – görkəmli Azərbaycan rəssamı. Azərbaycan təsviri sənətinin inkişafında mühüm rol oynamışdır. SSRİ xalq rəssamı, SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü, Azərbaycan Dövlət və Beynəlxalq Nehru mükafatları laureatıdır. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 437.

241. **Tokay Məmmədov**, T o k a y H ə b i b o ğ l u (1927- ) – Azərbaycan Respublikası xalq rəssamı və əməkdar incəsənət xadimi. Azərbaycan və SSRİ Dövlət mükafatları laureatı, SSRİ Rəssamlıq Akademiyasının müxbir üzvü Azərbaycan Rəssamlar İttifaqı İdarə heyətinin sədri (1970-72) olmuşdur. Monimental heykəltəraşlıq T.Məmmədovun yaradıcılığında mühüm yer tutur. –437. [504-505]

242. **İbrahim Zeynalov**, İ b r a h i m İ s m a y ı l o ğ l u (1934) – heykəltəraş. Azərbaycan Respublikası əməkdar incəsənət xadimi. Azərbaycan Respublikası və SSRİ Dövlət mükafatları laureatı. Heykəltəraşlığın müxtəlif janrlarında əsərlər yaratmışdır. – 437.

243. **İtaliya**, İ t a l i y a R e s p u b l i k a s ı – Avropanın cənubunda dövlət. Ərazisinə Alp dağlarının qərb yamacları, Radan düzənliyi, Apennin yarımadası, Siciliya və Sardiniya adaları daxildir. Sahəsi 301 min km², əhalisi 57,5 milyon nəfərdir. Paytaxtı Roma şəhəridir. İnzibati cəhətdən 20 vilayətə bölünür. – 439-444.

244. «**Eni-Acip**» – İtaliyanın iri neft şirkətlərindən biri. Neftin kəşfiyyatı, çıxarılması və emalı ilə məşğul olur. – 440.

245. **Roma** – İtaliyanın paytaxtı. Ölkənin siyasi, mədəni və iqtisadi mərkəzi. Dünyanın ən qədim şəhərlərindəndir. Onu «əbədi şəhər» də adlandırırlar. Ərazisində Vatikan dövləti yerləşir. Romanın adı şəhərin əfsanəvi banilərindən biri Romulun adından götürülmüşdür. E.ə. VI əsrin sonundan Roma quldarlıq respublikasının, e.ə. I əsrdən Roma imperiyasının, 1871-ci ildən Birləşmiş İtaliya krallığının, 1946-cı ildən isə İtaliya Respublikasının paytaxtıdır. – 444.

246. **Neapol şəhəri** – İtaliyanın cənubunda şəhər. Ölkənin mühüm iqtisadi və mədəniyyət mərkəzi, hərbi-dəniz bazasıdır. Neapol Bakı ilə qardaşlaşma şəhərdir. (1972). Neapol şəhərinin əsası Neapolis adı ilə e.ə. 7 əsrdə yunanlar tərəfindən qoyulmuşdur. – 444.

247. **Kaprı** – Tirzen dənizində, Neapol körfəzinin cənubunda ada. – 444.

248. **Sardiniya** – İtaliyada vilayət. Sardiniya adalarını və yaxınlıqdakı kiçik adaları əhatə edir. Sahəsi 24,1 min km², əhalisi 1,6 milyon nəfərdir. Əsas şəhəri Kalyaridir. – 444.

**249. Devid Vuqvord** (d.1946) – neftçi-mühəndis, 1999-cu ildən «BP-Azərbaycan» şirkətinin prezidenti. Bir çox ölkələrdə – Ərəb əmirliklərində, Norveç, Rusiya və ABŞ-da «BP» şirkətinin nümayəndəsi vəzifələrində işləmişdir. İngiltərənin «Müqəddəs Mixail və Müqəddəs Çeorgi», Gürcüstanın «Şərəf», Azərbaycan Respublikasının «Şöhrət» ordenləri ilə təltif olunmuşdur. – 445-446. [505-506]

**250. Araz Əzimov**, A r a z B ö y ü k a ğ a o ğ l u (d.1962) – diplomat, fövqəladə və səlahiyyətli səfir. 1994-cü ildən Azərbaycan Respublikası xarici işlər nazirinin müavinidir. – 447.

251. **Madlen Olbrayt** (d.1937) – ABŞ-ın tanınmış diplomatı və dövlət xadimi. 1989-cu ildən ABŞ-ın Milli Siyasət Mərkəzinin prezidentidir. 1993-cü ildə ABŞ-ın BMT-dəki daimi nümayəndəsi təyin edilmişdir. 1997-2000-ci illərdə ABŞ-ın Dövlət katibi olmuşdur. – 450.

252. **ABŞ Departamenti**, ABŞ Dövlət Departamenti – ABŞ-da 1789-cu ildən Xarici İşlər Nazirliyi funksiyasını həyata keçirən əsas xarici siyasət idarəsi, dövlət katibi başçılıq edir, prezidentin və Konqresin hazırl adığı xarici siyasi xətti həyata keçirir. – 447,451.

253. **Pasxa bayramı** – yəhudi və xristian bayramı. Pasxa əvvəllər yəhudilərin Misirdən «çıxıb getmələri» münasibətilə, sonra isə yəhudi xalqının xilaskarının zühurunu gözləməklə, xristianlıqda isə İsanın iztirabları, din yolunda fəda olunması, onun ölümü və yenidən dirilməsi ilə əlaqələndirilir. Əvvəllər yəhudi və xristian pasxaları eyni vaxta təsadüf edirdi. 325-ci ildə Ümumdünya xristian yığıncağı xristian pasxasını yəhudi pasxası qurtarandan bir həftə sonra qeyd etməyi qərara aldı. Bu tarix aprelin 4-dən mayın 8-dək olan dövrə təsadüf edir. – 453-454. [506]

# Şəxsi adlar göstəricisi


| | |
|---|---|
| **Abasov Məzahir** | – 259,268 |
| **Abay** | – 434 |
| **Abbasov Abbas** | – 378,382 |
| **Abbasov Natiq** | – 358 |
| **Abdullayev Mikayıl** | – 437 |
| **Abrkayev Nurtay** | – 348 |
| **Adams Terri** | – 388-392 |
| **Axundov Mirzə Fətəli** | – 412,413 |
| **Akayev Əsgər** | – 67,68,349 |
| **Aleksandr (yepiskop)** | – 159-166 |
| **Aleksı II** | – 72,159,162,166 |
| **Allahverdiyev Rəfael** | – 365 |
| **Almatov Zakircan** | – 347 |
| **Alpay Miktat** | – 347 |
| **Anar** | – 128,130,172,173,177,435 |
| **Andropov Yuri** | – 356 |
| **Araslı Həmid** | – 172 |
| **Aşirkulov Misir** | – 348 |
| **Atatürk Mustafa Kamal** | – 101,404-417 |
| **Ayətullah Xamnei** | – 141 |
| **Aygün** | – 315 |
| **Aytmatov Çingiz** | – 349 |
| **Azər** | – 315 |
| **Babkov** | – 66 |
| **Bağırov Mircəfər** | – 265 |
| **Bakatin** | – 66 |
| **Baybakov Nikolay** | – 259-265,266,267,268 |
| **Bayramov Novruz** | – 265 |
| **Berezovski Boris** | – 240-248 |
| **Bədirbəyli Leyla** | – 7-8,259,273 |
| **Bikroft Robert** | – 447-452 |
| **Bleyer Toni** | – 179 |
| **Braunbek Sem** | – 351,352,357 |
| **Buqayev Boris** | – 249 [507-508] |
| **Bülbül** | – 130,173 |
| **Bünyadov Ziya** | – 258 |
| **Bünyadova Tahirə** | – 258 |
| **Cəm İsmayıl** | – 44-45,47 |
| **Çağlar Cavid** | – 64 |
| **Çətin Hikmət** | – 38-39,47,52,62,69-70,77,78 |
| **Debeyki Maykl** | – 85 |
| **Dəmirəl Nəzmiyyə** | – 42-43 |
| **Dəmirəl Süleyman** | – 33-37,42-43,46,47,48,52,53,54, 55,58,62,69-70,73,76,77,78,80,83, 87,91,92,93,95,96,97,99-100,105, 106,108,109,117-118,119,186,187, 188,192,193,194,195,281,343,347, 350,412 |
| **Dəmirçizadə Əbdüləzəl** | – 172 |
| **Dilbazi Mirvarid** | – 254 |
| **Doğramacı İhsan** | – 26 |
| **Dreyfus Ruf** | – 211 |
| **Dzasoxov Aleksandr** | – 24 |
| **Ecevit Bülənd** | – 40-41,47,52,62 |
| **Əbdülhəmidova Naida** | – 276-277 |
| **Əbdürəhmanov Əbduqafur** | – 155-158 |
| **Əbdürrəhmanov Fuad** | – 437 |
| **Əfəndiyev Elçin** | – 77-78,82,130,177,435,436 |
| **Əfəndiyev İlyas** | – 130 |

**Əhmədova Gülər** – 219
**Ələkbərov Ələsgər** – 173
**Ələsgərov Murtuz** – 56,141
**Ələsgərov Süleyman** – 197-198,259,272
**Ələsgərov Valeh** – 201
**Əliyev Cəlal** – 58
**Əliyev Cəmil** – 53,58
**Əliyev İlham** – 53,55,58,80,86
**Əliyev Natiq** – 201
**Əliyev Rasim** – 249
**Əliyev Vəli** – 153
**Əliyeva Zərifə xanım** – 279,314-315
**Əlizadə Hacı Hikmət** – 218
**Əlizadə Samət** – 172 [508-509]
**Əmir Teymur** – 169,434
**Əsgərov Cahangir** – 251
**Əzimov Araz** – 447
**Fərəcova Kübra** – 5-6
**Fəhd ibn Əbdüləziz** – 321-322
**Füzuli Məhəmməd** – 430
**Hacıbəyov Üzeyir** – 173,197
**Harin Halid** – 194
**Harmankaya Çətin** – 95-98
**Hauzer Pobert** – 28
**Həsənov Əli** – 28
**Həsənov Məhərrəm** – 25
**Həzrəti Hökumə** – 369
**Hüseynov İsa** – 129
**Hüseynov Kamran** – 259,266,267,268
**Hüseynova Səbinə** – 219
**Xalıqov Qəzənfər** – 437
**Xanlarova Zeynəb** – 83
**Xatəmi Məhəmməd** – 141
**Xəlil Rza** – 128
**Xruşşov Nikita** – 67
**Xoyski Fətəli Xan** – 144
**İbrahimbəyov Maqsud** – 129,130,131,133
**İbrahimbəyov Rüstəm** – 122-123,124-133
**İxiilov Semyon** – 162
**İnoyatov Rüstəm** – 347
**İnsanov Əli** – 54
**İsayev Fikrət** – 228
**İsmayılov Mahmud** – 148
**İsmayılova Tükəzban** – 259,269,273
**İvanov İqor** – 402,403
**Jvaniya Zurab** – 431
**Kərimov İslam** – 69,78,155,156,183,241,246,347
**Kifayət** – 315
**Kissincer Henri** – 14-23
**Kıvrıqoğlu Hüseyn** – 77
**Klestil Tomas** – 212
**Klinton Bill** – 18,21,36,37,134-138,199,202
**Koçaryan Robert** – 241,394,402,403 [509-510]
**Kolbin** – 236,237
**Köpruluzadə Fuad** – 413
**Kocamonçu Sahab** – 195
**Kuçma Danil** – 419
**Kunayev Dinmühəmməd** – 237
**Qaradayı İsmayıl Haqqı** – 74,75-76
**Qarayev Əbülfəs** – 219
**Qasımov Əfras** – 323

**Qorbaçov Mixail** – 65,66,236,237,238
**Quliyev Eldar** – 125
**Qumbaridze Zurab** – 418-427
**Lenin** – 128,129
**Loğoğlu Osman Faruq** – 91-92
**Lujkov Yuri** – 87,372-384
**Mahmudov Yaqub** – 259,269
**Maqomayev Müslüm** – 131
**Maqsudov Fəraməz** – 177,435,436
**Martelli Valentino** – 441-442,443-444
**Matske Riçard** – 203-205
**Mayma İosif** – 202
**Mehdiyev Ramiz** – 276
**Məhəmməd (Əleyhüssəlam)** – 326,364
**Məmmədəliyev Yusif** – 314
**Məmmədxanov Anar** – 131
**Məmmədov** – 267
**Məmmədov Tokay** – 437
**Məmmədyarov Əli** – 323
**Mərdanov Misir** – 290
**Mikoyan Anastas** – 356
**Mir Möhsün Ağa** – 383
**Moiseyev İqor** – 275
**Muxtarov Abdulla** – 259,269
**Morninqstar Riçard** – 199-202
**Nağıyev Əli** – 83
**Natəvan** – 280
**Nazarbayev Nursultan** – 69,77,237,348
**Nəbiyev Bəkir** – 325
**Nərimanov Nəriman** – 128,129,152
**Nəsimi** – 430,432 [510-511]
**Niyazov** – 190,201,202,241,349
**Nizami** – 279,429,430,431,432,434,435,437
**Ocalan Abdullah** – 187
**Olbrayt Madlen** – 450
**Orconikidze Qriqori** – 152
**Ozankaya Özer** – 404,405,415,417
**Özal Turqut** – 412
**Paşazadə Hacı Allahşükür** – 71-74,162,322,364-371
**Piriyeva Zərifə** – 324
**Polad Bülbüloğlu** – 130,131,349,436
**Primakov Yevgeni** – 69,87,398-400,403
**Puşkin Aleksandr** – 375
**Ramp Stiv** – 179,181,182
**Rasizadə Artur** – 27,28,48,53,115,251
**Rəfibəyli Nigar** – 190
**Rəhimzadə Arif** – 78
**Rəhmonov İmaməli** – 241
**Rəsul Rza** – 130
**Rəşidov Şərəf** – 236
**Rifkind Malkom** – 178,179,180
**Ruba xanım** – 315
**Sadıqzadə Oqtay** – 213-214,259,278-280
**Salahov Tahir** – 131
**Sartr** – 404
**Sədəs-Səəd** – 326
**Səməd Vurğun** – 130,173
**Səyyadov Akif** – 267
**Solomentsov Mixail** – 236
**Stalin** – 152,263,265,355,416
**Soysal Oqan** – 195

**Suslov Mixail** – 434,435
**Suver Akkan** – 186,194
**Süleymenov Olyas** – 233-239
**Şahtaxtinskaya Elmira** – 278,279
**Şahtaxtinski Behbud Ağa** – 153
**Şaxanov** – 349
**Şayahmətov** – 327
**Şaymiyev Mintemir** – 69 [511-512]
**Şevardnadze Eduard** – 121,182,241,246,395-397,418, 419,426,427
**Talıbov Vasif** – 149
**Ter-Petrosyan Levon** – 136
**Təhmasib Məmmədhüseyn** – 172
**Tırmıyev Tırkeş** – 349
**Tuqay** – 315
**Vahabzadə Bəxtiyar** – 81,82,83,128
**Vaqif Molla Pənah** – 173
**Vəkilov Vaqif** – 130
**Varennikov** – 66
**Vudvord Devid** – 445-446
**Yasa Sevtar** – 404,405,415,417
**Yazov** – 66
**Yeltsin Boris** – 184,381,383,401
**Yılmaz Məsud** – 83,93-94,188
**Yusif Səmədoğlu** – 130
**Zeynalov Fərhad** – 172
**Zeynalov İbrahim** – 437
**Ziba xanım** – 315 [512-513]

## Coğrafi adlar göstəricisi


| | |
|---|---|
| **Abşeron (yarımada)** | – 180 |
| **Ağdam** | – 320 |
| **Ağstafa** | – 305 |
| **Almatı** | – 234,236,237 |
| **Alp (dağlar)** | – 211,212 |
| **Amerika (qitə)** | – 81 |
| **Amerika Birləşmiş Ştatları** | –14-23,36,37,134-138,189,199-202, 227,284,318,351,447-452,457 |
| **Ankara** | – 33-102,108,117,119,202,350,405, 425 |
| **Asiya** | – 351 |
| **Astana** | – 169,343,348 |
| **Aşqabad** | – 243 |
| **Avropa** | – 17,81,214,246,351,416 |
| **Avstriya** | – 212 |
| **Bakı** | – 6,8,13,14,22,24,25,26,32,33,34, 37,38,48,51,57,64,65,66,67,70,71, 72,73,76,85,87,105,108,110,111, 112,117-118,121,123,133,138,156, 157,159,160,161,162,178,181,182, 183,184,188,191,193,194,200,201, 204,211,212,214,216,234,240,249-252,260,262,303,315,331,335,343, 347,349,350,352,364,374,378,384, 387,396,397,413,416,418,420,423, 424,425,426,427,428,439,444,445, 446,446,448,451,453,454,457 |
| **Balaxanı** | – 264 |
| **Balakən** | – 271 |
| **Barvixa** | – 66 |
| **Belarus** | – 242,247 |
| **Bibiheybət** | – 364-371 [513-514] |
| **Biləsuvar** | – 311,323 |
| **Böyük Britaniya** | – 178-182,189 |
| **Balkan (yarımada)** | – 70 |
| **Ceyhan** | – 22,37,38,70,189,190,191,201,204, 350,423,424 |
| **Cəbrayıl** | – 318,320 |
| **Cənubi Qafqaz** | – 151,380,381 |
| **Çeçenistan** | – 72,161,162,165,238 |
| **Çexoslovakiya** | – 67 |
| **Çin** | – 157 |
| **Dağıstan** | – 72,161,162,165,274-277 |
| **Dağlıq Qarabağ** | – 17,20,65,134,135,136,137,147, 151,152,238,344,386,399 |
| **Daşkənd** | – 169,343 |
| **Denver** | – 135 |
| **Əfqanıstan** | – 348 |
| **Əlcəzair** | – 77,100 |
| **Əli Bayramlı** | – 180,323 |
| **Ərzurum** | – 79 |
| **Fransa** | – 17,136,137,227,318,449 |
| **Füzuli** | – 271,320 |
| **Göynük (kənd)** | – 271 |
| **Gürcüstan** | – 121,151,156,181,182,189,204, 241, 275,350,395-397,418-427,451 |
| **Xəzər dənizi** | – 17,29,63,72,159,160,161,162,165, 188,189,190,201,202,204,264,351, 388,389,391,392,396,420,423,446 |
| **Xocalı** | – 206-210,271 |
| **İngiltərə** | – 189 |
| **İran** | – 89, 139-142,151,391 |
| **İrəvan** | – 144,148 |

**İrəvan xanlığı** – 144,148,152
**İstanbul** – 63,79,185,188,234,413
**İsveçrə** – 211
**İzmir** – 412
**İtaliya** – 439-444
**Kapi** – 444
**Kəlbəcər** – 320
**Kərkicahan** – 271 [514-515]
**Kirovabad** – 265
**Komi Respublikası** – 267
**Kosovo** – 70,394
**Krasnodar** – 263,264
**Küveyt** – 73
**Qafqaz** – 20,63,160,161,165,191,244,384, 396,407,425,444,450,451,455
**Qax** – 271
**Qara dəniz** – 188,204,389,390,451
**Qars** – 79
**Qazax** –305
**Qazaxıstan** – 69,73,77,169,189,190,204,205, 233-239,343,348,391,425,434
**Qırğızıstan** – 69,157,169,348,349,434
**Qobustan** – 23,436
**Qroznı** – 263
**Qubadlı** – 271,320
**Qusar** – 277
**Laçın** – 271,320
**Leninqrad** – 431
**Lənkəran** – 271
**London** – 180
**Macarıstan** – 67
**Mədinə** – 327,328,329
**Məkkə** – 323,327,328,329,355
**Mərkəzi Asiya** – 345
**Mingəçevir** – 71
**Moldova** – 238
**Moskva** – 34,49,53,57,59,61,66,67,72,76,79, 82,83,87,97,105,106,127,128,152, 166,171,193,234,237,240,244,245, 247,356,357,372-384,395-403,413, 435,448,450
**Naxçıvan** – 50,57,73,79,111
**Naxcçıvan Muxtar Respublikası** – 41,143-154
**Neapol** – 444
**Neftçala** – 180
**Nijni-Taqil** – 267
**Novorossiysk** – 188,389,420,423,425,426,451 [515-516]
**Nyu-York** – 14,15
**Orta Asiya** – 73,82,191
**Özbəkistan** – 69,155-158,183,189,237,241,246, 345,347,348,425,434
**Paris** – 349
**Poti** – 156,39,419,420
**Ramana** – 264
**Roma** – 234,444
**Rostov** – 67,264
**Rusiya** – 17,22,53,54,65-68,69,72,87,88,89, 113,135,137,150,151,152,159,160, 165,166,184,191,218,227,237,242, 243,247,260,262,275,276,289,292, 372-384,391,394,395-403,405,407, 413,414,448,450
**Sabunçu** – 260,264
**Sakit okean** – 157

**Salyan** – 180
**Samara** – 184
**Sardiniya** – 444
**Səudiyyə Ərəbistanı** – 72,74
**Stalinqrad** – 264
**Sumqayıt** – 337-342
**Supsa** – 181-182,188,388,396,397,418, 420,423,424,425,426,427,445,446, 451
**Şəki** – 271
**Şimali Qafqaz** – 160,161,164,236,264
**Şimali Osetiya- Alaniya Respublikası** – 24
**Şirvan (bölgə)** – 180
**Şuşa** – 273,320
**Tacikistan** – 241,348
**Tatarıstan** – 69
**Tbilisi** – 152,424,448
**Tehran** – 141
**Türkmənistan** – 190,191,200,202,241,349,350,391
**Türkiyə** – 22,33-102,104,105,106,107,108, 109,117-118,119,151,185-196,281, 340,343,347,350,351,404-417,425 [516-517]
**Ukrayna** – 242
**Varşava** – 455
**Vaşinqton** – 352,448,449,457
**Yaponiya** – 189,190,339,340
**Yerevan** – 448
**Yuqoslaviya** – 403
**Zaqafqaziya** – 148,150,152,380,381,382,383,384
**Zəngəzur** – 144,153
**Zəngilan** – 320 [517]

| | |
|---|---|
| **Kitabı çapa hazırlayan** | ***Tofiq Babayev*** |
| **Rəssamı** | ***Fuad Fərəcov*** |
| **Texniki redaktoru** | ***Zoya Nəcəfova*** |
| **Yığım üzrə operator** | ***İlhamə Kərimova*** |
| **Kompüter tərtibatı** | ***Məhəbbət Orucov*** |

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 60x90 1/16. Ofset kağızı 1. Şərti çap vərəqi 33,0. Uçot vərəqi 33,5. Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı – Mehdi Hüseyn küç. 61. dalan 2/3.
“Qismət» Nəşriyyat, Poliqrafiya və Ticarət LTD tərəfindən çap olunmuşdur.